
NATIONAL BESTSELLER



David Nicholls

Bir Gün

"Hər bir oxucu bu kitaba heyran olacaq. Hər bir yazıçı isə bu kitabı özünün yazmış olmasını arzulayacaq"

– Toni Parsons –

Telegram: @cinciva

"Belfast Telegraph"
belə yazır:
"Bir gün"ün üstündə
Səhiyyə Nazirliyinin
bu xəbərdarlığı
yazılmalıdır:
"Bu kitab son dərəcədə
alışqanlıq yarada
bilər..."

Seçimi oxuculara
buraxsaq da, sıradan
BİR GÜNÜN
həyatımızdakı yerini
bilmək istəyənlərin
seçimini qabaqcadan
görmək elə də
çətin deyil...

Telegram: @cinciva

David Nicholls

Bir Gün

AZ-276268

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Telegram: @cinciva

David Nicholls

One Day

Telegram: @cinciva

Roman universitet tələbələrinin Məzun gecəsində – 15 iyul 1988-ci ildə Müqəddəs Svitin günündə təsadüfən tanış olan iki gəncdən – Emma ilə Deksterdən bəhs edir. Yarımçıq qalmış bir gecənin sabahı ayrılırlar. Hərə öz yetkin ömrünü qurmaq yoluna qədəm qoyur. Və bundan sonra müəllif iyirmi il ərzində iki adamın Bir Gününü, həm də məhz iyulun 15-də, Müqəddəs gündə anlatmaqla romanı davam etdirir; yazıçı üçün iki insan həyatını bir günün dar yuvasına sığdırmaqla təsvir etməsi son dərəcə çətin görünən vəziyyət olsa da, bu, oxucu üçün misilsiz həzz qaynağına çevrilir.

"Hər bir oxucu bu kitaba heyran olacaq. Hər bir yazıçı isə bu kitabı özünün yazmış olmasını arzulayacaq", – David Nikolsun BİR GÜN romanı haqda deyilən bu sözlər tanınmış ingilis yazıçı-publisisti Toni Parsonsa aiddir. Bir yandan isə "Belfast Telegraph" belə yazır: *"Bir gün"ün üstündə Səhiyyə Nazirliyinin bu xəbərdarlığı yazılmalıdır: "Bu kitab son dərəcədə alışqanlıq yarada bilər..."* Seçimi oxuculara buraxsaq da, sıradan BİR GÜNÜN həyatımızdakı yerini bilmək istəyənlərin seçimini qabaqcadan görmək elə də çətin deyil...

Telegram: @cinciva

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., II Alatava 9.
Tel.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az

David Nicholls **BİR GÜN**
Bakı, Qanun Nəşriyyatı, 2012

İngilis dilindən tərcümə: Pərviz Cəbrayıl, Nilufər Muğantürk

Azərbaycan dilində müəllifin adı: David Nikols

© Qanun Nəşriyyatı, 2012
Copyright © David Nicholls, 2009

ISBN 978-9952-26-262-9

Bu kitabın Azərbaycan dilinə tərcümə və
yayın hüquqları Qanun Nəşriyyatına məxsusdur.
Kitabın təkrar və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli
hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa ziddir.

Telegram: @cinciva

Maks və Romi, böyüdüyünüz zaman üçün...
Bir də həmişəki kimi Hannaya

Telegram: @cinciva

Telegram: @cinciva

Günlər nədən ötrüdü?
Yaşadığımız yerdi günlər.
Gəlib oyandırırlar
Bizi heç dayanmadan.
Şad olacağımız yerlədi:
Günlərsiz harda yaşarıq?
Bu sualın cavabını
Uzun palto geyinmiş
Keşişlə həkim gətirər
Zəmiləri aşaraq.

Filip Larkin, *"Günlər"*

Telegram: @cinciva

Telegram: @cinciva

BİRİNCİ HİSSƏ

1988 – 1992

20 – 25

"Mənimçün böyük dəyişikliklərə səbəb olduğuna görə unudulmaz sayılacaq bir gündü. Ancaq hər kəsin həyatında olur belə günlər. Təsəvvür eləyin, hansısa bircə günü həyatınızdan çıxarıb atsaydınız, həyatınız necə də bambaşqa olardı. Bu sətirləri oxuyanda bir anlıq dayanın və dəmirdən, qızıldan, tikanlardan, ya elə çiçəklərdən hörülmüş uzun bir zənciri gətirin xəyalınıza ki, həmin o unudulmaz gündə ilk halqası yaranmasaydı, bu zəncir sizi birbirinizə bağlaya bilərdimi?"

Çarlz Dikkens, *"Böyük ümidlər"*

Telegram: @cinciva

Telegram: @cinciva

I fəsil

Gələcək

15 iyul. 1988-ci il. Cümə

Renkeylor küçəsi, Edinburq

– Məncə, ən vacib şey özündən sonra bir iz qoymaqdı, – qız dedi. – Başa düşürsənmi, yəni, həqiqətən, nələrisə dəyişmək.

– *Dünyanı dəyişdirmək-filan*?

– Bütün dünyanı yox. Sadəcə, öz çevrəmizi.

Bir müddət təkadamlıq yataqda qucaqlaşıb, bir-birinə sarılaraq səssiz yatandan sonra sabah ağzı ikisi də səslərini qısa-qısa gülməyə başladı.

– Bunu dediyimə inana bilmirəm, – qız pıçıldadı. – Bir az bayağıdı, yox?

– Hə, bir az.

– Ancaq istədiyim səni bir az ruhlandırmaqdı. Səni gələcəkdə gözləyən böyük macəra qabağı bu çökmüş ruhunu qanadlandırmağa çalışıram, – üzünü oğlana çevirdi. – Buna ehtiyacın olduğuna görə yox. Gələcəyini bütün xırdalığınacan planlaşdırdığına əminəm. Güman ki, haradasa qeydlər apardığın bir təqvim-filan da varındı.

– Qətiyyən.

– Yaxşı, onda neynəmək fikrindəsən? Hansı möhtəşəm planların var?

Telegram: @cinciva

– Nə bilim, yəqin, valideynlərim gəlib məni zir-zibilimlə birlikdə aparacaqlar, sonra onların Londondakı evlərində bir-iki gün keçirib, dostlarıma baş çəkəcəyəm. Ondan sonra isə Fransaya.

– Çox gözəl...

– Sonra isə bəlkə Çinə yollandım; baxaq da, görək necə yerdi. Sonra da bəlkə Hindistan, bir az da o həndəvərə səyahət...

– Səyahət, – deyərək qız içini çəkdi. – Çox böyük plandı.

– Səyahətin nəyi pisdi ki?

– Məncə, bu, gerçəklikdən qaçmaqdı.

– Məncə isə, gerçəkliyi həddən artıq şişirdirlər, – oğlan sözlərinin müəmmalı olduğu qədər xarizmatik bir təsir yaradacağına bel bağlayaraq dedi...

Qız burnunu çəkdi:

– Səyahətdə pis bir şey yoxdu, təbii ki, pulun varsa. Ondansa elə "iki illik tətilə çıxacağam" de də. Eyni şeydi.

– Çünki səyahət üfüqləri genişləndirir, – oğlan dedi, – dirsəklənib qızı öpdü.

– Ah, məncə, sənin üfüqlərin, onsuz da, kifayət qədər genişdi, – qız üzünü bircə anlıq yana çevirərək dedi. Təzədən yastığa söykəndilər. – Hər nə isə, onsuz da, mən səndən gələn ay nə edəcəyini soruşmadım; demək istədiyim, uzaq gələcəkdə, məsələn, nə bilim ee... – Bu qeyri-adi fikri, sözgəlişi beşinci bölümü beynində canlandırırmış kimi sözlərinə ara verdi. – ...məsələn, *qırx*. Qırx yaşına çatanda nə eləmək fikrindəsən?

– *Qırx?* – Oğlan çətinə düşən təhər göründü. – Bilmirəm. Varlı olacam desəm, olar?

– Yəni bu qədər qeyri-ciddi!

– Yaxşı, onda "*məşhur*" deyək. – Burnunu qızın boynuna sürtməyə başladı. – Bir az pis çıxır, hə?

– Pis yox, şey... həyəcanverici.

Telegram: @cinciva

– *"Həyəcanverici!"* – Oğlan artıq Yorkshir ləhcəsini gülüncləşdirməyə çalışaraq qızın səsini yamsılamağa başlamışdı. Onun sarsaqlığını nəzərə çatdırmaq istəyirdi. Qız ilk dəfə deyildi ki, bu cür sataşmayla qarşılaşırdı: sanki ləhcəylə danışması nabələd və çox sarsaq bir şeymiş kimi, qarşılığında gülünc səslər çıxaran tanıdığı bəs qədər varlı oğlan vardı; həmişə olduğu kimi bu adama da özündə ikrah hiss etdi və çiyinlərini silkələyib özünü geri çəkərək kürəyini soyuq divara söykədi.

– Hə, həyəcanvericidi. Hətta həyəcanlanmamız lazımdı, eləmi? Nə qədər imkanlar var. Rektor yardımçısının dediyini xatırlayırsanmı: "Minlərlə imkan qapısı üzünüzə taybatay açılıb..."

– "Gələcəkdə qəzetlərdə sizin adlarınız çəkiləcək..."

– Güman eləmirəm.

– Yaxşı, onda həyəcanlısanmı?

– Mən? İlahi, yox, axmaqlayıram.

– Mən də. Lənət şeytana... – Əsəblərini soyutmaq istəyirmiş kimi əlini ani hərəkətlə yatağının yanında yerə atılmış siqaretə uzatdı. – Qırx yaşında olmaq. Qırx. Lənət şeytana!

Qız onun narahatlığına gülümsəyərək vəziyyəti daha da çətinləşdirmək qərarına gəldi. – Hə, qırx yaşında neyləyəcəksən?

Oğlan fikirli halda siqaretini yandırdı. – Yəni məsələ belədi ki, Em...

– Em? Em kimdi?

– Hamı sənə Em deyir. Eşitmişəm.

– Elədi, *dostlarım* mənə Em deyir.

– Yaxşı, mən də Em deyə bilərəm?

– Sözünü de, Deks.

– Yaşlanmaq haqda bir az düşündüm, ancaq qəti şəkildə elə bu yaşda qalmaq qərarına gəldim.

Dekster Meyhyu. Qız saçlarının arasından sintetik parçadan üzlənmiş ucuz yataq başlığına söykənmiş oğlana baxdı; onun niyə

Telegram: @cinciva

indiki kimi qalmaq istəyə biləcəyini eynəksiz də aydın görə bilirdi. Alt dodağına zəifcə yapışmış siqareti yumulu gözləri və pərdənin qırmızı süzgəcindən süzülərək üzünün yan tərəfini isindirən səhər günəşiylə şəkil çəkdirmək üçün ustalıqla poza vermiş kimi görünürdü. Emma Morli "yaraşıqlı" kəlməsinin on doqquzuncu əsrdən qalma axmaq bir söz olduğunu fikirləşirdi, amma, həqiqətən də, bunun əvəzinə işlədilə biləcək başqa bir söz yoxdu; bəlkə "gözəl" sözündən başqa. Bu cavan oğlanın dərisinin altından sümükləri görünən üzü vardı. Bəlkə kəlləsi də cazibədardı. Yüngülcə parıldayan, incə, yağlı, qəşəng bir burun; siqaret çəkməkdən və Bedalesdı oxuyan məktəbli qızlara zolaqlı strpi-pokerdə qəsdən uduzduğu uzun gecələrdən qalma, haradasa, çürümüş kimi görünən gözaltı halələr. Onda pişiyi xatırladan nəsə vardı: düz qaşlar, xəcalətli bir ədayla bükülmüş ağız, quru, çatlaq və bu anda bolqar qırmızı şərabıyla boyanmış, dolğun və tünd rəngli dodaqlar. Yaxşı ki, saçlarının forması dəhşət saçırdı, yan tərəfləri və arxası qısaydı, ancaq ön tərəfdə gülünc, qabarıq bir hissə vardı. Necə jele istifadə etmişdisə, artıq təsiri keçmiş, gözünün üstünə tökülən kəkilləri gülməli, kiçik şlyapa kimi görünürdü.

Hələ də gözləri yumulu şəkildə burnundan tüstü çıxırdı. Seyr edildiyini bildiyi açıq görünürdü, çünki bir əlini qoltuğunun altına salıb, qol və sinə əzələlərini şişirdirdi. Bu əzələləri necə yığmışdı? Çılpaq üzməyi və bilyard oynamağı çıxsaq, bu əzələlərin idman fəaliyyətiylə qazanılmadığı bəlliydi. Güman ki, dəyişməyən qiymətlər və keyfiyyətli mebellər kimi ailədə nəsildən-nəslə ötürülən, bir növ, yaxşı sağlamlığın göstəricisiydi. Yaraşıqlı, ya da gözəl, hər nə isə, bununla belə, dörd illik universitet həyatının sonunda naxışlı boksçu tumanı ombalarından aşağıya enmiş vəziyyətdə qızın balaca, kirayəlik otağındakı təkadamlıq yataqdaydı. *Yaraşıqlı ha! Özünü nə zənn edirsən, Ceyn Eyr? Uşaq olma. Bir az ağıllı ol. Özünə çox da vurulma.*

Telegram: @cinciva

Siqareti oğlanın ağzından çəkdi. – Səni qırx yaşında təsəvvür edə bilərəm, – eyhamlı səslə dedi. – Bu dəqiqə təsvir edə bilərəm.

Oğlan gözlərini açmadan gülümsədi: – Davam elə.

– Yaxşı... – Qız yorğanı qoltuğunun altına keçirdərək özünü cəmlədi. – Üstü açıq idman avtomobilinin içində, Kensinqton, Çelsi, ya da ona oxşar bir yerdəsən və avtomobilinin ən maraqlı xüsusiyyəti səssiz işləməyidi, çünki o vaxtlar avtomobillərin hamısı səssiz olacaq, bilmirəm, neçənci ildi, 2006-cı il bəlkə də...

– 2004...

– Bu avtomobil Kral Yolunun on beş santimetr yuxarısından hava ala-ala gedir, kiçik qarnın dəri sükanın altında balaca yastıq kimi qalır; bu arxasız əlcəklərdən geymisən, saçların seyrəkləşib, çənənsə görünmür. Qızarmış hind toyuğuna bənzəyən bədəninlə balaca avtomobildə kök bir kişisən...

– Yaxşı, mövzunu dəyişə bilərik?

– Yanında oturan gün eynəyi taxmış qadın sənin üçüncü, yox, dördüncü həyat yoldaşındı; çox gözəl bir qadındı, modeldi, yox, eks-modeldi, iyirmi üç yaşındadı; Nays, ya da ora oxşar başqa bir yerdə, bir avtomobil sərgisində bir avtomobilin kapotuna uzandığı halda tanış olmusunuz; möhtəşəm, ancaq bir az səfeh qızdı...

– Hə, bu, yaxşı oldu. Uşaq da var?

– Uşaq yoxdu, sadəcə, üç boşanma var. İyul ayı, cümə günüdü, evinə doğru yol alırsan; avtomobilinin dolabçasında tennis raketləri, kriket çubuqları, yaxşı şərablar var. Cənubi Afrika üzümləri, yazıq, balaca bildirçinlər və quşqonmazlarla dolu səbət var; külək saçlarını oynadır, sən də özündən və iki yüz ədəd ağappaq, tərtəmiz dişiylə sənə gülümsəyən üçüncü, ya da dördüncü həyat yoldaşından, hər nə isə, o qədər məmnunsan ki, sən də ona baxıb gülümsəyirsən və bir-birinizə deyəcək heç nəyinizin, tamamilə heç nəyinizin olmadığını düşünməyə çalışırsan.

Telegram: @cinciva

Qəfildən susdu. Öz-özünə: – Dəli olmusan, – dedi. – Dəli kimi görünməməyə çalış. – Əlbəttə, əgər bu, sənə təsəlli olacaqsa, deyim ki, hamımız bu dediklərim olmamışdan çox əvvəl nüvə müharibəsində ölmüş də ola bilərik! – Emma gülə-gülə dedi, amma o, hələ də qaşqabağla baxırdı.

– Bəlkə də getməyim yaxşı olar. Bu qədər dayaz və korlanmış biriyəmsə...

Qız həyəcanla: – Yox, getmə, – dedi. – Saat dörddü. – Cavan oğlan üzü onunkundan bir neçə santimetr aralı qalana qədər çarpayının içində əyildi: – Bu fikrə haradan qapıldığını bilmirəm, məni o qədər az tanıyırsan ki...

– Tipini bilirəm.

– Tip?

– Sizi Müasir Dillərin yan-yörəsində dolaşarkən görmüşdüm, bir-birinizə bağıra-bağıra smokinqli ziyafətlər hazırlayarkən...

– Mənim smokinqim belə yoxdu. Heç vaxt da bağırmıram...

– Aralıq dənizində yaxtalarda gəzirsiniz və sair və ilaxır...

– Bu qədər alçaq biriyəmsə... – Əli qızın ombasında gəzdi.

– ...eləsən.

– ...onda niyə mənimlə yatırsan? – İndi əli isti, zərif baldırlarındaydı.

– Sənin lə yatdığımı kim dedi, yatdım ki?

– Bu sözün altında nə yatdığına baxır. – Əyilib qızı öpdü. – Hələ özünü göstər baxaq. – Ovcunu onun ayaqlarının arasına sürüşdürdü.

Qız ağzını oğlanın ağzına söykəyib: – Yeri gəlmişkən, – deyə mızıldandı.

– Nə? – Cavan oğlan ayaqlarını ayaqlarına keçirib onu özünə tərəf çəkdiyini hiss etdi.

– Dişlərini yumaq istəmirsən?

– Sən etiraz etmirsənsə, mənim vecimə deyil.

Telegram: @cinciva

– Doğrudan, dəhşətdi, – deyib güldü. – Çaxırın iyi siqaretin iyinə qarışıb.

– Yaxşı, onda hər şey qaydasındadır. Sən də elə qoxuyursan.

– Mən də? – Qız anidən başını arxaya doğru atıb, öpüşməni yarıda kəsdi.

– Mən etiraz etmirəm. Çaxırı da, siqareti də sevirəm.

– Bir saniyə belə dayanmaram. – Yorğanı tullayıb, oğlanın üstündən dırmaşaraq atlandı.

– Hara gedirsən? – Əlini qızın çılpaq kürəyinə qoydu.

Qız eynəyini kitab yığınının üstündən qaparaq: – Ayaqyoluna gedirəm, – dedi; Milli Səhiyyə Xidmətinin verdiyi böyük, qara çərçivəli, standart eynəklərdən idi.

– Ayaqyolu, ayaqyolu... Bağışla, amma mən yerli jarqonu bilmirəm...

Emma oğlandan arxasını gizlətməyə çalışaraq bir qolunu sinəsinin üstündə çarpazlayıb dayanmışdı. Barmağını tumanının rezininə keçirərək parçanı yancaqlarının üstünə çəkdi və otaqdan çıxarkən: "Burada ol, – dedi, – özün də ədəbsizlik eləmə mənsiz".

Dekster burnundan nəfəs verib, yatağın içində sürüşərək özünü yığışdırdı; bu köhnə-külüş, kirayəlik otaqda ədəbi teatr tamaşalarının fotosurət afişalarının və bədii poçt markaları arasında bir yerdə yuxularının ideal kişisinin rəmzi kimi Nelson Mandelanın şəklinin olduğuna son dərəcə əmin idi. Son dörd il içində şəhərə səpələnmiş saysız-hesabsız buna bənzər otaqlar görmüşdü, amma təkcə bir otağı ikinci dəfə görməyinə baxmayaraq, hər şey həddindən artıq tanış gəlirdi; xarab gecə lampaları, baxımsız dibçək gülləri, çarpayılardan böyük olan mələfələrdən gələn ucuz yuyucu toz qoxusu. Emmada da "sənətçi" qızlarda olan fotomontaj düşkünlüyü vardı; Şaqal, Vermeer, Kandinski kimi adamların sırasına qatılmış məktəb yoldaşlarının və ailə üzvlərinin təsadüfən çəkilmiş

Telegram: @cinciva

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

təmtəraqlı fotoları, Çe Gevaralar, Vudi Allenlər, Semuel Bekketlər... Bu otaqda heç bir şey neytral deyildi, hər şey xüsusi nöqteyinəzər və sədaqət sərgiləyirdi. Otaq sanki bir manifest idi. Dekster ah çəkərək Emmanın da "burjuy" kəlməsini söyüş kimi istifadə edən qızlardan biri olduğunu başa düşmüşdü. "Faşist" sözünün mənfi mənaları olduğunu anlaya bilərdi, amma "burjuy" sözünü və onu əhatə eləyən hər şeyi sevirdi. Təhlükəsizlik, səyahət, yaxşı qida, yaxşı tərbiyə, ambisiya; bunun üçün sıxılmaq nəyə lazımdı?!

Ağzından çıxan tüstü buruğuna baxdı. Külqabı axtararkən yatağın yanında bir kitab tapdı: *"Mövcudluğun dözülməz yüngüllüyü"*.[1] Bədəninin "erotik" yerlərinin ürpəndiyini hiss elədi. Bu insafsız, fərdiyyətçi qızların ən önəmli problemi hamısının bir-biriylə eyni olmasıydı. Daha bir kitab: *"Həyat yoldaşını şlyapa sanan kişi"*. Heç bir zaman etməyəcəyi səhv olduğuna arxayın olaraq: *"Lənətə gəlmiş axmaq"* – deyə düşündü.

Emma Morlinin fikirləri iyirmi üç yaşlı Dekster Meyhyunun gələcəyi haqqında fikirlərdən daha aydın idi. Dekster, eyni zamanda, müvəffəqiyyət qazanmağı, ailəsinin onunla fəxr etməsini və bir neçə qadınla eyni vaxtda yatmağı ümid edirdi, ancaq bunların hamısını bir arada necə bacaracağını bilmirdi. Jurnal səhifələrində özünü göstərmək istəyir, illər sonra etdiyi işlərlə xatırlanmağı ümid edirdi, lakin işin nə olacağını ağlına gətirə bilmirdi. Həyatı adrenalin dolu, amma qüsursuz, heç bir pis adama, işə qoşulmadan yaşamaq istəyirdi. O, həyatını elə yaşamaq istəyirdi ki, təsadüfən bir şəkli çəkilsə belə, mükəmməl düşsün. Hər şey yerli-yerində görünməliydi. Sevinc: həyatında çox sevinc olmalıydı və kədər əsla gərəkdiyindən artıq olmamalıydı.

Bu, planın hələ böyük hissəsi deyildisə də, artıq səhvləri olmuşdu. Məsələçün, bu gecənin göz yaşları, lazımsız telefon zənglə-

[1] Milan Kunderanın romanı

Telegram: @cinciva

ri, ittihamlar kimi nəticələri olacaqdı. Buradan mümkün qədər tez getməliydi, aradan çıxmağa hazırlaşaraq ortalığa səpələnmiş paltarlarına göz gəzdirdi. Hamamdan xəbərdarlıq səsi və köhnə tualet çəninin gurultusu gəldi; həyəcanla əlindəki kitabı yerinə qoyarkən yatağın yanında Kolman markalı kiçik, sarı xardal tənəkəsi tapdı; hər şeyi sübut etmək istərcəsinə qapağı açıq qoyulmuşdu. Hə, içində siçan nəcisinə oxşar, boz rəngli, narkotikli siqaret qırıntılarıyla bərabər, istifadə olunmuş prezervativlər də vardı. Kiçik, sarı qutu təkcə seks deyil, həm də bir az nəşələnmək kimi cəlbedici perspektiv vəd edirdi; özünü yenidən daha yaxşı hiss eləyib burada bir az da qalmağa qərar verdi.

Emma isə hamamda ağzının kənarında qalan diş məcununu silərək bütün bunların qorxunc səhv olub-olmadığını fikirləşirdi. O, buradaydı, səmərəsiz keçən dörd romantik ildən sonra, nəhayət, nəhayət ki, bəyəndiyi biriylə, həm də ilk dəfə 1984-cü ildə bir partidə görüb, xoşlandığı biriylə eyni yataqdaydı, amma bir neçə saat sonra o getmiş olacaqdı. Güman ki, həmişəlik... Oğlan çətin ki, özüylə birgə Çinə getməyi təklif edərdi, ayrıca da qız Çini boykot edirdi. Amma oğlan heç də pis deyildi, elə deyil? Dekster Meyhyu. Doğrusu, onun çox parlaq və bir az da özündənrazı adam olduğundan şübhələnirdi, ancaq çox tanınmış və zarafatcıldı; üstəlik inkar etmək mənasızdı ki, hədsiz yaraşıqlıydı. Yaxşı, onda bəs niyə belə ərköyün, istehzalı davranırdı? Niyə o, oğlanın adəti üzrə əyləndiyi gümrah, cilvəli qızlar kimi özünə arxayın və əyləncəli deyildi axı? Emma kiçik hamam pəncərəsindən dan yerinin ağardığını gördü.

Dağınıq saçlarını barmaqlarıyla darayaraq ağız-burnunu əydi, sonra köhnə unitazın zəncirini dartıb otağa qayıtdı.

Telegram: @cinciva

Dekster çarpayıdan qızın qapıdakı görüntüsünü seyr edirdi; buraxılış gecəsi üçün kirayə götürməyə məcbur olduqları dördkünc, lələkli şlyapa və cübbə geyinmişdi, qıçını qəsdən çılpaq şəkildə qaldırıb çəpinə qapının çərçivəsinə söykəmişdi, bir əlində lülə şəkilli diplomu, şlyapasını bir gözünə tərəf basıb, eynəyinin üstündən baxırdı. – Hə, necədi?

– Yaraşır. Şlyapanı çəpəki qoyanda xoşuma gəlir. İndisə onu çıxar, yatağa gəl.

– Elə şey yoxdu. Düz otuz sterlinqə başa gəlib e bu mənə, verdiyim pulun əvəzini çıxarmalıyam, ya yox? – Cübbəni vampir qanadları kimi qaldırıb dövrə vurdu. Dekster bir tərəfindən tutdu, amma Emma lülə diplomuyla ona vurandan sonra çarpayının kənarında oturdu. Eynəyini çıxartdı, cübbəsini bir çiyin hərəkətiylə üstündən atdı. Əyninə bir tərəfində nüvə tərk-silahını tələb edən emblemi əks etdirən, qara, qolsuz köynəyi geyinməzdən əvvəl Dekster qızın çılpaq arxasına və sinəsinin yumrularına axırıncı dəfə nəzər salmağa macal tapdı.

Vəssalam da, – düşündü. Bu an uzun, qara siyasi köynəkdən başqa yerdə qalan hər şey cinsi arzuları oyandırmağa yardım eləyirdi; bir də bəlkə Treysi Çəpmən[1] albomunu çıxmaqla.

Oğlan döşəmənin üstünə atılmış diplomu götürdü, üstündəki rezini lülə kimi bükülmüş kağız boyunca diyirlədi və oxumağa başladı: "İngilis dili və tarixi, 1-ci dərəcəli məzun. Fərqlənmə diplomu".

– Oxu, ağla, iki alan uşaq. – Qız diplomu almaq üçün əlini uzatdı. – Ehtiyatlı ol.

– Çərçivəyə də salacaqsan bunu?

---

[1] Treysi Çəpmən (1964) – kəskin sosial mövzularda mahnılar yazan Amerika müğənnisi. Tender və vətəndaş bərabərliyinin aktiv müdafiəçisi, bütün dünyada insan hüquqlarının müdafiəçisi. 1980-ci illərin tələbələrinə güclü təsir buraxıb.

Telegram: @cinciva

Diplomu bərk-bərk sıxıb, qıraqlarını əliylə vuraraq düzəltdi. – Anamla atam bundan təqvim düzəldəcək. Üstəlik anam kürəyinə döyməsini də vurduracaq.

– Yeri gəlmişkən, valideynlərin haradadı?

– Eh, elə yandakı otaqdadılar.

Oğlan diksindi. – Ay Allah, doğrudan?

Emma: – Əlbəttə, yox, – gülərək dedi. – Onlar Lidsə qayıtdılar. Atam düşünür ki, otellər özünü göstərmək istəyənlərin yeridi. Diplomu səliqəylə çarpayının yanına qoyub, oğlanı yatağın soyuq tərəfinə itələyərək: – İndi tərpən görüm, – dedi.

Dekster qolunu qızın çiyinlərinin altına yöndəmsiz şəkildə dolayaraq yatağa saldı, tərəddüdlə boynundan öpdü. Qız çevrilib ona baxdı.

– Deks?

– Hmm.

– Sadəcə, qucaqlaşsaq, olar?

– Əlbəttə, necə istəyirsən, – alicənab tərzdə dedi, əslindəsə, qucaqlaşmağın heç bir mənasının olmadığını fikirləşirdi. Adam ancaq xalaları, ya da oyuncaq ayıları qucaqlaya bilər. Qucaqlaşmaq onu qıcıqlandırırdı. Ən yaxşısı, məğlubiyyətini indidən qəbul edib, mümkün qədər tez evə qayıtmaqdı. Amma qız başını onun çiyninə qoymuşdu və beləcə, Emma danışana qədər bir sürə utancaq, çəkingən şəkildə uzandılar.

– *Qucaqlaşmaq* sözünü işlətdiyimə inana bilmirəm. Lənət şeytana, dediyimə görə bağışla.

Oğlan gülümsədi: – Problem deyil, hələ yaxşı ki, *sarmaşmaq* demədin.

– *Sarmaşmaq* lap pisdi.

– Ya da *öpüşüb qoxlaşmaq*.

Telegram: @cinciva

– *Öpüşüb qoxlaşmaq* dəhşətlidi. Gəl heç vaxt, heç zaman öpüşüb qoxlaşmayacağımıza söz verək, – dedi, dərhal da sözlərindən peşmanlıq hiss etdi. Nə, biz? Bu, xəyal kimi görünürdü. Yenə də susdular. Son səkkiz saat ərzində ancaq danışıb öpüşmüşdülər. İkisi də özünü çox yorğun hiss edirdi. Otların meşə kimi bitdiyi bağda qaratoyuqlar oxuyurdu.

– Bu səsi sevirəm, – deyə Dekster ağzını qızın saçlarına dayayaraq mızıldadı. – Sübh çağı qaratoyuqlar.

– Mənsə nifrət edirəm. Məni, nə isə, peşman olacağım bir işi etdiyimi fikirləşməyə sürükləyir.

Yenə qaranlıq, xarizmatik effekt yaratmağa çalışaraq: – Mən də məhz buna görə sevirəm, – dedi. – Bir anlıq dayanıb əlavə elədi: – Heç elədinmi?

– Nə?

– Peşman olacağın bir şey?

– Nəyi nəzərdə tutursan? – Emma oğlanın əlini sıxdı. – Nə bilim, o cür gəlir. Hələ bilmirəm, elə deyil? Sabah soruşarsan. Niyə, sən peşman olmusan?

Dekster dodaqlarını qızın başına söykədi və bir də belə öpməmək fikriylə: – Əlbəttə, yox, – dedi.

Oğlanın cavabından şad olan Emma ona daha da yaxınlaşdı:

– Bir az yatmalıyıq.

– Niyə? Sabah ki iş yoxdu. Nə dərs var, nə də bir tapşırıq...

– Haradasa, bütün həyatımız qabaqdadı, – Emma yuxulu-yuxulu dedi.

Oğlanın möhtəşəm isti, turşulu qoxusunu içinə çəkən anda çiyinlərindən başlayaraq bir narahatçılıq dalğasının vücudundan keçdiyini hiss elədi: müstəqil yetkin həyatı. O, özünü yetkin kimi hiss etmirdi. O, buna qətiyyən hazır deyildi. Elə bil gecənin bir aləmində yanğın həyəcanıyla qoluna paltar boğçasını keçirib küçə-

Telegram: @cinciva

nin ortasında dayanan adama bənzəyirdi. Tələbəlik olmasaydı, nə edəcəkdi? Günlərini necə keçirəcəkdi? Bilmirdi.

Öz-özünə dedi: "İşin sirri cəsur və cürətli olub bir fərq yaratmaqdı. Bütün dünyanı olmasa da, sadəcə, bir az öz ətrafını dəyişdirəcəksən. Fərqlənmə diplomunu və Smis Korona markalı elektron yazı makinanı götürüb bayıra çıx və hər hansı bir işdə gərgin çalış... Məsələn, sənətlə həyatını dəyişdirə bilərsən. Çox gözəl şeylər yaz. Dostlarını qiymətləndir, öz prinsiplərinə sadiq qal, həyatı coşquyla, dolu-dolu və yaxşı yaşa. Yeni şeyləri sınaqdan keçir. Sev və sevil – mümkünsə, əlbəttə ki. Ölçü-biçili qidalan. Belə-belə şeylər".

O qədər də uğurlu, başqalarıyla bölüşəcək bir fəlsəfə deyildi, ən azından, bu oğlanla. Amma o, buna inanırdı. Hələ ki müstəqil, yetkin həyatının ilk bir neçə saatını artıq çoxdan yaşamışdı. Bəlkə sabah çay və aspirindən sonra oğlandan təkrar yatağa dönməyi istəyəcək cəsarəti özündə tapa bilərdi. O vaxta qədər, yəqin ki, hər ikisi ayılmış olacaq. Bu da ki işləri çətinləşdirirdi, amma bəlkə bundan da zövq ala bilərdi. Kişilərlə yatağa girdiyi nadir vaxtlarda iş həmişə qırıq-qırıq gülüşlərlə, ya da ağlamaqla qurtarırdı; indi onunla aralarında nəyisə sınaqdan keçirmək pis olmazdı. Prezervativlərin yerində olub-olmadığına baxmaq istədi. Orada olmamaq ehtimalı yox idi, axırıncı dəfə baxanda yerindəydilər: Burnunu yastıq, balışüzünə silən tüklü mühəndis-kimyaçı Vins, 1987-ci il, fevral. Xoşbəxt günlər, xoşbəxt günlər...

Hava işıqlanmağa başlamışdı. Dekster qalın qış pərdələrinə baxmayaraq, günəşin otağa süzülən qızılı şəfəqlərini görə bilirdi. Ehtiyatla qızı oyandırmamağa çalışaraq, qolunu çarpaz şəkildə uzatdı. Siqaretinin kötüyünü şərab stəkanına atıb, altdan- yuxarı tavana baxdı. Daha yuxusu gəlmirdi. Bunun əvəzinə, qız tamam yuxuya gedənə qədər boz tavan bəzəklərinə baxmalı, sonra da onu oyandırmadan yavaşca yataqdan qalxıb aradan çıxmalıydı.

Telegram: @cinciva

Əlbəttə, indi durub getsəydi, onu bir də heç vaxt görməyə bilərdi. "Buna əhəmiyyət verərdi, görəsən?" – deyə narahat olub, əhəmiyyət verəcəyini düşündü: Həmişə belə olur. Yaxşı, özü əhəmiyyət verərdi? Dörd ili Emmasız lap qaydasında keçirmişdi. Keçən gecəyə qədər adının Anna olduğunu güman etsə də, ziyafətdə gözünü ondan çəkə bilməmişdi. Nəyə görə indiyə qədər ona fikir verməmişdi? Qız yatarkən üzünün cizgilərini diqqətlə izlədi.

Qəşəng idi, ancaq əsəbi görünürdü. Qızılı rənglə boyanmış saçları qəsdən pis kəsilmişdi, ya güzgünün qabağında özü, ya da otaq yoldaşı Tilli, ya nə bilim, bir başqa adı olan şux, yekəpər qız kəsmişdi.

Dərisinin solğun rəngi vaxtının çoxunu kitabxanada, ya da barda içərək keçirdiyini göstərirdi, eynəyi görünüşünə bir az da zabitə, ciddilik qatırdı. Çənəsi uşaq çənəsi kimi yumşaq, bir az da toppuş idi, ya da, sadəcə, balaca piy kimi toppuşdu (yoxsa gonbul, ya dolğun, bu yerdə bu sözləri demək olardımı? Dübbədüz olsa belə, möhtəşəm sinəsinin olduğunu da onun xətrinə dəyməsin deyə deməyəcəyin kimi).

Nə isə, döşünü qoyub, yenə üzünə qayıdaq. Balaca burnunun ucunda güclə sezilən yağlı parlaqlıq, alnında qızartılı ləkələr vardı, amma bundan başqa, üzünün möhtəşəmliyini inkar etmək mümkün deyildi. Yumulu gözlərinə baxanda gözlərinin rəngini dəqiq xatırlamasa da, çox böyük, parlaq və gülməli olduqlarını xatırlaya bilirdi; eynən geniş ağzının kənarlarındakı, gülümsədiyi vaxt tez-tez görünən iki batıq kimi. Hamar, çəhrayı, yastığa bənzər yanaqları... çox doğma, isti, tanış duyğu aşılayırdı. Boyasız dodaqları moruq rəngindəydi. Ağzına bir az böyük gələn və ön tərəfdəkilərdən biri azca qırıq olan dişləri görünməsin deyə gülərkən dodaqlarını kip sıxıb, bağlı saxlayırdı; bütün bunlar ona nələrisə, bir qəhqəhəni, ağıllı düşüncəni, ya da fantastik zarafatı gizlətmək istəyirmiş kimi bir hal qatırdı.

Telegram: @cinciva

Əgər indi durub getsə, güman ki, on ildən bir keçirilən qorxunc görüşmələrin xaricində, böyük ehtimalla bu üzü bir də heç vaxt görməyəcəkdi. Yəqin ki, o vaxt kök və usanmış olacaq, bir "xoşca qal" demədən aradan çıxdığı üçün ona şikayətlənəcəkdi. Ən yaxşısı səssizcə aradan çıxıb, toplantılara da qatılmamaqdı. İrəli get bir az, gələcəyə bax. Bayırda yüzlərlə üz var.

Elə qərarını vermişdi ki, qız gözlərini açmadan, ağzını geniş təbəssümlə açaraq danışdı:

– Nə qərara gəldin, Deks?

– Nəyi deyirsən, Em?

– İkimiz. Səncə, bu, həqiqi sevgidi? – Dodaqlarını bərk sıxıb, ucadan güldü.

– Sadəcə, yatmaq desək, olar?

– Onda burnuma az bax. – Göy-yaşılı, parlaq, ağıllı gözlərini açdı. – Sabah neçənci gündü? – Mızıldandı.

– Yəni bu gün?

– Bu gün. Bu parlaq, yeni gün bizi gözləyir.

– Bu gün cümədir. Bütün günlər cümədir. Həm də Müqəddəs Svitin günü.

– Sonra nə?

– Ənənədi də... Bü gün yağış yağsa, güya sonrakı qırx gün ərzində yağış yağacaq, ya bütün yay, ya da nəsə belə-belə şeylər.

– Heç bir mənası yoxdu. – Emma qaşqabağını tökdü.

– Mənalı olmağı lazım da deyil. Bu, mövhumatdır.

– Yağış hara yağacaq ki? Onsuz da, həmişə harasa yağış yağır.

– Müqəddəs Svitinin qəbrinə. O, Vinçester Baş Kilsəsinin həyətində dəfn olunub.

– Bu qədər şeyi haradan bilirsən?

– Məktəbə orada getmişəm.

– Hmm, lap yaxşı, – başını yastığa basaraq mızıldandı.

Telegram: @cinciva

– "Müqəddəs Svitinə yağış yağanda, Nəsə orada... nəsə gözləmə".

– Bu, çox gözəl şeirdi.

– Mən axıracan bilmirəm.

Emma yenə güldü, sonra yuxulu şəkildə başını yastıqdan qaldırdı:

– Amma, Deks...

– Em?

– Birdən bu gün yağış yağmasa?

– Eyvah!

– Sonra neyləyəcəksən?

"Ona məşğul olduğunu de..."

– Bir işim yoxdu. – Dekster dedi.

– Onda birlikdə nəsə edə bilərik? Demək istəyirəm, sən və mən?

"Yuxuya gedənəcən gözlə, sonra əkil..."

– Hə, olar, – dedi. – Nəsə edərik.

Emma yenidən başını yastığa basdırıb:

– Yeni gün, – deyə mızıldandı.

– Tamamilə yeni bir gün.

Telegram: @cinciva

II fəsil

Həyata qayıdış

15 iyul.1989-cu il. Şənbə.

Vulverhempton və Roma

Qızların soyunma otaqları
Stouk Park Peşə məktəbi
Vulverhempton
15 iyul, 1989-cu il.

Çau, Bella!

Necəsən? Roma necədir? Əbədi şəhərdə hər şey yaxşıdır, amma iki gün Vulverhemptondayam, bu, sanki sonsuzluq kimi gəldi (bununla belə, buradakı Pizza Hut`ın əla olduğunu deyə bilərəm, sadəcə, əladı).

Axırıncı görüşümüzdən bəri sənə dediyim işi götürməyə qərar verib Sledgehammer Teatr Qrupuyla işləməyə başladım. Son dörd ay ərzində "Krul Karqo" ilə birlikdə məşq edirik, İncəsənət fondunun maliyyə dəstəyi ilə hekayə və xalq mahnılarıyla qul alverini göstərən möhtəşəm bir pantomim tamaşa oynayırıq. Sənə bir reklam elanını göndərirəm; necə gözəl nömrə olduğunu gör.

Krul Karqo, TİT-nin bir hissəsidir (səninçün açıqlama: Təhsil içində teatr). Məqsəd 11 – 13 yaş arası uşaqlarda köləlik quruluşunun pis olması haqda fikir yaratmaqdı. Mən Lidiya rolunu oy-

Telegram: @cinciva

nayıram, hmm, yəni hə, əslində, BAŞ ROLda, qəddar cənab Obadyah Qrimmin (yaxşı adam olmadığı elə adından aydın olmurmu?) özündənrazı, ərköyün qızı və tamaşanın ən həyəcanlı anında sahib olduğu bütün qəşəng şeylərin, pal-paltarların (simvolik olaraq), cavahiratların (eyni cür) insanların qanı bahasına satın alındığını anlayıram və özümü çirkli hiss edirəm (əlində QAN GÖRMÜŞ adamın baxışları), RUHUMU çirkli hiss edirəm. Keçən dəfə uşaqlar əllərində nə vardısa, başıma atsalar da, çox güclü materialdır.

Ancaq ciddi desəm, əslində, məzmunu o qədər də pis deyil; niyə belə təhqir etdiklərini bilmirəm, güman ki, bu da bir müdafiə mexanizmidir. Əslində, ən böyük reaksiyanı uşaqlardan görürük (əllərindəki zir-zibili atmayanlardan), amma məktəblərdəki bu simpoziumlar, həqiqətən də, çox həyəcanlı olur. Bu körpə uşaqların mədəni irs, hətta Vest-Hind haqda, haradan gəlmələri barədə nə qədər az şey bildiklərini görmək çox dəhşətlidir. Yeri gəlmişkən, yazmağı da çox sevirəm; bu mənə başqa tamaşalar üçün material və yeni ideya verir. Vaxtımı əbəs yerə xərclədiyimi fikirləşsən də, zəhmət çəkməyə dəyər bir işdir. Mən, həqiqətən də, həqiqətən də, nələrisə dəyişə biləcəyimizə inanıram, Dekster. Mən onu nəzərdə tuturam ki, otuzuncu illərdə Almaniyada çoxlu radikal teatr kampaniyaları var idi və necə dəyişikliklər etdiklərini də bilirik. Biz Vest Midləndzdə rəng stereotipini qıracağıq, hətta hər uşaqla ayrı-ayrı məşğul olmaq lazım gəlsə belə.

Aktyor heyəti dörd nəfərdən ibarətdi. Kvem Alicənab Qulduru canlandırır. Evdar qadınla xidmətçini oynamağımıza baxmayaraq, aramız çox yaxşıdır (keçən gün ondan bir paket çips gətirməsini istəyəndə mənə, ZÜLMKARI kimi baxsa da). Rolda həddindən artıq ağladığını fikirləşsəm də, kübar və işinə ciddi yanaşan adamdı. Bir az ağlağandı; nəyi nəzərdə tutduğumu başa düşərsən.

Telegram: @cinciva

Sonra, pis atam Obadyahı oynayan Sid var. Sənin bütün uşaqlığının çobanyastığı dolu çəmənliklərdə Fransız kriketi oynamaqla keçdiyini, televizora baxmaq kimi bayağı işlərlə məşğul olmadığını bilirəm, amma deyim ki, Sid "Siti Bit" adlı polislər haqda serialda oynadığı rolla məşhurlaşmışdı və parlaqlığının bu səviyyəyə düşməyinə nifrət edir. Rolunu oynamaqdan zəhləsi gedir və hər cümləsi də "Mən xoşbəxt olanda" mənasına gələn "Mən televiziyada olanda" ifadəsiylə başlayır. Sid əl-üz yuyulan vannalara işəyir, yumaqdansa SİLGİ düzəldilən poliester şalvar geyinir və yanacaqdoldurma məntəqələrində ətli piroq yeyir; arada Kvemlə mən onun gizli irqçi olduğunu fikirləşirik, ancaq bunlar bir tərəfə, çox sevimli adamdır, çox, çox sevimli.

Və sonda bir də Kendi var burada, ah, Kendi. Kendini sevərdin sən; adı kimi şirin qızdı. Tamaşada həyasız xidmətçini, ferma sahibini Cənab Vilyam Vilberforsu oynayır. Çox gözəl və ovsunlayıcı qızdı, bu sözü bəyənməsəm də, sözün bütün mənasıyla, pozğundur. Məndən tez-tez həqiqətdə neçə yaşımın olduğunu soruşur, yorğun göründüyümü, ya da linza taxsam, çox gözəl görünəcəyimi-zadı söyləyir, mən də buna HEYRANAM, əlbəttə ki. Bu işdə, sadəcə, aktyorluq lisenziyası almaq və yağışlı bir çərşənbə axşamı təsadüfən TİT-nin istedadlı aktyorlarından birini axtarmağa çıxmış bir Hollivud prodüseri tərəfindən kəşf edilən günə qədər vaxtını keçirmək üçün çalışdığına inandırmaqda israr edirdi. Aktyorluq nə axmaq şeydi, elə deyil?

Biz STK-nə (Sledgemhammer Teatr Kooperativi) başlayanda məşhur olmaq, televizora çıxmaq və s. kimi axmaqlıqların heç biriylə əlaqəsi olmayan yenilikçi bir toplum qurmaq və həqiqətən, yaxşı planlaşdırılmış siyasi işlər görmək niyyətindəydik. Bunlar qulağına cəfəngiyat kimi gələ bilər, ancaq ideyamız beləydi. Lakin eqalitar və demokratik toplumların problemi budur ki, Sid və Kendi kimi başdanxarablara da qulaq asmaq məcburiyyətində olur-

Telegram: @cinciva

san. Rolunu oynaya bilsə, mənimçün problemi olmaz, amma Cordi ləhcəsi qeyri-adidir, danışarkən elə bil infarkt keçirir; bir də ki, alt paltarlarıyla yoqa qızınma hərəkətləri etməyi var. Bax bu, sənin diqqətini çəkdi, düzdümü? Birinci dəfədir ki, corablarla və baskla Günəşi salamlayan birini görürəm. Bu, düz ola bilməz, hə? Yazıq, qoca Sid ona baxım deyərkən, bifşteksini güc-bəlayla çeynəyir, ağzının yerini tapa bilmirdi. Nəhayət, səhnəyə çıxmaq vaxtı çatanda əyninə nəsə geyinər, adətən, uşaqlardan biri fit çalar, ya da ona oxşar bir şey edər; o da hər dəfəsində elə bil təhqir edilmiş kimi aparır özünü, feministlikdən dəm vurur. Elə bil böyük SİYASİ problem kimi corabqurşağını düzəldərək: "Mən bütün həyatım boyu fikirlərimə görə mühakimə edilməyə nifrət etmişəm, zərif üzüm və sütül bədənim ucbatından həmişə mühakimə edilmişəm", – deyir. Elə bil yekə döşlərlə lənətlənmiş qadınların ağır vəziyyəti haqqında təşviqat, təbliğat məqsədli küçə tamaşası göstərəcəyik! Deyəsən, çox çərənlədim? İndidən sevdin onu, hə? Qayıdanda sizi tanış edimmi? Çənəni tutub, dodaqlarınla oynaya-oynaya ona karyerası haqqında suallar verməyini təsəvvür eləyirəm. Bəlkə də sizi heç tanış eləməyəcəyəm...

Qeri Natkin narahat və halsız şəkildə içəri girəndə Emma Morli kağızı tərsinə çevirdi; indi Sledgehammer Teatr Kooperativinin həmtəsisçisi və direktorunun tamaşa öncəsi ruh yüksəkliyini qaldırmaq üçün söylədiyi nitqi dinləmək vaxtıydı. Həm qadın, həm də kişilərin birlikdə kulis kimi istifadə etdikləri otaq, əslində, heç kulis də deyildi, şəhər içindəki peşə məktəbinin qızlarının soyunma otağıydı; həftə sonları belə Emmanın hələ də xatırladığı o hormonları, çəhrayı maye sabunu və nəmli dəsmal qoxusu vardı.

Girişdə Qeri Natkin boğazını arıtladı; qırxılmış solğun üzü, boğazına qədər düymələnmiş qara köynəyi, üslub idealı Con Ovel olan bir kişi idi. – Bu gecə böyük izdiham var, millət! Haradasa,

Telegram: @cincivä

yarıya qədər dolu heç də pis sayılmaz! – Yenə də özünün tam olaraq nə gözlədiyini demədi, bəlkə də xallı parçadan olan paltarının içində ombasını oynadan Kendi fikrini dağıtmışdı. – Gəlin onlara tamaşa cəhənnəmi nəymiş, onu göstərək. Onları devirək!

Sid peçenye qırıntılarını çeynəyə-çeynəyə Kendiyə baxaraq: "Onları ölümünə döymək istəyirəm", – deyə mızıldadı.

– Həm də mismarlı kriket çubuğuyla, balaca bicbalalar.

Kendi dərin, kontrollu nəfəs alıb: – Xahiş edirəm, pozitiv ol, Sid, – deyə xahiş elədi.

Qeri sözünə davam elədi:

– Unutmayın: onları oyanıq, canlı saxlayın, ünsiyyətdə olun, sözləri ilk dəfə deyirmiş kimi deyin və hamısından vacibi, auditoriyanın sizi tələsdirməsinə, hiddətləndirməsinə imkan verməyin. Qarşılıqlı təsir böyükdür. *Cavab zərbəsi olmasın.* Sizi əsəbiləşdirmələrinə icazə verməyin. Onlara bu ləzzəti daddırmayın. Son on beş dəqiqə, buyurun! – dedikdən sonra Qrey soyunma otağının qapısını dustaqxana gözətçisi kimi üzlərinə bağladı.

Sid "*Bu işə nifrət eləyirəm, bu işə nifrət eləyirəm*" sehrli sözlərini mızıldayaraq, hər axşamkı qızınma hərəkətlərinə başladı. Onun arxasında da Kvem cındırı çıxmış şalvarıyla belinə qədər çılpaq, əllərini qoltuqlarının altına soxmuş, başını arxaya sallayıb, sərələ oturmuşdu; meditasiya edir, bəlkə də ağlamamağa çalışırdı. Emmanın solunda olan Kendi on səkkiz illik balet həyatından yadigar qalan çəkicayaq barmaqlarını çəkə-çəkə, incə, düz soprano səsiylə "Səfillər"dən mahnılar oxuyurdu. Emma çatlaq güzgüdəki əksinə tərəf çevrilib, imperatorluq tərzi geyiminin qollarını qabardıb eynəyini çıxartdı və Ceyn Osten kimi ah çəkdi.

Keçən il yanlış yanaşmalar, yanlış seçimlər, yarıda qalmış layihələr ardbaard düzülmüşdü. Musiqi rəhbərliyi bir yana, öz qərarını belə verə bilməmiş, "*Boğaz*", "*Sallaqxana*" və "*Pis altı biskvit*" kimi müxtəlif adları olan bir qız qrupunda elektron gitara çal-

Telegram: @cinciva

mışdı. Heç kimin getmədiyi alternativ bir gecə klubu, yarıda qoyulmuş birinci roman, yarımçıq qalmış ikinci roman, müvəqqəti olaraq turistlərə kəşmiri və dama-dama parça satmaq kimi cürbəcür acınacaqlı yay işlərilə məşğul olmuşdu. Ən pisi isə Sirk ustalığı kursunda özünün bu sahədə qətiyyən istedadı olmadığını başa düşənə qədər dərs almağa başlamağıydı. Hava uçuşları çıxış yolu deyildi.

Çox reklam olunan İkinci Sevgi Yayı[1] da melanxolik günlərlə keçmişdi. Hətta çox sevdiyi Edinburq belə darıxdırıcı, cansıxıcı olmağa başlamışdı. Onun universitet şəhərciyində yaşaması hər kəsin getmiş olduğu bir ziyafətdə tək-tənha qalmaq kimi bir şeydi; beləliklə, oktyabr ayında Rənkilor küçəsindəki mənzilindən çıxıb, indi özünə inanılmaz dərəcədə kiçik görünən bir evdə qarşılıqlı ittihamlarla çırpılan qapılar, günortadan sonra televiziya proqramlarıyla dolu yağmurlu, uzun bir qış keçirmək üçün ailəsinin yanına köçdü. Elə bil ki, diplomu dikbaşlıq edib, inadla istifadə etmədiyi super güc kimi, anası hər gün: "Bəs sən ikiqat birincilik dərəcəsi alıbsan axı! Noldu sənin ikiqat birincilik dərəcənə?" – deyə dirənirdi. Təzə doğulmuş körpəsiylə xoşbəxt tibb bacısı olan, evli, kiçik bacısı Merian, sadəcə, ana-atasının ağıllı qızının düşdüyü pis vəziyyəti hiyləgərcəsinə seyr etməkçün hər axşam onlara gəlirdi.

Bir də arada Dekster Meyhyu vardı. Məzuniyyətdən sonrakı axırıncı bir neçə isti yay günündə ailəsinin Oksfordşirdəki gözəl evinə getmişdilər; bura ev deyil, Emmanın gözündə bir malikanəydi. Solğun rəngli xalçalar, böyük yağlı boyayla çəkilmiş mücərrəd tablolar, buzlu içkilərlə 1920-ci illərdən qalma böyük bir evdi. Ot qoxusu gələn böyük bağda üzgüçülük hovuzuyla tennis

[1] Second Summer of Love: Birincisi 1976-cı ildə, ikincisi səksəninci illərin sonunda (1988-1989) İngiltərədə "ecstasy" (ekstaz) adlı uyuşdurucu maddənin artması və "acid house" (turş ev) axınının ortaya çıxması nəticəsində ziyafətlər təşkil edən ayrıca dövrə verilən addır.

Telegram: @cinciva

kortunun arasında – yerli idarələr tərəfindən tikilmiş bir tennis kortunu ilk dəfə görürdü – uzun, süst gün keçirmişdilər. Yellənən həsir kreslolarda cin-tonik içib, mənzərəyə baxaraq Emma Möhtəşəm Qatsbi haqqında düşünmüşdü. Əlbəttə ki, hər şeyi korlamışdı; hirslənmiş, naharda çox içki içmiş, Deksterin çox mülayim, təvazökar, son dərəcə ağıllı atasının üstünə Nikaraqua ilə bağlı nəsə deyərkən qışqırmışdı, bütün bunlar baş verərkən Dekster ona xalçanı çirkləndirən uşaqtək ümidsizlik dolu baxışlarla baxmışdı. Həqiqətən də, süfrələrində oturub, yeməklərini yeyib atasına faşist demişdi? O gecəni qonaq yataq otağında boşboğazlıq eləmiş, peşman halda, heç vaxt gəlməyəcəyini bilə-bilə qapı zəngini gözləyərək keçirmişdi; romantik ümidləri qiymət bilməz Sandinistlər[1] uğruna qurban verilmişdi.

Onlar yenidən apreldə ortaq dostları Kellumun iyirmi üç yaşını qeyd etdiyi qonaqlıqda – Londonda qarşılaşmışdılar; növbəti günü birlikdə Kensinqton Bağçalarında keçirmiş, şüşədən şərab içə-içə danışmışdılar. Bağışlandığı aydın görünürdü, amma, eyni zamanda, dostluğun dəliedici səmimiyyəti içindəydilər; ən azından, bu, Emmanı dəli edirdi. Çəmənliyin üstündə uzanmışdılar. Dekster Pireney dağlarında xizək sürərkən tanış olduğu inanılmaz ispan qızı Loladan danışarkən, az qala, əlləri bir-birinə dəyəcəkdi.

Sonra Dekster dünya görüşünü artırmaq üçün yenə də səyahətə çıxdı. Çinin Deksterin zövqünə həddindən artıq yad və ideoloji olduğu ortaya çıxmışdı, bunun əvəzinə, oğlan "Ziyafət şəhərləri" adlandırdığı bir illik səyahətə çıxmağa hazırlaşırdı. Beləliklə, onlar məktub dostu oldular; Emma altından xətt çəkib, xüsusi vurğuladığı sətirlərlə, zarafatlarla, sataşmalarla dolu, darıxmağını boş

[1] Adını 1927-ci ildə ABŞ Dəniz piyadalarının Nikaraquaya müdaxiləsindən sonra tərəfdarlarıyla birlikdə dağa çıxaraq, ABŞ əleyninə silahlı üsyanlarla xalqın simpatiyasını qazanan Avqusto Sezar Sandinodan götürən marksist təşkilat, Sandinista üzvlərinə verilən ad.

Telegram: @cinciva

yerə gizlətməyə çalışdığı uzun, həyəcanlı məktublar yazırdı. Kompilyasiyalı lentlərə oxşayan məktublar gizlədilən emosiyalar üçün, həqiqətən də, bir vasitə olur və Emma bunlara həddindən artıq vaxt, enerji sərf eləyirdi. Bunun əvəzində Dekster ucuz poçt xidmətləriylə açıqcalar göndərirdi: "ÇILĞIN Amsterdam", "DƏLİ Barselona", "Dublin DAĞILIR. Bu səhər it kimi xəstəyəm". Dekster səyahət yazarı Brüs Çatvin deyildi, amma Emma uzun, ruhsuz İlkli Bataqlığı gəzintilərində ağır paltosunun cibinə atdığı bu açıqcalarını oxuyarkən "VENESİYANI TAMAMİLƏ SU BASDI!!!" cümləsinin altında gizli məna axtarırdı.

– Bu Dekster kimdi bəs? – Anası açıqcaların arxasına baxarkən soruşdu. – Sevgilindi?.. – Sonra narahat baxışlarla: – Heç Qaz İdarəsində işləmək haqqında fikirləşmisənmi? – deyə soruşdu. Emma yerli barda ofisiant işi tapmışdı, vaxt keçirdi və beyninin soyuducunun arxa tərəfində yaddan çıxmış bir şey kimi yumşalmağa başladığını hiss eləyirdi.

Elə o vaxtlar Qeri Natkin zəng elədi: 1986-cı ildə Brextin Emmanın da baş rol aldığı pessimist və ağır "*Üçüncü Reyxin qorxu və əzabları*" pyesinin rejissoru və daha sonra, axırıncı gecə ziyafətində üç saat boyunca onu öpmüş olan arıq trotskiçi Qeri. Qısası, çox keçmədən Qeri Emmanı Piter Qrinveyin iki pyesdən ibarət tamaşasını izləməyə aparmış, əlini Emmanın sol döşünə "təsadüfən" yerləşdirməyə nail olmaq üçün düz dörd saat tər tökmüşdü. "*Əlcəzair müharibəsi*" afişasının altında köhnə birnəfərlik çarpayıda Brextvari sekslə məşğul olmuşdular, Qeri əvvəldən axıra qədər onun özünü seksual obyekt kimi hiss etməməsi üçün əlindən gələni eləmişdi. Ondan sonra, may ayında o gecəki telefon zənginə qədər Qeridən heç bir səs-soraq çıxmamışdı. Qeri tərəddüdlü və yumşaq şəkildə danışmışdı: – Teatr kooperativimə qatılmaq istəmirsənmi?

Emmanın nə aktrisa kimi ambisiyası vardı, nə də teatra qarşı, fikir və ideyalarını bildirmək üçün vasitə kimi görmək xaricində,

Telegram: @cinciva

böyük sevgisi. Sledgehammer ortaq məqsəd, ortaq niyyətlər, yazılı bir bildiriş və gənclərin həyatını incəsənət vasitəsiylə dəyişdirmə kimi öhdəliklər götürmüş bir teatr cəmiyyəti olacaqdı. *"Bəlkə bir az romantizm də olar*, – düşündü Emma, – ya da, ən azından, bir az seks". O, çantasını qablaşdırıb, şübhəli-şübhəli baxan ana-atasıyla sağollaşıb, çox ali səbəb üçün elə bil, bir növ, İncəsənət Şurası tərəfindən maliyyələşdirilən İspan Vətəndaş Müharibəsi teatrına görə yola çıxırmış kimi mikroavtobusa minərək evdən uzaqlaşdı.

Amma üç aydan sonra o istilik, yoldaşlıq ruhu, sosial dəyərlər duyğusu, nəşəylə birləşən yüksək ideallar yoxa çıxmışdı. Onlar kooperativ qurmaq istəyirdilər. Mikroavtobus furqonunun üzərində bu yazılmışdı, hətta bu şablonu Emma özü hazırlamışdı. *"Mən-bu-işə-nifrət-eləyirəm, mən-bu-işə-nifrət-eləyirəm"*, – Sid dedi. Emma əllərini qulaqlarına sıxıb, özünə bəzi həyati suallar verməyə başladı.

Mən niyə buradayam?
Həqiqətən də, fərq yarada bilirəmmi?
Bu nə qoxudur?
Bu dəqiqə harada olmaq istəyirəm?
Dekster Meyhyuyla birlikdə Romada olmaq istəyirdi. Yataqda.

– Şef-tez-böri küçəsi.
– Xeyr, Şeftz-böri, iki heca.
– Liçestr meydanı.
– Lester meydanı, iki heca.
– Niyə Li-çestr yox?
– Bilmirəm.
– Amma bilməlisən, sən ki mənim müəllimimsən.
– Bağışla, – Dekster çiynini çəkdi.

Telegram: @cinciva

– Axmaq dil olduğunu fikirləşirəm, – Tav Anqstrom dedi və çiyninə bir yumruq vurdu.

– Axmaq dildi. Bundan artıq heç nədə eyni fikirdə ola bilməzdik. Hər halda, mənə vurmağına da ehtiyac yoxdu.

– Bağışla, – Tav çiynini öpərək dedi, sonra boynunu, dodaqlarını öpdü. Dekster bir daha müəllimliyin məmnunediciliyi qarşısında çaşıb qaldı.

Birnəfərlik çarpayı dar gəldiyindən Deksterin balaca otağının döşəməsində yastıq yığını üstündə uzanmışdılar. Pösi Bişi Şelli adına Beynəlxalq İngilis dilli məktəbin kitabçasında müəllimlərin yerləşdiriləcəyi yer "bir çox sakitləşdirici xüsusiyyətlərə malik rahatlıqdadı" deyə təsvir edilmişdi və bu, vəziyyətə gözəl xülasə verirdi. Deksterin Sentro Storikodakı otağı darıxdırıcı yerdəydi, amma, ən azından, avtodayanacaq kimi fəaliyyət göstərən, Roma yoluna yaxın mənzərəli meydana baxan, bir addımlıq balkonu vardı. Hər sabah ofis işçiləri avtomobillərini götürəndə səslərinə oyanırdı.

Ancaq bu rütubətli iyul günortasında eşidilən tək səs turistlərin çamadanlarının çay daşlarında çıxardığı təkər səsləriydi; geniş açılmış pəncərələrin qarşısında uzanıb tənbəl-tənbəl öpüşürdülər, qızın Danimarka şampunu qoxusu verən tünd, qalın saçları üzünə toxunurdu: şam və siqaret qoxusu. Qız onun sinəsinin üstündən əyilib, yerdəki siqaret paketini götürdü, ikisini yandırıb birini ona uzatdı, Dekster Belmando, ya da Fellini filmlərindəki kimi siqareti dodaqları arasında fırladaraq yastığın üstünə uzandı. Həyatı boyunca heç vaxt Belmando, ya da F.Fellini filmi izləməmişdi, amma poçt markalarındakı afişalarından tanıyırdı: xüsusi üslubu olan, ağ-qara afişalardan. Dekster özünü gözə soxan biri kimi göstərməyi xoşlamırdı, ancaq bəzən şəkillərini çəkməsi üçün əlinin altında birinin olmağını istəyirdi.

Telegram: @cinciva

Təzədən öpüşdülər və o, bu vəziyyətin etik, mənəvi ölçüləri haqqında düşündü. Tav axmaq vəziyyətdə çarpayının qırağında oturub, dizlərinə qədər uzanan çəkməsinin zəncirbəndini açarkən, əlbəttə ki, Deksin bir kollec mərasimindən sonra bir tələbəylə yatmağın artıq-əskikliklərі barədə fikirləşməsinin əsl vaxtıydı. Hətta bir az sonra özünü qırmızı şərabın və arzuların şərxoşluğu içində Emma Morlinin bu haqda nələr deyəcəyi haqqında fikirləşərkən gördü. Tav dilini onun qulağında gəzdirərkən özünə haqq qazandırmağa çalışırdı: *Qızın on doqquz yaşı var, yetkindi, mənsə, onsuz da, həqiqi müəllim deyiləm.* Üstəlik indi Emma çox uzaqlarda, bir mikroavtobusla əyalətləri gəzərək dünyanı dəyişdirməklə məşğuldu; həm də bunların Emmaya nə dəxli var ee?

Tavın dizlərinə qədər uzanan çəkmələri indi ziyarətçilərin gecələməsinin qətiyyətlə qadağan edildiyi yataqxana otağının küncündə boyunlarını büküb dayanmışdı.

Dekster bədənini döşəmənin daha sərin tərəfinə sürüşdürüb, açıq-mavi səmanın pəncərədən görünən kiçik parçasına baxaraq saatı təxmin etməyə başladı. Tavın tənəffüsünün dəyişən ritmi onun yuxuya getdiyini göstərirdi, amma Deksterin getməli olduğu vacib görüşü vardı. Siqaretinin qalanını bakalın içinə atdı; qol saatını götürmək üçün Primo Levinin hələ də oxunmamış "*Bunlar da özünə insan deyir?*" adlı kitabının yanında uzandı.

– Tav, mən getməliyəm.

Tav mızıldanaraq etiraz etdi.

– Valideynlərimlə görüşəcəyəm, indi çıxmalıyam.

– Mən də gələ bilərəm?

Dekster güldü.

– Düşünmürəm, Tav. Üstəlik birinci gün sənin qrammatikadan imtahanın var. Get, təkrarla.

– İmtahanı sən götürəcəksən, elə indi götür.

– Yaxşı, fellər. İndiki zaman.

Telegram: @cinciva

Qız qıçını dolaşdıraraq Deksteri özünə tərəf çəkdi: – Mən öpürəm, sən öpürsən, o öpür...

Dekster dirsəklənib qalxmağa çalışdı: – Ciddi deyirəm, Tav...

Qız qulağına: "Onca dəqiqə də qal", – pıçıldadı və Dekster təzədən döşəməyə uzandı. *"Niyə də yox? – fikirləşdi, – üstəlik Romadayam, gözəl bir gündür. İyirmi dörd yaşım var, maddi təminatım var, üstəlik də sağlamam. Ağırdır mənə, etməməli olduğum şeyi edirəm və mən çox, çox şanslıyam".*

Duyğulara, həzzə və yalnız özünə həsr edilmiş həyatın cazibədarlığının bir gün sonu gələcəkdi, amma buna hələ çox vaxt vardı.

Roma necədi? Şirin həyat necə gedir? Bu dəqiqə sənin bir kafedə oturub, haqqında çox eşitdiyimiz bu "kapuççino"lardan içdiyini və hər şeyə fit çaldığını təsəvvür edirəm. Güman ki, bunu oxuyarkən gün eynəyi taxırsan. Çıxart onları, gülməli görünürsən. Sənə göndərdiyim kitabları aldın? Primo Levi çox gözəl İtaliya yazıçısıdır. İnsana bütün həyatın dondurma və ayaqqabılardan ibarət olmadığını xatırladır. Həyat həmişə Betti Blunun açılışına oxşamır. Müəllimlik necə gedir? Mənə söz ver ki, tələbələrinlə yatmayacaqsan, lütfən. Necə desəm... məyusedici olar.

İndi getməliyəm. Səhifənin sonu gəldi, o biri otaqda bir-birinə stullar atan tamaşaçıların həyəcanverici çığırtılarını eşidirəm. ALLAHA ŞÜKÜR ki, iki həftəyə bu işdən çıxıram, sonra rejissorumuz Qeri Natkin mənə uşaq bağçaları üçün irqi ayrı-seçkilik haqqında bir tamaşa hazırlamaq istəyir. KUKLALARLA, təsəvvür eləyirsən, Allah xətrinə? Qucağımda Dezmond Tutu[1] marionetilə altı ay eyni avtomobilin içində, yollarda... Bəlkə imtina elədim. Üstəlik Virciniya Vulf və Emili Dikinsonun haqqında "İki həyat" (ya da "İki kədərli lesbiyan", hələ tam qərara gəlməmişəm) adın-

[1] Dezmond TUTU (1931) – aparteid rejimiylə aktiv mübarizə aparan Cənubi Afrikalı dini xadim, 1984-cü il Nobel mükafatı laureatı.

Telegram: @cinciva

dakı tamaşanı yazıb bitirdim. Bəlkə bir bar teatrında səhnəyə qoya bilərəm. Kendiyə Virciniya Vulfun kim olduğunu danışanda o, həqiqətən də, bu rolu ürəkdən oynamaq istədiyini dedi; amma çatdıra bilsə. Beləcə, tamaşa heyəti tamamlandı, mən Emili Diknsonu oynayacam. Sənin biletlərini saxlayacam.

Yeri gəlmişkən, Lidslə London arasında bir seçim etməliyəm. Seçimlər, seçimlər. Londona köçməkçün çox mübarizə apardım, amma köhnə otaq yoldaşım Tilli Killikin (o yadındadı? Böyük qırmızı eynək sağanağı, sərt baxışlar?) Kləptonda "qutu otaq" dediyi (özü də bu söz xeyrin əlaməti deyil) əlavə bir otağı var. Kləpton necə yerdi? Yaxın zamanda Londona qayıtmaq fikrin varmı? Hey! Bəlkə otaq yoldaşı ola bilərik?

Otaq yoldaşı? Emma tərəddüdlə başını silkələyib ah çəkdi və yazmağa davam etdi: *Zarafat eləyirəm!!!* Yenidən köks ötürdü. "Zarafat eləyirəm" demək adamın, əslində, elə məhz nəzərdə tutduğu şeyi demiş olduğu mənasına gəlirdi. Qaralamaq üçün artıq çox gecdi, amma məktubu necə tamamlayacaqdı? "Hər şey könlüncə olsun" həddindən çox rəsmi, "Tout mon amour"[1] çox təsirli, "Sevgilərimlə" çox şirin olardı və yenidən Qeri Natkin qapı arasında peyda olmuşdu. – Yaxşı, hamı öz yerinə! Onları edam kürsüsünə göndərirmiş kimi qüssələnərək qapını açıq qoydu və Emma tələsik, fikrini dəyişdirmədən yazdı:

Allahım, sənincün darıxıram, Deks.

Sonra açıq-mavi məktub kağızının aşağısına imza və balaca "Öpüşlər" qoydu.

Deksterin anası əlində kitab, Pizza della Rotunda kafe masasında, gözləri yumulu, günorta günəşinin son işıqlarını tutmağa

[1] Bütün sevgimlə

Telegram: @cinciva

çalışan quş kimi başı arxaya əyilmiş vəziyyətdə oturmuşdu. Dekster birbaşa yanına getmək əvəzinə, Panteonun pilləkənlərində turistlərin arasında bir dəqiqə ayaq saxlayıb, külqabını almaq üçün gələn ofisiantdan anasının necə ürkməsinə baxdı. Hər ikisi güldü. Anasının ağzının və qollarının dramatik hərəkətlərindən özünün dəhşətverici italyancasıyla danışdığı açıq-aydın hiss olunurdu; əlini ofisiantın qoluna qoyub, əzizləyər kimi nazla vurdu. Nə danışdıqları aydın deyildi, bununla belə, ofisiant da dişini ağardaraq eyni tərzdə qarşılıq verdi; ofisiant anasının yanından uzaqlaşarkən çiyninə toxunub, anlaşılmaz tərzdə danışan bu gözəl ingilis qadına göz yetirdi.

Dekster bütün olanları görüb gülümsədi. İnternatda ilk dəfə qulağına pıçıldanan, oğlan uşaqlarının analarına aşiq olub, atalarına nifrət elədikləri haqqındakı Freydist nəzəriyyə ona məntiqli görünürdü. Tanıdığı hər kəs Elison Meyhyuya vurulurdu, ancaq işin yaxşı tərəfi o idi ki, Dekster elə atasını da, həqiqətən, çox sevirdi; çox şeydə olduğu kimi bu mövzuda da bəxti gətirmişdi.

Anası Oksfordşirdəki evlərinin geniş, yamyaşıl bağlarında etdikləri naharlarda, ya da Fransadakı tətillərdə günəşlənərkən atasının tez-tez ona sevgi dolu baxışlarla göz dikdiyini görürdü. Anasından on beş yaş böyük olan, ucaboy, uzun sifətli, qapalı adam olan Stefan Meyhyu elə görünürdü, sanki uğurlu taleyinə inana bilmirdi.

Anasının tet-tez keçirdiyi mərasimlərdə Dekster sakit oturanda yatmağa göndərməzdilər və o da bütün kişilərin anasının ətrafında necə itaətkar çevrə qurduqlarını müşahidə edərdi; ağıllı, qüsursuz kişilərin hamısı: həkimlər, vəkillər, radio aparıcıları onun yanında yeniyetməyə dönərdilər. Əlində kokteyl qədəhi, Roksi Muzikin ilk albomlarının səsası altında beyni dumanlı və özünə arxayın şəkildə rəqs edərkən o biri qadınlar onun yanında yöndəmsiz və küt görünürdülər. Məktəb dostları da, hətta içində ən özündənrazı olanları belə Elison Meyhyunun yanında karikaturaya çevrilir, nazla-

Telegram: @cinciva

nır, bişirdiyi dəhşətli yeməkləri – istiotu, içində siqaret külü kimi görünən südlü qayğanağı bəh-bəhlə tərifləyərdilər.

O, Londonda modaçılığı oxumuşdu, amma indi Oksfordun alicənab təbəqəsinə bahalı xalçalar və çilçıraqları böyük uğurla satan bir kənd antikvariatları dükanı işlədirdi. Altmışıncı illərdə yaşamasının aurasını hələ də saxlamışdı (Dekster qəzetlərin solğun illüstrasiyalı əlavələrindən kəsilmiş şəkillərini görmüşdü), amma şəkillərdə bunlardan nüfuzlu, təhlükəsiz və rahat ailə həyatına görə imtina etdiyi üçün heç bir kədər, ya da peşmanlıq olmadığı açıq-aşkar görünürdü. Adətən, elə bil mərasimi tərk etməkçün düzgün vaxtı dəqiq hiss edirdi. Dekster onun həkim, vəkil, radio aparıcısı olan bu kişilərə işvə satmasından şübhələnirdi, amma ona hirslənə bilmirdi. Həmişə adamlar eyni şeyi – onun xüsusiyyətlərinin anasına bənzədiyini deyirdilər. Heç kim bunun nə olduğunu açıq-aşkar demirdi, ancaq hamı məlumatlı görünürdü; öncə baxışları, əlbəttə ki, enerjisi, sağlamlığı, həmçinin hədsiz dərəcədə özünə inamı və hər yerdə diqqət mərkəzində olma, həmişə qazanan tərəfdə yer alma hüququ.

Hətta indi rəngi solmuş göy geyimində oturub, nəhəng əl çantasının içində kibrit axtararkən belə Bazar meydanındakı həyat sanki onun başına fırlanırdı. Ürəkşəkilli üzündə, çox baha başa gələn qara saçlarının altında ağıllı qəhvəyi gözləri vardı. Deksteri görəndə üzünün mimikası geniş bir təbəssümlə dəyişdi.

– Qırx beş dəqiqə gecikmisən, cavan oğlan. Haradaydın?

– Ofisianta nazlanmağına tamaşa edirdim.

– Atana deməzsən ha. – Ayağa qalxanda ombasıyla stola vurub Deksteri qucaqladı. – Doğrudan, haradaydın?

– Dərslərimi hazırlayırdım.

Tav Enqstromla birgə qəbul etdiyi duşdan sonra saçları yaş idi. Anası alnındakı saçları düzəldərkən üzünü qayğıyla tutdu. Dekster anasının bir az içkili olduğunu hiss elədi.

Telegram: @cinciva

– Saçın-başın darmadağındı. Səni bu günə kim salıb? Yenə nə avaralıqla məşğulsan?

– Dedim axı, dərslərimi edirdim.

Anası şübhəli-şübhəli dodağını büzdü. – Onda dünən gecə haradaydın? Restoranda səni gözləyirdik.

– Bağışla, təxirə düşdü. Universitet diskotekasındaydım.

– Diskoteka? 1977-ci ildən qalma. Necə yer idi?

– İki yüz skandinaviyalı sərxoş qızın quşunu qondurduğu yer.

– *Quşunu qondurduğu.* Yaxşı ki, bu söz haqqında heç bir məlumatım yoxdu. Əyləncəliydi, heç olmasa?

– Cəhənnəm kimiydi.

Dizinə sığal çəkdi.

– Ah, yazıq, yazıq oğlum.

– Atam haradadı?

– Oteldə balaca yalanlarından biriylə məşğuldur. Yüksək hərarət və səndəllər ayaqlarını narahat etdi. Atanı tanıyırsan, əsl Qalliyalıdı.

– Yaxşı, sən nə işlə məşğulsan?

– Forumun ətrafında dolaşdım. Çox xoşuma gəldi. Stefansa əməlli-başlı vuruldu. Hər tərəf xarabalıq, bütün ərazi üstündə uzanan sütunlar... Məncə, hər şeyi buldozerlə dağıdıb yerinə gözəl bir istixana, ya da ona oxşar bir şey tikmək olar.

– Hələ Pfaltsqrafa getməlisən. Təpənin zirvəsində...

– Pfaltsqrafın harada olduğunu bilirəm, Dekster, mən Romanı sən doğulmamışdan qabaq gəzmişəm.

– O vaxt Romanın imperatoru kim idi?

– Hah. Bu şəraba kömək elə, bir şüşəni tək içməyə qoyma.

Artıq kefliydi, amma şərabı son damlasına qədər stəkanına süzüb siqaretini götürdü. Elison narazılığını bildirdi. – Bilirsən, bəzən fikirləşirəm ki, bu liberal valideyn məsələsini həddindən artıq böyütmüşük.

Telegram: @cinciva

– Tamamilə razıyam. Məni məhv elədiniz. Kibriti ver.

– Bilirsən, heç məntiqli deyil. Bilirəm, sən özünün bir kino ulduzu olduğunu düşünürsən, əslində, elə deyil, bu, dəhşət görünür.

– Eləsə, niyə belə eləyirsən?

– Çünki bu məni həyəcanverici göstərir, – dodağına siqaret qoyub kibritlə yandırdı. – Atacam bunu da. Bu, axırıncı siqaretimdi. İndi tez, elə atan da yoxkən... – Anası mənalı-mənalı baxaraq Deksterə daha da yaxınlaşdı. – Mənə eşq həyatından danış.

– Yox!

– Danış, Deks! Sən bilirsən ki, mən bunları ancaq uşaqlarım vasitəsilə yaşamaq məcburiyyətində qaldım, bacınsa tam bakirə...

– Sən sərxoşsan, yaşlı xanım?

– İki uşağı necə olub, mən heç vaxt bilməyəcəm...

– Sərxoşsan.

– Mən içmirəm, unutmusan? – Bir gecə, on iki yaşındaykən anası Deksteri mətbəxə aparıb, təntənəli mərasim keçirən kimi ciddi bir ifadəylə martininin necə hazırlandığını başa salmışdı.

– Davam elə, ürəyini boşalt. Bütün xırdalıqlarıyla danışmağını istəyirəm.

– Deyəcək heç nə yoxdu.

– Romada heç kim yoxdu? Qəşəng bir katolik qız-filan?

– Yox.

– Ümid eləyirəm, tələbə deyil.

– Əlbəttə, yox.

– Bəs İngiltərədə? Sənə göndərdiyimiz o uzun, üstündə göz yaşı ləkələri olan məktubları kim yazır?

– Bu, sizin işiniz deyil.

– Açdırma ağzımı, özün danış!

– Deyəcək heç nə yoxdu.

Stula söykəndi: – Məni məyus elədin. Bəs o vaxt bizə qalmağa gələn yaxşı qız necə oldu?

Telegram: @cinciva

– Hansı qız?

– Qəşəng, ciddi, şimallı qız. Sərxoş olandan sonra atana Sandinistaların üstündə bağıran qız.

– Emma Morli.

– Emma Morli. Onu bəyənmişdim. Hətta onu burjuaziya faşisti adlandırsa da, atan da Emmanı bəyənmişdi.

Dekster bunu eşidəndə diksindi.

– Etiraz eləmirəm, o qızda, ən azından, bir az atəş, bir az ehtiras vardı. Adətən, səhər yeməyində qarşılaşdığımız bu səfeh seksbombalar kimi deyildi. *Bəli, xanım Meyhyu, xeyr, xanım Meyhyu.* Gecənin bir yarısında barmaqlarının ucunda qonaq otağına girdiyini indiki kimi eşidirəm...

– Sən, həqiqətən də, sərxoşsan, hə?

– Yaxşı, bəs Emma?

– Emmayla, sadəcə, dostuq.

– Hələ də? Mən o qədər də əmin deyiləm. Əslində, məncə, o qızın səndən xoşu gəlir.

– Məndən hamının xoşu gəlir. Bu, mənim lənətimdir.

Sözlər beynindəykən özünə də xoş gəlmişdi: göstərişli, özünü qıcıqlandıran kimi. Amma indi özünü bir daha axmaq kimi hiss edirdi; eynən illər öncə anasının yetkin adamlarla bir yerdə oturmağına icazə verdiyi mərasimlərdə lovğalanıb, anasını məyus etdiyi vaxtlardakı kimi. Anası ona anlayışla gülümsəyib, stolun üstünə qoyduğu əlini sıxdı.

– Yaxşı adam ol, yaxşı?

– Mən, onsuz da, yaxşıyam, həmişə yaxşıyam.

– Amma həddindən artıq da yaxşı olma. Yəni düzgünlüyü din halına gətirməməyi nəzərdə tuturam.

– Eləmərəm. – Narahatlıqla meydana tərəf baxmağa başladı.

Telegram: @cinciva

Anası dirsəyilə Deksterin qolunu itələdi. – Həə, yenə bir şüşə şərab istəyirsən, yoxsa otelə qayıdıb atanın iylənmiş ayaqlarına baxaq?

Via del Korso ilə paralel xəlvəti küçələrdən şimala – Piazza del Popoylaya tərəf getməyə başladılar; Dekster mümkün olduğu qədər mənzərəli səhnə hazırlamış, həmçinin şəhəri yaxşı tanımağın həzziylə özünü daha da yaxşı hiss etməyə başlamışdı. Anası sərxoş halda qolundan asılmışdı.

– Burada nə qədər qalmaq fikrindəsən?

– Bilmirəm. Bəlkə oktyabra qədər qaldım.

– Amma sonra evə qayıdıb, bizimlə oturuşmağa başlayacaqsan, elə?

– Əlbəttə.

– Bizimlə birlikdə yaşamağını nəzərdə tutmurdum. Səndən bunu istəmərəm. Amma bilirsən, mənzil kirayələməkçün sənə kömək edə bilərik.

– Tələsmirik ki, elə deyil.

– Yaxşı da, bir il keçdi, Dekster. Daha nə qədər bayram edəcəksən? Demək olar ki, universitetdə də özünü əziyyətə salıb oxumurdun...

– Tətildə deyiləm ki, işləyirəm.

– Bəs jurnalistlik? Jurnalistika haqqında danışmırdın bəs?

Haçansa bu barədə danışmışdı, amma bu ona, sadəcə, vaxtını keçirməkçündü, əyləncəydi. Elə görünürdü ki, son gənclik illərindən gəzə-gəzə irəliləyərəkən bütün imkanları yavaş-yavaş daralmağa başlamışdı. Qulağa kifayət qədər təmtəraqlı gələn ürək cərrahı, memar kimi peşələrin qapısı Dekster üçün artıq daimi olaraq bağlıydı və belə görünürdü ki, jurnalistikada da eyni yolu getməyə hazırlaşır. Yaxşı yazmağı bacarmır, siyasətdən çox başı çıxmırdı, fransızcası da pis idi, heç bir fəaliyyəti tamam deyildi; sadəcə, bir pasportu və tropik ölkələrdə tavan sərinkeşinin altında uzanıb, ya-

Telegram: @cinciva

nında batareyalı Nikon fotoaparatı və siqaret çəkə-çəkə bir şüşə viski içən parıltılı imici vardı.

Əlbəttə, əsl istədiyi fotoqraf olmaqdı. On altı yaşı olanda "Struktur" adlandırdığı bir məktəb layihəsi hazırlamışdı. Müxtəlif ağacların və dəniz balıqqulağılarının yaxından çəkilmiş şəkilləri ilə hazırlanmış bu ağ-qara iş incəsənət müəllimini açıq-aydın heyran eləmişdi. O vaxtdan sonra etdiyi heç bir şey ona "Struktur"un verdiyi məmnunluq duyğusunu yaşatmamışdı. Jurnalistika sözlər və ideyalarla iş tələb edən çətin iş olmalıydı; amma obyektlərin necə görünmələri mövzusunda güclü bir hissi olduğuna inandığı üçün yaxşı fotoqraf ola biləcəyini fikirləşirdi. Həyatının indiki mərhələsində karyera seçmək üçün yeganə kriteriyası barda oturub bir qızın qulağına "Mən professional fotoqrafam" deyə bağırmağın qulağa xoş gəlməsiydi. Bununla yanaşı, "Müharibə zonasından məlumat verirəm", ya da "Sənədli filmlər hazırlayıram" kimi cümlələr işlətmək, həqiqətən də, gözəl olardı.

– Jurnalistika ehtimaldır.

– Və ya biznes. Kellumla biznes qurmağa hazırlaşmırdınız?

– Bir az elə fikirləşirik.

– Bu, bir qədər qeyri-müəyyən səslənir, sadəcə, "biznes".

– Dediyim kimi, hələ fikirləşirik. – Əslində, onun köhnə ev yoldaşı Kellum artıq təkbaşına biznesə başlamışdı. Nəsə Deksterin başa düşməyə hövsələsi çatmayan kompyuter bərpası haqqında bir iş idi. Kellum iddia edirdi ki, iyirmi beş yaşları olanda milyoner ola bilərdilər; amma bir barda bu işlə məşğul olduğunu demək necə səslənərdi? "Kompyuter bərpasıyla məşğulam". Yox, professional fotoqraflıq onun üçün ən yaxşısı olardı. O, bunu bərkdən demək qərarına gəldi.

– Doğrusu, mən fotoqrafiya haqqında fikirləşirəm.

– Fotoqrafiya? – Anası dəli kimi gülməyə başladı.

– Hey, mən yaxşı fotoqrafam!

Telegram: @cinciva

– ... Baş barmağını lupadan çəkmək yadına düşən vaxtlarda.

– Məni bir az həvəsləndirə bilməzsən?

– Necə fotoqraf olmaq istəyirsən? *Qlamur?* – Anası xırıltılı səslə güldü. – Yoxsa *"Struktur"*a davam edəcəksən?! – dedi. Anası ikiqat olub, bir əliylə qarnını tutaraq gülməyini kəsənəcən küçənin ortasında dayandılar. "Bütün *çınqıl daşı* şəkilləri!" Nəhayət, xanım Meyhyu sakitləşib düz dayandı və üst-başını düzəltdi. – Çox, çox üzr istəyirəm, Dekster...

– Əslində, indi daha yaxşıyam.

– Bunu bilirəm, bağışla. Üzr istəyirəm. – Onlar yenidən gəzməyə başladılar. – Əgər bunu istəyirsənsə, mütləq etməlisən, Dekster. – Anası Deksterin qolunu dirsəyiylə sıxdı, amma Dekster qaşqabağını tökmüşdü. – Sənə həmişə demişik ki, bir az zəhmət çəksən, istədiyin hər şey olacaq".

– Bu, sadəcə, bir fikir idi, – hövsələsizcə dedi. – Seçimlərimi tarazlaşdırıram, bu qədər.

– Lap yaxşı, elə olsun. Çünki müəllimlik yaxşı sənətdir, lakin, həqiqətən də, sənlik deyil, elədi? Ağbəniz skandinav qızlara "Bitlz"ın mahnılarını öyrədərsən.

– Bu, çətin işdi, ana. Bir də ki, mənə bir işin arxasınca düşməyə imkan verir.

– Bəli, düzdür, amma bəzən fikirləşirəm ki, nələrinsə ardınca həddindən artıq düşürsən. O, başıaşağı danışarkən daş plitə döşənmiş küçəylə gedirdilər. Bir müddət danışmadan yeridilər.

– Bu, nə deməkdir axı?

– Heç, elə-belə... – Anası ah çəkib başını Deksterin çiyninə qoydu. – Mən, sadəcə, demək istəyirdim ki, bir yerdən sonra həyata daha ciddi yanaşmalısan, vəssalam. Sən indi gəncsən, sağlamsan, kifayət qədər də yaraşıqlısan. Elə görünür ki, ətrafındakı adamlar səni xoşlayır; ağıllısan, kifayət qədər ağıllısan, akade-

Telegram: @cinciva

mikcəsinə yox, bəlkə də, amma nəyin nə olduğunu bilirsən. Bəxtin var, çox şanslısan, Dekster, bu günə qədər hər şeylə təmin olunmusan. Lakin artıq yetkin adamsan və bir gün hər şey bu qədər... – Anası ətrafına, Deksterin onu gətirdiyi xəlvəti küçənin görünüşünə baxıb sözünü davam elətdirdi, – ...yolunda getməyə bilər. Buna hazırlıqlı olsan, daha yaxşı olar. Daha qənaətcil olsan, sənin üçün daha yaxşı olar.

Dekster qaşqabağını tökdü: – Necə yəni, karyeranı nəzərdə tutursan?

– Qismən.

– Lap atam kimi danışırsan.

– Aman, Allahım, nə baxımdan?

– Doğru-düzgün iş, arxasıyca getməkçün nələrsə, filan.

– Tək bu deyil, sadəcə, bir iş yox. Bir istiqamət. Məqsəd. Bir az hücum, bir qədər iddia. Mən sənin yaşında olanda dünyanı dəyişmək istəyirdim.

Dekster fısıldadı. – Nəhayət, antikvariat mağazasını əldə elədin. – Anası dirsəyi ilə qabırğalarına yaxşıca dümsük vurdu.

– Çoxbilmişlik eləmə. – Deksterin qoluna girib, təzədən yavaş-yavaş gəzməyə başladılar. – Məni qürurlandırmağını istəyirəm, bu qədər. Sənin lə də, bacınla da qürur duyduğumu bilirsən, onsuz, amma nə demək istədiyimi bilirsən. Bir az sərxoşam. Gəl mövzunu dəyişək. Sənin lə başqa şey haqqında danışmaq istəyirdim.

– Başqa nə?

– Ah, çox gecdi. – Otelə gözucu baxdılar; üçulduzlu, amma dəbdəbəli olmayan bir otel idi. Şüşəli pəncərənin arxasından atasının foyedəki bir kresloda oturub, bir qıçını o birinin üstünə aşırıb, corabı əlində, dizinə qədər əyilmiş vəziyyətdə ayaq dabanını eşələdiyi görünürdü.

Telegram: @cinciva

– Aman, Allahım, döyənəklərini otel foyesində təmizləyir. Via del Korsonun düz ortasında bir Uelsli. Heyranedicidir, sadəcə, məftunedici. – Elison oğlunun əlini ovcunun içinə götürdü. – Sabah məni səhər yeməyinə çıxara bilərsən? Atan qaranlıq otağında oturub döyənəklərini təmizləyən vaxt. Çölə çıxaq, sadəcə, ikimiz, qəşəng meydanda harasa bir yerə gedək. Ağ süfrələr. Harasa bahalı bir yer olsun, mən ödəyəcəm. Maraqlı çınqıl daşı şəkillərindən bir-ikisini də gətirə bilərsən.

Qaşqabağını töküb:

– Yaxşı, – dedi. – Anası gülümsəyirdi, amma o da həddindən artıq qaşqabaqlıydı. Birdən əlini çəkdi və o anda Dekster kəskin narahatçılıq duyğusu hiss elədi. – Niyə?

– Çünki yaraşıqlı oğlumla danışmaq istəyirəm, indisə çox sərxoşam.

– Nə olub? İndi danış.

– Heç nə olmayıb, heç nə.

– Boşanmağa hazırlaşmırsınız, elə deyil?

Anası qəhqəhə çəkdi.

– Gülünc olma, əlbəttə ki, yox. – Atası foyedən onları görüb ayağa durmuşdu və itiləyərək açılan qapını dartışdırırdı.

– Axı mən köynəklərini tumanının içində gizlədən adamı necə tərk edə bilərəm?

– Onda danış görüm nə olub?

– Pis bir şey deyil, şirin balam, pis şey deyil. – Anası küçənin ortasında ona təskinlik verirmiş kimi gülümsədi və əlini onun boynunun arxasındakı qısa saçlarının üstünə qoyub, Deksteri öz boyuna qədər aşağı əydi, beləcə, alınları bir-birinə dəydi. – Buna görə narahat olma. Sabah. Sabah ətraflı şəkildə danışacağıq.

Telegram: @cinciva

III fəsil

Tac-Mahal

15 iyul. 1990-cı il. Bazar

Bombey və Kamden şəhəri

"LÜTFƏN, DİQQƏT! Xahiş etsəm, diqqət ayırarsınızmı? Bura bir az diqqət edin, etirazınız yoxsa? Dinləyə bilərsinizmi? Şeyləri atmayın, lütfən, qulaq asın. Lütfən? LÜTFƏN, DİQQƏT!? Təşəkkürlər".

Skot Makkenzi öz bar kətilində oturub, hamısı iyirmi beş yaşdan aşağı olan, hamısı da ağ cins parçadan paltarlar və şirkətə aid beysbol şapkaları geymiş, əslində, haradasa başqa yerdə olmağı arzulayıb məcburən burada – havanın da, yeməyin də qaynar olduğu Kentiş şəhər yolu üstündəki Meksika (Tex-Mex) restoranında, Loko Kəlintinin bazar günü növbəsində olan səkkiz üzvlü komandasına baxırdı.

"İndi günorta yeməyi üçün qapıları açmadan öncə "xüsusi" deyilən şeyləri gözdən keçirmək istəyirəm, əgər mümkünsə. Şorbamız həmişəki kimi, şirin qarğıdalılı duru xörək, əsas yeməksə çox ləzzətli, içi doldurulmuş balıq olacaq!"

Skot dərindən nəfəs alıb, iniltisinin və yalandan öyüməsinin keçməyini gözlədi. O, balaca, solğun qızarmış gözləri olan, sənaye maqnatı olmağa ümid edən və Lafborodan İşgüzar İdarəetmə dərəcəsi almış bir adam idi. Özünü konfrans mərkəzlərində qolf oy-

Telegram: @cinciva

nayarkən, ya da özəl təyyarəsinin pilləkənlərindən qalxarkən təsəvvür eləyirdi, amma elə bu sabah mətbəx çıxıntısından insan başının ölçüsündə sarı rəngli donuz yağı çıxartmışdı. Yalın əlləriylə. Hələ də barmaqlarının arasındakı piyi hiss eləyirdi. O, otuz doqquz yaşındaydı və bu yaşda, bu yerdə olmağı heç istəməzdi.

"Əsas da, bu, sizin standart içi doldurulmuş donuz, toyuq, mal ətli yeməyinizdi, amma burasına diqqət, "ləziz treska və qızıl balığı tikələriylə" birlikdə. Kim bilir, bəlkə hətta içində bir-iki krivet də ola bilər".

– Bu, sadəcə... dəhşətlidi, – deyə barın arxasında, pivə şüşələrinin boyunlarına keçirməkçün limon dilimləməkdə olan Peddi güldü.

Emma Morli öz ofisiant önlüyünü bağlayarkən: – Latın Amerikası mətbəxinə bir az Şimali Atlantika toxunuşu, – dedi və elə o anda Skotun arxasında dayanan böyük, möhkəm bədənli, silindrvarı böyük başında xoşagələn qıvrım saçları olan, yeni gəlmiş oğlanı gördü. Yeni oğlan. İşçilər yeni gələn oğlanı göydən gələn adam kimi gözdən qoymurdular.

– Daha bir gözəl xəbərim də var, – Skot dedi. – Bizim yüksək, üstün xüsusiyyətli insanlardan ibarət xoşbəxt komandamıza yeni qoşulan Yan Vaythedi sizə təqdim etmək istərdim. – Yan beysbol şapkasını başının arxasına itələyərək, salamlaşmaq üçün qolunu havaya qaldırdı. Amerikan ləhcəsiylə: "Salam, millət!" – dedi.

– *Salam, millət*? Skot bunları haradan tapır, ee? – Peddi barın arxasından kişnəyərək güldü, səsi yeni gələn oğlanın eşidə biləcəyi qədər bərkdən çıxmışdı.

Skot palmayla Yanın çiyninə şappıltıyla vurdu, Yan yerindən atıldı: – Beləliklə, mən səni ən köhnə işçimiz Emmaya təhvil verirəm!

Emma bu mükafat qarşısında bir anlıq səksənsə də, sonra yeni gələn oğlana utanaraq gülümsədi, o da ona ağzını sıxmış halda gülümsəyərək qarşılıq verdi; bir Sten Lorel təbəssümü.

Telegram: @cinciva

– O, sənə əsas işi göstərəcək, hamısı bu qədər, millət. Unutmayın! İçi doldurulmuş balıq – burrito! İndi musiqi, lütfən!

Peddi barın arxasından maqnitofonun yağlı düyməsini basdı və musiqi başladı; kifayət qədər dəqiq "La Cucaracha", tarakan deyə başlayan, səkkiz saatlıq növbədə on iki dəfə qulaq asılan, qıcıqlandırıcı qırx beş dəqiqəlik dövrə halındakı süni bir mariaçi musiqisi idi. Bir növbədə on iki dəfə, ayda iyirmi dörd növbədən yeddi ay. Emma əlindəki beysbol şapkasına baxdı. Restoranın loqosu onun sambrerosunun altından domba gözləriylə baxan bir eşşəkdi; sərxoş kimi görünürdü, bəlkə də dəli. O, şapkanı başına qoydu və özünü buzlu suya atar kimi bar kətilinə tərəf sürüşdü. Yeni gələn oğlan barmaqlarının ucları tərtəmiz ağ cins şalvarının ciblərində, gülümsəyərək onu gözləyirdi və Emma bir daha öz həyatıyla dəqiq nə etdiyini bilmək istədi.

Emma, Emma, Emma. Necəsən, Emma? Düz bu saniyə nə edirsən? Biz burada – Bombeydə altı saat irəlidəyik, ümidvaram, bu bazar sabahında sən hələ də yatağındasan, qalxmağa tənbəllik edirsən: OYAN! MƏNƏM – DEKSTER!

Bu məktub qorxunc döşəkçələrinin və sağı-solu bəlli olmayan təhlükəli avstraliyalıların olduğu Bombey şəhər mərkəzi yataqxanasından gəlir. Bələdçi kitabçam mənə buranın bir xarakterik xüsusiyyəti olduğunu deyir – yəni gəmiricilər. Bir də, otağımda – pəncərənin yanında plastik piknik stolu var. İndi bayırda leysan yağış yağır, hətta Edinburqdan da daha möhkəm. GÖY GURULDADI, Em; o qədər güclü gurultu var ki, mənimçün hazırladığın kompilyasiyanı güc-bəlayla eşidə bilirəm. Pasxada mənə verdiyin kitabları da oxumağa çalışıram; baxmayaraq ki, Hovardz Endin olduqca çətin irəlilədiyini boynuma almaq məcburiyyətindəyəm. Bu, iki yüz səhifə boyunca eyni fincan çayı içməyə bənzəyir və mən

Telegram: @cinciva

hələ də birinin bıçaq çəkməsini, ya da yadellilərin basqınını, nəyisə, belə şeylərin olmasını gözləməyə davam edirəm; amma o cür olmayacaq, elə deyilmi? Bilmək istəyirəm ki, məni öyrətməyə çalışmağı nə vaxt dayandıracaqsan? Ümid edirəm, heç vaxt.

Yeri gəlmişkən, əgər bu zərif sözlərdən və bütün bu QIŞQIRIQDAN bir şey anlamadınsa, deyim ki, bunları içkiliykən yazıram, naharda pivə içmişəm! Sənin də bildiyin kimi, mən sənin kimi böyük məktub yazarı deyiləm (axırıncı məktubun çox məzəliydi), amma deyim ki, Hindistan ağlasığmaz bir yerdir. Xarici dil olaraq ingilis dili müəllimliyi etməyimin qadağan edilməsinin mənimçün ən yaxşı şey olduğu ortaya çıxdı. (Baxmayaraq ki, mən kəskin reaksiya verdiklərini fikirləşirəm. Mənəvi cəhətdən düzgün deyil? Mən? Tavın iyirmi bir yaşı vardı.) Səni Hindiquş dağlarının üzərində günün doğmasının təsvirilə darıxdırmayacağam, sadəcə, bütün o klişelərin doğru olduğunu demək istəyirəm (aclıq, yoxsulluq və buna bənzər başqa şeylər).

Yalnız zəngin və qədim sivilizasiyaya deyil, aptekdən reseptsiz nələr ala biləcəyinə də İNANMAZSAN.

Təəccüblü şeylər gördüm, həmişə əyləncəli olmasa da, bir təcrübəydi; minlərcə şəkil çəkmişəm, gələndə sənə yavaaaaaş-yavaaaaş göstərəcəm. Yalandan özünü elə göstərərsən ki, güya maraqlıdır, yaxşımı? Həm mən sənin Adambaşına Vergi mövzusundakı Qiyamlarla bağlı danışdıqlarına guya maraqlıymış kimi qulaq asmışdım. Nə isə, şəkillərimdən bəzilərini o gün qatarda rastlaşdığım televiziya prodüseri olan qadına göstərdim (fikirləşdiyin kimi deyil, yaşlı qadındır) və o, mənə bu işi peşəkar olaraq edə biləcəyimi dedi. O, bura televiziyaya gənclərlə bağlı səyahət proqramı hazırlamaq üçün gəlib. Mənə kartını verdi, avqustda qayıdanda ona zəng etməyimi istədi, kim bilir, bəlkə araşdırmalar apararam, hətta film çəkərəm.

Telegram: @cinciva

Sənin işlərin necədi? Başqa tamaşada oynayırsanmı? Londonda olanda Virciniya-Vulf-Emili-bilmirəm kimin tamaşına, çox xoşum gəldi. Verilmiş vədlərinin yükünü cəfəngiyat kimi göstərsə də, həqiqətən, həqiqətən, zövq aldım. Düşünürəm ki, aktyorluğu atmaqda haqlısan, ona görə yox ki, sən yaxşı aktrisa deyilsən, ona görə ki, sən bu işə açıq-aydın nifrət edirsən. Kendi də yaxşı qızdı, sən dediyindən daha yaxşı. Ona sevgilərimi çatdır. Təzə tamaşa yazmırsan? Hələ də o qutu boyda otaqda qalırsan? Mənzildən hələ də qızardılmış soğan qoxusu gəlir? Tilli Killik hələ də öz böyük boz lifçiklərini qab-qacaq yuyulan çanağa soxur? Sən hələ də adı Muço Loko[1] idi, hər nə isə, oradasan? Axırıncı məktubun məni çox güldürdü, Em, amma yenə də oradan çıxmalısan, zarafat etmək, gülməkçün yaxşı yer olsa da, sənin ruhun üçün, şübhəsiz ki, pisdir. Məzəli lətifələr qoşacaqsan deyə həyatının geri qalanını yelə verə bilməzsən.

Sənə yazmağımın səbəbinə gəlincə... Hazırsan? Bəlkə də oturmaq istərdin...

– Həəə, Yan... Ehtiraslar məzarlığına xoş gəldin!

Emma işçilərin otağının qapısını döyəndən sonra dərhal açarkən, dünən gecədən qalma bir pivə parçına dəyərək döşəməyə saldı. Rəsmi səfər onları indidən Kamden Marketə, xəzli şapkalar və gülümsər üzlü tennis köynəkləri almağa getmək üçün buradan keçən tələbələr və turistlərlə dolmuş Kentiş şəhər yoluna baxan işçi otağına gətirib çıxarmışdı.

– Loko Kəlint "dəlicə isti" deməkdir; "isti" – kondisionerlərin işləmədiyinə görədi, "dəlicə" – ona görə ki, burada yemək yeməkçün ancaq dəli olmaq lazımdı. Ya da burada işləməkçün; eyni şey deməkdi. *Mucho mucho loco*. Sənə əşyalarını qoymaq üçün yer

[1] İspanca: zır dəli

Telegram: @cinciva

göstərəcəm. – Birlikdə təpikləyərək keçən həftənin qəzet yığınını dəmir-dümürü çıxmış, köhnə ofis dolabına təpişdirdilər. – Bu da sənin dolabın. Qapısı bağlanmır. Gecələr uniformanı, ya da başqa əşyanı burada qoyma, yoxsa kimsə götürər. Niyəsini Allah bilir. Beysbol şapkanı itirsən, idarə heyəti çox hirslənər, səni barbekü sousu çəlləyində boğarlar...

Yan səmimi, bir az da zorən qəhqəhəylə güldü, Emma ah çəkərək işçilərin hələ keçən gecədən qalma çirkli boşqablarla dolu nahar stoluna tərəf çevrildi.

– Yemək saatları iyirmi beş dəqiqədir, menyudan nəhəng krevetlərdən başqa istədiyin hər şeyi götürə bilərsən, çünki, məncə, bu, sənin xeyrinədir. Əgər həyatın sənincün qiymətlidirsə, nəhəng krevetlərə toxunma. O, rus ruletinə oxşayır, altı dənəsindən biri mütləq öldürür. – O, stolu yığışdırmağa başladı.

Yan bulaşıq qablardan birini diqqətlə barmaqlarının ucuyla qaldırıb: *"Bir dəqiqə, icazə ver..."* – dedi. *"Təzə oğlan, deyəsən, çox sofudur"*, – Emma onu müşahidə edərkən fikirləşdi. Solğun sarı, qıvrım saç buruqlarının aşağısında xoş, böyük, geniş üzü, al rəngli, alma kimi hamar yanaqları, sanki yatarkən açıq qalmış kimi qalan ağzı vardı. Dəqiq olaraq yaraşıqlı demək olmazdı, amma necə deyərlər – aslan kimi möhkəmdi. Nə üçünsə üzü, bir az kobud çıxsa da, onu traktora bənzətməyə məcbur edirdi.

Qəfildən baxışları toqquşdu və Emma fikirləşmədən soruşdu:

– Mənə de görüm, Yan, səni bu Meksika yoluna gətirən nədir?

– Ah, bilirsən, icarə haqqını ödəmək məcburiyyətindəyəm.

– Əlindən gələn başqa heç bir iş yoxdur? Ailənlə bir yerdə yaşayıb, başqa yerdə işləyə bilməzdin?

– Londonda olmalıyam, bir az çevik iş saatlarına ehtiyacım var...

– Niyə, sənin yolun necədi?

– Mənim nəyim?

Telegram: @cinciva

– Yolun. Burada hamının öz yolu var. Ofisiant-yol-sənətçi, ofisiant-yol-aktyor. Barmen Peddi model olduğunu iddia edir, amma səmimi desəm, mən şübhə edirəm.

– Hmmmm, – Yan Şimal ləhcəsiylə dedi, – güman edirəm ki, məzhəkəçi olduğumu deyə bilərəm! – Qımışaraq əllərini üzünə tərəf apardı.

– Yaxşı, gülməyi hamımız xoşlayırıq. Yumoristik səhnələr hazırlayırsan, ya necə?

– Mən?

– Səninki hansı yoldu? Sən başqa nə işlə məşğulsan?

Emma "dramaturq" demək istədi, ancaq üç ay keçməsinə baxmayaraq, Emili Dikinsonun tamaşaçısız boş zal üçün oynanılması hələ də bir təhqir kimi ürəyini yandırırdı. "Dramaturq" demək yerinə kosmonavt da deyə bilərdi; ən azı, o birisi qədər həqiqətdi. "Ah, mən bunu edirəm... – Köhnə kətənin üstündəki pendir qabığını soydu. – Mənim işim budur.

– Xoşlayırsanmı, heç olmasa?

– Xoşlamaq? Bu işi sevirəm! Odundan hazırlanmadığımı nəzərdə tuturam.

Emma dünəndən qalma ketçup yaxıntısını çirkli dəsmalla silib, qapıya tərəf çevrildi. – İndi icazə ver, sənə tualetləri göstərim. Möhkəm dur...

Bu məktubu yazmağa başlayandan bəri daha iki parç pivə içmişəm, bunu sənə deməyə də artıq hazıram. Belə. Em, bir-birimizi beş-altı ildir ki, tanıyırıq, amma elə sənin də bildiyin kimi, iki ilə yaxındır, normal şəkildə "dostuq"; çox uzun zaman deyil, di gəl fikirləşirəm ki, səni bir az tanıyıram və probleminin nə olduğunu bilirəm. Xəbərdar etmək istəyirəm ki, antropologiyadan 2,2 alırdım, yəni nə danışdığımı bilirəm. Əgər mənim nəzəriyyəmi bilmək istəmirsənsə, bu dəqiqə oxumağı dayandır.

Telegram: @cinciva

Yaxşı. Buyur. Fikirləşirəm ki, sən xoşbəxt olmaqdan qorxursan, Emma. Sən həyatındakı hər şeyin təbii yolunun boz, maraqsız, qaraqabaq, işinə, yaşadığı yerə nifrət eləmək, uğursuz və cibiboş, oğlan dostuna icazə verməmək (balaca bir açıqlama; sənə deyim ki, cəlbedici olmamağın mövzusunda özünü alçaltmağın yavaş-yavaş çox darıxdırıcı olur) olduğunu fikirləşirsən. Əslində, bir az da irəli gedib, sənin öz uğursuzluqlarından, məyus olmağından zövq aldığını deyəcəyəm, çünki bu daha asandır, elə deyilmi? Uğursuzluq və bədbəxtlik də ona görə asandır ki, bunları lağa qoya bilərsən. Bu, sənin zəhləni tökürmü? Mərc gələrəm ki, elədir. Dayan, mən hələ indi başlamışam.

Em, mən səni tavanında sallanan lampalar, qəribə səslər və qoxularla dolu o dəhşətli mənzildə, ya da camaşırxanada oturarkən təsəvvür eləməyə nifrət edirəm; yeri gəlmişkən, bu zamanda və bu yaşda camaşırxanadan istifadə etməyinin də elə bir mənası yoxdu, camaşırxanadan istifadə artıq nə dəbdəbəli, nə də siyasi yanı olan bir şeydi, bu, sadəcə, özünə zülm verməkdi. Bilmirəm, Em, sən gəncsən, demək olar ki, dahisən, amma hələ də sənin yaxşı vaxt keçirmə ideyanın məzmunu özünə qabyuyan kimi yanaşmağından ibarətdir. Məncə, sən daha yaxşısına layiqsən. Sən ağıllı, şux, nəzakətlisən (mənə qalsa, çox nəzakətli) və şübhəsiz, tanıdığım ən ağıllı adamsan. Və (burada bir az da pivə içirəm... dərin nəfəs) həmçinin çox cazibədar qadınsan. Və (bir az da pivə) baxmayaraq ki, yazmağı xoşlamıram, bir o qədər də "seksisən". Kiməsə "seksi" demək siyasi baxımdan yanlışdır deyə üstünü qaralayan deyiləm, çünki bu, eyni zamanda, HƏQİQƏTDİR. Sən çox gözəlsən, ay səni ifritə, əgər nə vaxtsa mən sənin həyatının qalan hissəsi üçün hədiyyə verəcək olsam, o da bu olar – İnam. İnam, ya da ətirli şam.

Mən sənin yazdığın məktublardan başa düşdüyüm qədəriylə və tamaşandan sonra səni görəndə həyatını necə qurmaq mövzusun-

Telegram: @cinciva

da bir az kələfin ucunu qaçırdığını, məqsədini itirdiyini hiss elədim; amma yaxşı ki, hər şey qaydasındadır, çünki biz hamımız iyirmi dörd yaşında elə oluruq. Əslinə baxsan, bizim bütün nəslimiz belədir. Mən bu haqda bir məqalə oxudum, bu ona görədi ki, biz heç vaxt müharibədə vuruşmamışıq, ya da həddindən artıq televiziya və başqa şeylər izləyirik. Yeri gəlmişkən, kələfin ucunu itirməyən, məqsədi olan adamlarsa Tilli-lənətə gəlmiş-Killik, ya da Kellum O`Nil və öz təmir olunmuş kompyuterləri kimi darıxdırıcı, avara, vəzifəpərəst tiplərdir. Əlbəttə ki, mənim də heç bir planım yoxdu, əminəm, sən mənim işlərimim yolunda getdiyini fikirləşirsən, ancaq yox, mən də narahatam; mən bircə pul, yaşayış yeri, Leyborist Partiyasının gələcəyi, iyirmi il sonra harada olacağım və cənab Mandelanın azadlığı necə təmin edəcəyindən narahat deyiləm.

Növbəti paraqrafa başlamazdan əvvəl bir az nəfəsimi dərim, çünki güclə başlamışam. Bu məktub həyat dəyişdirən kulminasiya nöqtəsi olmağa başladı. Məni buna hazır olub-olmadığın maraqlandırır.(Buna hazırsan?)

Haradasa, işçilərin tualetləriylə mətbəx arasındakı bir yerdə Yan Vaythed şou göstərməyə girişdi.

– Heç sən nə vaxtsa super marketdə olanda, məsələn, əlində altı, ya da bir az az ərzaqla kassa növbəsində gözləyərkən qarşında, məsələn, yeddi ərzaqla gözləyən yaşlı bir qadın olubmu? Sən də orada durub bunları sayaraq çooooooox əsəbiləşmisən...

– Aman, Allahım, – deyə Emma dodağının altında donquldandı, mətbəxin hərlənən qapısını təpikləyərək açar-açmaz Meksika istiotları və camaşır suyu qarışığından ibarət isti hava divarı gözlərini yandırdı. Kasetlərdə uca səslə *"turş ev"* mahnısı çalınır, bir somalili, bir əlcəzairli və bir brazilyalı işçi ağ plastik yemək çəlləklərinin qapağını güclə açmağa çalışırdı.

Telegram: @cinciva

– Sabahınız xeyir, Benoyt, Kamal. Salam, İsa, – Emma sevinclə dedi; onlar da sevinclə gülümsəyib, başlarını yırğalayaraq qarşılıq verdilər. Emmayla Yan elan lövhəsinə tərəf irəlilədilər. Emma kimsə qidadan boğularsa, nə etmək lazım olduğunu başa salan lövhəni göstərdi. Bunun yanında qıraqları cırılmış böyük bir kağız parçası sancaqlanmışdı; Texas-Meksika sərhədinin perqament xəritəsi idi. Emma barmağını xəritənin üstünə qoydu.

– Bu şey xəzinə xəritəsinə bənzəyir, elə deyil? Amma ümidlərini artırma, çünki bu, sadəcə, menyudur.. Burada qızıl yoxdu, dostum, sadəcə, beş aparıcı – qiymə, paxla, pendir, cücə və *guacamole* – Teks-Meks yemək qrupu üçün yerləri dəyişdirilərək istifadə ediləcək qırx səkkiz məmulat var. – Barmağını xəritənin üzərində gəzdirdi. – Belə, Şərqdən Qərbə tərəf getsək, paxlalı cücə, üzərinə pendir; *guacamole* üzərinə cücə, ən üstdə pendir; qiymə üzərində *guacamole*, altında cücə və pendir...

– Hmm, görürəm...

– ... Hərdən həyəcanlı olsun deyə içərisinə bir az düyü, ya da çiy soğan qatırıq. Hamısı buğda və qarğıdalıyla hazırlanır.

– *Taco*lar qarğıdalıdan, *burrito*lar buğdadan hazırlanır. Sadəcə, əgər dağılıb əlini yandırarsa – *taco*, belə yayılıb, qolundan aşağı qırmızı donuz piyi buraxırsa – *burrito*dur. Budur, bir dənəsi... – O, əlli yemək paketinin içindən yumşaq bir fəsəlini alıb, yaş parça kimi əlində salladı. – Bu, *burrito*dur. İçini doldurursan, bol yağda qızardıb, pendiri əridib üzərinə tökürsən və bu, *ençilada* olur. İçi doldurulmuş *tortilla*ya *taco* deyilir, amma *burrito*nun içini özün doldursan, bu, *fajita* olar.

– Beləliklə, *tostada* nədir?

– Ona da çatacağıq. Yeriməyi öyrənmədən qaçmağa çalışma. *Fajita*lar bu isti dəmir boşqablarda verilir.

O, böyük dəmir qazanı qaldırdı.

Telegram: @cinciva

– Bunlarla ehtiyatlı ol, təsəvvür etməzsən ki, bunları müştərilərin üstündən neçə dəfə təmizləməli olmuşuq. Onda heç çay pulu da vermirlər. – Yan indi Emmaya axmaq-axmaq qımışaraq baxırdı. Emma diqqəti ayağının altındakı vedrəyə çəkdi. – Bunun içindəki ağ material turşumuş qaymaqdır; yox, turşu deyil, nə də qaymaq, məncə, bir növ, hidrogenləşmiş yağdır. Benzin istehsalından artıq qalanlar...

– Sənə bir sualım var.

– Onda soruş.

– İşdən sonra nə edirsən?

Benoyt, İsa və Kamal – hamısı əlindəki işi qoyub onlara baxdı. Emma üzünü ciddiləşdirdikdən sonra gülümsədi. – Mənlə maraqlanmırsan, elədir, Yan?

Yan şapkasını başından çıxarıb əlində fırlatmağa başladı. – Yox, fikirləşdiyin kimi deyil, güman ki, sənin sevgilin də var, onsuz! – Bir anlıq cavab gözlədi, amma Emmanın üzü tərpənmədi. – Mən, sadəcə, bəlkə sən mənim unikal komediya tərzimlə maraqlanarsan... – *burnunda danışaraq* – ...deyə fikirləşdim, vəssalam. Bu gecə... – *barmaqlarıyla dırnaq işarələri göstərərək* –...Kokfosterstə "Chortles at the Frog and Parrot"[1] tamaşasında səhnəyə çıxacam.

– Çortles?

– Kokofostersdə. Bura 3-cü Zonadadır, bilirəm, bir bazar gecəsi insana Mars qədər uzaq görünür, amma, düzü, mən bir zibil olmasam da, orada, həqiqətən də, çox istedadlı komediyaçılar var. Qəssab Roni, Stiv Şeldn, Kamikadze əkizlər... – O danışarkən Emma onun real ləhcəsini dəqiqləşdirməyə başladı; şəhər tərəfdən hələ tam olaraq silinməmiş, yüngül, xoş bir Qərbi Ölkə şivəsi vardı; yenidən traktorları fikirləşməyə başladı. – Mənim bu axşam

[1] "Qurbağa və Tutuquşu qəhqəhəylə gülür"

Telegram: @cinciva

ilk dəfə sınaqdan keçirəcəyim, qadınlar və kişilər arasındakı fərqləri...

Şübhəsiz ki, bu, görüş təklifiydi. Həqiqətən də, çıxmalıydı. Hər şey bir tərəfə, bu, çox tez-tez baş verən şeyə oxşamırdı, həm də nə pis şey ola bilərdi ki?

– Yeməkləri də pis deyil. Həmişə yediyin hamburger, Çin rulonları, kartof qızartması...

– Bu, məftunedici görünür, Yan, qızarmış kartoflar, hamısı, amma bu axşam çıxa bilmərəm, bağışla.

– Doğrudan?

– Saat yeddidə axşam duası var.

– Zarafat eləyirsən.

– Yaxşı təklifdi, ancaq buradakı növbəmdən sonra ölü kimi oluram. Sadəcə, mən evə gedib rahatlanmağı, şam eləməyi, ağlamağı xoşlayıram. Təəssüf ki, gələ bilməyəcəm.

– Başqa vaxt onda? Mən cümə günü Balhamda *Çeşir Pişiyində Əyilən Bananı* oynayıram...

Emma Yanın çiyinlərinin üzərindən aşpazların baxışlarını görürdü, Benoyt ağzını əliylə tutub gülürdü. – Bəlkə də bir başqa vaxt, – o, nəzakətlə, amma qəti surətdə deyib, mövzunu dəyişdirməyə can atdı.

– İndi bu... – Ayaq barmağıyla başqa bir vedrəyə toxundu. – Bu, *salsa*dır. Çalış, dərinə dəyməsin. Yandırar.

Şey, Em... Bir az əvvəl, yağışda yataqxanaya qaçaraq qayıtdım, (burada yağışlar istidir, hətta bəzən yandırıcı olur, London yağışları kimi deyil) dediyim kimi, çox sərxoşdum, bir də gördüm ki, səni fikirləşirəm; Emin burada olmaması, bunu yaşamaması nə qədər utandırıcıdı deyə düşündüm, bunu başa düşdüm, həqiqətən, elədir.

Telegram: @cinciva

Sən mənimlə burada olmalıydın – Hindistanda. Bu mənim böyük ideyamdır, bəlkə dəlicə ola bilər, amma fikrimi dəyişdirmədən bunu poçtla göndərmiş olacam. Bu sadə təlimatları yerinə yetir:

1. O bərbad işdən dərhal çıx. Qoy tortillaların üzərinə pendirləri əritməkçün saatı 2.20 funta işləyəcək başqa birini tapsınlar. Çantana bir şüşə tekila qoy və qapıdan çıx. Bunun necə hiss olduğunu fikirləş, Em. İndi çıx. Bunu bu dəqiqə elə.

2. Məncə, o mənzili də tərk etməlisən. Bircə pəncərəsi belə olmayan bir otaq üçün Tilli səni aldadaraq o qədər pul alır. Bu qutu otaq belə deyil, həqiqi qutudur; oradan çıxmalısan, qoy onun o böyük boz lifçiklərinin sularını başqası sıxsın. Əgər mən real həyata qayıdacaq olsam, yüksək imtiyazlı kapitalist monstr olduğum üçün bir mənzil alaram, sən də nə vaxt istəsən, rahat-rahat gəlib bir müddət qalarsan, istəsən, daimi qalarsan, məncə, bunu bacararıq, elə deyil? Əlbəttə ki, OTAQ YOLDAŞI kimi. Bu sənə mənə olan cinsi istəklərinin öhdəsindən gəlmək imkanı da verəcək. Ha! Ha! Ha! Ən pis halda, gecələr səni otağında bağlayacam. Hər nəysə, indi daha vacib bir şey...

3. Bunu oxuyan kimi Tottenhem Məhkəməsi Yolundakı tələbə səyahət agentliyinə get və avqustun birinə ən yaxın tarix üçün Dehliyə QAYIDIŞI AÇIQ bir bilet al, iki həftə vaxtın var, bəlkə də doğum günümü yadından çıxarmısan. Bir gecə əvvəl qatarla Aqraya get və ucuz bir moteldə qal. Səhəri gün erkəndən qalxıb Tac Mahala gedərsən. Bəlkə daha əvvəl eşitmisən, Losyan Yolundakı o Hindistan restoranının adını daşıyan böyük, ağ binadır. Günorta da, saat düz 12-də ətrafına bax, bir əlində bir qırmızı gül, o biri əlində də Nikols Niklbayın bir kitabını tutub, günbəzin mərkəzində gözlə, mən gəlib səni tapacam, Em. Mənim əlimdə də bir ağ qızılgül və Hovardz Endin kitabı olacaq, səni görəndə isə bunu başına tullayacam. Həyatında eşitdiyin ən böyük plan deyil, elədir?

Telegram: @cinciva

Ah, "tipik Dekster" deyirsən indi, bir şeyi yaddan çıxarmasan, olarmı? Pul! Təyyarə biletləri ağacda yetişmir: nə sosial təminat, nə iş etikaları və s. Yaxşı, sən narahat olma, mən ödəyirəm. Bəli, mən ödəyirəm. Sənə təyyarə bileti almaq üçün pul göndərəcəm (həmişə göndərmək istəmişəm) və buradakı bütün xərclərini də mən ödəyəcəm; bu, kobud səslənsə də, elə deyil, çünki burada hər şey ÇOX UCUZdur. Keralaya qədər gedərik, ya da Tailanda keçib, orada aylarca yaşaya bilərik; Em, sən və mən. Ay mərasiminə gedərik... Bütün gecəni narahat olduğuna görə deyil, ƏYLƏNMƏK üçün ayıq qaldığını fikirləşsənə. (Məzuniyyətdən sonrakı bütün gecə oyaq qalmağımız yadındadır, Em? Hər nə isə. Hərəkətə keç.)

Kimsənin üç yüz funtu ilə həyatını dəyişdirə bilərsən və bunun üçün narahat olmamalısan, çünki səmimi olaq, mənim işləyərək qazanmadığım halda, pulum var, sənsə, həqiqətən, gərgin işləyirsən, amma hələ də pulun yoxdu; belə olanda sosializm hərəkətə keçir, elə deyil? Və əgər, həqiqətən, istəsən, məşhur dramaturq olanda, pulun aşıb-daşanda borcunu geri qaytararsan. Üstəlik, sadəcə, üç ay. Payızda hər vəziyyətdə geri qayıtmağa məcburam. Sən də bilirsən, anam o qədər də yaxşı deyil. Əməliyyatın çox yaxşı keçdiyini deyir, bəlkə elədi, bəlkə də məni narahat etmək istəmir. Necə olursa-olsun, onsuz, gec-tez evə qayıtmalıyam.

(Yeri gəlmişkən, anamın bizimlə bağlı bir nəzəriyyəsi var, əgər Tac Mahalda mənimlə görüşsən, sənə deyəcəm, ancaq görüşsən.)

Qarşımdakı divarda böyük dəvədəlləyi növündən olan çəyirtkələrdən biri dayanıb və mənə "səsini kəs" deyər kimi baxır, mən də elə edəcəm.

Yağış kəsdi, bəzi yeni dostlarla görüşüb içmək üçün bir bara gedəcəm, amsterdamlı üç tibb tələbəsi qızla; bu, sənə bilmək istə-

Telegram: @cinciva

diyin hər şeyi başa salar. Amma fikrimi dəyişmədən, yolda bir poçt qutusu tapıb məktubu yollayacam. Bura gəlməyinin pis fikir olduğunu fikirləşdiyim üçün deyil – pis fikir deyil, gözəl fikirdi, mütləq gəlməlisən, – sadəcə, fikirləşirəm ki, həddindən artıq danışmışam. Bunlarla səni əsəbiləşdirmişəmsə, bağışla. Əsas məsələ burasındadır ki, səni həddindən çox fikirləşirəm. Deks və Em, Em və Deks. Məni həssas adlandıra bilərsən, amma inan, bu dünyada səndən başqa, dizenteriyaya birlikdə tutulmaq istədiyim heç kim yoxdur.

Tac Mahal, 1 Avqust, Günorta, saat 12:00
Mən səni tapacağam!
Sevgilərlə,
D.

... Və sonra gərnəşib başını qaşıdı, pivəsinin son qurtumuna qədər içib məktubu götürdü, qatlayıb təntənəli surətdə önünə qoydu. Qıc olmuş əlini silkələdi; böyük sürətlə on bir səhifə yazmışdı, final imtahanlarından bəri yazdığı ən uzun yazıydı. Qollarını məmnuniyyətlə başının üstünə qaldırıb fikirləşdi: *Bu, məktub deyil, hədiyyədir.*

Sandallarını yenidən ayaqlarına keçirdi, bir az yellənərək ayağa durdu və ümumi duşa getməyə hazırlaşdı. Yaxşıca qaralmışdı; son iki ilin proyekti dərisini qatrana bulanmış parça kimi qaraltmışdı. Başını küçə bərbərinə qırxdırmış, bir az da arıqlamışdı, amma bu yeni görünüşü qəribə şəkildə xoşuna gəlirdi: Elə bil cəngəllikdən yeni qaçıb qurtulmuş kimi bir dəri, bir sümük qalmış qəhrəmandı... Bu imicini tamamlamaq üçün ayaq topuğuna in-yan döyməsi həkk elətdirmişdi və ehtimal ki, Londona geri qayıdanda peşman olacaqdı. Amma gözəl döymə idi. Londonda corab geyinərdi.

Soyuq duş alıb ayılmışdı. Dekster kiçik otağına qayıdıb, kürək çantasından çıxardığı bütün paltarları tək-tək iyləyərək Holland

Telegram: @cinciva

tibb tələbələrinin qarşısına çıxmaq üçün münasib geyim axtarmağa başladı; köhnə-külüş rafiya xalçasının üstündə nəmli paltar yığını əmələ gəldi. Ən zövqsüz olanını seçdi: qısaqol, köhnə stilli bir amerikan köynəyi, bir də ətəkləri kəsilmiş və özünü cəsur, çılğın hiss etməkçün alt paltarsız geyilmiş bir cins. Özünü macəraçı, lider kimi hiss elədi.

Sonra məktubu gördü. Hər iki tərəfi sıx-sıx yazılmış altı məktub kağızıydı. Dəvətsiz gələn birinin unutduğu bir şeymiş kimi məktuba diqqətlə baxdı və ayıq halıyla şübhənin ilk sancısını hiss etdi. Ehtiyatla əlinə götürüb, vərəqlərə qarasına göz gəzdirdi. Bütün böyük hərflər, nida işarələri və dəhşətli zarafatlar... Onu "seksi" adlandırmışdı, tam olaraq mənası belə olmayan "**məktubçiləmə**" sözündən istifadə eləmişdi. Məktubu dazbaş, döyməli və cins şalvarının altından tuman geyməyən bir lider, macəraçının deyil, altıncı sinif şagirdinin yazdığı bir şeirə oxşayırdı. *Səni tapacağam, səni fikirləşirəm, Deks və Em, Em və Deks;* görəsən, nə fikirləşirdi? Bir saat əvvəl təcili və təsirli görünən hər şey indi həddindən artıq romantik, bacarıqsız və əməlli-başlı aldadıcı görünürdü; divarda dəvədəlləyi böcəyi yox idi, məktubda yazıldığı kimi, kompilyasiya kasetinə də qulaq asmırdı; özü daha əvvəl yazdığı kimi, kaset pleyeri Qoada itirmişdi. Şübhəsiz, məktub hər şeyi dəyişə bilərdi və hər şey indikindən daha yaxşı olmazdımı? Görəsən, həqiqətən də, döyməsinə gülüb, ağıllı qeydlər edəcək Emmanın Hindistanda onunla olmasını istəmişdimi? Görəsən, aeroportdaca onu öpərdimi? Eyni çarpayıda yatacaqdılarmı? Onu görməyi, gerçəkdən, bu qədər çox istəyirdimi?

Bəli, o qərar verdi – istəyirdi. Çünki bütün axmaqlıqlarına rəğmən, yazdıqlarında səmimi bir yaxınlıq, yaxınlıqdan daha artıq bir şey vardı və məktubu o gecə mütləq göndərməliydi. Əgər Emma kəskin reaksiya göstərsəydi, sərxoş olduğunu deyə bilərdi. Ən azından, burası həqiqət idi.

Telegram: @cinciva

Daha çox tərəddüd etmədən məktubu zərfə, zərfi Hovard Endin kitabının içinə, Emmanın əl yazısıyla yazdığı qeydin arxasına yerləşdirdi. Sonra yeni holland dostları ilə görüşmək üçün bara getdi.

Dekster o gecə saat doqquzdan bir az sonra, əllərində rəngi getmiş həna, cibində bir şüşə antidepresant və belində pis çəkilmiş bir Vudi Vudpeker döyməsi olan, amsterdamlı praktikaçı, əczaçı Rene van Hotenlə birlikdə bardan çıxdı. Qapıda ayağı büdrəyəndə isə quşun ona pis-pis qımışaraq baxdığını gözdən qaçırmadı.

Dekster yeni dostuyla tələsik bardan çıxmağa çalışarkən təsadüfən iyirmi üç yaşlı kölnlü kimya mühəndisliyi tələbəsi Haydi Şindlerlə toqquşdular. Haydi almanca və eşidilməyəcək qədər yavaş səslə Deksteri söydü. Haydi qələbəlik barda adamları itələyə-itələyə irəliləyirdi, nəhəng dal çantasını çiynindən endirib oturacaq yer tapmaq üçün ətrafına baxdı. Haydinin üst-üstə düşmüş dairələr kimi dairəvi və qırmızı üz cizgiləri vardı, barın içindəki isti və nəmli havadan buxarlanan dairəvi eynəyi bu dairəviliyi daha da qabardırdı. Diokalmla halsızlaşmış və dostları onu gözləmədən getdikləri üçün hirsliydi. Tökülmüş bir divanda oturdu. Buxarlanmış eynəyini çıxarıb köynəyinin ətəyilə sildi, divana söykənəndə bərk bir şeyin qıçına batdığını hiss elədi. Yavaşca, təzədən söyüş söydü.

Cırıq yastıqların arasına Hovardz Endin kitabını soxmuşdu, arasında da bir məktub vardı. Məktub başqasına yazılmış olsa da, aviapoçt zərfinin qırmızı-ağ çərçivəsi onu avtomatik olaraq həyəcanlandırmışdı. Məktubu çıxarıb axıra qədər oxudu, sonra yenə yerinə qoydu. Haydinin ingiliscəsi o qədər də güclü deyildi, başa düşmədiyi kəlmələr də vardı, amma bunun önəmli bir məktub, bir gün özünün də almaq istəyəcəyi növdən məktub olduğunu başa düşməsinə bəs etdi. Tam olaraq sevgi məktubu deyildisə də, buna

Telegram: @cinciva

çox yaxındı. Məktubu oxuyaraq bu "Em"i beynində təsəvvür elədi; məktubu təzədən oxudu, arada hirsləndi, həmçinin şad da oldu və Emin hərəkətə keçib dəhşətli mənzilindən və işindən çıxmasını, həyatını dəyişdirməsini təsəvvür etdi. Haydi, şübhəsiz, özünə oxşamayan Emma Morlinin Tac Mahalda yaraşıqlı, sarışın bir oğlanın gəlməyini gözlədiyini xəyal etdi. Öpüşdüklərini təsəvvür elədi və Haydi özünü bir az daha xoşbəxt hiss etməyə başladı. Qərara aldı ki, nə olursa-olsun, bu məktubu Emma Morli mütləq almalıdır.

Ancaq zərfdə heç bir ünvan: nə Emmanın, nə də məktubun qayıtması üçün Deksterin ünvanı yox idi. Bir ipucu tapmaq üçün səhifələri təkrar gözdən keçirdi; bəlkə Emmanın işlədiyi restoranın adı... amma işə yarayan bir şey tapmadı. O, yolun üstündəki yataqxananın resepsiyonundan soruşmaq qərarına gəldi. Bu, edə biləcəyi ən yaxşı şey idi.

Haydi Şindler indi Haydi Klausdur. Otuz bir yaşı var, Frankfurt boyunda əri və dörd uşağı ilə birlikdə yaşayır və olduqca xoşbəxt sayılar; iyirmi üç yaşı olanda xəyal etdiyindən daha çox xoşbəxt olduğu qətidir. Hovardz Endin yumşaq cildli surəti hələ də oxunmamış və unudulmuş olaraq, içindəki məktubla birlikdə kiçik yataq otağındakı kitab rəfində qalır. Kitabın ilk səhifəsində kiçik, ehtiyatlı əl yazısıyla yazılmış bir qeyd var:

Əziz Deksterə. Möhtəşəm səfərin üçün möhtəşəm bir roman. Yaxşı səyahətlər və döymələr olmadan sağ-salamat dönüşlər... Yaxşı, ya da bacara bildiyin qədər yaxşı ol. Lənət şeytana, sənin-çün darıxacağam.

Bütün məhəbbətimlə, yaxşı dostun Emma Morli, Kləpton, London, Aprel 1990

Telegram: @cinciva

IV fəsil

İmkanlar

15 iyul. 1991-ci il. Bazar ertəsi

Kamden şəhəri və Primroz təpəsi

"DİQQƏT, LÜTFƏN! Buraya diqqətinizi çəkə bilərəm? Hər kəsin diqqətini? Danışmağı kəsin, danışmağı kəsin, xahiş edirəm, danışmağı kəsin. Lütfən? Təşəkkürlər. İndi bu günün menyusunu gözdən keçirmək istəyirəm, əgər edə bilsəm. Əvvəlcə bu "xüsusi" deyilənlərdən başlayaq. Şəkər qarğıdalısından duru xörək və hinduşka ətindən *çimi-çanqa* var".

– Hinduşka? İyulda? – barda dayanıb pivə butulkalarının boyunlarına keçirmək üçün limon dilimləyən Yan Vaythed dedi.

– Bu gün bazar ertəsidi, – Skot davam elədi. – Nəzakətli və səssiz olaq, buranın qüsursuz olmağını istəyirəm. Növbətçilik cədvəlini yoxladım, Yan, sən tualetlərdəsən.

O biri işçilər onu ələ saldı. – Niyə tualetlər həmişə mənə düşür? – Yan da sızıldandı.

– Çünki çox gözəl təmizləyirsən, – ən yaxşı dostu Emma Morli dedi, Yan isə fürsətdən istifadə edib, qolunu onun əyilmiş çiyininə qoydu.

– İşiniz qurtarandan sonra, Emma, zəhmət olmasa, mənim ofisimə baş çəkərsən? – Skot dedi.

Telegram: @cinciva

O biri işçilər xısın-xısın irişdilər, Emma Yanın qolundan canını qurtardı, barmen Rəşid barın arxasındakı yağlı radionun düyməsini basdı, *La Cucaracha*, tarakan, artıq məzəli olmayan zarafat iş vaxtının sonuna qədər təkrarlandı.

– Birbaşa mövzuya keçəcəyəm. Otur.

Skot siqaret yandırdı, Emma qarmaqarışıq nəhəng stolun qarşısındakı bar kətilinin üstünə qalxdı. Araq, tekila və siqaretlərlə dolu qutulardan yaranan divar külqabılar və ümidsizlik qoxuyan bu kiçik və qaranlıq otağa iyul günəşinin girməsinin qarşısını alırdı.

Skot ayağını stola vurdu. – Məsələ budur, mən gedirəm.

– Siz?

– Baş bürodan İlinqdəki *Sezarın Salonu*na başçılıq etməyimi xahiş etdilər.

– *Sezarın Salonu* nədi?

– Müasir italyan yeməkləri bişirən, böyük bir şəbəkədi.

– Adı *Sezarın Salonu*du?

– Hə, elədi.

– Niyə Mussolininin deyil?

– Onlar meksikalılara etdiklərini italyanlara da edəcəklər.

– Nədi, korlayacaqlar yəni?

Skot incimiş kimi baxdı: – Emma, imkan verəcəksən danışım?

– Üzr istəyirəm, Skot, həqiqətən. Təbriklər, çox yaxşıdı, həqiqətən... – Birdən dayandı, çünki ardından nə gələcəyini anlamışdı.

– Məsələ... – Barmaqlarını bir-birinə keçirdi və stolunun üstünə tərəf əyildi; iş adamlarının belə etdiyini televizorda görmüşdü və bir az gücün başgicəlləndirici axınını hiss etdi. – Onlar məndən öz yerimə menecer kimi birini tövsiyə etməyimi xahiş etdilər, səninlə danışmaq istədiyim mövzu budur. Heç yerə getməyəcək birini istəyirəm. Bir parça məktub belə qoymadan Hindistana get-

Telegram: @cinciva

məyəcək, ya da daha həyəcanlı iş tapıb buradan çıxmayacaq, etibarlı bir adam. Bir neçə il buraya rəhbərlik edəcək, özünü işinə həsr edəcək, etibarlı... Emma, sən... sən *ağlayırsan*?

Emma hər iki əliylə gözlərini gizlətdi. – Üzr istəyirəm, Skot, məni çətin vəziyyətdə tutdun, sadəcə, buna görə.

Skot qaşqabağını tökdü, rəhm və acıqlanma arasında qaldı. – Buyur... Paketlərin birindən mavi rəngli kağız dəsmallardan birini çıxartdı. – Gözlərini sil... – Kağızı stolun üstündən tulladı, Emmanın döşünə dəydi. – Mənim dediyim bir şey xətrinə dəydi?

– Yox, yox, yox, bu, sadəcə, özəl, şəxsi bir şeydi, arada belə olur. Çox utandırıcıdı. – Mavi kağızın iki topasını gözlərinə basdı. – Üzr istəyirəm, bağışla, bağışla, sən davam elə.

– Sən hönkür-hönkür ağladığından harada qaldığımı unutdum.

– Məncə, sən mənə həyatımın heç bir yerə getmədiyini deyirdin, – dedi və eyni zamanda, həm gülməyə, həm də ağlamağa başladı. Üçüncü kağız topasıyla ağzını tutdu.

Skot Emmanın çiyinlərinin titrəməsi dayanana qədər gözlədi. – Demək belə, bu işlə maraqlanırsan, ya yox?

– Bunu demək istəyirsən... – Əlini iyirmi litrlik *Thousand İsland* sous çəlləyinin üstünə qoydu, – ...bunların hamısı bir günün içində mənim ola bilər?

– Emma, əgər işi istəmirsənsə, sadəcə, deməyin yetər, amma mən bu işi dörd ildir, görürəm...

– Həqiqətən, çox da yaxşı görürdün, Skot...

– Pulu yaxşıdı, daha tualet təmizləməyin də lazım olmayacaq...

– Bu təklifə məmnun oldum.

– Onda niyə hönkür-hönkür ağlayırsan?

– Sadəcə, bir az... depressiyadayam, hamısı budur.

– Depressiyada? – Skot bu sözü birinci dəfə eşidirmiş kimi qaşqabağını tökdü.

Telegram: @cinciva

– Bilirsən də. Əhvalım bir az pozulub.

– Haqlısan, görürəm. – Skot atalıq niyyətilə qolunu onun boynuna keçirməyə çalışdı, amma bu, on qallonluq mayonez təbilinə dırmaşmaq kimi bir şey idi; buna görə, sadəcə, stolun üstündə bir az da əyildi. – Bu... oğlan məsələsidi?

Nəhayət, Emma güldü. – Heç dəxli var, bir şey yoxdu; sadəcə, məni çox pis vəziyyətdə tutdun, vəssalam. – Başını sürətlə silkələdi. – Bax hamısı keçdi, yağış kimi. Unut getsin.

– Yaxşı, nə fikirləşirsən? Müdir olmaq mövzusunda...

– Bir az fikirləşə bilərəm? Sənə sabah cavab verə bilərəm?

Skot şəfqətlə gülümsəyib başını yırğaladı. – Onda get! Bir az istirahət elə... – Bir əlini qapıya tərəf uzatdı. – Get, özünə bir az *nachos* götür.

Emma boş işçi otağında qarğıdalı çipsləri və buğlanan pendirlə dolu boşqaba məğlub edilməsi lazım olan düşmənlər kimi baxdı. Qəflətən ayağa qalxıb Yanın dolabına tərəf getdi, siqaretini tapana qədər pal-paltarları qarışdırdı. Bir gilə götürüb yandırdı, eynəyini qaldırıb sınıq güzgüdə gözlərini təmizlədi. Bu günlərdə saçları uzun, formasızdı, ona çəlimsiz siçanı xatırladan bir haldaydı. Saç rezinindən bir çəngə tük çəkdi, barmaqlarını üstündə gəzdirdi, yuyanda şampunun boz rəngə çevriləcəyini düşündü. Şəhər saçı.

Dan yeri ağaranacan işləməkdən solğun, eyni zamanda, şişkindi; bir neçə aydı ki, yubkalarını başından keçirərək geyinirdi. Bütün qızarmış, təkrar-təkrar qızardılan paxlaları lənətlədi. "Gonbul qız", – deyə fikirləşdi; "axmaq gonbul qız" ifadəsi, "həyatının üçdə biri keçdi" və "heç bir şeyin mənası yox"la birlikdə beynində gəzişən sloqanlardan biriydi.

Emma iyirmi-otuz yaş arasında, birincidən daha tutqun və dəhşətli ikinci ərgənlik dövrünü yaşayırdı. Anası titrək, qayğı dolu

Telegram: @cinciva

səsindən istifadə edərək: "Evə niyə gəlmirsən, əzizim? – keçən gecə telefonda demişdi, – otağın hələ də olduğu kimi qalır. Debenhamsda iş də var". Və bu, ilk dəfə Emmanı həvəsləndirmişdi.

Bir vaxtlar Londonu fəth edəcəyini düşünürdü. Ədəbiyyat toplantıları, siyasi öhdəliklər, çılğın mərasimlər, Temza çayı sahilində acılı-şirinli seygilər xəyal eləmişdi. Bir musiqi qrupu yaratmaq, qısa filmlər çəkmək, romanlar yazmaq niyyətində olmuşdu; amma yazdığı iki sətir iki ildə bir dəyişiklik göstərməmiş və başına *Poll Tax*[1] qiyamında kök yeməkdən daha yaxşı heç nə gəlməmişdi.

Şəhər onu məğlub etmişdi. Elə bil qələbəlik bir mərasimə getmiş, heç kim onun gəlməyinə fikir verməmişdi, çıxıb gedəndə də heç kim fikir verməyəcəkdi. O qədər əziyyəti buna görə çəkməmişdi. Nəşriyyatda karyera qurmaq ideyası gün-gündən əlçatmaz olub sovrulurdu. Dostu Stefani Şou məzun olandan sonra bir işə girmiş və bu iş onu əməlli-başlı dəyişdirmişdi. Stefani Şou artıq çəllək pivəsi və sadə qəhvə içmirdi. İndi daha ağ şərab içir, "Jigsaw"dan kostyumlar, marka geyimlər geyinir, ziyafətlərdə çips paylayırdı. Emma Stefaninin məsləhətiylə naşirlərə, agentliklərə, kitab mağazalarına məktublar yazmış, amma bir nəticəsi olmamışdı. İqtisadi böhran vardı, hamı işindən ikiəlli yapışmışdı. O, təhsilə sığınmaq haqqında fikirləşirdi, ancaq hökumət tələbə təqaüdlərini yığışdırmışdı və təhsil xərclərini ödəməyə imkanı yoxdu. Bəlkə Beynəlxalq Amnistiya Təşkilatında könüllü iş ola bilərdi, lakin kirayə haqqı və yol bütün pulunu, *Loko Kalient* isə bütün vaxtını, enerjisini əlindən almışdı. Korlara kitab oxumaq kimi bir xəyal qurmuşdu, amma, sadəcə, filmlərdə gördüyü bu işi həqiqi saymaq olardımı? Enerjisini toplayanda bunu araşdıracaqdı. Hələlik stol başında oturub, gözünü lança zilləyəcəkdi.

---

[1] (Adambaşına vergi) 1984-cü ildə Tetçer hökumətinin çıxartdığı "baş vergisi". Bu vergiyə və on səkkiz yaşından yuxarı hər kəsin qeydiyyata alınması cəhdinə qarşı İngiltərə və Şotlandiyada təşkilatlanan Anti-Poll Tax birlikləri üsyanlar etmişdilər.

Telegram: @cinciva

Pendir plastik kütlə kimi bərkimişdi; qəfildən Emma önündəki yeməyi itələdi, əlini çantasına uzatdı. Qırağına balaca bir avtoqələm ilişdirilmiş, yeni, qara dəri üzlüklü, bahalı qeyd dəftərini çıxartdı. Yeni bəyaz səhifə açıb sürətlə yazmağa başladı.

Naços

Bunu edən naçosdu.
Öz həyatının zibilliyi kimi tüstülənən zibillik
Həyatındakı
Hər şeyin
Səhv olduğunu göstərən

"Dəyişiklik vaxtıdır" deyə küçədən səs gəldi.
Çöldə, Kentiş şəhər yolunda
Qəhqəhələr var.
Amma burada, bu tüstülü klassik otaqda,
Sadəcə,
Naçoslar.
Pendir eynən həyat kimi,
Sərt və
Soyuq
Plastik kütlə kimi
Və bu yüksəkdəki otaqda heç bir qəhqəhə yoxdu.

Emma yazmağı dayandırdı, fikrini yayındırıb tavana diqqətlə baxdı, elə bil kiməsə gizlənmək üçün şans verirdi. Sonra yazılmış yazıların parıltısı qarşısında təəccüblənmə ümidiylə yenidən kağıza baxdı.

Titrəyib uzun-uzadı inildədi, sonra güldü, sonra da başını silkələyərək sistemli şəkildə hər sətrin üstünü söz silinənə qədər qa-

Telegram: @cinciva

raladı. Bir az sonra kağız mürəkkəbin hamısını canına çəkmişdi. Mürəkkəb ləkələrinin sızıb keçdiyi səhifənin arxasını çevirib yazılanlara baxdı.

Edinburq, səhər saat: 4:00

Bir nəfərlik çarpayıda uzanıb
Gələcəkdən danışırıq gümanla.
O danışır, mənim gözüm üzündə:
"Gözəl. – Nə sarsaq sözmüş. –
Bəlkə elə bu odu, – düşünürəm? Həmən sözə gəlməyən?"

Pəncərədən o üzdə qaratoyuq nəğməsi,
Günəş isə pərdələri isidir...

Elə bil yara sarğısının altına baxırmış kimi bir daha bədəni ürpərdi və qeyd dəftərini bağladı. Gözəl Allahım, "*sözə gəlməyən*". O, dönüş nöqtəsinə çatmışdı. Artıq bir şeir yazmaqla hansısa vəziyyətin düzələcəyinə inanmırdı. Qeyd dəftərini qaldıraraq dünənki *"Sunday Mirror"* qəzetini götürdü və *naços* yeməyə başladı – sözəgəlməz *naços* və yenidən çox pis bir yeməyin necə belə rahatlıq gətirə bilməsinə təəccübləndi.

Yan girişdə dayanmışdı: – O hərif yenə buradadı.

– Hansı?

– O yaraşıqlı dostun. Yanında bir qız da gətirib. – Emma dərhal Yanın hansı oğlandan danışdığını anladı.

Burnunu yumru mətbəx pəncərəsinin yağlı şüşəsinə yapışdıraraq onlara baxdı; ortadakı masalardan birində oturub, zövqsüz içkilərini içir, menyuya baxıb qəhqəhəylə gülürdülər. Qız solğun dərili, arıq, uzundu, gözləri qara rənglə sürmələnmişdi, saçları zilqaraydı; bahalı gözəllik salonunda asimmetrik olaraq kəsilmişdi.

Telegram: @cinciva

Uzun qıçlarında qara corablar və hündürdaban ayaqqabı vardı. İkisi də bir az sərxoşdu, özlərini, diqqət mərkəzində olduqlarını bilə-bilə heç kimə əhəmiyyət verməyən və özlərindən razı adamlar kimi aparırdılar: pop klipi davranışıyla... Emma restoranın ortasına tərəf iri addımlarla yeriyib, möhkəm qablaşdırılan günün *burrito*suyla ikisini də dəyənəkləməyin necə zövq verici olacağını fikirləşdi

İki böyük əl çiyinlərindən tutdu. Yan çənəsini Emmanın başına qoydu. – Qız kimdi?

– Birinci kərədi, görürəm. – Emma şüşənin üstündən burnunun izini sildi. – Saylarını itirmişəm.

– Onda təzəsidir, yəqin.

– Deksterin diqqət müddəti çox qısadır. Körpə, yox, ya da meymun kimi. Qarşısında parlaq nəyisə tərpətməyin yetər. – *Bu qız da elə olmalıdı,* – deyə fikirləşdi: *Parlaq bir şey.*

– Bu deyilənlərin doğru olduğuna inanırsan? Qızların düşük oğlanlardan xoşları gəlməyi haqqında deyilənlərə.

– Dekster düşük deyil. O, axmaqdır.

– Onda qızlar axmaqları xoşlayır?

Dekster indi kokteylin çətirini qulağının arxasına keçirmiş, qız da bu dahilik qarşısında qəhqəhələr atırdı.

– Qətiliklə elə görünür, – Emma dedi. Tailanddan qayıdanda onu çıxış qapısında qəhvəyi dərisi və keçəl başıyla gördükdə baş əyib onunla görüşən kimi aralarında bir ünsiyyət qura bilməyəcəyini başa düşmüşdü. Deksterə çox şey olmuşdu, onasa çox az. Yenə də son doqquz ay içində qarşılaşdığı üçüncü sevgilisiydi bu, sevgilisi, ya hər nə isə. Dekster ağzıyla kök göyərçin tutmuş iti yamsılayıb qızları əyləndirirdi. Bir şeydən xəstəlik dərəcəsində intiqam almaqmıydı bu? Ondan daha yaxşı diplom dərəcəsi aldığı üçündümü? Az qala, bir-birilərinin ağzına girərək burada – doqquzuncu masada oturaraq Emmaya nələr elədiyini bilmirdi?

Telegram: @cinciva

– Sən gedə bilməzsən, Yan? Sənin növbəndi.

– Axı o, səni istədi.

Emma ah çəkdi, əllərini önlüyünə sildi, utancını azaltmaq üçün başındakı beysbol şapkasını çıxardı və qapını itələyərək açdı.

– Belə, xüsusi menyunu öyrənmək istəyirsiniz, ya necə?

Dekster özünü qızın uzun qıçlarından açaraq tez ayağa qalxdı və qolunu köhnə dostunun boynuna keçirdi. – Hey, necəsən, Em? Böyük qucaqlaşma! – Televiziya sahəsində işləməyə başlayandan bəri bir qucaqlaşma, ya da "Böyük Qucaqlaşma" bacarığına yiyələnmişdi. Televiziya aparıcılığı onu çox dəyişdirmişdi, indi onunla köhnə dost kimi deyil, daha çox "növbəti çox xüsusi qonaq" kimi danışırdı.

– Emma, bu... – Əlini qızın çılpaq, sümüklü çiyinlərinə qoydu. – Bu, Naomidir, Nomey deyə tələffüz edilir.

– Salam, Nomey, – deyərək Emma gülümsədi. Naomi ağ dişlərinin arasına basdığı çöplə içkisini qurtumlayarkən gülümsəyərək qarşılıq verdi.

– Hey, gəl birgə marqarita içək! Sərxoş və duyğusal tərzdə Emmanı əlindən tutub çəkdi.

– Olmaz, Deks, işdəyəm.

– Lütfən, beş dəqiqə. Sənə içki almaq istəyirəm! Hə, *içki.*

Yan sifariş dəftərçəsilə yaxınlaşıb onlara qoşuldu. – Yeməyə bir şey gətirim? – Şən halda soruşdu.

Qız burnunu qırışdırdı. – Məncə, yox.

– Dekster, Yanla tanış olmusan, elə deyil? – Emma cəld soruşdu.

– Yox, xeyr, tanış olmamışıq, – Dekster cavab verdi.

– Bəli, bir neçə dəfə, – Yan dedi və bir anlıq eləcə dayandıqları sırada işçilər və müştərilər arasında səssizlik çökdü.

– Eləsə, Yan, iki, ya yox, üç dənə "Alamonu xatırla" marqaritası gətirərsən? İki, ya üç? Em, bizə qoşulursan?

Telegram: @cinciva

– Dekster, dedim axı sənə. İşləyirəm.

– Yaxşı, onda bilirsən, nə olacaq? İndi biz gedəcəyik. Sadəcə, hesab, lütfən, hmm...

Yan getdi. Dekster Emmanı başıyla yanına çağırıb alçaq səslə dedi: – Ey, bura bax, sənə verməyimin bir yolu var, başa düşsənə...

– Nə?

– İçkilərin pulunu sənə verməyimin...

Emma laqeydcəsinə baxdı. – Başa düşmədim.

– Demək istəyirəm, sənə bəxşiş verməyin bir yolu var?

– Mənə bəxşiş?

– Əlbəttə. Bəxşiş.

– Niyə?

– Heç bir səbəbi yoxdu, Em, – Deks dedi. – Həqiqətən, sadəcə, sənə bəxşiş vermək istəyirəm, həqiqətən. – Bu an Emma ürəyinin daha bir parçasının qırılıb qopduğunu hiss etdi.

Dekster Primroz təpəsində, köynəyinin düymələri açıq, əlləri başının altında, yanında qızınmaqda olan yarım şüşə ağ şərab günorta günəşi altında sərxoş halda uzanmışdı. Təpənin istidən qovrulmuş sarı otları ofisindən çıxıb birbaşa buraya gəlmiş, bir-birilərilə danışıb gülən gənc professional adamlarla doluydu və Dekster bütün bunların mərkəzində uzanıb, televiziya haqqında xəyallar qururdu.

Professional fotoqraf olmaq ideyasını çox da mübarizə aparmadan başından atmışdı. Hörmət edilən həvəskar bir fotoqraf olduğunu bilirdi, ehtimal ki, həmişə də belə olacaqdı, amma bir Karter-Breson, bir Kapa, ya da Brəndt kimi istisnalardan olmaq güc sərf etməyi, rədd edilməyi bacarmağı və mübarizə tələb edirdi; o isə mübarizə aparmağın ona yad bir şey olduğunu bilirdi. Bir yandan da televiziya bu dəqiqə yalnız onu istəyirdi. Niyə bunu daha

Telegram: @cinciva

əvvəl fikirləşməmişdi? Ağlı kəsən gündən evdə həmişə televizor olmuşdu, amma elə bil ziyanmış kimi heç cürə ona baxmamışdı. İndi son doqquz ayda televizor qəfildən həyatına hakim kəsilmişdi. Həyatının bir hissəsi keçmişdi və nəhayət, özünün mənəvi cəhətdən rahat olduğu yeri tapdığını hiss eləyirdi.

Yox a, televiziyada fotoqraflığın incəcik işığı, ya da müharibə zonasından foto-reportaj hazırlama ehtimalı yoxdu, amma televiziya əhəmiyyətliydi, televiziya gələcəkdi. Hərəkətdə olan demokratiya ən qısa yoldan xalqın həyatına toxunur, fikirləri formalaşdırır, əleyhinə qaldırır, əyləndirir, heç kimin oxumadığı kitablardan, heç kimin baxmağa getmək istəmədiyi tamaşalardan daha effektiv təsir yaradırdı. Emma Mühafizəkarların nəyini sevdiyini deyə bilirdi (prinsiplərindən daha çox stilləriylə bağlı səbəblərə görə də olsa, Dekster də onların azarkeşi deyildi), ancaq görünən odur ki, onlar medianı silkələmişdilər. Son vaxtlara qədər efir işi darıxdırıcı, pullu, lakin çətin bir iş olaraq görünürdü; həddindən artıq təşkilatlanmış, boz və bürokratik; saqqallı Nikolaydan qalma, yaxşı niyyətli, ancaq uğursuz tiplər, çay sinisini itələyən yaşlı kübar adamlarla dolu, dövlət qulluğunun, bir növ, şou-biznes qolu kimi bir işdi. Bir yandan Redlayt Prodakşn yeni, gənc, istehsalat vasitələrini köhnə modalı Risyan dinozavrların əlindən almağa çalışan, özəl sektora aid müstəqil şirkətlərin bir hissəsiydi. Mediada pul var idi; bu fakt onların müasir kompyuter sistemləri və ağzına qədər dolu olan soyuducularla təchiz edilmiş, rəngarəng, açıq ofislərindən bəlli olurdu.

Bu dünyada onun yüksəlməsi meteorik olmuşdu. Hindistanda qatarda tanış olduğu parlaq qara saçlı, balaca eynəkli qadın ona əvvəl müxbir, daha sonra araşdırmaçı işini vermişdi; indi də ona həftə sonları canlı musiqiylə bərabər, "bu günün gəncliyinə həqiqətən təsir edən" mövzularda; rəqs, musiqi, narkotiklər, polis vəh-

Telegram: @cinciva

şiliyindən bəhs edən xəbərlər verən *UP4İT* adlı proqramda köməkçi prodüser vəzifəsini vermişdi. Dekster eybəcər yaşayış evlərini müxtəlif dəli bucaqlardan balıq gözlü linzalarla çəkərək, bəzi soundtreklərdən istifadə edib qısametrajlı filmlər istehsal etdi. Daha sonra kameranın qarşısına keçib, danışdığı hissələr də oldu. Yüksəlirdi, uçurdu və elə görünürdü ki, valideynlərini qürurlandıracaq hər cür imkanı var.

"Mən televiziyada işləyirəm", – sadəcə, bunu demək belə ona məmnunluq verirdi. Əlində video kasetləriylə dolu bir çantayla studiyaya gedərkən Bervik küçəsində onu sevən adamlara salam vermək xoşuna gəlirdi. Suşi qablarını və gəmi mərasimlərini, su soyuducularından su içməyi, kuryerlərə sifariş verməyi və "canlı yayıma son altı saniyə..." kimi şeylər deməyi xoşlayırdı.

Ürəyində ən sanballı sənayelərdən biri olmağından və gəncliyə qiymət verməyindən xoşlanırdı. Televiziyanın bu cəsur, yeni dünyasında iclas zalına girib, müzakirə aparan bir qrupda altmış, altmış beş yaşlı adam tapmaq müşkül məsələydi. O yaşa çatan televiziya işçilərinə nə olmuşdu? Onlar hara yoxa çıxmışdılar? Heç qulağına da girmirdi, Naomi kimi möhkəm, şöhrətpərəst, gənc paytaxt qadınlarının üstünlük təşkil etməsi ona yarayırdı. Özünə arxayın olmadığı nadir hallarda Dekster öz ağlının çatışmazlığının onu həyatda axsada biləcəyinə görə narahat olurdu, amma burada inam, enerji və hətta müəyyən dərəcədə lovğalığın əhəmiyyətli olduğu bir iş vardı; bütün bu xüsusiyyətlər ovcunun içindəydi. Bəli, ağıllı olmalısan, di gəl Emma kimi ağıllı yox; sadəcə, siyasətcil, gözüaçıq və şöhrətpərəst.

Belsayz Parkın qonşuluğundakı yeni mənzilini sevirdi, mənzildə hər şey tünd taxta və bürünc rənglərin qarışığıydı; bu Müqəddəs Svitin günündə qarşısında uzanan geniş və dumanlı Londonu da sevirdi və bütün bu həyəcanını Emmayla bölüşmək, ona

Telegram: @cinciva

yeni imkanlar, yeni təcrübələr, yeni sosial dairələr təqdim etmək istəyirdi; onun həyatının da özününkünə oxşamasını istəyirdi. Kim bilir, bəlkə Naomiylə Emma rəfiqə belə ola bilərdilər.

Yuxulaya-yuxulaya bu fikirlərlə sakitləşərkən üzünə düşən kölgəyə oyandı. Bir gözünü açıb gözaltı yuxarı baxdı.

– Salam, gözəl.

Emma onun ombasına bir sanballı təpik ilişdirdi.

– Uf!

– Bunu bir də heç vaxt, heç vaxt eləmə!

– Nəyi?

– Özün yaxşı bilirsən! Elə bil mən zooparkdayam, sən də əlindəki çubuğu mənə batırıb gülürsən.

– Mən sənə gülmürdüm!

– Görürdüm səni, sevgilinlə qucaqlaşıb istehza ilə gülürdünüz...

– O, mənim sevgilim deyil, özü də menyuya gülürdük...

– İşlədiyim yerə gülürdünüz.

– Elə? Elə fikirləşirsən?

– Bəli, çünki mən orada işləyirəm. Mən fəlakət qarşısında gülürəm, sən də mənim düz üzümə baxıb güldün!

– Em, mən heç vaxt, heç vaxt...

– Amma elə görünür.

– Yaxşı, mən üzr istəyirəm.

– Yaxşı. – Ayaqlarını altına qatlayıb Deksterin yanında oturdu. – İndi köynəyini düymələ və şərab şüşəsini mənə ver.

– O, həqiqətən də, sevgilim deyil. – O, köynəyinin üç aşağı düyməsini bağlayıb, Emmanın tələyə düşməyini gözlədi. Düşündüyü olmayanda onu təzədən qıcıqlandırmağa başladı. – Vaxtaşırı yatırıq, sadəcə, vəssalam.

Artıq münasibət qurma imkanının olmadığından Emma özünü Deksterin laqeydliyinə qarşı möhkəmləndirməyə çalışırdı və bü günlərdə belə sözlər onu ağrıtmırdı; elə bil, sadəcə, başının arxa-

Telegram: @cinciva

sına tennis topu dəymişdi. – Hər ikinizçün də yaxşı olduğuna əminəm. – Şərabı plastik fincana tökdü. – Yaxşı, sevgilin deyilsə, ona nə deyim?

– Bilmirəm. "Aşiqim" ola bilər?

– Bu, romantik bağlılıq mənasına gəlmir?

– İstila necədi? – deyib qımışdı. – İstila deyə bilərəm?

– Ya da "qurban". "Qurban"ı bəyəndim. – Emma qəfildən arxası üstə uzanıb, barmaqlarını yöndəmsizcə cins şalvarının ciblərinə soxdu. – Bunu da götür. – Səliqəylə qatlanmış on funtluğu üstünə tulladı.

– Heç vaxt olmaz.

– Lap qəşəng olar.

– Bu, sənindir!

– Dekster, qulaq as. Dostlara bəxşiş verməzlər.

– Bu, bəxşiş deyil ki, hədiyyədir.

– Nağd pul hədiyyə deyil. Mənimçün nə isə almaq istəsən, buna şad olaram, amma nağd pula yox. Bu, utandırıcıdır.

Dekster ah çəkib pulu təzədən cibinə soxdu. – Bağışla bir daha.

– Gözəl, – deyib yanına uzandı. – Onda davam elə. Mənə onun haqqında hər şeyi danış.

Dekster qımışaraq dirsəklənib qalxdı: – Hətta həftə sonunda qala gecəsindəydik...

Qala gecəsi, – Emma düşündü. Artıq qala gecələrinə də gedən adam olmuşdu.

– ...onu ofisdə, ətrafda gəzişərkən gördüm və "Salam, komandaya xoş gəlmisən"deməkçün yanına getdim, çox formal şəkildə əlimi uzatdım, gülümsədi, göz vurdu, əlini başımın arxasına qoyub məni özünə tərəf çəkdi və... – Səsini həyəcanlı pıçıltıya qədər endirib, – ... məni öpdü, vəssalam.

– Səni öpdü, vəssalam, hə? – Emma dedi və başına yenidən başqa bir tennis topu dəydi.

Telegram: @cinciva

– ... Və diliylə ağzımın içinə nə isə sürüşdürdü. – Bu nədir? – soruşdum, sadəcə, göz vurub: – Bilərsən, – dedi.

Bir az səssizliyin ardından Emma soruşdu:

– Fıstıq idi?

– Yox...

– Balaca, qovrulmuş fıstıq...

– Yox, həb idi...

– Necə, tac kimi bir şey? Nəfəsindən pis qoxu gəldiyinə görə?

– Nəfəsim pis qoxumur.

– Bu hekayəni mənə daha əvvəl danışmışdın?

– Yox, o, başqa qız idi.

Tennis topları artıq sürətlə və çox güclü gəlirdi; aralarına iri bir kriket topu da qarışmışdı. Emma uzandı və fikrini səmada cəmləşdirdi. – Qadınların ağzından həb almağı dayandırmalısan, Deks, bu, antisanitariyadır. Üstəlik təhlükəlidir. Bir gün bu sianid kapsulu olacaq.

Dekster güldü: – Sonra nə baş verdiyini bilmək istəyirsən?

Emma barmağını çənəsinə qoydu: – İstəyirəmmi? Yox, elə fikirləşmirəm. İstəmirəm, yox.

Dekstersə danışmağından qalmadı; klubların tünd dal otaqları, gecə telefonla müraciətlər, sübh çağı taksiylə gəzilən şəhər, sonsuz, bacardığın qədər yeməkçün bufetlər – Deksterin seks həyatı bu idi və Emma ona qulaq asmayıb, əvəzində ağzına baxmaq üçün səy göstərdi. Yadda saxladığı qədəriylə xoş ağzı vardı və əgər Naomi kimi qorxmaz, cürətli və asimmetrik saçları olsaydı, fikirləşmədən əyilib onu öpərdi və o anda bu günə qədər heç kimi öpmədiyinin fərqinə vardı; heç vaxt öpüşməni o başlatmamışdı. Əlbəttə ki, öpülmüşdü; sərxoş oğlanlar mərasimlərdə, qəfildən və olduqca sərt şəkildə öpmüşdülər onu. Üç həftə əvvəl kiçik ət dolabını yuyarkən Yan da cəhd etmişdi; o qədər qəzəblə gəlmişdi ki, Emma ona kəllə vuracağını zənn eləmişdi. Hətta uzun illər əvvəl

Telegram: @cinciva

Dekster də bir dəfə öpmüşdü. O öpüşə indi cavab vermək çox qəribə olmazdı, görəsən? İndi bu necə çıxardı? Təşəbbüs göstər, eynəyini çıxar, hələ də danışarkən başını tut və onu öp, öp...

– ...beləliklə, Naomi səhər üçdə zəng eləyib: – Bir taksiyə min. Cəld. Elə bu dəqiqə, – dedi.

O, əlinin arxasıyla onun ağzından aydın zehni şəkli silə bilərdi: kremli tort kimi öpüş. Emma təpədəki başqa adamlara baxmaq üçün başını yana çevirdi. Axşam günəşi solmağa başlayır, iki yüzə qədər perspektivli, cazibədar adam silueti hərəkət edir, bir istifadəlik barbekülərini hazırlayır, axşam üçün planlar qururdular. Özünü bu adamlardan, onların maraqlı karyeralarından, CD pleyerlərindən, dağ velosipedlərindən çox uzaq hiss edirdi, elə bil araq, ya da balaca idman avtomobillərivçün televiziya reklamı olmuşdu. – Niyə evə gəlmirsən, əzizim? – keçən dəfə anası telefonda demişdi. – Otağın hələ də səni gözləyir...

Hələ də sevgi həyatını danışmaqda olan Deksterə tərəf çevrilib baxdı, sonra onun çiyinlərinin üzərindən barmaqlarını bir-birinə keçirib, oğlanın dizinin üstündə oturan qıza, inadkarcasına öpüşən gənc cütlüyə baxdı.

– ...təxminən, üç gün otel otağından çıxmadıq.

– Üzr istəyirəm, mən bir az olar ki, sənə qulaq asmırdım.

– Deyirdim ki...

– Səndə nə gördüyünü fikirləşirsən?

Dekster sualı başa düşməmiş kimi çiynini çəkdi: – O, mənim mürəkkəb olduğumu deyir.

– Mürəkkəb. Böyük qutudakı... – Emma oturub baldırlarındakı ot-ələfi təmizlədi. – ...sən iki hissəli mozaika kimisən. – Sonra cins şalvarının ayaqlarını yuxarı çəkdi. – Bu ayaqlara bax. – Barmaqlarının arasında balaca tük tutdu. – Məndə əlli səkkiz yaşlı dağ piyadasının ayaqları var. Səyyahlar Assosiasiyasının prezidentinə oxşayıram.

Telegram: @cinciva

– Onda şəbəkə yarat. Tüklü Meri.

– Dekster.

– Hər halda, ayaqların möhtəşəmdi. – Əyilib qıçını çimdiklədi. – Sən çox gözəlsən.

Emma dirsəyilə vurduğuna görə o, təzədən yerə yıxıldı. – Mənə *tüklü Meri* dediyinə inana bilmirəm. – Onun arxasındakı cütlük hələ də öpüşürdü. – Bu cütlüyə bax, gözünü zilləmə. – Dekster başını çevirib çiyninin üzərindən baxdı. – Onların səsini eşidirəm. Bu qədər məsafədən marçıltılarını eşidirəm. Gözünü zilləmə, dedim.

– Niyə də olmasın. Bura ictimai yerdir.

– Belə şey etməkçün niyə ictimai yerə gedirsən ki? Lap sənədli filmə oxşayır.

– Ola bilsin, eşq yaşayırlar.

– Eşq belə şeydir yəni; islanmış dodaqlar və soyunulmuş köynəklər?

– Bəzən belədir.

– Elə bil oğlan başını qızın ağzına soxmaya çalışır. Ehtiyatlı olmasa, çənəsi çıxacaq.

– Hər halda, halından məmnundur.

– Dekster.

– Elə görünür də, mən, sadəcə, gördüyümü deyirəm.

– Bilirsən, bəzi adamlar səndəki bu daimi cinsəl birləşmə halında olma düşkünlüyünün bir qədər fövqəltəbii şey olduğunu fikirləşsələr də, bəziləri də bunun bir az qəmgin və ümidsiz bir durum olduğunu fikirləşə bilərlər...

– Qəribədir, özümü nə qəmgin, nə də ümidsiz hiss edirəm.

Özünü elə hiss eləyən Emma heç nə demədi. Dekster dirsəyiylə itələdi. – Nə etməli olduğumuzu bilirsən? Mən və sən?

– Nə?

Dekster qımışdı: – Birlikdə E alacağıq.

Telegram: @cinciva

– E? E nədir? – deyərək boş-boş baxdı. – Ah, bəli, deyəsən, onunla bağlı bir məqalə oxumuşdum. Ruh gördürən kimyəvi preparatlar hazırlayacağımı fikirləşmişdim. Bir dəfə Tipp-Eksin qapağını açıq qoyub fikirləşmişdim ki, ayaqqabılarım məni yeməyə çalışır. O, kef verirmiş kimi güldü və təbəssümünü plastik fincanda gizlətdi. Mən hər vəziyyətdə tərtəmiz, təbii içkini üstün tuturam.

– Utancaqlıqdan qurtulmağına kömək edir.

– Onda niyə dayanmadan hər kəslə qucaqlaşırsan?

– Mən, sadəcə, bəlkə sən də əylənərsən deyə fikirləşdim, vəssalam.

– Hə, əylənirəm. Nə qədər əyləndiyimi təsəvvür edə bilməzsən. – Arxası üstə uzanıb göy üzünə baxarkən Deksterin ona baxdığını hiss eləyirdi.

– Yaxşı, sən nə işlə məşğulsan? – Dekster dedi, – İstənilən xəbər? İstənilən hərəkət?

– Ah, məni tanıyırsan. Mənim emosiyalarım yoxdu. Mən robotam. Ya da rahibə. Robot rahibə.

– Yox, elə deyilsən. Elə görünməyə çalışırsan, amma elə deyilsən.

– Ah, heç vecimə də deyil. Haradasa, bunu xoşlayıram da, yalnız qocalaraq...

– Em, sən hələ iyirmi beşdəsən...

– ... Pedant[1] qadına çevrilməyi. – Dekster mavi corablı qadının nə olduğunu dəqiq bilmirdi, beyni corab sözündə ilişib qalmışdı. Emma danışarkən onun mavi corab geyindiyini gözünün qabağına gətirdi və bunun ona yaraşmadığını fikirləşdi; həqiqətən də, corablar həmişə qara rəngdə olmalıdı, ya da Naominin bir dəfə geyin-

[1] Blustokinq: Mənşəyi 1750-ci illərdə Elizabet Montaqyu tərəfindən Londonda açılan və kart oyunları yerinə, ədəbi mübahisələrin edildiyi, bərbəzəkli ziyafət geyimlərinin yerinə, sadə geyimlərlə gedilən bir məkana söykənən, daha çox qadınlara yönəlik istifadə edilən, "məlumatlı", "mədəni" kimi mənaları olan ifadədir.

Telegram: @cinciva

diyi kimi qırmızı... Nəhayət, qərara gəldi ki, ola bilsin, "mavi corab" sözünün mənasını əvvəldən qaçırıb. Bu cür erotik xəyallar Deksterin zehni enerjisini işğal edərkən fikirləşdi ki, bəlkə də Emma haqlı ola bilər, bəlkə də hadisələrin seksual tərəfinə həddindən artıq baş sındırır. Hər saat o axmaq elan lövhələri, jurnal üzləri, qırmızı lifçik toqqaları gözünün qabağındaydı; yayda vəziyyət daha da pis olurdu. Əlbəttə ki, özünü daima həbsxanadan yeni çıxmış adam kimi hiss etməsi təbii deyildi. *Diqqətini cəmlə.* Kimə nəvazişlə yaxınlaşsa, yaxınlaşdığı adam əsəb sarsıntısı keçirərdi; o da arxada su mübarizəsi aparan üç qıza baxmaq yerinə, diqqətini bura cəmləyirdi...

Diqqətini cəmlə. Diqqətini cəmlə. Fikirlərini bacardığı qədər seks mövzusundan uzaqlaşdırmağa çalışdı.

– O oğlan necə oldu? – dedi.

– Hansı oğlan?

– İş yerindəki ofisiant. Kompyuter klubunun kapitanına bənzəyir.

– Yan? Nə olub ki ona?

– Niyə Yanla sevgili olmursan?

– Səsini kəs, Dekster. Yan, sadəcə, dostumdu. Butulkanı mənə ver.

O, Emmanın oturmağına, istidən qatılaşmış şərabı içməyinə baxırdı. Həssas olmadığı halda Deksterin sakitcə oturub, Emma Morlini deyib-gülərkən, ya da bir hekayə danışarkən seyr edə bildiyi vaxtlar olurdu; onun tanıdığı ən gözəl insan olduğuna tam əminlik hiss edirdi. Bəzən bunu bərkdən demək istərdi, sözünü kəsib, sadəcə, demək... Amma bu, o vaxtlardan biri deyildi, əksinə, Emmanın nə qədər yorğun, qəmgin və solğun göründüyünü, yerə baxanda çənəsinin altında bir qırış əmələ gəlməyə başladığını fikirləşirdi. Bu eybəcər eynəyin yerinə niyə kontakt linza taxmırdı? Artıq tələbə deyildi. Və məxməri saç rezinləri; bunlarla özünə heç

Telegram: @cinciva

bir xeyir etmirdi. Dekster Emmanın, həqiqətən də, ehtiyacı olduğu tək şeyin kiminsə rəhmlə əlindən tutub, ondakı potensialı üzə çıxarmaq olduğunu fikirləşirdi. Bir anlıq Emmanın keçirəcəyi ağlasığmaz ardıcıl dəyişiklikləri təsəvvür elədi. Hə, Emmaya, həqiqətən də, daha çox diqqət göstərməliydi və təsirini indi göstərməsə də belə, o, bunu edəcəkdi.

Ancaq qısa müddətdə Emmanın özünü daha yaxşı hiss etməsi, əhvalının düzəlməsi, ruh yüksəkliyinin yaranması, özünə inamının artması üçün edə biləcəyi nə isə yox idimi? Ağlına bir fikir gəldi və təntənəli surətdə Emmanın əlindən tutdu:

– Bilirsən, Em, əgər qırx yaşına qədər subay qalsan, səni alacam.

O, xəfif bir ikrah hissiylə Deksterə baxdı: – Deks, bu, *təklif*di?

– İndi yox; ikimiz də ümidsiz olanda.

Emma acı-acı güldü. – Sənə ərə gəlmək istəyəcəyim haradan ağlına gəldi?

– Hazıra nazir olmaq istəyirsən?

Emma başını yavaş-yavaş silkələdi: – Qorxuram, növbəyə dayanmalı olasan. Ət soyuducusunu təmizləyərkən Yan da mənə tamamilə eyni şeyi dedi. Amma o, mənə otuz beş yaşıma qədər vaxt verdi.

– Yaxşı, Yana heç bir etirazım yoxdu, ancaq, məncə, bir beş il də gözləməlisən.

– Mən sizdən heç nə gözləmirəm! Hər halda, onsuz da, heç vaxt ərə getməyəcəyəm.

– Haradan bilirsən?

Emma çiyin atdı: – Mənə ağıllı, yaşlı qaraçı qadın demişdi.

– Məncə, sən siyasi əsaslara görə evliliyə qarşısan.

– Sadəcə... mənlik deyil, vəssalam.

– Səni indidən görə bilirəm. Uzun, ağ geyim, gəlinin rəfiqələri, balaca uşaqlar, mavi bağlama... – *Bağlama.* Fikri bu sözü balıq qarmağı kimi tutdu.

Telegram: @cinciva

– Düzünü desəm, həyatda "münasibətlərdən" daha vacib şeylərin olduğunu fikirləşirəm.

– Necə, karyeranı nəzərdə tutursan?

Emma baxışıyla güllə atdı sanki.

– Üzr istəyirəm.

Birlikdə qaralmaqda olan səmaya tərəf çevrildilər, bir az sonra Emma dilləndi: – Əslində, bilmək istəyirsənsə, karyeram bu gün bir az yüksəlməyə başladı.

– İşdən qovuldun?

– Mükafatlandırıldım. – Oğlan gülməyə başladı. – Menecerlik işi təklif edildi.

Dekster tez qalxıb oturdu: – Orada? Oranı batırmalısan.

– Niyə batırmalıyam oranı? Restoran işində heç bir problem yoxdu.

– Em, sən dişinlə-dırnağınla qazıb dağ-mədən uranı axtara bilərsən və xoşbəxt olduğun müddətcə bu, sənə yaxşı gələ bilər. Amma sən bu işə nifrət edirsən axı, hər anına ayrıca nifrət edirsən.

– Elə? Əksər adamlar işlərinə nifrət eləyir. Bunun səbəbi də adının "iş" olmasıdır.

– Mən işimi sevirəm.

– Hə, hamımız mediada işləməliyik, elə deyil? – Öz səsinin ələ salıcı və buz kimi soyuq tonuna nifrət elədi. Daha pisi, gözlərinin arxasında formalaşmağa başlayan isti, anlaşılmaz göz yaşlarını hiss edə bilirdi.

– Hey, bəlkə mən sənə bir iş tapa bilərəm.

Emma güldü. – Nə işi?

– Mənimlə birlikdə Redlayt Prodakşnda! – Bu fikir elə indicə ağlına girməyə başlamışdı. – Tədqiqatçı kimi. Köməkçi kimi başlaya bilərsən, maaşsızdı, amma sən mükəmməl olarsan.

– Dekster, çox sağ ol, mən mediada işləmək istəmirəm. Bilirəm ki, bu günlərdə hamının *media*da işləməkçün can atdığını fikirləşirlər; elə bil *media*da işləmək dünyanın ən yaxşı işidir. –

Telegram: @cinciva

Səsin isterik çıxır, – deyə fikirləşdi, – qısqanc və isterik. – Əslinə qalsa, mən medianın nə olduğunu belə bilmirəm... – *Danışma, sakit qal.* – Yəni siz hamınız bütün günü ortalıqda boş-boş gəzib, butulkadan su içib, narko-həb qəbul edib, fotosurət çıxarmaqdan başqa nə iş görürsünüz ki?

– E-e, bu çox ağır işdi, Em.

– Demək istəyirəm ki, adamlar bu lənətə gəlmiş mediaya göstərdikləri hörmətin eynisini, nə bilim, tibb bacılığına, sosial xidmətlərə, ya da müəllimliyə də göstərməyə çalışsalar...

– Onda müəllim ol! Möhtəşəm müəllim olarsan...

– Lövhəyə "Dostuma karyera məsləhəti verməyəcəm!" yazmağını istəyirəm. – O, indi həddindən artıq ucadan danışır, demək olar ki, qışqırırdı, birdən bunun ardınca uzun bir sakitlik gəldi. Niyə belə olurdu? Dekster, sadəcə, kömək etmək istəyirdi. Bu dostluqdan nə xeyir götürə bilərdi ki? O, indi qalxıb getməlidi; bunu etməlidir. Eyni anda çevrilib bir-birilərinə baxdılar.

– Üzr istəyirəm, – Dekster dedi.

– Yox, mən üzr istəyirəm.

– Sən niyə üzr istəyirsən?

– Belə gurultulu... dəli dana kimi boş-boş danışdığım üçün. Üzr istəyirəm, yorğunam, pis günümdəyəm, bu qədər... cansıxıcı olduğum üçün bağışla.

– Cansıxıcı deyilsən.

– Eləyəm, Deks. İlahi, and içirəm, özümün belə canımı sıxıram.

– Yaxşı, məni darıxdırmırsan. – O, Emmanın əlini tutdu. – Sən məni heç vaxt darıxdıra bilməzsən. Sən milyonda birisən, Em.

– Mən hətta üçdə biri belə deyiləm.

Dekster onun ayağına təpiklə vurdu. – Em?

– Hə?

– Sadəcə, dinlə. Sadəcə, sus və dinlə, olarmı?

Telegram: @cinciva

Onlar bir anlıq bir-birilərinə baxdılar. Dekster bir daha yerə uzandı, bir az sonra Emma da onun yanına uzandı və uzandığı anda Deksterin qolunun onun çiyinlərinin altına uzadılmış olduğunu hiss elədi. Narahat keçən bir andan sonra Emma ona tərəf çevrilərək buruldu. Dekster onun çiynini qucaqladığı qolunu bir az daha sıxaraq danışmağa başladı.

– Bilirsən, nəyi başa düşə bilmirəm? Yanında həmişə nə qədər əla, nə qədər ağıllı, nə qədər məzəli və istedadlı olduğunu söyləyən adamlar oldu; elə mən özüm illər boyu dayanmadan deyirəm. Niyə buna inanmırsan? Bu qədər insanın bu sözləri nə üçün dediyini fikirləşirsən, Em? Səncə, bu qədər insan birləşib sənə qarşı sui-qəsd-zad hazırlayır?

Emma onu susdurmaq, bəlkə də ağlamamaq üçün başını Deksterin çiyninə qoydu. – Çox yaxşısan. Amma mən getməliyəm.

– Yox, bir az da qal. Bir butulka da alarıq.

– Naomi səni haradasa gözləmir? Onun balaca ağzı narkoman dağsiçanı kimi həblərlə doludur. – Yanaqlarını şişirdi, Dekster də güldü, Emmanın kefi xeyli duruldu.

Onlar orada bir müddət də qaldılar, sonra içki satılan bir dükana getdilər; şərab içib böyük bahalı çips yeyərək, günəşin şəhərin üzərində qürubunu seyr etməkçün təpəyə geri qayıtdılar. Recentz Park zooparkından qəribə heyvan səsləri eşidilirdi; və nəhayət, onlar təpədə tək qaldılar.

– Evə qayıtmalıyam, – Emma dedi; bir az səntirləyərək ayağa qalxdı.

– İstəsən, mənimlə qala bilərsən.

Emma evə gediş yolunu, Şimal Xətti metrosunu, 38N-li avtobusun üst qatını; sonra dəhşətli soğan iyi verən o mənzilə gedən uzun və təhlükəli yolu fikirləşdi. Nəhayət, evə çatanda, ehtimal ki, qızdırıcılar açıq və Tilli Killik əynində xələt kərtənkələ kimi radiatora yapışıb, qabdan *pesto* yeyəcəkdi. İrland çedder pendirinin

Telegram: @cinciva

üzərində diş izləri, televizorda axmaq-axmaq şeylər olacaqdı və o, bunları düşündükcə evə heç getmək istəmirdi.

– Borc diş fırçası istəmirsən? – Dekster fikirlərini oxuyurmuş kimi dedi. – Divanda yatmaq?

Sərxoş və beyni dumanlı halda başı fırlanarkən, Deksterin cırıltılı, açılıb- yığılan, qara dəri divanında bir gecə keçirtməyi təsəvvür elədi, sonra həyatın kifayət qədər mürəkkəb olduğunu düşündü. O, qəti qərar verdi – bu günlərdə, demək olar ki, hər gün verdiyi qərarlardan birini. *Daha heç kimdə gecələməyəcək, daha heç bir şeir yazmayacaq, daha nahaq yerə vaxt itirməyəcək... Həyatını yoluna qoymağın vaxtıdır. Yenidən başlamağın vaxtı.*

Telegram: @cinciva

V fəsil

Süzləşmə qaydaları

15 iyul. 1992-ci il. Çərşənbə

Dodekanes adaları, Yunanıstan

Bir gün oyanıb hər şeyin mükəmməl olduğunu görürsən.

Bu gözəl, parlaq Müqəddəs Svitin günü onları ən kiçik yağış ehtimalı olmayan, nəhəng, mavi səmanın altında, Egey dənizində yavaş-yavaş hərəkət edən bərənin günəşli göyərtəsində qarşılamışdı. Yeni gün eynəkləri və tətil geyimləriylə dünən gecəki pivəxana sərxoşluğunun süstlüyü içində, sabah günəşi altında yanbayan uzanmışdılar. Adalarda on günlük səyahət turunun ikinci günüydü və sözləşmə qaydaları hələ də etibarlılığını saxlayırdı.

Qaydalar yola çıxmazdan əvvəl tətili "mürəkkəbləşdirməmək" üçün müəyyən edilmiş, platonik Cenevrə Razılaşmasına oxşar bir sıra qadağalar məcmusuydu. Emma yenidən yalnız idi; barmaqları daima pas təmizləyicisi iyi verən velosiped təmirçisi Spaykla olan qısa və nəzərə çarpmayan əlaqələri hər iki tərəfin də vecinə olmadan qurtarmış, amma, ən azından, Emmanın inamının artmasına kömək etmişdi. Və onun velosipedi daha heç vaxt yaxşı vəziyyətdə olmamışdı.

Dekstersə, dediyinə görə, əlaqə çox "gərginləşməyə" başladığı üçün, bu nə deməkdisə, Naomiylə görüşməyi dayandırmışdı. Ondan sonra Evril, Meri, Sara, bir Sara, bir Sandra, bir də Yolan-

Telegram: @cinciva

danın arasından keçərək, modelliyi atmağa məcbur olduğu üçün (qız döşləri podiumda yerimək üçün çox böyük olduğunu ciddi bir ifadəylə Emmanın düz üzünə demişdi) modellikdən moda stilistliyinə keçən azğın İnqridlə enişi tamamlamışdı.

İnqrid lifçiyini köynəyinin üstündən geyəcək qədər seksuallığına arxayın bir qızdı və o, Emma tərəfindən, əslində, yer üzündə heç kim tərəfindən heç bir şəkildə hədələnmədiyi halda, bütün tərəflər, çimərlik geyimləri çıxarılmadan, içkilər içilmədən əvvəl bəzi şeylərin yoluna qoyulmasının lazım olduğu qərarına gəlmişdilər. Nə isə baş verəcəyinə görə yox: bu mövzu bir neçə il əvvəl bağlanmışdı və artıq Emma və Dekster təhlükəsiz bir dostluğun möhkəm sərhədləri içində bir-birinə bağlanmışdılar. Bununla belə, iyunda bir cümə gecəsi Hempstid Hizdə bir pivəxanada oturub qaydaları müəyyənləşdirdilər.

Qayda bir: Ayrı yataq otaqları. Nə olursa-olsun, heç bir şəkildə nə təkadamlıq, nə də qoşa – eyni yataqda yatmayacaqdılar, sərxoşkən yaxınlaşma, qucaqlaşma olmayacaqdı; artıq tələbə deyildilər. – Üstəlik qucaqlaşmaqda heç bir məna görmürəm, – Dekster dedi. – Qucaqlaşmaq səni qıcıqlandırır, – Emma razılaşdı və əlavə elədi:

– Mazaqlaşmaq da olmayacaq. Qayda iki.

– Yaxşı, məzaqlaşmaram, onsuz da... – deyərək ayağını Emmanın şalvarından içəri soxdu.

– Ciddi ol, çox içib işvələnmək yoxdu.

– İşvələnmək?

– Nə demək istədiyimi bilirsən. Məzələnmək yoxdu.

– Nə, sənlə?

– Nə mənimlə, nə də başqasıyla. Əslində, bu, qayda üçdü. Sən ştutqartlı Lottenin içinə zeytun yağı kimi axarkən, mən də limon kimi bir kənarda oturmaq istəmirəm.

– Em, belə şey olmayacaq.

Telegram: @cinciva

– Xeyr, bu olmayacaq. Çünki bu, qaydadır.

Qayda dörd – Emmanın israrıyla çılpaqlığa icazə verilməməsi şərti oldu. Çılpaq üzmək olmaz: Həmişə fiziki təvazökarlıq və kübarlıq. Deksteri alt paltarlarıyla duşda, ya da Allah göstərməsin, tualetdə görmək istəmirdi. Qayda beşi Dekster cavab zərbəsi olaraq təklif etdi. Skrəbbl oynamaq olmaz. Getdikcə bu oyunu artıq üçqat söz hesabına susayan, narkomanlar kimi cəfəng istehzayla daha çox dostu oynayırdı, amma bu oyun sanki onu özünü axmaq kimi hiss eləmək və darıxdırmaq üçün icad edilmiş bir oyundu. Nə skrəbbl, nə də boql oynamaq yoxdu; onda hələ ölməmişdi.

İndi ikinci gündə, qaydalar hələ də yerinə yetirilərkən Rodosdan uzaqlaşıb, daha kiçik olan Dodekanes adalarına tərəf yavaş-yavaş hərəkət edən pas basmış köhnə bərənin göyərtəsində uzanmışdılar. Onlar ilk gecələrini qədim şəhərdə, içi oyulmuş ananaslardan şirin kokteyllər içərək keçirtmişdilər, bu qəribəlik qarşısında bir-birinə qımışmaqdan özlərini saxlaya bilməmişdilər. Bərə Rodosu tərk edərkən artıq hava qaranlıq idi; onlar o vaxt, səhər saat doqquzda sakitcə, süstlüklərindən canlarını qurtarmaq üçün uzanmışdılar; mühərriklərin gurultusunu mədələrində hiss edir, portağal yeyir, səssizcə kitab oxuyur, özlərini sakitcə günə verirdilər. Bir-birinin səssizliyində tamamilə xoşbəxtdilər.

Səssizliyi əvvəlcə Dekster pozdu; ah çəkərək Emmanın hədiyyəsi olan və tətil boyunca oxuyacağını boynuna götürdüyü böyük qalın kitabı – Nabokovun "*Lolita*"sını sinəsinə basdı.

Bir dəqiqə keçdi. Dekster səs olsun deyə təzədən ah çəkdi.

– Nə var, nə yox? – Emma Dostoyevskinin "*İdiot*"undan gözünü çəkmədən dedi.

– Fikrimi toplaya bilmirəm.

– Bu, şah əsəridi.

– Başımı ağrıtdı.

– Sənə şəkilli, ya da laylalar olan bir şey almalıydım.

Telegram: @cinciva

– Ah, çox sevinərdim...

– *"Ac kəpənək qurdu"*, ya da ona oxşar nə isə...

– Məncə, bir az ağırdı. Dayanmadan kişinin nə qədər azğın olduğundan bəhs edir.

– Fikirləşmişdim ki, sənə maraqlı olar. – Emma gün eynəyini çıxartdı. – O çox erotik kitabdır, Deks.

– Balaca qızlarla maraqlanırsansa, hə.

– Mənə Romadakı Dil Məktəbindən niyə qovulduğunu bir dəfə də danış da...

– Demişəm sənə, qızın iyirmi üç yaşı var idi!

– Onda yat. – Öz rus romanını ondan aldı. – Zövqsüz.

Dekster başını təzədən çantasının üstünə qoydu, amma yan tərəfinə üzünə kölgə salan iki adam gəlmişdi. Qız qəşəng və əsəbi, oğlansa böyük və solğun dərili, səhər günəşində maqnezium ağı kimiydi.

– Üzr istəyirəm, – qız Midləndz ləhcəsiylə dedi.

Dekster əlini gözünün üstünə qoyub, günün qabağını kəsərək uzun bir təbəssümlə onlara baxdı. – Salam.

– Siz televizordakı o adam deyilsiz?

– Ola bilər, – Dekster dedi və özünü göstərə-göstərə, gün eynəyini başının üzərinə qoyub oturdu. Emma sakitcə mızıldandı.

– Adı nəydi? *"rahat ol!"* – Bu vaxtlar teleşouların adı balaca hərflərlə yazılırdı; kiçik hərflərlə yazmaq daha dəbli görünürdü.

Dekster əlini yuxarı qaldırdı: – Qəbul edirəm, günahkar mənəm!

Emma yavaşca burnunda güldü; Dekster tərs-tərs baxdı. – Məzəli yerini oxudum da, – deyərək başıyla Dostoyevskisini göstərdi.

– Sizi televizorda gördüyümü bilirdim! – Qız sevgilisinə dirsəklə vurdu. – Sənə demədim?

Solğun rəngli cavan oğlan başını aşağı salıb nə isə donquldandı; sonra sakitlik çökdü. Dekster mühərriklərin səsini və sinəsində açıq uzanan *"Lolita"*nı gördü. Kitabı yavaşca çantasına atdı. –

Telegram: @cinciva

Tətildəsiz, elə? – dedi. Şübhəsiz ki, çox yersiz sualdı, amma ona televiziya şəxsiyyətinə keçmə imkanı verirdi.

– Bəli, tətildəyik, – oğlan mızıldandı.

Daha da səssizlik çökdü. – Bu, dostum Emmadır.

Emma gün eynəyinin üstündən baxdı. – Salam.

Qız gözaltı Emmaya baxdı. – Siz də televiziyadasınız?

– Mən? Ay Allah, xeyr. – Emma gözlərini bərəltdi. – Amma arzumdu.

– Emma Beynəlxalq Amnistiya Təşkilatı üçün işləyir, – Dekster əlini Emmanın çiyninə qoyub qürurla dedi.

– Yarım ştat olaraq. Əsas işim restorandadır.

– Menecer kimi. Amma tezliklə o işdən çıxacaq. Sentyabrda müəllim olmaq üçün hazırlaşır, elə deyil, Em?

Emma diqqətlə ona baxdı: – Niyə belə danışırsan?

– Necə danışıram ki? – Dekster ədəbsiz şəkildə güldü; ancaq gənc cütlük həyəcanla qıvrılır, oğlan elə bil bu dəqiqə özünü atmağı fikirləşirmiş kimi dənizə tərəf baxırdı. Dekster söhbəti bağlamaq qərarına gəldi. – Nə isə, sahildə görüşərik, hə? Bəlkə pivə-zad içərik? – Gənc cütlük gülümsəyib, öz skamyalarına qayıtdılar.

Dekster uğur qazanmağı həmişə istəsə də, bilə-bilə məşhur olmamışdı, amma heç kim bilmədən məşhur olmağın nə mənası var idi ki? Hamı bilməliydi. İndi şöhrət ona məktəbdə populyar olmağa oxşar bir hiss kimi gəlirdi. Televiziya aparıcısı olmağı da planlaşdırmamışdı, di gəl bu işdən elə bil anadangəlmə aparıcıymış kimi zövq alırdı. Televiziya ekranlarında görünmək fortepianonun qarşısına ilk dəfə keçib, virtuoz olduğunu kəşf etmək kimi bir şeydir. Proqram daha öncə işlədiyi proqramlarla müqayisədə daha az mövzuya söykənmiş, daha çox canlı musiqi qrupları, video roliklər, ulduzlarla müsahibələr ardıcıllığıydı və doğrusu, çox şey tələb etmirdi; etdiyi tək şey kameraya baxıb, – Bir az da səs! –

Telegram: @cinciva

deyə qışqırmaqdı. Amma o, bunu çox gözəl, çox heyranedici və çox cazibədarcasına gəzişərək edirdi.

İctimaiyyətin tanıdığı birinə çevrilməksə yeni təcrübələr qazandırırdı. Emma zövqlə Deksterin performansına baxib əylənirdi; laqeyd görünməkçün özünü güclə saxlamağını, burun pərlərinin yavaşca açılmağını, dodaqlarında qaçan bir anlıq təbəssümü seyr etdi. Gün eynəyini yuxarı qaldırdı.

– Bu, səni dəyişdirmir, elə deyil?

– Nə?

– Lap, lap, lap, lap azacıq məşhur olmaq.

– Mən o sözə nifrət edirəm – Məşhur.

– Ah, bəs nəyi üstün tutursan? *Tanınmış*?

– *Ad qazanmış* necədi? – oğlan qımışdı.

– Ya da "zəhlətökən"? *Zəhlətökənə* nə deyirsən? – Emma təklif elədi.

– Bu mövzunu bağlayasan bəlkə?

– Sən də daha bu söhbəti kəsə bilərsən, lütfən?

– Nəyi?

– *Kokni*[1] ləhcəsi. Vinçester Kollecinə getmisən, Allah xətrinə.

– Mən *Kokni* ləhcəsiylə danışmıram.

– Cənab TV-də olanda danışırsan.

– Sən də Yorkşir ləhcəsiylə danışırsan!

– Çünki mən yorkşirliyəm!

Dekster çiyinlərini çəkdi: – Elə danışmaq məcburiyyətindəyəm, əks təqdirdə auditoriya uzaqlaşır.

– Əgər məni də uzaqlaşdırırsa?

– Güman ki, uzaqlaşdırır, amma sən mənim proqramımı izləyən iki milyon adamdan biri deyilsən.

– Ah, indi də sənin proqramın oldu?

---

[1] Kobud (xüsusilə Şərqi) London fəhlə sinfinin ləhcəsi.

Telegram: @cinciva

– Mənim apardığım proqram.

O, qəhqəhəylə gülüb kitabına tərəf çevrildi. Bir müddət sonra Dekster yenidən danışdı.

– Yaxşı, heç baxırsan?

– Nəyə?

– Məni izləyirsən "*rahat ol*"da?

– Baxmışam, deyəsən. Çek dəftərimi nizamlayarkən, arxa planda, bəlkə də bir neçə dəfə baxmışam.

– Bəs nə fikirləşirsən?

Emma ah çəkib gözlərini kitaba zillədi. – Bu, mənim işim deyil, Deks.

– Hər halda, de.

– Mənim televiziyadan başım çıxmır...

– Sadəcə, nə fikirləşirsənsə, onu de.

– Yaxşı, proqram bir saat boyunca elektronik fləşli bir sərxoşun qışqırıb bağırması kimi bir şeydi, amma mənim dediyim kimi...

– Yaxşı, başa düşdüm. – Kitabına baxıb Emmaya tərəf çevrildi. – Yaxşı, bəs mənim haqqımda?

– Sənin haqqında?

– Yəni... mən yaxşıyam? Aparıcı kimi?..

Emma gün eynəyini çıxartdı: – Dekster, sən bu ölkədəki bəlkə də indiyə qədər olan ən yaxşı Gənclik proqramı aparıcısısan və mən belə şeyi hələ-hələ demirəm.

Dekster qürurla dirsəklənib qalxdı. – Əslində, özümü bir jurnalist olaraq fikirləşməyi seçərdim.

Emma gülümsəyib səhifəni çevirdi: – Əminəm, edərsən.

– Çünki bu da jurnalistikadı. Araşdırma aparmalıyam, reportaj hazırlamalıyam, düz suallar verməliyəm...

Emma çənəsini baş barmağıyla işarə barmağının arasında tutdu. – Hə, hə, deyəsən, MC Hamerlə bağlı bölümünü xırdalıqlarıyla görmüşəm. Çox ağıllı, çox təhrikediciydi...

Telegram: @cinciva

– Kəs səsini, Em.

– Yox, doğrudan, MC Hamerin dərisini, musiqili ruh yüksəkliyini, şalvarını araşdırmağın... necə desəm... əlçatmaz bir şeydi.

O, Emmanı kitabla vurdu:

– Ağzını yum, oxumağında ol, yaxşı? – Arxası üstə uzanıb gözlərini yumdu. Emma gözünün ucuyla oğlanın gülüb-gülmədiyini yoxlamaq üçün baxdı, gülümsədiyini görüb özü də gülümsədi.

Günorta yaxınlaşırdı, Dekster yatarkən Emma gedəcəkləri birinci adanı görmüşdü: həyatı boyunca gördüyü ən aydın, dənizdən qalxan, göyümtül, boz rəngli qranit kütlə. O, həmişə kitabçalardakı dəniz şəkillərinin yalan olduğuna, lupa, ya da filtr hiyləsi olduğuna inanırdı, amma indi buradaydı; parıltılı və zümrüd yaşılı. İlk baxışdan ada limanın ətrafında bir yerə toplanmış hindqozulu dondurma rəngindəki binaları çıxsaq, kimsəsiz görünürdü. Bir də baxdı ki, öz-özünə bu mənzərəyə baxıb gülür. İndiyə qədər səyahət etmək onunçün həmişə həyəcanverici bir şey olmuşdu. On altı yaşına qədər hər il iki həftə boyunca Filidə bir qatarda valideynləri dayanmadan içki içib, bayırdakı yağışa baxarkən, Emmayla bacısı bir-birini didərdilər. Universitetdə də Tilli Killiklə bir yerdə Kerqormsda yemək qoxusu verən çadırda altı gün keçirmişdilər; axırı dəhşətli qurtaran, həyəcanlı, dəhşətli olduğu qədər əyləncəli bir tətildi.

İndi göyərtədə dayanıb adanın yaxınlaşmasını izləyərkən səyahətin mənasını başa düşməyə başlamışdı; özünü camaşırxanadan, evə gedən avtobusun üst qatından, Tillinin qutu otağından heç bu qədər uzaq hiss etməmişdi. Necə olursa, elə bil buradakı hava daha fərqliydi; sadəcə, qoxusu və dadı yox, havanın özü fərqliydi. Londonda hava baxımsız qalmış akvarium kimiydi. Buradakı hər şey parlaq və işıqlı, təmiz və aydındı.

Fotoaparatın düyməsinin basıldığını eşitdi, çevriləndə Deksterin yenə də onun şəklini çəkdiyini gördü. – Dəhşətli görünürəm,

Telegram: @cinciva

– refleks olaraq dedi, bəlkə də elə görünmürdü. Dekster ona yaxınlaşıb, əllərini belinə keçirib sıxdı.

– Möhtəşəmdi, elə deyil?

– Elədi. – Emma dedi; bundan daha xoşbəxt olduğu bir anı yadına salmağa çalışdısa, alınmadı.

Torpağa ayaq basdılar – ilk dəfə torpağa çıxdığının fərqinə vardı – və dərhal özlərini sahildə qalacaq yer tapmaq həyəcanı içindəki yolçuların və arxa çantalı turistlərin yaratdığı qarışıqlığın ortasında gördülər.

– Hə, indi nə olacaq?

– Gedib özümüzə qalmağa yer tapım. Sən bu kafedə oturub gözlə. Gəlib səni götürəcəm.

– Balkonlu bir yer olsun...

– Bəli, xanım.

– Dəniz mənzərəsi də, lütfən. Bir də stol.

– Görüm neyləyə bilirəm, – Dekster dedi, səndəllərini şappıldadaraq körpüdəki izdihama tərəf getdi.

Emma arxasıyca qışqırdı: – Yadından çıxmasın ha!

Dekster çevrilib baxdı; liman divarının önündə, açıq-mavi geyimini bədəninə yapışdıran isti sahil küləyində, qıraqları geniş şlyapası başında dayanmışdı. Neçə vaxtdı, eynək taxmırdı, döşləri daha əvvəl heç görmədiyi çillərlə doluydu, dərisi boynunun ardından başlayaraq qərənfil rəngindən qəhvəyiyə çevrilirdi.

– Qaydalar, – Emma dedi.

– Nə olub ki?

– Bizə iki otaq lazımdı. Hə?

– Əlbəttə. İki otaq.

Dekster gülümsəyərək izdihama qarışdı. Emma onun arxasıyca baxdı, sonra iki kürək çantasını balaca, külək aparan kafeyə tərəf sahil boyunca sürüdü. Əlini çantasına atıb qələmlə qeyd dəftəri çıxartdı; səfər üçün aldığı dəri üzlüklü, bahalı dəftərdi.

Telegram: @cinciva

Birinci boş səhifəni açıb, nə isə yaza biləcəyi şeylər haqqında fikirləşməyə cəhd elədi; hər şeyin yaxşı olmasından başqa bir anlama, ya da bir müşahidə. Hər şey çox gözəl idi, dəqiq olaraq olmaq istədiyi yerdə olduğuna aid nadir və yeni, həyəcanlı bir hissə qapıldı.

Dekster və ev sahibəsi boş sayılacaq qədər sadə bəzədilmiş otağın ortasında dayandılar: ağardılan divarlar, sərin daş döşəmə, iki nəfərlik böyük dəmir çarpayı, kiçik yazı stolu və stul, bir güldan süni çiçəklər vardı. Oğlan aşağıdakı körfəzə baxan, səmanın rənginə uyğun rəngdə boyanmış balkonun ikiqat qapısına tərəf irəlilədi. Bu, fantastik bir səhnədə yeriməyə oxşayırdı.

– Neçə nəfərsiniz? – deyə, təxminən, otuz yaşlarında, olduqca cazibədar ev sahibəsi soruşdu.

– İki nəfərik.

– Neçə gün qalacaqsınız?

– Dəqiq deyil, bəlkə beş gün, bəlkə daha çox...

– Ümid edirəm, razı qalacaqsınız.

Dekster iki nəfərlik çarpayıda oturub narahat bir ifadəylə çarpayıya dirsəkləndi. – Amma dostumla mən, sadəcə, yaxşı. Yəni, sadəcə, yaxşı dostlarıq. İki otaq lazımdı...

– Ah. Yaxşı. İkinci otağım var.

Emmanın boynunun ardında, döşlərinin üstündə əvvəllər heç vaxt görmədiyim çilləri var.

– Yəni iki otağınız var?

– Bəli, əlbəttə, iki otağım var.

– Bir yaxşı, bir də pis xəbərim var.

– Davam elə, – Emma qeyd dəftərini bağlayaraq dedi.

– Yaxşı, mən dəniz mənzərəli, balkonlu, kəndə bir az yuxarıdan baxan fantastik bir ev tapmışam; sakitlikdi, istəsən, yaza da

Telegram: @cinciva

bilərsən, hətta kiçik bir stol belə var və beş günlük boşdu, istəsək, uzada da bilərik.

– Bəs pis xəbər?

– Orada cəmi bir dənə çarpayı var.

– Ah.

– Ah.

– Başa düşürəm.

– Bağışla.

– Doğrudan? – Emma şübhəylə dedi. – Bütün adada cəmi bir dənə yataq otağı var?

– İndi pik mövsümdü, Em! Hər yerə baxdım! – *Sakit ol, qulaq batıran səs çıxarma.* Bəlkə də günahkar kartıyla oynamalısan. – Amma əgər axtarmağa davam etməyimi istəyirsənsə... – Yorğun halda stuldan qalxmağa çalışdı.

Emma qolundan tutdu. – Çarpayı tək adamlıqdı, ya cüt adamlıq?

Deyəsən, yalanı baş tutmuşdu. O, təzədən oturdu. – İki nəfərlik. Böyük çarpayıdır.

– Yaxşı, hər halda, olduqca böyük, qəşəng çarpayı olmalıdır, elə deyil? Qaydaları yerinə yetirə bilməkçün.

– Əslində, – deyərək Dekster çiyinlərini çəkdi, – mən onları, necə deyərlər, bir yol göstərici, direktiv olaraq fikirləşməyi üstün tuturam.

Emma qaşqabağını tökdü.

– Demək istəyirəm ki, Em, əgər sən razısansa, mən narazı deyiləm.

– Yox, sənin narazı olmadığını bilirəm...

– Ancaq əllərini məndən uzaq tutmağı bacarmayacağını fikirləşirsənsə...

– Ah, mən bacararam e, mən sənə görə narahatam...

– Çünki indidən deyirəm, əgər mənə barmağını toxundursan...

Telegram: @cinciva

Emma otağı çox bəyəndi. Balkonda dayanıb, sadəcə, filmlərdə gördüyü və ekzotik quraşdırma olduğundan şübhələndiyi səslərə, cırcıramalara qulaq asdı. Bağda yetişən limonları görmək də xoşuna gəlmişdi; ağaclardakı həqiqi limonlar yapışdırılmış kimi görünürdü. Görməmiş kimi görünməməkçün bunların heç birini bərkdən demədi, sadəcə: – Gözəldi. Buranı götürək, – deməklə kifayətləndi. Sonra Dekster ev sahibəsi ilə razılaşarkən o, linzalarıyla vuruşmağa davam etməkçün vanna otağına keçdi.

Tələbə vaxtı Emmanın linzaların lazımsızlığına dair sərt şəxsi mühakimələri vardı; elə bil linzalar ideallaşdırılmış qadın gözəlliyi haqqında ənənəvi anlayışları inkişaf etdirirdi. Milli Səhiyyə Xidmətlərinin möhkəm, düz, əlverişli eynəkləri insanın gözəl görünmək kimi səfeh, boş şeylərlə maraqlanmadığını, çünki ağlın ən önəmli şey olduğunu göstərirdi. Amma universiteti bitirdikdən sonra keçən illər içərisində bu arqumentlər ona mücərrəd və yanlış görünməyə başlamışdı. Nəhayət, Deksterin danlaqlarına boyun əyib bu lənətəgəlmiş şeyləri almış və özündən illərcə nəyi əsirgədiyini çox gec başa düşmüşdü; eynən filmlərdəki kimi: kitabxanaçı qız eynəyini çıxarır və saçlarını silkələyib yanına tökür. – Amma Morli xanım, çox gözəlsiniz.

Güzgüdə üzü özünə qəribə göründü, elə bil doqquz aydır, eynəyini ilk dəfə çıxarmış kimi çılpaq və açıq-aydın. Linzalar bəzən üzün dartılmalarına, özündən ixtiyarsız göz qırpımlarına səbəb olurdu. Barmağına yapışır, göz qapağının aşağısına sürüşürdü. Əməliyyata oxşar çox gərgin mücadilədən sonra balaca parçanı taparaq əvvəlki vəziyyətinə salıb, qıpqırmızı gözlərlə və ağlaya-ağlaya vanna otağından çıxdı.

Dekster köynəyinin düymələri açıq çarpayıda oturmuşdu. – Em? Sən ağlayırsan?

– Yox. Hələ tezdi.

Telegram: @cinciva

Günorta istisinin ən yüksək hərarətli vaxtında bayıra çıxdılar, kənddən bir mil qədər uzaqda, aypara şəklində uzanan ağ, qumsal yola gedib çıxdılar; hə, indi çimərlik geyimlərini çıxartmağın vaxtıydı. Emmanın çimərlik geyimləriylə bağlı çoxlu, bəlkə də həddindən artıq fikirləri vardı; nəhayət, Con Lewis brendi olan sadə, qara çimərlik geyiminin üstündə dayandı. Geyimini başından çıxararkən bilmək istəyirdi ki, Dekster bikini geyinməyə qorxduğunu fikirləşərmi; sanki bir hissədən ibarət olan çimərlik geyimi eynək, əsgər çəkmələri, velosiped dəbilqələri kimi bir təhər görünürdü, qətiyyən qadına yaraşmayan şeylərdi. Vecinə deyildi, lakin yenə də geyimini başından keçirərkən Deksterin parıldayan gözlərlə baxıb-baxmadığını fikirləşirdi. Hər bir vəziyyətdə təəccüblü, ötəri baxışlarını tutmaq xoşuna gəlmişdi. Bir həftə boyunca Spido çimərlik geyimindəki Deksterin yanında uzanmaq fikirləşdiyindən daha narahatedici bir şey olmalıydı.

– Üzr istəyirəm, – Dekster dedi, – siz İpanemalı qız deyilsiniz?

– Xeyr, mən onun xalasıyam. – Oturub ombalarına qaraldıcı losyon sürtməyə başladı; bunu edərkən baldırları sanki rəqs edirdi.

– Bu nə zir-zibildir? – Dekster dedi.

– Faktor otuz.

– Adyalın altında da yata bilərsən.

– İkinci gündən həddimi aşmaq istəmirəm.

– Lap ev boyasına oxşayır.

– Günəşə alışmamışam. Sənin kimi deyiləm, cənab səyyah. Sən də istəyirsən?

– Mən qaraldıcı losyona qarşıyam.

– Dekster, çox çətin adamsan.

Dekster gülümsədi və tünd rəngli eynəyinin arxasından gənc qadının qara çimərlik geyiminin altından sinəsini qaldırışını, boynunun ətrafında əmələ gələn zərif qırışı müşahidə etməyə davam

Telegram: @cinciva

etdi. Başını yana çevirib boynuna losyon sürtərkən saçlarını geriyə atmasında, bütün jestlərində nəsə vardı; Dekster xoş ürək bulanması ilə müşayiət olunan arzu hiss etdi. *"Aman, Tanrım, bunun kimi bir səkkiz gün də olaydı"*, – deyə fikirləşdi. Çimərlik geyiminin arxası olduqca açıqdı və əli kürəyinin ən aşağı tərəfinə faydasız şəkildə toxunmaqdan başqa bir şey edə bilmirdi. – İstəyərsənsə, kürəyinə sürtüm? – Dekster dedi.

Günəş kremi sürtməyi təklif etmək, əslində, ona görə dəbdən düşmüş bir işdi; tibbi cəhətdən narahatlığını göstərməyin daha yaxşı olacağını fikirləşdi. – Yanmaq istəməzsən, yəqin.

– Sürt onda. – Emma ayaqlarını sürüyərək getdi, Deksterin qıçlarının arasında, başını dizlərinə tərəf əyərək oturdu. Dekster losyonu sürtməyə başladı; üzü o qədər yaxındı ki, Emma nəfəsini boynunda hiss edə bilirdi. Dekster vücudunun yüksək hərarətini hiss edərkən hər ikisi də bunun adi iş olduğu, iki və dörd nömrəli qaydaları pozan bir tərəfi olmadığı təəssüratını yaratmaq üçün çox çətinlik çəkirdi.

– Arxası çox açıqmış, elə deyil? – barmaqları Emmanın onurğasında dolaşarkən dedi.

– Yaxşı ki, arxa tərəfdən kökəlməmişəm! – Emma dedi və araya hər ikisinin də ürəyində *"Aman, Tanrım! Aman, Tanrım! Aman, Tanrım!"* deyə fikirləşdikləri sakitlik çökdü.

Emma nə isə bir işlə məşğul olmaq üçün Deksterin topuğunu tutub özünə tərəf çəkdi.

– Bu, nədir?

– Tatudu da. Hindistandan. – Emma silməyə çalışır kimi barmağıyla sürtdü. – Bir qədər soldu. İn-Yan, – deyə izah etdi.

– Yol işarəsinə bənzəyir.

– Əks-qütblərin mükəmməl ittifaqı mənasına gəlir.

– Bu, "milli surət məhdudlaşdırılması" mənasına gəlir. Üstündən corab geyinmək mənasına gəlir.

Telegram: @cinciva

Dekster güldü və baş barmaqlarıyla Emmanın kürək sümüklərinin boşluqlarına basdı. Bir an belə keçdi. – Bax, ora bax, – Emma qışqırdı. – Boyan bitdi. Belə. Gəl üzək!

Beləliklə, uzun, isti gün davam edirdi. Üzdülər, yatdılar, oxudular; ən yüksək hərarət keçməyə başlayıb, çimərlik əməlli-başlı qələbəlikləşdikdə bir problem ortaya çıxdı. Buna əvvəl fikir verən Dekster oldu.

– Mənə elə gəlir, yoxsa...

– Nə?

– Bu çimərlikdə hamı tamamilə çılpaqdı?

Emma başını qaldırdı: – Of, hə. – Yenidən kitabına baxdı. – *Gözlərini zilləmə*, Dekster.

– Gözlərimi zilləməmişəm. Sadəcə, müşahidə edirəm. Mən səlahiyyətli antropoloqam, yadından çıxıb?

– Aşağı üç idi, elə deyil?

– Yüksək iki-iki. Ora bax, dostlarımız oradadırlar.

– Hansı dostlarımız?

– Bərədəkilər. Orada. Barbekü hazırlayırlar. İyirmi metrlik məsafədə solğun və çılpaq bir kişi üzərindən tüstü qalxan alüminium sininin üzərinə elə bil qızınmaq üçün əyilmişdi; qadın barmaqlarının ucunda qalxıb əlini yellədi. Dekster sevincək qarşılıq verdi: – Paltarlarınız yoooxdu!

Emma gözlərini çəkdi: – Görürsən, mən bunu edə bilmərəm.

– Nəyi?

– Çılpaq barbekü hazırlamağı.

– Em, çox mühafizəkarsan.

– Mühafizəkarlıq deyil bu, ən əsası, sağlamlıq və təhlükəsizlikdir. Qidalanma gigiyenasıdır.

– Mən çılpaq barbekü hazırlamışam.

Telegram: @cinciva

– Və aramızdakı fərq elə budur; çox qaranlıq, çox mürəkkəbsən.

– Bəlkə gedib salamlaşmalıyıq.

– Xeyr.

– Bir az söhbət edərik.

– Bir əlində toyuq şişi, o biri əlində də aləti? Xeyr, sağ ol. Həm də bu çılpaqlıq qaydalarını pozmaq olmaz?

– Nə?

– Çılpaq biriylə paltarlı danışmaq.

– Bilmirəm, elədir?

– Diqqətini, sadəcə, kitaba ver, olar? – Emma üzünü ağaclara çevirdi; amma bu qədər ildən sonra onu palçığa atılmış bir daş kimi, Deksterin ağlına girən bu ideyanı eşidə biləcək qədər tanımışdı.

– Nə fikirləşirsən? – Dekster dedi.

– Nə?

– Etməliyik?

– Nə?

– Paltarlarımızı çıxarmalıyıq?

– Yox, paltarlarımızı çıxarmağa məcbur deyilik!

– Axı hamı çıxarıb!

– Nə olsun! Həm qayda dördə nə oldu?

– Qayda deyil, direktiv.

– Yox, qayda.

– Eee? Bir az poza bilərik.

– Pozsan, qayda olmaz.

Üzünü büzüşdürüb özünü şappıltıyla quma atdı. – Sadəcə, bir az kobud görünür. Ona görə dedim.

– Yaxşı, necə istəyirsən, elə. Gözlərimi yerindən çıxarmağa çalışaram.

– Təkcə mənim soyunmağımın bir mənası yoxdu, – deyə həyasız-həyasız donquldandı.

Telegram: @cinciva

Emma da yenidən quma uzandı. – Dekster, niyə soyunmağımı bu qədər istəyirsən?

– Mən, sadəcə, fikirləşdim ki, paltarlarımız olmasa, daha rahat olarıq.

– İ-na-nılmaz, sadəcə, inanılmazdı...

– Sən fikirləşmirsən ki, daha rahat olacaqsan?

– YOX!

– Niyə yox?

– Niyəsinin fərqi yoxdu! Ayrıca, rəfiqənin bundan şad olacağını da zənn eləmirəm.

– İnqridçün əhəmiyyəti yoxdu. Çox geniş dünyagörüşü var. O, aeroportda WH Smisz mağazasında sinəsini açmışdı...

– Səni məyus etdiyimçün təəssüf edirəm, Deks...

– Məni məyus etmədin...

– Amma arada fərq var...

– Nə fərq?

– Nə də olsa, İnqrid bir modeldi...

– Nə var ki? Sən də model ola bilərdin?

Emma bərkdən qəhqəhə çəkdi: – Ah, Dekster, həqiqətən, belə fikirləşirsən?

– Kataloqlarçün-filan. Sənin gözəl bədənin var.

– "Gözəl bədən", ay Allah, özün kömək ol...

– Söylədiyim tamamilə obyektiv bir şeydi, sən çox cazibədar qadınsan...

– ... Paltarlarını soyunmayan cazibədar qadın! Bəzi yerlərinin qaralması üçün bu qədər həvəslənirsənsə, dayanma, get. İndi mövzunu dəyişdirə bilərik?

Dekster qayıtdı, qollarını başının altına qoyub yanına uzandı, dirsəkləri bir-birinə dəyirdi və Emma bir daha beynindən keçən fikirlərin səsini eşidə bilirdi. Dekster onu dirsəyi ilə dümsüklədi.

– Necə olsa, daha əvvəl görmədiyim bir şey deyil.

Telegram: @cinciva

Emma yavaşca kitabını aşağı qoydu, gün eynəyini alnına qaldırdı, üzünü əllərinin arasına aldı.

– Başa düşmədim?

– Deyirlər ki, ikimizdə də daha əvvəl görmədiyimiz bir şey yoxdu. Çılpaqlıq baxımından. – Emma gözlərini zilləyərək donub qaldı. – O gecə yadından çıxıb? Məzuniyyət gecəsindən sonra? Bir gecəlik sevgimiz?

– Dekster?

– Mən, sadəcə, demək istəyirəm ki, heç bir sürprizlə qarşılaşmayacağıq, cinsiyyət baxımdan.

– Deyəsən, ürəyim bulanır...

– Nə demək istədiyimi bilirsən...

– Bu lap çoxdan olub.

– O qədər də yox. Gözlərimi yumanda təsəvvür edə bilirəm.

– Bunu eləmə.

– Bax xatırladım belə...

– Qaranlıq idi.

– O qədər də yox.

– Mən sərxoş idim. – Emma dedi.

– Həmişə elə deyirlər.

– *Deyirlər*? *Onlar* kimdi?

– Bir də ki, o qədər də sərxoş deyildin.

– Standartlarımı endirəcək qədər sərxoşdum. Üstəlik yadımda qalan qədəriylə heç nə olmamışdı.

– Mən onu *heç nə* adlandırmazdım. Uzandığım yerdən yəni... Uzanmaq... Uzanmaq... Uzanmaq...

– Uzanmaq... Onda çox gənc idim. Daha yaxşısını bilmirdim. Əslində, yaddan çıxartdım getdi, avtomobil qəzası kimi.

– Mən unutmamışam. Gözlərimi yuman dəqiqə səni gözümün önündə canlandıra bilirəm, səhər günəşinin qarşısında siluetini gö-

Telegram: @cinciva

rürəm, ehtirasla reytuzunu kilimin üstünə tullayırsan... – Emma kitabla burnuna bərkdən vurdu.

– Aaaah!

– Bax paltarlarımı çıxarmayacam, yaxşı? Reytuz da geymirdim, həyatımda heç vaxt da geyməmişəm. – O, kitabını düzəltdi, sonra sakitcə öz-özünə gülməyə başladı.

– Gülməli nəsə var? – Dekster soruşdu.

– "Ehtirasla reytuzunu..." – Emma gülərək sevgiylə Deksterə baxdı. – Bəzən məni güldürürsən.

– Güldürürəm?

– Vaxtaşırı. Sən televiziyada olmalısan.

Dekster özündənrazı şəkildə gülümsəyib gözlərini yumdu. Əslində, o gecəylə bağlı beynində Emmanın canlı bir rəsmi qalmışdı; belinə yığılmış yubkası xaricində çılpaq, qolları başının üzərində öpüşürdülər. Bunları fikirləşə-fikirləşə yuxuya getdi.

Axşamüstü yorğun, yapışqan və günəşdən vücudları sızıldaya -sızıldaya otağa qayıtdılar, bax yenə də orada idi çarpayı. Çarpayının ətrafından fırlanaraq dənizə baxan balkona çıxdılar, dumanlı səmanın mavi buludları içindən axşam günəşinin çəhrayı işıqları ştrixlənirdi.

– Belə. Birinci düş almağı kim istəyir?

– Sən get. Bir az oturub oxuyacam.

Emma axan suyun səsini dinləyərək, rus romanının sanki səhifədən-səhifəyə kiçilirmiş kimi görünən şriftlərinə diqqətini toplamağa çalışıb, solmağa başlayan axşam günəşi altında uzandı. O, qəfildən qalxıb, pivə və suyla doldurduqları soyuducuya tərəf getdi, bir qutu götürdü və geri dönəndə vanna otağının qapısının açıq olduğuna fikir verdi.

Duş pərdəsi yox idi, Deksteri soyuq suyun altında gözləri bağlı, başı arxaya doğru, qolları havada dayanmış halda görə bilirdi. Kürək sümüklərinə, uzun, qəhvəyi rəngli kürəyinə, kiçik ağ

Telegram: @cinciva

onurğa sütununun üzərində, belindəki iki kiçik çuxura fikir verdi. Aman, Allahım, arxasını çevirirdi; pivə qutusu Emmanın əlindən sürüşdü və partladı, fışıldayıb köpüklənərək döşəmədə səs-küylə fırlanmağa başladı. Elə bil vəhşi bir gəmiricini tuturmuş kimi Emma qutunun üstünə dəsmalı atdı, sonra başını qaldırıb Deksterə baxdı; platonik dostu, önünə tutduğu paltarı xaricində çırıl-çılpaq qarşısında dayanmışdı. – Əlimdən sürüşüb düşdü! – dedi, pivə köpüklərini dəsmalla silərkən, bunun kimi keçəcək daha səkkiz gecə-gündüzü fikirləşərək: "*dəli olacam*", – dedi.

Sonra duş almaq növbəsi ona gəldi. Qapını örtdü, əlindəki pivəni təmizlədi, sonra hələ də Deksterin üzqırxmadan sonra işlədilən losyonunun qoxusunu hiss edə bildiyi bu kiçik, rütubətli vanna otağında soyunmaq üçün var gücü ilə çalışırmış kimi əyilib büküldü.

Qayda dörd: Emma qurulanıb geyinərkən Dekster balkonda dayanmalı idi; amma bir neçə dəfə təcrübədən keçirdikdən sonra Dekster əgər günəş eynəyini taxarsa və başını da müəyyən şəkildə saxlayarsa, Emmanın qaralmaqda olan dərisinə losyon sürtməyə çalışdığı görüntüsünü qapının arxasından izləyə bilərdi. Alt paltarını geyinərkən ombalarının yellənməsini, kürəyinin çökək əyrisini, lifçiyini geyinərkən kürəyinin arxasında əmələ gələn qövsü müşahidə seyr etdi; sonra Emma qollarını qaldırdı, göy rəngli yay geyimi bir pərdə kimi aşağı endi.

Balkona – Deksterin yanına getdi.

– Bəlkə də burada qalmalıyıq, – Dekster dedi, – adaları gəzmək yerinə, bir həftə burada qalarıq, sonra Rodosa geri dönüb, oradan da evə qayıdarıq.

Emma gülümsədi: – Yaxşı. Olar.

– Darıxmazsan ki?

– Məncə, yox.

– Xoşbəxtsən onda?

Telegram: @cinciva

– Üzümü qızardılmış pomidora dönmüş kimi hiss edirəm, bunu saymayaq...

– Qoy baxım.

Emma gözlərini yumub üzünü ona çevirdi, çənəsini qaldırdı; saçları hələ də suluydu, arxaya tərəf daranmışdı; üzü sızanaqlardan tez-tez kremlərlə təmizlənməkdən parıldayırdı. Bu, Emma idi, amma tamamilə yeni biriydi. Parıldayırdı. Dekster: *"Günəş öpüb"*, – fikirləşdi, sonra beynindən onu öpməyi keçirtdi: *"Öp onu, üzünü tutub öp onu"*.

Emma gözlərini qəfildən açdı: – İndi neyləyirik?

– Sən nə istəsən.

– Skrəbbl oynayaq?

– Mənim də öz limitim var.

– Yaxşı, axşam yeməyinə nə deyirsən? Görünür, Yunan salatı deyilən şeydən varlarıdır.

Kiçik kənddəki restoranların hamısının eynən bir-birinə oxşaması diqqət çəkirdi. Havadan yanmış quzu ətinin qoxusu gəlirdi; təzə ayın yüksəlməyə başladığı limanın sonunda sakit bir yerdə oturdular, iynəyarpaqlı tamında şərab içdilər.

– Küknar ağacları, – Dekster dedi.

– Dezinfeksiyaedicidi, – Emma dedi

Musiqi səsi plastik üzüm budaqlarının arasında gizlədilmiş səsgücləndiricilərdən yayılırdı; Madonnanın "Get İnto the Groove"[1] musiqi parçası səslənirdi. Hamısı da əməlli-başlı dadlı olan köhnə çörək rulonları, yanmış quzu əti, sirkə turşulu, duzlu salat yedilər. Bir az sonra hətta şərab belə qəribə, ağız yaxalamaq üçün maye kimi ləzzətli gəlməyə başlayanda Emma ikinci qaydanı pozmağa hazır olduğunu hiss etdi. Mazaqlaşmaq olmaz!

---

[1] "Qəbrə gir"

Telegram: @cinciva

Naz eləmək mövzusunda heç vaxt peşəkar olmamışdı. Oynaq davranışı ayağında təkərli diyircəklərlə normal söhbət edirmiş kimi incəlikdən uzaq və bacarıqsız olurdu. Amma günəş və Yunan şərabının birləşməsi Emmanı yaxşıca tutub romantikləşdirmişdi. O, təkərli diyircəklərini götürdü.

– Bir fikrim var.

– De.

– Əgər burada səkkiz gün qalacağıqsa, danışmağa mövzü baxımından sıxıntı çəkəcəyik, elə deyil?

– Güman ki, yox.

– Yenə də özümüzü sığortalamalıyıq. – O, irəli əyilib əlini Deksterin biləyinin üstünə qoydu. – Məncə, bir-birimizə heç kimin bilmədiyi bir şeyi danışaq.

– Yəni sirr-zad?

– Dübbədüz tapdın, sirr, təəccübləndirici bir şey, tətilin qalan hissəsində hər gecə bir dənə sirr açaq.

– Butulka fırlatmaq kimi bir şey? – Gözlərini bərəltdi. Dekster özünün dünya səviyyəli butulka fırlatma oyunçusu olduğuna inanırdı. – Yaxşı, birinci sən.

– Yox, əvvəl sən.

– Niyə əvvəl mən?

– Sənin seçimin daha çoxdu.

Bu, doğruydu, onda, haradasa, hüdudsuz bir sirr qaynağı vardı. Bu gecə onu geyinərkən seyr etdiyini deyə bilərdi, ya da duş alarkən vanna otağının qapısını bilərək açıq qoyduğunu. Naomiylə birlikdə heroin iylədiyini, ya da Milad günündən bir az əvvəl Emmanın otaq yoldaşı Tilli Killiklə sürətli, heç nəyə oxşamayan sekslə məşğul olduğunu; Emma küknar ağacı üçün Vulvörsdən "sehrli işıqlar" almağa gedərkən, ayaq masajı nəzarətdən çıxıb yönünü dəyişdirmişdi. Amma bəlkə də öz dayazlığını, qadın düş-

Telegram: @cinciva

künü olduğunu, şöhrətpərəstliyini və ikiüzlülüyünü ortaya çıxarmayacaq bir şey danışmaq daha yaxşı olardı.

Bir az fikirləşdi.

– Yaxşı, başladıq. – O, boğazını arıtladı. – Bir neçə həftə əvvəl bir klubda bir oğlanla münasibətim oldu.

Emmanın ağzı açıq qaldı. – Oğlanla? – deyib gülməyə başladı. – Qarşında baş əyirəm, Deks, sən, həqiqətən də, sürprizlərlə dolusan.

– Böyük bir şey olmadı, sadəcə, öpüşdük, həm də mən sərxoş idim.

– Həmişə belə deyirlər. Yaxşı, danış görüm, sonra nə oldu?

– Voksholdakı *"Toqqa"* adlanan klubda təşkil olunan *"Seks üzü"* adlı dəhşətli homoseksual gecəsiydi...

– *"Toqqa"da "Seks üzü"!" "Roksi"*, ya da *"Manhetten"* adındakı diskotekalara nə oldu bəs?

– Ora diskoteka deyil, homoseksual klubdur.

– Yaxşı, bəs sənin nə itin azmışdı orada?

– Ora həmişə gedirik. Daha yaxşı musiqi var. Daha *sərt* musiqi...

– Ay səni, intellektual...

– Hər nə isə, İnqrid və dostlarıyla bir yerdə oraya getdik, rəqs edirdim, bu oğlan gəlib məni öpməyə başladı, mən də, özün bilirsən də, qarşılıq vermək kimi bir şey; qayıdıb onu öpdüm.

– Yaxşı...

– Nə?

– Xoşuna gəldi?

– Pis deyildi. Sadəcə, bir öpüş. Bir ağız ağızdır, sadəcə, elə deyil?

Emma qəhqəhə çəkdi:

– Dekster, səndə bir şair ruhu var. "Bir ağız ağızdır, sadəcə". Ah, yaxşı, çox gözəl. *"As Time Goes By"*[1] mahnısındandı, elə deyil?

---

[1] "Zaman keçdikcə". Kasablankadakı Sem adlı oğlan tərəfindən oxunan mahnı.

Telegram: @cinciva

– Nə demək istədiyimi başa düşdün.

– Bir ağız ağızdır, sadəcə. Bunu başdaşına yazmaq lazımdı. Bəs İnqrid nə dedi?

– O, sadəcə, güldü. O, belə şeylərə etiraz etmir, hətta xoşuna da gəldi. Çiyin atdı. – Onsuz, İnqrid biseksualdı...

Emmanın gözləri yerindən oynadı. – Əlbəttə, ikicinslidir, – Dekster dedi və elə bil İnqridin biseksuallığı onun ideyasıymış kimi gülümsədi.

– Bura vax, bu çox da vacib şey deyil, elədi? Bizim yaşıdlarımızın seksdə hər cür təcrübələrə açıq olmaları lazımdı.

– Bizim? Mənə heç kim bir söz deməyib.

– Məncə, başlamalısan.

– Bir dəfə işıqları yanılı qoymuşdum, amma bir də edə bilmərəm.

– Bir az qabağa getməlisən, Em. Bu utancaqlıqdan qurtul artıq.

– Ah, Deks, seks eksperti kimisən. Bu *"Toqqa"*dakı dostun nə geyinmişdi?

– Dəri şalvar, bir də kəmər taxmışdı. İngilis Telekomda işləyən Stüart adlı mühəndisdi.

– Stüartla yenə də görüşməyi fikirləşirsən?

– Sadəcə, telefonum kəsilsə. O, mənim tipim deyil.

– Mənə elə gəlir ki, hər kəs sənin tipin ola bilər.

– Bu, sadəcə, maraqlı epizod idi. Harası məzəlidi?

– Sadəcə, özündən çooox razı görünürsən.

– Yox, elə deyiləm. Ay səni, fomofobik. – Çiyinlərinin üstündən ətrafa baxmağa başladı.

– Hey, ofisianta gözün düşüb?

– Başqa içki almağa çalışıram. İndi sənin növbəndi. Sənin sirrinə keçək.

Telegram: @cinciva

– Ah, mən təslim oluram. Belə bir şeylə rəqabət apara bilmərəm.

– Heç qız-qıza da bir şey yoxdu?

Emma başını əyərək silkələdi: – Bilirsən, bir gün belə şeyi həqiqi lesbiyana da deyəcəksən, çənəni qıracaqlar.

– Düzünü de, səni heç cəlb eləmədi...

– Axmaq-axmaq danışma, Deks. İndi sirrimi eşitmək istəyirsən, ya istəmirsən?

Ofisiant müəssisənin ikramı olan və yalnız hədiyyə olaraq verilə biləcək növdən Yunan konyaklarıyla gəldi. Emma bir qurtum içdi və üzünü büzüşdürdü; sonra az içkili bir səmimiyyətlə yanağını əlinə dayayıb fikirləşdi. – Bir sirr. Qoy bir az fikirləşim.

Barmaqlarını çənəsinə vurdu. Onu duşda gördüyünü deyə bilərdi, ya da Milad günündə Tilli Killiklə olanları, qorxunc şəkildə kontroldan çıxan ayaq masajını bildiyini. Hətta 1983-cü ildə Poli Dosonu yataq otağında öpdüyünü, amma axıra qədər danışmaq istəmədiyini elə o dəqiqə anladığını belə deyə bilərdi. Üstəlik, əslində, bütün axşam nə demək istədiyini bilirdi. Dodaqlarını yaladı, gözlərini uzaqlardan ayırıb, şəkillərdə istifadə etdiyi o ən yaxşı, ən cazibədar olduğunu fikirləşdiyi üzünü geyindi.

– Universitetdə ilk tanış olduğumuz vaxtlarda, bir yerdə olandan əvvəl, özün bilirsən, sənə bir az vurğundum. Əslində, bir az yox, əməlli-başlı. İllərlə. Başı dumanlı şeirlər, hər şey yazırdım.

– Şeirlər? Doğrudan?

– Özümü tərifləmək üçün demirəm.

– Başa düşürəm. Başa düşürəm. – Dekster qollarını qatlayıb stolun kənarına dayadı, yerə baxdı. – Təəssüf edirəm, Em, amma bu, sayılmaz.

– Niyə?

– Çünki demişdin ki, nə isə mənim bilmədiyim şey olacaq. – Dekster qımışırdı və Emma bir daha onun məhdudiyyətsiz məyus etmə bacarığına malik olduğunu xatırladı.

Telegram: @cinciva

– Allahım, çox zəhlətökənsən! – Emma Deksterin gündə yanan yerlərinin ən qırmızı hissəsinə əlinin arxasıyla şappıltıyla vurdu.

– Haradan bilirsən?

– Tilli demişdi.

– Sevimli Tilli...

– Yaxşı, sonra nə oldu?

O, boş stəkanın dibinə baxdı. – Məncə, zamanla keçəcək bir şeydi. Dəmrov xəstəliyi kimi.

– Doğrudan, sonra nə oldu?

– Səni tanıdım. Sən məni səndən xilas etdin.

– O şeirləri oxumaq istəyirəm. "Dekster" üçün nə qafiyə tapmışdın?

– *Xiyar*. Bu, yarım qafiyədi.

– Ciddi soruşuram. Nə oldu onlara?

– Cırılıb atıldılar. İllər əvvəl bir şənlik tonqalı qaladım. – Özünü pis vəziyyətə düşmüş axmaq kimi hiss edərək boş stəkanı başına çəkdi. – Konyakı çox içdik. Getsək, yaxşı olar. – Həyəcanlı şəkildə ofisiantı axtarmağa başladı, bu dəfə Dekster də özünü axmaq kimi hiss etməyə başladı. Çox danışmışdı, deyəsən, bu qədər kobud, boşboğaz, özünü bəyənmiş olmaq nəyə lazımdı ki? Nəyisə düzəltmək arzusuyla Emmanın əlini azacıq itələdi. – Bir az gəzişək?

Emma tərəddüd etdi: – Yaxşı. Gəzək də.

Bütün sahilə səpələnmiş, yarımçıq tikilmiş evlərin yanından keçərək körfəzə doğru irəlilədilər; turizmin yeni inkişafı deyə fikirləşərək, ənənəvi olaraq təəssüfləndilər; onlar söhbət edərkən Emma sakitcə gələcəkdə daha ağıllı olacağını düşündü. Ağılsızlıq, düşünülməmiş qərarlar ona uyğun deyildi; buna dözə bilmirdi, nəticə heç vaxt ümid etdiyi kimi olmurdu. Deksterə etdiyi etiraf havada yellənə-yellənə qalmışdı, bir anlıq havaya yüksəlməsini

Telegram: @cinciva

müşahidə etmiş, sonra qırılan şüşənin səsini eşitmişdi. Bir yerdə keçirəcəkləri günlərin geri qalanında təmkinli, ayıq olmağa və "qayda"ları yadına salmağa qərar verdi. *İnqridi – gözəl, kimsədən çəkinməyən, onu Londonda gözləyən biseksual İnqridi yadına saldı. Uyğunsuz açıqlamalar etmə.* Bu axmaqca söhbəti ayaqqabısının dabanına yapışmış tualet kağızı kimi özüylə birlikdə hər yerə dartıb aparırdı.

Onlar artıq şəhəri arxada qoymuşdular; gündüz günəşindən hələ də isti qalan qum təpələrinin üzərində ayaqlarını sürüyə-sürüyə yeriyəndə Dekster ona dəstək verməkçün əlini tutdu. Qumun yaş və düz olduğu dəniz sahilinə tərəf yeridilər. Emma Deksterin əlini hələ də tutduğunun fərqinə vardı.

– Hara gedirik? – soruşdu.

– Mən üzəcəm. Gəlirsən?

– Dəlisən sən.

– Gəl!

– Mən boğularam.

– Boğulmazsan. Bax su əntiqədi. – Dəniz möhtəşəm akvarium kimi sakit və şəffafdı, bir ovuc alsan, elə bil əllərində şölə saçacaqdı. Dekster köynəyini dartaraq başından çıxartdı. – Gəl. Su bizi ayıldacaq.

– Axı mənim çimərlik geyimim yoxdu... – Birdən-birə həqiqət anlaşıldı. – Ay, başa düşdüm, – deyib güldü. – Nə baş verdiyini başa düşürəm...

– Nə?

– Mən də inandım, elə?

– Nə?

– Köhnə çılpaq üzmə variantı. Qızı içizdir, sonra da yaxınlıqda böyük bir su gölməçəsi axtar...

– Emma, çox dar düşüncəlisən. Niyə axı bu qədər dar düşüncəlisən?

Telegram: @cinciva

– Sən üzməyində ol. Mən buradayam.

– Yaxşı, amma peşman olacaqsan. – Emmaya arxasını çevirib şalvarını, sonra da tumanını çıxartdı.

– Qoy tumanın qalsın! – Emma arxasıyca bağırdı, dənizə tərəf böyük addımlarla yeriyərkən uzun, qəhvəyi rəngli kürəyini və ağ ombalarını seyr etdi. – *"Seks üzü"*ndə deyilsən, xəbərin var?! – Dekster ləpədöyənə atıldı, Emmasa özünü tənha, mənasız biri hiss edərək yırğalana-yırğalana orada qaldı. Çox arzuladığı təcrübələrdən biri də bu deyildimi? Niyə daha ani davrana və rahat ola bilmirdi? Çimərlik geyimi olmadan üzməkdən bu qədər qorxarkən, onu öpmək istədiyini necə deyə bilərdi ona? Daha fikrini tamamlamadan paltarının ətəyini qatlayıb, bir hərəkətlə başından çıxartdı. Alt paltarını çıxardıb təpiklə vurdu və bir yandan gülərək, bir yandan da özünü söyə-söyə suyun qırağına tərəf qaçdı.

Suya girməyə cəsarət eləmədən barmaqlarının ucunda dayananda Dekster gözünü tutan suyu təmizlədi, sahilə göz gəzdirdi və bundan sonra nə olacağını bilmək istədi. Vicdan əzabı – o, birbirinə necə yaxınlaşdıqlarını hiss elədi; deyəsən, *Şərait* yetişirdi; bir anlıq fikirləşdi, daha ehtiyatlı hərəkət edib, daha az anlar yaşayaraq *Şəraitə* mane olmağa qərar verən o deyildimi? Hər nə olursa-olsun, bu, Emma Morliydi, Em dəyərliydi; güman ki, ən yaxşı dostuydu. Yaxşı, bəs dostlarının arasında Qorxulu İnqrid adıyla tanınan İnqridi neynəyəcəkdi? Sahildən gələn qəribə sevinc qışqırığı eşidildi və elə bil kimsə arxadan itələyirmiş kimi Emma qaçaraq suya atıldı. Düzlük və səmimiyyət; bu sözlər onun şüarı olmalıydı. Emma suyu şappıldada-şappıldada ona tərəf gəlirdi; Dekster bir dəyişiklik etmək üçün düz və səmimi olmaq qərarına gəldi; bunun ona nələr gətirəcəyini görəcəkdi.

Emma təngnəfəs halda gəlib çatdı. Qəfildən dənizin şəffaflığının fərqinə vararaq qolunu sinəsinin üstünə qatladı. – Demək, belə bir şeymiş!

Telegram: @cinciva

– Nə?

– Çılpaq üzmək!

– Belə. Nə fikirləşirsən?

– Düşünürəm ki, pis deyil. Məzəlidi. İndi mən axmaq kimi atılıb-düşüb, sənə su atmalıyam, elə deyil? – Ovcuna su doldurub Deksterin üstünə atdı. – Düz edirəm?

Dekster qarşılıq verməyə macal tapmamış, axın Emmanı tutub ayaqlarıyla yerdən dəstək alan Deksterə tərəf atdı. Dekster onu tutdu, ayaqları sıx birləşən barmaqlar kimi bir-birinə dolandı, bədənləri bir-birinə toxundu, sonra yenidən ayrıldılar; rəqqaslar kimi.

– Bu çox mənalı bir sözdü, – sakitliyi pozmaq üçün Emma dedi. – Hey, birdən dənizə işəyərsən a?

– Yox...

– Onda nə?

– Dediklərimə görə bağışla...

– Nə vaxt?

– Restoranda fikirləşmədən danışdım.

– Boş şeydi. Mən öyrəşmişəm.

– Mən də həmçinin eyni şeyləri fikirləşmişdim. O vaxtlar. Yəni mən də səni xoşlayırdım, romantik mənada demək istəyirəm. Yəni mən şeir-filan yazmırdım, amma səni fikirləşirdim, səni fikirləşirəm, ikimizi. Səni arzulayıram.

– Həqiqətən? Ah. Həqiqət?.. Düzdü. Ah. Düzdü. – Emma *o işin bu qədər şeydən sonra məhz burada, indi, Egey dənizində çılpaq dayanmışkən, nəhayət, baş verəcəyini* fikirləşdi.

– Mənim problemim... – Dekster ah çəkərək ağzının bir tərəfiylə gülümsəyib dedi, – ...güman edirəm ki, *hər kəsi* hədsiz dərəcədə arzulamağımdı!

Emma: – Başa düşürəm, – deyə bildi, sadəcə.

– ... Hər kəs, həqiqətən, küçədə gördüyüm birini belə, dediyin kimi, elə mən istəyəndi. Sadəcə, dəhşət!

Telegram: @cinciva

– Yazıq, – Emma emosiyasız bir səslə dedi.

– Mən, güman ki, özün bilirsən, bir qız dost-oğlan dost münasibətlərinə hazır deyildim; deyiləm. Fikirləşirəm ki, biz bir münasibətdən ayrl-ayrı şeylər gözləyirdik.

– Çünki... sən homoseksual idin?

– Mən ciddiyəm, Em.

– Elə? Mən heç vaxt deyə bilmərəm.

– Məndən acıqlısan?

– Xeyr! Mənim vecimə deyil! Sənə dedim axı, bu çox, çox uzun müddət əvvəl idi...

– Hər halda... – Əlləri suyun altında Emmanın belini tapıb qucaqladı. – Hər halda, bir az əyləncə istəyərsən...

– Əyləncə?

– Qaydaları poza bilərik...

– Skrəbbl oynayacağıq?

– Nə dediyimi bilirsən. Mazaqlaşmaq. Belə uzaqlardaykən, bütün zəncirlər, öhdəçiliklər olmadan, İnqridə bir söz demədən. Bizim kiçik sirrimiz. Vəssalam.

Emma boğazından qəhqəhəylə inilti arasında bir səs çıxartdı. *Bunun üçün hazırdı.* O, maliyyə mövzusunda önəmli bir şey təklif edən satıcı kimi ümidlə qımışırdı. *Bizim kiçik sirrimiz*, böyük ehtimalla, başqalarına əlavə olaraq. Ağlına bir cümlə gəldi: Bir ağız ağızdır, sadəcə. Edə biləcəyi bircə şey vardı – çılpaq olmasına əhəmiyyət vermədən sudan çıxdı və bütün qüvvətilə başını suyun içinə basıb saxladı. Yavaş-yavaş saymağa başladı. Bir, iki, üç...

Ay səni, özünü bəyənmiş, lovğa...

Dörd, beş, altı...

Və sən axmaq, axmaq qadın, dəyər verdiyinçün və onun da sənə dəyər verdiyini fikirləşdiyinçün axmaqsan...

Yeddi, səkkiz, doqquz...

Telegram: @cinciva

O vurnuxur, düşünürəm, ən yaxşısı buraxmaq və hər şeyi zarafata salmaq...

On, əllərini Deksterin başından çəkdi və sudan çıxmasına icazə verdi. Dekster saçlarından və gözlərindən suyu silkələyərək gülürdü, o da güldü, möhkəm bir "ha- ha-ha" ilə.

– Mən bundan "yox" mənasını çıxarıram, – burnuna dolan dəniz suyunu boşaldarkən dedi.

– Elə fikirləşirəm. Fikirləşirəm ki, bizim vaxtımız lap çoxdan keçib.

– Ah. Doğrudan. Əminsən? Çünki mən fikirləşmişdim ki, əgər bu işi aradan çıxarsaq, özümüzü daha yaxşı hiss edərdik.

– Aradan çıxarmaq?

– Sadəcə, fikirləşirdim ki, özümüzü daha yaxın hiss edərdik. Dost kimi.

– Yatmamağımızın dostluğumuzu korlayacağına görə narahat olursan?

– Özümü çox yaxşı ifadə edə bilmirəm...

– Dekster, səni çox yaxşı anlayıram, problem də elə budur...

– Əgər İnqriddən qorxursansa...

– Mən ondan qorxmuram. Sadəcə, bunu etdiyimizi danışa bilək deyə etmək istəmirəm. Və dərhal ardından dediyin ilk söz "lütfən, heç kəşə demə", ya da "gəl yaşadıqlarımızı həmişəlik unudaq" kimi belə-belə şeylər olduğu üçün etməyəcəyəm. Sirr olaraq saxlamaq istədiyin bir şeyi elə əvvəldən etməməlisən!

Amma Dekster gözlərini qıyıb onun arxasına, sahilə tərəf baxırdı. O da sahilə tərəf çevrildi və arıq birinin başında bayrağa bənzər nə iləsə qum boyu hay-küylə, böyük sürətlə qaçdığını gördü: bir köynək və bir şalvar.

Dekster sahilə tərəf irəliləyərək: "Heeey!" – deyə qışqırdı; sonra bütün paltarlarını oğurlayan oğrunun arxasından yumruq göstərərək sürətlə qaçmağa başladı.

Telegram: @cinciva

Təngnəfəs halda Emmanın yanına qayıdanda Emma geyinmiş və tamamilə ayılmış vəziyyətdə sahildə oturmuşdu.

– Heç bir iz yoxdu?

– Yox! Qaçdı! – yazıq halda dedi. – Cəhənnəm olub getdi. – Çılpaq olduğunu xatırladan xəfif sahil küləyi çıxmışdı, hirslə əlini ayaqlarının arasına qoydu.

– Portmanatını da aparıb? – Emma soruşdu; üzü həyəcanla büzüşmüşdü.

– Yox, sadəcə, bir az nağd pul, bilmirəm, bəlkə də on, on beş funt, balaca bic.

– Güman edirəm, çılpaq üzməyin təhlükələrindən biri də budu, – deyə donquldandı; ağzının küncləri dartılırdı.

– Ən çox şalvarın getməsinə görə əsəbiləşirəm. *Helmat Lənq*di! Tumanım *Prada*. Lənətə gəlmiş, otuz funt vermişdim o tumana...

– Sənə nə olur? – Emma qəhqəhədən danışa bilmədi.

– Məzəli deyil, Em! Mən qarət edilmişəm!

– Bilirəm, bağışla...

– O, *Helmat Lənq* idi, Em!

– Bilirəm! Sən, sadəcə... çox hirslisən... paltarların yoxdu... – Yerə yıxılmazdan əvvəl ikiqat oturdu, yumruqlarını və alnını quma qoydu.

– Özünə gəl, Em. Gülməli deyil. Eşitmirsən, Emma? Bəsdir!

Yenidən ayağa qalxanda bir müddət danışmadan sahildə addımladılar; Dekster qəfildən çox üşüməyə və utanmağa başlamışdı; Emma özünü saxlamaq üçün dümdüz, quma baxaraq yeriyirdi. – Bir vələdüzzina kiminsə tumanını nə cürətlə oğurlayır? – Dekster öz-özünə mızıldandı. – O balaca ibnəni necə tapacağımı bilirəm. Bu lənətə gəlmiş adadakı bütün yaxşı geyinmiş bicləri axtaracam! – Emma yenidən uğunub getdi, başı dizlərinin arasında quma yapışdı.

Telegram: @cinciva

Axtarışın mənasız olduğu subut olunanda təcili paltar üçün sahili axtardılar. Emma göy müşəmbə bir kisə tapdı. Dekster kisəni mini yubka kimi zərifcə belinə keçirdi. Emma kisənin qıraqlarını kəsib önlük düzəltməyi təklif etdi və bir də qarnını tutub gülməkdən qəşş elədi.

Evə dönüş onları aparıb limana çıxarmışdı.

– Təxmin elədiyimdən daha kara gələndi, – Emma dedi. Dekster bir səki pivəxanasının yanından keçərkən üzünə özünü lağa qoyan ifadə verib, fit səslərini qulaqardına vurdu. Onlar şəhərə tərəf yol aldılar və dar bir döngədə, qəfildən içkidən və günəşdən üzləri qızarmış, bir-biriylə qucalaşan, çimərlikdəki cütlüklə üz-üzə gəldilər. Onlar təəccüblə Deksterin göy mini yubkasına baxırdılar.

Cütlük rəğbətli şəkildə başını yırğalayaraq keçib getdi; qız çevrilib arxalarından qışqırdı:

– Qəşəng kisədi.

– *Helmat Lənq,* – Emma dedi; onun bu xəyanəti qarşısında Dekster gözlərini qıyaraq baxdı.

Pis əhvali-ruhiyyə evə qayıdana qədər, uzun yol boyunca və otağa qayıtdıqdan sonra da davam elədi. Çarpayını bölüşmə mövzusu əhəmiyyətini itirmişdi. Emma vanna otağına gedib əynini dəyişdi; köhnə, boz qolsuz köynəyini geyindi. O, otaqdan çıxanda göy kömür kisəsi yerdə – çarpayının ayağının yanında döşəmədəydi. – Bunu götürsən, yaxşı olar, – ayağıyla kisəni itələyərək dedi. – Qırışacaq.

– Hah, – Dekster dedi və yeni alt paltarlarıyla çarpayıya uzandı.

– Bunlar həmənkilərdi?

– Nə?

– Məşhur otuz funtluq tumanlardan. Bunlar da, yəqin, sincab dərisindəndi?

Telegram: @cinciva

– Gəl yataq ta, olar? Hə, hansı tərəf?

– Bu tərəf.

Arxaları bir-birinə yanaşı uzandılar; Emma soyuq, bəyaz məlafələrin həssas dərisinə dəyməsindən xoşhallandı.

– Gözəl gündü, – dedi.

– Axırıncı olanlara qədər, – deyə Dekster donquldandı.

Emma onun üzünə baxmaq üçün çevrildi; gözlərini dikib diqqətlə tavana baxırdı. Ayağıyla onun ayaqlarına yavaşca vurdu. – Bir şalvar, bir də tumanın gedib də, nə olub... Mən sənə yenisini alaram. Üç paket pambıqlısından. – Dekster fısıldadı, Emma məlafənin altında Deksterin əlini tutdu və o, başını çevirib baxana qədər sıxdı. – Ciddi sözümdü, Deks, – gülümsədi. – Burada olduğum üçün çox şadam. Həqiqətən də, çox yaxşı vaxt keçirirəm.

– Hə. Mən də, – Dekster mızıldandı.

– Səkkiz gün var hələ, – o dedi.

– Hə, hələ səkkiz gün var.

– Bacaracaqsan?

– Nə bilim? – Dekster sevgiylə gülümsədi; yaxşı, ya da pis, hər şey əvvəl olduğu kimiydi. – Bu axşam neçə qaydanı pozduq?

Emma bir anlıq fikirləşdi. – Bir, iki və dörd nömrəli qaydalar.

– Yaxşıdı, ən azından, skrəbbl oynamadıq.

– Sabahlar həmişə var. – O, başını yuxarı qaldırıb işığı söndürdü, kürəyini çevirib öz tərəfində yatdı. Hər şey əvvəl olduğu kimiydi və Emma özünü necə hiss edəcəyindən əmin deyildi. Bir anlıq keçirdiyi günü fikirləşərək yata bilməyəcəyindən narahat oldu; amma bir az sonra damarlarında sürünən yuxunun ağırlığının üstün gəldiyini hiss elədi.

Dekster bir müddət göy işıqlı tavana baxaraq uzandı; bunu özünün ən yaxşı gecəsi saya bilməzdi. Emmayla olmaq müəyyən bir davranış səviyyəsi tələb edirdi və o, həmişə lazımi səviyyəni gözləyə bilmirdi. Emmaya baxdı; saçları boynuna tökülmüş, yeni

Telegram: @cinciva

qaralmış dərisi bəyaz mələfələrdə daha çox bəlli olurdu. Çiyninə toxunub üzr istəmək istədi.

– Gecən xeyrə, Deks, – Emma dilləndi, güclə danışırdı.

– Gecən xeyrə, Em, – Dekster cavab verdi, Emma isə artıq yatmışdı.

"Səkkiz gün var hələ", – fikirləşdi, tam səkkiz gün. Demək olar ki, bu səkkiz gündə hər şey ola bilərdi.

Telegram: @cinciva

İKİNCİ HİSSƏ

1993 – 1995

25 – 30

"Bacardığımız qədər çox pul xərcləyir və insanlardan ala bildiyimiz qədər az şey alırdıq. Dostlarımızın çoxu kimi biz də, demək olar ki, həmişə özümüzü bədbəxt hiss eləyirdik. Əslində, ayrı cür olduğunu bilə-bilə, özümüzü daim bacardığımız qədər şən göstərməyə çalışırdıq. Bildiyim qədərilə, o vaxt tay-tuşlarımızın vəziyyəti də bizimkindən heç fərqlənmirdi".

Çarlz Dikkens, *"Böyük ümidlər"*

Telegram: @cinciva

Telegram: @cinciva

VI Fəsil
Həblər

15 iyul. 1993-cü il. Cümə axşamı
Birinci hissə: Deksterin hekayəsi

Brikston, Ərlz Kort və Oksfordşir

Bu günlərdə gecəylə gündüz iç-içə olmağa başlayıb. Dəbdən düşmüş günortadan əvvəl, günortadan sonra anlayışları köhnəlmiş vəziyyətdə və Dekster dan yerinin ağardığı çağı həmişəkindən daha çox görür.

İyulun 15-i, 1993-cü ildə günəş səhər 05:01-də çıxır. Dekster bir xaricinin Brikstondakı mənzilindən evinə qayıdarkən əldən düşmüş, taksinin içində günəşin doğuşunu müşahidə edirdi. Mənzilindən qayıtdığı adam tam xarici deyildi, axır vaxtlar çox tez-tez qazandığı dostlardan biri; layihəçi Qibs, ya da Qibsi, bəlkə də Biqsi və onun quş gözü kimi balacagöz, mürgülü, çox danışmayıb, masaj yoluyla ünsiyyət qurmağı üstün tutan iri, al-qırmızı ağızlı, Tara adındakı çılğın dostu.

İlk dəfə Tarayla dəmiryolu körpüsünün altındakı gecə klubunda səhərə yaxın, ikidən sonra tanış olmuşdu. Qızı bütün günü rəqs meydanında izləyir; qız mələk kimi üzündə dolğun təbəssümlə qəfildən xaricilərin arxasından peyda olub çiyinlərini, ya da kürəyini masaj etməyə başlayır. Nəhayət, növbə Deksterə çatır, Dekster başını yırğalayaraq gülümsəyir və tanınmağını gözləyir.

Telegram: @cinciva

Qız qaşqabağını tökür, barmaqlarını burnuna yaxınlaşdırır və əminliklə hamının dediyi sözləri deyir:

– Sən məşhursan!

– Bəs sən kimsən? – deyə Dekster səs-küyə görə bağırır. Qızın balaca, zərif əllərini tutur.

– Mən Tarayam!

– Tara! Tara! Salam, Tara!

– Sən məşhursan? Niyə məşhursan? Mənə danış!

– Televiziyadayam. Televiziyada *"rahat ol!"* adlı proqram hazırlayıram. Mən pop ulduzlardan müsahibə götürürəm.

– Tanıdım! Sən məşhursan! – qız bağıraraq sevinclə, barmaqlarının ucunda qalxaraq yanaqlarından öpür və bunu elə xoş edir ki, Dekster yenidən öz səsini eşitdirməkçün: – Çox sevimlisən, Tara! – deyə bağırır.

– Mən sevimliyəm! – qız qışqıraraq cavab verir. – Sevimliyəm, amma məşhur deyiləm.

– Ancaq məşhur olmalısan! – Dekster əlləri qızın belində bağırır. – Məncə, hər kəs məşhur olmalıdır!

Hamısı mənasız sözlərdi və fikirləşmədən deyilirlər, lakin bu fikir Taranı hərəkətə keçirir; "Aaaaaaah!" deyə qışqıraraq barmağının ucunda qalxır və kiçik ecazkar başını oğlanın çiyninə qoyur. – Məncə, sən çox sevimlisən, – qulağına qışqırır; amma oğlan razılaşmır. – Sən də həmçinin sevimlisən, – oğlan deyir və özlərini potensial olaraq sonsuza qədər davam edə biləcək bir "sevimlisən" dövriyyəsinin içində tapırlar. Artıq bir-birinə qımışaraq rəqs edirdilər və Dekster adamların ağlı başında olmayanda necə də asanlıqla münasibət qurduqlarını bir daha anlayır. Adamların yalnız alkoqol qəbul etdikləri köhnə vaxtlarda bir qızla danışmaq, göz təması qurmaq, içkilər almaq üçün saatlarla kitablar, filmlər, ailə və qardaşları haqqında formal sorğu-sual etmək lazım gəlirdi. Amma indiki dövrdə "Adın nədir" sualından sonra birbaşa "Mənə döy-

Telegram: @cinciva

məni göstər", ya da "Hansı alt paltarlarından geyinirsən" sualına keçmək mümkündür.

– Çox sevimlisən, – deyə bir yandan qışqırır, bir yandan da qızın ombalarını qıçlarına sürtür. – Çox balacasan. Quş kimi!

– Amma öküz kimi güclüyəm, – qız bağırır. "Çox güclüsən", – Dekster onu öpməkçün əyilir.

– Sən çox yaxşısan. Çooooooox yaxşı.

– Sən də həmçinin, – Dekster bağırır və fikirləşir: *Allahım, bu təsadüfi tanışlıqlar inanılmaz dərəcədə gözəldi.* Qız o qədər səliqəli, o qədər balacadı ki, ona çalıquşunu xatırladır; amma "çalıquşu" sözü yadına düşmədiyi üçün qızın əllərini tutub özünə tərəf çəkir, qulağına qışqırır: – Bir kibrit qutusuna yerləşəcək qədər balaca olan quşun adı nədir?

– Nə?

– KİBRİT QUTUSUNA QOYA BİLƏCƏYİN BİR QUŞ, KİBRİT QUTUSUNA YERLƏŞƏCƏK BALACA BİR QUŞ... SƏN ADI YADIMA DÜŞMƏYƏN O BALACA QUŞ QƏDƏR BALACASAN. – İki barmağını iki-üç santimetr aralayaraq işarə elədi. – BALACA QUŞ QƏDƏR BALACASAN; BU QƏDƏRSƏN.

Qız ya sözləri təsdiqləmək, ya da musiqiyə uyğunlaşmaq üçün başını yırğaladı. Ağırlaşan göz qapaqları titrəyir, bəbəkləri böyüyür, göz almacıqları Deksterin bacısının uşaq vaxtı oynadığı kuklanın gözləri kimi arxaya tərəf diyirlənirdi. Dekster nə danışdığını unudur, bir anlıq hər şey öz mənasını itirir, sonra Tara saçlarını tutub sıxır, həqiqətən də, çox sevimli olduğunu təkrarlayır və onunla birlikdə gəlib dostlarıyla tanış olmağını istəyir, çünki onların da çox sevimli olduqlarını deyir, Dekster də etiraz etmir.

O, ətrafına baxaraq universitetdən köhnə otaq yoldaşı Kellum O`Nili axrtarır, paltosunu geyindiyini görür. Bir vaxtlar Edinburqun ən tənbəl adamı olan Kellum indi kompyuterlərin bərpasıyla

Telegram: @cinciva

məşğul olaraq çoxlu var-dövlət qazanmış, bahalı kostyumlar geyinən müvəffəqiyyətli iş adamıydı. Amma müvəffəqiyyət özüylə birgə ciddilik də gətirmişdi; narkotik yox, həftə sonu gecələri sərxoşluq etmək yoxdu. O, burada narahat görünürdü. Dekster dostunun iki əlini də tutub onu danlayır.

– Haraya gedirsən, dostum?

– Evə! Gecə saat ikidi. Görüləsi işlərim var.

– Mənimlə gəl. Səni Tarayla tanış etmək istəyirəm!

– Deks, Tarayla tanış olmaq istəmirəm. Getməliyəm.

– Sən bilirsən nəsən? Qorxaqsan!

– Sən də sərxoşsan. Get və nə etmək istəyirsən elə. Sabah sənə zəng edəcəm.

Dekster Kellumu qucaqlayır və ona çox yaxşı olduğunu deyir; amma Tara bir daha onun əlindən yapışıb, az qala, sürüyür və Dekster qələbəliyin arasından **Chill Out Rooms-dan**[1] birinə tərəf sürünərək aparılmasına imkan verir.

Baxmayaraq ki, Dekster bu günlərdə hər şey üçün nadir hallarda pul ödəyirdi, di gəl bura bahalı, varlılar üçün klubdu. Cümə axşamı gecəsinə görə bir az sakitdi; amma, ən azından, o qorxunc texno musiqi və köynəklərini çıxarıb adamın üzünə ağızları açıq, çənələri kilidlənmiş vəziyyətdə baxan daz başlı, qorxunc gənclər yoxdu. Onun əvəzinə Taranın dostları kimi böyük döşəkçələrə yayxanıb qəhqəhələr atan, siqaret çəkən, söhbət edib saqqız çeynəyən, iyirmi yaşlarında, xoş, cazibədar, orta təbəqəyə mənsub gənclər var. Dekster Qibsi ya da Biqsi, gözəl Təş və oğlan dostu

---

[1] (Çil Aut Rumz): Ekstazi istifadəçilərinin təhlükəsizliyini təmin etmək məqsədiylə klublarda olan rahatlama otaqları. Ekstazi istifadəsi hədsiz maye itirilməsi və isti vurması səbəbiylə bəzi problemlərə və hətta ölümə gətirib çıxarır. İngilis hökuməti 1992-ci ildə qəbul etdiyi bir qərarla ekstaziyə görə baş verən çoxlu ölüm hadisələrinin qarşısını almaq üçün rəqs klublarında bu cür istirahət, rahatlama, görüş otaqlarının təşkilini və pulsuz su ehtiyatını məcburi hala gətirmişdi.

Telegram: @cinciva

Styu Stüpot, eynəkli Speks və oğlan dostu Markla tanış olur; hamısı ona saqqızlarından, Marlboro Layt`larından və su təklif edir. Adamlar dostluq qurmağı böyük problem sayırlar; ancaq burada bu iş inanılmaz dərəcədə asan görünür və tezliklə hər kəs birlikdə vaxt keçirdiklərini, bir turist qatarında tətilə getdiklərini, günəş batarkən sahildə barbekü hazırladıqlarını təsəvvür edir; onu bəyənmiş kimi görünürlər. TV-də çalışmağın necə bir duyğu olduğunu, başqa hansı məşhurlarla görüşdüyünü soruşurlar; o da bir neçə ədəbsiz şayiə danışır. Bütün bunlar baş verərkən Tara arxasında kiçik həzz ürpərtiləri verərək sümüklü, kiçik barmaqlarıyla onun boynunu, çiyinlərini ovxalayır; qəfildən bəzi səbəblərə görə qısa, haradasa, beş saniyəlik səssizlik çökür, amma Deksteri təəccüblə birlikdə qəfil bir ciddiyyətə aparacaq qədər uzun bir səssizlik; sabah, yox, sabah yox, bu gün etməli olduqlarını yada salır; aman, Allahım, gecənin ilk qorxu və vahiməli ürpərtisini hiss edir.

Ancaq hər şey qaydasındadır, hər şey yaxşıdır, çünki Tara təsir getmədən rəqs eləmək istəyir; beləcə, hamısı gedib dəmiryolu körpüsünün altında dağınıq halda DJ-ə və işıqlara baxaraq dayanır; bir müddət qımışaraq, başlarını yırğalayaraq, qaşqabağını tökərək rəqs edirlər, lakin baş yırğalamalar, istehzalı təbəssümlər coşqusunu itirməyə başlayır; daha çox hələ də kefli olduqlarına inanmaq ehtiyacından yırğalanıb dayanırlar. Dekster köynəyini çıxarmaq istəyir, bəzən bu, işə yarayır, amma vaxt keçir. Yanında kimsə: "Səs", – deyə könülsüz şəkildə qışqırır; heç kimi inandıra bilmir, səs çıxmır. Düşmən narahatçılıq hissi ilə onları ələ keçirir və ilk qurtulan Qibsi, ya da Biqsi olur; musiqinin dəhşətli olduğunu deyir və hər kəs birdən-birə rəqs etməyi dayandırır; elə bil ovsun sındırılır.

Çıxışa tərəf gedərkən Dekster evə qayıdış yolunu fikirləşir; klubun kənarında olan qanunsuz taksilərin təhlükəli qələbəliyi, öldürülməklə bağlı məntiqsiz bir qorxunu, Belsayz parkındakı boş

Telegram: @cinciva

evini, qab-qacaq yumağını və yuxusuz saatları fikirləşir və bir daha o qorxu dalğasını hiss eləyir.

Dostluğa ehtiyacı var. Avtomat telefon axtarır. Hələ də yatmayıbsa, Kellumu görə bilər; amma bir oğlanın dostluğu indi ona mənfi təsir göstərər. Naomiyə zəng vura bilər, di gəl o da sevgilisiylədir; ya da Yolanda – o da Barselonada filmə çəkilir; ya da Qorxulu İnqrid – o da "Deksteri görsə, ürəyini çıxaracaq" demişdi; ya da Emma, hə, Emma, yox, Emma olmaz, bu vəziyyətdə olmaz; bunu başa düşməz, bəyənməz. Hə, bu dəqiqə ən çox görmək istədiyi adam Emmadı. Niyə bu gecə onunla birlikdə deyil? Ondan çox şey soruşmaq istəyir, məsələn, niyə heç vaxt bərabər olmadıqlarını soruşmaq istəyir; birlikdə mükəmməl ola bilərdilər; bir komanda, bir cütlük kimi, Deks və Em, Em və Deks; hər kəs belə deyir. Emmaya qarşı hiss etdiyi bu gözlənilməz sevgi qarşısında yenilir və bir taksiyə minib Ərlz Korta gedib, Emmaya nə qədər möhtəşəm olduğunu, onu necə ürəkdən, həqiqətən sevdiyini və sadəcə, özü bildiyi müddətcə seksi olmağın nə mənası olduğunu, sadəcə və sadəcə, nə olacağını görmək üçün niyə bu işi etmədiklərini soruşmağa, bunların heç biri qətiyyən işə yaramazsa, sadəcə, oturub söhbət etməyə qərar verir; ən azı, bu, gecəni tək qalmaqdan yaxşıdır. Nə olursa-olsun, o, tək qalmamalıdır...

Allaha şükür, telefon əlindəykən Biqsi, ya da Qibsi hamıya onlara getməyi təklif edir; uzaqda deyilmiş evi, beləliklə, klubdan çıxırlar. Koldharbor Leynə tərəf gedərkən qələbəliyin içində olmaq qorxusuzdu.

Mənzil köhnə bir pivəxananın damında böyük yerdi. Mətbəx, qonaq otağı, yataq və vanna otağı – bütün bunlar arada divar olmadan sıralanıb, məhrəmlik olsun deyə tək, ayrıca olaraq ortada yerləşən tualeti əhatələyən, yarımşəffaf duş pərdəsi vardı. Biqsi nələrisə yoluna qoymaqla məşğul olarkən, o birilər süni pələng dərisi və qara sintetik mələfələrlə örtülü, nəhəng bəzəkli çarpayının

Telegram: @cinciva

üstündə qarışıqlığın içində qəhqəhəylə gülürlər. Yatağın üstündə gülməli bir güzgü var; güzgünün altında genələrək, ağırlaşmış göz qapaqlarıyla ona baxır, özlərini heyranlıqla müşahidə edirlər, birbirilərinin əllərini tutmağa çalışır, musiqi dinləyir; cavan və ağıllı, cazibədar və müvəffəqiyyətli olduqlarını, nə qədər mükəmməl göründüklərini, bu vaxtdan etibarən necə yaxşı dost olacaqlarını fikirləşirlər. Hezdə pikniklər, pivəxanalarda keçiriləcək uzun və tənbəl bazar günləri olacaq; Dekster daha bir dəfə özündən ləzzət alır. – Fikrimcə, qəribə adamsan, – biri o birinə deyir, amma kimə dediyinin fərqi yoxdu, çünki hamısı, doğrudan da, qəribədir. İnsanlar qəribədir.

Saatlar heç kim fikir vermədən keçib gedir. İndi biri seks haqqında danışır və sabah peşman olacaqları özəl həyatlarını ifşa etməkdə yarışırlar. Adamlar öpüşür, Tara hələ də Deksterin boynu ilə oynayır, sərt çeçələ barmağıyla onurğa sütununun yuxarısını yoxlayır, amma bu vaxt narkotiklərin təsiri tam itir və bir müddət rahatladıcı gələn masaj indi dürtüklər və zərbələr silsiləsinə çevrilir. Dekster başını qaldırıb baxanda Taranın mələk kimi üzü eybəcər və təhlükəli hal alır; çox böyük ağzı və çox yumru gözləriylə kiçik, tüksüz məməli heyvana oxşayır. Həmçinin fikirləşdiyinə nisbətən daha yaşlı olduğunu sezir – *Aman, Allahım, bu, haradasa, otuz səkkiz yaşında olar* – üstəlik balaca dişlərinin arasında, bir növ, ağ diş pastası var; məhlul kimi görünür; Dekster onurğasında hərəkət etməyə başlayan qorxu dalğasını idarə edə bilməz vəziyyətə düşür; qorxu, təhlükə və özünü tərləmə şəklində göstərən rüsvayçılıq. O, qəfildən oturur, üzündən nəyisə silirmiş kimi əllərini üzündə gəzdirir.

Hava işıqlanmağa başlayır. Koldharbor Leyndə qaratoyuqlar oxuyur; Dekster hədsiz dərəcədə duyğulanır, o qədər duyğulanır ki, demək olar, hallüsinasiyaya qapılır, özünü tamamilə boşluqda hiss edir; bir pasxa yumurtası kimi içi boş. Masajçı Tara çiyinlə-

Telegram: @cinciva

rinin arasında bir gərginlik düyünü yaratmış vəziyyətdəykən, musiqi dayanır, çarpayıdakılardan biri çay istəyir, sonra hər kəs çay istəyir, çay, çay... Beləliklə, Dekster canını qurtarır, özününküylə eyni model olan, amma genetika laboratoriyasında tapılacaq növdən nəhəng, sənaye tipli soyuducuya tərəf gedir. Qapısını açıb laqeyd-laqeyd baxır. Bir boşqabın içində salat var; çürümə ərəfəsində, az qala, partlayacaq, şişmiş plastik kütlə. Onun gözləri yuvalarında fırlanıb başını gicəlləndirir, sonra özünə gəlir və bir butulka araq görür. Soyuducunun qapısının arxasına gizlənərək iki qurtum tökür, dilində iyrənc şəkildə köpüklənən turş alma suyundan bir qurtum içir. Mayeni səksənərək saqqızıyla birlikdə udur. Kimsə yenə də çay istəyir. Süd qabını tapır, əliylə çəkir və ağlına bir fikir gəlir.

– Burada süd yoxdu! – deyə qışqırır.

– Olmalıdı, – Qibsi, ya da Biqsi qışqırır.

– Yox. Boşdu. Mən gedib bir az alaram. – Dolu, açılmamış qutunu yenidən soyuducuya qoyur. – Beş dəqiqəyə gələrəm. Başqa bir şey istəyən var? Siqaret? Saqqız? – Yeni dostlarından cavab gəlmir; beləliklə, səssizcə bayıra çıxır, pilləkənlərlə qaça-qaça aşağı düşür, qapıdan sürətlə keçərək küçənin ortasına çıxır, sonra birdən qaçmağa başlayır; bu qəribə adamları bir də heç vaxt görməyəcək.

Elektrik prospektində taksi dayanacağı tapır. 1993-cü ildə, 15 iyulda günəş 05:01-də doğur və Dekster Meyhyu çoxdan cəhənnəmdədir.

Emma Morli yaxşı yemək yeyir, həddində də içir. Bu günlərdə səkkiz saatlıq yaxşı yuxusu var və səhərlər saat altıda öz-özünə oyanır, sonra böyük bir stəkan su, gündəlik 1.5 litrin 250 millilitrini içir. Suyu isti, təmiz, ikinəfərlik çarpayısının yanına vuran səhər günəşi işığında dayanan dolçadan ona uyğun gələn stəkanına

Telegram: @cinciva

doldurur. Dolça. Bir dolçası var. Bunun həqiqət olduğuna güclə inanır.

Artıq mebelləri də var. İyirmi yeddi yaş, tələbə kimi yaşamağın vaxtı keçdiyindən artıq ikinəfərlik çarpayıda yatır; Tottenhem Məhkəmə Yolundakı müstəmləkə tərzində bir mağazanın yay satışından aldığı döymə dəmirli və hörmə işli bir çarpayı. "Taiti" markalı çarpayı Qraflar Məhkəmə Yolundakı mənzilin yataq otağını bütünlüklə tutur. Yorğan qaz tükü, mələfələr, satıcının dediyinə görə, insan övladının tanıdığı ən yaxşı pambıq növü olan Misir pambığındandı – bütün bunlarsa yeni bir nizamın, müstəqillik və yetişkinlik dövrünün işarəsidi. Bazar günü səhərlərini Taitidə tək, boş-bekar gəzərək keçirir; Porqi və Bes, Məzi Star, yaşlı Tom Veytz və Bəçin Violonçel Dəstələrinin qəribə şəkildə çatlayan albomunu dinləyir. Yarım litr qəhvə içir və ən yaxşı avtoqələmiylə bahalı qeyd dəftərinin cızılı ağ səhifələrinə hekayələri üçün müşahidələrini və qeydlərini yazır. Bəzən işlər pis gedəndə yazılan sözlərə qarşı hiss etdiyi və sevgi olduğunu fikirləşdiyi şeyin, əslində, çap kağızı üçün fetiş olub-olmadığını fikirləşir. Əsl yazar, yazıçı kimi doğulan adam sözləri kağız parçalarına, avtobus biletlərinin arxasına, həbsxana divarlarına yazar. Emma yüz iyirmi qramdan az olan bir şeyin üstündə yoxa çıxır.

Başqa vaxtlarda isə elə bil sözlər daim orada hazır dayanıblarmış kimi təkotaqlı mənzilində saatlarca dayanmadan, həvəslə yazır. Tək deyil, ən azından, çox tez-tez tək qalmır. Həftədə dörd gecə bayıra çıxır, əgər istəsə, daha çox da çıxa bilərdi. Köhnə dostluqları davam edir, Pedaqoji Məktəbdən yeni dostları da var. Həftə sonlarını qəzet-jurnal oxumaqla keçirir. Klub xəbərləri xaricində. Köynəklərini çıxarıb rəqs edən qələbəliklərlə bağlı yazılar ona anlamadığı hərflərlə qələmə alınmış yazılar kimi gəlir. Köpük dolu bir otaqda lifçiyilə heç vaxt rəqs etməyəcəyini və bunun yaxşı bir şey olduğunu fikirləşir. Bunun əvəzinə dostlarıyla

Telegram: @cinciva

müstəqil filmlərə və qalereyalara gedir, ya da bəzən kotteclərdə işə düzəlir, sağlamlıq gəzintilərinə çıxırlar və özlərini orada yaşayırmışlar kimi göstərirlər. Adamlar ona daha yaxşı, daha özünəarxayın göründüyünü deyirlər. Məxməri saç rezinlərindən, siqaretdən, evə sifariş edilən yeməklərdən istifadə etmir. Bir qəhvə hazırlayan maşını var və həyatında ilk dəfə qarışıq sərmayə yatırmağı fikirləşir.

Saatlı radio işə düşür, o isə hələ yataqdan qalxmaq fikrini yaxına buraxmadan xəbər başlıqlarını dinləyir. Con Smitlə[1] ittifaqlar arasında konflikt var; özünü pis hiss edir, çünki dürüst və ağıllı biri kimi görünən Con Smiti sevir. Hətta onun adı belə etibarlı xalq adamının prinsiplərini ağıla gətirdiyi üçün Leyborist Partiyasına üzv olma imkanını götür-qoy etməyi bir daha fikrindən keçirir; həm də bu, qurtaran Nüvə Tərk-silah Kampaniyası (CND) üzvlüyü ilə əlaqəli olaraq bəlkə vicdanını rahatladar. Məqsədləri mövzusunda eyni fikirdə olmadıqları üçün deyil, çoxtərəfli tərk-silah tələb etmək artıq bir az universal nəzakət tələb etmək kimi bir qədər sadəlövhlük olaraq görünməyə başlayıb.

İyirmi yeddi yaşındakı Emma: *"Qocalırammı?"*– deyə düşünür. Bir mübahisənin hər iki tərəfini də bildiyinə görə həmişə özüylə fəxr edərdi, indi isə artıq getdikcə artan tərzdə problemlərin fikirləşdiyindən daha çoxtərəfli və mürəkkəb olduqlarını qəbul edir. Növbəti iki xəbər mövzusu – Maastrixt Razılaşması[2] və Yuqoslaviyadakı müharibə ona qətiyyən çatmır. Bir fikri olmalı deyilmi? Bir tərəf götürməli, nələrisə boykot etməli deyilmi? Ən azı, ayrı-seçkilik etsən, harada durduğunu bilərsən. İndi Avropada bir müharibə var və o müharibəni dayandırmaq üçün şəxsən heç nə etməyib. Mebel almaqla həddindən artıq məşğuldu. Yeni pərqu

---

[1] 1980-ci illərin sonu, 90-cı illərin əvvəllərində İngiltərə Leyboristlərinin lideri.
[2] Avropa İttifaqının yaradılması haqqında saziş.

Telegram: @cinciva

kimi yorğanını narahat halda üstündən atır və çarpayısıyla divar arasındakı dar aralığa ayaqlarını sürüyərək, tənha yaşadığı üçün heç bir növbə gözləmək məcburiyyətində olmadığı kiçik vanna otağına gedir. Tişörtünü həsir paltar səbətinə atır – həsirlə çox gözəl hörülüb, Tottenhem Məhkəmə Yolundakı yay endirimindən almışdı, – köhnə eynəyini taxır, çiyinlərini arxaya çəkib güzgünün qarşısında çılpaq dayanır. "*Daha pis ola bilərdi*", – deyə fikirləşir və duşa gedir.

Emma pəncərədən bayıra baxa-baxa səhər yeməyini yeyir. Mənzili qırmızı kərpicdən tikilmiş bir binanın altıncı mərtəbəsindədi və bu binanın eynilə oxşarı olan, qırmızı kərpicdən tikilmiş bir başqa binaya baxır. Qraflar Məhkəməsindən çox xoşu gəlmir; köhnə-külüş və müvəqqəti bir yerdi; Londonun boş otağında yaşamağa bənzəyir. Tək mənzilin icarə haqqının məbləği adamın ağlını başından çıxarır, müəllimliyə başlayanda bəlkə də daha ucuz bir yer axtarmalı olacaq, amma hələlik burada yaşamağa davam edir; Loko Kəlientdən və Kləptondakı qutuya bənzər otaqdan sonra uzun yol götürdü. Tilli Killiklə altı ay birlikdə yaşayandan sonra artıq azaddır; mətbəxdə əl-üz yuyulan çanağın içində bozarmış alt paltarları, çedar pendirində diş izlərinin olmadığını görməkdən xoşu gəlir.

Artıq çoxdandı ki, şəraitindən utanmadığı üçün ailəsinin də onun yanına gəlib-getməsinə icazə verir, Emma divanda yatarkən, Cim və Syu Taiti adasını tuturlar. Londonun qarışıq quruluşu, bir fincan çayın nəticəsi haqqında edilən şərhlərlə keçən üç dəhşət verici gündən sonra və hələ də onun həyat tərzini tam olaraq qəbul etmədikləri halda, ən azından, anası neçə vaxtdır, onu Lidzə geri qayıdıb Qaz İdarəsində işləmək üçün yola gətirməyə çalışmır. Atası onları Kinqz Krosda qatarda görəndə: "Çox yaxşı etdin, Emmi", – deyə pıçıldamışdı; amma yaxşı etdiyi nəydi? Bəlkə də, nəhayət, yetkin adam kimi yaşamağı...

Telegram: @cinciva

Əlbəttə ki, hələ də sevgilisi yoxdur, amma bundan narazı deyil. Hərdən, çox nadir hallarda, yağışlı bir bazar günü günortadan sonra saat dörddə, məsələn, özünü vahiməyə düşüb tənhalıqdan boğulacaq kimi hiss edir. Bir-iki dəfə telefonu qaldırıb işləyib-işləmədiyini yoxlayır. Bəzən gecənin bir aləmində telefon səsinə oyanmağın nə qədər gözəl olacağını fikirləşir: – Taksidəyəm, – ya da – Səni görməliyəm, danışmalıyıq. – Amma ən yaxşı halda özünü Müriel Sparkın roman qəhrəmanları kimi hiss edir: azad, kitab qurdu, iti ağıllı, gizli romantik. Emma Morli iyirmi yeddi yaşında, ingiliscə və tarix sahələrində ikiqat birincilik, bir yeni çarpayı, Qraflar Məhkəməsində ikiotaqlı bir mənzil, çoxlu dost və təhsildə aspirant şəhadətnamə sahibidir. Əgər bugünkü görüş yaxşı getsə, bildiyi və sevdiyi mövzular olan ingilis dili və dram fənləriylə bağlı bir işi olacaq. Onu ruhlandıran müəllimlik karyerası yenicə başlayır və budur, axır ki, axır ki, həyatı yoluna düşür.

Hələ görüşü də var.

Əsl rəsmi görüş. Bir restorana gedəcək və bir nəfər oturub onu gözdən keçirəcək; danışıb bir yerdə yemək yeyəcəklər. "Taiti" adasına dırmaşmaq istəyən biridi... Bu gecə ona icazə verib-verməyəcəyinə qərar verəcək. O, tösterin yanında dayanıb banan doğrayır, bu, gündəlik, yeddi nəfərlik meyvə-tərəvəzin birincisidi. Təqvimə baxır. 1993-cü il 15 iyul, bir sual, bir nida işarəsi. Görüşü xəyalında aydın canlandıra bilmir.

Deksterin böyük boş otağın ortasında dayanmış səhnə, ya da boks rinqinə bənzəyən çarpayısı (bəzən hər ikisi üçün də işə yarayır) sadə, qara platformadan ibarət italyan çarpayısıdır. Saat 09:30 – Dekster oyaq vəziyyətdə, cinsi sönüklükdən özü-özünə ikrah hissi içində və xoflanaraq çarpayısında uzanıb. Əsəbləri gərgin, ağzında xoşagəlməz bir dad var, elə bil dilinə saç lakı fısqırdıblar. Qəfildən ayağa qalxıb par-par parıldayan qara döşəmənin

Telegram: @cinciva

üstündə yeriyərək isveç mətbəxinə gedir. Geniş, sənaye tipli soyuducunun buzxanasında bir şüşə araq tapır, stəkanına iki barmaq doldurub, bir o qədər də portağal şirəsi süzür. Hələ də yatmadığı üçün bunun günün ilk içkisi kimi deyil, dünənki gecənin son içkisi olduğunu düşünərək özünə təskinlik verməyə çalışır. Onsuz da, səhərlər içki içməklə bağlı tabu həddindən çox şişirdilir; bunu Avropada edirlər. Bu hiyləni narkotik qəbulu zamanı içkinin əkstəsirinin qarşısını almaq üçün edirlər. Bu məntiqdən həvəslənərək yenə də iki barmaq qədər araq süzür, "*Çarhovuz köpəkləri*" filminin musiqisini qoyub, sıxıntı içində duşa gedir.

Yarım saat sonra o, hələ də vanna otağındadı, tərləməni nə yolla dayandıracağını fikirləşir. Köynəyini iki dəfə dəyişdirib, soyuq suyla duş alıb, amma hələ də kürəyində, alnında yağlı, araq kimi yapışqan tər damcıları var.

Saatına baxır. Artıq gecdi. Maşınını pəncərələri açıq sürmək qərarına gəlir.

Qapının yanında rəngli salfet kağızlarıyla səliqəli bükülmüş, kərpic böyüklüyündə bir qutu var; onu yaddan çıxarmamalıdır. Qutunu götürür, mənzilin qapısını kilidləyir, avtomobilinin gözlədiyi – üstü açılan Mazda MR2 – yarpaqlarla örtülmüş küçəyə çıxır. Avtomobildə sərnişin oturacağı yoxdu, damına yük yığmağa yer yoxdu, uşaq arabası bir tərəfə, ehtiyat təkər üçün belə bapbalaca yer var; avtomobil gəncliyin, müvəffəqiyyətin, subaylığın avtomobili olduğunu hiss elətdirir. CD pleyer çəkmədə gizlədilmişdi, beş dənə CD seçir (səsyazma studiyalarının hədiyyələridi, işinin başqa bir üstünlüyü) və parlaq diskləri tapançaya güllə qoyur kimi qutuya yerləşdirir.

Dekster St Conz Vudun yaşayış küçələrini keçərkən The Cranberries'ə qulaq asır. Bu, əslində, heç onun zövqüncə deyil, amma insanların musiqi zövqünü formalaşdıran birisənsə, bu sahədə zirvədə qalmağın vacibdir. Qərb yolunda nəqliyyatın pik

Telegram: @cinciva

saatları qurtardığından albom başa çatmazdan əvvəl M40 yoluna çıxır, yüngül sənaye binalarının və şəhərdə özünün yaşadığı yaşayış massivinin arasından keçərək qərbə tərəf yön alır. Yaxın vaxtlarda şəhərətrafı qəsəbələrdə kənd yeri kimi iynəyarpaqlı ağac plantasiyaları salınıb. Maqnitofonda Cemərakva çalınır və balaca idman avtomobilində o, özünü daha da yaxşı və dəbdəbədə hiss edir; sadəcə, bir az ürəyi bulanır. Musiqinin səsini qaldırır. Yer kürəsində fövqəladə vəziyyət haqqında oxuyan qrupun vokalisti ilə tanış olmuş, ondan dəfələrlə müsahibə götürmüşdü və dost deyəcək qədər yaxın olmasalar da, tumba çalan oğlanın, həqiqətən, yaxşı adam olduğunu bilir, aralarında bir az şəxsi bağlılıq olduğunu hiss eləyir. Bu uzadılmış bir miks, olduqca uzadılmış parçadı və dünən gecəki narkotikin qalıqları damarlarında dövr edərək gözlərini dumanlandırdıqca Dekster oturacağına yayxanır; fikri uzaqlara gedir; siqnal eşidir və yolun iki cərgəsinin düz ortasıyla saatda 112 mil sürətlə getdiyinin fərqinə varır.

Özünə gəlir və orta cərgəyə keçməkçün sükanı döndərməyə çalışır, amma sükanı necə çevirəcəyini unutduğunu anlayır, sükanı döndərməyə çalışarkən qolları dirsəkdən tutulur, hərəkət etmir. Qəfildən sürəti saatda əlli səkkiz milə düşür, ayaqları eyni anda həm əyləcə, həm də qaza basılır, arxasında peyda olan ev böyüklüyündə yük maşınının siqnalını eşidir. O, maşının arxaya baxan güzgüsündə yük maşını sürücüsünün cin vurmuş kimi görünən üzünü görür; qara güzgüdə ona çığıran uzun saqqallı bir kişidi; üzündə üç qara deşik var; kəllə kimi. Dekster aşağı sürətlə gedilən xəttin vəziyyətinə belə baxmadan sükanı bir daha döndərir və birdən-birə məhz burada və indi Cemərakva`nın remiksinə qulaq asarkən alov halında olan ölümə getdiyinə əmin olur. Şükür Allaha, aşağı sürətli yol boşdu; bir, iki, üç dəfə dodaqlarının arasında bir boksçu kimi dərindən nəfəs alır. Musiqini söndürür və çıxışa

Telegram: @cinciva

çatana qədər sakit, balanslı şəkildə altmış səkkiz mil sürətlə yoluna davam edir.

Taqəti çəkilmiş vəziyyətdə Oksford yolu üstündə dayana biləcəyi bir yer tapır, oturacağını arxaya verib yatmaq ümidiylə gözlərini yumur, amma gözünün qabağına, sadəcə, onun üstünə çığıran yük maşını sürücüsünün üç qara deşiyi gəlir. Bayırda həddindən artıq parlaq günəş var, nəqliyyat çox səs-küylüdü, üstəlik cavan bir oğlanın bir yay səhəri on ikiyə on beş dəqiqə qalmış, dayanan bir avtomobilin içində narahat qıvrılıb yatmasında nə isə xoşagəlməz bir şey var; beləliklə, düz oturur, söyüş söyür və yeniyetmə vaxtlarından tanıdığı, yol üstündəki bir pivəxananı tapana qədər gedir.

"Ağ qu quşu" günün iyirmi dörd saatı səhər yeməkləri, inanılmaz dərəcədə ucuz bifşteks və çips xidməti göstərən şirkətlər zənciridi. Avtomobili kənarda saxlayır, hədiyyə paketi düzəldilmiş qutunu arxa oturacaqdan götürür və mebel parıldadan rəng və boyatlamış siqaret qoxusu gələn tanıdığı yerə girir.

Dekster barda özünə yer eləyir, bir kiçik pivə ilə ikiqat araq toniki sifariş verir. O, barmeni səksəninci illərdən, dostlarıyla birlikdə burada içdiyi vaxtlardan xatırlayır. – Buraya neçə il qabaq gəlirdim, – Dekster söhbət etmək həvəsiylə deyir. – Doğrudan? – əldən düşmüş, bədbəxt görünən kişi deyir. Barmen onu tanısa da, demir, Dekster stəkanları əlinə götürür, bir masada oturur, hədiyyə paketini stolun üstünə qoyub sakitcə içkisini içir. O, ətrafına baxır və son on ildə nə qədər qabağa getdiyini, əldə etdiklərini fikirləşir; tanınmış televiziya aparıcısıdı, özü də hələ heç iyirmi doqquz yaşı belə olmayıb.

Bəzən içkinin bir həddə möcüzəvi yaxşılaşdırıcı təsirinin olduğunu fikirləşir, ona görə də on dəqiqə içində cəld avtomobilinə qaçır və yenidən musiqi dinləməyə başlayır; *The Beloved* çalınır;

Telegram: @cinciva

yaxşı vaxt keçirərək on dəqiqə ərzində ata evinin çınqıl daş döşənmiş yoluna girir, gözlərdən uzaq, 1920-ci illərdən qalma bir tikilidi; ön tərəfdəki ağac formalı çarpaz çərçivə naxışları binanı olduğundan daha az müasir, kvadrat formalı və möhkəm göstərir. *Çiltrenz`də rahatlaşdırıcı, xoşbəxt bir ailə evi...* – Dekster qorxuyla fikirləşir.

Atası qapının girişində elə dayanıb ki, sanki illərdi orada durub. İyul ayına görə olduqca qalın geyinib; sviterinin altından köynəyinin ucu çıxır, əlində bir fincan çay var. Bir vaxtlar Deksterin gözündə div olan atası, indi beli əyilmiş və yorğun görünür; uzun üzü solğun, həyat yoldaşının vəziyyətinin pisləşdiyi son altı aydan bu tərəfə çökmüş və üzündəki qırışlar artmış vəziyyətdədi. Deksteri salamlamaq üçün qəhvə fincanını qaldırır; Dekster özünə bir anlıq atasının gözləriylə baxır və parıltılı köynəyinin, balaca idman avtomobilini lovğa-lovğa sürməyinin, çınqıllı yolda dayanarkən etdiyi pozğun hərəkətlərin, maqnitafonda yüksək səslə dinlədiyi musiqinin rüsvayçılığından səksənir.

Chilled-out.
Axmaq.
Loved up.
Təlxək.
Aydındı, səni, balaca zövqsüz kloun.

CD pleyeri söndürür, yerindən çıxarır, sonra əlində tutaraq diqqətlə baxır. *Sakit ol, bura Çiltrenzdi, Stokvel yox. Atan sənin pleyerini oğurlamağa hazırlaşmır. Sadəcə, sakitləş.* Qapının girişində dayanan atası fincanını yenidən qaldırır, Dekster ah çəkir, arxa oturacaqdan hədiyyəni götürür, var gücüylə özünü toplayır və avtomobildən düşür.

Telegram: @cinciva

– Necə də gülməli maşındı, – atası narazılıqla bildirir.

– Sürmək istəməzsən? – Deksterə onların ənənəvi rolları xoş gəlir: sərt və vicdanlı ata, məsuliyyətsiz və kobud oğul...

– Mən ona çətin yerləşəm. Elə bil balaca oğlan uşaqları üçün oyuncaqdı. Biz sənin daha tez gələcəyini gözləyirdik.

– Necəsən, qoca? – Dekster yaşlı atasına qəfil şəfqət duyğusu hiss edərək deyir və instinktiv olaraq qolunu atasının kürəyinə qoyub sığallayır, yanaqlarından öpür.

Eləcə donub qalırlar.

Dekster bir təhər öpmə refleksini inkişaf etdirmiş, atasının qulağına öpüş səsi çıxarmışdı. Bir tərəfi şüur altında Qibsi, Tara və Speksin yanına qayıdır. Alt dodağındakı tüpürcəyin nəmliyini və atasının üzündəki dəhşəti hiss edir; ata oğluna baxır, bu, bir növ, Köhnə Əhdi-ətiq baxışıdı. Oğullar atalarını öpürlər; daha bir təbiət qanunu pozuldu. Hələ qapıdan girməmiş ciddiyyətin bütün illüziyası dağılır. Atası burnunu çəkir; ya iyrəndiyindəndi, ya da Deksterin nəfəsini iyləyir; Dekster bunlardan hansının daha pis olduğunu tapa bilmir.

– Anan bağdadı. Səhər açılandan səni gözləyir.

– O, necədi? – atası bəlkə: "Çox yaxşıdı", – deyə bilər ümidiylə soruşur.

– Get, özün gör. Mən çay qoyum.

Günəşin parlaq işığından sonra dəhliz soyuq və qaranlıq gəlir. Böyük bacısı Kesi sini əlində, evin arxasındakı bağdan gəlir, üzü məsuliyyət, sağlam düşüncə və möminlikdən şəfəq saçır. Otuz dörd yaşında böyük tibb bacısı olub, bu, ona yaraşır da. Yarı təbəssüm, yarı qaşqabaqla üzünü-üzünə toxundurur: – Avaranın qayıdışı!

Deksterin fikri o qədər dağınıqdı ki, kinayəni anlamır, amma özünü sininin üstündəki işarələri görməməzliyə vurur. Bir kasa sü-

Telegram: @cinciva

dün içində ərimiş boz buğda dənələri, yanında təzə bir qaşıq. – Anam necədi? – soruşur. Bəlkə Kesi: "Həddindən artıq irəliləyiş var", – deyəcək.

– Get, özün gör, – Kesi deyib, yanından sıxılıb keçir, Dekster: *"Niyə heç kim mənə onun necə olduğunu demir?"* – deyə təəccüblənir.

Qapı arasından anasını süzür. Üzü tarlalara və meşələrə çevrili, dəbdən düşmüş, arxalıqlı stulda oturub, uzaqdan boz və dumanlı Oksford görünür. Bu bucaqdan üzünə böyük şlyapa və gün eynəyi kölgə salır – gün onun gözlərinə ziyan vurur, – amma incə qollarına və stulun parça çəkilmiş qolunu tutan əlinə baxaraq, onu axırıncı dəfə gördüyü üç həftə əvvəlkindən bəri böyük dəyişiklik olduğunu fikirləşir. Qəfildən ağlamaq ehtiyacı hiss edir. Balaca uşaq kimi qıvrılmaq və anasının onu qollarıyla qucaqladığını hiss etmək, eyni zamanda, buradan bacardığı qədər sürətlə qaçıb uzaqlaşmaq istəyir; amma heç biri mümkün deyil, beləliklə, tok-şou aparıcısı kimi süni şəkildə löhrəm yerişlə anasına tərəf qaçır.

– Salaaaam, gəldim, ana!

Anası gülümsəmək səy tələb edən şeymiş kimi gülümsəyir. Dekster onu öpməkçün şlyapanın altına əyilir; anasının yanaqları təəccüblü şəkildə soyuq, tarıma çəkilmiş və parlaqdı. Tökülən saçlarını gizlətmək üçün şlyapasının altından yaylıq bağlayıb. Dekster anasının üzünü daha yaxından görmək istədiyi üçün paslı bağ stuluna uzanır. Stulu səs-küylə çəkir; bayıra ikisinin də mənzərəni görə biləcəyi şəkildə qoyur, ancaq anasının gözlərini ona zilləyini hiss edir.

– Tərləmisən, – anası deyir.

– Hə, yaman istidi. – Anası narazı qalmış kimi baxır. *Kifayət qədər yaxşı deyil. Diqqətini topla. Kiminlə danışdığını unutma.*

– Əməlli-başlı islanmısan.

Telegram: @cinciva

– Bu köynəyə görədi. Süni parçadandı.

Anası uzanıb əlinin arxasıyla köynəyinə toxunur. Çiməşmiş kimi burnunu çəkir. – Haradan almısan?

– Prada.

– Bahalıdı.

– Ən yaxşısı, – sonra həvəslə mövzunu dəyişdirməkçün dekorativ daşdan olan divarın üstündən paketi götürür. – Sənincün hədiyyədi.

– Çox gözəl.

– Məndən deyil, Emma alıb.

– Paketinə baxan kimi bilmək olur. – Üstündəki lenti yavaşca açır. – Sənin kilər lentlənmiş zibil kisəsində gəlir...

– Bu, düz deyil... – deyə gülümsəyir, bu sözlərə fikir vermir.

– ...gəlsə, əlbəttə ki.

O artıq bu təbəssümü saxlamaqda çətinlik çəkir, amma xoşbəxtlikdən anasının diqqətlə qutusundan çıxardığı paketə baxır. Paketdən bir neçə dənə yumşaq cildli kitab çıxır: Edit Vorton, bir neçə Reymond Çandler, F. Skot Fitzceraldın kitabları. – Necə böyük incəlikdi. Mənim adımdan ona təşəkkür edərsən? Sevimli Emma Morli. – Fitzceraldın kitabının üz qabığına baxır. *""The Beautiful and Damned"*[1]. Sənin lə mənim kimi."

– Yaxşı, hansı hansımızıq? – düşünmədən deyir; ancaq xoşbəxtlikdən, deyəsən, anası eşitmir. 1982-ci ildən qalma, ağ-qara ajit-prop[2] tərzində olan açıqcanın arxasını oxuyur: "Tetçer, rədd ol!" Anası gülür. – Nə qədər kübar qızdı, nə qədər məzəli. – O, romanı götürür, barmaqlarıyla qalınlığını ölçür. – Bir az nikbin ola bilər. Bəlkə də onu qısa hekayələrə tərəf yönləndirməlisən.

---

[1] "Gözəl və lənətlənmiş".

[2] Ajit-prop. Təbliğat və təşviqat. Bolşevik Rusiyası tərəfindən yaradılmış Agitasiya və Propaqanda Bürosunun qısaldılmış şəkli. Sənəti inqilabın bir vasitəsi olaraq istifadə etmək üçün reallaşdırılan fəaliyyətləri əhatə edən bir termin halını almışdı.

Telegram: @cinciva

Dekster gülümsəyir və itaətkarcasına burnunu çəkir, amma ölümlə bağlı bu cür mahnılara nifrət edir. Bəlkə də cəsarətli olmaq, ruh yüksəkliyi yaratmaq kimi bir şeydi bu, amma o, bunu dərıxdırıcı və axmaqlıq hesab edir. O, deyilə bilməyəni deməməyi üstün tutur. – Yeri gəlmişkən, Emma necədi?

– Çox yaxşıdı, məncə. Artıq diplomlu müəllim oldu. Bu gün işlə bağlı görüşü var.

– Hə, bu, sənətdir. – Anası başını çevirərək ona baxır. – Sən də bir vaxtlar müəllim olmağa hazırlaşmırdın? Nə oldu?

O, kinayəni anlayır. – Mənlik deyil.

Anası bircə kəlmə: – Hə, – deyir. Sakitlik çökür və o bir daha vəziyyətin nəzarətdən çıxdığını hiss edir. Dekster televiziyada, filmlərdə gördükləriylə, pis xəstəliklərin insanları bir-birinə yaxınlaşdırdığına, bunun da bir-birinə ürəklərini açmalarına, əziyyət çəkmədən bir-birini başa düşmələrini təmin etdiyinə inanmışdı. Ancaq onlar həmişə yaxın, hər zaman açıq olmuşdular və onsuz da, aralarındakı təbii anlaşma indi hiddət, küskünlük, hər iki tərəfdə də olanlarla bağlı bir qəzəbə çevrilmişdi. Sevgi dolu və rahatlaşdırıcı olacağı gözlənilən görüşlər mübahisələrə, qarşılıqlı ittihamlara verirdi yerini. Səkkiz saat əvvəl tamamilə yad adamlara ən şəxsi sirlərini deyərkən, indi anasıyla danışa bilmir. Nə isə yolunda getmir.

– Belə. Keçən həftə "*rahat ol!*"a baxdım, – anası deyir.

– Doğrudan?

Anası susur, beləliklə, Dekster əlavə etmək məcburiyyətində qalır: – Nə fikirləşirsən?

– Məncə, sən çox yaxşısan. Çox təbiisən. Ekranda çox qəşəng görünürsən. Əvvəl dediyim kimi, proqrama çox da önəm vermirəm.

– Əslində də, bu, sənin kimi insanlar üçün nəzərdə tutulmayıb, düzdümü?

Telegram: @cinciva

Bundan xoşu gəlmədiyini göstərən təkəbbürlü tərzdə anasına baxır. – Mənim kimi adamlar deyəndə nəyi nəzərdə tutursan?

Dekster həyəcanlanmış şəkildə davam edir: – Yəni, sadəcə, səfeh gecə proqramıdır, vəssalam. Pivəxanadan gələndən sonra baxmaq üçün...

– Sən demək istəyirsən ki, ondan zövq almaq üçün kifayət qədər *sərxoş* deyildim?

– Yox...

– Mən namus nümayiş elətdirən qadın deyiləm, ayrıca, ədəbsizliyə etiraz etmirəm, mən, sadəcə, adamların təhqir olunmasının qəfildən niyə belə zəruri olduğunu başa düşə bilmirəm.

– Heç kim təhqir olunmur ki, onlar həqiqət deyil, sadəcə, əyləncədir.

– Britaniyanın ən eybəcər sevgilisini seçmək üçün yarışma keçirirsən. Səncə, bu, təhqir deyil?

– Əslində, yox, deyil.

– Kişilərdən eybəcər sevgililərinin şəkillərini göndərmələrini istəyirsən.

– Bu, əyləncə üçündü, əsas məsələ o oğlanların sevgililəri... ənənəvi olaraq cazibədar olmasalar da, oğlanlar onları sevirlər, məsələ də budu; əyləncə!

– Əyləncə üçün olduğunu deməyə davam edirsən, məni inandırmağa çalışırsan, ya özünü?

– Daha bu barədə danışmayaq, olar?

– Yaxşı, səncə, o qızlar da bunu əyləncəli hesab edirlər?

– Ana, mən, sadəcə, o proqramı aparıram. Pop ulduzlarının həyəcanlı, yeni videoları haqqında suallar verirəm, mənim işi budur. Sadəcə, vasitəçiyəm.

– Amma *nəyə* vasitəçisən, Dekster? Səni nə istəsən, onu da edə biləcəyinə inanaraq böyütdük. Sadəcə, sənin etmək istədiyinin *bu* olduğunu fikirləşməmişdim.

Telegram: @cinciva

– Nə etməyimi istəyərdin?

– Bilmirəm, *yaxşı* bir işlə məşğul olmağını istəyərdim. – Birdən susaraq sol əlini sinəsinə qoyur və kürəyini stola söykəyir.

Bir müddət sonra Dekster dillənir: – Bu, yaxşı işdi. Öz qaydaları daxilində. – Anası burnunu çəkir. – Səfeh proqramdı, sadəcə, əyləncəlidi, əlbəttə ki, hamısını xoşlamıram, amma məni başqa yerlərə aparacaq təcrübədir. Və əslinə baxarsan, nəylə nəticələnirnəticələnsin, proqramda bacarıqlı olduğumu fikirləşirəm. Üstəlik özümdən zövq də alıram.

Anası bir anlıq duruxur, sonra:

– Yəni fikirləşirəm ki, bu işi etməməlisən. Xoşuna gələn işi gör. Haçansa, daha yaxşı işlər görəcəyini bilirəm, bu, sadəcə... – Sözünü bitirmədən oğlunun əlini əlinə alır. Sonra nəfəsi kəsilənə qədər gülür. – Amma hələ də özünü niyə *kokni* ləhcəsiylə danışmağa məcbur etdiyini heç cür başa düşmürəm.

– O, mənim "xalqın içindən biri" olduğumu göstərən səsim, – deyir və anası gülümsəyir, etinasız gülümsədiyi görünür, lakin Dekster başa düşür.

– Mübahisə etməməliydik, – anası deyir.

– Mübahisə etmirik, müzakirə edirik, – deyir, baxmayaraq ki, əslində, mübahisə etdiklərini bilir.

Anası əlini başına aparır: – Morfin qəbul edirəm. Arada nə dediyimi bilmirəm.

– Sən bir şey demədin. Mən özüm bir az yorğunam. – Günəş asfaltlı yolun üstündə bərq vurur və Dekster bir vampir kimi üzünün, qollarının dərisinin yandığını, sızladığını hiss edir. O, yenidən tərləmə və ürək bulanma dalğalarının gəldiyini hiss edir. Özözünə: *"Sakit ol,* – deyir, – sadəcə, həblərdəndi".

– Gecədən keçib, deyəsən?

– Olduqca.

– Rahat oldun?

Telegram: @cinciva

– Bir az. – Ağrıdığını göstərmək üçün gicgahlarını ovur, sonra heç fikirləşmədən: – Bu morfinlərdən bir yerdə ehtiyatda yoxdu? – deyir.

Anası ona hətta baxmağa belə çalışmır. Vaxt keçir. Bir az sərsəmlik hiss edir. Başını dik, ayaqlarını yerdə saxlama cəhdinin boşa çıxdığını görür; get-gedə daha düşüncəsiz, eqoist və səfeh hərəkətlər edir. Bunun qarşısını almaq üçün nəyisə etmək lazımdı, amma nəzarəti itirdiyini hiss edir. Niyə müqavimət göstərməyi kəsib, əvəzində bir axmaq olmasın? Qayğı göstərməyi dayandır. Vaxt keçir, çəmənlikli tennis kortuna tərəf irəlilədiklərinin fərqinə varır. Mənzərə önündən uzaqlaşır.

Nəhayət, anası danışır.

– Sənə deyim, atan indi yemək hazırlayır. Konservləşdirilmiş şorba. Xəbərin olsun. Ən azından, Kesinin nahara vaxtında çatmağı üçün geri qayıtması lazımdı. Güman edirəm ki, sən gecəni burada qalacaqsan.

O gecəni burada keçirə bilər. Fikirləşir. Bu işləri yoluna qoymaq üçün fürsətdi. – Əslində, yox, – deyir.

Anası yavaşca başını çevirir.

– Mənim bu axşam üçün *Yura Park*a biletim var. Premyeradı. Ledi Di də gedir! Mənimlə yox, əlbəttə ki. Getməyə bilmərəm; işlə bağlıdı, neçə gün əvvəldən təşkil olunub. – Anası gözlərini qıyır, Dekster vəziyyəti yumşaltmaq üçün tez bir yalan quraşdırır. – Emmanı da götürəcəm, bilirsən, mən getməyə bilərdim, amma o getməyi, həqiqətən, çox istəyir.

– Ah, yaxşı. Başa düşdüm. – Sakitlik çökür.

– Sürdüyün həyat, – anası məsafəli davranışla deyir.

Bir daha sakitlik çökür.

– Dekster, gərək məni bağışlayasan, heyif, bu səhər çox yorulmuşam. Gərək yuxarıya gedib, bir az yatmağa çalışam.

– Oldu.

Telegram: @cinciva

– Bir az kömək lazımdı.

Elə bil atasında, ya da bacısında özündə olmayan bir xüsusiyyət varmış kimi həyəcanla ətrafına baxaraq onları axtarır, ancaq heç biri orada deyil. Anasının əlləri stulun qollarında, boş yerə də olsa, qalxmağa cəhd edir və bunu özü etməli olduğunu anlayır. Yüngülcə, heç inandırıcı olmadan qolunu anasının qolunun altından keçirir, qalxmasına kömək edir. – Səni aparım deyirsən?..

– Yox, içəri girməkdə problemim yoxdu, sadəcə, pilləkənləri qalxanda köməyə ehtiyacım var.

Həyətdən keçirlər, Deksterin əli xəfifcə anasının geydiyi xəstəxana geyimi kimi görünən göy rəngli yay paltarına toxunur. Anasının lənglıyindən hirslənir, bu, Deksterə təhqir kimi gəlir. – Kesi necədi? – vaxtı doldurmaq üçün soruşur.

– Ah, çox yaxşıdı. Fikirləşirəm ki, mənə göstəriş verməyi həddindən çox xoşlayır, amma çox diqqətli, hərəkətlidi. *Bunu ye, bunları at, indi də yat.* Ciddidi, ancaq ədalətlidi, bacını deyirəm. Bu, ona o ponini almamağımızın qisası.

Dekster: "*Əgər Kesi bu qədər yaxşıdısa,* – deyə fikirləşir, – bəs indi ona ehtiyacı olduğu vaxtda haradaydı?" Artıq içəridədilər, pilləkənlərin altında. Dekster bu qədər çox pillə olduğunu daha əvvəl heç hiss etməmişdi.

– Necə qaldırım?

– Ən yaxşısı, məni qucağına götür. Bu günlərdə çox da ağır deyiləm.

Bu, mənlik deyil. Eləyəmmərəm. Eləyə bilərəm, fikirləşmişdim, ancaq indi görürəm, yox. Bir tərəfim quruyub, bacarmaram.

– Ağrıyan bir yerin var? Yəni bilim də?..

– Buna görə narahat olma. – Şlyapasını çıxarıb yaylığını bağlayır. Dekster onun kürəyindən bərk-bərk tutur, barmaqları qabırğalarına dəyir, sonra dizlərini büküb əyilir, anasının düz, soyuq qıçlarının paltarının altından qollarına dəydiyini hiss edir, hazır

Telegram: @cinciva

olduğunu fikirləşəndə qaldırır; anasının bədəninin qollarında necə boşaldığını hiss edir. Anası dərin bir nəfəs verir, Dekster onun şirin və isti nəfəsini üzündə hiss edir. Ya anası gözlədiyindən daha ağırdı, ya da özü fikirləşdiyindən daha gücsüz; anasının çiynini pilləkənin sürahisinə vurur, sonra düzəlir, pilləkənləri köndələn qalxmağa başlayır. Anasının başı çiyninə dayanıb, yaylığı üzünə tərəf sürüşüb. Bəyin gəlini kandardan keçirməsinin parodiyası kimi hiss edir, beynindən neçə qayğısız fikirlər keçirir, amma heç biri vəziyyətini asanlaşdırmır. Nəhayət, pilləkəni qurtaranda anası başını qaldırıb ona baxaraq: – Mənim qəhrəmanım, – deyir; hər ikisi gülümsəyir.

Təpiklə qaranlıq otağın qapısını açıb anasını çarpayıya uzadır.

– Sənə bir şey gətirim?

– Yox, yaxşıyam.

– Bir şey qəbul etməyin lazımdı? Dərman, ya...

– Yox, yaxşıyam.

– Bir az martini?

– Ah, hə, o, pis olmazdı. Zəhmət olmasa.

– Üstünə atmağa bir şey istəyirsən?

– Sadəcə, bu adyalı, lütfən.

– Pərdələr bağlı qalsın?

– Lütfən. Ancaq pəncərəni açıq qoy.

– Onda hələlik.

– Yaxşı yol, əzizim.

– Görüşərik.

Dekster dodaqlarını ayırmadan gülümsəyir, ancaq anası artıq arxasını ona çevirərək yatıb; otaqdan çıxır, qapını yavaşca çəkib örtür. Olduqca tezliklə bir gün, ehtimal ki, bu il içində bu otaqdan çıxıb gedəcək və bir daha onu heç vaxt görməyəcək; bu, qəbul edilməsi o qədər çətin fikirdi ki, tez diqqəti özünə çəkərək bu fikri başından qovur. Axşamdan qalma süstlüklə özünü nə qədər yor-

Telegram: @cinciva

ğun hiss edir, pilləkənləri tez-tez düşərkən gicgahları necə də döyünür.

Böyük, pinti mətbəxi boşdu; soyuducuya baxır, demək olar ki, o da bomboşdu. Bir az solmuş kərəviz, bir toyuq əti, açılmış konserv qutuları, qənaətli budlar; aydındı ki, hamısı atasının evdar vəzifəsini yerinə yetirdiyini göstərməkçün alınıb. Soyuducunun qapısında açıq ağ şərab şüşəsi var. Şüşəni götürüb başına çəkir, zalda atasının addım səslərini eşidənə qədər dörd-beş qurtum içir. Şüşəni yerinə qoyur, əlinin arxasıyla ağzını silir. Atası əlində kənd super marketindən aldığı iki plastik paket otağa girir.

– Anan haradadı?

– Yoruldu. Uzanmaq üçün yuxarıya apardım. – Dekster nə qədər yetkinləşdiyini atasının başa düşməyini istəyir, amma bunun atasına təsir etmədiyi görünür.

– Başa düşürəm. Söhbət etdiniz?

– Bir az. Ordan-burdan. – Səsi qulaqlarında yüksələrək özünə qəribə gəlir; kəlmələri özünə inamla və anlaşılmaz tələffüz edir. Sərxoşdu. Görəsən, atası başa düşər? – Oyananda daha çox danışacağıq. Soyuducunun qapısını açır və özünü yalandan şərabı birinci dəfədir görürmüş kimi göstərir. – Götürə bilərəm? – O, şüşəni götürür, içində qalanı bir stəkana boşaldır, sonra atasının yanından keçərək gedir. – Bir az otağıma çəkilim.

– Niyə? – atası qaşqabağını tökərək soruşur.

– Bir şey axtarıram. Köhnə kitablar...

– Yemək istəmirsən? Bəlkə şərabınla birlikdə bir az yeyərsən?

Dekster atasının ayaqlarının yanındakı, konserv qutularıyla ağırlığından əyilmiş bazarlıq çantasına baxır. – Bəlkə sonra, – deyib otaqdan çıxır.

Aşağıya düşəndə valideynlərinin otağının qapısının açıq, yellənməkdə olduğuna fikir verir və yenidən sakitcə içəriyə girir. Günortanın dəniz küləyi pərdələri yelləyir; anasının üstünə örtdüyü

Telegram: @cinciva

köhnə adyala gün işığı düşür; çirkli topuqları görünür, ayaq barmaqları gərilmiş halda qıvrılıb. Onun uşaqlığından xatırladığı o qoxunun, bahalı parfümlərin və sirli pudraların yerini heç ağlına gətirmək istəmədiyi tərəvəz qoxusu alıb. Uşaqlığının evini xəstəxana qoxusu basıb. Qapını örtür və vanna otağına gedir.

Sidiyə çıxanda dərman qutusunu yoxlayır: atasının cürbəcür yuxu dərmanları onun əzablı gecələrindən nişan verir, bir də uzun müddət yerini daha güclü müalicəyə verən 1989-cu il mart tarixli, anasının köhnə bir valium şüşəsi var. Şüşədən iki həb götürüb cibinə atır, üçüncüsünü də götürüb bir az özünə gəlmək üçün tualetin kranından axan suyla atır.

Onun köhnə yataq otağı indi anbar kimi istifadə edilir; köhnə bir yumşaq divanla çay sandıqçası və karton qutular arasında ilişir. Divarlarda ucları qatlanmış ailə şəkilləri, özünün gəncliyində çəkdiyi ağ-qara, balıqqulağı və yarpaq şəkilləri asılıb, yaxşı asılmadığından saralmağa başlayıblar. Otağına göndərilmiş bir uşaq kimi qolları başının altında, köhnə ikidamalıq çarpayıya uzanır. O, həmişə qırx beş, bəlkə əlli yaşına çatanda valideynlərinin qaçılmaz itkisi ilə barışacağı, bir növ, emosional zehni təchizata gəlib çatacağını təsəvvür edərdi. Əgər o, bu təchizata yiyələnsəydi, çox yaxşı olacaqdı. O, alicənab, fədakar, müdrik və filosof kimi bir adam ola bilərdi. Bəlkə indi özünün uşaqları belə vardı və güman ki, atalığın gətirmiş olacağı bir yetkinliyə də sahib idi; həyatı bir proses olaraq qəbul etmə yetkinliyi.

Di gəl qırx yox, iyirmi səkkiz yaşındadı. Anası qırx doqquzundadı. Burada bəzi dəhşətli səhvlər var, yoxsa bununla – anasının o gözəl görünüşünün bu şəkildə yox olmasıyla barışması necə gözlənilə bilər? Diqqət dağıdıcı bir çox şeylə bərabər, bu ona edilən ədalətsizlikdi. O, müvəffəqiyyətli bir karyerin başlanğıcında məşhur bir cavan oğlandı. Ən səmimi şəkildə desək, onun edəcək daha

Telegram: @cinciva

yaxşı işləri var. O, yenidən qəfil ağlama istəyi hiss edir, amma on beş il ərzində heç vaxt ağlamayıb; bunu kimyəvi həblərlə bağlayır və bir az yatmaq qərarına gəlir. Şərab stəkanını çarpayının yanındakı dolabın üstünə qoyur, üzünü çevirib yatır. Hörmətli adam olmaq səy və enerji tələb edir. Bir az istirahət edib üzr istəyər və onu nə qədər çox istədiyini anasına göstərər.

Yuxudan dik atılıb saatına baxır, sonra yenidən baxır: 18:26. O, altı saat yatıb, qeyri-mümkün şeydi, amma pərdələri dartıb açanda günəşin səmada enməyə başladığını görür. Başı hələ də ağrıyır, gözləri bir təhər yapışmış kimi bağlıdı, ağzında metal tamına bənzəyən dad var, susuzluqdan yanır, özünü heç vaxt hiss etmədiyi qədər ac hiss edir. Şərab stəkanını götürəndə istiləndiyini görür. Yarısını içir, iyrənir. Bir yekəpər mal milçəyi stəkanın içinə düşür, dodağına tərəf vızıldayır. Dekster stəkanı əlindən buraxır, köynəyinə, çarpayının üstünə şərab sıçrayır. Səndələyir.

Vanna otağında üzünü yuyur. Köynəyindəki tər ləkələri turşuyaraq kəskin alkoqol qoxusuna çevrilib. Ürəyi bulanmış halda atasının köhnə dezodorantını bədəninə vurur. Aşağıdan qab-qacaq səsləri, radionun anlaşılmaz səs-küyü, evdəkilərin səsləri gəlir. *Canlı; canlı ol, xoşbəxt və nəzakətli ol, sonra get.*

Amma anasının otağının ağzından keçərkən onu çarpayının qırağında oturmuş görür; elə bil neçə vaxtdır onu gözləyirmiş kimi tarlalara tərəf baxır. Yavaş-yavaş başını çevirir, ancaq o, uşaq kimi qapının kandarında dayanır.

– Bütün günü haradaydın? – o, sakitcə deyir.

– Yatıb yuxuya qalmışam.

– Başa düşürəm. İndi yaxşısanmı?

– Yox.

– Ah, başa düşdüm. Deyəsən, atan sənə bir az hirslənib.

Telegram: @cinciva

– Onda, demək, heç bir dəyişiklik yoxdu. – Anası iltifatla və ürək-dirək verircəsinə gülümsəyir, Dekster əlavə edir: – Görünür, bu aralar hər kəsin mənimlə arası dəyib.

– Balaca, yazıq Dekster, – anası deyir. Dekstersə, görəsən, anası istehzayla deyirmi deyə düşünüb fikirləşir. – Gəl burada otur. – Anası gülümsəyərək əliylə yanını, çarpayını göstərir. – Mənim yanımda. – Dekster itaətkarlıqla otağa girib oturur; bədənləri bir-birinə dəyir. Anası başını oğlunun çiyninə dayayır. – Biz özümüz deyilik, elədi? Mən, əlbəttə, özüm deyiləm, artıq deyiləm. Sən də deyilsən. Özün kimi görünmürsən. Səni xatırladığım kimi deyilsən.

– Nə mənada?

– Mən demək istəyirəm ki... səmimi danışa bilərəm?

– Buna məcbursan?

– Məncə, bunu etməliyəm. Bu, mənim hüququmdu.

– Onda davam elə.

– Fikirləşirəm ki... – Başını çiynindən qaldırır. – Məncə, sənin içində yaxşı bir cavan oğlan olmaq istəyin var. Hətta xüsusi bir oğlan. Həmişə bunu fikirləşirdim. Analar belədi, elə deyil? Amma hələ o nöqtəyə çatdığını güman eləmirəm. Hələ yox. Məncə, hələ bu yol başa çatmayıb. Vəssalam.

– Başa düşürəm.

– Sən bunu pis mənada başa düşmə, amma bəzən... – Deksterin əlini tutur, baş barmağıyla ovcunu ovxalayır. – Bəzən artıq elə də yaxşı adam olmadığına görə narahat oluram.

Dekster danışana qədər bir müddət otururlar: – Bilmirəm, nə cavab verim.

– Nəsə deməyin lazım da deyil.

– Mənə hirslisən?

– Bir az. Ancaq bu günlər hamıya xeyli acıqlıyam. Xəstə olmayan hər kəsə.

Telegram: @cinciva

– Təəssüf edirəm, ana. Çox, çox təəssüf edirəm.

Baş barmağını oğlunun ovcuna basır: – Bilirəm.

– Bu gecə burada qalacağam.

– Yox, gecə olmaz. İşin-gücün var. Qayıt, işinin üstündə ol.

Ayağa qalxır, yüngülcə anasını çiyinlərindən tutub üzünü üzünə söykəyir – onun isti, şirin nəfəs dərməsini eşidir, – sonra qapıya tərəf yönəlir.

– Emmaya mənim adımdan təşəkkür elə, – deyir. – Kitablar üçün.

– Baş üstə.

– Ona sevgilərimi çatdır. Bu gecə görüşəndə.

– Bu gecə?

– Hə. Bu gecə onu görəcəkdin axı.

Dekster yalanını xatırlayır: – Hə, hə, görəcəm. Bu gün o qədər də... yaxşı olmadımsa, bağışla.

– Yaxşı. Güman edirəm ki, "gələn dəfələr" həmişə var, düzələrsən, – deyir və gülümsəyir.

Dekster nəzərə çarpmadan aradan çıxmaq üçün pilləkənləri qaçaraq düşür, amma atası dəhlizdə oturub yerli qəzetini oxuyur, ya da özünü bicliyiə vurub. O, hələ də sanki bir qarovulçu, şərti azadlıq baxıcısı kimi Deksteri güdüb gözdən qoymur.

– Yatıb qalmışam, – Dekster atasının arxasından deyir.

Atası qəzetin səhifəsini çevirir: – Hə, bilirəm.

– Ata, bəs niyə oyandırmadın məni?

– Xeyri olmazdı, onsuz da. Həm də heç lazım deyildi. – Qəzetin yeni səhifəsini açır. – Uşaq-zadsan ki, Dekster?

– Ancaq indi getməliyəm!

– Yaxşı, getməlisənsə... – Cümlə yarımçıq qalır. Kesi qonaq otağında oturub, atası kimi o da guya kitab oxuyur; üzündə məzəmmət və özündən razılıq ifadəsi var. *İndi rədd ol get, elə indi*

Telegram: @cinciva

get, çünki hamı qırılmağa hazırlaşır. Açarları götürmək üçün əlini zaldakı stolun üstünə atır, amma əli boş qayıdır.

– Maşınımın açarı?

– Mən gizləmişəm, – atası başını qəzetdən qaldırmadan deyir.

Dekster heç nə deyə bilmir, amma gülür: – Mənim *açarımı gizlədə bilməzsən!*

– Gizlətdiyimə görə, deməli, bilərmişəm. Bəlkə "açar tapma" oynamaq istəyirsən?

– Niyəsini soruşa bilərəm? – qəzəblənmiş halda deyir.

Atası havanı qoxulayır kimi başını qəzetdən qaldırır. – Çünki sən sərxoşsan.

Qonaq otağında Kesi divandan qalxır, qapıya tərəf gedib, itələyərək örtür.

Dekster inamsız-inamsız gülür: – Yox, deyiləm!

Atası çiyninin üstündən baxır. – Dekster, mən sərxoş adamı yüz metrdən tanıyıram. İllah da, səni. Səni on iki ildir, sərxoş görürəm, unutmusan?

– Ancaq sərxoş deyiləm, sadəcə, dünən gecədən bir az qalıb.

– Hər iki vəziyyətdə də evə avtomobillə gedə bilməzsən.

Yenidən Dekster istehzalı şəkildə gülür, gözlərini fırladıb etiraz edir, amma zəif bir "Ata, mənim iyirmi səkkiz yaşım var!" cümləsindən başqa ağzından heç nə çıxmır.

Atası replikayla: – Məni aldada bilərdin, – deyir, sonra cibindən öz avtomobilinin açarlarını çıxarıb, yalançı bir sevinclə havaya atıb-tutur. – Gəl. Səni stansiyaya aparacam.

Dekster bacısıyla sağollaşmadan çıxır.

Bəzən mənə elə gəlir ki, sən artıq adamlıqdan çıxmağa başlayıbsan. Atası sakit şəkildə avtomobili sürür, Dekster xəcalət içində böyük, köhnə "Yaquar"da büzüşüb. Sakitlik daha çox dözülməz hala gələndə atası gözü yolda, sakitcə və ağıllı-ağıllı da-

Telegram: @cinciva

nışır. – Şənbə günü ayılanda gəlib avtomobili götürərsən. Ayıq olanda

– Mən indi də ayığam, – Dekster deyir, səsi qulağına on altı yaşındakı, qətiyyətsiz və tündxasiyyət səsi kimi gəlir. – Allah xətrinə! – deyə lazımsız yerə əlavə edir.

– Sənin lə mübahisə etməyəcəm, Dekster.

O, hirslə oturacağında aşağı tərəf sürüşür, küçə fənərlərini və zərif evlərin işıqlarını keçərkən üzünü pəncərəyə dayayır. Bütün növ üzləşmələrə, meydan oxumağa həmişə nifrət edən atası açıq-aydın əzab çəkir, sükutu qırmaq üçün tez radionu açır; klassik musiqi dinləyirlər: adi və mənasız marşdı. Vağzala çatırlar. Avtomobil şəhərətrafı sakinlərin indicə boşaltdığı avtoparka girir. Dekster avtomobilin qapısını açır, bir ayağını çınqıllı yola qoyur, amma atası sağollaşmaq üçün heç qımıldamır da; sadəcə, bir taksi sürücüsü kimi laqeyd şəkildə gözləri avtomobilin cihaz panelinə dikilib, barmaqlarıyla dəlisov marşın tempini tutaraq mühərriki işlək vəziyyətdə gözləyir.

Dekster bilir ki, cəzasını qəbul etməli və getməlidir, amma qüruru buna imkan vermir. – Yaxşı, mən indi gedirəm, ancaq bunu deyə bilərəm ki, məncə, bu məsələlərə həddindən artıq kəskin reaksiya verirsən...

Və atasının üzündə qəfildən real qəzəb görünür; dişlərini sıxır, səsi qırıq-qırıq çıxır. – Mənim, ya da ananın ağlını nə cürətlə təhqir edirsən?.. Artıq yetkin adamsan, uşaq deyilsən. – Qəzəbi tez keçincə atasının ağlamaq üzrə olduğunu fikirləşir. Alt dodağı titrəyir, bir əliylə sükanı bərk-bərk tutur, o biri əlinin uzun barmaqları gözlərinin ətrafında gəzişir. Dekster həyəcanla avtomobildən düşür, düz qapını bağlamaq üzrəykən atası radionu söndürür və yenidən danışır: – Dekster...

Dekster əyilib atasına baxır. Atasının gözləri dolub, amma səsi möhkəm çıxır:

Telegram: @cinciva

– Dekster, anan səni çox, lap çox sevir. Mən də elə. Həmişə sevmişik və həmişə də sevəcəyik. Bunu bilirsən... – Dayanır, söz axtarırmış kimi yerə baxır. – Dekster, əgər bir də ananı görməyə belə vəziyyətdə gəlsən, and içirəm, səni evə buraxmaram. Səni qapıdan içəri qoymaram. Qapını üzünə bağlayaram, bunu bil.

Deksterin ağzı açıqdı, amma deyəcək sözü yoxdu.

– İndi, lütfən, evə get.

Dekster avtomobilin qapısını bağlayır, ancaq qapı kilidlənmir. Yenidən bağlayır; atası bir az tərəddüd edir, əvvəl irəli-geri gedir, sonra da sürətlə avtodayanacağı tərk edir. Dekster dayanıb onun ardınca baxır.

Vağzal bomboşdur. Platforma boyunca bir avtomat telefon axtarır, yeniyetmə vaxtlarında qaçış planları quranda istifadə etdiyi köhnə avtomat telefonlardan. Saat 18:59. Londona gedən qatar altı dəqiqəyə burada olacaq, amma o, mütləq zəng vurmalıdı.

Saat 19:00-da Emma həddindən çox səy göstərdiyinin nəzərə çarpmadığına əmin olmaq üçün axırıncı dəfə güzgüyə baxır. Güzgü divara elə qoyulub ki, elə bil bu dəqiqə düşəcək, buna görə də görüntünün əks olunmasında vizual sürüşmə olduğunu bilir; yenə də ombalarına, pambıq parça yubkasının altındakı qısa ayaqlarına baxaraq dodağını büzür. Corab geyinmək üçün hava çox istidi, ancaq cızıq-cızıq olmuş qırmızı dizlərinin görünməsinə dözə bilmədiyinə görə geymək məcburiyyətində qalır. Saçları təzə yuyulub, nəsə meşə meyvələrindən birinin ətrini qoxuyur; saçlarını şişirtmək üçün barmaqlarıyla qarışdırır, sonra çeçələ barmağıyla dodaqlarının qırağına yayılmış pomadanı silir. Dodaqları çox qırmızıdı; həddini aşmadığını fikirləşir. Nə isə, onsuz da, heç nə baş verməyəcək, saat 20:30-da evdə olacaq. Arağın qalanını içir,

Telegram: @cinciva

diş pastasıyla reaksiyasından hiss etdiyi metal dadından çimçişir, açarlarını götürüb ən yaxşı çantasının içinə atır və qapını bağlayır.

Telefon zəng çalır.

Dəhlizin yarısına çatmamış telefonun səsini eşidir, bir anlıq geri qayıdıb cavab vermək istəyir, ancaq, onsuz da, artıq gecdi; onsuz da, ehtimal ki, görüşün necə keçdiyini soruşmaq üçün anası, ya da bacısı zəng edib. Zalın sonunda liftin qapısının açıldığını eşidir. Çatmaq üçün qaçır və telesekretar danışmağa başlayanda liftin qapısı bağlanır.

" ... zəhmət olmasa, siqnaldan sonra ismarışınızı qoyun, sizə zəng edəcəm".

"Salam, Emma, Deksterdi. Sənə nə deyəcəkdim? Yəni deyəcəkdim ki, evin yaxınlığındakı vağzaldayam, anamın yanından qayıdıram... bu gecə nə etdiyini bilmək istədim. Yura Parkın premyerasına biletim var! Deyəsən, artıq filmə gecikmişik, amma filmdən sonrakı mərasimə gedə bilərdik. İkilikdə. Ledi Di də orada olacaq. Çərənləyirəm, bağışla, əgər oradasansa, telefonu götür, Emma. Telefonu götür, telefonu götür. Yox? Yaxşı, off, indi yadıma düşdü, bu gecə görüşün vardı, elə deyil? Həyəcanlı görüş. Yaxşı, əylən, gələndə mənə zəng edərsən, əgər gəlsən. Nə baş verdiyini mənə danışarsan. Ciddiyəm, mümkün olduğu qədər tez zəng edərsən".

Dili topuq çalır, nəfəsini tutur, sonra:

– İnanılmaz dərəcədə murdar gündü, Em, – deyir və yenidən tərəddüd edir. – Mən çox, çox pis bir iş görmüşəm. – O, trubkanı qoymalıdır, amma istəmir. Emma Morlini görmək istəyir, bəlkə, beləcə, ona günahlarını etiraf edə bilər, di gəl onun da görüşü var.

Telegram: @cinciva

– Sənə sabah zəng edəcəm. Hər şeyi öyrənmək istəyirəm! Ay səni, ürək ovçusu! – Trubkanı asır. *Ay səni, ürək ovçusu!*

Relslər şaqqıldayır və yaxınlaşmaqda olan qatarın uğultusunu eşidir, amma bu vəziyyətdə qatara minə bilməz. O, növbəti qatarı gözləməli olacaq. London qatarı gəlir, nəzakətlə şaqqıldayaraq onu gözləyirmiş kimi görünür, ancaq Dekster avtomat telefon kabinəsinin plastik sipəri arxasında gizlənir; üzünün içəri tərəfə çökdüyünü, nəfəsini necə narahat aldığını görür və ağlamağa başlayır, öz-özünə: "*Sadəcə, o zibil həblərdəndi,* – deyir, – *zibil həblərdən, zibil həblərdən*".

Telegram: @cinciva

VII Fəsil

Yumor hissi

15 iyul. 1993-cü il. Cümə axşamı
İkinci hissə: Emmanın hekayəsi

Kovent Qarden və Kinqz Kros

Yan Vaythed Forellinin Kovent Qarden şöbəsində iki nəfərlik stolda tək oturub saatına baxdı: *On beş dəqiqə gecikdi,* ancaq bunun siçan-pişik oyununun bir incəliyi olduğunu fikirləşdi. *Yaxşı, qoy oyunlar başlasın.* Çörəyini balaca qabdakı zeytun yağına batırdı, menyunu açdı və yeməyə görə nə qədər ödəyə biləcəyini hesablamağa başladı.

Həyat kiçik səhnəciklərdə komediyaçı olaraq var-dövlət və vəd verildiyi kimi televiziyaya çıxış imkanı gətirməliydi. Bazar günü qəzetləri hər dəfə komediyanın yeni "rok-n-roll" olduğunu elan edirdi, bəs onda niyə o, hələ də çərşənbə axşamları "Cənab Lafalot"dakı hər kəsə açıq mikrofonlara ilişib qalmışdı? Siyazi mövzular və müşahidələrini bir tərəfə buraxıb, repertuarını yeni dəbli materiallara uyğunlaşdırmış, sürrealist, komik mahnılar və səhnəciklərlə xarakter komediyanı yaratmağa çalışırdı. Heç nə qəhqəhələri qaldırana oxşamırdı. Hələ də Şimal Xəttində, Dairə ətrafında yuxarı-aşağı gəzərək böyük gülüşlər axtarışındaydı.

Bəlkə də problem adındaydı; "Yan Vaythed" işıq lampalarında iştirak etməyəcək qədər davamlı bir addı. Adını təkhecalı, tə-

Telegram: @cinciva

sirli adla dəyişdirməyi belə fikirləşmişdi: – Ben, Cek ya da Mət – amma komik personalını tapana qədər, Tottenham Court Roaddakı tennis köynəkli, xəstə, gənc adamların xəstə gənc adamlara yaddaş kartları və qrafik ötürücülər satdığı Sonikotronikz adlı elektrik mağazasında bir iş tapmışdı. Pulu çox deyildisə də, axşamlar onun səhnəyə çıxması pulsuz idi və yeni səhnəciklərlə iş yoldaşlarını qəhqəhəylə güldürürdü.

Amma Sonikotronikzdə olan ən yaxşı şey lanç vaxtı Emma Morliylə qarşılaşmağıydı. Onu Sayntoloci kilsəsinin ofislərinin bayır tərəfində dayanıb, şəxsiyyət testi etdirib-etdirməməklə bağlı qızğın müzakirə aparanda görmüşdü; Emma nəhəng hörmə bir paltar səbətinin arxasında, demək olar ki, itib-batmışdı və Yan onu qucaqlayanda Tottenhem Məhkəmə Yolu işıqlara bürünüb, elə bil arzular küçəsinə çevrilmişdi.

İki saylı görüş idi və indi o, Kovent Qarden yaxınlığındakı normal, müasir bir italyan restoranında oturmuşdu. Yanın şəxsi ağız dadı isti və ədviyyatlı, duzlu və çırtıldayan şeylərə meylli idi və əslində, istiotlu hind yeməklərini üstün tutmalıydı. Di gəl qadın millətinin təzə tərəvəzə meylliliyini anlayacaq qədər ağıllıydı. O, yenidən saata baxdı – iyirmi dəqiqə olmuşdu, – mədəsində yarı aclıqdan, yarı sevgidən qaynaqlanan kəskin ağrı hiss elədi. İllər boyu ürəyi və mədəsi Emma Morlinin sevgisiylə ağırlaşmışdı və bu, sadəcə, həssas platonik sevgi yox, həmçinin cinsəl bir arzuydu. Bu qədər sonra, hələ də Emma Morlinin Loko Kəlintenin bir kilsə xadimi kimi axşamüstü günəşinin şüalarıyla işıqlanmış işçi otağında, rəngbərəng alt paltarları içində, ona bayıra çıxmağını və lənətə gəlmiş qapını örtməsini qışqırdığı anın təsvirini yaddan çıxarmamışdı; həyatı boyunca da unutmayacaqdı.

Emma Morli onun alt paltarlarını fikirləşdiyindən xəbərsiz, şef ofisiant tərəfdən Yana baxır və son vaxtlar, heç şübhəsiz, daha yaxşı göründüyünü fikirləşirdi. Başındakı cod qıvrımlar itmiş, indi

Telegram: @cinciva

qısa vurdurduğu saçlarını bir az saç kremiylə parıldatmışdı – bir sözlə, böyük şəhərə yeni gəlmiş o kənd oğlanından əsər-əlamət qalmamışdı Yanda. Əslində, bu dəhşətli paltarları və açıq ağzı olmasa, əməlli-başlı cazibədar ola bilərdi.

Vəziyyət onun üçün qeyri-müəyyən olsa da, görüşlər üçün ənənəvi bir yerə gəldiyini başa düşmüşdü; qiymətləri çox da göz deşməyən, iddiasız, ancaq elə də ucuzluq olmayan – bir sözlə, pizzaların üstünə roka qoyulan yerlərdəndi. Dəbdən düşmüş yerdi, ancaq gülünc deyildi və ən azından, hind yeməyi, ya da Allah uzaq eləsin, balıq *burrito* yox idi. Palma ağacları və şamlar vardı, o biri otaqda yaşlı bir kişi royalda Qörşvinin sevilən parçalarından birini çalırdı.

– Sizi gözləyən var? – deyə şef ofisiant soruşdu.

– Orada oturan oğlan.

İlk görüşlərində Emmanı Holovey Yolundakı "Odeon" kinoteatrında "*Şeytanın ölüsü 3: Qaranlığın ordusu*" filminə baxmağa aparmışdı. Nə çox həssas, nə də bambılı olmadığına görə Emma qorxulu filmlərdən əksər qızın aldığından daha çox zövq alırdı, amma hətta belə olduğu halda bunun maraqlı, qəribə şəkildə özünə arxayın bir seçim olduğunu fikirləşmişdi. "Evrimen" kinoteatrında "*Üç rəng: Mavi*" filmi gedirdi, lakin o, əlində zəncirli mişarla gəzən kişiyə baxır və bunun qəribə tərzdə rahatlaşdırıcı olduğunu düşünürdü. Ənənəvi olaraq, filmdən sonra restorana gedəcəklərini fikirləşmişdi, ancaq Yana görə üç qab yemək yeməmişdən əvvəl kino səfəri tamamlanmış sayılmazdı. Yan endirim stendinə elə bil sifarişli menyu kimi baxırdı. Başlanğıc üçün naços, əsas yemək olaraq hot-doq, desert olaraq Revels[1] və içki ola-

[1] Bir növ, içki süfrəsi üçün şirniyyatlar.

Telegram: @cinciva

raq insan bədəni ölçüsündə Lilt[1] sifariş verdi. Beləliklə, *"Şeytanın ölüsü 3"* filminin bir neçə səssiz səhnəsi Yanın gəyirmələrinin tropik səsi ilə müşayiət olundu.

Və indi bütün bunlara rəğmən – zorakılıq sevgisi və duzlu yeməklər, çənəsinə bulaşmış xardal – Emma gözlədiyindən daha çox ləzzət almışdı. Pivəxanaya gedən yolda Yan səkidə yerini dəyişdirmiş, yoldan çıxmış bir avtobusun Emmanı vurmasının qarşısını almaq üçün yolun kənarına keçmişdi – Emmanın əvvəl heç vaxt başına gəlməmiş, dəbdən düşmüş bir jestdi – və onlar xüsusi effektlərdən, kiminsə başını kəsmək, içalatının çıxarılmasından danışmışdılar. Bir qədər analizdən sonra Yan ən yaxşı *"Ölüm"* trilogiyasının bu olduğunu demişdi. Trilogiyalar və modemlər, komediya və dəhşət Yanın mədəni həyatında böyük yer tuturdu; pivəxanada da bir cizgi filminin, məsələn, Midlmaç[2] qədər dərinliyi və mənası olub-olmayacağı mövzusunda maraqlı müzakirələr aparmışdılar. O, Emmayla açıq-aşkar yatmaq istəyi xaricində, qoruyucu, diqqətli, həqiqətən də, çox mövzuda məlumatı olan bir böyük qardaş kimiydi. Gözünü ona elə həvəsli, elə ehtiraslı zilləmişdi ki, Emma elə bil nə isə varmış kimi tez-tez əliylə üzünü yoxlamağa başlamışdı.

Məhz elə indi bu restoranda Yan elə qımışırdı, elə coşquyla ayağa qalxmışdı ki, ombaları ilə stola ilişib suyu zeytunların üstünə tökmüşdü.

– Salfet istəyirsən? – Emma dedi.

– Yox, hər şey qaydasındadır, öz jaketimlə siləcəm.

– Jaketinlə silmə. Mənim salfetimi götür.

---

[1] Meyvəli limonad.

[2] Bütöv adı "Middlemarch" – Corc Eliot (George Eliot) ləqəbli ingilis yazarı Meri Ən Evnsın (Mary Anne Evans) romanı.

Telegram: @cinciva

– Zeytunların da içinə pox qoydum. Dərhal deyim ki, hərfi mənada deyil, təbii ki!

– Ah. Eləmi? Lap yaxşı.

"Zarafatdı!" – deyə çığırdı, elə bil "Atəş!" – deyə qışqırırdı. Axırıncı fəlakət kimi keçən nümayiş gecəsindən bəri heç bu qədər əsəbi olmamışdı, süfrəni qurutmağa çalışarkən öz-özünə "sakitləş" dedi; Emmanı görmək üçün yuxarı baxdı, yay jaketiylə oynayır, qadınların səbəb olduqları ağrını anlamadıqları biçimdə, çiyinlərini arxaya çəkib sinəsini qabağa verirdi. İndi orada Emma Morli üçün gecənin ikinci sevgi və arzu köpüyü gəlirdi. – Çox gözəl görünürsən, – deyə özünü saxlamayıb ağzından qaçırdı.

– Sağ ol! Sən də həmçinin, – Emma qeyri-ixtiyari olaraq dedi. Yan sadə, qara tişörtünün üstünə əzik, cız-cız, kətan səhnə jaketini geyinmişdi. Emmanın şərəfinə üstündə qrup adları, ya da istehzalı yazılar yoxdu: dəbliydi. – Bunu xoşladım, – Emma jaketi göstərərək dedi. – Çox qəşəngdi! – Yan elə bil *"Nə, bu, köhnə şeydi?"* deyər kimi yaxasını barmaqlarının arasında ovuşdurdu.

– Jaketinizi götürə bilərəm? – ofisiant kübar və bacarıqlı hərəkətlə dedi.

– Bəli, sağ olun. – Emma jaketini uzatdı, Yan isə sonra bunun üçün bəxşiş verməli olacağını düşündü. Eybi yoxdu. O, buna dəyərdi.

– İçki istəyirsiz? – ofisiant soruşdu.

– Fikirləşirəm, araq və tonik istəyərdim.

– İkiqat? – ofisiant qızı daha çox xərcə salmağa həvəsləndirərək dedi.

Emma Yana baxdı; üzünün vahiməli hal aldığını gördü:

– Ağırlıq deyil?

– Yox, sifarişini ver.

– Yaxşı, ikiqat olsun!

Telegram: @cinciva

– Siz, cənab?

– Mən şərab gözləyəcəyəm, sağ olun.

– Mineral su?

– KRAN SUYU! – deyə çığırdı, sonra sakitləşərək davam etdi: – Kran suyu çox gözəldir...

– Kran suyu yaxşıdır, – Emma sakitləşdirici tərzdə gülümsədi. Ofisiant getdi. – Yeri gəlmişkən, deməyimə belə ehtiyac yoxdu, amma bu gecə hesabı alman üsuluyla verəcəyik, yaxşı? Etiraz istəmirəm. Artıq 1993-cü ildir, qışqırmağa ehtiyac yoxdu. – Yan onu daha çox sevməyə başladı. Ancaq adət xətrinə tamaşa göstərməliydi deyə fikirləşdi.

– Amma sən tələbəsən, Em!

– Daha yox. Mən indi diplomlu müəlliməm! Bu gün ilk söhbətə getmişdim.

– Necə keçdi?

– Olduqca, olduqca yaxşı!

– Təbriklər, Em, bu, fantastik bir şeydi. – Və özünü stolun üstündən atıb onun yanağından, yox, hər iki yanağından, yox, bir dəqiqə, sadəcə, bir yanağından, yox, yaxşı, hər iki yanağından öpmək üçün hücum etdi.

Yan qabaqcadan menyuya baxıb zarafatlarını hazırlamışdı; Emma seçimlər üçün diqqətini toplamağa çalışarkən, Yan roluna girdi və menyudakı seçimlərlə söz oyunlarına keçdi. Məsələn, bir dəqiqəlik bifşteks bir dəqiqədə yeyilə biləcək qədər balacaydımı? Ya bu günlərdə adından çox danışılan "ragu sousu" nə idi? Bizim köhnə souslu spaqettimiz nə vaxtdan "ragu" olmuşdu?

Cümlələr bir-birini əvəzlədikcə Emma gözəl gecəylə bağlı ümidlərinin puça çıxmağa başladığını hiss etdi.

"Məni güldürərək yatağa salmağa çalışır, – Emma fikirləşdi, *– amma əsl etdiyi məni ancaq evə gedən qatara getməyimə səbəb olacaq qədər güldürməsidi"*. Kinoda, ən azından, diqqətini dağı-

Telegram: @cinciva

dacaq qədər şiddət vardı, amma burada üz-üzəydilər, edəcək başqa bir şey yox idi. Emma darıxırdı. Onun kursundakı oğlanların çoxu yarı-peşəkar komediyaçılar idi, xüsusilə pivəxanada bir qədər pivədən sonra; bir yandan onlara əsəbiləşərkən, eyni zamanda, onları həvəsləndirdiyini də bilirdi; oğlanlar kibrit çöpləriylə Uşaq Tv-si, ya da yetmişinci illərin unudulmuş Qənnadı mağazasıyla bağlı fokuslar göstərərkən, qızlar oturub qımışaraq onlara baxırdılar. Oğlanların pivəxanalardakı dayanmaq bilməyən dəliedici kabaresi onu başdan çıxarırdı...

Arağını başına çəkdi. Yan indi şərab vərəqini alıb, onlar haqda zarafatlar etməklə məşğul idi: "*Şəhvət oyandıran, ağız dolusu meşə yanğını, ardınca partlayan bir alma şəkərinin notlarıyla...*" Üçüncü dərəcəli həvəskar səhnəciklər oyunçusu olaraq bu təkrarlamalar ömrünün axırına qədər davam edə bilərdi; Emma bir də ayılıb gördü ki, menyunu, sadəcə, əlinə götürüb əzilib-büzülmədən, biliciliyini gözə soxmadan şərab sifariş eləyən ideal kişini xəyalında canlandırır.

"...Tüstülü Votsitz vetçinalarının qoxusu, arxasında şirəli zürafə aromatlarıyla..."

"Məni güldürərək sərxoş edəcək, – deyə fikirləşdi, – *güman ki, bir çörək dilimini atsam, onun səsini kəsə bilərəm, amma hamısını yeyib qurtarıb".* O, başqa müştərilərə baxdı; hamı öz rolunu oynayırdı. Mənim öhdəmə də düşən budu? – deyə fikirləşdi. *Romantik sevgi elə buydumu: istedad nümayişi? Yeməyini ye, yatağına get, mənə aşiq ol və sənə illər boyu bunun kimi yüksək keyfiyyətli materiallar söz verim?*

– ... Təsəvvür elə, çəllək pivəsini bu şəkildə satırlar. – Qlazqo ləhcəsiylə danışırdı: "Bizim xüsusi bişirilmiş pivəmiz damaqda müzakirə malikanəsi, köhnə bazarlıq arabası və korlanan şəhər ağırlığıyla oturur. İllah da, ailəiçi zorakılıqla yaxşı gedər!.."

Telegram: @cinciva

Emma məzəli kişilərdə qarşısıalınmaz nə isə olduğu haqqında səhv qənaətə necə gəlindiyini anlaya bilmirdi. Buraya böyük ümidlərlə gəlmişdi, həqiqətən də, Yandan olduqca çox xoşu gəlirdi və onu yenidən görəcəyi üçün hətta həyəcanlanmışdı da, amma əvəzində o, ağzına gələni danışırdı...

– "... bizim portağal şirəmiz, portağal və bas səsli portağal notlarıyla..."

Yaxşı, daha kifayətdir.

– "... sıxılmış, yox, inəklərin məmələrindən sağılmış, fərqləndirici bir bəyazlığa malik 1989-cu il məhsulu süd..."

– Yan?

– Nədi?

– Olar, səsini kəsəsən?

Araya sakitlik çökdü; Yan incimiş görünürdü, Emma utandığından pərt olmuşdu. Yəqin, ikiqat arağın ucbatındandı. Emma vəziyyəti ört-basdır eləmək üçün bərkdən dedi: – Sadəcə, bir şüşə Volpolisella alsaq, necə olar?

Yan menyuya nəzər saldı: – Burada böyürtkən və vanilli yazılıb.

– Böyürtkən və vanili xoşlayırsan?

– Ürəyim gedir.

Yan gözucu qiymətlərə baxdı: – Onda gəl alaq!

Və bundan sonra, Allaha şükür ki, hər şey yaxşılığa doğru getməyə başladı.

"Salam, Em. Yenə mənəm. Bilirəm ki, Gülən Oğlanla birlikdə şəhərdən kənardasan, amma, sadəcə, bunu demək istədim: Evə qayıdanda, güman edirəm ki, tək qayıdacaqsan, bütün olanlardan sonra premyeraya getməmək qərarına gəldim. Əgər baş çəkmək istəsən, bütün gecə evdəyəm. Yenə demək istəyirəm ki, gəlsən,

Telegram: @cinciva

sevinərəm. Sənin taksi pulunu ödəyəcəm, burada qala bilərsən. Nə vaxt qayıtsan, mənə zəng elə, sonra taksiyə min. Vəssalam. Ümid edirəm, görüşərik. Sevgilər. Hələlik, Em, hələlik".

Onlar keçmiş zamanlardan, üç il əvvəl olanlar haqqında danışdılar. Emma şorbasını içəndən sonra balıq götürərkən, Yan bir karbohidrat qarışığını, bir kasa ətli makaronu, haradasa, parmezan pendirinin içinə basaraq yedi. Bu və qırmızı şərab onu bir az sakitləşdirmişdi, Emma da həmçinin rahatlaşmışdı, hətta yüngülcə sərxoşluğundan ləzzət alırdı. Niyə də olmasın? O, buna layiq deyildimi? Keçən on ay ərzində inandığı bir şeyi əldə etməkçün çox gərgin çalışmışdı və müəllimlərə təklif olunan ehtiyat yerlər, səmimi desək, dəhşətli olsa da, bu işdə bacarıqlı olduğunu anlayacaq qədər ağıllıydı. Bu günortadan sonraki iş görüşməsi də onda eyni hissləri oyandırmışdı; məktəb direktoru razılıqla gülümsəyir və başını yırğalayırdı. Emma dilinə gətirməyə cürət eləməsə də, işə götürüldüyündən əmindi.

Onda niyə bunu Yanla qeyd etmirdi? Yan danışarkən onun üzünə diqqət yetirdi və şübhəsiz, əvvəlkinə nisbətən daha cazibədar olduğuna qərar verdi; ona baxanda artıq traktorları fikirləşmirdi. Onda nəzakətə, zərifliyə dair heç nə yox idi; əgər bir döyüş filminin heyətini təyin etməli olsanız, Yan bəlkə anasına məktublar yazan cəsur Tomi ola bilərdi; Dekstersə... – nə? Zəif nasist. Hətta elə olsa belə, onun özünə baxmaq tərzini xoşlayırdı. Eşq dolu gözlərlə baxırdı. Tam qarşılığı buydu. Aşiq və sərxoş, Emma da özünü ona qarşı ehtiraslı və aşiq kimi hiss edirdi.

Şərabın qalanını Emmanın stəkanına tökdü. – Köhnə briqadadan kimisə görmürsən?

– O qədər yox. Bir dəfə Skotla *"Sezarın Salonu"*nda rastlaşmışdım, o dəhşətli italyanla. Çox yaxşı idi, amma hələ də acıq-

Telegram: @cinciva

lıydı. Bir də, bundan boyun qaçırmağa çalışıram. Ora həbsxana kimiydi; ən yaxşısı, köhnə dustaqlarla çox da səmimi olmayasan. Əlbəttə ki, səndən başqa.

– O qədər də pis deyildi, elə deyil? Orada işləməyi deyirəm...

– Yəni həyatımın heç vaxt geri qaytara bilməyəcəyim iki ili getdi. – Bərkdən deyildiyindən bu müşahidə onu şoka salmışdı, ancaq yenə də çiynini çəkdi. – Bilmirəm, o qədər də xoşbəxt dövr olduğunu fikirləşmirəm.

Yan kədərlə gülümsədi və barmağıyla yavaşca Emmanı itələdi. – Telefonlarıma ona görə cavab vermirdin?

– Vermədim? Bilmirəm, ola bilər. – Stəkanı dodaqlarına tərəf apardı. – İndi buradayıq. Gəl mövzunu dəyişək. Səhnə işlərin necə gedir?

– Ah, yaxşı. Sözün həqiqi mənasında improvizə edərək səhnəciklər hazırlayıram. Bəzən məzəli belə deyiləm! Amma, məncə, improvizələrin fərqi də elə bundadı, elə deyil? – Emma bunun doğruluğundan əmin deyildisə, yenə də eləymiş kimi başını yelləyi. – Bir də Keninqtonda, Cənab Çaklzda çərşənbə axşamları şou göstərirəm. O, bir az daha aydındı, yəni daha aktualdı. Bil Hikzin reklamla bağlı işlərinə oxşar bir şey edirəm. Televiziyadakı bu axmaq reklamlar kimi...

Yenə öz rolunun içinə sürüşərkən Emma da donmüş təbəssümünə geri qayıtdı. Bunu demək onu öldürürdü, ancaq Yan Emmanı indiyə qədər bəlkə də iki dəfə güldürmüşdü və bunlardan biri zirzəmi pilləkənlərindən yıxıldığı vaxt idi. Böyük bir yumor hissinə malik, eyni zamanda, qətiyyən məzəli olmayan adamdı. Deksterin tam tərsiydi: Deksterin zarafata qətiyyən marağı yoxdu, ehtimal ki, yumor hissi də zəifdi; eynən siyasi biliyi kimi, amma Deksterlə olanda həmişə dəli kimi gülərdi; bəzən, düzünü desək, altına azca sidik qaçırdığı belə olmuşdu. Yunanıstanda tətildə olanda düz on gün gülmüşdülər. Dekster bu dəqiqə haradadır, fikirləşdi.

Telegram: @cinciva

– Onu televizorda izləmisən? – Yan dedi.

Emma tutulmuş kimi səksəndi: – Kimi?

– Dostun Deksteri, o axmaq proqramda.

– Bəzən. Bilirsən, televizor açıq olsa.

– O, necədi?

– Ah, yaxşı, həmişəki kimi. Yəni bir az ağlı çaşmış, düzünü desəm, bir qədər relsdən çıxmış vəziyyətdə. Anası xəstədi, o da buna çox dözə bilmir.

– Bunu eşitdiyimə təəssüf edirəm. – Yan sıxıntıyla qaşqabağını tökdü və mövzunu dəyişməyin bir yolunu tapmağa çalışdı. Laqeydliklə deyil, əlbəttə; sadəcə, yad bir adamın xəstəliyinin onun gecəsinə mane olmağını istəmirdi. – Tez-tez danışırsınız?

– Dekslə? Çox vaxt. Ancaq çox görüşmürük... televiziya öhdəlikləri, sevgililəri, özün bilirsən də...

– İndi kiminlə görüşür?

– Xəbərim yoxdu. Onlar yarmarka qızılbalıqları kimidilər, ad qoymağa dəyməz, o qədər də uzunömürlü olmazlar. – Bu cümlədən əvvəl də istifadə etmişdi və Yanın xoşuna gələcəyini fikirləşmişdi, amma o, hələ də mısmırığını sallamışdı. – Bu nə sifətdi?

– Onu heç vaxt xoşlamadığımı fikirləşirəm.

– Yox, xoşlamamışdın, yadımdadı.

– Çalışdım.

– Yaxşı, bunu tək öz şəxsinə götürməməlisən. O, başqa kişilərlə də çox yola getmir, onlarla ortaq bir şey görmür.

– Əslinə baxsan, mən həmişə fikirləşirdim ki...

– Nə?

– O, sənə öz mükafatı kimi baxırdı. Bu qədər.

Yenə mənəm! Sadəcə, yoxlayıram. Amma bu dəqiqə əməllibaşlı sərxoşam. Bir az həssaslaşdım. Sən böyük adamsan, Emma

Telegram: @cinciva

Morli. Səni görmək yaxşı olar. Nə vaxt gəlsən, zəng elə. Başqa nə deyəcəkdim? Heç nə, sadəcə, möhtəşəmsən, möhtəşəm adamsan. Belə. Nə vaxt gəlsən, zəng elə. Mənə bir zəng vur.

Yeri gəlmişkən, artıq ikinci dəfə konyaklar gələndə onların sərxoş olduğuna heç bir şübhə yox idi. Bütün restoran sərxoş olmuş kimiydi, gümüşü saçlı pianoçu belə "I Get a Kick Out of You"[1] parçasını həddindən artıq romantik şəkildə ifa edərkən elə bil kimsə əyləc kabellərini kəsmiş kimi ayağını dayanmadan pianonun pedalına basırdı. Mahnı başında əks-səda verərkən, Emma səsini qaldırmağa məcbur olaraq böyük ehtirasla yeni iş karyerası haqqında danışmağa başlamışdı.

– Londonun şimalında böyük bir peşə məktəbidi, ingilis dili, bir az dram dərsi də verəcəm. Yaxşı məktəbdi, həqiqətən, qarmaqarışıqdı, hamının, "Bəli, xanım, xeyr, xanım"la danışdığı rahat şəhərətrafı məktəblərdən biri deyil. Bir az çətin uşaqları var, amma belə də olmalıdı, elə deyil? Uşaqlar belə olmalıdı da. İndi belə deyirəm. Güman ki, məni diri-diri yeyəcəklər, balaca dəcəllər. – O, konyakı filmlərdə gördüyü kimi qədəhin içində fırlatdı. – Gözümün qabağına özümü stolun qırağında oturub, Şekspirin necə ilk reper olduğunu, ya da buna oxşar nə isə başqa şeyi başa saldığım anı gətiriəm – bütün uşaqlar ağızlarını açıb gözlərini mənə zilləyirlər; elə bil hipnoz olublar. Vəcdə gəlmiş sısqa çiyinlərdə yuxarı qaldırıldığımı təsəvvür edirəm. Avtodayanacağa, yeməkxanaya, hara gedirəmsə gedim, məni sevən uşaqların çiyinləri üstündə dolanıram. Bu *carpe diem* müəllimlərdən biri kimi.

– Başa düşmədim, nə müəllimlər?

– Carpe diem.

– Carpe?..

---

[1] "Sənə heyranam". Frank Sinatra tərəfindən də ifa edilmiş Kol Poterin mahnısı.

Telegram: @cinciva

– Bilərsən, "Məqamı yaxala" deməkdi!

– Bu, o deməkdi? Mənsə elə bilirdim, "Xalçanı tut" deməkdi!

Emma nəzakətli şəkildə hıçqıraraq gülümsədi ki, bu da Yan üçün start atəşi kimi bir şey oldu. – Buna görə mənim işlərim pis getdi! Ay Allah, əgər bunu bilsəydim, məktəb illərim tam fərqli olardı! Döşəmədə sürünməklə keçən o qədər il...

Bu qədər bəsdi.

– Yan, bunu eləmə, – sərt tərzdə dedi.

– Nəyi?

– Roluna girirsən. Bunu etmək məcburiyyətində deyilsən, bilirsən. – İncimiş kimi görünürdü; Emma stolun üstündən əyilərək əlini tutdu, səs tonunu təəssüflə alçaltdı. – Mən, sadəcə, fikirləşirəm ki, sən həmişə müşahidə etməli, irad tutmalı, zarafatla və qafiyəylə danışmalı deyilsən. Bura səhnəcik deyil, Yan, vur-tut bir söhbətdi eləyirik.

– Üzr istəyirəm, mən...

– Ah, tək sən yox, ümumiyyətlə, kişilər; bu, hamınızın həmişə gəldiyi nömrədi. Allahım, nə olardı, sadəcə, danışan və dinləyən kiməsə rast gəlsəydim! – Həddindən artıq danışdığını bilirdi, amma sürətini azalda bilmirdi. – Bunun niyə zəruri olduğunu başa düşmürəm. Bu, imtahan deyil ki.

– Ancaq, bir növ, elədi, əslində, yox?

– Mənimlə yox. Belə olmağı vacib deyil.

– Bağışla.

– Dəqiqədən bir üzr istəmə.

– Ah. Yaxşı.

Yan bir anlıq sakit durdu. İndi elə bil Emma üzr istəyəcəkdi. O, fikirlərini dilinə gətirməyəydi; fikirlərini dilinə gətirməkdən heç vaxt yaxşılıq gəlməz. Tam üzr istəmək istəyirdi ki, Yan ah çəkərək yanağını yumruğuna dayadı.

Telegram: @cinciva

– Fikirləşirəm ki, bu, belə bir şeydi: Əgər məktəbdə elə də parlaq, yaraşıqlı, ya da populyar deyilsənsə və bir gün sən nə isə deyəndə kimsə buna gülərsə, bu işdən dörd əllə yapışarsan, düz demirəm? Belə fikirləşərsən: Mən zarafatcıl adamam, axmaq böyük üzüm, böyük ombalarım var və heç kim məni bəyənmir, ancaq, ən azından, adamları güldürə bilirəm. Və bu – kimisə güldürmək elə yaxşı hissdi ki, sonra aludəçisi olursan. Elə bil ki, məzəli deyilsən... heç nə deyilsən. – O, indi üzünü süfrəyə çevirib, barmaqlarıyla çörək qırıntılarından balaca piramida düzəldirdi. – Əslində, bu vəziyyəti öz-özlüyündən başa düşəcəyini fikirləşirdim.

Emmanın əli sinəsinə getdi. – Mən?

– Rol oynamaq baxımından.

– Mən rol oynamıram.

– Yarmarka qızılbalıqları haqqında dediklərini daha əvvəl də demişdin.

– Yox, mən... elə?

– Mən, sadəcə, olduqca oxşar olduğumuzu fikirləşirəm, sən və mən. Bəzən.

Emma əvvəl etiraz etməyi fikirləşdi. – *Yox, mən elə deyiləm,* – demək istəyirdi, – *nə absurd fikirdi .A*mma Yan ona elə tərzdə gülümsəyirdi ki, necə deyərlər, avam kimi... və deyəsən, özü bir az sərt davranmışdı. Buna görə çiyinlərini çəkdi. – Buna heç vaxt inanmaram.

– Nəyə?

– Heç kimin səni xoşlamadığına.

Yan məzəli şəkildə burnunda danışdı:

– Yaxşı, amma sənədli dəlillər elə demir.

– Mən buradayam, elə deyil? – Bir sakitlik oldu, həqiqətən də, çox sərxoşdu və indi stolun üstündəki çörək qırıntılarıyla oynamaq

Telegram: @cinciva

növbəsi ona gəlmişdi. – Əslinə baxsaq, bu günlərdə nə qədər yaxşı göründüyünü fikirləşirdim.

Yan iki əliylə qarnını tutdu: – Məşq edirəm.

Emma ona baxaraq çox ürəkdən güldü və o qədər çirkin üzü olmadığını düşündü; əksər yaraşıqlı axmaq oğlanların üzü kimi deyildi; düzgün, tərbiyəli bir kişi üzüydü. Hesab ödəndikdən sonra Yanın onu öpməyə cəhd edəcəyini bilirdi və bu dəfə ona imkan verəcəkdi.

– Getməliyik, – dedi.

– Mən hesabı alım. – Ofisianta hesab işarəsi göstərdi. – Bu kiçik pantomim hərəkəti hər kəsin etməsi nə qəribədir, elə deyil? Bunun kimin ideyası olduğunu bilmək istəyərdim...

– Yan?

– Nə? Bağışla. Bağışla.

Hesabı, söz verdikləri kimi, iki yerə bölüb verdilər, çıxarkən Yan qapının aşağı tərəfinə bərk təpik vurub dartaraq açdı, beləcə, qapının üzünə zərblə dəyməsi illüziyasını yaratmış oldu. – Bir az fiziki komediya...

Bayırda qara və mavi buludlardan yaranan qalın səma pərdəsi formalaşmışdı. İsti küləkdə tufandan əvvəl gələn dəmirin kəskin qoxusu vardı və meydandan şimala tərəf gedərkən Emma özünü xoş bir sərxoşluq içində və konyak şirəsinə bələşmiş kimi hiss etdi. Jonqlyorları, məcburi əyləncələriylə birgə *Kovent Qardenə* həmişə nifrət eləmişdi, amma bu gecə gözünə gözəl görünürdü; ona həmişə nəzakətli və qayğıkeş olan bu kişinin qoluna girmək qədər təbii və gözəl. Üzünə baxanda Yanın qaşqabağını tökdüyünü gördü.

– Nə oldu? – Qoluyla qolunu sıxışdıraraq soruşdu.

– Bilirsən, sadəcə, özümü yorğun hiss edirəm. Əsəblərim pozulur, həddindən artıq çalışıram, axmaq-axmaq zarafatlar edirəm. Yumorist səhnəcikdə oynamağın ən pis tərəfi nədi, bilirsən?

Telegram: @cinciva

– Paltarlar?

– Adamların həmişə sənin "fərasətli" olmağını gözləməsi. Həmişə qəhqəhələri izləyirsən...

Emma qismən mövzunu dəyişdirməkçün əllərini Yanın çiyninə qoydu, özünü yuxarı çəkmək üçün bütün bədənilə barmaqlarının ucunda qalxaraq onu öpdü. Ağzı nəmli, amma istiydi. Dodaqları bir-birinə sıxılıykən: – Böyürtkən və vanil, – deyə Emma mızıldandı, əslində, parmezan pendiri və içki dadı verirdi. O etiraz etmədi. Yan öpüşərkən güldü, Emma geri çəkildi və Yanın üzünü tutaraq ona baxdı. Yan sevindiyindən ağlayacaq kimi görünürdü; Emma etdiyi hərəkətdən məmnunluq hiss etdi.

– Emma Morli, bunu deyə bilərəm?.. – Böyük bir ciddiyətlə gözünü Emmaya zillədi. – Sənin tamamilə mükəmməl biri olduğunu fikirləşirəm.

– Sən və bu şirin sözlərin, – Emma dedi. – Gəl sizə gedək, olar? Yağış yağmamışdan.

"Tap görüm, kimdi? Saat on bir tamamdı. Haradasan, ay pis gəzəyən? Ah, nə isə. Gələndə mənə zəng elə, buradayam, heç yerə getmirəm. Hələlik. Hələlik".

Yanın Keli Yolundakı küçə səviyyəli mənzili yalnız küçə fənərləri və yoldan keçən ikimərtəbəli avtobusların projektoruyla işıqlanırdı. Otaq Pikadilli, Viktoriya və Şimal Xətti metro qatarları və 30, 10, 46, 214 və 390 nömrəli avtobuslar üzündən hər bir dəqiqədə bir neçə dəfə silkələnirdi. İctimai nəqliyyat baxımından, güman ki, Londonun ən mükəmməl mənziliydi, amma yalnız bu baxımdan. Emma corablarını çıxarıb, açılanda çarpayı olan divana uzananda kürəyindəki silkələnmələri hiss elədi.

– Bu, nəydi?

Telegram: @cinciva

Yan silkələnməyə qulaq asdı.

– Pikadillidən Şərqə gedən qatar.

– Buna necə dözürsən, Yan?

– Alışarsan. Həmçinin bunlar da var... – Pəncərə çıxıntısındakı olan iki dənə toppuş parafin topasını göstərdi. – Formaya salına bilən mumdan qulaqcıqlar.

– Ah, qəşəngdi.

– Amma keçən dəfə çıxartmaq yadımdan çıxıb. Elə bildim, beynimdə şiş var. Özümü bir az *"Başqa Tanrının uşaqları"*ndakı[1] kimi hiss etdim; nə demək istədiyimi bilirsən?

Emma güldü, sonra yenə də ürəyi bulanırmış kimi inildədi. Yanın əlini tutdu.

– Bir az yaxşısan?

– Gözlərim açıq olduğu müddətcə yaxşıyam. – Emma üzünü Yana tərəf çevirdi, üzünü görmək üçün yorğanı çəkdi, yorğanın örtüyü olmadığı üçün və rəngi göbələk şorbasına oxşadığından ürəyi bulandı. Otaq xeyriyyə qurumu mağazası kimi qoxuyurdu; tək yaşayan kişi qoxusu. – Məncə, bunu ikinci konyak elədi. – Yan gülümsədi, amma yoldan keçən bir avtobusun işığı otağı bürüyəndə Emma onun kədərli olduğunu gördü. – Mənə hirslisən?

– Qətiyyən. Bilirsən, bir qızı öpərsən, o da ürəyi bulandığı üçün öpüşməni kəsər...

– Dedim axı, sadəcə, içkiyə görədi. Çox yaxşı vaxt keçirdim, həqiqətən, çox yaxşı. Sadəcə, bir az nəfəs almağa ehtiyacım var. Bura gəl... – Onu öpməkçün oturdu, ancaq ən yaxşı lifçiyini elə sıxmışdı ki, dəmirləri qoltuğuna batırdı. – Of, of, of! – deyə qışqıraraq lifçiyini düzəltdi, sonra birdən başını dizlərinin arasına əydi. Yan tibb bacısı kimi əliylə onun kürəyini ovurdu və Emma hər

[1] 1986-cı ildə Rənd Henzin rejissorluğu ilə çəkilmiş, Akademiya və Qızıl Qlobus mükafatları qazanmış, lal-kar qadın haqqında film.

Telegram: @cinciva

şeyi korladığı üçün utandığını hiss etdi. – Yaxşısı budu, mən gedim.

– Ah. Yaxşı. İstəyirsənsə, get.

Ağ işıq otağı gözdən keçirərkən, yaş küçədəki təkər şinlərinin səslərinə qulaq asdılar.

– Bu, hansıdı?

– 30 nömrəli.

Emma corabını dartışdırdı, sonra səndələyə-səndələyə ayağa qalxdı, yubkasını düzəltdi. – Çox gözəl vaxt keçirdim!

– Mən də...

– Sadəcə, həddindən artıq içkiliyəm...

– Mən də...

– Evə gedib ayılacağam...

– Başa düşürəm. Yenə də... təəssüf edirəm.

Emma saatına baxdı. 23:53. Metro qatarı müəyyən bir nəqliyyat mərkəzinin uzaq nöqtəsində dayandığını xatırladaraq ayaqlarını sürüyərək irəlilədi. Kinqz Krosda piyada getmək beş dəqiqə, Pikadilli Qərb istiqamətində ən tez 00:30-da evdə olardı. Pəncərə şüşələrində yağış damcıları vardı, amma çox deyildi.

Sonra isə şəhərin o biri başına getməyi, açarlarını axtararkən boş mənzilin sakitliyini, əynindəki yaş paltarların qoxusunu təsəvvür elədi. Çarpayıda tək yatdığını, tavanın fırlandığını, Taiti adasını, ürək bulanmasını, peşmanlığını fikirləşdi. Burada qalmaq, bir dəyişiklik üçün bir qədər mehribanlıq, istilik, qayğı, yaxınlıq gerçəkdənmi pis olardı? Yoxsa, həqiqətən də, bəzən metroda gördüyü o sərxoş, yorğun, solğun, əyinlərində keçən gecənin geyimləri olan qızlardan biri olmaq istəyirdimi? Bu vaxt yağış pəncərələrə daha möhkəm vurmağa başladı.

– İstəyirsən, səni stansiyayacan ötürüm? – Yan köynəyini düymələyərək dedi. – Ya da bəlkə...

– Nə?

Telegram: @cinciva

– Burada qalıb yata bilərsən? Sadəcə, qucaqlaşarıq, məni düz başa düş.

– *Qucaqlaşmaq.*

– Qucaqlaşmaq, qucaqlamaq. Ya da heç qucaqlaşmarıq da. İstəsən, bütün gecəni utana-utana eləcə dübbədüz yatarıq.

Emma gülümsədi, Yan da ümidlə gülümsəyərək qarşılıq verdi.

– Kontakt linzalarım korlanıb, – Emma dedi. – Yanımda yoxdu.

– Məndə var.

– Linza istifadə etdiyini bilmirdim.

– Bax gördün; ortaq olan daha bir tərəfimiz də çıxdı. – Qarşılıqlı gülümsədilər. – Sənə xoş olacaqsa, hətta sənə bir cüt mum qulaqcıq da tapa bilərəm.

– Yan Vaythed. Səni, qoca Don Juan, səni.

"...Hə, götür, götür, qaldır da bu telefonu. Haradasa, gecə yarısı oldu. Saat on ikini vuranda bir, eee, bir nəyə, böyük ehtimalla, bir axmağa çevriləcəyəm. Hər halda, bu mesajı alsan..."

– Alo? Alo?

– Oradasan!

– Alo, Dekster.

– Səni oyandırmadım ki, mən oyandırmadım ki səni?

– İçəri indi girdim. Sən yaxşısan, Dekster?

– Ah, yaxşıyam.

– Amma səsin çox pis gəlir.

– Ziyafət verirdim, sadəcə. Tək özüm. Balaca, şəxsi bir ziyafət.

– Musiqini söndürə bilərsən?

– Fikirləşdim... gözlə, musiqini söndürüm... bəlkə sən də gəlmək istəyərsən. Şampan var, musiqi var, hətta bir az narkotik də ola bilər. Alo? Alo, oradasan?

– Məncə, biz bunun yaxşı fikir olmadığına qərar vermişdik.

– Vermişdik? Məncə, çox gözəl fikirdi.

Telegram: @cinciva

– Darıxandan darıxana zəng eləyib məndən gəlməyimi gözləməyin düz deyil axı...

– Ah, gəl Naomi, lütfən? Sənə ehtiyacım var.

– Yox.

– Yarım saat sonra burada ola bilərsən.

– Yox. Yağış yağır.

– Piyada gəl, demədim ki. Taksiyə min, mən ödəcəyəm.

– Yox, dedim!

– Həqiqətən, kimisə görməyə ehtiyacım var, Naomi?

– Elədisə, Emmanı çağır!

– Emma evdə deyil. Həm də Emma o cür dost deyil. Nə demək istədiyimi başa düşürsən. Məsələ belədi də, əgər bu axşam kiməsə toxunmasam, həqiqətən, ölə bilərəm.

– ...

– Orada olduğunu bilirəm. Tənəffüsünü eşidirəm.

– Yaxşı.

– Yaxşı?

– Mən yarım saata kimi orada olaram. İçmə daha. Məni gözlə.

– Naomi? Naomi, anlayırsan?

– Nəyi?

– Həyatımı xilas etdiyini anlayırsan?

Telegram: @cinciva

VIII Fəsil

Şou Biznes

15 iyul. 1994-cü il. Cümə

Leytonston[1] və İtlər Adası[2]

Emma Morli yaxşı yemək yeyir, içkinin də həddini bilir. Bu günlərdə səkkiz saatlıq yaxşı yuxu yatır və səhərlər saat altıda özözünə oyanır, sonra böyük bir stəkan su, gündəlik 1.5 litrin 250 millilitrini içir. Suyu isti, təmiz, iki nəfərlik çarpayısının yanına vuran səhər günəşinin işığında dayanan dolçadan ona uyğun gələn stəkanına doldurur.

Saatlı radio işə düşür, ancaq o, yerindən qalxmadan radiodan xəbər başlıqlarını dinləyir. Leyborist Partiyasının lideri Con Smit öldü, Vestminster Monastırındakı dəfn mərasimindən bir xəbər: əks partiyadan sayğılı başsağlığı: "Heç vaxt sahib ola bilməyəcəyimiz möhtəşəm Baş Nazir". Yerinə kimin keçəcəyinə aid fərziyyələr də var. Emma Atom Tərk-silah Hərəkatındakı üzvlüyü çoxdan başa çatdığı üçün Leyborist Partiyasına üzv olma imkanını bir daha yada salır.

Bitib-tükənməyən Dünya kuboku xəbərləri onu çarpayıdan qalxmağa məcbur edir; pərqu kimi yay yorğanını üstündən tullayır, köhnə qalın sağanaqlı eynəyini taxaraq çarpayıyla divar

---

[1] Leytonstoun – Şərqi Londonda rayon.

[2] İtlər adası (İsle of Dogs) – London İst-Əndində rayon.

Telegram: @cinciva

arasındakı ensiz boşluqdan keçib dəhlizə çıxır. Kiçik vanna otağına gedib qapını açır.

– Bir dəqiqə! – Yenidən qapını örtür, amma özünü tualetdə Yan Vaythedi ikiqat oturmuş vəziyyətdə görməkdən saxlayacaq qədər sürətli deyil.

– Niyə qapını kilidləmirsən, Yan? – qapıda qışqırır.

– Bağışla.

Geri qayıdıb çarpayıda oturur, arxa planda şırıltı səsləri, bir daha şırıltı axını, sonra Yanın fınxıraraq burnunu təmizləməsi və başqa bir şırıltı səsi altında qaşqabağını tökərək kənd təsərrüfatıyla məşğul olanlar üçün verilən hava proqnozuna qulaq asır. Nəhayət, Yan qızarmış və kefsiz halda qapıda görünür. Alt paltarı yoxdu, əynində qıçlarının üstünü bir az örtən qara tişört var. Dünyada bu vəziyyətdə yaxşı görünəcək bir dənə də kişi yoxdu, hətta belə də olsa, Emma fikrini onun havanı ağzından yavaş-yavaş üfürən üzündə cəmləşdirməyə səy göstərir.

– Yaxşı. Bu, olduqca ciddi təcrübədir.

– İndi necəsən? – Özünü qorumaq üçün eynəyini çıxarır.

– O qədər də yaxşı deyiləm, – deyərək qaşqabağını tökür, əlləriylə qarnını ovxalayır. – Qarnımda dəhşətli ağrı var. – Yan ağrı içində danışır. Emma Yanın heyranedici olduğunu fikirləşməsinə baxmayaraq, "qarın" sözündə içində qapını onun üzünə çırpmaq istəyi oyandıran nəsə var.

– O vetçinanın xarab olduğunu sənə demişdim, qulaq asmadın ki...

– Yox, ondan deyil.

– Ah, yox, vetçina xarab olmaz, deyirsən. Vetçina *müalicə edəndir.*

– Məncə, bu, virusdu...

– Yaxşı, bəlkə də ətrafda dolaşan bu böcəklərdəndi. Məktəbdə hər tərəfdə var, bəlkə mən gətirib sənə yoluxdurmuşam.

Telegram: @cinciva

Yan cavab vermir. – Bütün gecə ayaq üstə olmuşam. Özümü bərbad hiss edirəm.

– Bilirəm, sevgilim.

– Qripin üstünə bir də diareya...

– Cazibədar kombinasiyadı. Ay işığı və musiqi kimi.

– Mən yay soyuqdəymələrinə nifrət edirəm.

– Bu, sənin səhvin deyil, – Emma qalxıb oturaraq deyir.

– Məncə, mədə soyuqlamasıdı, – deyir; sözlərin uyğunlaşması ləzzət eləyir.

– Mədə soyuqlamasına oxşayır.

– Özümü... – Yumruqlarını sıxaraq bütün vəziyyətini yekunlaşdıracaq bir söz axtarır. – Belə, tıxanmış hiss edirəm! Mən bu vəziyyətdə işə gedə bilmərəm.

– Onda getmə.

– Amma getmək məcburiyyətindəyəm.

– Onda get.

– Bacarmaram, bacara bilərəm? Buramda iki, bir kilo bəlğəm var elə bil. – Əlini alnında gəzdirir. – Bir kilo qalın bəlğəm.

– Yaxşı, bu günü yola verməkçün ehtiyacım olan görüntünü təsvir elədim.

– Bağışla, amma özümü pis hiss edirəm. – Çarpayının özü yatdığı tərəfinə sıxışır və özünü yazıq göstərən bir ah çəkərək yorğanın altına girir.

Emma ayağa qalxmazdan əvvəl özünü sahmana salır. Bu gün Emma Morli üçün böyük bir gündü, mənalı bir gün. Bu axşam Kromvel Yolundakı Peşə Məktəbində *"Oliver"* tamaşasının premyerası var və fəlakət ehtimalı çox böyükdü.

Bu gün Dekster Meyhyu üçün də böyük gündü. O, nəm məlafələrin içində, gözləri bərəlmiş halda uzanır və səhv gedə biləcək şeylərin hamısını təsəvvür edir. Bu gecə öz təptəzə TV şousunda,

Telegram: @cinciva

milli televiziyada canlı görünəcək. Bir vasitə. İstedadı üçün bir vasitədir və o, qəfildən özünün istedadlı olmağına şübhə edir.

Əvvəlki gecə hava hələ qaralmamış, bu səhər təzə bir üzlə oyanmaq ümidiylə, tək və ayıq olaraq, balaca oğlan uşağı kimi erkəndən yatdı. Amma doqquz saatın yeddi saatını oyaq keçirtdi və indi narahatlıqdan tükənmiş vəziyyətdə, ürəyi bulanmaqdadır. Telefon zəng çalır, tez durub oturur və telesekretarda öz səsinə qulaq asır: "Eləsə, mənimlə danış!" – aparatdakı səs özünə əmin şəkildə deyir. "*İdiot. Mesajı dəyişdirməlisən*", – öz-özünə fikirləşir.

Aparat səs çıxarır: "Ah. Yaxşı onda. Salam. Mənəm". Emmanın səsindəki o tanış yüngüllüyü hiss edir və telefonu götürməyə hazırlaşarkən dava etdiklərini və ona küsməli olduğunu yadına salır. – Belə erkən zəng etdiyimçün, elə başqa hər şey üçün də bağışla, ancaq ikimizdən birinin fərli-başlı işi olmalıdı. Elə bunu demək istəmişdim, bu gecə böyük gecədi, həqiqətən, uğurlar arzu edirəm. Ciddi deyirəm, uğurlar. Əla olacaqsan, əladan da əla, çox böyük olacaqsan. Sadəcə, bir az qəşəng şeylər geyin və o axmaq səslə danışma. Gəlmədiyimə görə hirslənəcəksən, bilirəm, amma mən bir axmaq kimi sənə televiziyada baxıb alqışlayacağam...

Dekster çılpaq vəziyyətdə çarpayıdan qalxır, aparata diqqətlə baxır. Dəstəyi qaldırmağı fikirləşir.

– Saat neçədə qayıdacağımı bilmirəm, məktəb tamaşalarının necə olduqlarını bilirsən. Bu dəli işə şou deyirik. Sonra zəng edərəm. Uğurlar, Deks. Qucaq dolusu sevgilər. Yeri gəlmişkən, bu telefon mesajını dəyişdirməlisən.

Və dəstəyi yerinə qoyur. Dekster zəng etmək niyyətindədir, ancaq taktiki baxımdan bir az da küsülü qalmalı olduğunu hiss edir. Onlar yenə də mübahisə etmişdilər. Emma Deksterin onun sevgilisini xoşlamadığını fikirləşir və Deksterin israrla boynuna

Telegram: @cinciva

almamasına baxmayaraq, Emmanın dostundan xoşu gəlmədiyi faktını gizlətməyinin bir yolu yoxdu.

Dekster cəhd etmişdi, həqiqətən, sınamışdı. Üçü bir yerdə, kinoteatrlarda, ucuz restoranlarda, sıxıcı pivəxanalarda oturmuşdular; Yan Emmanın qulağının dibində fısıldayarkən, Dekster Emmayla göz-gözə gələrək razılıqla gülümsəmişdi; gənc yeni sevgililər. Emmanın Qraflar Məhkəməsindəki balaca evinin bap-balaca mətbəx stolunda oturub, çılpaq əllə boks yarışındakı kimi amansız rəqabət hissiylə *Trivial Pursuit*[1] oyununu oynamışdı. Yanın Mortleydə Qəhqəhə Laboratoriyasındakı müşahidəyə söykənən səhnəciyinə baxmaqdan ötrü onun Sonikotronikzdəki dostlarına da qoşulmuşdu; Emma yanında oturub gərgin halda qımışaraq, elə bil harada gülmək lazım olduğunu göstərir kimi onu dümsükləyib durmuşdu.

Onun bütün cəhdlərinə rəğmən, düşmənçilik açıq-aydın görünür və qarşılıqlıydı. Yan Deksterin gecə avtobusları əvəzinə taksini, barlar əvəzinə üzvlük lazım olan klublara, evə sifariş olunan yeməklər əvəzinə lüks restoranlara getməyi üstün tutduğu üçün özünü millətin gözünə soxmağa çalışan saxtakar və ədabazın biri olduğunu eyham vurmaq üçün hər xırda fürsəti də bada vermirdi. İşin ən pis tərəfi, Emma da tez-tez alçaldıcı hərəkətlərilə Deksterə uğursuzluqlarını xatırladaraq Yana qatılırdı. Görəsən, bunlar başına bu qədər çox şey gələrkən və həyatın hadisələrlə doluykən, başını dik saxlamağın, hörmətli qalmağın nə qədər çətin olduğunu başa düşmürdülərmi? Əgər Dekster axşam yeməyinin pulunu ödəsə, ya da avtobusa minmək əvəzinə, taksi pulunu ödəməyi təklif etsə, onların hər ikisi də donquldanıb, özlərini təhqir olunmuş kimi hiss edir, xətirlərinə dəyirdi. Axı adamlar onun bu qədər uğurlu olmağına niyə sevinə bilmirlər, niyə alicənablığı qarşısında minnət-

[1] (Trivial Təqibi) Ümumi mədəniyyət oyunu.

Telegram: @cinciva

dar ola bilmirlər? Əldən düşmüş divanda *"Ulduz yürüşü: Xanın qəzəbi"nə* baxaraq keçirdikləri axırıncı dözülməz axşamda hind sousunun yağı Drayz van Notndan aldığı şalvarına tökülmüşdü; bu, səbir kasasını dolduran son damcı olmuşdu. O vaxtdan bəri Emmayla, sadəcə, tək olanda görüşürdü.

Əlbəttə, ağlasığmaz, mənasızdı, ancaq bu mümkünmüydü – yoxsa Dekster onu qısqanırdı? Yox, qısqanclıq deyil, olsa-olsa, incimişdi. Emmanın hər zəng elədiyində yerində tapacağı təcili yardım xidməti olacağını gözləmişdi. Axırıncı Milad günündə anasının ölüm fəlakətindən bəri hər keçən gün özünü ondan daha çox asılı hiss etdiyi halda, Emma ona daha az vaxt ayırmağa başlamışdı. Əvvəllər telefon zənglərinə dərhal cavab verərdi, indisə bir kəlmə kəsmədən günlər keçir. "Yanla birlikdə bayırda" olduğunu deyir, axı haraya gedir bunlar? Nə edirlər? Birlikdə mebel alırlar? Videoya baxırlar yoxsa? Yan Emmanın valideynləri Cim və Syuyla belə tanış olub. *"Onu sevirlər"*, – Emma deyir. Niyə Dekster Cim və Syuyla heç vaxt tanış olmadı? Onlar onu daha çox sevməzdilərmi?

Onu hər şeydən çox narahat edənsə elə bil Emmanın Deksterdən uzaqlaşmasından ləzzət almasıydı. Dekster özünü bir dərs verilmiş kimi hiss edirdi; Emmanın bu yeni tapılmış rahatlığı sanki üzünə bir şillə kimi dəymişdi. "Sən adamlardan həyatlarını sənin ətrafında qurmalarını gözləyə bilməzsən, Dekster", – Emma başqasının bədbəxtliyinə sevinən tərzdə demişdi və yenidən mübahisə etmişdilər; bunların hamısı Emmanın Deksterin televiziya şousunun canlı yayımında studiyaya gedə bilməyəcəyinə görəydi.

– Nə etməyimi istəyirsən, sən televiziyaya çıxacaqsan deyə *"Oliver"i* ləğv etməliyəm?

– Tamaşadan sonra gələ bilməzsən?

– Yox. Çox uzaqdı!

– Maşın göndərərəm!

Telegram: @cinciva

– Tamaşadan sonra uşaqlarla, valideynlərlə danışmalıyam...

– Nəyə görə?

– Dekster, məntiqli ol, bu, mənim işimdi!

Dekster kobudlaşdığını bilir, amma Emmanı auditoriyada görmək ona çox kömək edə bilər. Emma ətrafında olduğu vaxt daha yaxşı adam olur və onsuz da, dostlar bunun üçün deyilmi elə? Emma onun talismanı, göz muncuğudu və indi Emma orada olmayacaq; eləsə, bütün bunları niyə etdiyini bilmək istəyir.

Uzun-uzadı bir duş alandan sonra özünü daha yaxşı hiss edir, altına köynək geyinmədən yüngül, V hərfi formasında kəşmiri sviter, tuman geyinmədən beli büzməli kətan şalvar geyinir və ayağına bir cüt Birkenstokz keçirərək televiziya şərhlərini oxumaq üçün qəzet köşkünə gedir. Satıcı məşhur müştərisinə belə məqamlar üçün ənənəvi təmtəraqla gülümsəyir və Dekster qoltuğu qəzetlə dolu, löhrəm yerişiylə evə qayıdır. O, indi özünü daha yaxşı hiss edir, həyəcanlı, amma, eyni zamanda, gümrahdı; espresso qəhvə maşını isinərkən telefon yenidən zəng çalır.

Hətta maşın işə düşməmişdən əvvəl hansısa bir hiss ona zəng edənin atası olduğunu deyir. Anasının ölümündən bəri zənglər çox tez-tez gələrək onun ücün işgəncəyə çevrilib: kəkələmələr, qırıq-qırıq, dolayı və dağınıq söhbətlər. Həmişə çox möhkəm olan atası indi ən sadə məsələ qarşısında məğlub olmuş kimi görünür. Ağır itki onu aciz vəziyyətə salıb və Dekster nadir ev ziyarətlərində atasını xarici texnikaya baxar kimi su qızdırıcısına baxarkən görür.

– Eləsə, danış görüm! – axmaq aparat deyir.

– Salam, Dekster, atandı. – Darıxdırıcı telefon səsiylə danışır. – Mən, sadəcə, bu axşamkı teleşouna uğurlar diləmək üçün zəng elədim. Mən də baxacam. Bu, çox həyəcanlıdır. Elison olsa, çox qürur duyardı. – Bunun həqiqət olmadığını hər ikisinin də hiss etdiyi bir anlıq pauza. – Elə bunu deyəcəkdim. Bir də... Qəzetlərə o qədər də fikir vermə. Əylənməyində ol. Hələlik.

Telegram: @cinciva

Nəyə fikir vermə? Dekster dəstəyi qapdı.

– ... Hələlik!

Atası dəstəyi qoydu. Partlayıcı maddələrin üstündəki saatı quraşdırıb dəstəyi qoydu; Dekster qorxu dolu gözlərlə qəzet yığınına baxır. O, kətan şalvarının ipini sıxır və qəzetin televiziya səhifəsini açır.

Emma vanna otağından çıxanda Yan telefonla danışırdı; əzilib-büzülən səsi, məsxərəli hərəkətlərindən Emma onun anasıyla danışdığını başa düşür. Oğlan dostu və Syu Milad bayramında Lidzdə tanış olduqlarından bəri qəribə münasibətdəydilər: "Nə gözəl çiçəklərdi, Xanım M", "Bu hinduşka nə qədər ləzzətlidi!" – Aralarında bir elektrik, ortaq bir sevgi var və Emmayla atasının edə bildikləri tək şey başlarını yelləyib gözlərini fırlatmaqdı.

Emma səbirlə Yanın qurtarmasını gözləyir. – Hələlik, Xanım M, mən də elə ümid edirəm. Bu, sadəcə, yay soyuqlamasıdı, sizə başa salaram. Hələlik, Xanım M. – Yan təzədən ölümcül xəstə kimi yatağa qayıdarkən Emma telefonu götürür.

Anası utanmış və çaş-baş halda dedi. – Necə sevimli oğlandı. Elə deyil?

– Elədi, ana.

– Ümid edirəm ki, onun qayğısına qalırsan.

– İşə getməliyəm, ana.

– İndi niyə zəng eləmişdim? Bax niyə zəng elədiyim tamamilə yadımdan çıxdı.

Yanla danışmaq üçün zəng eləmişdi. – Mənə uğur arzu etməkçün ola bilər?

– Nə üçün uğur?

– Məktəbdəki tamaşa üçün.

– Ah, hə, uğurlar. Bağışla, baxmağa gələ bilmirik. London elə bahalıqdı ki...

Telegram: @cinciva

Emma yalandan tosterdəki çörəklərin yandığını deyərək telefondakı söhbəti kəsir, sonra "tərləyərək yaxşılaşmaq" üçün yorğanın altına girən xəstəyə baxmağa gedir. Payına düşən isə qız dostu olaraq işinin müvəffəqiyyətsizliyə uğramasını anlamaq olur. Bu, onun üçün yeni roldu və bəzən özünü "qız dostu hərəkətləri" rolunu oynamağa məcbur edir; əlini tutmaq, televizorun qarşısında qucaqlaşıb oturmaq; bu cür şeylər. Yan onu sevir, çox tez-tez olmasa da, elə deyir; Emma da onu sevə biləcəyini fikirləşir, amma bir az vaxt lazım olacaq. Əlbəttə, cəhd etmək niyyətindədir və indi şüurlu şəkildə simpatiya nümayiş etdirərək çarpayıda uzanan Yanın yanına girir.

– Əgər bu axşamkı tamaşaya gələ bilməyəcəyini fikirləşirsənsə...

Yan həyəcanla oturur. – Yox! Yox, yox, yox, şübhəsiz ki, gələcəm...

– Gəlməsən, başa düşərəm...

– ... təcili yardımla gəlmək lazım olsa belə, gələrəm.

– Bu, sadəcə, səfehcə məktəb tamaşasıdı, darıxdırıcı bir şeydi.

– Emma! – Emma baxmaq üçün başını qaldırır. – Bu, sənin böyük gecəndi! Bunu dünyada qaçırmaram.

Emma gülümsəyir. – Yaxşı. Sevindim. – Əyilib vasvası kimi dodaqlarını ayırmadan onu öpür, sonra çantasını götürüb evdən çıxır: Böyük gün üçün hazırdı.

Yazının başlığı belədi:

TELEVİZİYANIN ƏN İKRAH DOĞURUCU KİŞİSİ BUDUR?

Dekster bir müddət səhv gördüyünü fikirləşir, yəqin, başlığın aşağısına təsadüfən onun şəklini çap ediblər, aşağısına da tək bir söz yazılıb: "Müştəbeh", elə bil Müştəbeh onun soyadıydı.

Telegram: @cinciva

Balaca espresso qəhvə fincanını barmaqlarının arasında sıxaraq oxumağa davam edir.

"Bu gecənin televiziyası

Bu gün televiziyada Dekster Meyhyudan daha özündənrazı, lovğa, çoxbilmiş bir adam var? Onun o qürurlu, "qəşəng oğlan" siması bizdə televizoru təpikləmə istəyi oyandırır. Məktəbdə bir sözümüz vardı: Budur, özünü böyük bir şey sayan adam. Qəribədir, Media dünyasında onu onun özünü sevdiyindən daha çox sevən bir adam olmalıdı ki, üç il boyunca "rahat ol!"u (bu kiçik hərflərə nifrət etmirsinizmi? Artıqlamasıyla, 1990-cı illər) təqdim etdikdən sonra indi də özü gecə şousu təqdim edir: "Gecə yarısı kilidlən".

Oxumağı dayandırmalıydı, elə qəzeti örtmək istəyirdi ki, gözü bir-iki sözə sataşdı: "Qabiliyyətsiz". Oxumağa davam etdi...

"Əgər siz, həqiqətən də, cavan oğlan olmağa çalışan özəl məktəb şagirdi bir yeniyetməni görmək istəyirsinizsə, bu proqram tam sizin üçündür. Üstəlik canlıdı; onun məşhur qabiliyyətsiz intervü texnikasını görmək ləzzətli ola bilər; alternativ olaraq üzünüzü "kətan" dərəcəsinə gətirilmiş buxarlandırıcı ütüylə dağlaya bilərsiniz. Aparıcı yardımçısı "şad-xürrəm" Syuki Medouz, musiqilər Şed Sevn, Ekobeli və Lemonhedzdəndi. Deməli deməyin".

Deksterin kəsib qarderobun aşağısındakı Patrik Koks ayaqqabı qutusunun içinə yığdığı qəzet parçaları var. Qeybətlər və bu qarışıq vəziyyətlə mübarizə aparmağa çalışarkən yenə də espresso qəhvəsi hazırlayır.

"Müvəffəqiyyətli insanları tənqid etmə meyli tipik ingilis sindromudu, – deyə fikirləşir. – Bir az uğurlu olduğunu görən ki-

Telegram: @cinciva

mi səni vurub yıxmağa çalışırlar; vecimə deyil, işimi sevirəm, işimi çox yaxşı bacarıram; üstəlik bir televiziya aparıcısı olmaq üçün lazım olan keyfiyyətlər adamların düşündüklərindən daha çoxdur: Saat kimi çalışan ağıl, sürətli fikirləşmək, bununla bərabər, tənqidləri şəxsinə qəbul etməmək. Əsl tənqid olunmalı adamlar səhər yuxudan oyanıb tənqidçi olmağa qərar verənlərdi; onlara şounun nə olduğunu göstərəcəyəm, göstərəcəyəm".

Bu monoloqun növləri Deksterin başından bütün gün boyu – istehsal ofisinə gedərkən yolda, İtlər Adasındakı studiyaya gedərkən sürücünün idarə etdiyi avtomobildə, günortadan sonrakı geyim məşqində, istehsalçılarla iclasda, makiyaj edilərkən və nəhayət, soyunma otağında tək qalana qədər keçir. Nəhayət, çantasını açа bilir; səhər qoyduğu butulkanı çıxarır, özünə böyük bir stəkan araq süzür, üstünə isti portağal şirəsi əlavə edir və içir.

– Vur, vur, vur, vur, vur...

Pərdənin açılmağına qırx beş dəqidə qalıb və bu monoton səs bütün ingilis bloku boyunca eşidilir.

– Vur, vur, vur...

Emma dəhlizdə həyəcanla qaçarkən Qreyncerin xanımın soyunma otağından yanğından qaçar kimi, tələsə-tələsə çıxmağını görür. – Onları dayandırmağa çalışdım, mənə qulaq asmırlar.

– Sağ olun, Qreyncer xanım, öhdəsindən gələ biləcəyimə əminəm.

– Mən cənab Qodalminqi çağırım?

– Əminəm ki, hər şey qaydasına düşəcək. Siz gedib qrupun məşqini davam elətdirin.

– Bunun bir səhv olduğunu demişdim. – Əlləri sinəsində həyəcanla uzaqlaşır. – Heç vaxt işə yaramayacağını demişdim.

Telegram: @cinciva

Emma dərindən nəfəs alır, içəri girir və Artful Dodqer dizləri Oliver Tvistin qollarının üstündə, onun üzünü tozlu döşəməyə basarkən, əynində hündür şapkalar və çənbərlə bərkidilən yubkalar olan otuz yeniyetmənin onların ətrafında düzülərək ritm tutmağa çalışdıqlarını görür.

– Burada NƏLƏR olur, millət?

Viktorian qrupu çevrilir. – Onu üstümdən götürün, xanım, – Oliver mırıldanır.

– Dava edirlər, xanım, – əlində qoyun ətindən bişirilmiş kotlet qızartmaları olan on iki yaşlı Samir Çodhari deyir.

– Bunu görə bilirəm, Samir, təşəkkür edirəm, – deyir və dava edənləri ayırmaq üçün izdihama qarışır. Dodqeri oynayan arıq qara qız Sonya Riçardzın barmaqları hələ də Oliverin alnına tökülmüş sarı kəkillərindədi; Emma qızın çiyinlərindən tutub gözlərinin içinə baxır. – Burax, Sonya. Burax, yaxşı? Yaxşı? – Nəhayət, Sonya qalxıb bir addım geri çəkilir, gözləri dolur, indi hirsin yerini yaralanmış qürur alır.

Martin Doson – yetim Oliver heyrətlənmiş görünür. 1.65 santimetr boylu, cantıraq bir uşaq cənab Bambldan belə daha böyükdür; yenə də bu iri ətli uşaq ağlamaq üzrədir. – O başladı! – basla alçaq zil arasındakı titrək səslə deyir; çirklənən üzünü əlinin qırağıyla təmizləməyə çalışır.

– Bu qədər bəsdi, Martin.

– Hə, kəs səsini, Doson...

– Ciddiyəm, Sonya! Bəsdi! – Emma dairənin mərkəzində durur və boks hakimi kimi rəqibləri qollarından tutur, tamaşanı qurtarmaq üçün canlandırma nitqi söyləməsi lazım olduğunu başa düşür.

– Özünüzə baxın! Kostyumlarınızda necə möhtəşəm göründüyünüzə baxın! Böyük qızartmalarıyla balaca Samirə baxın! –

Telegram: @cinciva

İzdiham gülür, Samir parikini qaşıyaraq onlara qatılır. – Bayırda möhtəşəm şouya, gerçək tamaşaya baxmağa gələn dostlarınız və ailələriniz var. Ya da, ən azından, mən elə fikirləşirdim. – Qollarını qoynuna qoyur və ah çəkir. – Çünki tamaşanı ləğv edəcəyik...

Əlbəttə ki, yalan danışır, ancaq təsiri mükəmməl olur; böyük bir etiraz uğultusu yüksəlir.

– Axı biz heç nə etməmişik, xanım! – deyə Feqn etiraz edir.

– Bəs "vur, vur, vur" deyib bağıran kim idi, Rodni?

– O, meymun kimi cırmaqlayırdı, xanım! – deyə Martin Doson Sonyanı göstərərək quş kimi ötür; Sonya yenə də onu tutmağa çalışır.

– Hə, bir az da istəyirsən?

Qəhqəhə qopur. Emma heç nəyə baxmadan yenidən danışmağa başlayır. – Bəsdi! Sizin bir komanda olmağınız lazımdı, şəbəkə yox! Bilirsiniz, bayırda bu işi edə bilməyəcəyinizi fikirləşən çoxlu adamlar olduğuna tam əminəm! Onlar bunu bacarmayacağınızı fikirləşirlər, sizinçün həddindən artıq mürəkkəb olduğunu fikirləşirlər. "*Çarlz Dikkensdi bu, Emma!* – deyirlər, – *onlar o qədər istedadlı deyil, birlikdə işləmək, kollektiv intizamları yoxdu, Oliveri bacarmazlar; onlara daha asan bir şey ver*".

– Bunu kim dedi, xanım? – Samir deyənin avtomobilini açarla cızmağa hazır tərzdə soruşur.

– Kimin dediyi vacib deyil, fikirləşdikləri budu. Bəlkə də elə haqlıdılar! Bəlkə də tamaşanı ləğv etməliyik! – Bir anlıq çox sərt olub-olmadığını fikirləşir; amma gəncliyi yüksək dram nümayişi üçün ruhlandırmaq çətin işdi, silindr şapkalı qrupdan etiraz səsləri yüksəlir. Emmanın zarafat etdiyini bilsələr də, tamaşanın ləğvi təhlükəsindən təsirlənirlər. Emma təsiri artırmaq üçün pauza verir. – İndi Sonya, Martin və mən bir az söhbət edəcəyik, sizin də hazırlıqları sona çatdırmağınızı istəyirəm, sonra sakitcə oturub

Telegram: @cinciva

etdiklərinizi fikirləşin; ondan sonra nə edəcəyimizə qərar verərik. Oldu? Oldumu, dedim?

– Bəli, xanım!

Dava edənlərin arxasıyca bayıra çıxarkən soyunma otağında sakitlik çökür, qapı bağlandığı anda yenə də gurultu qopur. Oliver və Dodqerlə birlikdə dəhlizdə irəliləyirlər; Qreyncer xanımın xoru möhtəşəm ahəngsizliklə idarə etdiyi idman zalına daxil olurlar. Xor "Özünü fikirləş"[1] mahnısını oxuyur və Emma bir daha özünü hansı cəncələ soxduğunu fikirləşir.

O, əvvəl Sonyayla danışır: – Belə. Nə baş verdi?

Axşam işığı 4D-nin möhkəmləndirilmiş böyük pəncərələrindən içəriyə düşür, Sonya gözünü fənn binasının pəncərəsindən bayıra dikib sıxıntılı tərzdə dayanır. – Sadəcə, bir az dilləşdik. – Bir partanın qırağında oturur, cır-cındır məktəb şalvarından uzun ayaqları çıxır. Bir qolunda çiçək peyvəndinin yeri var, balaca, gözəl üzü elə bil Emmanı "məqamı yaxala" axmaqlığı mövzusunda xəbərdar etmək istəyircəsinə gərgin yumruq kimi sıxılıb. Başqa uşaqlar Sonya Riçardzdan qorxurlar və hətta bəzən Emma da onun nahar pulu üçün qorxur. – Üzr istəmirəm, – Sonya qətiyyətlə deyir.

– Niyə yox? Bax xahiş edirəm, mənə "O başladı!" demə.

Onun üzü hiddətlə parıldayır: – Amma o başladı!

– Sonya!

– O dedi ki... – Sözünü yarıda kəsir.

– Nə dedi, Sonya?

Sonya təhqir dolu hekayələr quraşdırmağın ədalətsizlik olacağını fikirləşir. – Rolumu yaxşı oynadığımı, çünki, əslində, rol oynamadığımı, həqiqi həyatımda da kəndli olduğumu dedi.

---

[1] (Konsider Yourself) "Özünü fikirləş" – 1960-cı illərin orijinal "Oliver!" müzikli və eyni adlı filmdən bir mahnı.

Telegram: @cinciva

– Kəndli?

– Bəli.

– Martin belə dedi?

– Bəli, elə dedi, mən də onu vurdum.

– Lap yaxşı. – Emma ah çəkib yerə baxır. – Deyiləcək birinci söz heç kimin dediyi heç nəyin sənin insanları döyməyinə bəhanə ola bilməyəcəyidir.

Sonya Riçardz onun layihəsidir. O, layihələşdirməməli olduğunu bilir, amma Sonya, həqiqətən də, çox ağıllıdır; sinfin ən ağıllısı, bəzən aqressiv olsa da, hiddətin və yaralanmış qürurun incə fiqurudur.

– Amma o, balaca yaramazdı, xanım!

– Sonya, lütfən, belə etmə! – deyir, ancaq buna baxmayaraq, bir tərəfdən də Sonyanın Martin Doson haqqında düz qərar çıxardığını fikirləşir. Martin bütün uşaqlara, müəllimlərə elə bil onların arasında olmağı onlara bəxşiş edən bir missioner ədasıyla yaxınlaşır. Keçən gecəki geyim məşqində "Eşq haradadı?"[1] mahnısı çalınanda xor üzvləri böyrək daşı tökər kimi nıqqıldaya-nıqqıldaya oxuyarkən həqiqi göz yaşlarıyla ağlamışdı. Amma hətta bu halda da ona kəndli demək çox kobudluqdu.

– Əgər dediyi budursa..

– Budur, xanım...

– Onunla danışıb öyrənəcəyəm, ancaq, həqiqətən, bunu deyibsə, onun nə qədər cahil, sənin də problemi belə böyütməyindən anormal olduğun aşkara çıxacaq. – "Anormal" sözü üstündə tərəddüd edir, İlkli Murun sözüdü. Öz-özünə: *"Bir az daha küçə diliylə danış"*, – deyir. – Amma bu problemi həll etməsək... həqiqətən, tamaşanı oynamayacağıq.

---

[1] Where is love?

Telegram: @cinciva

Sonyanın üzü yenidən gərilir və Emma ağlaya biləcəyindən narahat olaraq diksinir.

– Bunu edə bilməzsiniz, – Sonya deyir.

– Etmək məcburiyyətində qala bilərəm.

– Xanım!

– Tamaşanı oynaya bilmərik, Sonya.

– Biz bacararıq!

– Necə? Martin "Kim satın alacaq?" deyərkən onu namərdcəsinə şillələyərək? – Sonya özünü saxlamayıb gülümsəyir. – Sən ağıllı qızsan, Sonya, çox, çox ağıllısan, amma adamlar bu tələləri sənin çün quraşdırırlar; onlardan keçməlisən. – Sonya ah çəkir, üzgözünü ciddiləşdirir və fənn binasının balaca dördbucağından görünən yaşıllığa göz gəzdirir. – Sən çox uğurlu ola bilərsən, sadəcə, tamaşada yox, elə sinifdə də. Bu müddətki işin, həqiqətən, ağılla, ətraflı düşünməklə və həssaslıqla görülməlidir. – Bu tərifərə inamsız yanaşan Sonya fısıldayaraq qaşqabağını tökür. – Gələn dəfə daha da yaxşı ola bilərsən, ancaq özünü ələ almalısan, Sonya. Adamlara bundan daha yaxşı ola biləcəyini göstərməlisən. – Bu da bir başqa nitqdi və Emma bəzən buna oxşar nitqlərə həddindən çox enerji sərf elədiyini fikirləşir. Nitqinin təsiredici olduğuna ümid edirdi, amma Sonyanın baxışları indi də Emmanın çiyinləri üzərindən sinif qapısına zillənir. – Sonya, mənə qulaq asmırsan?

– Saqqal buradadı.

Emma çevrilib arxaya baxır və qapının pəncərəsində tüklü bir sifət görür; hər şeylə maraqlanan ayı kimi baxan bir cüt göz. – Ona saqqal demə. O, məktəbin direktorudu, – Sonyaya deyir, sonra əliylə işarə edib direktoru içəri çağırır. Amma bu həqiqətdi ki, cənab Qodalminqi nə vaxt görsə, ağlına gələn ilk söz "saqqal" olur. Bütün üzünü tutan qorxuducu bir şeydi: nizamsız deyil, çox qısa və səliqəlidi, amma qapqaradı, ispan işğalçıları kimi; mavi

Telegram: @cinciva

gözləri xalçanın üstündəki deşiklər kimi boylanır. Yəni o bir Saqqaldı. O, içəri girəndə Sonya çənəsini qaşımağa başlayır, Emma gözlərini bərəldərək onu xəbərdar edir.

– Axşamınız xeyir, – dərsdən sonrakı sevincli səsiylə deyir. – İşlər necədi? Hər şey qaydasındadı, Sonya?

– Bir az problem var, cənab, – Sonya deyir. – Ancaq fikirləşirəm ki, həll edəcəyik.

Emma bərkdən burnunu çəkir, cənab Qodalminq ona tərəf çevrilir. – Hər şey qaydasındadı, Emma?

– Sonyayla mən tamaşa öncəsi ruh yüksəkliyi yaratmaq üçün bir az söhbət etdik. Gedib hazırlaşmaq istəyirsən, Sonya? – Sonya bir yüngüllük təbəssümüylə stoldan qalxıb yellənə-yellənə qapıya tərəf gedir. – Martinə de ki, iki dəqiqə sonra gəlirəm.

Emma və cənab Qodalminq tək qalırlar.

– Yaxşı! – Emma gülümsəyir.

– Lap yaxşı.

Cənab Qodalminq qeyri-rəsmiliyin rahatlığıyla stula elə oturur, elə bil at minir. – Çox dəli-dolu uşaqdı bu Sonya.

– Ah, sadəcə, özünü elə göstərir.

– Mən dava xəbərlərini eşitdim.

– Önəmli şey deyildi. Tamaşa öncəsi həyəcandı. – Stulda yapışıb qalmış vəziyyətdə, həqiqətən, inanılmaz dərəcədə narahat görünür.

– Sizin müdafiə etdiyiniz adamın gələcəyin qrup başçısı olacaq üşağı döydüyünü eşitdim.

– Gənclik əhvali-ruhiyyəsidi. Həmçinin Martin də aydan arı, sudan duru deyil.

– *"Namərdcəsinə şillələmək"* deyə bir ifadə eşitdim.

– Görünür, çox yaxşı kəşfiyyatınız yaxşı işləyir.

Telegram: @cinciva

– Təbii, mən məktəb direktoruyam. – Cənab Qodalminq "toxunma başlığı"nın arasından gülümsəyərkən Emma həddindən çox baxsa, tüklərin uzanıb-uzanmadığını görə bilərmi deyə fikirləşirdi. Bu şeyin altında nələr olur? Görəsən, cənab Qodalminq olduqca yaraşıqlı ola bilər? Cənab Qodalminq qapıya tərəf başını yırğalayır. – Mən dəhlizdə Martini gördüm. O çox... emosionaldı.

– Altı həftədi ki, o rolun içindədi. O, metodiki yanaşma dərsləri alır. Fikirləşirəm ki, əgər bacarsaydı, özünü təşkilat üzvü kimi göstərərdi.

– Yəni bu yaxşı deyil?

– Allahım, yox, dəhşətlidir. Ona ən uyğun yer uşaq evidi. Where is Love? mahnısı ərzində qulaqlarınıza proqramın parçalarını doldurmağınızı məsləhət görərəm. – cənab Qodalminq gülür. – Amma Sonya mükəmməldi. – Direktor inanmamış kimi görünür. – Görəcəksiniz.

Stulun üstündə sıxıntılı tərzdə tərpənir. – Bu gecə nəyə ümid edə bilərəm, Emma?

– Heç nə deyə bilmərəm. Hər şey ola bilər.

– Şəxsən mən daha çox *"Şirin Mərhəmət (Sweet Charity)"* adamıyam. Niyə *"Şirin Mərhəmət"*i səhnələşdirə bilmədiyimizi mənə başa sala bilərsən?

– Yəni o, fahişəlik haqqında muzikldi, ona görə...

Cənab Qodalminq bir daha gülür. Başqalarının da gözündən yayınmayan bu gülümsəmələr birinci dəfə deyil. Müəllimlər otağında şayiə yayılır, aşnabazlıq haqqında qara dedi-qodular dolaşır və açığı direktor bu axşam Emmaya çox diqqətlə baxır. Bir dəqiqəyə qədər keçir; Emma qapının pəncərəsindən ağlaya-ağlaya baxan Martin Dosona baxır. – Yaxşısı, özünü qatarın altına atmazdan əvvəl gedib bu Edit Piafla danışım.

Telegram: @cinciva

– Əlbəttə. Əlbəttə. – Cənab Qodalminq stuldan durduğuna məmnun görünür. – Bu axşam üçün uğurlar. Həyat yoldaşımla bütün həftə səbirsizliklə bunu gözləmişik.

– Buna ömründə inanmaram.

– Düz deyirəm! Onunla tanış olmalısan. Bəlkə Fionayla mən sənin... nişanlınla birlikdə bir içki içərik?

– Aman, Allahım, yox, sadəcə, oğlan dostum, Yan...

– Tamaşadan sonra mərasimdə...

– Bir iri stəkan meyvə şirəsi...

– Məhsullar nağd hesablaşma ilə satılır...

– Balaca kotletlər olduğu qulağıma çatdı...

– Müəllimlik, hə?

– Bir də müəllimlik valehedici deyil, deyirlər.

– Yeri gəlmişkən, çox gözəl görünürsən, Emma.

Emma qollarını yan tərəfə açıb paltarlarına nəzər salır. Azca bəzənibdi; tünd- çəhrayı, bəlkə yanlardan dar olan çiçəkli paltarının rənginə düşən azacıq dodaq boyası. Başını əyib təəccüblə donuna baxır. – Çox təşəkkür edirəm! – deyir, amma direktor tərəddüdünü görür.

Bir anlıq susurlar, cənab Qodalminq qapıya baxır. – Martini içəri göndərəcəm, olar?

– Zəhmət olmasa, göndərin.

O, qapıya tərəf gedir, sonra dayanıb çevrilir. – Üzr istəyirəm, mən peşəkarlıqla bağlı bir qaydanı pozmadım ki? Bunu işçilərimdən birinə deməyim yanlış çıxmır ki? Yəni onların nə qədər qəşəng göründüklərini...

– Əlbəttə, deyə bilərsiniz, – Emma deyir, amma ikisi də işlətdiyi sözün "qəşəng" olmadığını bilir. Söz "gözəl" idi.

– Bağışlayın, mən televiziyanın ən iyrənc kişisini axtarırdım... – Tobi Morey qapı arasından öz ciyiltili səsiylə deyir. Damalı par-

Telegram: @cinciva

ça kostyum geymiş, üzündə ekran makiyajı, saçları məzəli şəkildə kəsilib, saç kremiylə hamarlaşdırılıb; Dekster bir butulka atmaq istəyir.

– Ümid edirəm, axtardığın adamın mən yox, özün olduğunu başa düşəcəksən, – Dekster deyir.

– Xoş gəldin, super star, – köməkçi aparıcı deyir. – Anonsları gördün?

– Yox.

– Sənin çün yazının surətini çıxartdım.

– Sadəcə, pis resenziyadı, Tobi.

– Onda *"Mirror"*u oxumamısan, demək. Ya da *"Express"*i, *"The Times"*ı...

Dekster özünü işləri sahmana salırmış kimi göstərir. – Heç vaxt heç bir tənqidçinin heykəli qoyulmayıb.

– Düzdü, amma heç bir televiziya aparıcısının da.

– Əl çək, Tobi.

– Ah, le mot juste![1]

– Həm sən niyə buradasan?

– Sənə uğur arzulamaq üçün. – Əllərini Deksterin çiyinlərinə qoyub sıxır. Tobinin tamaşadakı rolu Deksterin təhqir etdiyi, şounu qızışdıran, Deksterə nəsə deyən və eyni zamanda, ona paxıllıq edən bir şəxsiyyətdi. Sınaqlarda və məşqlərdə Deksterin ətrafında fırlanıb onunla zarafat eləmiş, özünü danışmağı bacarmayan, hiyləgər, yaraşıqlı və öz ayaqları üzərində dayanmağı bacarmayan bir adam kimi tanıtdırmışdı. Dekster Tobinin əlini sıxır. Bü cür düşmənçiliklərin televiziya antaqonizmi olduğunu deyirlər, amma Dekster özünü paranoyak hiss edir. Əhvalının yaxşılaşması üçün bir az da arağa ehtiyacı var, amma Tobi bayquşa bənzər balaca üzüylə güzgünün içindən dişini ağardaraq baxarkən içə bilmir. – Etiraz etməzsənsə, bir az fikirlərimi cəmləmək istəyərdim.

---

[1] (Fransızca) Düz söz.

Telegram: @cinciva

– Başa düşdüm. Cəmlə o fikrini.

– Bayırda görüşərik, olar?

– Görüşərik, yaraşıqlı. Uğurlar. – Qapını dartıb bağlayır, sonra yenə açır. – Yox, doğrudan. Uğurlar.

Dekster tək olduğuna əmin olanda özünə içki tökür və güzgüdə özünə baxır. Qara jaketin altından parlaq qırmızı, qolsuz köynək, tökülmüş cins, sivriburun ayaqqabılar, saçları qısa; cavan paytaxt gəncinin şəkli kimi görünür, ancaq qəfildən özünü yaşlı, yorğun və həddindən artıq qəmgin hiss edir. Barmaqlarıyla gözlərini basır və iflic edici melanxoliyanın səbəbini tapmağa çalışır, lakin rasional fikirləşə bilmir. Elə bil kimsə başını götürüb silkələyib və qarmaqarışıq edib. Sözlər dilinə dolaşır və bunu həll etməyin heç bir məntiqli yolunu tapa bilmir. – *Dağılma,* – öz-özünə deyir, – *burada yox, indi yox. Özünə gəl.*

Canlı yayımda bir saat dözülməyəcək qədər uzun zaman və qərara gəlir ki, bir az köməyə ehtiyacı ola bilər. Tualet stolunun üstündə kiçik su butulkası var, onu tualet çanağına boşaldır, qapıya tərəf baxır, siyirtmədən araq butulkasını çıxardır, butulkaya yeddi, yox, on barmaq araq tökür və qapağını bağlayır. Butulkanı işığa tutur. Aradakı fərqi heç kim bilməz, əlbəttə ki, hamısını içən deyil, amma butulka əlində olsa, bu ona kömək edər. Bu hiylə onu həyəcanlandırır və özünü yenə də arxayın hiss etməyə başlayır; artıq auditoriyaya, Emmaya, atasına nəyə qadir olduğunu göstərməyə hazırdı. O, sadəcə, bir aparıcı deyil. O bir *diktordur.*

Qapı açılır. "HEY"! – köməkçi Syuki Medouz deyir. Syuki millətin sevimlisi, çox şən qadındır. Güman ki, Syuki başsağlığı məktubuna da "HEY"! – deyərək başlayar və Dekster Syuki bu qədər cazibədar, populyar və arxasıyca dəli kimi sürünməsə, bu diribaşlığı bir az yorucu hesab edə bilərdi.

– NECƏSƏN, HƏYATIM? GÜMAN EDİRƏM, DƏHŞƏTLİ VƏZİYYƏTDƏSƏN? – Bax bu da Syukinin TV aparıcılığında

Telegram: @cinciva

başqa bir böyük istedadı; hər söhbəti elə edir ki, elə bil Veston-super-Meyrdə dəniz sahilində Rəsmi İstirahət günü izdihamında çıxış edir.

– Bir az əsəbiyəm, hə.

– AAAAA! BURA GƏL! – O, qolunu Deksterin başına dolayaraq futbol topu kimi tutur. Syuki Medouz gözəl qadındı, təktük olanlardan və vannaya atılan ventilyatorlu qızdırıcı kimi qaynayır. Bu yaxınlarda aralarında mazaqlaşma olmuşdu. Baş rolda olan oğlan və əsas qız olaraq, iki ulduzun bir yerdə olması üçün ətrafdan təzyiq vardı və bu, emosional baxımdan olmasa da, peşəkarlıq baxımdan məntiqliydi. Syuki qoluyla başını sıxır – "ƏLA OLACAQSAN!" – sonra qəfildən qulaqlarını tutub üzünü özünə tərəf çevirir. – MƏNƏ QULAQ AS. SƏN ÇOX GÖZƏLSƏN, BUNU BİLİRSƏN VƏ İKİMİZ MÜKƏMMƏL KOMANDA OLACAĞIQ; SƏN VƏ MƏN. ANAM BU GECƏ BURADADI VƏ PROQRAMDAN SONRA SƏNİNLƏ GÖRÜŞMƏK İSTƏYİR. DEYƏSƏN, SƏNİNLƏ MƏNİM HAQQIMDA XƏYALLAR QURUR. MƏN SƏNİ XOŞLAYIRAM, O DA XOŞLAMAQ MƏCBURİYYƏTİNDƏDİ. SƏNİN AVTOQRAFINI İSTƏYİR, AMMA MƏNƏ ONUNLA GÖRÜŞMƏYƏCƏYINƏ DAİR SÖZ VER!

– Əlimdən gələni edəcəyəm, Syuki.

– AİLƏN BURADADI?

– Yox...

– DOSTLARIN?

– Yox...

– BU PALTAR HAQQINDA NƏ FİKİRLƏŞİRSƏN? – Əynində Klabə stili bir kofta və qısa bir yubka var, əlində məcburi olaraq bir butulka su tutub. – DÖŞÜMÜN GİLƏLƏRİNİ GÖRÜRSƏNMİ?

Telegram: @cinciva

Nədi, yoxsa mazaqlaşmaq istəyir? – Yalnız görmək üçün baxsan, – deyə Dekster mexaniki olaraq zarafatına qarşılıq verir, azca gülümsəyir və Syuki nə isə olduğunu hiss edir. Deksterin əllərini tutur və bərkdən çığırır. – SƏNƏ NƏ OLUB, ŞİRİNİM?

Dekster çiyin atır. – Tobi buradaydı, məni darıxdırdı... – Sözünü qurtara bilmədən Syuki onu dartıb ayağa qaldırır, qollarını belinə dolayır, əlləri şalvarının kəmər yeriylə oynayır. – ONU RƏDD ELƏ GETSİN, QISQANCLIĞINDAN EDİR, ÇÜNKİ SƏN ONDAN DAHA YAXŞISAN. – Deksterə baxır, çənəsi Deksterin sinəsinə dəyir. – SƏN TƏBİİSƏN, ELƏ OLDUĞUNU BİLİRSƏN.

Rejissor köməkçisi qapıdadır. – Növbə sizindi, uşaqlar.

– BİRLİKDƏ MÖHTƏŞƏMİK, ELƏ DEYİL, SƏN VƏ MƏN. SYUKİ VƏ DEKS, DEKS VƏ SYUKİ? BİZ ONLARI HEYRƏTLƏNDİRƏCƏYİK. – Qəfildən onu bir kağıza möhür vurumuş kimi bərkdən öpür. – ÇOXU SONRAYA QALSIN, QIZIL OĞLAN, – qulağına deyir, sonra su butulkasını götürür və studiyaya gedir.

Dekster bir anlıq güzgüdəki əksinə baxır. *Qızıl oğlan.* Ah çəkir, on barmağını da başına basaraq anasını fikirləşməyə çalışır. *Özünə gəl, axmaq bir səhv eləmə. Yaxşı ol. Yaxşı şeylər et.* Xüsusilə televiziya üçün saxladığı təbəssümünü üzünə taxır, içki qatılmış butulkasını götürür və studiya olan mərtəbəyə yönəlir.

Syuki nəhəng səhnənin qırağında onu gözləyir, əlini tutub sıxır. Komanda ortalıqda gəzişir, onların yanından gəlib keçərkən səmimi tərzdə çiyinlərinə vururlar. Lap yuxarıda bikinilərdə və kovboy çəkmələrində olan rəqqasələr gülməli qəfəslərindən qollarını uzadırlar. Tobi Morey ortalığı qızışdırır və böyük qəhqəhələr qopur; qəfildən onları təqdim edənə qədər; bu gecənin aparıcılarına sürəkli alqış, lütfən... Syuki Medouz və Dekster Meyhyu!

Telegram: @cinciva

O getmək istəmir. Səsgücləndiricilərdən gələn musiqi qulaq batırır: Prodicayın *"Start the Dance"*[1] parçası çalınır və Dekster orada qalmaq istəyir, ancaq Syuki qolunu dartışdırır və qəfildən "BƏƏƏƏƏLLLLLLLİİİİİİİİİİ!" deyə qışqıraraq parlaq studiya işıqlarına bağlanır.

Dekster cütlüyün gülərüz və nəzakətli yarısı olaraq onu izləyir. Səhnədə həmişə olduğu kimi çoxlu körpülər var, aşağıdakı tamaşaçıya görünənə qədər bir pillə enirlər; Syuki yol boyu boş-boğazlıq edir: – BİR ÖZÜNƏ BAX. SƏN ÇOX MÖHTƏŞƏMSƏN, BÖYÜK AN ÜÇÜN HAZIRSAN? BİR AZ SƏS ELƏ! – Dekster Syukinin yanındakı kranın üstündə dayanır, əlindəki mikrofonda səs yoxdu və o, sərxoş olduğunu anlayır. Milli televiziyadakı ilk böyük canlı yayımıdı və o, araqdan əməlli-başlı sərxoşdu. Kran inanılmaz dərəcədə yüksək görünür, məşqlərdəkindən daha çox yüksək, yatmaq istəyir, amma yatsa, bunu iki milyon adamın görmə ehtimalı var, beləliklə, rəftarını dəyişib danışmağa başlayır:

– Salam,millət,özünüzü yaxşı hiss edirsiz?

Tək bir kişi səsi krana qədər aydın çatır: ***"Müştəbeh!"***

Dekster sözünü kəsən adamı axtarır; qəribə saçlı, arıq, qımışan bir uşaq, amma böyük qəhqəhə qopur. Kameramanlar belə gülürlər. – Mənim menecerimdi, xanımlar və cənablar, – deyə cavab verir, əyləncəli silkələnmə olur, amma bu qədər. Onlar, yəqin ki, qəzetləri oxuyublar. Televiziyanın ən ikrah doğurucu kişisi budu? *Gözəl Allahım, bu doğrudu,* – deyə fikirləşir. *Onlar mənə nifrət edirlər.*

– Bir dəqiqə, – deyə rejissor köməkçisi qışqırır və Dekster qəfildən özünü eşafotda hiss edir. İzdihamın içində bir dost üzü

[1] "Rəqsi başlat".

Telegram: @cinciva

axtarır, amma heç kim yoxdu, bir daha Emmanın burada olmasını arzulayır. Emma üçün ədabazlıq edə bilərdi, anası, ya da Emma burada olsaydı, əlindən gələnin ən yaxşısını edərdi; onlarsa yoxdu, sadəcə, ona gözaltı baxıb ələ salan, özündən çox-çox cavan bu insan izdihamı var. O, necəsə əhvali-ruhiyyəsini qaldırmaq istəyir; sərxoşluğun sürətli işləyən məntiqiylə, bəlkə alkoqolun kömək edə biləcəyinə qərar verir; niyə də olmasın? Olan artıq olmuşdu.

Rəqqaslar qəfəslərində diqqətlə gözləyirlər, kameralar dayandıqları yerə tərəf gedir və Dekster içki qatılmış butulkasının qapağını açır, ağzına aparır, bir qurtum içir. Su. Su butulkasının içində su var. Kimsə arağını suyla dəyişdirib...

Butulka Syukidədi.

Yayıma otuz saniyə qaldı. O, səhv butulkanı götürüb. İndi onu əlində kiçik bir aksesuar kimi tutur.

Yayıma iyirmi saniyə qaldı. Qapağı açır.

– Bunu əlində tutacaqsan? – Dekster ciyildəyir.

– BELƏ RAHATDI, ELƏ DEYİL? – Syuki mükafat qazanmış adam kimi barmaqlarının ucunda qalxır.

– Səhvən sənin butulkanı götürmüşəm.

– YAXŞI? BUTULKANIN AĞZINI SİL!

Yayıma on saniyə qaldı, tamaşaçılar alqışlayıb bağırmağa başlayır, rəqqasələr qəfəslərinin dəmirlərinə yapışırlar, Syuki butulkanı ağzına apararkən fırlanmağa başlayırlar.

Yeddi, altı, beş...

Dekster əlini butulkaya atır, amma Syuki gülərək əlinə vurur.

– ÇƏKİL, DEKSTER, SƏNİN DƏ SUYUN VAR!

Dörd, üç, iki...

– Amma o, su deyil, – Dekster deyir.

Syuki bir qurtum alır.

Titrlər gedir.

Telegram: @cinciva

Syuki öskürməyə başlayır, sifəti qıpqırmızı, tüpürcəklər atır, gitaralar səsgücləndiriciləri dağıdırcasına çalınır, təbillər gurlayır, rəqqasələr oynamağa başlayır, kamera tamaşaçıları çəkərək yüksəkdən aparıcıların üzərinə tərəf yırtıcı quş kimi şığıyır; evdəki tamaşaçılara bir görüntü, yüzlərlə gənc adam səhnə körpüsündə dayanan və ögüyən cazibədar bir qadını izləyərək əylənirmiş kimi görünür.

Musiqi kəsilir, sadəcə, Syukinin öskürəkləri eşidilir. Dekster donub qalmış vəziyyətdə, quruyub, havada ölmüş və sərxoşcasına nəqliyyat vasitəsini vurmaq üzrədi. Təyyarə sürətlə enir, sürətlə yerə yaxınlaşır. Qulaqlığındakı səs ona: "Nə isə de, Dekster", – deyir, – hey, Dekster, nə isə de". – Amma beyni də, ağzı da işləmir; eləcə dayanır; tamamilə axmaqlaşmış vəziyyətdə. Saniyələr uzanır.

Allaha şükür ki, Syuki əsl professionalmış; əlinin arxasıyla ağzını silir. – BİZİM CANLI YAYIMDA OLDUĞUMUZUN MÜKƏMMƏL SÜBUTU! – Auditoriyadan yüngülləşmiş, həyəcanlı qəhqəhə yüksəlir. – HƏR ŞEY ÇOX YAXŞI OLACAQ, ELƏ DEYİL, DEKS? – Barmaqlarıyla Deksterin qabırğalarını sıxır və Dekster həyata qayıdır.

– Syukiyə görə üzr istəyirəm... – deyir. – Butulkada araq vardı! – Gizli-gizli içki içən adamı yamsılayan komik əl hərəkəti edir, yenə gülüş qopur və özünü daha yaxşı hiss edir. Syuki də gülür, onu azacıq itələyir və yumruğunu qaldırır, – Elə deyil... – deyir. Bu gülüşün arxasındakı alçaldılma parıltısını, sadəcə, Dekster görür. Telesuflyorun etibarlılığına arxalanır.

– *"Gecə yarısı kilidlən"*ə xoş gəlmisiniz, mən Dekster Meyhyu...

– ... VƏ MƏN SYUKİ MEDOUZ!

Və onlar yenidən normal axışa qayıdırlar; məktəbin ən özündənrazı iki uşağı kimi simpatik və cazibədar hərəkətlərlə möh-

Telegram: @cinciva

təşəm komediya və musiqilərlə dolu cümə günü əyləncəsini təqdim edirlər. – Gəl bu qarışıqlığı həddindən artıq uzatmadan bir az səs-küy yaradaq... – O, qolunu sirk müdiri kimi arxaya atır. –... Və Şedə[1] möhtəşəm bir *"Gecə yarısı kilidlən"* salamı verək! Seven!

Kamera onlardan uzaqlaşır, dəhlizdən musiqi qrupunun səsini ötən səslər eşidir.

– Hər şey yaxşıdı, Syuki? – prodüser deyir. Dekster yalvarırcasına Syukiyə baxır. Syuki də ona gözlərini qıyaraq baxır. Onlara: "Dekster içkili, sərxoş, həvəskar, etibar edilməyəcək adamdı", – deyə bilər.

– Hər şey yaxşıdı, – Syuki deyir.

– Kosmetikanı düzəltmək üçün yanına adam göndəririk. İki dəqiqə. Dekster, sən idarə edərsən, olar?

"Hə, idarə elə", – öz-özünə deyir, amma monitorlar ona hələ əlli altı dəqiqə və iyirmi iki saniyə vaxt qaldığını deyirlər; bunu bacaracağından, həqiqətən də, əmin deyil.

Alqışlar! İdman zalının divarlarına dəyib qayıdan, heç vaxt eşitmədiyi qədər alqış. Hə, xor sönük, solistlər güclüydü; kostyum çatışmazlığı, bir neçə dirəyin yıxılması kimi texniki problemlər də vardı və əlbəttə ki, daha alicənab tamaşaçı xəyal etmək çətindi; ancaq yenə də bu bir qələbədi. Nensinin ölümü kimya müəllimi cənab Rautlici belə ağlatmışdı və uşaqların kölgələriylə London damlarının üzərində reallaşdırılan təqib, adətən, sadəcə, atəşfəşanlıq nümayişində rastlaşdıqları nəfəskəsici növdən olan möhtəşəm bir tamaşaydı. Əvvəlcədən təxmin edildiyi kimi, tamaşada ulduza çevrilən Sonya Riçardz alqışların ən böyük qismini almaqla

[1] Shed Seven – ingilis rok qrupu.

Telegram: @cinciva

Martin Dosonun dişlərini qıcımasına səbəb olur. Coşqulu alqışlar aktyorları yenidən səhnəyə çağırır və indi tamaşaçılar skamyaların üstünə qalxıb, qalxma aparatına yapışırdılar. Sonya ağlaya-ağlaya Emmanı səhnəyə dartır, Allahım, həqiqətən, ağlayır, Emmanın əllərini sıxır: "*Möhtəşəm alındı, xanım, heyranedicidi, heyranedici*". Bir məktəb istehsalatı olaraq xəyal edilə biləcək ən kiçik qələbə olsa da, Emmanın ürəyi sinəsində dəli kimi çırpınır və xor "*Consider Yourself*" parçasını çalarkən qımışmağını dayandıra bilmir; on dörd yaşlı uşaqların əllərini tutur və dəfələrlə salam verir. Yaxşı bir iş etməyin fərəhini hiss edir və on həftədə ilk dəfə *Layonel Bartı*[1] təpikləmək istəmir.

Tamaşa sonrası kokteyldə xüsusi marka kola və şərab su kimi axır; həmçinin böyüklər arasında bölmək üçün beş butulka da köpüklü şərab var. Yan əlində bir kotlet boşqabı, yanında özüylə gətirdiyi soyuqdəyməyə qarşı bir qutu dərmanla (Beecham tozu) idman zalının bir küncündə oturur, qoltuqlarını ovxalayır, gülümsəyir və səbirlə Emmanın tərifləri qəbul etməsini gözləyir. – Uest End üçün kifayət qədər yaxşıdı! – kimsə deyir; real olmayan bir şeydi. Emma tamaşada Fagin rolunu oynayan Rodni Çansın Panda Poplara qarışdırılmış içkiylə sərxoş olub "Bir müəllim üçün həddindən artıq qəşəng formadasınız" deməsinə belə etiraz etmir. Cənab Qodalminq ("Lütfən, mənə Fil de") təbrik edərkən, qırmızı yanaqlarıyla fermer arvadına oxşayan Fiona darıxan və narahat görünür. – Sentyabrda sənin gələcəyin haqqında danışmalıyıq, – Fil deyir; sağollaşmaq üçün əyilib öpür və bu bəzi uşaqların, bəzi işçilərin " Oooo!" səsi çıxarmalarına səbəb olur.

Əksər şou-biznes mərasimlərindən fərqli olaraq, hər şey doqquz qırx beşdə qurtarır və uzun bir limuzin yerinə Emma və Yan evə getmək üçün əvvəlcə 55 və 19 nömrəli avtobuslara, sonra

[1] "Oliver!" müziklının bəstəkarı olan ingilis yazar və bəstəkar.

Telegram: @cinciva

Pikadilliyə gedən metroya minirlər. – Səninlə fəxr edirəm, – Yan başını Emmanın başına dayayaraq deyir. – ... Amma fikirləşirəm ki, xəstəlik mənim ağ ciyərlərimə yerləşib.

Emma mənzilə girən kimi çiçək qoxusunu duyur. Mətbəx stolunun üstündə qulplu qazanın içində qırmızı qızılgüllərdən böyük buket var.

– Ah, Allahım, Yan, bunlar gözəldi.

– Məndən deyil, – deyə mızıldanır.

– Ah. Kimdəndi bəs?

– Qızıl oğlandandı, deyəsən. Bu səhər gətirdilər. Əgər məndən soruşsan, çox şişirdilmiş şeydi. İsti duş qəbul edəcəm. Çıxa bilsəm, görüşərik.

Emma pencəyini çıxarır və kiçik kartı açır. – Küsdüyümçün üzr istəyirəm. Ümid edirəm, bu axşam hər şey yaxşı olar. Sevgilərlə, Dekster. – Bu qədər. Kartı iki dəfə oxuyur, saatına baxır və Deksterin böyük işinə baxmaq üçün cəld televizoru açır.

Qırx beş dəqiqə sonra proqramın bitmə yazıları gedərkən qaşqabağını töküb oturur və baxdıqlarına bir məna verməyə çalışır. Televiziya haqqında çox şey bilməsə də, Deksterin heç də işıq saçmadığından dəqiq əmindi. Olduqca axmaq, bəzən lap əməlli-başlı qorxmuş görünürdü. Sözlərini qarışdırdı, səhv kameraya baxdı, naşı kimi görünürdü və elə bil müsahibə götürdüyü adamlar onun bu narahatlığını hiss edib onunla alçaldıcı və istehzalı tərzdə danışmışdılar. Studiya tamaşaçıları da qaraqabaq yeniyetmələr kimi qollarını qoyunlarına qoyub qəzəblə baxırdılar. Onu tanıdığından bəri ilk dəfə bir şey üçün səy göstərdiyini görürdü. Yoxsa sərxoş idi? Emma media haqqında çox şey bilmir, amma avtomobil qəzasını tanıya bilər. Axırıncı titrlər gedəndə Emma əliylə üzünü tutur, o, televiziya haqqında bunun ideal olmadığını biləcək qədər çox şey bilir. Orada bu günlər haqqında çoxlu istehza var, lakin, əlbəttə ki, bu, narazılıq deyil, yaxşı küyə basmaqdı.

Telegram: @cinciva

Televizoru söndürür. Vanna otağından Yanın fınxırdığını eşidir. Qapını örtür, üzünə bir təbrik təbəssümü yerləşdirərək telefonu götürür və Belsayz Parkdakı boş mənzildə telesekretar cavab verir. – Eləsə, danış görüm! – Dekster deyir və Emma rolunu oynamağa başlayır. – Hey, sən! Afərin! İndi mərasimdə olduğunu bilirəm, sadəcə, bunu demək istədim: Hər şeydən əvvəl çiçəklər üçün təşəkkür edirəm. Çox gözəldi, Deks, göndərməyin vacib deyildi. Amma əsas məsələ: Hə! Etdin! Sən! Fantastikdin, sadəcə, bir az daha rahat və məzəli, möhtəşəm olduğunu fikirləşirəm, həqiqətən, həqiqətən, fantastik şou idi, həqiqətən. – Tərəddüd edir: *"Həqiqətən" demə. Belə tez-tez "həqiqətən" deyəndə həqiqət deyilmiş kimi səslənir.* Davam edir. – Mən hələ də kostyumun altından tişört geyinməyin və qəfəsdə rəqs edən qadınlar görməyin həmişə canlandırıcı olacağı mövzusunda o qədər də əmin deyiləm, ancaq Dekster, bundan başqa hər şey, sadəcə, əla idi. Həqiqətən. Mən, həqiqətən, sənin lə fəxr edirəm, Deks. Əgər maraqlanırsansa, *"Oliver!"*də yaxşıydı.

Artıq performansının inandırıcılığını itirməyə başladığını hiss edir və sözünü bitirmək qərarına gəlir.

– Bax belə. İkimizin də qeyd etməyə nəyisə var! Qızılgüllər üçün bir daha sağ ol. Gecən xeyrə qalsın. Sabah danışarıq. Sənin lə çərşənbə axşamı görüşəcəyik, düzdü? Möhtəşəmdin. Ciddi deyirəm, vallah. Yaxşı iş gördün. Hələlik.

Proqramdan sonrakı ziyafətdə Dekster tək, qolları qoynunda, çiyinləri bükük halda barda dayanır. Adamlar təbrik etməyə gəlir, amma heç biri uzun müddət yubanmır, çiyninə vurulan əllər elə bil təsəlli toxunuşu, ya da ən yaxşı halda "afərin, yaxşı penaltini qaçırdın" kimi gəlir. O, fasiləsiz içməyə davam edir, ancaq şampan şərabı ağzında pis dad verir və heç nə ruh düşkünlüyünü, fiasko və xəcalət hissini aradan qaldıracaq kimi görünmür.

Telegram: @cinciva

– Ey, – Syuki Medouz fikirli tərzdə deyir. O, şübhəsiz, köməkçi aktyorluqdan indi ulduz aktyora çevrilib; Deksterin yanında oturur. – Bir özünə bax, nə qədər şıltaq və bədbinsən.

– Ay, Syuki.

– Hə! Məncə, çox yaxşıydı!

Dekster razılaşmır, amma yenə də qədəhləri toqquşdururlar. – Bu... içki məsələsinə görə üzr istəyirəm. Sənə bir üzr borcluyam.

– Hə, borclusan.

– Sadəcə, bir az rahatlamaq üçün götürmüşdüm, bilirsən.

– Nə isə, bu barədə danışmalıyıq. Bir başqa vaxt.

– Yaxşı.

– Çünki mən səninlə bir də belə iş görməyəcəyəm, Deks.

– Bilirəm. Hər şeyi düzəldəcəyəm.

Çiyinləriylə Deksterə söykənir, çənəsini onun çiyninə qoyur. – Gələn həftə.

– Gələn həftə?

– Məni axşam yeməyinə apar. Bahalı bir yerə. Gələn çərşənbə axşamı.

İndi alnı Deksterə dəyir, əli ombasında. Çərşənbə axşamı Emmayla axşam yeməyinə gedəcəkdi, amma bunu ləğv edə biləcəyini bilir; Emma etiraz etməyəcək. – Yaxşı, gələn ikinci gün.

– Səbrim çatmır. – Syuki onun ombasını çimdikləyir. – Hə. İndi eynin açılacaq?

– Cəhd edəcəyəm.

Syuki Medouz əyilib yanağından öpür, sonra ağzını qulağına yaxınlaşdırır:

– İNDİ GƏL, ANAMLA SALAMLAŞ!

Telegram: @cinciva

IX Fəsil

Nikotin və alkoqol

15 iyul. 1995-ci il. Şənbə

Voltemstou və Soho

Al-qırmızı portret
Roman
Emma İ. Uayld

I Fəsil

Baş müfəttiş Peni Samsinq vaxtında bir neçə qətl səhnəsi görmüşdü, amma bunun kimisiylə heç vaxt qarşılaşmamışdı. "Cəsədi tərpədən olmayıb ki?" – deyərək qışqırdı.

Sözlər kompyuter ekranında ürəkbulandırıcı yaşılda şölələndi: Bütün səhər işinin nəticəsidi. Kiçik yeni mənzilinin kiçik arxa otağında, kiçik bir məktəb stolunda oturub sətirləri oxudu, sonra yenidən oxudu.

Emma həftə sonlarında, ya da güc tapsa, axşamlar yazırdı. Biri iş düşərgəsində, o biri post-apokalipsis gələcəkdə iki romana; öz illüstrasiyalarının da daxil olduğu qısa boyunlu zürafə haqqında şəkilli uşaq kitabına; sosial xidmət işçiləriylə bağlı "Dələduz al-

Telegram: @cinciva

çaq" adlı acıqlı bir televiziya dramına; iyirmi yaşındakı gənclərin mürəkkəb emosional həyatlarıyla bağlı bir tamaşaya; şeytani robot müəllimlərlə bağlı fantastik bir yeniyetmə romanına və bir də sonetə başlamışdı. Heç biri tamamlanmamışdı; sonetin on dörd sətri belə.

Ekrandakı sözlər axırıncı layihəsi olan, ehtiyatlı şəkildə feminist kriminal romanlar ardıcıllığı yazmaq cəhdinin sətirləriydi. On bir yaşındaykən Aqata Kristinin bütün romanlarını, daha sonralar çoxlu Çandler və Ceyms M. Kein romanları oxumuşdu. Nədən eyni vaxtda birinci, ikinci və üçüncü yazarın əsərlərinə oxşayan bir əsər yazmayaydı ki? Amma bir daha kəşf etmişdi ki, yazmaqla oxumaq eyni şey deyil; oxuduqlarını canına hopdurub, sonra sıxıb yenidən çıxara bilməzdin. Tutarlı mövzunu bir tərəfə qoyaq, detektivinə ad belə tapa bilmədiyinin fərqindəydi; üstəlik təxəllüsü belə zəifdi: Emma T. Uayld? Həyatlarını nəsə etmək üçün *çalışaraq* xərcləyən adamların taleyinə sahib olub-olmadığını fikirləşdi. Bir musiqi qrupuna girməyə, pyeslər və uşaq kitabları yazmağa, aktrisa olmağa və nəşriyyat işinə girməyə çalışmışdı. Güman ki, kriminal yazarlığı da trapesiya, Buddizm və ispan diliylə yanaşı, uğursuzluğa məhkum yeni bir iş olacaqdı. Kompyuterin sözləri sayma xüsusiyyətindən istifadə etdi. Titul vərəqi və çürük təxəllüsü də daxil olmaqla otuz beş söz. Emma inildədi, ofis stolunun hidravlik lingini endirərək xalçaya daha da yaxınlaşdırdı.

Faner qapı döyüldü.

– Ən Frank cəbhəsində işlər necədi?

Yenə bu cümlə. Yan üçün bir zarafat bir dəfə ediləcək şey deyildi; ucuz çətir kimi dağılana qədər dəfələrcə, dəfələrcə təkrarlanmalıydı. Görüşməyə başladıqlarından bəri Yanın söhbətlərinin, təxminən, doxsan faizi "yumor" başlığı altında məzəli səslə, komik olmaq niyyətiylə işlətdiyi sözlərdən ibarətdi. Emma vaxt keç-

Telegram: @cinciva

dikcə bunun qırx faizə düşəcəyinə ümid etmişdi; qırx dözülə biləcək dərəcəydi, amma, təxminən, iki ildi, əqrəb yetmiş beşdə dayanmışdı və ev həyatı bu qulaqbatıran şadlığa rəğmən davam edirdi. Bir adamın iki il boyunca arasıkəsilmədən "diribaş" olmağı mümkündümü? Yanın qara yataq örtüklərini, parç altlıqlarını atıb, alt paltarlarını gizlicə kəsmişdi; yenə də "bir kişi necə dəyişdirilir" mövzusunda edə biləcəklərinin axırına çatmışdı.

– Xanım üçün qəşəng bir fincan çay? – Şərqi London ləhcəsilə dedi.

– Yox, sevgilim, sağ ol.

– Yumurtalı çörək? – İndi də Şotland ləhcəsiylə. – İstəyirsənsə, yumurtalı çörək bişirim? Yumurtalı çörək dilimləri. Qarnını bu axşama qədər tox saxlarmı?

Bu axşam. Bax belə. Yan, adətən, ağlından keçənləri normal danışığıyla deyə bilmədiyi vaxtlarda dialektlərdən istifadə edirdi.

– Bu gecə Böyük Gecədi. Mayk TV ilə şəhərdəyik.

Emma özünü eyhamı başa düşməmiş kimi göstərməyə çalışdı, amma Yan işi yüngülləşdirmirdi. Çənəsini Emmanın başına dayayaraq, ekrandakı sözləri oxumağa başladı.

– *Al-qırmızı portret...*

Emma əliylə ekranı tutdu: – Çiynimin üstündən oxuma, zəhmət olmasa.

– Emma İ. Uayld. Emma İ. Uayld kimdi?

– Mənim təxəllüsümdü. Yan...

– "İ" nəyin qısaltmasıdı?

– İçiboş yazıçı.

– İnanılmaz. İstedadlı.

- İncimiş; heç bir şey üçün halı qalmamış mənasında...

– Oxumağıma icazə versəydin...

– Niyə oxumaq istəyirsən ki? Zir-zibildi.

Telegram: @cinciva

– Sənin etdiyin heç nə zir-zibil deyil.

– Bu elə zir-zibildi. – Başını yana çevirərək monitorun düyməsini basıb söndürdü və çevrilib baxmadan da Yanın incik ifadəylə baxdığını bilirdi. Belə şeylər Yanla axır vaxtlar həddindən artıq tez-tez baş verirdi, Emma acıqlanmanın və peşmançılığın arasında vurnuxurdu. Əlini barmaqlarıyla tutub yelləyərək: – Bağışla, – dedi.

Yanın başının ortasından öpdü. Saçlarının arasından: – Bilirsən, İ-nin nə mənaya gəldiyini fikirləşirəm? – dedi. – Emma İriyanbız Uayld.

Bunu deyib otaqdan çıxdı, klassik üsuldu; kompliment de və qaç. Amma Emma buna təslim olmadı; qapını bağladı, monitoru yenidən açdı, sözləri təkrar oxudu, bədəni titrədi. Faylı bağladı və zibil qutusunun içinə sürüdü. Elektron tullama səsi çıxdı; yazının səsi.

Yanğın həyəcan siqnalının işə düşməsi Yanın yemək bişirdiyini göstərirdi. Emma ayağa qalxdı, yanmış yağ qoxusunu izləyərək mətbəxə getdi; mətbəx ayrı otaq şəklində deyil, sadəcə, birlikdə aldıqları mənzilin qonaq otağının dörddə birini əhatə edən bir sahədir. Emma alıb-almamağa əmin deyildi, o qədər də təhlükəsiz yerə oxşatmamışdı, amma Yan onu razı salmışdı. Kirayə ödəmək dəlilikdi, gecələr bir-birini daha çox görə biləcəklərdi, Emmanın məktəbinə yaxındı, bir addımlıq yoldu və s. Beləliklə, birlikdə behi toplamışdılar, daxili dekorasiya ilə bağlı, fanerin italyan mərməri görüntüsü verməyi üçün necə rənglənəcəyini başa salan bir kitab da daxil olmaqla bəzi kitablar almışdılar. Ocağı yenidən daxil etmək, kitab rəfləri, dolablar və yığma həlləri mövzusunda ruhlandırıcı söhbətlər edilmişdi. Döşəmə taxtalarını parıldatmaq! Yan bir sumbata maşını kirayələyib döşəməni tələb olunduğu kimi parıldatmalıydı. Yağmurlu bir şənbə günü fevralda xalçanı qaldırdılar, altındakı çürüməkdə olan taxta yonqar plitəyə məyusluqla

Telegram: @cinciva

baxdılar, sonra elə bil bir meyiti gizlədirlər kimi hər şeyi yerinə qoyub möhkəm mismarladılar. Ev təsərrüfatının idarə olunmasında dəyişkən və inandırıcı olmayan nə isə vardı; təzə rənglənmiş divarlara, təzə mebellərə baxmayaraq, ev köhnəlmiş və müvəqqəti sığınacaq ruhunu saxlayırdı.

İndi Yan Emmaya sarı çevrilib enli kürəyinə düşən tüstülü günəş işığında kiçik mətbəxdə dayanmışdı. Emma qapı girişində ona baxdı; əyninə deşiklər olan tanış köhnə, boz, qolsuz köynəyini geyinmişdi, məşq geyiminin iki santim üstündən alt paltarı görünürdü. Onun kürəyinin dar hissəsindəki şabalıdı rəngli tüklərin üstündən Kelvin Kleyn yazısı oxunurdu və Emma o an beynindəki Kelvin Kleynin yüz faiz bu adam olmadığına əmin idi.

Sakitliyi pozmaq üçün dilləndi: – Səncə, bir balaca yandırmayıbsan ki?

– Yanıq deyil, xırtıldayır.

– Mən yanıq deyirəm, sən xırtıldayan.

– *Yaxşı, daha danışmayaq!*

Sakitlik.

– Trusun görünür, – Emma dedi.

– Hə, qəsdən elə etmişəm. – Arvadsayağı səslə fısıltıyla danışdı. – Buna dəb deyirlər, sevgilim.

– Yaxşı, əlbəttə, çox cəzbedicidi.

Sakitlik... Sadəcə, yanan yeməyin səsi.

Təslim olma növbəsi bu dəfə Yandaydı: – Yaramaz oğlan səni hara aparacaq? – arxaya çevrilmədən dedi.

– Bilmirəm, Sohoda harasa aparacaq. – Əslində, bilirdi, son dəbli sözlərdən ibarət adı olan, böyük paytaxta uyğun bir restorandı və Emma işləri daha da çətinləşdirmək istəmirdi. – Yan, əgər bu gecə getməyimi istəmirsənsə...

– Yox, get, keyfinə bax.

– Bəlkə bizimlə gedəsən?

Telegram: @cinciva

– Nə, Hari ilə Sali, bir də mən? Yaxşı görək də, Emma!

– Yaxşı olardı.

– İkiniz də bütün gecə məndən danışıb, mənə sataşardınız.

– Etmərik.

– Keçən dəfə etdiniz!

– Yox, etmədik!

– Yumurtalı çörək istəmədiyinə əminsən?

– Yox!

– Nə isə, onsuz, bu axşam mənim də səhnəciyim var, elə deyil? Patnidə, Gülüş Evində.

– *Pullu* səhnəcikdi?

– Hə, *pullu* səhnəcikdi! – deyə başından elədi. – Mənə belə də yaxşıdı, çox təşəkkür edirəm.

Bufetdə bir az qəhvəyi sousu səs-küylə axtarmağa başladı. – Mənə görə narahat olma.

Emma hirsli şəkildə ah çəkdi. – Getməyimi istəmirsənsə, açıq de.

– Em, ayaqlarımız bir-birinə bağlanmayıb ki. Getmək istəyərsənsə, gedərsən. Ürəyin necə istəyir. Sadəcə, onunla sevgili olma, olar?

– Bu, çətin ki ola, inanırsan?

– Yox, elə həmişə belə deyirsən.

– O, Syuki Medouzla sevgilidi.

– Bəs sevgili olmasaydı?

– Olmasaydı belə, azca da olsun dəyişiklik olmazdı, çünki mən səni sevirəm.

Yox, bu, kifayət deyildi. Yan heç nə demədi, Emma ah çəkərək mətbəxə keçdi, qollarını Yanın belinə doladı, özünə tərəf çəkdi, onu hiss etməkçün bərk-bərk qucaqladı. Üzünü kürəyinə basaraq tanış isti bədən qoxusunu hiss etdi, qısaqolunun parçasını öpdü, – Dəli olma, – deyə mızıldandı; Yan yeməyə başlamağa can

Telegram: @cinciva

atana qədər bir müddət elə dayandılar. Emma: – Yaxşı, mən gedim yoxlama işlərini oxuyum, – deyib mətbəxdən çıxdı. *"Bülbülü öldürmək"* haqqında iyirmi səkkiz yanaşma.

– Em? – Emma qapıya çatanda Yan dedi. – Axşamüstü nə edəcəksən? Təxminən, saat 17:00-da.

– O vaxta işim qurtarmalıdı. Neynirdin?

Yan boşqab qucağında mətbəx dolabının üstündə oturdu. – Bəlkə yata bilərdik deyə fikirləşmişdim, başa düşürsən də, günorta ləzzəti.

Onu sevirəm, – fikirləşdi, – sadəcə, ona aşiq deyiləm, bir yandan da sevmirəm. Çalışdım, onu sevmək üçün səy göstərdim, amma bacarmadım. Mən sevmədiyim bir kişiylə həyat qururam və bunun hayana gedib çıxacağını bilmirəm.

– Ola bilər, – qapıdan dedi. – Ola bilər. – Və dodaqlarını büzərək bir öpüş yolladı, gülümsədi və qapını bağladı.

Daha heç bir sabah yoxdu, sadəcə, dünənki günün səhəri vardı.

Dekster bayırda çığıran bir kişinin səsinə ürəyi çırpınaraq tər içində oyananda günortadan keçmişdi; çığıranın da *M People* olduğu üzə çıxmışdı. Yenə televizorun qarşısında yuxuya getmişdi və indi içindəki qəhrəmanı axtarmaq arzusuyla dolu idi.

*"Gecə yarısı kilidlən"*dən sonrakı şənbə günləri həmişə bu vəziyyətdə: boğanaq havada, gün gözünə düşməsin deyə pərdələri çəkilmiş halda keçirdi. Anası hələ də burada olsaydı, oyanması və nə isə etməsi üçün aşağıdan qışqıracaqdı; amma indi qara dəri divanda, dünən axşamkı alt paltarlarıyla oturub, siqaret çəkərək PleySteyşnda *"Son məhv"* oyununu oynayır, başını hərəkət etdirməməyə çalışırdı.

Axşamüstü melanxoliyanın yaxınlaşdığını hiss eləyəndə musiqiylə məşğul olmaq qərarına gəldi. Həvəskar bir DJ olaraq bir di-

Telegram: @cinciva

var dolusu CD-ləri və xüsusi sifarişlə hazırlanmış, şam ağacından olan rəfin içində nadir tapılan valları, iki dönən stolu və mikrofonu vardı; başında ikiyə bölünmüş hindqozuna oxşayan nəhəng qulaqcıqlarla tez-tez Sohodakı səsyazma mağazalarında görünürdü. Hələ də alt paltarlarıyla gəzişərək, dostlarıyla bir yerdə keçirəcəyi gələn dəfəki böyük ev ziyafəti üçün bir neçə yeni CD miks hazırlamaq üçün işə başladı. Ancaq nə isə çatışmırdı elə bil, ona görə də bir az sonra bu işdən də imtina etdi. – CD val kimi deyil, – dedi, sonra bunu tamamilə boş otağa dediyini anladı.

Yenidən melanxoliya; ah çəkdi, əməliyyatdan təzə çıxan adam kimi yavaş-yavaş hərəkət edərək mətbəxə getdi. Böyük soyuducu yeni marka bahalı alma şərabı şüşələrilə doluydu. Bir tərəfdən şousunu nümayiş etdirdi (buna "avtomobil qəzası televiziyası" deyirdilər), bu yaxınlarda isə reklam işinə başlamışdı. Onun "sinifsiz" olduğunu deyirdilər, bu, açıq-aydın yaxşı seydi – yeni nəsil ingilis kişisinin nümunəsi: böyük metropollu, pullu, kişiliyindən və cinsi münasibətlərindən, avtomobillərə olan sevgisindən, böyük titan saatları və parlaq poladdan hazırlanma qurğularından utanmayan. Neçə vaxtdır, Ted Beyker geyimli gənc kütlənin diqqətini cəlb etməyi qarşısına məqsəd qoyan alma şərabının və son nəsil bir təraş ülgücünün reklam səsləndirməsini hazırlayırdı.

Hətta ambisiyaları üzündən heç vaxt deməyə cəsarət etmədiyi modellik dünyasına da burnunu soxmuşdu, amma tez də çıxmaq məcburiyyətində qalmışdı. Yalnız bu ay moda məzmunlu bir kişi jurnalında "qanqster zərifliyi" mövzusunda doqquz səhifədən çox yerdə görünürdü. Jurnalın surətləri "təsadüfən" yerə dağılmışdı; beləcə, qonaqlar hər yerdə onlara təsadüfən rast gələ bilərdilər. Hətta tualetdə belə bir surəti vardı və bəzən bir də gözünü açırdı ki, tualetdə oturub öz şəkillərinə diqqətlə baxır.

"Avtomobil qəzası televiziyası"nda aparıcılıq etmək bir müddət ərzində gözəl ola bilərdi, ancaq avtomobili, sadəcə, bir neçə

Telegram: @cinciva

dəfə vura bilərdin. Gələcəkdə bir nöqtədə "nə qədər pisdirsə, o qədər yaxşıdı" məntiqinə əks olan yaxşı şeylər etməsi lazımdı və bir az etibar qazanmaq niyyətiylə öz istehsalat şirkəti "Meyhem TV Ltd"ni qurmuşdu. "Meyhem" indilər yalnız çoxlu çap kağızları üzərində loqotip kimi mövcud idi, amma bu, mütləq dəyişəcəkdi. Dəyişməliydi; meneceri Aronun dediyi kimi: – Sən mükəmməl gənclik təmsilçisisən, Deksi. Problem ondadı ki, sən gənc deyilsən. – Əlindən başqa nə gələ bilərdi? Aktyorluq? Həm peşəsinə görə, həm də öz dost çevrəsindən çoxlu aktyor tanıyırdı, bir neçəsiylə poker də oynamışdı, səmimi desək, əgər *əlindən* gəlsəydi...

Bəli, son bir neçə il peşə və sosial baxımdan önəmli imkanlar qazanmışdı, mükəmməl yeni dostlar, premyeralar, helikopter səfərləri və futbol haqqında çoxlu çərənləmələr. Əlbəttə ki, pis tərəfləri də vardı: narahatlıq duyğusu və iflic edən qorxu hissi, hamının yanında bir neçə dəfə qusma hadisəsi. Bir klubda, ya da barda varlığı başqa kişilərdə onun üstünə qışqırma, təhqir etmə, hətta döymə istəyi oyandırdı və bir müddət əvvəl Kula Şeyker konsertində aparıcılıq edərkən səhnədə üstünə butulka atılmışdı ki, bu da çox əyləncəli şey deyildi. Bu yaxınlarda "Nələr seksi, nələr deyil" sütununda "seksi deyil" olaraq göstərilmişdi. Bu seksi olmamaq fikri ona çox pis təsir etmişdi, amma bunu, bir növ, paxıllıq kimi qiymətləndirməyə çalışırdı. Paxıllıq, sadəcə, əldə etdiyin uğur qarşılığında ödədiyin vergiydi.

Öz adı uğrunda başqa qurbanlar da vermişdi. Təəssüf ki, bəzi universitet dostlarından da uzaqlaşmaq məcburiyyətində qalmışdı; çünki nə də olsa, daha 1988-ci il deyildi. Bir yerdə işə başlamağı fikirləşdikləri köhnə otaq yoldaşı Kellum tez-tez istehzalı mesajlar qoymaqda davam edirdi, lakin Dekster otaq yoldaşının onu tezliklə başa düşəcəyinə ümid edirdi. Nə olmağını gözləyirdin, yoxsa həyatının qalan hissəsini böyük bir evdə birlikdə yaşamağımı? Yox, dostlar paltar kimidilər; əynində olduğu müddətcə yaxşı-

Telegram: @cinciva

dırlar, amma axırda ya onlar köhnəlirlər, ya da sən böyüyürsən. Bu məntiqlə üç içəri, bir dışarı siyasətini tətbiq etməyə başladı. Getməli olan köhnə dostlarının əvəzinə, otuz, qırx, əlli dənə daha bacarıqlı, daha yaxşı görünüşlü dost tapmışdı. Dost siyahısındakı sıxlıq mövzusunda mübahisə etmək qeyri-mümkündü; hətta bəzilərini həqiqətən xoşlayıb-xoşlamadığına belə əmin deyildi. O, məşhur idi, yox, kokteyllərilə, DJ-liyi ilə, alicənablığı, evində verdiyi mərasimlərlə ad çıxarmış adam idi və bu mərasimlərdən sonra bəzən səhər papiros dumanından göz-gözü görməyən, alt-üst edilmiş mənzilində oyananda portmanatının oğurlandığını görürdü.

Eybi yoxdu. Gənc olmaqdan, məşhur olmaqdan, britaniyalı olmaqdan daha gözəl bir vaxt ola bilərdimi? London şayiələrlə uğuldayırdı və bunun hər necəsə özü üçün bir eniş olduğunu hiss edirdi. O, modem və mini disk oxudanı, məşhur sevgili, çoxlu qol düyməsi sahibi, VERGİ ÖDƏYİCİSİ olan bir adamdı; alma şərabı dolu soyuducusu, çoxtiyəli ülgüclərlə dolu vanna otağı vardı və alma şərabıyla ülgücləri xoşlamadığına baxmayaraq, ilin, on illiyin və günün ortasında dünyanın ən həyəcanlandırıcı şəhərinin mərkəzinə yaxın yaşadığı bu evdə həyat, həqiqətən də, çox gözəldi.

Gün hələ qabaqdaydı. Tezliklə dilerinə zəng eləyəcəkdi. Bu gecə Lədbrouk Qruvda nəhəng bir evdə mərasim vardı. O, əvvəl nahar üçün Emmayla görüşməliydi, amma, güman ki, saat on birdə canını ondan qurtarmış olacaqdı.

Emma avokado vannasının içində uzandığı vaxt giriş qapısının bağlandığını eşitdi; Yan Putnidə reallaşdıracağı səhnəcik üçün uzun səfərə yola düşürdü: İtlər və pişiklər arasındakı fərqlər haqqında on beş mənasız dəqiqə. Vanna otağının döşəməsindəki şərab stəkanını götürdü, stəkanı iki əliylə tutdu və sifətini büzüşdürərək krana qaşqabaqla baxdı. Bəzi şeylərin sevincinin bu qədər tez

Telegram: @cinciva

keçməsi diqqət çəkiciydi. Nazik divarları və başqa kiminsə xalçalarıyla ortaq sahib olduqları bu mənzil necə də köhnə-külüş və dağınıq görünürdü. Yer çirkli olduğuna görə deyildi bu – hər küncbucaq belə saçaqlı fırçayla təmizlənmişdi, – amma adamı dilxor edən bir yapışqanlıq və dəyişdirilməsi qeyri-mümkün olan köhnə karton qoxusu qalmışdı. İlk gecələrində giriş qapısı bağlandıqdan və şampan açıldıqdan sonra özünü hönkür-hönkür ağlayacaq kimi hiss etmişdi. "Buranı öz evimiz olaraq hiss etməyimiz vaxt aparacaq", – o gecə yataqda əlini tutarkən Yan demişdi və ən azı, ilk pilləyə qədəm basmışdılar. Amma bu pillələri illərlə birlikdə çıxacaqları fikri Emmanın içini dəhşətli bir zülmətlə doldururdu. Həm də bu pillələrin başında nə vardi ki?

Bu qədər bəsdi. Bu gecə xüsusi proqram, şənlik vardı; vannadan çıxdı, dişlərini fırçalayıb, diş ətləri ağrıdana qədər iplə təmizlədi, bədəninə təravətverici çiçək ətri vurdu və dar qarderobunda məşhur dostlarıyla bayırda keçirəcəyi gecə üçün özünü ingilis dili müəlliməsi miss Morli kimi göstərməyəcək bir paltar vardı. Şənlik üçün narahat bir ayaqqabı və içkili olduğu bir vaxtda Karen Millendən aldığı qara rəngli qısa axşam paltarını seçdi.

Saatına baxdı, vaxtı öldürməkçün televiziya kanallarını çevirdi. "Britaniyanın ən istedadlı ev heyvanı"nı tapmaq üçün ümummilli bir yarışda Syuki Medouz Skarboroda dəniz kənarında dayanıb, tamaşaçılara təbil çala bilən iti təqdim edirdi. Təbil çubuqları itin ayaqlarına lentlə yapışdırılmışdı. Bu vəziyyəti olduqca narahat hesab edəcəyi yerdə Syuki Medouz gülürdü, zarafatlaşırdı və bir anlıq Emma Deksterə zəng edib bir bəhanə uydurmağı və yatağa geri qayıtmağı fikirləşdi. Çünki, həqiqətən, bunun nə mnası vardı?

Problem təkcə bu coşqulu, qışqırıqçı sevgilisi deyildi. Problem axır vaxtlar Em və Deksin o qədər də yaxşı yola getməməsiydi. Dekster tez-tez görüşlərini son dəqiqədə ləğv edir, görüşdük-

Telegram: @cinciva

lərində fikri həmişə başqa yerlərdə və narahat görünürdü. Onlar bir-biri ilə qəribə, süni səs tonuyla danışırdılar, üstəlik birlikdə gülməyi də yadırğamışdılar; bunun əvəzində bir-birilərinə lağlağı səs tonuyla tez-tez eyhamlar vururdular. Dostluqları sulayaraq dirçəltməyə çalışdıqları solmuş bir gül dəstəsinə bənzəyirdi. Niyə ölməyinə imkan vermirdilər? Bir dostluğun həmişəlik davam edəcəyini gözləmək reallıqla uzlaşmırdı, üstəlik ondan başqa çoxlu dostu vardı; universitetdən köhnə dostları, məktəb dostları və əlbəttə ki, Yan. Amma Yanla bağlı sirlərini kimə danışacaqdı? Dekster olmaz, daha olmaz. İt təbil çalır, Syuki Medouz gülür, gülürdü; Emma hirslə televizoru söndürdü.

Dəhlizdəki güzgüdə özünə baxdı. Axır vaxtlar həddindən çox italyan sosiskası yemişdi və bunun nəticəsi ortadaydı: kiçik çaydana bənzər qarın. Yan orada olsaydı, gözəl göründüyünü deyərdi, amma Emmanın qara atlaz parçanın altından görə bildiyi yalnız qarnının qabarıqlığı idi. Əlini qarnının üstünə qoydu, giriş qapısını bağladı və E17-dəki mənzilindən – WC2-yə tərəf uzun səfərə başladı.

HEY!

Frös küçəsində isti bir yay axşamı. Dekster telefonda Syukiylə danışır.

– GÖRDÜN?

– NƏYİ?

– İTİ! TƏBİL ÇALAN İTİ! ÇOX GÜLMƏLİYDİ!

Dekster İtaliya barının önündə dayanıb, köynək və kostyumda özündənrazı hərəkətlə, başında kiçik fetr şapka, mobil telefonunu qulağından on santim aralı tutmuşdu. Telefonu söndürsə belə, hələ də onu eşidəcəyini zənn eləyirdi.

– ... ONUN KİÇİK AYAQLARINDA BALACA TƏBİL ÇUBUQLARI!

Telegram: @cinciva

– Dəlicə bir şeydi, – əslində, baxmamağına rəğmən dedi. Qısqanclıq Deksterə uyğun bir duyğu deyildi, amma şayiələrdən xəbəri vardı – həqiqi istedadın Syuki olduğu, Syukinin onu arxasıyca apardığı deyilirdi – və Syukinin mövcud profilini, yüksək maaşını və cəlbediciliyini, bir növ, bədii kompromisə bağlayaraq özünü ovudurdu. Britaniyanın ən istedadlı ev heyvanı? O, bunun kimi bir şeyi heç vaxt etməzdi. Hətta kimsə ondan istəsəydi belə.

– BU HƏFTƏ ÜÇÜN DOQQUZ MİLYON TAMAŞAÇI GÖZLƏNİLİR, BƏLKƏ DƏ ON.

– Syuki, sənə telefon haqda bir şey deyimmi? Axı telefona bu şəkildə qışqırmaq məcburiyyətində deyilsən. Bunu sənin əvəzinə telefon edir də...

Syuki hirslənərək telefonu söndürdü, elə o vaxt Emma yolun o biri üzündə bir anlıq dayanıb Deksterin əlində tutduğu telefona söyməsinə baxırdı. Dekster kostyum əynində yenə də möhtəşəm görünürdü. Şapkası utanc vericiydi, amma, ən azından, o gülünc qulaqcıqları taxmamışdı. Onu görəndə Deksterin üzünün aydınlaşdığını gördü və bu gecəylə bağlı bir sevgi və ümid dalğası hiss etdi.

– Sən, həqiqətən, canını bundan qurtarmalısan, – başıyla telefonu göstərərək dedi.

Dekster telefonu cibinə atdı və Emmanı yanağından öpdü. – İki variantın var: ya mənə zəng edəcəksən, şəxsən mənə; ya da bəlkə o vaxt içində olmadığım bir binaya zəng edəcəksən...

– Binaya zəng edərəm.

– Bəs cavab verə bilməsəm?

– Allah eləməsin.

– Daha 1988-ci il deyil, Em...

– Hə, bunu bilirəm.

– Altı ay, sənə daha altı ay müqavimət göstərmə müddəti verirəm, sən də mobil telefon alacaqsan.

Telegram: @cinciva

– Heç vaxt!

– Mərcə gələk?

– Yaxşı, gələk. Əgər nə vaxtsa, nə vaxtsa mobil telefon alsam, səni yeməyə qonaq edəcəm.

– Yaxşı, bu bir dəyişiklik olacaq.

– Bundan başqa, beyinə zərər verir.

– Vermir...

– Bunu necə bilmək olar ki?

Bir müddət sakitcə dayandılar; ikisində də bu gecənin yaxşı başlamadığına dair anlaşılmaz bir hiss vardı.

– İndidən canımı sıxdığına inana bilmirəm. – Dekster qaşqabağını tökərək dedi.

– Yəni bu, mənim işimdir. – Emma gülümsəyərək onu qucaqladı, burnunu yanağına basdı. – Canını sıxmıram. Üzr istəyirəm, bağışla.

Deksterin əli Emmanın boynundaydı. – İllər keçib.

– Çox uzun müddət.

Dekster bir addım geri çəkilib: – Yeri gəlmişkən, çox gözəl görünürsən, – dedi.

– Təşəkkür edirəm. Elə sən də.

– Yox, gözəl yox...

– Onda yaraşıqlı.

– Təşəkkür edirəm. – Emmanın əllərini tutdu və yana tərəf çəkdi.

– Sən daha tez-tez don geyməlisən, demək olar ki, qadın kimi görünürsən.

– Mən də şapkanı bəyəndim, çıxara bilərsən.

– Bir də ayaqqabıların!

Emma ayağını ona tərəf uzatdı. – Dünyanın ilk ortopedik hündürdaban ayaqqabılarıdı.

Telegram: @cinciva

İzdihamın arasında Vordor küçəsinə tərəf yeriməyə başladılar; Emma Deksterin qoluna girdi, sonra kostyumunu barmaqlarının arasına alaraq soruşdu: – Bu nədi, yeri gəlmişkən? Məxmərdi, ya velür?

– Moleskin – köstəbək dərisi.

– Əvvəllər bu parçadan bir məşq geyimim vardı.

– Biz, haradasa, cütlük sayılırıq, elə deyil? Deks və Em...

– Em və Deks. Rocer və Ester kimi...

– Berton və Teylor...

– Meri və Cozef...

Dekster gülərək əlini tutdu və onlar tezliklə restorana çatdılar.

"Poseydon" yeraltı avtodayanacağın qalıqlarından qazılan nəhəng bunker idi. Girişi geniş yolla çox gözəl görünüşlü teatr pilləkənilə birləşən yuxarıdakı əsas otaqdan və yeni gələnlərin gözəlliyini və şöhrətini qiymətləndirərək axşamın böyük hissəsini keçirdiyi aşağıdakı nahar otağından ibarət idi. Emma bir əli Deksterdə, o biri əli sürahidə, nə məşhurluq, nə də gözəllik hiss edərək pilləkənlə aşağı enir, otağı sanki memarmış kimi lovğa-lovğa gözdən keçirirdi.

– Hə. Nə fikirləşirsən?

– "Tropikana Klubu" kimidi, – Emma dedi.

Restoranın interyeri 1920-ci illərin lüks cizgilərinin romantizmini xatırladacaq tərzdə işlənib hazırlanmışdı; Məxmər kabinələr, kokteyl təklif edən donuq ofisiantlar, heç bir təsvirə baxmayan dekorativ illüminatorlar və təbii işığın çatışmazlığı restorana elə bil aysberqə dəymiş və batmaqda olan sualtı qayıq görünüşü vermişdi. Nəzərdə tutulan, müharibələrarası zəriflik havası, otağın hay-küyü və süni təzahürü hər tərəfə yayılan gənclik və seks, pul və qızartma atmosferi ilə pozulurdu. Dünyanın bütün şərab rəngli məxmərləri açıq mətbəxdən gələn səs-küyü boğa bilməzdi. "*Çox şükür,* – deyə Emma fikirləşdi, – *səksəncilər buradadı*".

Telegram: @cinciva

– Yaxşı seçim olduğuna əminsən? Olduqca bahalı görünür.

– Dedim də sənə. Hesabı mən ödəyəcəm. – Emmanın geyiminin etiketinə gözucu baxaraq içəri soxdu, sonra əlini tutaraq onu Ester yerişiylə pilləkənlərdən aşağı endirdi; pul, seks və gəncliyin tam ürəyinə.

Axmaq-axmaq epoletləri olan yaraşıqlı bir kişi süfrənin on dəqiqəyə hazır olacağını, buna görə də başqa bir dənizçinin butulkaları havaya atıb tutduğu kokteyl zalında istirahət etmələrini xahiş etdi.

– Sən nə içirsən, Em?

– Cin toniklə?

Dekster narazılıqla başını yellədi. – "Mendela bar"da deyilsən, Emma. Normal bir içki istəməlisən. İki martini, Bombey Sapfiri, tünd, yanında limon qabığıyla. – Emma nəsə demək istədi, amma Dekster despitok avtoritar tərzdə barmağını yellədi. – Mənə inan. Londonun ən yaxşı martinisidi.

O, itaətkarlıqla susub barmenin performansını seyr eləyir, onun hər fəndinə Deksterin şərhlərini ağzı açıla dinləyirdi: – İşin hiyləsi başlamazdan əvvəl soyutmaqdadı. Stəkanın içinə buz atırsan.

– Sən bütün bunları haradan bilirsən?

– Deyəsən, doqquz yaşım vardı, anam öyrətmişdi... – Qədəhlərini sakitcə Elisonun şərəfinə qaldırdılar və hər ikisi də həm bu gecə, həm də dostluqları üçün ümidləndilər. Emma martinini dodağına apardı. – Mən əvvəllər bundan heç vaxt içməmişəm. – Birinci dəfə dadmağın ləzzəti ayrıydı – buzlu və dərhal kefləndirən; titrəyərkən içkisini dağıtmamağa çalışdı. Deksterə təşəkkür etməyə hazırlaşırdı ki, Dekster yarısı içilmiş içki stəkanını Emmanın əlinə verdi:

– Tualetə gedirəm, – dedi, – İnanılmazdı. Londonun ən yaxşısı.

Telegram: @cinciva

– Gözləyə bilmirəm! – o dedi, amma Dekster artıq getmişdi və Emma əlində iki içkiylə təkbaşına dayanıb, ofisiant kimi görünməmək üçün özünə güvənən adam aurası yaratmağa çalışırdı.

Qəfildən bəbir dərisindən korset və corab geyinmiş hündür bir qadın önündə dayandı; meydana çıxması o qədər qəfil olmuşdu ki, Emmanın ağzından kiçik ciyilti çıxmış, martinisi biləyindən aşağı tökülmüşdü.

– Siqaret? – Qadının qeyri-adi gözəlliyi, ehtirası vardı, açıq-saçıq geyinmişdi, sinəsi siqaret sinisinə söykənərək dayanırmış kimi görünürdü. – Bir şey istəyərdiniz? – deyə bir barmağıyla boynundakı qara məxməri şərfi düzəldərək təkrarladı.

– Ah, yox. Mən siqaret çəkmirəm, – Emma elə bil üstündə dayanılmalı şəxsi qüsurdan bəhs edər kimi dedi, amma qadın artıq çoxdan qara tuşlu kirpiklərini qırparaq təbəssümünü Emmanın çiyninin üzərindən yeni ünvana yönəltmişdi.

– Cənab, siqaret?

Dekster gülümsədi, pencəyinin cibindən portmanatını çıxardı. Bu işləri yaxşı bacardığını göstərən hərəkətlə bir "Marlboro Layt" alarkən siqaret satan qız elə bil cənabı əla seçim edibmiş kimi başını yırğaladı.

Dekster uzununa qatlanmış beş funtluğu ona verdi. – Xırdası qalsın, – deyərək gülümsədi. Görəsən, "Xırdası qalsın" cümləsindən daha artıq güc qazandıran cümlə vardımı? Əvvəllər bunu deyərkən özünə olan inamını hiss edərdisə də, artıq bu hiss itmişdi. Qadın çox gözəl gülümsədi və bir anlıq Dekster birlikdə yemək yeyəcəyi adamın Emma yox, siqaret satan qız olmasını arzuladı.

"Buna bax", – Emma özünü bəyənmə qığılcımının fərqinə vararaq fikirləşdi. Bir vaxtlar, çox da uzaq keçmişdə deyil, bütün cavan oğlanlar Çe Gevara olmaq istəyərdilər. İndisə hamısı Haq Höfner olmaq istəyir. Bir oyun pultu ilə. Siqaret satan qız qələ-

Telegram: @cinciva

bəliyin arasında irəliləyərkən Dekster elə bil, həqiqətən də, qızın yanını əlləmiş kimi görünürdü.

– Gödəkçənə ağzının suyu axıb.

– Başa düşmədim?

– İndi nə deməkdi bu?

– Siqaret satan qız, – deyərək Dekster çiynini çəkdi, açılmamış paketi cibinə qoydu. – Bu yer bu xüsusiyyətiylə tanınır. Bir növ, ovsunlamaq teatr kimi bir şeydi.

– Onda niyə elə – fahişə kimi geyinib?

– Bilmirəm, Em, bəlkə xəzli qara corabı yuyulub. – Martinisini götürüb başına çəkdi. – Postfeminizm, elə deyil?

Emma şübhəylə baxdı. – Ah, indi onu belə adlandırırıq?

Dekster siqaret satan qızın qıçına baxaraq təsdiqlədi. – İstəsən, sən də elə görünə bilərsən.

– Heç kim sənin kimi söhbətdən yayına bilmir, Deks.

– Demək istəyirəm ki, bu, seçim məsələsidi. İnsana güc verir.

– Lazer kimi işləyən fikir...

– Əgər kostyum geyməyi istəyirsə, kostyum geyə bilər!

– Ancaq imtina etsə, işindən çıxarılacaq.

– Ofisiantlar da elə! Hər halda, ola bilsin, belə geyməyi xoşlayır, bəlkə də bu əyləncəlidi, bəlkə də özünü belə seksi hiss edir. Bu, feminizmdi, elə deyil?

– Yaxşı, ən azından, bu, *lüğət* tərifi deyil...

– Mənimlə şovinist kimi davranma, mən də feministəm! – Emma başını yırğalayıb gözlərini süzdürdü və Dekster bir daha onun necə zəhlətökən və nəsihət verməyi xoşlayan adam ola bildiyini xatırladı. – Mən eləyəm! Mən feministəm!

– ... Və pul üçün sinəsini açıb göstərən qadınların hüquqları üçün ölənə, *ölənə* qədər mübarizə aparacağam.

İndi də gözlərini süzdürmə növbəsi Deksterdəydi; təhqir edərcəsinə qəhqəhə çəkdi. – 1988-ci ildə deyilik, Em.

Telegram: @cinciva

– Bu, nə deməkdi? Dayanmadan bunu deyirsən, amma sənin bunula nə demək istədiyini hələ də anlaya bilmirəm.

– Mənası budur ki, çoxdan uduzulmuş müharibələr üçün vuruşma. Feminist qadın hərəkatı bərabər ödəniş, bərabər imkanlar və bərabər sosial-insani hüquqlarla bağlı olmalıdı; şənbə günü gecəsi bir qadının könüllü olaraq nə geyib, nə geyməyəcəyilə bağlı deyil!

Emmanın ağzı hiddətlə açıldı: – Mən bunu demək istəmirəm...

– Hər nə isə, səni yeməyə gətirmişəm! Mənə çətinlik yaratma!

Belə anlarda Emma bu adama aşiq olduğunu, ya da nə vaxtsa, uzun müddət əvvəl aşiq olduğunu yadına salırdı. Emmanın qalib gələcəyindən əmin olduğu, amma gecəni alt-üst edə biləcək uzun və mənasız bir mübahisənin kandarında dayanırdılar. Bunun əvəzinə üzünü içkisinin arxasında gizlətdi, stəkanını dişlədi və danışmazdan əvvəl ürəyində yavaş-yavaş saydı. – Gəl mövzunu dəyişək.

Ancaq Deksterin fikri onda deyildi, çiyinlərinin üstündən baş ofisiant onları çağırırmış kimi baxırdı. – Gəl gedək, oturmağa yer tapdım.

Onlar bənövşəyi məxmər kabinəyə keçdilər və sakitlikdə menyuları yaxşıca araşdırmağa başladılar. Emma fransız mətbəxindən yeməklər və xoş nə isə tapacağını gözləyirdi, gəl ki bunlar olduqca bahalı yeməklərdi: Balıq kotletləri, çoban piroqları, kotlet – deyəsən, Emma "Poseydon"un ketçupun gümüş məcməyidə təqdim olunduğu bir restoran olduğunu başa düşdü. – Müasir ingilis mətbəxidi, – deyə Dekster səbirlə izah elədi; elə bil kartof püresi və kolbasa üçün bu qədər pul vermək çox müasir, çox ingilissayağı bir şeymiş.

– Mən istridyə yeyəcəyəm, – Dekster dedi. – Məncə, yerlidi.

– Bəs dostdular? – Emma zəif səslə dedi.

– Nə?

Telegram: @cinciva

– Yerlilər – dostlardı? – deyə təkrarladı və: *"Aman, Allah, deyəsən, Yana çevrilirəm"*, – deyə fikirləşdi.

Zarafatı başa düşməyən Dekster qaşqabağını töküb menyuya qayıtdı. – Yox, qaya istridyələrinə nisbətən daha dadlı və sadəcə, şirindilər, daha ləzzətlidi. On iki dənə alacağam.

– Sən qəfildən hər şeydən yaxşı məlumatlı oldun.

– Yeməyi sevirəm. Mən yeməyi və şərabı həmişə sevmişəm.

– Bir dəfə mənə tavada ton balığı qızartmağın yadımdadı. Dadı hələ də damağımdan getməyib. Ammonyak dadı...

– Bişirməkdən yox, restoranlardan danışıram. Mən indi əksər günlər evdə yemirəm. Yeri gəlmişkən, mənə bazar günü qəzetlərində bu haqda yazmağımı istəyirdilər.

– Restoranlar haqqında?

– Kokteyl-barlar. "Bar quşu" adında həftəlik bir sütundu, barlarda tez-tez olmağı sevən adamlardan bəhs edən bir şeydi.

– Özün yazacaqsan?

– Əlbəttə ki, özüm yazacağam! – dedi, baxmayaraq ki, başqasının yazacağına zəmanət verilmişdi.

– Kokteyllər haqqında nə deyilə bilər?

– Təəccüblənəcəksən. Kokteyllər indi çox dəbdədi. Yenidən partladılıb ortaya çıxarılan bir şey kimi. Əslində... – ağzını boş martini stəkanına qoydu, –... mən miksologiyayla məşğul olan mütəxəssis kimi bir şeyəm.

– Mifologiya?

– Yox, *mikso* logiya.

– Üzr istəyirəm, elə bildim "mifologiya" deyirsən.

– Məndən bir kokteylin necə hazırlandığını soruş, xoşladığın istənilən kokteylin.

Emma barmağını çənəsinə basdı: – Yaxşı, hmmm... limon qabıqlı çəllək pivəsi!

– Mən ciddiyəm, Em. Bu, həqiqi bacarıqdı.

Telegram: @cinciva

– Hansı?

– Miksoloq. Adamlar xüsusi kurslara gedirlər.

– Dərəcən üçün bəlkə sən də getməlisən.

– Əlbəttə, daha faydalı olardı.

İfadəsi o qədər davaya hazır və acıqlıydı ki, Emma açıqca səksəndi; Dekster də həmçinin təəccüblü görünürdü, üzünü şərab menyusunun arxasında gizlətdi. – Nə istəyirsən? Qırmızı, ya bəyaz? Mən bir dənə də martini götürəcəm, sonra istridyələrin yanında Maskadetlə başlayarıq, sonra Merqoksla davam edərik. Sən nə deyirsən?

Dekster sifariş verdi və Emma ondakı bu vəziyyəti qeyri-adi və qanqaraldıcı hesab etsə də, ikinci stəkan martinini də götürüb yenidən tualetə getdi. Dəqiqələr uzandı. Emma şərab butulkasının üzərindəki etiketi oxudu, sonra yenidən oxudu, sonra boşluğa baxaraq belə bir... mikso mütəxəssisliyin nə mənası olduğunu fikirləşdi? Bəs özü niyə bu qədər sərt, kefsiz və kədərli olmuşdu? Siqaret satan qızın nə geyindiyi vecinə də deyildi, həqiqətən, deyildi, yəni o qədər çox deyildi; bəs onda niyə o qədər fanatik və mühakimə edərcəsinə hərəkət etmişdi? Sakitləşib ləzzət almaq qərarına gəldi. Hər necə olsa da, bu, Deksterdi; sevdiyi ən yaxşı dostu. Sevmirdimi?

Londonun ən heyranedici tualetində unitazın üstünə əyilib, Dekster də eyni şeyi fikirləşirdi. Emma Morlini sevirdi, elə güman edirdi, "özünü bəyənmiş"liyinə, teatr kooperativliyinə, ictimai mərkəzlər kimi 1988-ci ildən qalma havasına onu sevdiyindən daha da çox qəzəblənirdi. O elə bil, elə bil... dibə çökmüşdü. Adamın özünü məxfi agent kimi hiss etməsi üçün xüsusilə işlənilib hazırlanmış belə bir yerdə oturmağa uyğun deyildi.

Hələ zarafatları; niyə həmişə uğursuzluqlarını xatırladıb canını sıxırdı? Dekster bunları unutmamışdı. "Qəşəng" olmaqla bağlı boşboğazlıqları və mənim piyli qıçım və ortopedik ayaqqabılarım;

Telegram: @cinciva

bitib-tükənməz özüylə zarafatlaşma halı. *"Allahım məni məzəli qadınlardan qorusun"*, – deyə fikirləşdi. Niyə bir qadın heç dayanmadan belə darıxdırıcı şou göstərmək yerinə, bir az incəlik, zəriflik və özünə inam nümayiş etdirməsin axı?

Və sinif! Sinifdən heç danışmayaq! Onu belə bir möhtəşəm restorana gətirir, o isə şapkasını lağa qoyur! Bu fəhlə sinfində Deksteri dəli edən qürur və özünə hörmət vardı. Niyə hələ də ona uyğunlaşmamaqda, heç vaxt xaricə getməməkdə, heç vaxt istridyə yeməməkdə israr edirdi? Təxminən, otuz yaşına çatıb, bunlar çox, çox uzun müddət əvvəl olmuşdu; artıq öz həyatının məsuliyyətini götürməyinin vaxtıdır. Əlinə dəsmal verən Nigeriyalı kişiyə bir funt verdikdən sonra restorana qayıtdı, Emmanı yas geyimində, çəngəl-bıçaqla oynayarkən görəndə yeni qəzəb dalğası hiss etdi. Barda, sağ tərəfdə siqaret satan qızın tək dayandığını gördü. Qız da onu gördü, gülümsədi və Dekster dolayı yolla getmək qərarına gəldi.

– Zəhmət olmasa, iyirmi gilə "Marlboro Layt".

– Nə, yenə də? – qız güldü; əli Deksterin biləyinə toxundu.

– Nə deyə bilərəm? Mən o agentlərdən biri kimiyəm.

Qız yenidən güldü, Dekster yenə də stolda yanında oturanın yerinə qara corablı bu qızı təsəvvür elədi. Portmanatını götürdü. – Əslində, buradan sonra universitetdən olan köhnə rəfiqəmlə bir mərasimə gedəcəm... *"Köhnə, köhnə,* – deyə fikirləşdi, – *gözəl dedim"*. – Siqaretsiz qalmaq istəmirəm. – Uzununa ikiyə qatlanmış əzik beş funtluğu iki barmağının arasında ona uzatdı. – Xırdası qalsın.

Qız gülümsədi, Dekster qızın qabaq ağ dişlərində kiçik, qırmızı bir ləkə gördü. Qızın çənəsini tutub, baş barmağıyla silmək istədi.

– Pomada izi var...

– Harada?

Telegram: @cinciva

Əlini qızın ağzına tərəf uzatdı. – Bax burada.

Qız çəhrayı dilini dişlərində gəzdirdi. – Getdi? – deyərək qımışdı.

– Aha. – Gülümsəyərək uzaqlaşdı, sonra geri qayıtdı.

– Sadəcə, maraqdan soruşuram, – dedi, – bu gecə işin saat neçədə bitir?

Əriyən buz yataqları içində parlaq və qəribə istridyələr gəldi. Emma tək buraxılmış adamın hərəkətsiz təbəssümüylə oturub üst-üstdən içməklə vaxt keçirir və olanları, həqiqətən də, anlamırdı. Nəhayət, Deksterin əlini yelləyib, bir az da səndələyərək gəldiyini gördü. Özünü tələsik kabinəyə atdı.

– Tualetə yıxıldığını fikirləşdim! – Bu, Emmanın nənəsinin işlətdiyi söz idi. Nənəsinin materiallarından istifadə edirdi.

– Üzr istəyirəm, – Dekster dedi, amma ardıyca heç nə demədi. Onlar istridyələrə başladılar.

– Qulaq as, bu gecə gecədən keçmiş mərasim var. Poker oynadığım dostum Oliverin tədbiridi. Sənə ondan danışmışdım. – İstridyəni ağzına itələdi. – O bir baronetdir.

Emma dəniz suyunun biləyindən aşağı axdığını hiss etdi. – Bunun nəylə əlaqəsi var?

– Nə demək istəyirsən?

– Baronet olmasının.

– Elə-belə dedim, o, yaxşı adamdı. Üstünə limon sıxmaq istəyirsən?

– Yox, təşəkkür edirəm. – Emma hələ də bu tədbirə dəvət olunduğunu, yoxsa, sadəcə, məlumatlandırıldığını ayırd etməyə çalışaraq istridyəsini yaladı. – Yaxşı, bəs tədbir haradadı?

– Holland Parkda. Çox böyük evdi.

– Ah. Yaxşı.

Telegram: @cinciva

Hələ də əmin deyildi. Onu dəvət edirdi, yoxsa erkən qalxıb getməli olduğu üçün üzr istəyirdi? Bir istridyə də yedi.

– Gəlmək istəsən, sən də dəvətlisən, – nəhayət, Tabasko sousuna əlini uzadarkən dedi.

– Mən də?

– Əlbəttə, – Dekster dedi. Emma onun Tabasko butulkasının boğazındakı yapışqanı çəngəlin ucuyla açmağına baxdı. – Ancaq oradakılardan heç kimi tanımırsan.

Dəvət edilmədiyi açıq-aydın görünürdü. – Səni tanıyıram, – zəif səslə dedi.

– Hə, mən də elə düşünmüşdüm. Bir də Syukini! Syuki də orada olacaq.

– O, Skarboroda çəkilişdə deyil?

– Bu gecə qayıdacaq.

– İşini çox yaxşı görür, elə deyil?

– Hə, ikimiz də, – cəld və bir az da ucadan dedi.

Emma yola vermək qərarına gəldi: – Hə. Mən də onu deyirdim. İkiniz də. – Bir istridyə götürüb, sonra yerinə qoydu. – Syukidən, həqiqətən, xoşum gəlir, – Emma dedi, baxmayaraq ki, onu cəmi bir dəfə Hokstondakı özəl klubda verilmiş "Studio-54" temalı qorxunc bir tədbirdə görmüşdü... Syuki, sadəcə, telefon yarışında udduğu üçün tədbirə gəlmiş, Deksterin köhnə dəbli, qəribə dostlarından biri kimi baxsa da, Emmanın rəğbətini qazanmışdı.

Dekster bir istridyə də götürdü: – Əntiqədi Syuki, hə?

– Hə, elədi. Aranız necədi?

– Ah, yaxşı. Bir az çətin işdi, bilirsən, həmişə adamların gözünün qabağında olmaq...

– Bu barədə danış! – Emma dedi, amma Dekster özünü eşitməzliyə vurdu.

Telegram: @cinciva

– Arada səsi sanki meqafondan gəlir, amma yenə də möhtəşəm qızdı. Həqiqətən. Bu münasibətdə ən yaxşı şeyin nə olduğunu bilirsən?

– Söylə.

– O, teleulduz olmanın nə demək olduğunu yaxşı başa düşür.

– Dekster... bu, indiyə qədər eşitdiyim *ən* romantik şeydi.

– *Və yenə də başlayır,* – deyə Dekster fikirləşdi, qürurlu, natamam qırıq-qırıq şərhlər, söz soxuşdurmalar. – Amma doğrudu, – deyə çiynini çəkdi və ən qısa müddətdə hesabı ödəyib, bu gecəni bitirmək qərarına gəldi. Sonradan ağlına gəlmiş kimi əlavə elədi: – Ah, bu tədbir. Mən, sadəcə, sənin evə qayıtmağına görə narahat oluram, vəssalam.

– Voltemstou Mars deyil, Deks, sadəcə, Şimal-Şərqi Londondu. Orada həyat var.

– Bilirəm.

– Viktoriya Metro Xətti üzərində!

– Amma ictimai nəqliyyatla getmək üçün çox uzun yoldu, tədbirə də gecə yarısına qədər qalmaq üçün getməzlər. Çatan kimi də qalxmaq məcburiyyətində qalacaqsan. Əgər sənə taksi üçün pul versəm...

– Mənim pulum var, mən maaş alıram.

– Hər halda, Voltemstoudan Holland Parka?

– Əgər mənim gəlməyim yersiz olacaqsa...

– Elə deyil! Yersiz deyil. Gəlməyini istəyirəm. Sonra qərara gələrik, olar? – Sonra icazə istəmədən, elə bil orada da bir başqa stolu varmış kimi stəkanını da götürərək yenidən tualetə getdi. Emma oturdu, içindən qaynayaraq şərab stəkanlarını bir-birinin ardınca qarnına tökməyə davam etdi.

Əsas yemək süfrəyə gələndə Dekster qayıtdı. Emma nanəli göy noxud püresi yanında pivə içində döyülmüş balığı nəzərdən keçirdi. Qalın kartof dilimləri aparatda hamısı bir boyda doğ-

Telegram: @cinciva

ranmış, üzərində də döyülmüş balıq, bina blokları kimi üst-üstə yığılmışdı; boşqabdan iyirmi santimetr yuxarıda elə bil özlərini aşağı tolazlaya bilərdilər. Bu necə oyundu? Üst-üstə yığılan taxta blok oyunu? Yığının üzərindən ehtiyatla bir kartof dilimi çəkdi. Bərkdi, içi soyuqdu.

– Komediya kralı necədi? – Tualetdən qayıdandan bəri Deksterin səsi daha da davakar və əsəbiləşdirici olmuşdu.

Emma özünə xəyanət edilmiş kimi hiss etdi. Bu görüş bəlkə də onun münasibətindəki qarışıq və bundan sonra nə edəcəyi mövzusundakı nizamsızlığı haqqında kiməsə ürəyini boşaltmaq üçün fürsət ola bilərdi. Amma Deksterə danışa bilməzdi, ən azı, indi. O, çiy kartofu uddu.

– Yan möhtəşəm insandı, – qətiyyətlə dedi.

– Bir yerdə yaşayırsız, hə? Ev gözəldi?

– Fantastik. Sən hələ görməmisən, elə? İmkan olan kimi gəlməlisən! – Dəvət cəsarətsiz, cavabsa qeyri-müəyyəndi: "Hmm". – Elə bil Deksterin Metro Xəttinin 2-ci bölgəsinin kənarında xoşbəxtliyin mövcudluğuna şübhəsi vardı. Sakitlik çökdü, başları boşqablarına qarışdı.

– Bifşteksin necədi? – nəhayət, Emma soruşdu. Deksterin iştahı qaçmış kimiydi, anormal dərəcədə qanlı ət parçasını yeməyib parçalara ayırırdı.

– Əntiqədi. Balıq necədi?

– Soyuqdu.

– Elə? – Emmanın boşqabına diqqətlə baxdı, sonra müdrikcəsinə başını silkələdi.

– Bu, donuq olur, Em. Bişirilmə üsulu belədi, beləcə donuqlaşdırılır.

– Dekster... – Səsi sərt və möhkəm çıxmışdı. –... Balıq donuqdu, çünki buzxanaya qoyulub. Donu açılmadan da bişirilib.

Telegram: @cinciva

– Elə? – Hirslə barmağıyla boşqabı itələdi. – Elədisə, geri qaytaraq!

– Problem deyil. Mən kartofları yeyirəm.

– Yox, cəhənnəm olsun! Geri qaytar! Mən bu lənətə gəlmiş donuq balıq üçün pul ödəmirəm! Bu, nədir, Bejamdı? Sənincün başqa şey sifariş verək. – Ofisiantı çağırdı, Emma Deksterin özünü müdafiə etməsini seyr etdi, yeməyin kifayət qədər yaxşı olmadığını təkid edir, menyuda təzə balıq yazıldığını, balığın hesabdan çıxarılıb əvəzinə pulsuz olaraq başqa yemək verilməsini tələb eləyirdi. Emma artıq ac olmadığını təkid edərkən, Dekster də öz növbəsində əsas yemək almalı olduğunu, çünki pulsuz gələcəyini deyərək təkid edirdi. Heç bir şansı yox idi, yenidən menyuya əvvəldən axıra qədər diqqətlə baxdı, bu müddətdə ofisiant və Dekster gözlərini ona zilləmişdilər, Deksterin parça-parça edilmiş, ancaq yeyilməmiş yeməyi yerindəcə qalırdı; nəhayət, pulsuz bir boşqab yaşıl salat almağa qərar verdi və onlar yenidən tək qaldılar.

Onlar heç kimə lazım olmayan iki yemək dolu boşqab qabaqlarında sakitcə oturub, artıq gecənin zay olduğunu düşünürdülər, Emmanınsa ürəyindən ağlamaq keçirdi.

– Hə, yaxşı gedir, – Dekster salfetini uzadarkən dedi.

Emma evə getmək istəyirdi. Deserti gözləməməli, mərasimi unutmalı – onu istəmədiyi açıq-aydın bəlliydi – və evə getməliydi. Bəlkə Yan qayıtmış olardı, onu sevən nəzakətli və diqqətli Yan... Oturub söhbət edərdilər, ya da sadəcə, qol-boyun oturub televizora baxardılar.

– Hə. – Danışarkən Deksterin gözləri otağı gözdən keçirirdi. – Müəllimlik necə gedir?

– Yaxşıdı, Dekster, – Emma qaşqabağını tökdü.

– Nədi? Neylədim? – deyə gözlərini Emmaya zilləyərək hiddətlə qarşılıq verdi.

Emma sakitcə dilləndi: – Maraqlanmırsansa, soruşma.

Telegram: @cinciva

– Maraqlanırdım! Mən, sadəcə... – Özünə bir az da şərab tökdü. – Sənin kitab-filan yazacağını fikirləşirdim...

– Bəzi *kitablar-filan* yazıram, amma yaşamaq üçün pul da qazanmaq məcburiyyətindəyəm. Həmçinin bu işdən zövq də alıram, Dekster, özüm də həddindən artıq yaxşı müəlliməm!

– Əminəm ki, elәsən! Sadəcə, bir ifadə var, sən də bilərsən. – "Bacaranlar..."

Emmanın ağzı açıq qalmışdı. *Sakit ol...*

– Yox, tanış gəlmədi, Dekster. De. Nədi o ifadə?

– Bilirsən...

– Yox, ciddi deyirəm, Dekster, de.

– Vacib şey deyil. – O artıq cəsarətsiz görünməyə başlayırdı.

– Bilmək istəyirəm. Cümləni tamamla. – "Bacaranlar..."

Dekster ah çəkdi, əlində bir stəkan şərab qəti surətdə dilləndi. – Bacaranlar *edər*, bacarmayanlar *dərs deyər*...

Emmanın sözləri tüpürürcəsinə guruldadı: – Dərs deyənlər də qayıdıb "sikdir" deyərlər.

Emma stolu itələyib çantasını qapdı, butulkalara dəyib boşqabları şaqqıldadaraq ayağa qalxanda Deksterin şərab stəkanı dizlərinin üstünə düşdü; Emma kabindən qaçaraq bu nifrət, nifrət dolu yerdən külək kimi uzaqlaşırdı. Ətrafdakıların hamısı ona baxırdı, amma vecinə də almadı; sadəcə, bayıra çıxmaq istəyirdi. *"Ağlama, ağlamayacaqsan"*, – deyə özünə əmr elədi, arxaya baxanda Deksterin hiddətlə üstünü təmizləməyə çalışdığını, ofisiantı sakitləşdirdiyini və sonra arxasıyca gəldiyini gördü. O çevrildi, qaçışını dayandırdı; indi siqaret satan qız uzun ayaqları, hündürdaban ayaqqabıları, al-qırmızı ağzını iki yerə bölən gülümsəyişilə pilləkənlərdən aşağı enirdi. Onun təbəssümünə qarşılıq Emma gözlərində təhqir dolu eyhamların isti göz yaşlarını hiss etdi və bu axmaq, axmaq hündürdaban ayaqqabılarla səndələyərək pilləkən-

Telegram: @cinciva

lərdə yıxıldı, dizi üstə düşəndə isə arxasında nahar edən auditoriyanın nəfəsinin kəsildiyi duyurdu. Siqaret satan qız qolundan yapışıb, adamı dəli edən tərzdə səmimi bir narahatlıqla yanında durmuşdu.

– Yaxşısınız?

– Bəli, təşəkkür edirəm, yaxşıyam...

İndi Dekster çatıb qalxmağına kömək edirdi. Emma var gücüylə dartınıb özünü onun əlindən qurtardı.

– Burax məni, Dekster!

– Qışqırma, sakit ol...

– Sakitləşməyəcəm...

– Yaxşı, mən üzr istəyirəm, üzr istəyirəm. Nəyə acıqlandınsa, bağışla!

Pilləkənlərdə Deksterə tərəf çevrildi, gözləri od püskürürdü. – Nə, yəni *bilmirsən*?

– Yox, stola qayıt, məni bir başa sal! – Emma isə dayanmayıb fırlanaraq taybatay qapıdan çıxdı, arxasıyca itələyərək bağladı; ona görə də qapının metal qırağı Deksterin dizinə dəydi. Arxasıyca axsayaraq getdi.

– Bu, axmaqlıqdı, sadəcə, ikimiz də bir az sərxoşuq...

– Yox, sən sərxoşsan! Səni nə vaxt görsəm, ya sərxoş, ya da içkilisən. Heç bilirsən, səni neçə vaxtdır tamamilə ayıq vəziyyətdə görmürəm? Üç ildi. Ayıqkən nəyə oxşadığını unutmuşam; özünlə, yeni dostlarınla, on dəqiqədən bir tualetə qaçmağınla o qədər məşğulsan ki... Bilmirəm, sor-sofusan, yoxsa həddindən artıq kokain iyləmisən, amma hər iki vəziyyətdə də çox kobud, hər şeydən də çox cansıxıcısan. Mənimlə danışarkən belə bəlkə daha yaxşı seçimlər vardı deyə çiyinlərimin üzərindən ətrafa baxırdın...

– Doğru deyil!

Telegram: @cinciva

– Doğrudu, Dekster! Sən bir televiziya *aparıcısısan,* Deks. Penisillini sən ixtira etməmisən; televiziyadı bu, zibil kimi bir televiziya. Lənət olsun, bu qədər dözmüşəm bəsdi.

Vardor küçəsində solmaqda olan yay işığında izdihamın arasındaydılar.

– Gəl bir yerə gedib bunları danışaq.

– Bu haqda danışmaq istəmirəm, sadəcə, evə getmək istəyirəm...

– Emma, xahiş edirəm.

– Dekster, məni tək burax, olar?

– İsteriyalı davranırsan. Bura gəl. – O, yenə də qolunu tutdu, qucaqlamağa çalışdı. Emma itələdi, amma Dekster buraxmadı. İndi hamı diqqətlə onlara baxırdı: Şənbə gecəsi Sohoda mübahisə edən başqa cütlük; nəhayət, Emma yumşaldı; özünü küçə döngəsinə tərəf dartmasına imkan verdi.

İndi sakitləşmişdilər; Dekster bir az aralandı, beləcə, onu görə bilirdi. Emma arxası ona tərəf dayanmışdı, əlinin qırağıyla gözlərini sildi və qəfildən rüsvayçılığın kəskin ağrısını hiss etdi.

Nəhayət, üzü divara dayanıb sakit səslə dilləndi.

– Niyə belə olursan, Dekster?

– Necə?

– Necə olduğunu bilirsən.

– Sadəcə, özüm kimi oluram.

Emma üzünü ona çevirdi. – Yox, bu, sən deyilsən. Sənin necə adam olduğunu bilirəm, bu isə sən deyilsən. Belə dəhşətlisən. İyrəncsən, Dekster. Demək istəyirəm ki, həmişə bir az iyrəncdin, aradabir, həmişə bir az özünlə məşğuldun; amma məzəliydin də, bəzən nəzakətliydin, özündən başqa adamlarla da maraqlanmağın vardı. İndisə içkiylə, narkotiklərlə özünü əməlli-başlı idarə edə bilmirsən...

Telegram: @cinciva

– Sadəcə, əylənirəm!

Emma əvvəl burnunu çəkdi, sonra tuşları axmış kirpiklərinin arasından ona baxdı.

– Bəzən də məni daşımaq məcburiyyətində qalırlar, vəssalam. Əgər sən belə... həmişə mühakimə edən olmasan...

– Mən? Elə olduğumu fikirləşmirəm. Olmamağa çalışıram. Sadəcə... Danışmağı kəsdi, başını silkələdi. – Son illərdə çox şey yaşadığını bilirəm, özüm də bunu başa düşməyə çalışdım, həqiqətən çalışdım, ananla, hamıyla, amma...

– De, de, – Dekster dedi.

– Sadəcə, daha mənim tanıdığım adam olmadığını fikirləşirəm. Sən artıq mənim dostum deyilsən. Bu qədər.

Dekster cavabında söz tapa bilmədi; ta ki Emma əlini uzadıb Deksterin iki barmağını ovcunun içində sıxana qədər sakitcə dayandılar.

– Bəlkə... bəlkə də bu qədərdir, – Emma dedi. – Bəlkə, sadəcə, qurtarıb.

– Qurtarıb? Nə qurtarıb?

– Biz. Sənlə mən. Dostluq. Sənlə bəzi şeylər danışmalıyam, Deks. Yanla öz haqqımda. Sən əgər dostum olsaydın, bunları sənlə danışa bilərdim, amma danışa bilmədim, danışa da bilmirəmsə, nə mənası var sənin, mənim? Bizim?

– Nə *mənası* var?

– Sən özün dedin, adamlar dəyişir, həssaslaşmağa ehtiyac yoxdu. Hərəkət elə, başqasını tap.

– Hə, ancaq mən *bizi* nəzərdə tutmamışdım...

– Niyə də yox?

– Çünki biz... bizik. Biz Deks və Emik. Elə deyilik?

Emma çiyinlərini çəkdi: – Bəlkə biz ikimiz də böyüyüb birbirimizdən vaz keçmişik.

Telegram: @cinciva

Dekster bir ara heç nə demədi.

– Yaxşı, bəs səncə, mən böyüyüb səndən imtina etmişəm, yoxsa sən böyüyüb məndən vaz keçibsən?

Emma əlinin arxasıyla burnunu sildi:

– Məncə, mənim... darıxdırıcı olduğumu fikirləşirsən. Məncə, sənin hərəkətlərini məhdudlaşdırdığımı fikirləşirsən. Mənə marağını itirdiyini fikirləşirəm.

– Em, sənin darıxdırıcı olduğunu fikirləşmirəm.

– Mən də fikirləşmirəm! Mən də fikirləşmirəm! Valehedici olduğunu fikirləşirəm, bunu bir başa düşsəydin! Bunu başa düşməyəcəksənsə, ya da mənim sənə bəxşiş verildiyimi fikirləşməyə davam edəcəksənsə, özün bilərsən. Amma mən artıq bu cür davranışa dözmək istəmirəm.

– *Necə* davranışa?

Emma ah çəkdi, danışmamışdan əvvəl bir az dayandı.

– Həmişə başqa yerdə, başqa adamla olmağı istəyər kimi görünməyindən danışıram.

O, bunu inkar edə bilərdi, amma siqaret satan qız bu dəqiqə Deksterin telefon nömrəsi corabına soxuşdurulmuş vəziyyətdə restoranda onu gözləyirdi. Sonralar fikirləşəcəkdi ki, görəsən, bu vəziyyətdən çıxmaq üçün bir söz tapıb deyə bilməzdimi, ya nəsə bir zarafat. Amma ağlına heç nə gəlmədi və Emma əlini buraxdı.

– Yaxşı, daha gedə bilərsən, – Emma dedi. – Tədbirinə get. Məndən canını qurtardın. Azadsan.

Dekster gülməyə çalışdı. – Elə bil məni zibilliyə atırsan!

Emma qəmgin şəkildə gülümsədi. – Haradasa, elə belədi də. Sən daha əvvəlki sən deyilsən, Deks. Mən əvvəlkini, həqiqətən, həqiqətən, çox sevirdim. Mən çox istərdim ki, əvvəlki Dekster geri dönsün, ancaq nə qədər ki bu baş verməyib, bir də mənə zəng eləmə. – O çevrildi, bir az səndələyə-səndələyə Lester meydanı istiqamətində küçədən aşağı getməyə başladı.

Telegram: @cinciva

Bir anlıq Deksterin ağlına anasının dəfniylə bağlı ani, amma çox aydın bir xatirə gəldi; vanna otağında qıvrılıb uzanarkən Emma onun başının üstündə dayanıb saçlarını tumarlayırdı. İndi hər necəsə bununla heç nə kimi davranmış, dəyərsiz bir şey kimi götürüb atmışdı. Bir az arxasıyca getdi.

– Gəl, Em, biz hələ də dostuq, elə deyil? Bilirəm ki, son vaxtlar özümü bir az qəribə aparıram, bu, sadəcə... – Emma bir anlıq dayandı, amma arxaya çevrilmədi; Dekster onun ağladığını bilirdi. – Emma?

Sonra Emma sürətlə çevrildi, ona tərəf gəldi, üzünü tutub öz üzünə yaxınlaşdırdı, qulağına yavaşca və tez-tez nə isə dedi, yanaqları isti və yaşdı; bir anlıq Dekster bağışlandığını fikirləşdi.

– Dekster, səni çox sevirəm. Çox, həddindən çox və ehtimal ki, həmişə sevəcəm. – Dodaqları yanağına toxundu. – Sadəcə, daha səni xoşlamıram. Bağışla.

Sonra getdi, Dekster bu xəlvət döngədə bundan sonra nə edəcəyini təsəvvür etməyə çalışaraq tək-tənha qaldı.

Yan gecə yarısından bir az əvvəl qayıdanda Emmanın divanda qıvrılıb köhnə bir film izlədiyini görür. – Tez qayıtmısan. Qızıl oğlan necə idi?

– Çox pis, – deyə Emma mızıldanır.

Yan buna sevinsə də, hiss etdirməməyə çalışır. – Niyə, nə oldu?

– Bu barədə danışmaq istəmirəm. Bu gecə yox.

– Niyə yox? Emma, mənə danış! Nə dedi. Mübahisə elədiniz?..

– Yan, xahiş edirəm. Bu gecə yox. Sadəcə, bura gəl, olar?

Yanın da divana uzanması üçün bir az o tərəfə sürüşür və Yan Emmanın əynindəki paltarın onun üçün heç vaxt geymədiyi növdən bir geyim olduğuna fikir verdi. – Bunu geyinmişdin?

Telegram: @cinciva

Emma paltarın ətəyini barmaqlarının arasında tutur. – Səhv eləmişdim.

– Məncə, çox gözəl görünürsən.

Emma ona tərəf çevrilir, başını çiyninə qoyur. – Şou necə keçdi?

– Əla deyildi.

– İt-pişik hekayəsini göstərdin?

– Aha.

– Söz atan oldu?

– Çox az söz atdılar.

– Ola bilsin, bu ən yaxşı materialın deyil?

– Bir az fit çaldılar.

– Bu da işin bir hissəsidi, elə deyil? Bəzən hamının başına gəlir.

– Məncə də, elədi. Bəzən mənə elə gəlir ki...

– Nə?

– Özümün... o qədər də komik olmadığımı fikirləşirəm.

Emma Yanın sinəsinə tərəf deyir. – Yan?

– Hə?

– Sən çox, çox komik adamsan.

– Təşəkkürlər, Em.

Yan başını Emmaya dayayır və ürəyində nişan üzükləri olan, içi əzik ipək parçayla örtülü, tünd-qırmızı qutunu xəyalından keçirir. Son iki həftə ərzində gəzinti corablarına bükülmüş vəziyyətdə şkafın içində münasib vaxtı gözləyirlər. İndi vaxtı deyil. Üç həftəyə Korfu sahillərində olacaqlar. Üzü dənizə tərəf bir restoran təsəvvür edir; ay doğub, Emma yay paltarı əynində, təzə qaralıb və gülümsəyir; bəlkə aralarında bir kasa kalmar da olar. Üzükləri ona əyləncəli şəkildə verməyi təsəvvür edir. Bir neçə həftədir, beynində müxtəlif romantik komediya ssenariləri qurur; bəlkə

Telegram: @cinciva

Emma tualetdəykən üzüyü şərab stəkanına atdığını, ya da qızardılmış balığın ağzında tapıb ofisianta şikayət etdiyini fikirləşir. Kalmar halqaları arasına qoymaq; bu işə yaraya bilərdi. Bəlkə də, sadəcə, uzadıb verməlidi. Sözləri beynində sınaqdan keçirir. *Mənə ərə gələrsənmi, Emma Morli? Evlən mənimlə.*

– Səni çox sevirəm, Em, – deyir.

– Mən də çox sevirəm, – Emma deyir. – Mən də çox sevirəm.

Siqaret satan qız iyirmi dəqiqəlik fasiləsində kostyumunun üstündən pencək geyinib barda viski içərək, dayanmadan dostundan – pilləkənlərdən yıxılan o yazıq qəşəng qızdan danışan yanındakı kişiyə qulaq asırdı. Mübahisə etdikləri açıq-aydın görünürdü. Siqaret satan qız vaxtaşırı başını yırğalayaraq kişinin monoloquna yoldaşlıq edir, gizlicə saatına baxırdı. Gecə yarısına beş dəqiqə qalırdı və həqiqətən, işinə qayıtmaq məcburiyyətindəydi. Saat on ikiylə bir arası bəxşişin ən yaxşı, kişi müştərilərin kefinin və axmaqlıqlarının ən çox yüksəldiyi vaxtdı. Daha beş dəqiqə. Sonra o gedəcəkdi. Yazıq oğlan dura biləcək halda deyildi.

Onu axmaq televiziya proqramlarından xatırlayırdı – Syuki Medouzla görüşən bu deyildimi? – ancaq adını yada sala bilmədi. Görəsən, heç o proqrama baxan var idi? Oğlanın kostyumu ləkələnmiş, cibləri çəkilməmiş siqaret paketləriylə doluydu; burnunda yağlı bir parıltı vardı və nəfəsindən pis qoxu gəlirdi. Üstəlik hələ onun əsl adını belə soruşmağa çalışmamışdı.

Siqaret satan qızın adı Çeril Tomsondu. Əksər günlər yorucu olan tibb bacısı kimi işləyir, arada da burada çalışırdı; çünki məktəbə də gedirdi və bir az eşqbazlıq etməyə hazırsansa, bəxşişlər ağlasığmaz olurdu. Kilbörndəki evində nişanlısı onu gözləyirdi. Milo 2 metr on iki santimetr boyunda, italyandı; əvvəllər futbolçuydu, indi o da tibb qardaşıydı. Çox yaraşıqlı oğlandı, sentyabrda evlənəcəklər.

Telegram: @cinciva

Əgər bu adam soruşsaydı, hamısını danışardı; amma soruşmamışdı, beləcə, Müqəddəs Svitin günündə gecə yarısına iki dəqiqə qalmış ondan üzr istəyərək, – işimə qayıtmalıyam, yox, tədbirə gedə bilmərəm, hə, nömrəniz məndə var, ümid edirəm dostunuzla probleminizi həll edərsiniz, – adamı başqa içki sifariş verərkən barda tək qoyub getdi.

Telegram: @cinciva

ÜÇÜNCÜ HİSSƏ

1996 – 2001

30 – 35

Bəzən həyatımızda çox mühüm nəyinsə başladığını hiss eləyirik, bəzən də biz bunu illər sonra anlayırıq. İnsanlar bununla yaxşı tanışdır.

Ceyms Solter, *"Günləri sovurarkən"*

Telegram: @cinciva

Telegram: @cinciva

X fəsil

Məqamı yaxala

15 iyul. 1996-cı il. Bazar ertəsi

Leymonstoun və Uoltemstoy

Emma Morli direktorun otağında döşəməyə uzanıb ağır-ağır nəfəs alır; ətəyi qurşağınacan çırmanıb.

– Hə, yeri gəlmişkən, doqquzunculara "Sidr və Rouzi"[1]nin yeni nüsxələri gərəkdi.

– Baxaq da, görək neynirik, – direktor köynəyini düymələyə-düymələyə deyir.

– Deyirəm, elə sizin xalçada uzanmışkən bəlkə bir şeyi də müzakirə eləyək, hə? Məsələn, məktəbin büdcəsi və ya təhsil müfəttişinin gəlişləri ilə bağlı? Hansı suallara nəzər yetirmək istərdiniz?

– Mən ancaq sənə nəzər yetirmək istərdim,– o, qızın yanına uzanıb boynunu öpərək cavab verir. Cənab Qodalminq – Fil bu cür ikibaşlı atmacalar ustasıdı.

– Bu, nə deməkdi? Əlbəttə ki, heç nə.– Qız əsəbi şəkildə dilini şaqqıldadıb direktoru özündən aralayır və fikirləşir ki, niyə hətta ləzzətli sevişmələrdən sonra belə onun ovqatı təlx olur. Onlar qımıldanmadan yanaşı uzanıblar. Rübün sonu, axşam saat yeddinin

[1] "Sidr və Rouzi" (1959) – ingilis yazıçısı Lori Linin (1914 – 1997) kədərli-xiffətcil avtobioqrafik romanı.

Telegram: @cinciva

yarısında Kromvell-roud orta məktəbinə görünməmiş, iş vaxtından sonrakı sakitçilik çöküb. Artıq xadimələr gedib, kabinetin qapısı bağlıdı, hətta içəridən kilidlənib, ancaq o, heç cür rahat ola bilmir, elə bil iynə üstdədi. Məgər qarşılıqlı xoşbəxtliyinmi, nəyinmi xoş istiliyi heçmi hiss olunmayacaq? Artıq doqquz aydı ki, o, bu dövlət xalçasının, plastik stulların, laminat partaların üstündə seksiə məşğul olur. Fil öz əməkdaşlarının qayğısına o qədər qalır ki, hətta ofis kreslosunun toppuş yastığını götürüb, indi o yastıq qızın yambızının altındadı – ancaq qız elə istərdi ki, heç olmasa, bir dəfə təzə mebel üstdə sevişsin!

– Bilirsən nə var? – direktorun səsi eşidilir.

– Nə?

– Mənə elə gəlir ki, sən fövqəladəsən. – O, sözünün təsdiqi kimi qızın döşünü sıxır. – Bilmirəm, altı həftə sənsiz neynəyəcəm.

– Heç olmasa, bu xalçanın cırmaq yerləri bir az sağalar.

– Tam altı həftə sənsiz. – Saqqalı qızın boynunu qıdıqlayır. – Yüz faiz bağrım çatlayacaq sekssiz...

– Qəm yemə, xanım Qodalminqin xidmətlərindən doya-doya yararlana bilərsən, – qız deyir, elə bil öz səsini qıraqdan eşidir – iynəli, kinli bir səs. Başını qaldırıb oturur və ətəyini dizdən aşağı salır. – Mənə həmişə elə gəlib ki, uzun tətillər müəllimlik sənətinin ən üstünlüklərindən biridi. Bu işə düzələndə mənə belə də demişdilər.

O, uzandığı yerdən qıza incik şəkildə baxır:

– Em, belə demə.

– Nə?

– Özünü atılmış kimi göstərmə.

– Bağışla.

– Mən səndən az üzgün deyiləm.

– Mənə isə elə gəlir ki, məhz əksinədi.

Telegram: @cinciva

– Yaxşı da. Gəl hər şeyi korlamayaq, oldumu? – O elə bil təsəlli verirmiş kimi əlini qızın çiyninə qoyur. – Axı biz düz sentyabracan görüşməyəcəyik...

– Yaxşı, üzr istədim də. – Danışığın bitdiyini çatdırmağa çalışıb çevrilir, direktoru öpüb qalxmağa hazırlaşdığı vaxt əlinin qızın boynunun ardına qoyub onu öpür, saqqalı qızın dərisini yüngülcə cızır.

– Sənin çün çox darıxacağam.

– Bilirsən sən neynə? – qız deyib, yenidən onun dodağından öpür. – Ancaq bu çox sərt addım olacaq ha...

Direktor tələşlə ona baxır:

– Hə, de...

– Bu yay, rüb bitən kimi...

– De görək.

Qız barmağını onun çənəsinə toxundurur:

– Məncə, saqqalını qırxsan, yaxşı olar.

O, dərhal dikəlir:

– Mümkün deyil!

– Gör biz neçə vaxtdı bir yerdəyik, ancaq mən hələ də bilmirəm ki, sən, əslində, necə görünürsən.

– Elə bu cürəm də!

– Bəs üzün... axı üzün görünmür. Bəlkə də hələ sən daha yaraşıqlısan, hə... – Qız əlinin direktorun çiyninə qoyub onu yenidən xalçaya uzadır. – Görəsən, bu maskanın altındakı nədi? Fil, özünü aç mənə. Qoy səni olduğun kimi görüm.

Gülüşürlər, duman çəkilir.

– Qorxuram, onda məyus olasan, – o, sevimli küçüyünü sığalladığı kimi saqqalını sığallayaraq deyir. – Ondan əlavə, saqqalsız olsam, gərək gündə üç dəfə üzümü qırxam. Qabaqlar səhər üzümü qırxırdım, ancaq nahara yaxın artıq canilərə oxşayırdım.

Telegram: @cinciva

Ona görə də bu qərara gəldim: madam ki bu cür güllə kimi çıxır, qoy elə stilim belə olsun.

– Hə... demək, bu, sənin stilinmiş...

– Gülməli saqqaldı. Uşaqlar bəyənirlər. Mən bu cür qiyamçıya oxşayıram...

Emma yenidən gülümsəyir:

– Fil, indi min doqquz yüz yetmiş üçüncü il deyil. Bizim çağımızda saqqal qiyamçılıq nişanəsi sayılmır.

O, incik halda çiynini çəkir:

– Fionunsa xoşuna gəlir. Deyir ki, mənim zərif iradədən xəbər verən çənəm var. – Həmişə arvadını xatırladıqda olduğu kimi, ortaya sakitlik çökür. Bir az yüngüllük yaransın deyə özünü lağa qoymağa başlayır: – Yəqin, sən də bilirsən ki, uşaqlar məni Topasaqqal çağırırlar...

– Doğrudanmı? Birinci dəfədi, eşidirəm. – Fil gülür. Emma təbəssümlə əlavə eləyir: – Topasaqqal yox, Saqqal. Sən, sadəcə, Saqqalsan. Saqqal-Adam, üstəlik Tüklü Meymun.

O, qəfildən qaşqabağını tökərək dirsəklənib qalxır:

– Yox!

– Vay-vay. Onda bağışla.

– Tüklü Meymun, hə?

– Sənə belə deyirlər də.

– Kim?

– Uşaqlar.

– Tüklü Meymun?!

– Yoxsa xəbərin yoxdu?

– Xeyr!

– E-e, elə isə, bağışla.

Fil kürəyi üstə uzanıb incik-incik dillənir:

– Tüklü Meymun. İnana bilmirəm.

Telegram: @cinciva

– Zarafata deyirlər də, – Emma təsəlli verir. – Yamanlıqla demirlər ki.

– Ancaq elə yamanlıqla çıxır! – O, itini toxtadırmış kimi yenə də saqqalını tumarlayır. – Bu ona görədi ki, mənim testosteronum yüksəkdi, məsələ bundadı. – "Testosteron" sözü kefini açır, Emmanı özünə çəkib bir də öpür. Ondan dolabında gizlədiyi ucuz kofe və çaxır iyi gəlir.

– Boynum qızaracaq, – qız gileylənir.

– Olsun da?

– Hamı başa düşəcək.

– Heç kim qalmayıb burada. – Fil əlini onun ombasına qoyur, bu vaxt telefon zəng çalır, elə bil direktoru ilan sancır. Ləngərləyərək qalxır.

– Götürmə, – Emma, az qala, yalvarır.

– Olmaz!

O, şalvarını yuxarı çəkir, elə bil Fionayla şalvarsız danışsa, xəyanətkar olacaq: sanki səsindən bilinəcək ki, qurşaqdan aşağı lütdü.

– Salam! Hə, əzizim! Əlbəttə, bilirəm. Elə indicə çıxırdım...

– Arvadıyla ev işlərini götür-qoy eləyir, hansı yaxşıdı – şama makaron süzmək, yoxsa haradansa evə yemək sifariş vermək; televizora, yoxsa DVD-yə baxmaq. Məşuqəsinin ailə həyatının təfərrüatlarına maraq göstərmədən Emma ayağa qalxır, özünün masa üstə kağız sancaqları və diyircəkli qələm qapaqlarının arasında yatan büzüşmüş tumanını tapır. Geyinib pəncərəyə yanaşır. Şaquli jalüzləri toz basıb, günəşin çəhrayı şüaları qarşıdakı kimya kabinetini işıqlandırır və birdən Emmanın ürəyindən şiddətli bir arzu keçir – elə bu dəqiqə hansısa parkda, ya çimərlikdə, ya da hansısa Avropa şəhərinin meydanlarından birində olmaq; hara olur-olsun, bircə bu boğucu məktəb otağında evli kişiylə olmasın. Belə şey olar, bir gün səhər yuxudan ayılıb dərk eləyir ki, otuz yaşı var, özü

Telegram: @cinciva

də kiminsə məşuqəsidi? Bu elə zəhərli, elə murdar sözdü ki, onu heç ağzına almazdı, ancaq neynəsin ki, başqa cür dilə gəlmir. O, rəisinin məşuqəsidi, bu vəziyyətin də vur-tut bir yaxşı yanı var – heç olmasa, o kişinin uşağı yoxdu.

Onların eşq macərası – daha bir murdar söz – ötən sentyabrda, Korfa o qorxunc məzuniyyətdən sonra, kalmar nimçəsində nişan üzüyünü gördüyü çağdan başlamışdı. "Mənə elə gəlir ki, biz tamam başqa-başqayıq" – o vaxt bundan fərli bəhanə tapa bilməzdi. Sonrakı iki həftə elə bil duman içində keçmişdi: gün yanıqları, incikliklər, özünü kiçiltmələr və zərgərlik dükanı üzüyü geri götürəcək-götürməyəcək deyə keçirdiyi vahimələr. Nişan üzüyünün rədd edilməsindən kədərli nə ola bilər. Üzük radiasiya kimi qüssə saçaraq onların otel otağındakı çamadanda yatırdı.

O, məzuniyyətdən gündən qaralmış və bədbəxt halda qayıtdı. Üzük məsələsindən xəbər tutan kimi özünə toy pal-paltarı belə almış anası dəliyə dönüb həftələrcə, ta ki doğrumu, yanlışmı addım atdığından şübhələnməyə başlayanacan Emmanın ətini yeməyə başladı. Emmaya görə, "hə" demək güzəştə getməkdi, ancaq o, kitablardan bilirdi ki, əlacsızlıq ucbatından razılaşmanın sonu heç də yaxşı qurtarmır.

Fillə eşq macərası onun bütün problemlərini yoluna qoydu. Elə-belə görüşlərinin birində gözlərinin qorasını direktorun otağında doyunca sıxandan sonra Fil stoldan qalxdı, gəlib sevincək onu qucaqlayaraq elə bil "off, axır ki" deyərcəsinə boynundan öpdü. İşdən sonra onu haqqında çoxdan eşitdiyi bir yerə apardı; "Dadlı-pab"dı, adından da görünürdü ki, burada təkcə pivə yox, dadlı yemək də verilir. Yeməyə bifşteks və keçi pendirindən salat sifariş elədilər, masanın altında ayaqları toqquşan kimi isə o, hər şeyi Filə danışdı. İkinci çaxır şüşəsindən sonra, sadəcə, bu işə nöqtə qoymaq qalırdı; qucaqlaşmaları taksidə öpüşlər əvəz elədi, çox

Telegram: @cinciva

keçmədən isə öz poçt qutusunda qəhvəyi zərf gördü ("Ötən gecə ilə bağlı – daim səni düşünürəm, illərdi ki, səndən xoşum gəlir, nə vaxt danışa bilərik?")

Emma ər-arvad xəyanətləri ilə bağlı hər şeyi 1970-ci illərin seriallarından öyrənmişdi. Çinzano, idman avtomobilləri, şərablı, pendirli mərasimlər – ona orta yaşdan, orta sinifdən olan adamları xatırladırdı. İndi özü bu duruma düşmüşdü: zinanın, xəyanətin bütün atributları – oğrun baxışlar, masa altda sıxışan əllər, gizlin öpüşlər – hər şeyin nə qədər tanış olduğuna, illah da, günah hissinin yelbeyinliyi ilə birləşib necə güclü həyəcan yaratdığına heyrətlənirdi.

Bir dəfə gecə o, qızın quruluş verdiyi yeni il tamaşasının – bu dəfə "Briolin" müzikli qoyulmuşdu – dekorasiyaları arasında seksdən sonra təntənəli şəkildə ona bir hədiyyə qutusu uzatdı.

– Mobil telefon!

– Bir də gördün səsini eşitmək istədim.

Şəffaf "Briolin ildırım"ın[1] kapotunun üstündə oturan qız qutuya baxaraq içini çəkdi:

– Gec-tez olmalıydı bu.

– Yoxsa hədiyyəmi bəyənmədin?

– Nə danışırsan, hədiyyəyə söz ola bilməz. – O, öz xatirələrinə dalıb gülümsündü. – Sadəcə, mən elə bu dəqiqə bir mərci uduzmuşam.

Bəzən onlar aydın payız axşamlarında parkın kimsəsiz hissəsində gəzib-dolaşır, söhbətləşir, bəzən məktənin Mövlud bayramı xidmətləri zamanı laqqırtı vurur, qlintveyn içir, hiss olunmadan

[1] "Briolin ildırım" – Brodvey səhnələşdirməsində "Briolin" filminin qəhrəmanı öz avtomobilini belə adlandırır. O, bu avtomobili dostlarıyla günlər keçirdiyi qarajda özü quraşdırır.

Telegram: @cinciva

bir-birinə qısılırdılar. Belə vaxtlarda ona elə gəlirdi ki, Filip Qodalminqə aşiq olub. O, xoşagələn, ciddi, həvəsli müəllimdi, hətta bəzən bir özündənrazı təsiri bağışlayırdı. Onun yaraşıqlı gözləri vardı, hətta məzəli də görünürdü. Qız həyatında ilk dəfə qarşısıalınmaz cinsi istəyə qapıldı. Filin, haradasa, qırx dörd yaşı vardı, yaşlanmışdı, şubasının tükləri altında bədəni qıcqırmış xəmirə oxşayırdı, amma ehtiraslı və diqqətli məşuqdu, bəzən hətta həddən artıq ehtiraslıydı; sevişdikləri vaxt üzü son dərəcə gərilir, özü də ağzına gələn söyüşləri bağırırdı. Qız inana bilmirdi ki, bütün məktəbin qarşısında dayanıb xeyriyyəçilikdən danışan bu adam ağzına belə kəlmələr gətirə bilər. Bəzən hətta ürəyindən keçirdi ki, onun yaxasından çəkib desin: "Cənab Qodalminq, bu nə sözlərdi deyirsiniz!"

İlk görüşlərindən doqquz ay keçəndən sonra başlanğıcdakı həyəcanlar səngidi, artıq ona gün-gündən çatmırdı ki, burada neynir – bu gözəl yay axşamlarında məktəb dəhlizlərində nə iti azıb. Ondansa dostları, ya da fəxr elədiyi, başqalarının yanında adını çəkməkdən utanmadığı sevgilisi ilə gəzərdi. Yoxsa günah və utancdan qaşlarını çatıb kişi tualetinin ağzında gözləyir ki, Fil haçan məktəb sabunuyla yuyunub çıxacaq. İngilis dili və aktyorluq sənəti müəllimi, direktorun da məşuqəsi. Dəli olmayıb, neynəyəsən!

– Mən hazır, – tualetdən çıxan Fil deyir.

Qızın əlini əlinə alır – ovcu hələ də nəmdi, – ancaq açıq havaya çıxan kimi ehtiyatla buraxır. Qapını bağlayır, siqnalizasiyanı qoşur, qürub günəşinin işığında peşəkar ara saxlayaraq maşına doğru gedirlər. Onun dəri çantası arabir qızın topuğuna dəyir.

– Səni metroyacan aparardım, ancaq...

– Lazım deyil, qoy bizi məktəbdən qıraqda qoşa görməsinlər.

Bir az da yanaşı addımlayırlar.

Telegram: @cinciva

– Hələ daha dörd günümüz var! – Fil sükutu pozmaq üçün xəyalpərvərliklə deyir.

– Bu dəfə səfəriniz hayanadı? – qız bunu bilsə də, soruşur.

– Korsikaya. Əməlli-başlı gəzəcəyik. Fionanın piyada gəzməkdən ötrü ürəyi gedir. Onu nə vaxtdı tanıyıram, həmişə bu cür gəzməkdən doymur, gəz ki gəzəsən... Qandi kimi. Axşamsa botularını ayağından sivirən kimi yuxuya gedir.

– Fil, çox xahiş eləyirəm, lazım deyil.

– Bağışla. Bağışla. – Söhbəti dəyişmək üçün soruşur: – Bəs sən hayana hazırlaşırsan?

– Bəlkə Yorkşirə – evimizə getdim. Ya da burada qalıb işlədim.

– İşləmək?

– Bilirsən də. Kitabımı yazmağa başlayacam.

– Hmm... kitabını... – Başqaları kimi o da bu sözü elə tələffüz eləyir ki, elə bil ona inanmır. – Sənin bu məşhur kitabın təsadüfən bizim haqqımızda deyil?

– Yox, bizdən deyil. – Maşına yaxınlaşırlar, qız onunla sağollaşmağa tələsmir. – Hesab eləmirəm ki, bu mövzu elə maraqlı ola.

O, təntənəli şəkildə vidalaşmağa hazırlaşaraq öz mavi "Ford"unun damına dirsəklənir, qız isə, beləcə, hər şeyi korlayır. O, qaşqabağını sallayıb saqqalının arasından görünən çəhrayı alt dodağını irəli verir.

– Nə demək istəyirsən?

– Bilmirəm, elə-belə.

– Hə, de.

– Fil, bizə aid şeyləri deyirəm. Heç xoşuma gəlmir bunlar.

– Özünü bədbəxt sayırsan?

– Boynuna al ki, bizim əlaqəmizi ideal saymaq olmaz. Həftədə bir yol, məktəb xalçasının üstündə.

– Mənə elə gəlirdi ki, narazılığın yoxdu.

Telegram: @cinciva

– Onu demək istəmirəm ki, sən seksual cəhətdən məni razı salmırsan. Burada seksdən söhbət getmir, məni öldürən... vəziyyətdi.

– Mənə isə hər şey çox xoşdu.

– Düz sözündü? Həqiqətən, hər şey ürəyincədi?

– Xatırladığım qədərilə sənin çün də hər şey xoş idi.

– Hə, əlbəttə, qabaqlar yaxşı idi.

– Allah xətrinə, Emma!.. – O, qıza əsəblə baxır, eynən qızlar tualetində siqaretlə yaxaladığı qızlar kimi. – Nə isə, mən getməliyəm! Niyə sən məhz vaxtımın belə qıt vaxtı bu haqda danışdın axı?

– Üzr istəyirəm, mən...

– Ciddi sözümdü, Emma, xeyir idimi!

– Bura bax! Mənnən belə danışma.

– Elə danışmıram, mən, sadəcə... sadəcə... Yaxşısı, gəl yay tətilini gözləyək, ok? Sonra baxarıq neynirik.

– Mənəsə elə gəlir ki, burada eləyəsi heç nə yoxdu. Ya davam eləyəcəyik, ya da bir də görüşməyəcəyik, əslində, məncə, heç dəyməz də.

– Biz belə də eləyə bilərik, – o, səsini endirib deyir. – Daha doğrusu, mən. – O, ətrafa boylanır, yörədə bir kəsin olmadığına əmin olub qızın əlindən tutur. – Bu yay ona hər şeyi deyəcəm.

– Fil, istəmirəm ona deyəsən.

– Məzuniyyətdə olanda, bəlkə ondan da tez, üzümüzə gələn həftə...

– Fil, onun bilməyini istəmirəm. Axı nə mənası?

– Nə mənası?

– Heç bir!

– Məncə isə, var mənası, düşünürəm ki, bu elə də pis ideya deyil.

Telegram: @cinciva

– Əla! Gəl bunu gələn rüb götür-qoy eləyək, gəl.. nə bilim e... bir gün təyin elərik də.

O, bir az canlanıb dodaqlarını yalayır və yenə də kimsənin görmədiyinə əmin olmaq üçün yörəyə boylanır.

– Sevirəm səni, Emma Morli.

– Yox, sevmirsən, – qız içini çəkir. – Ürəkdən deyil.

O, başını aşağı əyib, eynəyin üstündən baxırmış kimi qıza baxır:

– Buna artıq mən özüm qərar verirəm, oldumu?

Onun müdir ədasından, baxışından qızın zəhləsi gedir – bu, o qədər dözülməzdi ki, ürəyindən onu təpikləmək keçir.

– Yaxşısı, sən çıx get, – Emma deyir.

– Em, sənincün darıxacam...

– Hər ehtimala, zəngləşəmməsək, indidən sənə yaxşı istirahətlər...

– Ağlına belə gətirəmməzsən ki, sənincün necə darıxacam.

– Korsika – sadəcə, fövqəladədi.

– Hər gün.

– Yaxşı, görüşərik, hələlik.

– Gözlə. – Çantasını qalxan əvəzi üzünə sarı qaldırıb onu öpür. Emma sakitcə dayanıb, onun çox tədbirli olduğunu fikirləşir. O, maşının qapısını açıb əyləşir. Tünd- mavi "Ford Syerra": topoqrafik xəritələrlə dolu, direktora layiq avtomobil. – Hələ də inana bilmirəm ki, onlar məni Tüklü Meymun adlandırırlar, – başını yelləyib donquldanır.

Qız boş dayanacaqda durub onu gözlərilə yola salır. Onun otuz yaşı var, demək olar, sevmədiyi evli kişiylə görüşür, hələ yaxşı ki, uşağı yoxdu.

Telegram: @cinciva

İyirmi dəqiqə sonra o, qırmızı kərpicdən olan, öz mənzilinin də yerləşdiyi uzun, alçaq binanın pəncərəsi altında dayanıb, qonaq otağında işığın yandığını görür. Demək ki, Yan gəlib.

Fikirləşir ki, bəlkə gedib hansısa pabda otursun, ya dostlarına baş çəksin, ancaq bilir ki, ta o gələnəcən Yan kresloda oturub, işığı da keçirmədən muzdlu qatil kimi gözləyəcək. Dərindən ah çəkib açarları axtarır.

Yan buraya köçən ildən bəri mənzil daha geniş görünməyə başladı. Onun doldurucu cihazı, adapterləri, kabelləri, karton zərflərdəki vinil valları olmadan mənzil elə görünürdü ki, elə bil lap təzəlikcə çapmışdılar, Emma o fikrə gəlir ki, bu on ildə nə qədər az əşya yığıb. Yataq otağından xışıltı gəlir. O, çantasını çiynindən çıxarıb sakitcə qapıya yaxınlaşır.

Komod çəkmələrinin içindəkilər döşəməyə səpələnib: məktub, bank çıxarışları, foto və neqativlərin cırılmış kağız zərfləri. Qapının ağzında sakitcə, nəzərə çarpmadan dayanıb bir ara Yanı süzür: o, darısqallıqdan fınxıraraq əlini çəkmələnin lap dərinliyinə soxmağa çalışır. Yanın ayağında bağsız idman ayaqqabısı, əynində məşq tumanı və ütüsüz köynək var. Geyimini elə diqqətlə seçib ki, onun emosiyalarını, həyəcanını ən yüksək dərəcədə çatdıra bilsin. O, qızın əhvalını korlamaq üçün belə geyinib.

– Yan, nə iş görürsən?

Onun üzündə bir anlıq heyrət ifadəsi görünür, bundan sonra yenidən küskün oğru sifəti alır.

– Sən, deyəsən, çox gecikibsən, – suçlayıcı tərzdə dillənir.

– Sənə nə var?

– Məni ancaq o maraqlandırır ki, sən harada avaralanırsan.

– Tamaşanın məşqlərindəydim. Yan, yanılmıramsa, biz danışmışdıq ki, sən xəbər eləmədən gəlməyəsən.

– Nədi, yoxsa tək deyilsən?

Telegram: @cinciva

– Yan, mənim sənlə sözləşməyə zərrəcə həvəsim yoxdu. – Çantasını yerə qoyub kürkünü çıxarır. – Sən mənim gündəliyimi, ya nəsə elə bir şey axtarırsansa, vaxtını boşuna itirirsən. Artıq neçə ildi ki, gündəlik yazmıram.

– Mən öz şey-şüyümü axtarıram. Bilirsənmi, şəxsi, özümə məxsus şeylərimi.

– Sən hər şeyini aparıbsan.

– Mənə pasportum lazımdı. Onu itirmişəm!

– Sənə bunu dəqiq deyə bilərəm ki, mənim tumanlarımın çəkməcəsində onu çətin tapasan. – Əlbəttə ki, yalan deyir. O, yaxşı bilir ki, Yanın pasportu itib-eləməyib, sadəcə, bəhanə lazımdı ki, onun əşyalarının içində eşələnib kefsiz olduğunu göstərsin. – Yaxşı, nəyinə lazımdı o? Harasa gedib-eləyirsən ki? Olmaya, mühacirət fikrinə düşübsən?

O, mıqqıldanaraq:

– O-oo, elə ürəyindən keçən budu! – deyir.

– Nə gizlədim, heç etiraz eləməzdim, – qız vurğulayır, kağız qalaqlarının üstündən keçib çarpayıda oturur.

– Yox, əzizim, bəxtindən küs, çünki heç yerə gedib-eləmirəm, – o, "yaman polis" ağzıyla deyir. Yan komiklər kimi onda heç vaxt çatışmayan qeyrət və şövqlə atılmış sevgili rolunu elə oynamağa başlayır ki, bu dəfə də zərbə alır. – Bir də, mənim o imkanım haradaydı.

Onun ürəyindən Yanı alçaltmaq keçir.

– Deyəsən, son vaxtlar yumoristik tədbirlərə az-az dəvətnamə alırsan axı?

– Bəs sən necə fikirləşirsən, əzizim? – O, əllərini yana açır, qırxılmamış üzünü, yuyulmamış saçını, solğun üzünü və tam görünüşünü göstərib: "Gör nə günə qoyubsan da məni", – deyir. Bu, açıq-aydın şəkildə özünə rəhm dilənməkdi, altı aylıq hazırlıqlardan sonra öz tənhalığını göstərməyə çalışan bir aktyorun şou-

Telegram: @cinciva

sudu, ancaq indi Emma qətiyyən bu tamaşanı seyr edəcək ovqatda deyil.

– Yan, mənə əzizim demək də təzə vərdişindi? Xoşuma gəldiyindən heç əmin deyiləm.

Yan yenidən axtarışa başlayır, nəsə çəkməcənin üstünə çımxırır, bəlkə də "Lənətə gələsən, Em", – deyir. Bəlkə keflidi? Tualet masasının üstündə açılmış ucuz tünd pivə bankası var. Pivə... Hə, bu, ağıllı fikirdi. Emma elə bu dəqiqə, vaxt itirmədən içmək istəyir. Niyə də içməsin? Axı bunun hamıya köməyi dəyir. Öz fikrindən həvəslənərək içmək üçün mətbəxə gedir.

Yan onun arxasınca düşüb:

– Yaxşı, indi de görək haradaydın, – deyir.

– Dedim axı. Məktəbdə, məşqdəydim.

– Bəs nəyi məşq edirdiz?

– "Baqsi Meloun"[1]. Çox məzəlidi. İstəyirsənsə, iki bilet təşkil eləyə bilərəm?

– Yox, sağ ol.

– Orada su tapançalarından atacaqlar.

– Mənə isə elə gəlir ki, sən kişi yanından gəlirsən.

– Qoy görək e, elə dediyindən tutubsan. – Soyuducunu açır. Yarımçıq çaxır var, ancaq indi ona daha tünd bir şey lazımdı. – Yan, sənin başına haradan girib ki, mən kimnənsə gəzirəm? Niyə razılaşmaq istəmirsən ki, bizimki tutmur? – O, soyuducunun buz bağlamış qapısını şaqqıltıyla açır. Buz parçaları döşəməyə səpələnir.

– Doğru deyil!

– Lap yaxşı, sən deyən olsun, onda gəl yenə bir olaq!

---

[1] "Baqsi Meloun" (1976; rejissor Alan Parker) – qanqster mövzusunda ingilis parodiya-müzikli.

Telegram: @cinciva

Buzxanada haçandan bəri qaldığı bilinməyən ət fəsəlisi qutusunun arxasında araq şüşəsi görür. – Ura! – Emma fəsəliləri Yana uzadır. – Al, götür. İndi sən onların qanuni hamisisən. – O, soyuducunu bağlayıb stəkan götürür. – Yeri gəlmişkən, tutaq ki, mən kiminləsə gəzirəm, Yan, de görüm bundan sənə nə? Yadından çıxıb ki, biz daha görüşmürük?

– Nəsə xatırlayıram. Bəs o, kimdi?

O, özünə bir barmaq araq süzür:

– Kimi deyirsən?

– Sənin təzə dostunu, başqa kim olacaq! Mənə hər şeyi danışa bilərsən, etiraz eləmirəm. – O, ikrahla qımışır. – Biz axı hələ də dostuq.,

Emma araqdan bir udum alır, əyilib masaya dirsəklənir, ovcuyla gözlərini qapayır. Buzlu maye axıb qida borusundan aşağı tökülür. Bir az ötür.

– Cənab Qodalminq. Məktəb direktoru. Artıq doqquz aydı ki, eşq macərası yaşayırıq və mənə elə gəlir ki, deyəsən, burada seksə can atan, əsasən, mənəm. Düzünü desəm, nə cürsə bizim ikimizçün də bu işlə məşğul olmaq yaxşı deyil. Mən hətta, haradasa, xəcalət də çəkirəm. Məyus oluram. Ancaq bunu da heç vaxt yadımdan çıxarmıram ki, heç olmasa, onun uşağı yoxdu! – Gözünü stəkanın dibinə dikir. – Bax indi sən hər şeyi bilirsən.-

Mətbəxdə sükut hökm sürür. Axır ki, Yan dillənir:

– Məni ələ salırsan.

– Sən elə pəncərəyə bax, eləcə göz yetir, özün görəcəksən. O, maşında gözləyir. Tünd-göy "Ford Syerra".

Yan yenidən qımıldanır – ona inanmağı gəlmir.

– Emma, heç də gülməli deyil.

Emma stəkanı masaya qoyub yüngülcə köks ötürür.

– Bilirəm, gülməli deyil. Bu vəziyyəti heç cür gülməli adlandırmaq olmaz, hayandan baxırsan bax. – Çevrilib Yanin üzünə ba-

Telegram: @cinciva

xır. – Sənə demişəm ki, artıq heç kimlə görüşmürəm. Heç kimə vurulmamışam, heç fikrim də yoxdu. İstədiyim budu ki, sadəcə, məni sakit buraxsınlar.

– Mənim bir nəzəriyyəm var, – o, özünü çəkib xəbər verir.

– O, nə nəzəriyyədi elə?

– Sənin kiminlə görüşdüyünü bilirəm.

Emma içini çəkir:

– Kiminlə, Şerlok?

– Deksterlə! – təntənəylə elan eləyir.

– Of, ilahi... – Emma arağı son qurtumunacan başına çəkir.

– Deyəsən, lap gözündən vurdum axı?

Emma həvəssizcə gülümsəyir:

– Kaş ki elə olaydı...

– Bu, nə deməkdi?

– Heç nə. Yan, çox yaxşı bilirsən ki, mən neçə aydı Deksterlə kəlmə də kəsməmişəm.

– Elə deyəcəksən də!

– Yan, sən, sadəcə, çox gülməli görsənirsən. Elə bilirsən, onunla aramızda hamıdan gizlədiyimiz bir eşqbazlıq var, hə?

– Hə də, bütün dəlillər bunu deyir.

– Dəlillər? O, nə dəlillərdi elə?

Gecə boyu ilk dəfə Yanın üzündə xəcalət ifadəsi var.

– Sənin dəftərlərin.

Bir an keçir, Emma stəkanı bir az yana qoyur ki, caşıb Yana tolazlamasın.

– Sən mənim dəftərlərimi oxuyubsan?

– Elə-belə, gözümün ucuyla baxmışam. İkicə dəfə. Ötən illərdə.

– Ay səni, donuz!

– Şeirlər, Yunanıstanda doqquz ecazkar gün, o qədər ehtiras, o qədər istək...

Telegram: @cinciva

– Sən hələ bunda cürətə bax! Onları gizlində oxumağa necə cürət elədin, hə!

– Hara gəldi tullamışdın onları. Bəs onda nə fikirləşirdin?

– Fikirləşirdim ki, sənə etibar eləmək olar, heç olmasa, bir damcı da olsa, ləyaqətin var!

– Mənim heç oxumağa ehtiyacım da yox idi. Belə də, qaranlıq heç nə yoxdu sizin bu...

– Bəsdi, Yan, səbrimi tamam tükətdin! Artıq neçə aydı ki, sən ləliyib zarıyır, qulağımın dibində züyüldəyib, əzişdirilmiş köpək kimi yanımdan çəkilmirsən! Yadında saxla, bir də xəbər eləmədən gözümə görünsən, çəkməcələrimdə eşələnsən, nəyə deyirsən and içirəm ki, polis çağıracam.

– Elə isə, dayanma! Çağır! – O, Emmaya sarı bir addım atır, qollarını aralayıb bapbalaca otağa sığmır. – Bəlkə yadından çıxıb ki, bu həm də mənim mənzilimdi?

– Nə danışırsan? Axı sən indiyəcən bu ev üçün bir qəpik xərcləməyibsən! Hər şey üçün mən öz cibimdən xərcləmişəm. Sən isə əlini ağdan qaraya vurmadan bircə onu bilibsən ki, divanda uzanıb yazıqlanasan...

– Yalan demə!

– Qazandığın üç-beş qara quruşu da öz səfeh kinolarına, bir də ağulanmağına xərcləyibsən!

– Mənim də ödədiyim hesablar olub! Yeri gələndə!

– Onunla kar aşmazdı! İlahi, mən bu evə nə qədər nifrət eləyirəm, necə zəhləm gedir burada yaşamaqdan. Çıxıb buradan getməsəm, yüz faiz havalanacam.

– Bu, ikimizin eviydi! – Yan şiddətlə etiraz eləyir.

– Mən bu evdə heç vaxt xoşbəxt olmamışam, Yan. Kor olmayıbsansa, görübsən. Bu dəliyə əməlli-başlı pərçim olmuşam mən, elə sən də. Necə olub ki, hiss eləməyibsən?

Telegram: @cinciva

Yan ilk dəfəydi ki, onu belə görürdü, hələ bu cür danışdığını eşitməmişdi. Elə sarsılmışdı ki, ödü qopmuş uşaq kimi gözləri girdələnmişdi. Dili dolaşa-dolaşa qıza yaxınlaşır.

– Sakitləş bir! – Qızın əllərindən tutur. – Belə danışma.

– Əl çək məndən! Mən zarafat eləmirəm, Yan! Əl çək!

Bir-birinə qışqırırlar, qız isə fikirləşir: İlahi, biz gecələr səsi qonşu-bacanı başına götürən başdanxarab ailələrə dönmüşük: içirlər və budur, başlayırlar böyürməyə. Yəqin, indi hansısa qonşu götür-qoy eləyir – polis çağırsın, ya yox? Bu cür də həyat olar?

– Rədd ol buradan! – qızın nəfəsi təntiyir, o isə var qüvvəsilə onu qucaqlamağa çalışır. – Açarı ver mənə, özün də cəhənnəm ol, görmək istəmirəm səni.

Sonra heç gözlənilmədən ikisi də haçansa ancaq xoş ümidlərlə birlikdə aldıqları mənzilin dar dəhlizinin döşəməsinə çöküb ağlamağa başlayır. Yan əlləriylə üzünü qapayıb hıçqırtılar arasında nəfəs dərərək nəsə deməyə çalışır.

– Daha bacarmıram. Axı niyə mənim başıma gəlir bu işlər. Bu, cəhənnəm əzabıdı. Cəhənnəmdəyəm mən, Em, cəhənnəmdə!

– Başa düşürəm. Çox üzgünəm. – Yanın çiyinlərini qucaqlayır.

– Axı niyə sevmirsən də məni? Niyə eləcə məni sevməyə başlayammırsan? Məgər haçansa sevməyibsən? Lap qabaqlar?

– Əlbəttə.

– İndi yenidən sevməyinə nə mane olur?

– Ah, Yan, sadəcə, bacarmıram. Çalışdım, amma bacarmıram. Çox, çox təəəssüflənirəm...

Bir qədər keçəndən sonra onlar elə həmin yerdəcə – döşəmə üstə uzanıb qalıblar, elə bil dalğa sahilə atıb. Emma başını onun çiyninə qoyub, qolunu sinəsindən aşırıb qucaqlayıb, isti, ilıq, rahat qoxusunu alır, o, bu qoxuya alışmağa belə macal tapıb. Yan, axır ki, dillənir:

Telegram: @cinciva

– Gecdi, mən gedim.

– Hə, məncə də.

Emma onun qızarmış gözlərini, şişmiş sifətini görməsin deyə başını yana çevirir, dikəlib oturur və bir büküm kağızı, dəftərçəni, şəkli yataq otağının döşəməsinə tolazlayır:

– Bilirsənmi, məni ən çox öldürən nədi?

– Nə?

– Sənin lə qoşa şəklimizin olmamağı. İkilikdə çəkdirdiyimiz. Dekslə birgə minlərlə şəklin var, ancaq ikimiz birlikdə – demək olar ki, yoxdu. Ən azı, son illərdə. Elə bil oturub qərara gəlmişik ki, bir də qoşa şəkil çəkdirməyək.

– Fotoaparatımız çox sarsaqdı, – qız tərəddüdlə deyir, Yan da etiraz eləmir.

– Bağışla, – deyir, – belə alındı, evinə soxulub şeylərini töküşdürdüm. Əlbəttə ki, axmaq iş tutmuşam.

– Bağışlayıram. Ancaq bir də olmasın.

– Öz aramızdı, sənin bəzi hekayələrin pis deyillər a, bilirsən?

– Sağ ol. Ancaq sən oxumamalıydın onları.

– Niyə ki? Gizləməyin mənası nədi? Onları kiməsə mütləq göstərməlisən. Təkcə özünçün yazmağa son qoymalısan.

– Bəlkə elə də elədim. Haçansa.

– Şeirləri demirəm, şeiri üzə çıxarmasan da olar. Hekayələrdən danışıram mən. Çox yaxşı alınıblar. Yazmaq pis alınmır səndə. Sənin başın işləyir.

– Təşəkkür, Yan.

Yanın dodaqları titrəməyə başlayır:

– Yəni sənə gerçəkdən də elə pis idi? Mənimlə burada yaşayanda?

– Əntiqə idi. Ancaq elə alındı ki, acığımı səndən çıxarmaq istədim.

– Danışmaq istəyirsən?

Telegram: @cinciva

– Nədən danışacağıq ki...

– Aydındı.

– Hə.

Bir-birinə baxıb gülümsəyirlər. O, əlini qapının dəstəyinə qoyub, ancaq heç cür gedə bilmir.

– Hə, bir şeyi də soruşmaq istəyirdim.

– De görək.

– Sən onunla görüşmürsən, yox? Deksterlə. Yoxsa təmiz dəli oluram.

Qız içini çəkib başını yırğalayır:

– Yan, həyatıma and içirəm ki, Deksterlə görüşmürəm.

– Dediyim odur ki, bu gün qəzetdə onun sevgilisindən ayrıldığını oxudum, fikirləşdim ki, biz də ayrılmışıq, demək, indi o, sərbəstdi...

– Mən Deksteri bilirsən nə vaxtdı görmürəm... Nuh əyyamından.

– Bəs aranızda bir şey olubmu? Biz bir yerdə olanda? Deksterlə aranızda mənim bilmədiyim bir şey olubmu? Bilirsən, mən buna dözə bilmərəm, əgər...

– Yan, mənimlə Deksterin arasında heç vaxt heç nə olmayıb, – artıq onun çıxıb gedəcəyinə və suallarını kəsəcəyinə ümid eləyib deyir.

– Ancaq sən istəyirdin, hə?

İstəyirdimi? Yəqin ki, bəzən. Yox, tez-tez.

– Yox. Yox, istəmirdim. Biz yalnız dostuq.

– Yaxşı. Oldu. – O gülümsəməyə çalışaraq qıza baxır. – Em, bilirsən, sənin üçün necə darıxıram!

– Bilirəm.

O, əlini qarnına qoyur:

– Çox çətindi mənə...

– Keçər.

Telegram: @cinciva

– Doğrudan? Mənə elə gəlir ki, dəli oluram.

– Səni anlayıram. Ancaq əlimdən heç nə gəlmir, Yan.

– Məncə, sən hər vaxt... fikrini dəyişə bilərsən.

– Bilmərəm. Dəyişmərəm də. Bağışla.

– Di yaxşı. – O, çiynini çəkir, dodaqlarıyla gülümsəyir – Sten Loren[1] kimi. – Ancaq bir şey soruşmaq olar da?

– Məncə, dünya dağılmaz.

– Unutma ki, mən hələ də səni dalıyekə Emma sayıram.

– Özünsən dalıyekə, Yan. – Gülümsəyir, çünki bilir ki, Yan ondan bunu gözləyir.

– Nə isə, burada mıxlanıb, sənin lə mübahisə eləməyəcəm! – İçini çəkir, daha özünü şən göstərməyə halı qalmayıb. Qapının dəstəyini çəkir. – Di yaxşı. Xanım Morliyə salamımı çatdır. Görüşərik.

– Hələlik.

– Sağlıqla qal.

O çevrilir, qapını özünə tərəf elə çəkir, guya alnına dəydi. Emma həvəssizcə gülümsünür, Yan dərindən ah çəkib çıxır. Qız isə bir qədər də döşəmədə oturub qalır, sonra birdən tam qərarlı şəkildə qalxır, açarı götürüb mənzili tərk edir.

Yatmış rayonun yay gecəsinin səsləri onu bürüyür: bağırtı, çığırtı evlərin divarlarında əks-səda verir. Hələ də adda-budda "Müqəddəs Georgi gününüz mübarək"[2] yazılmış bayraqlar asılıb qalıb. O, bayırda gəzişir. Məgər onu belə vaxtlarda böhrandan çıxaracaq yaxın rəfiqələrinin olmasını arzulamamışdımı? Məgər o, indi yumşaq divanda, altı-yeddi dəbgir şəhər qızının əhatəsində oturmamalıydımı, bəs elə böyük şəhərdə həyatın mənası elə bu deyilmi? Ancaq onun bütün rəfiqələri burdan iki saatlıq məsafədə

---

[1] Sten Loren (1890–1965) – Amerika aktyoru, komik.

[2] Müqəddəs Georgi günü – İngiltərənin milli bayramı. Aprelin 23-də qeyd olunur.

Telegram: @cinciva

yaşayırlar, ya da gecəni öz ailələri, öz oğlanlarıyla keçirirlər. Xoşbəxtlikdən şən dostların yoxluğunun yerini dolduran "Hər gün içək" kimi depressiv, qəribə adlı şərab dükanları varmış dünyada.

Meydanda velosiped sürən azyaşlı cinayətkarların qarşısına çıxanda adamın üzünü çərtirlər, ancaq onu heç nəynən qorxutmaq olmaz: başını dik tutub, düz üstlərinə gedir. Elə də nabələd olmadığı şərablardan birini seçib, kassada növbəyə durur. Ondan öndə duran oğlanın üzünə hörümçək toru döyülüb, o, iki litr ucuz sidrin pulunu xırdalarla sayıb ödəyəcəyini gözləyəndə birdən şüşə dolabda toz basmış şampan şüşəsi görür.

– Lütfən, mənə bir şüşə şampan şərabı da verin, – Emma deyir.

Satıcı şübhəylə ona baxır, ancaq görür ki, pulu var – bərk-bərk ovcunda sıxıb.

– Nəsə bayramdı sizdə?

– Hə, – cavab verir. – Bu gün mənimçün böyük bayramdı. – Bir an sonra əlavə eləyir: – Bir qutu da "Marlboro".

Şüşələri paketə büküb dükandan çıxır, damağına siqaret qoyur, elə bil can dərmanıdı. Birdən kimsə deyir:

– Miss Morli?

Emma hürkərək çevrilir.

– Miss Morli! Mən buradayam!

Sonya Riçardsdı – onun sevimlisi, uzun ayaqlarıyla yaxınlaşır. Arıq, ömrü boyu incik qızdı, məktəb tamaşalarında Plut Doceri oynayardı, deyəsən, əməlli-başlı dəyişib. İndiki Sonya ucaboy, özünəinamlı, ipək kimi saçlarıyla əsl gözəldi. Buradaca Emma dəqiq təsəvvür eləyir – qıraqdan necə görünür və necə görməlidi onun Sonyası: çiyinləri sallaq, ağlamış gözlər, ağzında siqaret, özü də "Hər gün içək" dükanının qabağında. Halbuki o elə yaxın vaxtlaracan Sonyanın ilhamvericisiydi. Emma siqareti arxasında gizlədir – axmaqlığa bax da!

Telegram: @cinciva

– Xanımın kefi? – Deyəsən, Sonya özünü naqolay hiss eləyir, yan-yörəyə boylanır, yaxınlaşdığına yüz faiz peşman olub.

– Əla! Əla! Sənin işlərin necədi bəs, Sonya?

– Yaxşıdı, xanım.

– Kollecdə nə var, nə yox? Hər şey qaydasındamı?

– Hə, mənim xoşuma gəlir.

– Gələn il buraxılış imtahanlarıdı da?

– Aha. – Sonya oğrun-oğrun içki torbasını və Emmanın arxasından qalxan siqaret burumlarını süzür.

– Sonra universitetə, eləmi?

– Ümid eləyirəm, Nottingemə daxil olaram. Bal toplaya bilsəm.

– Yığacaqsan. Əminəm, yığacaqsan.

– Sayənizdə, təbii ki, – Sonya nəsə inamsız-inamsız deyir.

Susurlar. Emma çəkinmədən şərab torbasını qaldırıb, siqaret tutduğu əliylə göstərir:

– Bura şey-şüy almağa gəlmişdim!

Sonya çaşqınlıq içindədi.

– A... Yaxşı, hələlik, mən qaçım.

– Hələlik, Sonya, səni görməyimə çox şad oldum! Uğurlar! Hər şey könlüncə olsun! – Ancaq Sonya artıq geri belə boylanmadan, sadəcə, müəlliməsi deyil, gənc könüllərin ilhamvericisi Emmadan aralanıb; indi ardıyca baxmaqdan başqa bir iş qalmır.

Həmin gecə qəribə şey baş verir. Emma mürgü döyə-döyə divanda uzanıb – televizor açıqdı, divanın yanında boş içki şüşəsi var, – birdən Dekster Meyhyunun səsinə ayılır. Əlbəttə, onun nə dediyindən bir şey anlamır: nəsə şuterdən, "multi" seçimindən, non-stop "atışma"dan danışır. Özünü itirmiş, qorxmuş halda gözünü açır və düz qarşısında onun dayandığını görür.

Telegram: @cinciva

Emma oturub gülümsəyir. O, bu proqramı əvvəllər də görüb: "Oyun qaydaları" – kompyuter dünyası haqda isti xəbərlər və şərhlər. Dekster verilişi penoplast qaymadan quraşdırılmış, qırmızı lampalarla işıqlandırılan saxta qəsrdən aparır: bu, oyunçuların, bir növ, əcaib görünüşlü üzlərilə bellərini əyib nəhəng ekran qarşısında oturduğu məhşərdi, Dekster Meyhyu isə onları düymələri güllə kimi sıxmağa məcbur eləyir – öldür ki, öldürəsən.

Oyunlar, ya da onların adlandırdıqları kimi, turnirlər, Deksterlə narıncı saçlı gözəlçənin ciddi-ciddi son həftənin yeniliklərini müzakirə eləməyə başlamasıyla kəsilir. Ola bilsin ki, iş Emmanın televizorunun balaca olmasındadı, ancaq Dekster nəsə şişkin, üzü bozarmış görünür. Bəlkə də bütün iş ekranın balacalığındadı, ancaq ona elə gəlir ki, nəsə çatışmır. Bəs onun tanıdığı o yaraşıqlı oğlan hayanda qaldı? Duke Nukem 3D haqda danışanda o nəsə inamsız, hətta yöndəmsiz dəyir gözə. Ancaq yenə də onu Dekster Meyhyuya bir rəğbət dalğası ağuşuna alır. Son on ildə elə gün olmayıb ki, Emma onun haqqında düşünməsin. Mən özümün ən yaxşı dostumu qaytarmaq istəyirəm, o fikirləşir, ona görə ki, onsuz heç nə yolunda və şükür olunacaq deyil. Mütləq Deksterə zəng vurmaq lazımdı, Emma düşünür və yuxuya gedir. Ancaq sabah. Sabah birinci növbədə ona zəng vuracağam.

Telegram: @cinciva

XI fəsil

İki görüş

15 iyul. 1997-ci il. Cümə axşamı

Soho və Temzanın cənub sahili

– Beləliklə, öncə pis xəbərlər. "Oyun qaydaları"nı bağlayırlar.

– Ola bilməz. Ciddisən?

– Hə.

– Hm... Aydındı. Hmm... Bəs demirlər niyə?

– Yox, Deksi, onlara elə gəlir ki, kompyuter oyunlarının romantik gözəlliyini, cazibədarlığını gecə auditoriyasına çatdıra bilməyiblər. Kanalın rəhbərliyi belə hesab eləyir ki, proqramda nəsə yerində deyil, ona görə də şounu bağlayırlar.

– Aydındı.

– Yeni veriliş açılır, yeni aparıcıyla.

– Adı da yeni olacaq?

– Yox, elə əvvəlki qalır: "Oyun qaydaları".

– Həə. Deməli, bu elə həmin şou olacaq.

– Ancaq onlar önəmli dəyişikliklər eləməyə hazırlaşırlar.

– Şou ki elə əvvəlki kimi adlanır, elə?

– Hə.

– Dekorasiyalar da, format da, qalan hər şey də qalır?

– Demək olar ki.

– Amma aparıcı başqası olur.

Telegram: @cinciva

– Hə. Aparıcı başqasıdı.

– Yaxşı, o, kimdi?

– Bilmirəm. Ancaq yüz faiz sən deyilsən.

– Bəs demədilər kimdi?

– Dedilər, daha gənc birini götürəcəklər. Daha gənc biri, axı onlara daha gənc auditoriya lazımdı. Başqa heç nə bilmirəm.

– Nə isə, başqa sözlə desək, məni işdən azad eləyiblər.

– Nə deyim, yəqin, elə də demək olar, ancaq onların sözünə inansaq, sadəcə, ayrı istiqamət götürmək qərarına gəliblər. Sənin əksinə.

– Aydındı. Hə də... Bəs yaxşı xəbərlər?

– Anlamadım?

– Axı dedin ki, əvvəl pis xəbəri – onların proqramı bağlamağını deyirəm. Bəs yaxşısı nəydi?

– Elə hamısı buydu, Dekster. Başqa yenilik yoxdu.

Elə bu vaxt cəmi iki mil o yana, Temzanın o biri sahilində Emma Morli ilə köhnə rəfiqəsi Stefani Şou liftlə qalxırlar.

– Ən başlıcası, bir də təkrar eləyirəm, Emma, onun qabağında sınma.

– Mən niyə sınmalıyam ki?

– Nəşriyyat biznesində onun haqqında əfsanələr dolaşır. O, kifayət qədər nüfuzlu adamdı.

– O nə nüfuzdu ki elə? Bunu necə qazanıb?

– Belə deyək də, o... parlaq şəxsiyyətdi, – Stefani Şou cavab verir. Sonra liftdə başqası olmadığına baxmayaraq, pıçıldamağa başlayır: – Redaktor kimi onun tayı-bərabəri yoxdu, sadəcə, bir az... tutması var, biləsən.

Qalan iyirmi mərtəbəni sükutla keçirlər. Stefani Şou ağ krax-mallı köynəkdə, daha doğrusu, bluzkada, dar, dizinəcən olan qara yubkada son dərəcə dəbli, heyrətamiz şəkildə səliqəli görünür.

Telegram: @cinciva

İndiki qüsursuz kare saçlarıyla illər öncə onunla mühazirələrdə yanaşı oturan qot-qıza qətiyyən bənzəmir. Emma birdən-birə başa düşür ki, bu köhnə tanışıyla yanaşı özünü heç də yaxşı hiss eləmir: onun peşəkarlığı, işgüzar ünsiyyət ədasından sıxılır. Bəlkə hələ Stefani Şounun əmrlər verdiyi nə qədər adam var! Yəqin ki, indi o, bu cür əmrlər verir: "Mənimçün bu sənədin surətini çıxarın!" Emma özünü məktəbdə belə aparsa, yəqin ki, ona gülərlər. O, liftdə dayanıb, əllərini önündə daraqlayıb, özünün də bu dəqiqə ürəyindən istehzayla gülmək keçir.

Ona elə gəlir, indi o, Stefani ilə birlikdə "Ofis" adlı oyun oynayır.

Lift otuzuncu qatda açılır. Emma qarşıda qara şüşəli pəncərələri Temza və Lambet[1] sarayına açılan geniş otaq görür. O, ilk dəfə böyük ümidlərlə Londona gələndə naşirlərə sadəlövh məktublar yazar, aypara şəkilli eynək taxmış yaşlı katibələrin darısqal, əski qriqoryan qəsrlərdə fil sümüyündən dəstəsi olan, kağızı kəsən bıçaqlarıyla zərfləri necə açdığını təsəvvürünə gətirərdi. Ancaq indi gördüyü mənzərə başqaydı – işıqlı, xüsusi üslublu, təptəzə, çağdaş KİV işçisi üçün nümunəvi sayılacaq bir ofis. Tək bənzərlik döşəmənin, masaların üstündəki kitab qalaqlarıydı; ilk baxışdan elə gəlir ki, kitablar necə gəldi səpələnib, özü də bu dəqiqə dağılacaq. Stefani liftdən çıxır, Emma da onun ardıyca; yer-yerdən kitab yığınlarının arasından təzə gələn adamı gözdən keçirən adamlar görünür, o isə bu arada addımlamağa və gödəkcəsini çıxarmağa çalışır.

– Düzü, mən əmin deyiləm ki, o, sənin kitabını tam oxuyub... bəlkə də heç üzünü açmayıb, hətta belədirsə də, əgər o, səni görüşə çağırıbsa, Em, təkcə bunun özü çox yaxşı əlamətdi, inan.

– Çox sağ ol, Stefani.

---

[1] Lambet sarayı – arxiyepiskop Kenterberiyskinin London rezidensiyası.

Telegram: @cinciva

– Em, inan mənə, kitabın, həqiqətən, yaxşıdı. Yoxsa mən heç kimə göstərməzdim. Durub hər cəfəngiyatı ona soxuşdurmaq fikrim yoxdu.

Bu, Lidsin adi məktəblərindən birində cərəyan eləmiş, yuxarı sinif şagirdləri üçün romantik sayılacaq bir əhvalat idi. Haradasa, yeniyetmə seriallarına bənzəyirdi, ancaq daha gerçəkçi, bəzək-düzəksiz idi; süjetin mərkəzində məktəbdə tamaşaya qoyulan "Oliver"in repitisiyalarıydı, təhkiyə isə Plut Docer rolunu oynayan qanmaz dəlibaş Culi Kriskollun dilindən nəql edilirdi. Kitabda illüstrasiyalar da vardı: başdansovdu rəsmlər, karikaturalar, qəhrəmanların sarkastik replikalarını göstərən dairələr – hər şey eynən on üç yaşlı qızların gündəliyindəki kimi mətnlə bir-birinə qarışmışdı.

İyirmi min sözlük birinci hissəni göndərib, bütün nəşriyyatlardan yox cavabı alana kimi səbirlə gözlədi. Hamısı eyni standart sözlər yazırdı: "Bizim formata uyğun deyil"; "Bağışlayın, əlimizdən bir şey gəlmir"; "Ümid eləyirik ki, başqa nəşriyyatlarda bəxtiniz gətirər". Bu rədd cavablarında onu anlaşılmayan məzmun sakitləşdirirdi; ona tam aydın idi ki, heç biri onun əlyazmasını oxumayıb – ona, sadəcə, basmaqəlib cavablar yollamışdılar. Bu yazmağa başlayıb, sonradan atdığı kitablar içində yeganəsiydi ki, oxuyandan sonra bayıra tolazlamaq istəməmişdi. Emma bilirdi ki, bu kitabı yaxşı alınıb. Ancaq anlayırdı ki, əlaqələrdən istifadə eləmədən istədiyi baş tutmayacaq.

Kollec dostlarının çoxu yaxşı vəzifələrdə çalışsa da, özünə söz vermişdi ki, heç vaxt heç birinə ağız açmayacaq: daha çox uğur qazanmış sinif yoldaşlarının ətəyindən yapışmaq onun üçün dostlarından pul istəməklə eyni seydi. Ancaq bir qovluq rədd cavabı məktubu yığışmışdı, anası da artıq yaş gedir deyə xatırlatmaqdan yorulmurdu, Emma isə tutduğunu buraxmırdı.

Telegram: @cinciva

Beləcə, o, nə təhərsə bir gün nahar fasiləsində boş sinif otağı axtardı, dərindən nəfəs alıb cəsarətini topladı və Stefani Şouya zəng vurdu. Üç il olardı görüşmədikləri, ancaq aralarında qarşılıqlı hüsnrəğbət vardı, ordan-burdan danışmağı xoşlayırdılar, nəhayət, Emma soruşmaq qərarına gəldi ki, Stefani bir şey oxumağa nə deyir? Bir şey deyəndə ki, Emmanın yazdıqlarından. Gənclər üçün sarsaq bir kitablarından ikicə fəsil və sinopsis. Məktəb müzikli haqda.

Hə, axır ki, o, buradadı, naşirlə görüşəcək – özü də əsl naşirlə! İçdiyi kofedən başı hərlənir, həyəcandan ürəyi bulanır, ümumi narahatçılığa bu gün işini buraxmağa məcbur olması da bir az təkan verir. Halbuki bu gün tətil qabağı vacib müəllim iclası vardı, o isə yuxudan qalxıb, başısoyuq, tənbəl şagird kimi burnunu sıxaraq katibəyə zəng vurdu, dilini sürüyə-sürüyə nəsə mədə bulanması haqda dedi. Katibə, təbii ki, inanmadı – bunu telefondan da hiss eləmək olurdu. İndi buyur, cənab Qodalminqdən alacağın payı gözlə. Fil qəzəbdən başını itirəcək.

Ancaq indi bundan qayğılanmağa macal yoxdu, çünki artıq küncdə bahalı kommersiya sahəsi tutan şüşə kub otağa yanaşıblar – içəridə arxası Emmaya sarı, Londonun Müqəddəs Pavel kilsəsindən Parlament binasınacan olan fövqəladə panoramın fonunda çox zərif bir xanım fiquru dayanıb.

Stefani qapının ağzında balaca bir kətil göstərib deyir:

– Bax belə. Burada gözlə. Sonra mənə dəyərsən. Hər şeyi danışarsan. Bir də, yadından çıxarma – ən əsası, özünü sındırma...

– Bəs demədilər niyə? Niyə məni çıxarıblar?

– Əslində, yox.

– Yaxşı da, Aaron, de görək.

Telegram: @cinciva

– Kəlməbəkəlmə, daha doğrusu... sözbəsöz desəm, dedilər ki, sən min doqquz yüz səksən doqquzuncu ilin adamlarına oxşayırsan.

– O... O... Hm... Yaxşı, eybi yox. Görüm onları... hə?

– Mən də onlara elə bunu dedim.

– Bu cür də dedin?

– Şey... dedim ki, heç yaxşı deyil.

– Okey. Yaxşı, bizim başqa hansı variantımız var?

– Heç bir.

– Belə heç?

– Əslində, elə bir proqram var – robotlar döyüşürlər, səni isə şey eləməlisən... şey də, robotların çıxışını elan eləyirsən.

– Robotlar niyə savaşır ki?

– Mən nə bilim? Yəqin, xasiyyətləri belədi. Təcavüzkar robotlardı.

– Nəsə, məncə, elə deyil.

– Aydındı. Yaxşı, onda bəlkə "Kişilər və avtomobillər" kanalında avtomobillər haqda veriliş, hə?

– Peyk TV? Məzələnirsən?

– Peyk və kabel – bu, bizim gələcəyimizdi, Deks.

– Bəs milli kanallar necə?

– Orada hələ ki bir şey yoxdu.

– Amma Süzi Medouz üçün nəsə var, Tobi Morey üçün nəsə var... Axır vaxtlar hansı kanalı açırsan, hamısında bu şeytan Tobi Moreyi görəcəksən.

– Deks, ağzında televiziya deyirsən də. İndi Tobi dəbdədi. Başa düşürsən, sadəcə, dəb belədi. Əvvəllər sən dəbdəydin, indi də o.

– Mən *dəbdəydim*, hə?

– Demirəm ki, indi dəbdən düşübsən. Sadəcə, hamıda enişlər, yoxuşlar olur... Mənə elə gəlir ki, sən ampluanı dəyişmək haqda

Telegram: @cinciva

düşünməlisən. Dəyişməlisən ki, camaat səni başqa cür qəbul eləməyə başlasın. Biz sənin reputasiyanı dəyişməliyik.

– Dayan, dayan... məgər mənim reputasiyam da var?

Emma balaca, dəri üzlüklü kətildə əyləşib gözləyir, gözlədikcə də ofisdəkilərin öz işlərilə necə məşğul olmalarına göz qoyur. Utandığından bu korporativ aləmin gənc və əsl peşəkar təsiri bağışlayan sakinlərinə azacıq paxıllıq hiss eləyir. Ancaq bilir ki, vurtut onların zahiri atributlarına həsəd aparır. Yoxsa bu ofisi başqalarından fərqləndirən xüsusi nə var; bir də ki, Kromvell-roud orta məktəbi ilə müqayisədə bura çox futuristcə görsənir: çay ləkəli parçlar, üzü üzlər görmüş mebel, üzücü iş qrafiki, qaşqabaqlı ortam, şikayət və narazılıq dolu müəllimlər otağıyla tam təzad. Əlbəttə, uşaqlara söz ola bilməz, daha doğrusu, bəzi uşaqlara; ancaq axır vaxtlar bəzi uşaqlar arabir müəllimlərlə dilləşirlər, bu da onu çox narahat eləyir. Lap bu yaxınlarda ona dedilər ki, "bütün bunlar onlara lazım deyil", o da ki bu cür yanaşmalarla qətiyyən barışa bilməz. Yoxsa onun əvvəlki səriştəsi, arzusu, gücü tükənib? Əlbəttə, direktorla gərgin münasibətlər də onun xeyrinə işləmir.

Bəs həyat başqa şəkildə sürsəydi, necə olardı? Bəs hələ də iyirmi iki yaşındakı həmin inadla nəşriyyatlara məktublar yollasaydı? Belə ola bilərdimi – deyək ki, Stefani Şou yox, o – Emma Morli indi qida butikindən aldığı sendviçlərdən yeyəydi, qısa yubkalar geyəydi? Son vaxtlarda bir hiss ondan əl çəkmir – elə bil lap bu gün-sabah onun həyatı kökündən dəyişəcək, çünki belə də olmalıdı – bəlkə elə bu gün həmin gündü, bəlkə elə bu görüş yeni başlanğıcdı? Qarnı yenə də həyəcandan cuşa gəlir: yardımçı xanım telefonun dəstəyini yerinə qoyub ona yaxınlaşır. Marşa onu qəbul elməyə hazırdı. Emma ayağa qalxır, yubkasının qırışlarını sığallayır, axı televizorda belə görüb ki, ofis əməkdaşları belə eləyəndən sonra şüşə qutuya daxil olurlar.

Telegram: @cinciva

Marşa – xanım Frenkom ucaboy, boy-buxunlu qadındı, qartal cizgiləri onu zəhmli eləyir, üstəlik Virciniya Vulfun qəhrəmanlarına bənzədir. Qırx yaşını lap yenicə arxada qoyub; sovetvari saç düzümündə qısa vurulmuş boz saçları alnına daranıb; səsi xırıltılı komandir səsidi. Qalxıb əlini Emmaya uzadır:

– Sizinlə görüş on iki otuza təyin olunmuşdu?..

Emma tələsik cavab verir ki, hə, on iki otuza, halbuki, əslində, on iki on beşə deyilmişdi.

– Sitzen Sie bitte hin[1], — Marşa deyir.

Niyə almanca? – Emma fikirləşir. Nəyə lazımdı ki, almanca danışmaq? Bəlkə onunla dəm tutmaq pis olmazdı, hə...

– Danke[2], — Emma deyir, otağa göz gəzdirir, divanda əyləşir və yan-yörəyə nəzər salır: mükafat rəfi, parlaq karyeranın şahidi olan çərçivəyə salınmış kitab cildləri. Birdən Emmada bir yəqinlik yaranır ki, bura onun yeri deyil, burada o ancaq artıqlıq eləyir və bu hörmətli xanımın vaxtını boşuna alır, axı o, adamların alıb oxuduğu əsl kitablar çap eləməklə məşğuldu. Bəli, belə xanımla yanaşı durmaq asan deyil. Otağa sükut çöküb; Marşa jalüzü endirib yığır ki, əməkdaşlarının çalışdığı yan otaqdan kabineti görünməsin. Otaq qaraqabaq havaya bürünür və gözlənilmədən Emmanın fikrinə gəlir ki, bu dəqiqə onu kötəkləyəcək, ya da sorğulamağa başlayacaqlar.

– Bağışlayın ki, bir az gözlətdim, – Marşa iş masasının arxasındakı kreslosuna oturub deyir, – bu gün çox məşğulam. Güclə vaxt elədim. Ancaq istəyirəm ki, cəld qərar qəbul eləyəm. Belə vacib məsələlərdən söhbət gedəndə gərək doğru seçim eləyəsən, siz necə düşünürsünüz?

– Əlbəttə, tam razıyam.

---

[1] Lütfən, burada əyləşin (alm).
[2] Sağ olun (alm).

Telegram: @cinciva

– Uşaqlarla çoxdanmı çalışırsınız?

– Qoy deyim... min doqquz yüz doxsan üçdən – beş il olar.

Marşanın gözləri parıldayır və elə bil bir az irəli çıxır:

– İşiniz xoşunuza gəlirmi?

– Əlbəttə. Belə deyim də, əsas hissəsi. – Emmaya elə gəlir ki, o həddən artıq sıxır özünü, həddən ziyadə rəsmidi. – Məni özümdən çıxarmayanacan onlar...

– Uşaqlar sizi özünüzdən çıxarır?

– Səmimi desəm, bəzən özlərini balaca haramxor kimi aparırlar.

– Nə danışırsız!

– Hə, özünüz bilirsiz də. Qanmazlıq eləyir, sonra da mərəkə qoparırlar.

Marşa qaşqabağını sallayıb kresloya yayxanır:

– Bəs onda nizam-intizamı necə bərpa eləyirsiz?

– Şey, adətən, stulları tolazlayıram üstlərinə! Zarafatdı, təbii. Otaqdan çıxarıram, ya da nəsə belə bir şey.

– Hə... Aydındı. – Marşa daha dinmir, ancaq üzündən çox narazı qaldığı oxunur. Baxışlarını masanın üstündəki kağızlara dikir, Emma isə fikirləşir ki, görəsən, onun kitabı haqda söhbət əvvəl-axır başlayacaq, ya yox.

– Belə, – Marşa dillənir, – sizin ingiliscəniz mən fikirləşdiyimdən də yaxşıdı.

– Anlamadım?

– Siz ingiliscə elə rəvan danışırsız ki. Elə bil ömür boyu İngiltərədə yaşayıbsız.

– Amma... elədi ki var.

Marşa ona məyus şəkildə baxır:

– Ancaq rezümenizdə ayrı şey yazılıb.

– Başa düşmədim?

– Rezümenizdə yazılıb ki, siz almansınız!

Telegram: @cinciva

İndi o, vəziyyəti necə düzəltsin? Özünü almanlığa vursunmu? Bunun bir xeyri olmaz. Axı almanca bilmir.

– Yox, inanın, mən ingilisəm, – Emma deyir. Fikirləşir ki, bu rezüme də nəydi? O ki heç bir rezüme-zad göndərməyib.

Marşa başını yelləyir:

– Bağışlayın, deyəsən, biz bir-birimizi anlamırıq. Məgər sizi on iki otuza yazmayıblar?

– Bəli! Zənnimcə, hə. Yoxsa yox?

– Siz dayə deyilsiz? Dayəlik işi axtarmırdızmı?

– Dur hələ bir... deyirsən, mənim reputasiyam var?

– Hə də, elə bir şey. Şou-biznesdə.

– Bəs məndən nə danışırlar?

– Şey... səni etibarsız hesab eləyirlər, vəssalam.

– Etibarsız?

– İşini bilməyən.

– Bunu necə başa düşək?

– İçirsən də. Çəkiliş meydançasında dilin topuq çalır.

– Bura bax, mən heç vaxt...

– Üstəlik də snobsan. Səni yekəxana sayırlar.

– Snob? Mən snob deyiləm, sadəcə, özümə güvənirəm!

– Deks, mən, sadəcə, adamların dediklərini çatdırıram sənə.

– Adamların? Kimdi o adamlar?

– Sənin iş yoldaşların.

– Sən allah? Vay bəə...

– Gör sənə nə deyirəm. Sənə elə gəlirsə ki, sənin problemin...

– Elə gəlmir.

– ... indi onlara əsl fikir verməyin vaxtıdı.

– Ancaq mənim kimsəylə problemim yoxdu.

Telegram: @cinciva

– Deməli, işimiz bal kimi gedir ki. Hələlik sənə bir məsləhət verim: sən bir az bədxərcliyini yığışdır. Ən azı, bu yaxın aylar üçün.

– Emma, siz allah, bağışlayın...

O, ağlaya-ağlaya, xəcalətdən pörtmüş halda liftə sarı gedir, Marşa onunla dabanbasma gəlir, Stefani də Marşanın ardıyca. Otaqlardan maraq içində boylanıb gedişatın sonunu izləyirlər. Yəqin, düşünürlər ki, ona elə belə də lazımdı, yəqin, indi böyük ideallara çatmağın nə demək olduğunu anlayıb...

– Bağışlayın, vaxtınızı aldım, – Marşa günahkarcasına deyir. – Gərək sizə zəng vurub, görüşü təxirə salaydılar...

– Eybi yox, sizin nə günahınız. – Emma burnunun altında deyir.

– Siz xəbər almadığınızdan əminsizmi? Düzdü, mən görüşləri təxirə salmağı xoşlamıram, ancaq deyim ki, heç cür sizin əlyazmanı oxumağa macalım olmadı. İndi mən qaçaraq baxardım ona, di gəl ki yazıq Helqa bayaqdan zalda toplantının başlaması üçün gözləyirmiş...

– Sizi başa düşürəm.

– Stefani məni inandırıb ki, siz çox istedadlısız. İşinizlə tanış olmağı çox istəyərdim...

Emma liftə yanaşır və var gücüylə liftin düyməsini basır:

– Belə...

– Ən azı, dostları nəynənsə sevindirmək üçün bir şey tapılar!

Dostları sevindirmək? O, liftin düyməsini elə dürtmələyir ki, elə bil kiminsə gözünü oymağa çalışır. Əşi, onun dostları sevindirmək fikri yoxdu; istədiyi, sadəcə, həyatını dəyişmək, bu bataqlıqdan qurtulmaqdı, daha dostları sevindirmək yox! Elə bütün ömrü başdan-ayağa şən əhvalatlarla dolu, bitib-tükənməyən lətifə-

Telegram: @cinciva

lər qatarıdı, o isə, heç olmasa, bircə yol nəsə tutarlı bir şey eləmək istəyir. Uğur qazanmaq, ya da uğura ümid, uğura bel bağlamaq.

– Gələn həftə çətin görüşə bilək, məzuniyyətə gedəsiyəm, ona görə bir az gözləməli olacağıq. Ancaq yayın sonunacan mütləq görüşəcəyik, söz verirəm.

Yayın sonunacan? Demək, aylar heç bir dəyişiklik olmadan sıralanacaq. O, qaşqabağını tökmüş uşaqlar kimi bir də liftin düyməsini basır: dəymə, qoy əzab çəksinlər. Onlar gözləyirlər. Sanki baş verənlərdən heç pərt olmamış Marşa öz göy gözlərilə onu oxumağa çalışır.

– Emma, deməzsiz, siz indi nə işlə məşğulsuz?

– İngilis dili müəlliməsi işləyirəm. Leytonstoun orta məktəbində.

– Yəqin ki, çox çətin işdi. Yazmağa necə vaxt tapırsız?

– Mən gecələr yazıram. Bəzən də sübh tezdən.

Marşa gözlərini qıyır:

– Deməli, siz yazıçılığa əməlli-başlı bağlanmısız.

– Bu, indi mənim məşğul olmaq istədiyim yeganə işdi, – Emma öz səmimiyyətindən şübhələnmədən, gerçəkdən, belə olduğunu düşünərək deyir. Arxada liftin qapısı açılır, o qanrılıb baxır, demək olar, getməli olduğuna təəssüflənir.

Marşa onun əlini sıxır:

– Belə, xanım Morli, hələlik. Gələn görüşümüzü səbirsizliklə gözləyəcəm.

Emma da onun uzun barmaqlarını sıxıb:

– Mən də ümid eləyirəm ki, siz istədiyiniz dayəni tapacaqsınız.

– Mən də. Axırıncı dəfə gələn, sadəcə, ruhi xəstə çıxdı. Bəs siz özünüz, yəqin, razılaşmazsınız, yox? Nə üçünsə mənə elə gəlir ki, siz bu işə əməlli-başlı uyğun gəlirsiniz. – Marşanın gülüşünə

Telegram: @cinciva

Emma da təbəssümlə qarşılıq verir; Stefani rəisinin kürəyi arxasında dodaqlarını çeynəyib pıçıldayır: "Bağışla,bağışla,bağışla" – əlini qulağına aparıb başa salır ki, zəngləşərik.

Liftin qapısı bağlanır; Emma divara söykənir, lift otuz qat hündürlükdən aşağı enir, o isə fikirləşir ki, həyəcan necə də yerini ümidsizliklə dəyişir. Bu gün səhər saat üçdən sonra gözünə yuxu getmədi, hər şeyi xəyalında canlandırdı, hətta redaktorla birgə gözlənilməz bir nahar yeməyinə də qərar verdilər. Budur, o, dəbli göydələn bir restoranda soyuq ağ şərab içə-içə yeni tanışlarını məzəli məktəb əhvalatları ilə əyləndirir... Aha, ancaq necə alındı – onu redaksiyaya daxil olandan heç iyirmi beş dəqiqə keçməmiş küçəyə atdılar.

Sonuncu dəfə o, Temzanın cənub sahilində mayda – seçkinin nəticələrini bayram eləyəndə olmuşdu, indi isə o eyforiyadan əsər-əlamət belə qalmayıb. Madam ki guya onun mədəsi bulanır, indi heç müəllimlərin toplantısına da qatıla bilməz. Ancaq nə olsun, onsuz da, onu orada növbəti qalmaqallar, tənələr, çirkin iftiralar gözləyir. Qərara gəlir ki, bir az fikri dağılsın deyə Tauer körpüsünə tərəf gedib, bir az gəzib-dolansın.

Əslində isə, Temza sahilində gəzsə belə, ovqatını düzəldə bilməz. Cənub sahili tərəflərdə təmir gedir, hər şey meşədə brezentə bükülüb, elektik stansiyasının cənub sahilindəki binası isə yay günündə tülənmiş və hüznlü görünür. Acmışdı, ancaq yol boyu bir kafe, mədə başı aldatmağa baş soxası bir yer yox idi. Telefonu səslənir; çantasında eşələnir, qəzəbini kiminləsə bölüşəcəyinə sevinir, xeyli sonra isə zəng vuranın kim olduğunu bilir.

– Demək, mədə bulanması, hə? – məktəb direktoru kinayə ilə deyir.

Emma içini çəkir:

Telegram: @cinciva

– Özüdü ki var.

– Demək istəyirsən ki, yorğan-döşəkdəsən? Səsindən heç deməzsən ki, yataqdasan. Səsindən gəzib özünü günə verdiyin anlaşılır!

– Yaxşı da, Fil.. başlama.

– Yox, xanım Morli, bir əldə iki qarpız tutmaq olmaz. Əlaqələrimizi kəsib, məndən də üz verməyimi gözləmək olmaz axı! – Artıq neçə aydı ki, o, *belə* xüsusi nəzakətlə, hissiz və şübhəli avazla danışır, Emma isə yenidən öz-özünü tələyə salmağına görə partlamağa qalır. – Əgər sən münasibətlərimizin sırf peşə zəminində qalmasını istəyirsənsə, bil ki, məhz elə də olacaq! Bax belə! Elə isə, lütfən, de, nədən bu gün vacib toplantını buraxıbsan?

– Fil, xahiş eləyirəm, bəsdi. Kefim yoxdu...

– Mən istəməzdim ki, inzibati ölçü götürüm, Emma...

O, direktor öz öyüd-nəsihətini bitirənə kimi telefonu qulağından yana çəkir. Bu, həmin iri, köhnəlmiş telefondu ki, ona "istəyəndə səsini eşitmək üçün" sevgilisi bağışlamışdı. Onlar bu telefonla sekslə də məşğul olmuşdular. Ən azı, Fil.

– Sənə dəqiq demişdilər ki, bu toplantıda iştirak çox vacibdi. Bilirsənmi, rüb hələ bitməyib?

– Bir anlıq ürəyindən keçir ki, nə ləzzət verərdi bu dəqiqə bu şoğərib telefonu Temzaya vızıldatsın. Ancaq əvvəlcə gərək SIM-kartı çıxara, bu isə rəmzi jesti xeyli zəiflədərdi, elə güclü dramatizm ancaq film və seriallarda baş verir. Heç təzə telefon almağa imkanı da yoxdu...

Axı bu andan belə onu işsiz saymaq olar.

– Fil?

– Lütfən, unutma ki, bu andan etibarən mən sənin üçün cənab Qodalminqəm.

– Yaxşı, cənab Qodalminq...

– Bəli, xanım Morli?

Telegram: @cinciva

– Mən işdən çıxıram.

Direktor, adətən, onu başdan çıxaran qəlp gülüş səsləri çıxarır. O hətta direktorun aramla başını necə yellədiyini də görür.

– Emma, sən işdən çıxa bilməzsən!

– Bilərəm. Hə, bir şeyi də deyim, cənab Qodalminq...

– Emma?

Artıq dodaqlarından söyüşlər yağmağa hazır vəziyyətdədi, ancaq onları dilinə gətirməyi özünə sığışdırmır. Əvəzində həzz ala-ala, xəyalən nalayiq sözlər deyir, danışığı kəsib telefonu çantaya atır və gələcək qarşısında həyəcan və xofdan əməlli-başlı sərxoş olub Temzanın sahiliylə şərqə doğru addımlayır.

– Bağışla ki, səni nahara dəvət eləyə bilmirəm, başqa bir müştərimlə görüşüm var.

– Eybi yoxdu. Sağ ol, Aaron.

– Başqa bir vaxta qalsın, Deks. Nə olub sənə? Nəsə ruhdan düşübsən, dostum.

– Yox əşi. Hər şey qaydasındadı. Sadəcə, bir az qanımı qaraldıblar.

– Nə ilə bağlı?

– Bilirsən, gələcəyimlə bağlı. Karyeramla. Bunu heç gözləməzdim.

– Məgər başqa cür ola da bilər? Axı bu, sənin gələcəyindi. Lənət şeytana, elə həyatı maraqlı eləyən budur da! Gəl hələ. Gəl, dedim! Dostum, mənim sənin lə bağlı bir fikrim var. Eşitmək istəmirsən?

– De gəlsin.

– Deks, sən, həqiqətən, adamların xoşuna gəlirsən. Problem onların səni ciddiyə almamağındadı, belədi də; sevgi-rişxənd, sevgi-nifrət şəklində. Kaş ki səni *ürəkdən* sevəcək birini tapa biləydik...

Telegram: @cinciva

XII Fəsil

"Səni sevirəm" demək

15 iyul. 1998-ci il. Çərşənbə

Susseks qraflığı, Çiçester

Dekster özü də bilmədi ki, bu, necə baş verdi, eləcə, bir gözəl gün yuxudan ayılıb başa düşdü ki, eşqə düşüb, onunla da həyat büsbütün bayrama çevrildi.

Silvi Koup. Adı Silvi Koupdu – gözəl bir ad; biri də onun haqqında danışmağını istəsə, o, başını yırğalayır, içini çəkib deyir ki, o, heyrətamizdi, sadəcə, möhtəşəmdi. O, yəqin ki, gözəldi, ancaq başqaları kimi, məsələn, kişi jurnallarının üz qabığına şəkilləri vurulan, təkcə son dəbdə geyindiklərinə görə gözəl görünən Syuki Medouz, ya Naomi, İnqrid, İolanda kimi içiboşlardan deyil. Yox, ondakı gözəllik hay-küysüz, klassikdi; qabaqkı kimi yenə də teleaparıcı olsaydı, deyərdi ki, o, birinci dərəcəlidi, ya da ona "tərz ikonası" deyərdi. Düz ayrıcla ayrılmış uzun, hamar, parlaq saçlar; səliqəli cizgiləri olan ürək formalı üz, ideal dərəcədə mütənasiblik. Ona adını heç cür yada sala bilmədiyi bir tablonun qəhrəmanını xatırladır: bu, nəsə orta əsrlərə aid bir işdi – kətan üzərində əlində çiçəklər tutmuş, uzun saçlı bir xanım təsviri. Hə, bax o, belədi, Silvi Koup; elə bir qadın ki, təpəgözün boynunu qucaqlayıb onunla yanaşı dursa belə, yenə də qüsursuz görsənəcək. Ucaboy, qa-

Telegram: @cinciva

mətli, bir az zabitəli, – üzünün ifadəsi hələ-hələ dəyişməz, – Deks nəsə deyəndə, ya nəsə bir sarsaqlıq eləyəndə də bir azca qaşqabağını sallayır, ya da arabir gözünü göyə dikir. Silvi mükəmməldi, başqalarından da istədiyi budu.

Qulaqları bir az, az, belə lap azacıq qabarıqdı, ona görə də arxadan işıq düşəndə yanağındakı, gicgahındakı tüklər kimi mərcanı rəng alırlar. Zahiri görkəmin onun üçün çox şey demək olduğu başqa bir həyatda bu detallar – qırmızı qulaqlar, gicgahlarındakı tüklər ona iyrənc gələ bilərdi. Ancaq bu saat, yayın ən qızğın çağında ingilis çəmənliyində qoyulmuş masa arxasında onunla qarşıqarşıya oturub, çənəsini uzun barmaqlı əllərinə dayayıb, başlarının üstündə kəpənəklər uçuşur, şamın alovu isə lap tək şam çəkməyi sevən həmin rəssamın kətanında olduğu kimi onun üzünü işıqlandırır – bax belə məqamlarda Deks, sözün əsl mənasında, onun gözəlliyindən tilsimlənir. Stolun o başından baxanda o gülümsünür, Deks də o qərara gəlir ki, bu axşam mütləq ona sevgisini açsın. Bundan qabaq o, kimsəyə "səni sevirəm" deməyib – ən azı, ağlı başında və ayıq olanda. O, "mən ki səni sevirəm, lənətə gəlmiş iblis" sözünü deyib deməyinə, ancaq bu, başqa sözdü axı; Dekster duyur ki, "səni sevirəm" deməyin əsl vaxtı indi gəlib. O, öz planını qurmağa elə aludə olub ki, bəzən bir anlığına danışığındakı rabitəni belə itirir.

– Bəs siz nə işlə məşğulsuz, Dekster? – Silvinin anası masanın o başından soruşur. Helen Koup – soyuq, bej rəngi kişmiri quşa bənzəyən qadındı.

Dekster eşitmədən Silviyə baxmağa davam eləyir; o da qaşlarını çəkib ona işarə verməyə çalışır:

– Dekster?

– Hm?..

– Anam səndən söz soruşur.

Telegram: @cinciva

– Bağışlayın, fikrə getmişdim.

– O, teleaparıcıdı, – Silviyanın əkiz qardaşlarından biri – Sem deyir. Onun on iki yaşı var, kürəyi avarçəkmə komandasının kapitanının kürəyinə oxşayır, faşist üzlüdü, özü də qardaşı Mürreylə elə bil bir almanın yarısıdı.

– Bəlkə keçmiş teleaparıcı? – Mürrey bic-bic qımışıb deyir, sonra qardaşlar bir-birinə qoşulub kül rəngli telləri titrəyə-titrəyə gülürlər. Atletik, hamarüzlü, mavi gözlü – onlar belə görünürlər, deyərsən, laboratoriyada böyüdülüblər.

– Mürrey, ana səndən soruşmadı, – Silvi dişlərini sıxıb deyir.

– Şey... haradasa, mən elə indi də teleaparıcıyam, – Dekster deyir, ürəyində isə: vaxt gələr, payınızı verərəm, balaca əcinnələr. Deksterin bu əkizlərlə hələ Londonda toqquşması olub. Öz gülüşləri, gözləşmələri ilə açıq-aydın göstərmək istəyirdilər ki, bacılarının yeni dostu haqda elə də yüksək fikirdə deyillər, gərək o bundan yaxşı birini tapaydı. Kouplar ailəsi o qəbil adamlardandı ki, həmişə bəxtləri gətirir, ancaq da özü kimilərini saya salırlar. Dekstersə, sadəcə, yaraşıqlı kişidi, keçmiş məşhur, qəzəbə gəlmiş təlxəkdi. Stol arxasında sükut çöküb. Yoxsa hələ də ondan cavab gözləyirlər?

– Bağışlayın, nə soruşmuşduz? – Dekster bir anlıq özünü itirsə də, yenidən cilovu əlinə alacağına tam əminliklə soruşur.

– Sizin indi nə işlədiyinizi soruşmuşdum, – xanım Koup Silvinin yeni boyfrendi postuna namizədi sınağa çəkdiyini gizlətməyərək tələsik cavab verir.

– Ümumiyyətlə, mən iki yeni proqram üzərində işləmişəm. Elə indi onu gözləyirik ki, onlardan hansını seçəcəklər.

– O proqramlar nə haqdadı?

– Biri Londonun klub həyatı haqqındadı – "paytaxtda nə baş verir" qəbilindən, o biri də idmandandı.

– İdmanın ekstremal növləri? Bu, nə deməkdi ki?

Telegram: @cinciva

– Şey, dağ velosiped yarışları, snoubord, skeytbord...

– Bəs sən özün hansısa ekstremal idman növüylə məşğulsanmı? – Mürrey bic-bic soruşur.

– Mən... bir az skeytbordinqlə məşğul oluram, – Dekster acığını boğaraq cavab verir və stolun o üzündə oturan Semin gülməməkçün ağzına salfet taxdığını görür.

– Biz sizi Bi-Bi-Si-də görə bilərikmi? – Silviyanın atası Layonel soruşur. Yaşı altmışa çatsa da, Layonel yaraşıqlı, dolu, həm nə qədər qəribə olsa da, hələ də sarışındı.

– Güman eləmirəm. Mənim verilişlərimi, adətən, gecə yarısından sonra transliyasiya eləyirlər. – "Transliyasiya eləyirlər", "bir az skeytbordinqlə məşğul oluram"... İlahi, o nə ağzına gələni danışır? Koupların yanında nə üçünsə özünü elə aparır, elə bil viktorian İngiltərəsi haqda filmin çəkiliş meydançasındadı... "Bəli, cənab, verilişləri transliyasiya eləyirlər..." Madam ki belə lazımdı, deməli, elə belə də lazımdı.

Mürrey, ikinci əkiz, – bəlkə də Sem? – ağzı salatla dolu halda deyir:

– Biz də uşaqlıqda sənin şouna baxardıq, "Əzişdirmə"yə. Özü də orada daim ana söyüşü söyərdilər, qızlar da qəfəsdə rəqs elərdi. Ana, yadındadı, sən bizə qadağan eləmişdin ona baxmağı?

– Aman, yarəbbim, bu şou? – xanım Koup mısmırığını sallayır. –Nəsə, dumanlı şəkildə xatırlayıram.

– Hə, sənin zəhlən gedərdi, – Mürrey, ya da Sem deyir.

– "Dərhal söndürün!" – qışqırardın, – ikinci əkiz əlavə eləyir. – "Söndürün! Başınızı xarab eləməyin!"

– Maraqlıdı, mənim anam da eynən elə deyərdi, – Dekster vurğulayır, ancaq kimsənin əhəmiyyət vermədiyini görüb içki şüşəsinin arxasına çəkilir.

Telegram: @cinciva

– Demək, bu sizmişsiz? – Silviyanın atası qaşlarını dartır, elə bil onun stolunda əyləşən bir centlmen qəfildən kobudluq eləyib.

– Hə, məndim, amma təkcə bu olmayıb ki. Məsələn, mən rok qruplardan, film ulduzlarından müsahibələr almışam. – Fikirləşir ki, görəsən, onun rok qruplar, film ulduzları haqda söhbəti qıraqdan gop kimi görünmür ki; ancaq kəsdirməyə macal tapmır – əkizlər ona yeni zərbə endirirlər.

– Bəs indi necə, yenə *film ulduzlarıyla* eşqbazlıq eləyirsən? – bu ari düdəmələrindən biri süni heyrətlə deyir.

Dekster vicdanla, ancaq özünə rəhm eləmədən və peşmançılıq duymadan cavab vermək qərarına gəlir:

-Yox əşi. Artıq yox. Bunlar hamısı... keçmişdə qaldı.

– Dekster təvazökarlıq eləyir, – Silviyanın səsi duyulur. – Ona həmişə yeni təkliflər gəlir. Ancaq o ekran işinə aid məsələlərdə çox tələbkardı. Əslində, o, prodüser olmaq istəyir... Deksterin özünün prodüser kampaniyası var! – fəxrlə deyir, valideynləri də fərəhlə başlarını yelləyirlər. Biznesmen, müəssisə rəhbəri – belə amplua onların tam zövqünə görədi.

Dekster də gülümsəyir, ancaq həqiqətdən qaçmaq olmaz: onun həyatı indi heç yolunda deyil. "Meyhem TV"nin hələ bir müştərisi də ortalığa çıxmayıb, hətta bircə potensial müştərisi belə; kampaniya əvvəlki kimi yalnız öz loqotipiylə bahalı kağızlar üstündə mövcuddu. Onu öz agenti Aaron buraxdı. Nə çarxların, nə reklamların səsləndirilməsinə sifariş var, premyeralara dəvətlər belə adda-budda gəlir. O artıq Elit-sidrin siması deyil, poker klubunda da onun üzvlüyünü səs-səmirsiz ləğv eləyiblər, hətta barabanda Jamiroquai çalan oğlan da daha ona zəng eləmir. Yenə də bütün bunlara baxmayaraq, karyerasındakı uğursuzluqlara rəğmən, o, özünü yaxşı hiss eləyir, çünki Silviyaya vurulub, gözəl Silviyaya, istirahət günləri də mütləq harasa səfərə yollanırlar.

Telegram: @cinciva

Onların istirahət günləri, adətən, Henuya, ya Buxarestə, Roma, ya da Reykyavikə uçduqları Stensted aeroportundan başlayıb, orada da qurtarır. Silviya bu səfərləri hərbi əməliyyat dəqiqliyi ilə planlaşdırır. Avropa paytaxtının heyrətamiz gözəl cütlüyü eksklüziv otel-butiklərdə yer tutur, gəzib dükanlara baş çəkir, dükanlara baş çəkib gəzirlər, küçə kafelərində balaca piyalələrdə qara qəhvə içir, sonra təbii tonda hazırlanmış, aza qane tərzdə bəzədilmiş, mütləq duş kabinəsi, hündür incə vazda bambuk gövdəsi olan təmtəraqlı otaqlarına qapanırlar.

Onlar böyük Avropa şəhərlərinin kiçik özəl dükanlarını gəzib qurtarandan sonra axşamı Silviyanın zərif və gözəl, üzlərindən lovğalıq yağan qız dostları və onların alyanaqlı, iri yanbızlı, elə Silviya və rəfiqələri kimi Sitinin reklam və marketinq sahəsində çalışan oğlanlarıyla Qərbi Londonda keçirirlər. Haqq üçün desək, bu özünəarxayın super oğlanlar və onların rəfiqələri o qədər də Dekstin zövqünə uyğun deyillər. Ona yaşlandığını və kollecdəki əlaçı oğlanları xatırladırlar: iş onda deyil ki, onlarla ünsiyyət ləzzət eləmir, sadəcə, açmırlar adamı, vəssalam. Ancaq elə bəd də demək olmaz. Bütün həyatı boyu əylənmək olmaz ki; bundan başqa daha nizamlı, sakit həyat tərzinin də öz üstünlükləri var.

Əxlaqla sərxoşluq bir-birilə o qədər də üst-üstə düşən şey deyil deyə Silviya şamda bir qədəh şampan və çaxırdan artığını içmir. Siqaret çəkmir, narkotikdən uzaqdı, qırmızı ət, çörək, rafinə olunmuş qənd, kartof yemir. Ən əsası isə, Deksterin içməyinə dözə bilmir. Kokteyllərin ünlü sərrafının şöhrəti onun gözündə heç nədi. Sərxoşlaşmaq, ona görə, biabırçılıqdı, Deksterin də gecənin sonunda üçüncü martini üzündən yalqız qalması birinci kərə deyil. Hərçənd ki Silviya heç vaxt bu haqda danışmayıb – onu seçim qarşısında qoyublar: ya içkini atıb problemlərinlə məşğul olacaqsan, ya da xoş gəldin. Buna görə də axır vaxtlar o, tez-tez içki

Telegram: @cinciva

süstləşməsindən əziyyət çəkir, tez-tez burnundan qan açılır və tez-tez səhərlər vicdan əzabı çəkib, özünə nifrət eləyir. Artıq Silviyanın sayəsində gecələr qırmızı şərab şüşəsini yanına qoyub yatmır ki, birdən içmək istəyər. Elə bil dünyaya yenidən gəlib.

Lakin ən təəccüblüsü odur ki, Silviya onun daha çox xoşuna gəlir, nəinki o, Silviyanın. Onun qırmızılığı, əminliyi və iradəsi Deksterin tam ürəyincədi. Onun şiddətli və üzr diləməyən ehtirasını, bahalı və qüsursuz zövqünü də xoşlayır. Güman ki, Deksterin onun necə görünməyindən, onunla birlikdə necə görünməklərindən xoşu gəlir, ancaq onda sentimentallığın zərrəcə olmamasını daha çox xoşlayır; o, almaz kimi möhkəmdi, gözəldi, cazibədardı, Dekstersə həyatında ilk dəfə ovçu rolundadı. O, Çelsidəki adamı var-yoxdan çıxaran bahalı fransız restoranında ilk görüşlərində onun rahat olub-olmadığını soruşmuşdu. "Çox gözəl", – demişdi Silviya; sadəcə, gülməyi xoşlamadığını bildirmişdi, çünki gülmək qırış yaradır. Bu sözdən üzü ürpərsə də, qızın sərtliyini bəyənmişdi.

Uzun uik-əndlər arasında bu, onun Silviyagilə ilk gəlişiydi. Onlar Çiçesterə yollanıb, sonra da M3 yoluyla davam eləyib Kornuell yarımadasında kottec kirayələyirlər; burada Silviya ona sörfinqi öyrədəcək. Əlbəttə, o gərək işdən bu qədər aralanmasın, işləmək və ya iş axtarmaq lazımdı. Ancaq Silviyanı bu cür sərt, allanmış, saçlarını quyruq kimi yığıb üzgüçülük kostyumunun üstündən buraxmağını xəyalına gətirəndə özünü saxlamağı bacarmır. Onun üzünə baxır, elə bil soruşur ki, təəssüratı necədi, o da razılıqla gülümsünür. Hələ ki hər şey yolundadı; Dekster sonuncu dəfə özünə şərab süzür. Lap çox içmək olmaz. Belə adamlar gərək həmişə özlərini yığışdıra bilələr.

Desertdən – onların öz bağlarından gələn, Deksterin tərifini göylərə qaldırdığı çiyələkli sorbedən sonra o, Silviyaya nimçələri

Telegram: @cinciva

evə – kukla evciyi kimi necə gəldi quraşdırlmış qırmızı kərpicli imarətə aparmağa yardım eləyir. Onlar viktorian üslubunda düzəldilmiş mətbəxdə dayanıb qab-qacağı qabyuyana doldururlar.

– Mən sənin qardaşlarını həmişə səhv salıram da.

– Mən onları belə ayırıram – Sem hirsli, Mürreysə həlimdi.

– Deyəsən, heç onların xoşuna gəlmirəm.

– Özlərindən başqa kimsəni bəyənmir onlar.

– Məncə, mənə bambılı kimi baxırlar.

Silviya əlini mətbəx dəsgahının yığıldığı səbətin üstündən uzadıb, onun əlini ovcuna alır:

– Bizimkilərin sənin haqqında nə düşünməyi sənincün belə önəmlidi?

– Bilmirəm. Bəs sənincün önəmi var onların haqqımda nə düşündüyünün?

– Belə də, qismən.

– Demək, mənə də, – o, səmimi fikrini deyir.

Silviya quruyub qalır və diqqətlə ona baxır. O nə cəmiyyət içində gülməyi, nə açıq sevgi göstərməyi sevir – ağuş açmaq və başqa incəliklərin də həvəskarı deyil. Onunla seks çox mürəkkəb oyun mərasiminə bənzəyir: hər şey qurtarandan sonra bütün əzələləri ağrıyır, özünü də, adətən, oyunu uduzmuş kimi hiss eləyir. Aralarında cinsi əlaqə arada-bərədə baş verir, ancaq elə ki baş tutdu, açılmış yay kimi qəfildən, ildırım sürətilə davam eləyir. Elə indi olduğu kimi: Silviya birdən əlini onun boynunun ardına keçirib bərk-bərk öpür, eyni vaxtda o biri əliylə onun əlini tutub öz ayaqlarının arasına dürtür. Dekster onun geniş açılmış, duyğu dolu gözlərinə baxır və qabyuyan maşının qapısı arasında qalan ayağının ağrısını gizlədib, öz üzünə də ehtiras yağan ifadə verir. O, Silviyanın ailəsinin evə necə daxil olduğunu eşidir; əkizlərin kobud səsləri dəhlizdə gurultu qoparır. Aralanmağa çalışır, ancaq

Telegram: @cinciva

onun alt dodağı Silviyanın dişləri arasında qalıb, lap Disney cizgi filmlərində olduğu kimi gülməli şəkildə dartılıb uzanır. Dekster ağrıdan inildəyir, Silviya da gülüb onun dodağını buraxır – dodağı da diyircəkli pərdə kimi şappıltıyla yerinə qayıdır.

– Yatağa girənəcən bağrım çatlayar, – Silviya pıçıldayır, o isə dodağından qan gəlib-gəlmədiyini yoxlayır.

– Görəsən, sizinkilər eşitmədi ki?

– Vecimə deyil. Uşaq deyiləm ki. – Dekster fikirləşir, elə bu dəqiqə ona sevdiyini desin, deməsin. – İlahi, Dekster, axı qazançanı elə bu cür maşına qoymaq olmaz, əvvəl suya çəkmək lazımdı, suya! – O, qazançaları suya çəkməyi onun öhdəsinə buraxıb salona gedir.

Dekster qorxaq adamlardan deyil, ancaq bu ailənin özündənrazılığında, təkəbbüründə nəsə var ki, adamı müdafiə mövqeyi tutmağa məcbur eləyir. Hətta iş heç mövqedə də deyil. Ona qalsa, o, özü də imtiyazlı çevrələrdən çıxıb, ailəsi belə daha liberal və daha bohemdi, nəinki mühafizəkar Kouplar. Bunlar isə onu elə bir vəziyyətə gətiriblər ki, sanki o, özünün uğursuz olmadığını mütləq sübut eləməlidi. Kouplar o kəslərdəndi ki, dan yeri ağaranda yataqdan qalxıb dağ gəzintisinə və göl üzgüçülüyünə çıxırlar; sağlam, enerjili, hər şeydə yaxşıdılar, ancaq onun qərarı belədi ki, onlara gözünü qorxutmağa imkan verməsin.

O, salona keçəndə əkizlər üzünü yana çevirib anidən kiriyirlər, yüz faiz ondan danışırmışlar. O, arxayınca gülümsünüb gül üzlüklü divanlardan birində əyləşir. Salon şəhərkənarı otellərin tərzində bəzədilib, hətta qəhvə masasının üstünə jurnallar belə yelpik şəklində düzülüb: "Şəhərkənarı həyat", "Özəl detektiv", "İqtisadçı"... Qu desən, qulaq tutular. Saatın necə çaqqıldadığı belə eşidilir; Dekster elə "Ailə ocağı" jurnalını vərəqləmək istəyir ki, bu vaxt Mürrey dillənir:

Telegram: @cinciva

– Gəlin "Moriarti" oynayaq, hə?

Ailənin bütün üzvləri, Silviya da daxil olmaqla razılıq səsləri çıxarır.

Dekster "Moriarti nədi?" soruşan kimi ailə səmimiyyətlə başını yırğalayıb, yad adamın cahilliyini məzəmmət eləyir.

– Bu çox, çox möhtəşəm ailə oyunudu! – Helen deyir. Dekster bütün gecə boyu ilk dəfə onu belə vəcd içində görür. – Biz uzun illərdi ki, bu oyunu oynayırıq! – Bu arada Sem "Deyli teleqraf"ı bürmələyib uzunsov lülə düzəldir. – Qısacası, qayda belədi: oyunçulardan birinin gözünü bağlayıb, bürmələnmiş qəzeti əlinə verirlər. O, üzü ikinciyə dizi üstə çöküb...

– ...onun da gözü bağlı olur, – Mürrey söhbəti ələ alır, eyni vaxtda da əntiq yazı masasının çəkməcələrini yapışqanlı lent tapmaq üçün eşələyir. – Həmin o əlində bürmələnmiş qəzet olan deyir:

– "Buradasanmı, Moriarti?" – Mürrey skoçu Semə atır.

– İkinci isə ya yayınır, ya biclik gəlib deyir: "Hə!", ya da "Buradayam!" – Sem qəzeti möhkəm-möhkəm bürmələyir. – O biri də səsin səmtini tutub, rəqibi qəzetlə vurmalıdı!

– Cəmi üç şans verilir, üçündə də yanlış düşsən, yerini vurmaq istədiyinlə dəyişirsən, – Silviya bu viktorian oyununu oynayacağının həzzi içində qaydanı tamamlayır. – Yox, rəqibi vura bilsən, onda özünçün növbəti qurbanı seçirsən. Ən azı, biz belə oynayırıq.

– Belə. – Mürrey kağız zopayla dizinə şappıldadır. – İndi sən idmanın bu cür ekstremal növünə nə deyirsən?

Ümumi rəy əsasında Sem əsas oyunçu elan edilir, yad, yəni Dekster isə onun qurbanı; təbii ki, zopa Semə çatır. Döyüş meydanı kimi salonun ortasında salınmış köhnə xalça seçilir, Silviya Deksteri gərəkən yerə aparıb arxadan gözlərini böyük ağ dəsmalla bağlayır – lap öz sadiq cəngavərinə lütf göstərən əsl şahzadələr

Telegram: @cinciva

kimi. Dekster qarşısında dizi üstə oturub gülümsəyə-gülümsəyə qəzeti ovcuna şappıldadan Semə sonuncu dəfə baxır və birdən başa düşür ki, nə olur-olsun, bu oyunu udmalı, bu ailəyə, əslində, kim olduğunu göstərməlidi. "Göstər onlara", – Silviya isti nəfəsini onun qulağına verərək pıçıldayır, o isə mətbəxi, əlinin Silviyanın ayaqlarının arasında olmasını xatırlayır. Silviya onun dirsəyindən yapışıb dizi üstə çökməsinə yardım eləyir; oyunçular meydandakı qladiatorlar kimi sükut içində İran xalısının üstündə qarşı-qarşıya otururlar.

– Oyun başlasın! – Layonel imperator ədasıyla elan eləyir.

– Buradasan, Moriarti? – Sem gülərək deyir.

– Buradayam, – Dekster cavab verib, limbo rəqqası kimi geri çəkilir.

İlk zərbə düz gözünü tutur. "Oyy! Uyyy!" – Kouplardan nida qopur, onun ağrısını lağa qoyurlar.

– Yəqin ki, ağrıdır, – Mürrey istehzayla söyləyir, Dekstersə sadədilcəsinə qaqqanaq çəkib gülür, elə bil ki, "Əhsən sənə, oğlan" deyir, halbuki necə lazımdı ələ salındığını hiss eləyir.

– Ağrıtdın, a! – yanağını sığallayıb deyir.

Sem qan qoxusu alıbmış kimi soruşur:

– Buradasanmı, Moriarti?

– Burd...

Dekster sözünü bitirib tərpənməyə macal tapmamış zopa sağrısını tutur. O diksinib böyrü üstə yıxılır; Kouplar yenidən qəşş eləyirlər, Sem isə sakitcə fısıldayır: "Bax belə".

– Semmi, ağıllım, – anası oğluyla fəxr edərək deyir, Dekster birdən anlayır ki, ailənin çılğın aşağılama ritualı halına gələn bu lənətəgəlmiş, gicbəsər oyundan zəhləsi gedir.

– 2:0 – Mürrey qaqqıldayır. Əhsən, qaqaş.

"Mən sizə göstərərəm, bic-vələdüzzina qaqaşlar", – Dekster qəzəbdən partlayaraq fikirləşir. Təpəsindən tüstü çıxır. Axı onun

Telegram: @cinciva

ən zəhləsi gedən şey lağa qoyulmağıdı, illah da, hər şey bir yana, ona tam bir məğlub kimi baxıb, qiymətli Silviyalarının sevgilisi rütbəsini yaraşdırmayanlar gülələr.

– Deyəsən, mən bu oyunun mənasını başa düşdüm, – o, yumor hissini köməyə çağırıb, eyni zamanda, Semin üzünü yumruğuyla dağıtmağı ürəyindən keçirərək gülə-gülə deyir...

– Hazırlaşın, indi nəsə baş verəcək, – Mürrey yenidən istehzalı səsilə deyir.

...ya da tavayla, ağır çuqun tavayla...

– Məncə, 3:0 indidən cibimizdədi.

...ya da çəkiclə, lap yaxşısı gürzlə...

– Buradasanmı, Moriarti? Sem soruşur.

– Buradayam! – Dekster cavab verir, dərhal da nindza kimi sağa əyilib bədənini yana çəkir.

Sem üçüncü dəfə yuxarıdan xəncər kimi bürmələnmiş qəzetlə onun çiyninə vurur; Dekster kürəyi üstə qəhvə masasının üstünə yıxılır. Zərbə elə dəqiq və güclü olur ki, o şübhələnməyə başlayır: deyəsən, Sem xəlvəti göz qoyur; ancaq o, gözünü açıb onu fırıldaqçılıqda yaxalamaq istərkən qarşısında Silviyanı görür – onun üstünə əyilib gülür, ürəkdən gülür, özü də, baxmayaraq ki, gülmək qırış yaradır...

– Buna deyərəm zərbə! Yüzfaizlik gözündən vurma! – nasist düdəməsi Mürrey ciyildəyir. Dekster ayağa qalxır, üzünə şən ifadə verir. Onu iltifatla alqışlayırlar.

– URRAAAAAA! – Sem dişlərini ağardaraq, qızararaq yumruqlarıyla döşünə döyüb bağırır.

– Bəlkə gələn dəfə bəxtiniz gətirdi! – Helen – qaniçmiş Roma imperatriçəsi Deksterə təsəlli veir.

– Sən hələ öyrənəcəksən, – Layonel gülümsəyir, qəzəbdən boğulan Dekstersə əkizlərin əllərini alınlarına söykəyib, baş və şəhadət barmaqlarının köməyi ilə "L" hərfi cızdıqlarını gözdən qaçırmır. "L" – uğursuz.

Telegram: @cinciva

– Onsuz da, mən səninlə fəxr edirəm, – Silviya onun saçlarını pırtlaşdırıb, dizinə şappıldadaraq mızıldanır. O, Silviya ilə yanaşı oturmaq üçün divana çökür. Məgər Silviya onun tərəfini saxlamamalıdı ki? İş gəlib loyallığa çatanda o, həmişə onlardan birinə çevrilir.

Turnir davam edir. Mürrey Semüeli, Layonel Mürreyi şapalaqlayır, sonra Helen onun dərsini verir; bütün bunlar şən, fərəhli atmosferdə və hamısı da Dekster ortada olduğu vaxtdakından daha əyləncəli şəkildə baş verir. Heç o – Dekster üzünə ağac kimi bərk qəzetdən zərbə alanda Kouplar belə xeyirxah deyildilər. Yumşaq divanın içində itib-batıb, qaşlarını çataraq onları seyr edir, qisas üçün də sakitcə qərara gəlir ki, Layonelin bordo şərabının dibinə daş atsın. Vaxt olub, Dekster belə şeyləri yumorla qarşılayıb. Olaydı iyirmi üç yaşı, daha inamlı, cazibədar olar, öz gücündən şübhələnməzdi; indisə bu keyfiyyəti qeybə çəkilib, özü də şüşə boşaldıqca əhvalı daha da korlanır.

Sonra Helen Mürreyə qələbə çalır, Sem Heleni yenir, bəli... növbə Semin bacısını döyməsinə çatır. Dekster Silviyanın necə məharətlə oynamasını izlərkən zövq və qürur duymadığını demək olmaz; Silviya – onun qızıl sevgilisi qardaşının qəfil hücum cəhdlərindən çox bacarıqla, cəld, əsl atlet, idmançı kimi yayına bilir. O, yerini divanda rahlayıb təbəssümlə baxır və düşünür ki, onun varlığını yerli-dibli unudublar. Ancaq buradaca Silviya qəzeti ona uzadıb deyir:

– Gəl bura. Növbə sənindi!

– Sən ki udubsan!

– Bilirəm, ancaq sən yazıq bir dəfə də aparıcı ola bilməyibsən. – O, rəhmdilliklə dodaqlarını büzür. – Hə, bir yoxla. Vur görək məni!

Kouplar vəcdə gəliblər; onlar öz həyəcanlarını göstərmək üçün kor əjdaha kimi nərilti çəkirlər – iyrənc olduğu qədər seksual

Telegram: @cinciva

nərilti. O başa düşür ki, başqa heç bir seçimi yoxdu. Onun şərəfi qumara qoyulub – Meyhyu nəslinin şərəfi! Dekster təntənəli şəkildə badəsini masaya qoyub qalxır və qəzeti əlinə götürür.

– Ciddi sözündü? – əli çatacaq yaxınlıqda dizi üstə çöküb soruşur. – Bax mən tennisi pis oynamıram a!

– Ah, mən buna əminəm, – Silviya təhrikedici gülüşlə, bir gimnast kimi biləklərini silkələyib cavab verir. Mürrey onun gözlərini bağlayır.

– Zənnimcə, bu dəfə mənimki gətirəcək, – Dekster deyir.

Sem arxadan onun gözlərini bərk-bərk sıxır:

– İndi görərik.

Arenaya sakitlik çökür.

– Hazırsan? – Dekster soruşur.

– Hə, başla.

Dekster bürmələnmiş qəzeti ikiəlli sıxıb çiyinləri bərabərinə qaldırır.

– Əminsən?

– Sən hazırsansa, onda mən...

Bir anlıq daxili nəzərlərlə Dekster özünü meydandakı beysbolçu zənn eləyir və diaqonal üzrə yuxarıdan aşağı uca fit səsilə müşayiət olunan güclü zərbə endirir. Gözləri bağlı olduğundan zərbənin gücü nəhəng təsir bağışlayır; vibrasiya qollarından axıb sinəsinə ötürülür. Zərbənin arxasınca lal sükut çökür və Deksterə bir anlıq elə gəlir ki, o, hər şeyi çox möhtəşəm yerinə yetirib. Sonra isə şaqqıltı eşidir, Kouplarsa dəhşət içində qışqırışırlar:

– SİLVİYA!

– Aman, Tanrım!

– Əzizim, gözəlim, sənə bir şey olmadı ki?

Dekster sarğını gözündən çıxarıb atır və görür ki, Silviya nə təhərsə otağın o başına düşüb; o, bütün bağları kəsilib atılmış marionet kukla kimi ocağın yanında sərələnib. Gözləri hədəqəsindən

Telegram: @cinciva

çıxıb qırpılır, ovuclarıyla üzünü qapayır, ancaq yenə də onun burnundan axan tünd qan şırnağı Deksterin gözündən yayınmır. Silviya sakitcə inildəyir.

– İlahi, Silviya, bağışla! – O, yerindən atılıb otağın o başına düşmək istəyir, ancaq ailə öz övladını artıq üzük qaşı kimi əhatəyə alıb.

– İlahi, Dekster, sən nə düşünürsən? – qıpqırmızı qızarmış Layonel bütün bədəni boyu gərilib eşələnir.

– SƏN "BURADASANMI, MORİARTİ" SORUŞMADIN!!! – Silviyanın anası dəstənin ortasından ciyildəyir.

– Soruşmadım? Bağışlayın...

– Yox, sən eləcə gicbəsər kimi onun üstünə cumdun!

– Dəli kimi...

– Bağışlayın. Bağışlayın, mən unutdum... Mən, şey...

– Sərxoş! – Sem bağırır. Sözlər havada uçuşur. – Sən sərxoşsan, dostum. Sən əməlli-başlı keflisən!

Hamı üzünü çevirib onun gözü qarşısında qəzəbli parıltıya çevrilir.

– Bu, təsadüfdü. Yəqin ki, üzünə əks tərəfdən vurmuşam.

Silviya Helenin qolunu çəkişdirir:

– Çox pis görünür? – ovcunu asta-asta üzündən ayırıb, ağlamsınaraq soruşur. Burnu çiyələkli şorbanın topuna bənzəyir.

– Elə də pis deyil, – Helen içini çəkib, ağzını əliylə tutur.

Silviya alnını qırışdırıb ağlamağa başlayır.

– Qoyun özüm baxım! Qoyun özüm baxım! Hamama aparın məni! – O sızıldayır, Kouplarsa onu qaldırırlar.

– Bu, sadəcə, bədbəxt hadisədi... – Dekster deyir.

Silviya anasının əlindən tutub düz qarşısına baxaraq onun yanından keçir. – İstəyirsən, mən də gəlim. Silviya? Silviya? – Heç kim ona cavab vermir, o, yazıq görkəm alaraq anasının onu dəhlizdən keçirib pilləkənlə hamama aparmasına baxır.

Telegram: @cinciva

Addım səsləri kəsilir.

Dekster Kouplar ailəsinin kişi qismiylə təklikdə qalır. Neandertal insanlar kimi qeyzlə onu marıtlayırlar. O, instinktiv olaraq yeganə silahını – "Deyli teleqraf"ın bugünkü möhkəmcə dürmələnmiş nüsxəsini ovcunda sıxır və ağlına gələn tək fikri deyir:

– Yəqin ki, ağrıdır...

– Hə, nə deyirsən, bir təəssürat yarada bildim?

Dekster Silviyayla qonaq otağında böyük çarpayıda uzanıblar. Silviya üzünü ona çevirir: balaca, incə burnu qırmızı ləkəsilə suçlayıcı şəkildə Deskterə tuşlanıb. Silviya nifrətlə fınxırır, ancaq heç nə demir.

– İstəyirsən, bir də üzr istəyim?

– Dekster, narahat olma.

– Bağışlayırsanmı?

– Bağışlayıram.

– Səncə, onlar məni normal sayır, ya nəsə aqressiv psixopat?

– Məncə, normal hesab eləyirlər. Gəlsənə bunu unudaq, yaxşımı? – Kürəyini ona sarı çevirib, çarpayının özünə tərəf hissəsindən lapmanı keçirir.

Bir dəqiqə keçir. O hiss eləyir ki, xəcalət çəkən məktəbli kimi Silviya bir daha hər şeyin qaydasında olduğunu deməsə, gözünə yuxu getməyəcək.

– Bağışla ki... hər şeyin içinə elədim... – günahkarcasına deyir. *Of, yenə də!*

Silviya yenidən çevrilib şəfqətlə onun yanağını sığallayır:

– Yaxşı da, qurtar belə danışmağı. Sən məni vuranacan hər şey yaxşı gedirdi. Sən onların çox, çox xoşuna gəlibsən.

– Bəs sən özün indi mənim haqqımda nə düşünürsən? – O, yenə də şübhə içində soruşur.

Telegram: @cinciva

Silviya ah çəkib gülümsəyir.

– Onda bəlkə öpəsən məni?

– Öpəmmərəm. Burnumdan qan gələr. Sabah əvəzini çıxaram.

Silviya onun saçını qarışdırıb, yenidən o üzü üstə çevrilir. Dekster çarpayının aşağısına sürüşüb, əllərini başının arxasında daraqlayır. Çarpayı gerçəkdən çox genişdi; yumşaqdı, mələfələr təravət saçır, dışarıdan isə sakit yay gecəsi duyulur. Adyalı, örtüyü üstlərindən atıb ağ pambıq döşəkağının üstündə uzanıblar, Silviyanın gözəl ayaqlarının və zərif ombasının, bükülmüş hamar kürəyinin konturları görünür. Bu gecə sevişmək arzusu onu vurduğu andan puça çıxıb, hətta beyin silkələnməsi qorxusu da var, ancaq o, yenə də çevrilib əlini onun ombasına qoyur. Dərisi sərin və hamardı.

– Sabah uzun yolçuluğumuz var, – Silviya burnunun altında deyir. – Gəl yataq.

Onun başının arxasından baxır: uzun, incə saçlarının boynunun arxasında qıvrılaraq daha tünd rəngli saçlarının yastığa yayılmasını seyr edir. Necə də gözəl kadr alınardı, o fikirləşir, necə də gözəl. Onun "Teksturalar" layihəsindəki kadrlara bənzərdi. Bəlkə elə sevgisini açsın, ancaq birbaşa yox, məsələn, bu cür: "Deyəsən, sənə vurulmuşam axı?" Bu, çox incə alınardı, həm də az minnət qoyardı boynuna. Ancaq yox, vaxtı deyil; dolabçanın üstündə hələ də qanlı pambıq varkən, heç yeri deyil.

Bununla belə, Dekster hiss eləyir ki, nəsə bir şey tapıb deməlidi. Birdən ilhamlanıb Silviyanın çiynindən öpə-öpə pıçıldayır:

– Bilirsən, necə deyərlər... – O, effekti artırmaq üçün susandan sonra davam eləyir: – "İnsanlar həmişə daha çox sevdiklərinə acı çəkdirirlər!"

Çox ağıllı və incəliklə dediyini düşünür; Silviya isə cavab vermir, o da qaşını çatıb reaksiya gözləməyin yersiz olduğunu anlayana kimi gözləyir.

Telegram: @cinciva

– Yataq da, yaxşı? – deyir.

O, incik halda arxası üstə uzanıb A259 şosesindən gələn səssiz uğultunu dinləyir. Yəqin ki, otaqlardan birində Silviyanın ata-anası onu yaş yuyub, quru sərirlər, o isə dəhşət içində olsa da, gülməyi gəlir. Əvvəlcə pıqqıldamağa, sonra hiss olunmamasına çalışaraq gülməyə başlayır; di gəl bədəni, bədəniylə birlikdə döşək də silkələnir.

– Bu nədi, gülürsən? – Silviya yastığa mızıldayır.

– Əsla! – Dekster gözlərini qıyır ki, özünü saxlasın, ancaq gülüş dalğa-dalğa gəlir, o, qarnından qalxmağa başlayan növbəti qaqqıltı tutmasının yaxınlaşdığını hiss eləyir. Həmişə sonralar keçmişdə baş vermiş ən dəhşətli hadisənin həyatın məzəli bir olayına çevrildiyi bir məqam gəlir, indi o da başa düşür ki, hə, məhz həmin nöqtəyə yetişib. Elə bir hadisə ki, o ancaq Emma Morliyə danışmaq istərdi. Ancaq indi Emma Morlinin nə yerindən-yurdundan, nə hansı işlə məşğul olduğundan xəbəri var. Az qala, iki ildi ki, görüşmürlər.

Bu macəranı yadda saxlamaq lazımdı. Haçansa bu haqda Emmaya danışar.

Dekster yenidən gülməyə başlayır.

Telegram: @cinciva

XIII Fəsil

Üçüncü dalğa

15 iyul, 1999-cu il. Cümə axşamı

Somerset

Axır ki, yuxuya getdilər. Basmanaxışlı bahalı zərflər xalçanın üstündə dağınıq şəkildə səpələnmişdi. Toy dəvətnamələriydi.

Bu toy mərasimlərinin ilk dalğası deyildi. O dalğada yaşıdlarından bəziləri hələ universitet illərində evlənmişdilər, ancaq onlarınkı böyük toylarının yamsılaması, kiçik tələbə şadyanalığından başqa bir şey deyildi; "məzəli tələbə piknikləri"ndən o yana getmirdi, mərasim paltarlarını geyinib ton balığıyla makaron yeyər, əylənərdilər. Toy qəbullarının əvəzinə yerli parkda piknikər düzənlərdilər, qonaqlar birovuz kostyumda, bal paltarlarında olar, sonda da hamı pivələnməyə gedərdi. Həmin illərin toy rəsmləri bəylə gəlinin, adətən, pivə parçı toqquşdurduğu şəkildə olardı; bəzən bu şəkillərdə gəlinin tünd-qırmızı boyanmış dodaqlarında siqaret də görə bilərdin. Toy hədiyyələri də kasıbyanaydı: dəbdə olan mahnılar kaseti, ikiüzlü vallar, ucuz ramkalı fotokollajlar, şam dəstləri. Universitet toyları, bir növ, məzhəkə, yüngül formalı qiyamçılıqdı, heç kimin görməyəcəyi xırdaca tatuirovka eləməyə, ya da, tutaq ki, etiraz əlaməti olaraq saçını dibindən qırxdırmağa bənzəyirdi.

Telegram: @cinciva

İkinci dalğada – iyirmi beş yaşlıların toylarında hələ ev təbiiliyini saxlamaq mümkün olmuşdu. Qonaqlar yerli klublarda, valideynlərin bağlarında toplaşar, nikah sözləşməsini özləri yazar, hər cür dini ayindən qətiyyətlə qaçar, kimsə də mütləq hər dəfə yağış haqda məşhur şeiri oxuyardı. Ancaq elə o vaxdan praqmatizm özünün soyuq və amánsız üzünü göstərməyə başladı. O vaxtdan "toy bəxşişlərinin qeydiyyatı" ənənəsi göydə fırıldamağındaydı.

Bəlkə irəlidə dördüncü – ikinci evliliklər dalğasını da gözləməyə dəyər; bu, iştirakçıların yüngülcə narahatçılıq keçirib, uşaqlar əldən düşməsin deyə şənliyi saat onun yarısında bitirməyə tələsdikləri həmin fərəhli, həmin qəmli toylardan olmayacaq. Adətən, belə hallarda: "Özümüz çox əzəmətli olmasını istəmədik, – bəylə gəlin deyir. – Sadəcə, kiçik bir əyləncə üçün bəhanə". Ancaq indi bu vaxtacan gücündə, dağıdıcılığında, əzəmətində misli-bərabəri olmayan üçüncü dalğanın vüsət aldığı ildi. Bu, otuz-otuz beş yaşlıların toylarıdı; bu şənliklərdə artıq kimsə gülümsəmir.

Üçüncü dalğa qarşısı alınmazdı. Demək olar ki, hər həftə poçtalyon yeni bərbəzəkli dəvətnamə zərfi gətirir. Zərflər elə toppuş olur ki, elə bil içində kağız mühəndisliyinin təntənəsinə müəmmalı dəvət yerləşdirilmiş bomba var, – bundan başqa da təlqinedici telefon nömrələri, veb-saytlar və toya necə getmək, nə geyinmək, hədiyyələri haradan almaq kimi təlimatlar. Yeri şəhərkənarı otellərdə bloklarla götürür, tam bir sürü qızılbalıq tutdurur, bir gecəliyinə iri bədəvi çadır şəhərciyini xatırladan nəhəng çadırlar qururlar. Bozumtul, solğun smokinq və silindrləri birovuz götürüb son dərəcə ciddi görkəmlə geyinirlər, nəbatatçı və restoran sahibləri, simli kvartet və rəqs müəllimləri, buz heykəl və biristifadəlik fotoaparat istehsalçılarına isə ancaq ciblərini geniş açmaq və sevinmək qalır. Az-çox layiqincə, canla-başla ifa eləyən qruplar yorulub, əldən-ayaqdan düşürlər. Kilsələr yenidən dəbə minib, üstə-

Telegram: @cinciva

lik xoşbəxt cütlüklər indi ibadətxanalardan əllərində şarlar, üstüaçıq London avtobuslarında və ya ağappaq atların tərkində, ya da özəl təyyarələrdə qısa bir yol qət eləyirlər. Toy gerçəkdən fövqəlbəşəri sevgi və dönüşlə yanaşı, qonaqların çoxundan öz hesabına götürdükləri qısa məzuniyyətlər tələb edir. Konfetti qutuları səkkiz funta başa gəlir. Artıq konfetti yerinə tindəki dükanın piştaxtasından götürülən düyü kisələri kara gəlmir.

Kiliklər Emma Morli və onun sevgilisini Tilli Killiklə Malkolm Taydvellin nikah mərasiminə dəvət etməkdən şərəf duyurlar.

Emma yanacaqdoldurma deposunda özünün yeni və ilk maşını köhnə – "Fiat Panda"sında oturub əlində dəvətnamə, hiss eləyirdi ki, bu toyda da kişilər siqar çəkəcək, hansısa bir ingilissə mütləq kelt geyinmiş olacaq.

"Emma Morli və sevgilisi..."

O, yenidən avtomobil xəritəsini açdı – köhnə nəşrdi, bəzi böyük şəhərlər və şəhərətrafı rayonlar xəritəyə düşməmişdi. Yüz səksən dərəcə çevirib, sonra doxsan dərəcə əksinə döndərdi, ancaq bu minvalla elə Qiyamət Gününün Kitabıyla da istədiyi səmti müəyyənləşdirə bilərdi. Emma xəritəni arxaya – mövcud olmayan "sevgilisi"nin əyləşəcəyi oturacağa tolazladı.

Emma yolda kabusa dönmüşdü – çox diqqətsiz sürürdü, mane olmaq istəyəndə quruyub qalırdı; fikri ilk əlli kilometri ancaq eynəyini dikəltməyin yanında qaldı, halbuki səhər linzalarını taxmışdı, ona görə də elə bil onu qorxuya salan başqa maşınlar lap yadelli planetlərdən gələn kosmik gəmilər kimi haradansa sivişib çıxırdılar. Təzyiqini qaydasında saxlamaq və üst dodağının üstündəki tər damcılarını qurutmaq üçün tez-tez maşını saxlamalı olurdu.

Çantasında eşələndi, görünüşü aydın olsun deyə əzilib-büzülmədən güzgüyə baxdı. Dodağının boyası çox tünd və cəlbediciydi,

Telegram: @cinciva

ənlikli yanaqlarısa Restavrasiya çağının komik aktrisasının qrimi kimi saxta görünürdü. *Niyə, axı niyə mən həmişə anasının kosmetikasıyla üz-gözünü boyayan qız uşaqlarına oxşayıram,* – Emma düşündü. O da belə ənənəvi yanlışlığa yol verib dünən bərbərə (yox-yox, bağışlayacaqsınız, stilistə) getmişdi, ona görə də saçları hələ də ona anasının "saçdüzücü" dediyi dünənki o çoxqatlı bərbər alətini xatırladırdı.

Var qüvvəsilə paltarının ətəyini çəkib düzəltdi – bu, onu "Qızıl əjdaha" kimi adı olan restoranlarda çalışan koppuş ofisiant qızlara bənzədən, çin tərzində parlaq göy ipəkdən, daha doğrusu, süni ipəkdən bir paltardı. Oturanda parçası şişib dartılır, bir yandan "ipək", bir yandan yolun çətinliyi üzündən büsbütün tərə bələşirdi. Maşının kondisionerində cəmi iki kökləyici vardı: "Uçuş meydanı", bir də "Sauna", onun bütün incəliyi isə hələ Myedenheddə yoxa çıxmışdı – vur-tut ikicə nəm ləkə qalmışdı üstündə. Diqqətlə ləkələrə baxıb,dirsəyini qaldırdı və evə qayıdıb paltarını dəyişsinmi deyə fikirləşdi. Bəlkə heç toya getməsin. Evə qayıdıb kitabını işləsin. Tilli Kilik hələ də onun ən yaxşı rəfiqəsiydi. Ancaq yox, o kədərli günlərdə Tilli ona Kleptondakı darısqal otağını verəndə münasibətlərinə elə bir kölgə salmışdılar ki, onlar hələ də girovun qaytarılması haqda mübahisələrini həll etməmişdilər. Gəlin sənə əlli fut borclu olanda evlənənlərə xoşbəxtlik arzulamaq elə də asan deyil.

Bir yandan da bütün köhnə dostları orada olacaq. Sara Si, Elison, Sita, əkiz Uostonlar, Bob, "makaron fabrikində partlayış" saç düzümü olan Mari, nəşriyyatdan Stefani Şou, qəlyanaltı şəbəkəsinin varlanmış sahibi Kellum O`Nil. Bir də Dekster. Dekster öz rəfiqəsiylə.

Emma nə edəcəyini düşünə-düşünə qoltuğunun altını yelqovarın qabağına tutub qurudurdu ki, elə bu vaxt Dekster hiss olun-

Telegram: @cinciva

madan özünün idman "Mazda"sında ötüb keçdi. Silviya Koup da maşındaydı.

– Bəs kimlər olacaq orada? – Silviya musiqinin səsini alıb soruşdu. Bu gün musiqini o seçmişdi, Travis qruppasını. Silviya elə də musiqi aludəçisi deyildi, ancaq Travis istisnaydı.

– Universitetdən bir dünya adam. Pol, Sem, Stiv O`Di, Piterlə Sara, əkiz Uotsonlar. Bir də Kellum.

– Kellum. O elə xoşuma gəlir ki!

– "Makaron fabrikində partlayış" saç düzümlü Mari, Bob. Hələ gör neçə illərdi, onları görmürəm. Köhnə rəfiqəm Emma.

– Daha bir keçmiş?..

– Yox, o, keçmiş deyil.

– Köhnə eşqbazlıqdı?

– Eşqbazlıq da deyil. Sadəcə, köhnə rəfiqə.

– O ingilis dili müəlliməsi?

– Artıq müəllim deyil. Sən Bobla Marinin toyunda onunla söhbətləşmişdin, xatirindədi? Çeşirdə.

– Nəsə, dumanlı şəkildə yadıma düşür. Yeri gəlmişkən, çox cazibədardı.

– Yəqin ki. – Dekster çiyinlərini çəkdi. – Biz necəsə dilləşmişdik, uzun müddət küsülü olduq. Sənə demişdim. Yadında?

– Bilirsən, sənin dostların başımda qarışıblar. – O, pəncərəyə sarı çevrildi. – Aranızda bir şey olmuşdu sizin?

– Yox, əşi, heç nə!

– Bəs gəlinlə?

– Tilli? Onu niyə soruşursan?

– Onunla yatmısız?

Dekster 1992-ci ilin dekabrını və Kleptondakı həmişə dağ soğan iyi verən həmin o dəhşətli mənzili xatırlayır. Hər şey ayaq masajıyla başladı və sonra da nə cürsə öz-özünə dəlicəsinə fırlan-

Telegram: @cinciva

mağa başladı. Emma isə bu arada univermaqdan işıq lampası alırdı.

– Əlbəttə, yox. Sən məni nə zənn eləyirsən?

– Biz hər həftə toya gedirik, hamısında da sənin yatdığın bir yığın qız.

– Heç elə şey yoxdu.

– Bir düjün belə qız. Bir konfrans kimi...

– Doğru deyil. Deyil...

– Doğrudu.

– Sən indi mənim üçün bir dənəsən. – Dekster bir əlini sükanda saxlayıb dartındı, o birini qısa, şaftalı rəngli atlaz paltarının üstündən Silviyanın qabaqkı kimi hamar olan qarnına, sonra isə açıq budunun üstünə qoydu.

– Məni yad adamlarla tək qoyub itmə, yaxşı? – Silviya dedi və musiqinin səsini ucaltdı.

Emma düz üç saat sonra gecikmiş və qanı qaralmış halda toy üçün ayırılmış böyük qəsrin darvazalarına çatanda düşünürdü ki, onu, ümumiyyətlə, içəri buraxacaqlar, ya yox. Uzaqgörən investtorlar Somersetdəki geniş Morton Menor Park malikanəsini, bir növ, "hər şey daxil" tərzində toy əmlakına çevirmişdilər: burada kiçik bir kilsə, banket zalı, qaraçöhrə labirinti, bir də qonaqlar üçün hamamı olan yataq otaqları vardı. Bütün bunlar hündür, üstündən tikanlı məftillər gedən hasarla əhatəyə alınmışdı: şadlıq həbs düşərgəsi de, başqa şey demə. Morton Menor Park, bir növ, öz qoğalvarı evcikləri və kahaları, alçaq hasar və çardaqları, qəsr və üflənmə uşaq qəsrləri ilə təzə evlənənlər üçün həftəsonlarında ala buludlara qalxan, paralarla kirələnən bahalı Disneyland idi. Keçmiş sosialist partiya üzvünün yer seçimi çox qəribə idi. Emma gördüklərindən çaşqın və təşvişə düşmüş halda uzun çınqıl yolla getdi.

Telegram: @cinciva

İbadətxanaın yolunda maşının qabağına pudralı, parik taxmış, livreya geyinmiş bir xidmətçi tullandı; krujeva manjetli qollarını geniş açıb maşının pəncərəsindən boylandı.

– Nə işdi? – Emma soruşdu. Nə üçünsə sözünün sonuna "zabit" kəlməsi artırmaq istədi.

– Mem, maşınınızın açarını verin.

– Açarı?

– Maşınınızı dayanacağa aparmalıyam.

– A, vacibdi ki? – Emma mızıldandı. Maşının tozlu pəncərələrinə, mulçaya çevrilmiş tiftiklənmiş yol xəritəsinə, döşəməyə səpələnmiş boş plastik butulkalara görə xəcalət çəkdi. – Yaxşı, ancaq bax qapılar yaxşı bağlanmır, bu məftillə bağlamaq lazımdı, əl əyləci də işləmir, elə yerdə saxla ki, hamar olsun, ya da maşını bir ağaca-zada söykə, özü də ötürücüdə saxla, getməsin, yaxşımı?

Xidmətçi açarı aldı, baş barmağıyla şəhadət barmağının arasında sıxdı, elə bil ölü siçandı.

Emma ayaqyalın yeriməyə başlayanda xatırladı ki, hələ Fatmanın nağılındakı eybəcər bacı kimi şişmiş ayaqlarını tufliyə pərçim eləməlidi. Mərasim artıq başlamışdı. İbadətxanada kvartet "Səba ölkəsi kraliçasının gəlişi"ni ifa edirdi, bəlkə də ağ əlcəkli kvintet musiqiçiləriydi. O, ibadətxanaya doğri çınqıl yolla ayaqlarını sürüyə-sürüyə irəliləyib, özünü təyyarəyə bənzədən uşaq kimi qollarını qaldırdı ki, bir az qoltuqlarının tərini qurutsun. Nəhayət, donunun ətəyini qaldıraraq açıq qalmış iri palıd qapıdan nəzərə çarpmadan içəri girib qonaq kütləsinin arxasında dayandı. "Məni nəsə yaxşılıqalr gözləyir" adlı mahnını musiqi müşayiəti olmadan ifa eləyən qrup manyakcasına çəpik çalırdı; xoşbəxt bəylə gəlin ağızlarını ayırıb bir-birinə gülümsəyirdi, hətta gözlərindən yaş da gəlirdi. Emma birinci bəyi gördü; o, reqbi oyunçusuna oxşayırdı, özü də açıq-boz smokinqdə qətiyyən pis görünmürdü. O, iri, təzə qırxılmış qızarmış üzünü Tilliyə əyib, yəqin ki,

Telegram: @cinciva

cürbəcür sifətə düşməklə mütləq ona çatdırmaq istəyirdi ki, "bu, onun həyatında ən xoşbəxt məqamdı". Demək lazımdı ki, gəlin Mariya Antuanetta tərzində kifayət qədər qeyri-adi geyim seçmişdi: çəhrayı ipək və krujeva, krinolin tuman, hündür saç düzümü, hətta qoyma xal. Yəqin ki, onun fransız dili və tarixi diplomunu çoxdan rəfdə toz basmışdı. Ancaq o, çox xoşbəxt görünürdü, bəy də, hətta qonaqlar da hamısı sevincindən işıq saçırdı, özü də, deyəsən, həddən artıq xoşbəxtdilər.

Mahnının ardıyca sketç gəldi, sonra yenə bir mahnı çalındı, tezlikcə isə toy varyete təsiri bağışlamağa başladı. Dekster hiss elədi ki, gözündən yuxu tökülür. Tillinin alyanaq bacısı qızı nəsə iki qəlbin qovuşması və nə olur-olsun xəyanətin sevgiyə son qoya bilməsi haqqında sonet oxuyurdu. Dekster ciddi-cəhdlə mahnının mənasına varmaq və özünün Silviyaya olan hisslərinə romantik məzmun vermək istəyirdi, ancaq sonra camaatı gözdən keçirib qonaqlardan neçəsilə yatdığını saymaq qərarına gəldi. Məqsədi öz izzət-nəfsini oxşamaq deyildi, yox, daha çox xiffətə qapılmaq üçündü. "Qoy həftələr, saatlar keçsin, sevgi daim qalacaq", – gəlinin bacısı qızı oxuyurdu, bu arada Dekster artıq beşini saya bilmişdi. Bapbalaca ibadətxanada beş keçmiş məşuqə. Öz rekordunu təzələdiyini düşünürdü. Bəs gəlinə görə əlavə bal düşürdümü? Düzdü, Emma hələ burada yoxdu. Emmayla beş yarım olacaqdı.

Emma arxa cərgədən Deksterin barmaqlarını necə qatladığını görürdü. Maraqlıdı, görəsən, o neynir? Qara kostyum geyinib, uzun da qara qalstuk taxmışdı; bütün tanış oğlanlar kimi özünü qanqsterə bənzətməyə çalışmışdı. Ona yandan baxsan, boğaz xəttinin öz dəqiqliyini itirdiyini görərdin, ancaq bütövlükdə əvvəlki kimi yaraşıqlıydı. Ancaq Silviyaya qədər bundan daha yaraşıqlı, daha yığcam idi. Emma onunla sözləşdiyi vaxtdan bu yana üç kərə, özü də toylarda görmüşdü onu. Dekster heç nə olmamış kimi hər dəfəsində onu qucaqlayıb öpərək demişdi: "Gərək biz görüşək,

Telegram: @cinciva

özü də mütləq görüşək", – ancaq elə söz olaraq qalmışdı dediyi. Silviya həmişə yadında olardı, həmişə də onun dərdini çəkərdilər ki, qiyamət görünsünlər. Silviya indi onunlaydı, gözündən heç nə yayınmasın deyə boynunu uzatmışdı, bu da onun başını uzun saplağın üstündə gül qönçəsinə oxşadırdı.

Toy andının oxunma zamanı yetdi. Emma Deksterə baxdı, Silviya evlənənlərin xoşbəxtliyinə həmrəylik nişanəsi olaraq əlini uzadıb barmaqlarını onun barmaqlarına keçirmişdi. Qulağına nəsə pıçıldadı, Dekster də ona baxıb, ağzını ayıraraq gic-gic gülümsədi, ən azı, Emmaya belə gəldi. O da cavab olaraq nəsə pıçıldadı; düzdü, Emma onun dodağından nə dediyini o qədər yaxşı oxuya bilmədi, ancaq belə çıxırdı ki, o "mən də səni sevirəm" deyir. Dekster karıxan kimi göründü, baxışları Emmanın gözünə sataşanda gülümsədi; elə bil pis iş üstündə yaxalanmışdı.

Göstəri bitmək üzrəydi. Yalnız "Sizə lazım olan ancaq sevgidir"in şübhəli versiyasının ifası qalmışdı. Məclis ritmi güclə tuturdu. Sonra qonaqlar evlənənlərin ardınca küçəyə çıxdı, bununla da şənlik başlandı. Basırığın içindən keçib, qarşısına çıxan başqa tanışları qucaqlayıb hal-əhval tutaraq, axır ki, Deksterlə Emma tapışdılar.

– Xoş gördük! – Dekster dedi.

– Xoş gördük.

– Biz tanışıq?

– Əminəm ki, sizi haradasa görmüşəm.

– Mən də sizi. Ancaq dəyişibsiz...

– Hə, elədi. Mən bu toyda təpədən dırnağacan su içində olan tək qadınam, – Emma paltarının qoltuğunu silkələyərək dedi.

– Tərləyibsən?

– Nə danışırsan, tərləmək nədi, əməlli-başlı su deyirəm! Elə bil bu dəqiqə sudan çıxmışam. Al, bu da sənincün təbii ipək!

– Şərq koloritinə vurğunluq?

Telegram: @cinciva

– Mən buna "Sayqonun alınması" üslubu deyirəm. Hərçənd ki bu Çin malıdı. Bu paltarların problemi ondadı ki, alandan qırx dəqiqə sonra peşman olursan: niyə ayrısını almadım! – Sözünün ortasında Emmada hissiyyat yarandı ki, çox yersiz söhbət elədi. Ona elə göründü ki, Dekster acıqla qollarını qaldırdı. – Bağışla.

– Eybi yoxdu. Paltarın da ki xoşuma gəlir. Sadəcə, çox seçilən paltardı.

Gözlərini süzdürmək sırası Emmaya çatdı.

– Hə, indi hesablaşıb üzülüşdük.

– Ciddi sözümdü, qiyamət görünürsən. – O, gözünü Emmanın başına dikdi. – Bu, nədi?..

– Harada?

– Təsadüfən bu, Cenifer Enistonun saç formasında deyil?

– Deks, uydurma da, – o mızıldadı və saçını barmaqlarıyla qarışdırdı. Tilliylə əri lap yaxınlıqda şəkil çəkdirirdilər; Tilli işvəylə yelpiyini yellədirdi. – Təəssüf ki, bugünkü toyun tematik və fransız inqilabına həsr ediləcəyini mənə qabaqcadan deməyiblər.

– Hə, sən Mariya Antuanettadan danışırsan, – Dekster dilləndi. – Hə, ən azı, ona bel bağlaya bilərik ki, pirojna olacaq.

– Yəqin, toy qəbuluna da ikiatlıda gedərlər?

– İkiatlı nədi?

Baxışdılar.

– Sən zərrəcə dəyişməyibsən, düz deyirəm?

Dekster ayağıyla daşları sovurdu:

– Bir az dəyişmişəm.

– Maraq oyatdın məndə.

– Sonra danışaram. Ora bax!

Tilli evlənənləri ibadətxanadan yüz yard aralıda yerləşən qəbul yerinə aparacaq "Rolls Roys"un ayaqyerində durub, şüvül atma yarışlarındakı kimi atmağa hazırlaşdığı çələngi ikiəlli tutmuşdu.

Telegram: @cinciva

– Niyyət tutmaq istəmirsən, Em?

– Onsuz da, tuta bilməyəcəm, – Emma deyib, əlini belinə qoydu.

İzdihama doğru uçan çələngi kök, qosqoca bir xala tutdu; yerdə qalanlar öz sonuncu xoşbəxtlik şansını qeyb etmiş kimi əməllicə acıqlandılar. Emma başını bərk-bərk çələngi sıxmış xalaya sarı çevirib:

– Qırx il sonra mən də belə olacağam, – dedi.

– Nə danışırsan? Bəs niyə qırx il? – Dekster qaqqıldadı, Emma ayaqqabısının dabanı ilə onun ayağını tapdaladı. Dekster onun çiyninin üstündən boylanıb Silviyanı gördü; yörəyə göz gəzdirib onu axtarırdı. – Mən gedim. Silviya burada heç kimi tanımır. Hələ qəti tapşırmışdı ki, ondan aralanmayım. Sən yaxınlaşıb onunla salamlaşarsan, yaxşımı?

– Bir az sonra. Gedim xoşbəxt gəlinlə bir az çənə döyüm.

– O beş yüz funtu da yadına sal.

– Pis çıxmaz? Özü də belə gündə?

– Di yaxşı, görüşərik. Deyirəm, bəlkə qəbulda bizə yanaşı yer verdilər? – Dekster dedi, ikisi də barmaqlarını xartıldatdılar.

Tutqun səhər günəşli gündüzlə günə döndü; mavi səmanın ənginliklərində buludlar üzürdü, qonaqlar "Rolls Roys"un ardıyca onları gözləyən şampan şərabı və kanapenin olduğu böyük çəmənliyə doğru addımlayırdılar. Tilli, axır ki, orada Emmanı gördü, sevincək bir səslə qışqırdı. Krinolinin imkan verdiyi qədər qucaqlaşdılar.

– Em, gəlməyinə çox sevindim!

– Mən də, Tilli. Son dərəcə gözəl görünürsən.

Tilli yelpiyini yellədi:

– Çox canfəşanlıq eləməmişəm ki?

– Yox, nə danışırsan? Sən, sadəcə, mələksən. – Emmanın gözü özündən asılı olmadan onun qoyma xalında qaldı – elə görü-

Telegram: @cinciva

nürdü, sanki Tillinin dodağına əsl milçək qonmuşdu. – Mərasim də çox gözəldi.

– Sadəcə, mərasim-mmm... eləmi? – Tillidə bütün cümlələrin əvvəlini ürəyəyatan "mmm" ilə başlamaq kimi təzə vərdiş yaranmışdı. Emma pəncəsi yaralı pişik balasına dönmüşdü. – Doluxsunmadın ki?

– Uşaq kimi ağladım.

– Mmm!.. Çox, çox şadam ki, sən gəlibsən! – O, iltifatla yelpiyini Emmaya vurdu. – Sənin sevgilinlə tanış olmağı da səbirsizliklə gözləyirəm!

– Elə mən də, ancaq heyif ki, sevgilim yoxdu.

– Mmm!..

– Yoxdu, artıq xeyli vaxtdı heç kimlə görüşmürəm.

– Həqiqətən? Ciddi sözündü?

– Olsa, özüm deyərdim də, Tilli.

– Mmm!.. Zavallı. Eybi yox, özümüz sənə birini taparıq! Bir göz qırpımında!!! Yox, ciddi sözümdü, boyfrend – bu, əntiqə seydi! Ər isə lap yaxşıdı! Mütləq sənə birini tapmalıyıq! – Tilli əzəmətli səs tonuyla dedi. – Elə bu gün! Bu dəqiqə sənə birini tapacam! – Emma, demək olar, cismən onun yumşaqlığını hiss elədi. – Mmm!.. Deksteri gördünmü?

– Bir az çənə döydük.

– Onun qızıyla tanış oldunmu? Kəkilli qızla. Ancaq qəşəngdi, hə? Odri Hepbernə oxşayır. Yoxsa Ketrin Hepbernə? Heç cür yadıma sala bilmirəm də, o əkizlərdən hansı hansıydı.

– Hə, Odri. Dübbədüz dedin, Odri, özüdü ki var.

Köhnə dostlar çəmənlikdə görüşüb xatirələrə dalmışdılar. Şampan su yerinə axırdı. Yeri gəlmişkən, bütün söhbətlər axırı gəlib ora çıxırdı ki, kim nə qədər qazanıb, kim nə qədər kökəlib.

Telegram: @cinciva

– Sendviçlər. Bütün gələcək bundadı, – bu günlər həm qazanc, həm çəkidə hamını arxada qoyan Kellum O`Nil dedi. – Yüksək keyfiyyətli fast-fud – əziz dostlar, bütün güc və gələcək bundadı. Yemək – çağdaş dünyanın yeni rok-n-rollu!

– Məncə, komediya. Yeni rok-n-roll budu.

– Deməli, əvvəl komediyaydı, indisə yemək. Zamanın nəbzini tut, Dekster! – Deksterin keçmiş otaq yoldaşı son iki ildə tanınmayacaq dərəcədə dəyişmişdi. Varlı, şişman, hərəkətliydi; şirkətini yaxşı xeyirlə satıb, kompyuter yeniləmə işini buraxmış, "Təbii qidalar" sendviç şəbəkəsi işinə başlamışdı. Kellum köynəyinin sifarişlə hazırlanmış bahalı qol düymələrini əlləşdirdi. Dekster özündən asılı olmadan düşündü: yəni bu bir şalvarı üç il əynindən çıxarmadan geyən həmin o arıq irlandiyalıdımı? – Bizdə hər şey təbii, hər şey təptəzədi, ticarətimizi namuslu prinsiplər əsasında qururuq. Tam gücüylə çalışan dörd şöbəmiz var. Kafeləri ərzaq bitdiyinə görə saat üçdə bağlamalı oluruq. Deks, gör sənə nə deyirəm, bu ölkədə qastronomik mədəniyyət dəyişir, adamlar ancaq ən yaxşısını tələb eləyirlər. Artıq heç kim bir qutu "Tanqo", ya da bir paket çips istəmir. Humus, təzə çəkilmiş papaya şirəsi, lanqust[1] istəyirlər...

– Lanqust?

– Dürməkdə, özü də rokayla. Zarafatsız. Lanqust – zamanəmizin hamburgeri, rokasa – aysberq salatıdı. Lanqust çox ucuz başa gəlir, güllə sürətiynən artırlar, özü də inanmayacaqsan – dadına söz ola bilməz, – onlara kasıbların xərçəngi də deyirlər. Bir vaxt elə yanıma gəl, danışaq.

– Lanqustlardan?

– Yox əşi, iş haqqında. Mənə elə gəlir ki, səndə yaxşı alınar.

---

[1] Dəniz xərçəngi.

Telegram: @cinciva

– Kellum, yoxsa mənə iş təklif eləyirsən? – Dekster ayaqqabısının dabanıyla çəmənliyi eşələyərək soruşdu.

– Dediyim budu ki, görüşək və...

– Bir dostumun mənə iş təklifi etdiyinə inana bilmirəm!

– ... Sən gəl, bir nahar eləyək! Xərçəng-zad da yox, abırlı bir restoranda. Mən qonaq eləyirəm. – Öz heybətli qollarını Deksterin çiyninə qoyub soruşdu: – Son vaxtlar nəsə televizorda gözümə dəymirsən.

– Yəqin, kabel və sputnik TV-ləri izləmədiyinə görədi. İndi mən ancaq oralarda iş görürəm.

– Elə? Bəs nə işdi?

– "Ekstrim idmanlar" adlı yeni şou proqramım var! Sörfinq görüntüləri, snoubordçularla intervülər. Belə-belə şeylər. Dünyanın hər küncündən.

– Belə çıxır, daim səfər üstəsən?

– Yox əşi, mən, sadəcə, aparıcıyam. Studiya Mordendədi. Ona görə də hə, daim yol üstəyəm, ancaq Mordenə, oradan da geriyə.

– Nə isə, məndən deməkdi, birdən ampluanı dəyişmək fikrin olsa... Yeyib-içməkdən də başın çıxır, bu işi bir az ağlına yeridə bilsən, adamların da dilini taparsan. Biznesdə də əsas olan bu deyilmi – insan? Elə bilirəm ki, bu, elə əsl sənin işindi. Mənim deyəcəyim bu.

Dekster nəfəsini burnundan dərib dostuna baxdı və onda nifrət doğurucu nəsə tapmağa çalışdı.

– Kel, üç il bir dizə bir şalvarı geyən sən deyildin?

– Bu, çox qədimlərdəydi.

– Bütöv bir semestri bir konserv yeyən də səndin.

– Nə deyim, insanlar dəyişir də. Sən nə fikirləşirsən? – Yaxşı, danışdıq. Məni yeməyə qonaq eləyə bilərsən. Ancaq unutma ki, biznes mənim yemim deyil.

Telegram: @cinciva

– Dərd eləmə. Hər halda, sənlə görüşmək xoş olacaq. – O, yüngülcə Deksterin çiyninə vurdu. – Bir ara məndən uzaqlaşmışdın.

– Doğrudan? Düzü, macal eləyə bilmirdim.

– Yəni elə məşğuldun ki?..

– Yeri gəlmişkən, elə sən özün də zəng vura bilərdin!

– Mən həmişə zəng vurmuşam. Ancaq sən bircə yol da!

– Doğrudan? Onda bağışla. Başım əməllicə dolmuşdu.

– Anan haqda eşitdim. – Kellum qədəhə baxdı. – Çox pis oldum. Anan gözəl qadındı.

– Hə... Xeyli keçib üstündən.

– Bir anlıq sükut çökdü araya. Axşam günəşinin ziyası altda çəmənlikdə deyib-gülüşən köhnə dostlarına sarı boylandılar. Kellumun hip-hop videolarında rəqqas çalışan miniatür incəlikli ispan sevgilisi ona doğru əyilmiş Silviyayla söhbət eləyirdi.

– Luizayla yenidən görüşmək yaxşı olacaq, – Dekster dedi.

– Deyəsən, bizimki onunla başa çatmaq üzrədi, – Kellum çiyinlərini qısdı.

– Demək, bəzi şeylər heç dəyişmir.

Qəşəng ofisiant qadın öz başlığından utanaraq onların qədəhlərini doldurmaq üçün əyildi. İkisi də qıza təbəssüm bağışladı və hər ikisi o birinin təbəssümünü göydəcə yaxalayıb qədəhlərini toqquşdurdular.

– On iki il keçib. – Dekster inanmırmış kimi başını yellədi. – On iki il. Necə də keçib e?..

– Emma Morli də buradadı, – Kellum qəfildən dedi.

– Bilirəm.

İzdihama doğru boylandılar. Emma universitet illərində özünün ən qatı rəqibi olmuş Miffi Bukenenlə yanaşı dayanmışdı. Hətta uzaqdan da onun dişlərini necə qıcırdatdığı görünürdü.

– Eşitdim, küsüşübsüz.

Telegram: @cinciva

– Eləydi.
– İndi barışıbsız, hə?
– Bilmirəm. Baxaq da.
– Emma əntiqə qızdı.
– Hə.
– Daha da gözəlləşib.
– Elədi, haqlısan.
– Haçansa aranızda?..
– Yox. Daha doğrusu, haradasa, bir-iki dəfə.
– Haradasa? – Kellum qımışdı. – Bu necə olur?
Dekster mövzunu dəyişdi:
– Öz işlərin necədi e?
Kellum qədəhindən bir udum aldı:
– Deks, otuz dörd yaşım var. Gözəl sevgilim, öz evim, mənə bir dünya gəlir gətirən, xoşladığım işim var. – Əlini onun çiyninə qoydu. – Sənin də TV-nin gecə proqramında şoun var! Bizimki həyatda gətirib.

Bir az zədələnən qürurunun təsiri, bir az da rəqabət duyğusunun körükləməsilə Dekster ona özü haqda danışmaq qərarına gəldi:

– Kel, istəyirsənmi, sənə bir-iki maraqlı şeylər danışım?

Emma çəmənliyin o başından Kellumun coşquyla bağırdığını gördü; o, Deksterin başını qolları arasına alıb saçlarını qarışdırırdı. Emma gülümsəyib yenidən bütün diqqətini Miffi Bükenenə nifrət eləməyə yönəltdi.

– Eşitdim, işindən olubsan, – Miffi deyirdi.
– Özüm öz ağam olmağı hər şeydən üstün tuturam.
– Kitab yazırsan?
– Bir-iki illik, bir növ, uzun məzuniyyət kimi.
– Ancaq indiyəcən çap olunmamısan, elə?

Telegram: @cinciva

– Hələ yox. Amma bir avans almışam, onunçün ki...

Miffi şübhəylə mıqqıldanıb:

– Herriet Boueninsə artıq üç romanı çıxıb.

– Hə, burada eşitdim. Bir neçə dəfə.

– Üç də uşağı var.

– Yaxşı görək.

– Mənim iki qəşəngimi də görməyibsən? – Yaxınlıqda üçlük kostyum geyinmiş, çığıra-çığıra qaçışan ikiyaşlı dəcəllər bir-birinin üzlərinə ağız atırdılar. – Ayvan, dişləmək olmaz!

– Hə, doğrudan da, sevimli oğlanlardı.

– Elədilər, hə? Sənin də uşağın var? – Miffi elə bir ədayla soruşdu ki, elə bil həyatda yalnız ikisindən biri ola bilədi – roman, ya uşaq.

– Yox.

– Adamın yoxdu?

– Yox.

– Heç?

– Yox.

– Belə heç kim?

– Yox.

– Üfüqdə də görünmür?

– Yox.

– Eybi yox, ancaq əvvəlkindən də yaxşı görünürsən. – Miffi eynən auksionda olduğu kimi onu təpədən dırnağacan gözdən keçirtdi. – Sən bu illər boyu tək-tük arıqlayanlardan birisən! Heç o vaxtlar da kök deyildin, bir az uşaqlar kimi toppuşdun – ancaq indi o da yox olub!

Emma qədəhini daha bərk sıxdığını hiss elədi:

– Yaxşıdı da, bu on iki ilin boşa getmədiyini bilmək əladı.

– Hələ sənin kobud şimallı ləhcən də vardı, indi, axır ki, hamı kimi qaydasında danışırsan!

Telegram: @cinciva

– Yaxşı da? – təəccüblə dilləndi. – Yaman ayıb oldu. Qəsdən dəyişməmişəm.

– Düzünü desəm, mənə həmişə elə gəlirdi ki, sən riyakarlıq eləyirsən. Bir növ, rola girirsən, şey üçün...

– Nə?

– Sənin bu ləhcən. Bilirsən, nə bilim şaxtaçılar elə, şaxtaçılar belə. Qva-te-mala. Bla-bla-bla! Həmişə düşünürdüm: o, özünü adamların gözünə soxmaq üçün canfəşanlıq eləyir. İndi isə hamı kimi qaydasında danışırsan!

Emma ağlından keçənləri nəzakət-filan fkirləşmədən dilinə gətirənlərə həmişə qibtə eləmişdi. Özü heç vaxt belələrindən olmamışdı, ancaq indi hiss elədi ki, ağzı söyüşlə dolub, çıxmaqdan ötrü ölür.

– Həmişə də hər şeyə əsəbiydin!

– Eh, Miffi, hələ də eləyəm...

– Aman, Allah, Dekster Meyhyu! – Miffi indi bir əlilə çiynini sıxıb içini çəkə-çəkə Emmanın qulağına fısıldayırdı. – Sən onunla romanımızın olduğunu eşitmişdin?

– Hə, özün demişdin. Min dəfə.

– Hələ də əntiqə görünür, hə? Elə deyil? – O, şəhvətlə içini çəkdi. – Bəs sizinki onunla niyə alınmadı?

– Bilmirəm; bəlkə də ləhcəm, gonbulluğum üzündən.

– Sən elə də pis deyildin. Bəs onun qızını gördün? Əsl gözəlçədi! Elə deyilmi? – Miffi cavabı eşitmək üçün çevrildi, ancaq Emmanın artıq getdiyini görüb çaşdı.

Qonaqlar imtahanın nəticələrini öyrənirmiş kimi necə oturacaqlarını bilmək üçün mağarın başına toplandılar. Deksterlə Emma izdihamın içində tapışdılar.

– Mən beşinci masadayam, – Deskter dedi.

– İyirmi dörd, – Emma bildirdi. – Beşinci masa gəlinin yanı sayılır. İyirmi dördüncü isə – biotualetin yanındadı.

Telegram: @cinciva

– Özünə götürmə.

– İsti nə var yeməyə?

– Şayiələrə görə, qızılbalıqdı.

– Qızılbalıq. Qızılbalıq, qızılbalıq, qızılbalıq, qızılbalıq. Bu toylarda o qədər qızılbalıq yemişəm ki, artıq ildə iki dəfə axına qarşı üzməyim gəlir.

– Beşinci masaya gəl. Nəsə, ad kartlarını dəyişdirək.

– Oturma planına fırıldaq eləmək? Buna görə ölüm cəzası düşür. Arxa həyətdə gilyotini görmədin?

Dekster güldü:

– Yaxşı, sonra danışarıq, olar?

– Gəlib taparsan məni.

– Ya da sən gəl.

– Yox, yaxşısı sən gəl.

– Yox, sən.

Sanki köhnə günahlarının cəzası kimi Emmanı bəyin Yeni Zelandiyadan gələn qoca xalası və dayısının arasında oturtmuşdular. Burada o, düz üç saat "heyrətamiz mənzərə", gözəl bir həyat şəkli" kimi dayanmadan təkrar edilən kəlmələri dinləməyə məcbur oldu. Zaman-zaman Deksterlə Silviyanın, Kellumla rəfiqəsi Luisin oturduğu beşinci – ən tanınmış qonaqlar üçün ayrılmış masadan eşidilən qəhqəhə fırtınası diqqətini yayındırırdı. Emma özünə daha bir qədəh süzdü və masa qonşusundan heyrətamiz mənzərə, yaşam tərzi haqda yenidən nəsə soruşdu. Məsələn, balinalar; beşinci masaya qısqanclıqla baxa-baxa dayıdan gerçək balina görüb-görmədiyini soruşdu.

Bu arada Dekster də qibtəylə iyirmi dördüncü masaya sarı boylandı. Silviya Dekster hər dəfə içki şüşəsinə tərəf dartınanda ovcuyla onun qədəhinin ağzını qapayaraq bu uzun şam yeməyini, bir növ, reflekslərin testinə çevirən yeni oyun düşünmüşdü.

Telegram: @cinciva

Deksterin cərimə balları artdıqca onun qulağına: "Yavaş-yavaş, yaxşı?" – deyə pıçıldayır, o da əmin eləyirdi ki, bir də olmayacaq. Nəticədə o daha da darıxdı və Kellumun arxayın özünəinamına qibtə eləməyə başladı. O, iyirmi dördüncü masada qocaman cütlüklə şirin-şirin və ciddi söhbət eləyən Emmaya baxdı. Emma qoca dayının çiyninə zarafatla toxunaraq diqqətlə dinləyir, gülümsünürdü; indi də bir istifadəlik fotoaparatla bəyaz bədənli qocaların şəklini çəkmək üçün arxaya əyilmişdi ki, kadra yerləşsinlər... Dekster Emmanın mavi paltarına göz yetirdi – on il qabaq belə bir şeyi ömründə əyninə taxmazdı – paltarın arxa düyməsi beş barmaq açılmış, ətəyi baldırına doğru yığılmışdı. Bu, onun yadına Edinburqda, Renkellor-stritdəki ötəri, amma hələ də təzə-tər qalan bir mənzərəni saldı: Emma özünün təkadamlıq çarpayısında, sübh günəşi pərdənin arasından süzülür, gecəliyinin ətəyi arxasınacan sivrilib, əli başının altında. O vaxtdan nə dəyişib? Deyəsən, çox az şey. Yenə də güləndə dodaqlarının qıraqlarında həmin cizgilər yaranır, ancaq indi bir az dərin. Gözlərinin altında hələ də xəfif şişkinlik vardı, hələ də dodaqlarını bir sirr saxlayırmış kimi kip sıxıb gülümsəyirdi. Çox şeydə iyirmi iki yaşındakından daha qəşəngdi. Bəlkə də indi saçlarını özünün kəsmədiyinə, kitabxana solğunluğunu, utancaq və qaraqabaq görünüşünü itirdiyinə görəydi. Dekster bu üzü ilk dəfə görərsə, nə hiss edərdi, görəsən? İyirmi dördüncü masaya yaxınlaşıb otursa və tanış olsa?.. Bu gün burada təkcə onunla danışmaq istədiyini düşündü. Qədəhini götürüb masadan qalxdı və Emmanın yanına getmək üçün stolunu arxaya itələdi.

Ancaq kimsə yandan qədəhini qədəhinə toqquşdurdu. Növbəti sağlıq deyilirdi. Ənənəyə uyğun, gəlinin atası sərxoş və ləngərli, bəyin sağdışı keflənmiş və gəlinin varlığını tamam unudaraq məzəsi olmayan lətifə danışırdı. Hər yeni qırmızı şərab qədəhindən

Telegram: @cinciva

sonra Emma gücünün azaldığını görürdü; fikirləşirdi ki, buradan ağ və təmiz xələtli, antikvar rəsmlərin reproduksiyalarının asıldığı ana binadakı otel otağına rədd olub getsə, çox yaxşı olmazdımı? Orada indi hamının ürəyi gedən duş-kabinlər, çoxlu dəsmallar olmalıydı. Orkestr də sanki onun qərara gəlməsinə yardım eləmək üçün səsini ucaltdı; bas-gitaraçı "Another One Bites The Dust" mahnısının nəqarətini oxuyurdu. Emma xüsusi məxmər çantada yerləşdirilmiş öz tort dilimini də götürərək otağına getməyin və yatmağın əsl vaxtının yetişdiyini düşündü.

– Bağışlayın, biz təsadüfən tanış deyilik ki?

Kimsə əlini çiyninə qoydu; arxadan gələn səs tanışdı. Deskter sərxoşca gülümsünərək əlində şampan şüşəsi arxada əyləşmişdi.

Emma qədəhini uzatdı:

– Ola bilər. Bəlkə də... – dedi.

Bir həmlədə musiqi yenidən başladı, hamı gözünü Malkolm və Tillinin özlərinin "xüsusi" mahnıları olan "Qəhvəyi gözlü qız"ın havasına revmatizmalı kimi və əllərinin baş barmağını qaldıraraq oynadıqları rəqs meydançasına sarı dikdi.

– İlahi! Biz nə vaxtdan qocafəndi oynayan olmuşuq?

– Sən öz adından danış, – Dekster bir stula söykənərək dedi.

– Məgər sən oynaya bilirsən ki?

– Məgər yadında deyil?

Emma başını yellədi:

– Mən meydançada fit səsləri altında köynəyini çıxarıb oynamağı demirəm, əsl rəqsdən danışıram.

– Əlbəttə, bacarıram. – Emmanın əlini əlinə aldı. – İstəyirsən, göstərim?

– Yox, sonraya qalsın.

Bir-birini eşidə bilmək üçün qışqıra-qışqıra danışmağa başlamışdılar. Dekster ayağa qalxıb Emmanın əlini özünə sarı çəkdi:

Telegram: @cinciva

– Gəl bir yerə gedək. Ancaq ikimiz.

– Hara?

– Bilmirəm. Deyirlər, burada nəsə bir labirint var.

– Labirint? – Emma bir an dayanıb, sonra qalxdı. – Dərhal deyəmməzdin?

İki qədəh götürüb, sezilmədən mağardan çıxaraq gecənin içinə girdilər. Hava hələ də istiydi, qol-qola gül bağçasından keçib gedəndə başları üstdə gecəquşular uçuşurdu.

– Hə, bu necə duyğudu, – Emma soruşdu,– öz keçmiş sevgilini başqa kişinin qolları arasında görmək?

– Tilli mənim keçmiş sevgilim deyil.

– Eh, Dekster... – Emma başını astaca yellədi. – Düzələn deyilsən sən.

– Nədən danışırsan axı?

– Deyim də, bu, nə vaxt olub... min doqquz yüz doxsan ikinci ilin dekabrı, Kleptondakı o mənzildə. Daim yanmış soğan iyi verən həmin o mənzildə.

Deskter alnını bürüşdürdü:

– Sən haradan bildin?

– Mən univermağa gedəndə siz mənim zeytun yağımla birbirinizin ayağını masaj eləyirdiz. Univermaqdan qayıdanda Tilli mənim qəşəng xalçamın üstündə oturub ağlayırdı; divan, mətbəx masası, az qala, divarın yarısı yağlı barmaq izləriylə doluydu, yaxşı yadımdadı. Dəlilləri diqqətlə incələyib bu qərara gəldim. Hə, bir də, sən uşaqdan qorunma alətini mətbəxdəki zibil qutusunun üstündə unutmuşdun; çox xoş mənzərəydi.

– Elə də eləmişdim? Bağışla.

– Sonra Tilli özü də mənə danışdı.

– Həqiqətən? – O, xəyanətə uğramış adam kimi başını yellədi. – Axı bu, onunla aramızda qalmalıydı!

Telegram: @cinciva

– Qadınlar belə şeyləri gizlətmirlər. Onlara gizlilik andı içdirməyin mənası yoxdu, – gec-tez hər şey faş olur.

– Gərək yadımda saxlayım bunu.

Labirintin ağzındaydılar. Girişində ağır ağac qapı olan, ən azı, üç metrə yüksələn səliqəli şəkildə dallanmış bir kolluqdu. Emma qapının dəmir dəstəyindən yapışıb dayandı.

– Səncə, bu, yaxşı fikirdi?

– Nə çətin seydi ki?

– Birdən azıb qaldıq?

– Ulduzlarla-zadla yön tutarıq.

– Demək, hesab eləyirsən ki, girməyə dəyər?

– Bu qədər qorxma. Bu, uzaq başı, bir əyləncədi. – Qapı cırıltıyla açıldı. – Sağa, ya sola?

– Sağa, – Emma dedi, labirintin içinə doğru addımladılar. Hündür kolluq aşağıdan işıqlandırılmışdı; havada məstedici yay qoxusu vardı.

– Bəs Silviya harada?

– Silviyadan sarı narahat olma, Kellum qayğısına qalır. Bu saxta, cəlbedici irlandiyalı milyoner hamının diqqətini özünə çəkib. Qərara gəldim ki, onlara mane olmayım. Onunla rəqabət aparacaq halım yoxdu. Çox yorucudu.

– Onun işləri yağ kimi gedir.

– Bilirəm.

– Lanqust naxırçılığı.

– Xəbərim var. Elə indicə mənə iş təklif elədi.

– Lanqust otarmağı?

– Hələ bilmirəm. Mənimlə bu haqda danışmaq istəyir. Deyir, "biznes insandı", nə deməkdisə.

– Bəs "Ekstrim idmanlar"?

– Bu isə... – Dekster gülüb bir əliylə tərini sildi. – Baxıbsan heç?

Telegram: @cinciva

– Bir buraxılışını da buraxmıram. Bilmirsən ki, mənimçün sübhün gözü açılmamış velosipedlərlə bağlı xəbər dinləməkdən maraqlı heç nə yoxdu? Ən çox da, sən o "havalı" deyirsən a, ondan xoşum gəlir.

– Belə sarsaq sözlər dedirdirlər mənə.

– "Havalı", bir də "vəbalı". "İndi isə biz sizə iki vəbalı tryuk göstərəcəyik..."

– Zənnimcə, məndə pis alınmır.

– Həmişə yox, dostum. Sağamı, solamı?

– Deyəsən, sola. – Bir ara uzaqdan gələn musiqi səsini dinləyib addımlayırlar. – Yazı-pozu işi necə gedir?

– Əlim yazmağa yetəndə, pis deyil. Vaxtımın çoxunu isə kompyuter arxasında oturub peçenye gəmirirəm.

– Stefani Şou deyirdi ki, sənə avans veriblər.

– Bir az e. Yeni iləcən ancaq bəs elər. Sonra da baxarıq.

– Bəs nə haqdadı? Kitabını deyirəm.

– Hələ dəqiq bilmirəm.

– Yəqin, məndən bəhs eləyir, elə?

– Hə, Dekster, ancaq sənin haqqında qalın bir kitab. Adı da belədi: "Deskter Deskter Deskter Deskter Deskter Deskter". Sola, ya sağa?

– Gəl solu yoxlayaq.

– Ciddi bilmək istəsən, cavanlar haqda kitabdı. Gənc qızlar, yeniyetmələr, sevgi, belə-belə şeylər. İllər qabaq quruluş verdiyim "Oliver"in ətrafında cərəyan edir. Komediya.

– İllər demişkən, çox yaxşı görünürsən.

– Doğrudan?

– Şübhən olmasın. Bizimkilərdən kimsə qəşəngləşib, kimsə daha da zaylayıb. Ancaq sən qəşəngləşənlərdənsən.

– Miffi Bükenen deyir ki, mən gonbulluqdan qurtulmuşam.

– O inək sənə həsəd aparır. Sən xas gözəlsən.

Telegram: @cinciva

– Sağ ol. İstəyirsən, sənin də yaxşılaşdığını deyim?

– Çətin deyilsə...

– Sən də əntiqə görünürsən. Sola?

– Sola.

– Ən azı, sənin rok-n-roll çağındakından yaxşı – "hazır ol"du, nəydi, o proqramı apardığın vaxtdakından! – Danışmadan bir neçə addım atdıqdan sonra Emma dilləndi: – Səndən ötrü narahatdım.

– Doğrudan?

– Onda hamı narahatıydı sənə görə.

– O ancaq bir dönəm oldu. Hamının başına nəsə bu cür bir iş gəlir. Bir az havalanma olur.

– Hamının? Mənim başıma gəlməyib. Hə, ümid eləyirəm o sarsaq dəbilqəni qoymağı tərgidibsən?

– İllərlə şapka taxmamışam.

– Bunu eşitməyimə sevindim. Yoxsa fikirləşirdim ki, onu zorla sənin başından çıxarıb yandırmaq lazımdı.

– Bilirsən də, bu necə olur – birinci adi şapkalardan başlayırsan – elə-belə, məzə üçün, sonra hiss eləmədən kepkaya, fetr şlyapaya, melon şlyapaya keçirsən...

– Yeni yolayrıcı. İndi sağa, ya sola? – Emma soruşdu.

– Heç nə deyəmmərəm.

Yan-yörəyə baxdılar.

– Əyləncə hissəsinin belə tez bitməsi çox qəribədi.

– Bəlkə oturaq? Bax buradaca.

Kol divarların içində altdan yanan fluoresan lampanın mavi işıqla işıqlandırdığı mərmər oturacaq vardı. Soyuq daşın üstündə oturub qədəhlərini doldurdular, toqquşdurub, çiyinlərini bir-birinə vurdular.

– Şoğərib, az qala, yadımdan çıxacaqdı... – Dekster əlini şalvarının cibinə salıb səliqəylə bükülmüş dəsmal çıxardı, sehrbaz kimi ovcunu açdı və ehtiyatla dəsmalın künclərini açmağa başladı.

Telegram: @cinciva

– Dəsmalın içində quş yumurtası kimi iki bürüşmüş siqaret vardı.

– Kellin hədiyyəsidi, – pıçıldadı. – İstəyirsən?

– Yox, sağ ol. Yüz il olar, atmışam.

– Əhsən. Rəsmi versiyaya görə, mən də atmışam. Ancaq burada bizi görən yoxdu... – O, əli əsə-əsə təntənəylə qaçaqmal siqareti yandırdı. – Burada məni tapa bilməz o. – Emma güldü. Təklik və şampan şərabı ikisinin də kefini durultmuşdu və ikisi də toy yorğunluğu hiss eləyirdi; daha duyğulu və xiffətcil olmuşdular. Siqaret tüstüsünün arasından bir-birinə gülümsədilər. – Kellum bizim nəsli "Malboro layts" adlandırır.

– İlahi, çox iyrəncdi. – Emma başını yellədi. – Bütöv bir nəslin simasını siqaret brendi müəyyənləşdirir. Mən daha artığını gözləyirdim. – Gülümsünüb üzünü Deksterə döndərdi: – Hə, öz işlərindən danış.

– Qaydasındadı. Bir balaca yaşlanmışam.

– Nədi, gecə klubunun tualetində seks öz çəkiciliyini itirib yoxsa?

Dekster gülümsünüb siqaretinin közünə baxdı:

– Mən özümü bir az dəyişməliydim.

– Yəni alındı?

– Zənnimcə, hə. Əsasən.

– Əsl sevginin sayəsində, hə?

– Haradasa. Həm də artıq otuz dörd yaşım var. Bu yaşda bəhanələr tükənməyə başlayır.

– Hansı bəhanələr?

– Yəni iyirmi iki yaşında özünü gicbəsər yerinə qoya bilirsən, fikirləşirsən ki, əşi, iyirmi iki yaşım var da. Sonra iyirmi beş, sonra cəmi iyirmi səkkiz yaşındayam deyirsən. Ancaq "cəmi otuz dörd yaşındayam" demək olmur... – Qədəhindən bir udum aldı. Yenidən kola söykəndi. – Hər kəsin həyatında özünə verdiyi əsas

Telegram: @cinciva

bir sual olur, mənim də vardı: sadiq, həqiqi, sevgi dolu bir ilişkidəykən, yenə də əvvəlki kimi orgiyada iştirak eləyə bilərsənmi?

– Bəs cavab nə oldu, Deks? – Emma tam ciddi soruşdu.

– Cavab: "yox, olmaz". Bunu anlayan kimi yaşamaq asanlaşır.

– Çox doğrudu. Orgiya yoldaşları gecələr insanın yatağını isitməz.

– O yoldaşlar yaşlandığında da sənlə olmaz, qayğına qalmaz. – Dekster bir az da içdi. – Başlıcası isə, məni heç bir orgiyaya dəvət eləyən də olmayıb axı. Mən, sadəcə, özümü gicbəsər kimi aparıb, özüm öz həyatımı məhv elədim. Özüm öz karyeramı dağıtdım, anamla münasibətlərimi bərbad elədim...

– Düz demirsən, Deks.

– Bütün dostluqları zay günə qoydum... – Sözlərini vurğulamaq üçün Emmanın qoluna söykəndi, Emma da onun qoluna. – O vaxt fikirləşdim ki, indi hər şeyi qaydaya salmaq lazımdı. İndi də Silviyayla qarşılaşdım. O çox ecazkardı, gerçəkdən, məni də yolumu azmağa qoymur.

– Hə, sevimli qızdı.

– Bəli, sevimlidi.

– Çox gözəldi. Həm də sakitdi.

– Düzü, bəzən bir az qorxudur məni.

– Onda Leni Rifenştal[1] istiliyindən nəsə var, ancaq Silviya daha həlim və qəşəngdi.

– Leni Rifen... kimdi?

– Vacib deyil.

– Düzü, onda yumor hissi yerli-dibli yoxdu.

– Elə yaxşı ki, yoxdu. Məncə, yumor hissinin önəmi çox şişirdilib, – Emma dedi. – Başıxarablıq eləyib üz-gözünü əymək çox sıxıcıdı. Elə Yan kimi. Üstəlik Yan məzəli də deyildi. Bəli,

[1] Alman aktrisa. Rejissor.

Telegram: @cinciva

yaxşısı, qoy ürəyinə gerçəkdən yatan biri olsun, gecələr ayaqlarını ovxalayacaq biri.

Dekster Silviyanın onun ayağını ovxaladığını xəyalında canlandırmağa çalışdı, bacarmadı.

– Bir dəfə mənə dedi ki, o heç vaxt gülmür, çünki gülmək üzdə qırış əmələ gətirir.

Emma sakitcə pıqqıltıyla güldü:

– Vay-vay... – dedi. – Amma sən onu sevirsən, eləmi?

– Sitayiş eləyirəm.

– Sitayiş. Hə, "sitayiş" daha yaxşıdı.

– O, həyəcanvericidi.

– Hə.

– Onun sayəsində həyatımda hər şey beləcə dəyişib. Daha içmirəm, narkotiki atmışam, çəkmirəm... – Bir əlində siqaret, o birində tutduğu içki şüşəsinə baxdı. Gülümsündü. – Bu gün istisnadı.

– Deməli, sən, axır ki, əsl sevginin nə olduğunu bildin.

– Hə də, nəsə elə bir şey. – Emmaya şampan süzdü. – Bəs bu cəbhədə səndə vəziyyət necədi?

– Hər şey qaydasındadı. Tam qaydasında. – Onu bu sorğudan yayındırmaq üçün Emma ayağa qalxdı. – Yolumuza davam eləyəkmi? Sola, ya sağa?

– Sağa. – Dekster ah çəkib qalxdı. – Hələ də Yanla bir yerdəsiz?

– Yox, neçə ildi, ayrılmışıq.

– Üfüqdə biri var?

– Başlama, Dekster.

– Nə başlama?

– Qarımış qıza şəfqətini! Çox sağ ol, mən həyatımdan razıyam. Bir də ki, öz sevgilisinə görə tanınmaqdan xoşlanmıram. Ya da onun yoxluğuyla. – Emma hərarətlə danışmağa başlamışdı.

Telegram: @cinciva

– Bu gicbəsərliklərlə başını yormamağa qərar verdinmi – görüşlər, əlaqələr, sevgi axtarışı-zad, – özünü tam azad hiss eləyirsən, nəhayət, adam kimi yaşamağa başlayırsan. Mənim sevdiyim bir işim var. Fikirləşirəm ki, bir-iki ilə uğur da qazanacağam. Pulum azdı, ancaq nə olsun, başlıcası azadam! Günortadan sonra filmə baxmağa gedirəm. – Susdu. Bir dəqiqə sonra: – Hələ üstəlik üzgüçülüyə də! Xeyli üzürəm. Kilometrlərlə üzürəm, üzürəm, üzürəm, üzürəm. İlahi, bilsən üzməkdən necə xoşum gəlir! Deyəsən, buradan sola getməliyik.

– Bilirsənmi, mən də eyni şeyləri hiss edirəm. Üzməyi demirəm. Daha görüşmələrə son verməyi nəzərdə tuturam. Silviyayla olandan bəri o qədər boş vaxt, enerji və dərrakə sahəsi yaranıb ki məndə.

– Bəs sən bu dərrakə sahəsilə neynirsən?

– Günlərlə "Lari Kroft" oynayıram.

Emma gülümsündü, Deksterin qarşısında öz taleyinə istədiyindən daha az sahib olan biri kimi göründüyündən qorxaraq, sakitlikdə bir neçə addım atdı.

– Hər nəsə, bilirsənmi, – Emma dedi, – elə də sıxıcı və sevgisiz biri deyiləm. Mənim də parlaq dövrlərim olur. Məsələn, Kris adlı bir həriflə görüşürdüm. Özünə stomatoloq deyirdi, ancaq axırda, sadəcə, diş gigiyenası üzrə mütəxəssis çıxdı.

– Nə oldu Krisə?

– Heç nə, sevgi bitdi. Məncə, bu, elə Allahdan oldu. Əmindim ki, onun gözü həmişə mənim dişlərimdəydi. Ancaq bir məsləhəti vardı mənə: diş ipi. Diş ipi, Emma, diş ipi. Bir görüşə getmək bir diş həkiminə getmək kimiydi. Canım boğazıma yığıldı axırda. Onacan da cənab Qodalminq vardı. – Emma ürpərtidən çiyinlərini əlləşdirdi. – Cənab Qodalminq. Əsl fəlakət!

– O nə cənab Qodalminqdi elə?

– Başqa vaxt danışaram. Buradan sola?

Telegram: @cinciva

– Sola.

– Hər halda, bütün ümidlərimi itirmiş olsam, son çarə kimi sənin təklifin qalır da.

Dekster dayanıb çaşmış halda ona baxdı:

– Hansı təklifim?

– Yadından çıxıb? – Emma da dayanıb dedi. – Qırx yaşımacan ərə getməsəm, mənimlə evlənəcəyinə söz vermişdin?

– Belə də demişdim? – Üzünü turşutdu. – Çox sarsaqca...

– O vaxt mən də belə düşünmüşdüm. Ancaq narahat olma, qanuni bir şey deyil, məcbur eləmərəm. Özü də buna hələ yeddi il var. Xeyli qalıb... – Yenidən addımlamağa başladı, amma Dekster hələ də arxada qalmış, vazı qırdığını boynuna almağa hazırlaşan uşaq kimi başını qaşıyırdı.

– Qorxuram ki, təklifimi geri götürmək məcburiyyətindəyəm.

Emma dayanıb geri çevrildi.

– Doğrudan? Niyə? – ürəyinin dərinliyində cavabı bilə-bilə soruşdu.

– İndi mən sözlüyəm, – o yaxınlaşaraq dedi.

Emma yavaşca gözlərini qırpdı.

– Necə yəni sözlüsən?

– Silviyayla. Evlənməyə hazırlaşırıq.

Bir an, yarımca saniyənin içində onların ikisinin də üzündən, əslində, nə hiss etdikləri tam oxundu. Sonra Emma gülərək qollarını Deksterin boynuna doladı:

– Ah, Dekster! Çox gözəl! Təbriklər! – Deksterin yanağını öpmək üçün dartındı, ancaq bu vaxt Dekster çevrildi və bir anlıq da olsa, dodaqları bir-birinə toxundu. Bir-birinin dodağından şampan dadı hiss elədilər.

– Sevindinmi?

– Sevinmək? Dəhşətə gəldim! Yox, zarafatsız, bu çox əntiqə xəbər oldu!

Telegram: @cinciva

– Gerçəkdən, belə düşünürsən?

– İnanılmazdan da artıqdı bu, bu... "havalı"dı! Havalı və dadlı.

Dekster bir addım geri çəkilib pencəyinin iç ciblərini eşələdi:

– Əslində, səni bunun üçün bura çəkdim. İstəyirdim, şəxsən özünə verim.

Emma kağız zərfi iki barmağının arasına alıb içinə boylandı. Zərf ipək kağızdandı, dəvətnamənin kənarları əllə qopardılaraq papirus incəliyi verilmişdi.

– Bax... – Emma dəvətnaməni barmaqlarının ucuyla qaldırıb, – hə, bax buna deyərəm dəvətnamə.

– Bəyəndin?

– Çox bahalı kağızdı.

– Hər biri səkkiz funt.

– Mənim maşınımdan bahalıdı.

– Hələ onu iylə.

– İyləyim? – Emma ehtiyatla dəvətnaməni burnuna yaxınlaşdırdı. – Hə, qoxusu var! Sən qoxulu dəvətnamə sifariş eləyibsən?

– Lavanda qoxusudu.

– Yox, Deks, pul qoxusu. O, pul qoxuyur. – O, dəvətnaməni açıb oxumağa başladı, Dekstersə diqqətlə ona baxır, haçansa barmaqlarıyla saçını alnından necə atdığını yada salırdı. – "Cənab və xanım Koup sizi qızları Silviya ilə Dekster Meyhyunun nikah mərasiminə dəvət etməkdən qürur duyur..." İnanmıram ki, bunu gerçəkdən oxuyuram! "14 sentyabr. Şənbə". Bir dəqiqə, bu ki lap...

– Yeddi həftə sonra, – Dekster dedi və onun o gözəl üzünün necə dəyişiləcəyini izləmək üçün baxdı.

– Yeddi həftə? Məgər bizim çağda toya bir il qabaqdan hazırlaşmırlar?

– Əslində, elə olur, ancaq necə deyərlər, biz zorən bir az tələsməli olduq.

Telegram: @cinciva

Emma onun tam olaraq nə demək istədiyini anlamadan qaşqabağını salladı.

– Üç yüz əlli qonaq olacaq.

– Demək istəyirsən...

– Silviya, bir növ, hamilədi. Bir növ yox, həqiqətən. Hamilədi. İkicanlıdı yəni.

– Ah, Dekster! – Yenidən üzləri yanaşı durdu. – Bəs atasının kim olduğunu bilirsən?.. Ey, zarafat elədim a! Təbriklər, təbriklər! Dekster, demək güllələrini boşuna atmamısan. – Üzünü əllərinin arasına aldı. – Yəni, doğrudanmı, evlənirsən?

– Elədi!

– İndi sən ata olacaqsan?..

– Bilirəm. İnana bilmirəm: mən və ata!

– Bu, qanunsuz deyil ki? Yəni izin verəcəklər?

– Görünür, hə.

– O siqaret hələ qalır səndə? – Dekster cibində eşələndi. – Bəs Silviya bu haqda nə fikirləşir?

– O çox xoşbəxtdi! Ancaq kökəlməkdən qorxur.

– Hə, məncə də, bu ehtimal var.

Dekster onun siqaretini yandırdı.

– Ancaq bunu istəyir; evlənmək, uşaq doğmaq, ailə həyatına başlamaq. İstəmir, bir gün ayılıb görsün ki, otuz yaşdan sonra tənhadı.

– Eynən mənim kimi!!!

– Sonunun sənin kimi olmasını qətiyyən istəmir! – Tələsik Emmanın əlindən tutdu. – Elə demək istəmirdim.

– Başa düşürəm. Zarafat elədim, Dekster, səni təbrik eləyirəm.

– Sağ ol. Sağ ol. – Susdu. – Ver, mən də bir qullab alım. – Dekster əlini uzadıb onun ağzından siqareti götürdü və öz ağzına qoydu. – Buna bax... – portmanatından ləkələnmiş bir kağız çıxarıb işığa tutdu. – USM – on iki həftəlikdə. İnanılmazdı, hə?

Telegram: @cinciva

Emma kağızı alıb özünü elə göstərdi ki, diqqətlə baxır. Ultrasəs şəkillərinin gözəlliyini yalnız valideynlər qiymətləndirə bilər, ancaq Emma qabaqlar da belələrini görmüşdü, indi də ondan gözləniləni bilirdi.

– İnanılmazdı, – deyib içini çəkdi; ancaq bu qaydayla Deksterin cibinin də Polaroidlə çəkilmiş şəkli ola bilərdi.

– Bax, bu, onurğasıdı.

– Nə gözəl onurğadı.

– Hətta balaca barmaqlarını da görmək olar.

– Ooo... Oğlandı, ya qız?

– Məncə, qız. Ya da oğlan. Fərqi yoxdu mənimçün. Necə fikirləşirsən, gözəl bir seydi?

– Əlbəttə. Heyrətamizdi. Lənətə gələsən, Dekster, sənə bir dəqiqə arxa çevirən kimi yoxa çıxırsan və...

Təzədən qollarını Deksterin boynuna doladı. Emma kefləndiyini hiss eləyirdi; çox nəzakətli, həm də kədərli olmuşdu, elə bil ayrılıq öncəsiydi. Bu haqda Deksterə söyləmək istədi, ancaq bunu zarafatla çatdırmağın daha ağıllı olacağını düşündü.

– Sən mənim xoşbəxtlik şansımı yerlə bir etdin, ancaq, gerçəkdən, sənə görə çox şadam.

Dekster başını aşağı salıb onu süzdü və birdən aralarında bir şey hərəkət etdi – nəsə onun köksündəydi, canlı və titrəyən şey. Emma əlini onun sinəsinə qoydu: – Bu, sənin ürəyindi?

– Telefonumdu.

Emma geri çəkilib ona telefonu çıxartmaq üçün şərait yaratdı. Ekrana baxıb yüngülcə başını tərpətdi ki, ayılsın. Günahkarcasına siqaretini tüstülənən tapança kimi Emmaya uzatdı. Öz-özünə tez-tez təkrarladı: "Bircə bilməsin ki, sərxoşam", üzünə telefon satıcısının təbəssümünü yayıb cavab verdi:

– Salam, sevgilim!

– Haradasan?

Telegram: @cinciva

Emma Silviyanın səsini eşitdi.

– Mən... deyəsən, azmışam.

– Azıbsan? Burada necə azmaq olar?

– Mən labirintdəyəm, ona görə...

– Labirintdə? Neynirsən orada?

– Elə-belə... bilirsən, sadəcə, gəzirdim. Fikirləşdik ki, əyləncəli olar.

– Şadam ki, orada yaxşı əylənirsən, ancaq mən burada yaşlı bir xalanın Yeni Zelandiya haqda nağıllarından cana doymuşam...

– Başa düşürəm. Haçandı, buradan çıxmağa çalışıram, ancaq gördüyün kimi, burada aləm qarışıb! – O, qaqqıltıyla güldü, ancaq telefondan səs gəlmədi. – Alo? Sən hələ oradasan? Eşidirsənmi məni?

– Dekster, təksən orada? – Silviya alçaqdan soruşdu.

Hələ də ultrasəs şəklindən heyrətdəymiş kimi görünən Emmaya baxdı. Bir an düşündü və arxasını ona çevirib yalan dedi:

– Bilirsən, burada bizimkilərdən bir çətən adam var. On beş dəqiqə də cəhd göstərib, sonra tunel qazacağıq, onun da xeyri olmasa, içimizdəkilərdən birini yeyəcəyik.

– Şükür Allaha, Kellum gəlir! Yenə də danışmağa biri olar. Tez çıx, yaxşımı?

– Artıq gəlirəm. Hələlik, əzizim! – O, telefonu qapatdı. – Səsimdən sərxoşluğum bilinmirdi ki? – Emmadan soruşdu.

– Bir damcı da!

– Buradan çıxmaq lazımdı.

– Etirazım yoxdu. – Emma ümidsizcə yörəyə baxdı. – Gərək çörək qırıntılarını nişanə buraxaydıq.

Bu andaca cavab kimi bir gurultu qopdu. Nəsə siqnal gəldi, sonra labirinti işıqlandıran lampalar bir-bir sönüb onları qaranlıqda qoydu.

Telegram: @cinciva

– Çox yerinə düşdü, – Dekster dedi. Gözləri qaranlığa alışana kimi tərpənmədən gözlədilər. Orkestr "It's Raining Men"[1] mahnısını ifa eləyir, onlar da dinləyərək sanki öz yerlərini müəyyən eləməyə çalışırdılar.

– Geri dönməliyik, – Emma dedi. – Göydən kişilər yağmadan...

– Tam razıyam.

– Belə bir söz var, – Emma dedi,– deyir, sol əlini divara söykəyib axıracan çəkmədən irəliləməlisən – gec-tez çıxacaqsan.

– Gəl o cür də eləyək! – Dekster qalan şərabı qədəhlərə boşaldıb, şüşəni yerə atdı. Emma ayaqqabılarını çıxardı, barmaqlarını kollara söykədi və onlar inamsızca qaranlıq yarpaq dəhlizlə irəliləməyə başladılar.

– Hə, toyuma gələcəksən?

– Əlbəttə, gələcəm. Ancaq hər şeyi korlamamağa söz verə bilmirəm.

"O, mənimlə evlənməliydi!" İkisi də qaranlıqda gülümsəyib bir az da irəlilədilər.

– Əslində, səndən bir xahişim var.

– Bircə onu demə ki, gəlinin şahidi olmamı istəmə, Deks.

– Yox, bu deyil. Sadəcə, çoxdanıydı, bir çıxış yazmaq istəyirəm, dedim soruşum, yardım eləməzsən?

– Yox! – Emma gülməkdən boğula-boğula dedi.

– Niyə?

– Çünki mən yazsam, o çıxış gərəkdiyindən duyğulu olar. Sən, sadəcə, özün nə hiss elədiyini səmimi şəkildə yaz.

– Bunun yaxşı fikir olub-olmadığını bilmirəm. "Bütün bu yeyib-içməyə görə çox sağ ol, ancaq, yeri gəlmişkən, mən indi qorxudan özümü batıracam". – Gözlərini qısıb qaranlığa baxdı. –

---

[1] Göydən kişi yağır

Telegram: @cinciva

Əminsən ki, sənin bu metodun yol açacaq? Məncə, biz bir az da dərinlərə gedirik.

– Mənə inan.

– İstəmirəm ki, mənim yerimə hamısını sən yazasan... Sadəcə, bir az əl gəzdirərsən...

– Bağışla, bu işdə sənə yardım eləyə bilməyəcəm. – Üç yol ayrıcında dayandılar.

– Biz burada olmuşuq ki.

– İnan, mən nə elədiyimi bilirəm. Gedək.

Susaraq davam elədilər. Yaxınlıqda musiqiçilər "1999"-u ifa eləməyə başlayanda qonaqlardan alqış səsləri qopdu.

– İlk dəfə bu mahnını eşidəndə, – Emma dedi, – fikirləşdim: bu nəsə fantastik bir qurğudu. Min doqquz yüz doxsan doqquzuncu il. Uçan avtomobillər, həb yeməklər, Aya səfərlər. Budur, artıq min doqquz yüz doxsan doqquzuncu ildi, mən isə hələ də lənətə gəlmiş "Fiat" sürürəm. Heç nə dəyişməyib.

– Ancaq bax mən ailəli adam olmuşam.

– Ailəli adam. Aman, yarəbbim, heç qorxmursan?

– Bəzən. Ancaq sonra uşaq böyütməyi bacaran axmaqlara baxıb öz-özümə deyirəm: Miffi Bukenenin bacardığını sən bacarmayacaqsanmı, yəni bu qədər çətindi ki?

– Bilirsən, körpələri bara apara bilməzsən. Çünki bu, bar yiyələrinin xoşuna gəlmir.

– Heç nə olmaz. Evdə oturmağı da öyrənməli olaram.

– Ancaq xoşbəxtsən, eləmi?

– Hə... zənnimcə. Bəs sən?

– Əvvəlkindən hə. Nəsə, o cür.

– Nəsə, o cür. Nə deyim, "nəsə, o cür" elə də pis deyil.

– Bundan artığına ümid eləməyə dəyərmi?

Emmanın sol əli tanış gələn bir heykələ toxundu, o andaca harada olduqlarını anladı. Əvvəl sağa, sonra sola dönməli və

Telegram: @cinciva

beləcə, onlar qızılgül bağına çıxacaq, oradan da mağara, Deksterin nişanlısının və dostlarının yanına keçəcəkdilər, daha söhbətləşmək imkanları olmayacaqdı. Emma qəfildən üzücü bir kədər hiss etdi, dayandı və Deksterin əlini ovcuna aldı:

– Mağara dönmədən sənə bir şey deyimmi?

– De.

– Mən bir az kefliyəm.

– Elə mən də. Heç nə olmaz.

– Sadəcə... sənin üçün elə darıxmışdım ki...

– Mən də darıxmışdım sənin üçün.

– Dekster, ancaq mən çox, çox, lap çox darıxmışdım. Sənin lə bölüşmək istədiyim o qədər şey vardı ki, amma sən yanımda yoxdun...

– Mən də eynilə...

– İndi bir az xəcalət də çəkirəm ki, o vaxt səndən o şəkildə qaçmışam.

– Doğrudan? Ancaq mən səni günahlandırmıram. Mən, gerçəkdən də, o vaxt bir az... iyrənc olurdum.

– Bir az? Bir az nədi, sən dəhşət iyrəncdin.

– Bilirəm.

– Eqoistdin, özünəvurğundun, çox da sıxıcı, öz aramızdı...

– Bunu demişdin.

– Ancaq bir az da dözməliydim. Anana görə çəkdiklərinin xətrinə...

– Bu, mənə haqq qazandırmır.

– Yox, əlbəttə, ancaq bu, sənə təsir eləməyə bilməzdi.

– Hələ də sənin məktubunu saxlayıram. Çox gözəl məktubdu, çox minnətdaram sənə.

– Amma sənin lə təmas yaratmaq üçün daha çox çalışmalıydım. Dost dostu atmaz axı, elə deyil? Mən zərbəni öz üstümə götürməliydim.

Telegram: @cinciva

– Səni suçlamıram.

– Nə fərqi... – Emma ağladığını görüb utandı.

– Hey, hey... nə oldu sənə, Emma?

– Bağışla, mən çox içmişəm, özü də...

– Bura gəl. – Emmanı qucaqladı, üzü şampun və nəm ipək qoxan boynuna dəydi; Emma da onun boynu tərəfdən nəfəs alırdı – təraş losyonu, tər, içki və kostyumunun qoxusu gəlirdi... Emma nəfəsini dərib danışanacan beləcə dayandılar:

– Sənə bunun nə olduğunu deyəcəyəm. Başa düşürsən... Görüşmədiyimiz vaxtlarda hər gün səni düşünürdüm – zarafatsız deyirəm, hər gün səni xatırlayırdım.

– Mən də xatırlayırdım.

– Bəzən, sadəcə: "Kaş ki Dekster bunu görəydi!" – fakirləşirdim, ya da: "Görəsən, Dekster indi haradadı?", yaxud da: "İlahi, bu Dekster necə də gicbəsərdi", – deyirdim. Nə demək istədiyimi başa düşürsənmi? Bu gün səni görəndə isə anladım ki, sən mənə qayıtdın, sən mənim ən yaxşı dostumsan. İndi də bütün bunlar – bu toy, uşaq söhbəti, – sənə görə çox sevinirəm. Ancaq elə hiss eləyirəm ki, səni yenidən itirdim.

– İtirdin? Necə?

– Nə olduğunu bilirsən; ailən olanda məsuliyyətin artır, dostlarla bağlar üzülür...

– Elə olmamalıdı.

– Yox, ciddi deyirəm, həmişə belə olur, bunu bilməyə nə var ki. İndi sənin başqa üstünlük verdiyin şeylər olacaq, bütün o yeni dostların, doğuşa hazırlıq kurslarında tanış olacağınız, uşaqları olan və səni anlaya biləcək gənc, xoş cütlüklər... Ya da sabahı göz qırpmadan açdığı üçün əldən düşəcəksən...

– Əslinə baxsan, biz çox problem çıxarmayan uşaq gətirəcəyik dünyaya. Onu otaqda tək də qoya bilərsən. – Dekster Emmanın necə güldüyünü sinəsində hiss edib, bu vaxt onu güldürə bilmək-

Telegram: @cinciva

dən daha gözəl bir duyğu olmadığını düşündü. – Sənə söz verirəm ki, elələrindən olmayacağam.

– Doğrudan?

– And içirəm.

Emma aralanıb ona baxdı:

– And içirsən ki, bir də yoxa çıxmayacaqsan?

– Sən yoxa çıxmasan, hə.

Birdən onların kip sıxılmış dodaqları bir-birinə söykəndi. İkisi də gözləri açıq donub qaldılar.

– Saat neçədi? – Emma dəhşət içində dedi.

Dekster pencəyinin qolunu çəkib saata baxdı:

– Az qala, gecənin yarısıdı.

– Hə! Gecdi.

İndicə nə olduğunu və bundan belə nə baş verəcəyini qətiyyən anlamadan bir ara yanaşı addımladılar. İki döngə və budur, onlar artıq labirintin çıxışındadılar. Lap az sonra mağarda olacaqlar. Emma ağır palıd qapını açmaq istəyirdi ki, Dekster əlindən tutdu:

– Em?

– Deks?

O, yenidən Emmanı labirintə aparmaq istədi. Telefonu söndürməli, gecənin sonuna kimi təklikdə qalmalı və ötən zamanlarda baş verən hər şey haqqında danışmalıydılar.

– Yenə də dostuqmu? – nəhayət, soruşdu.

– Dostuq. – Deksterin əlini buraxdı. – İndi isə gedib sənin nişanlını tapaq. Onu təbrik eləmək istəyirəm.

Telegram: @cinciva

XIV fəsil

Atalıq

15 iyul. 2000-ci il. Şənbə

Riçmond, Surrey qraflığı

Jasmin Elizabet Viola Meyhyu

Yeni minilliyin üçüncü günündə, gecəyə doğru doğulmuşdu. İki kilo doqquz yüz qramdı, ancaq sappasağlamdı; Deksterin gözüylə baxası olsaq, son dərəcə gözəldi; bilirdi ki, həyatını belə ona qurban verə bilər, eyni zamanda, yeni iş tapmağın çətinliyini də açıq-aydın başa düşürdü.

Həmin gecə qucağında qırmızı üzlü çağanın bələyi, alçaq və sərt xəstəxana skamyasında oturduğu vaxt Dekster Meyhyu ciddi bir and içdi: bu andan belə ancaq doğru bildiyi əməl yiyəsi olacaqdı. Bir neçə bioloji və seksual məsələləri çıxmaqla, hər şeyi qızı üçün eləyəcəkdi. Elə bir həyat yaşayacaqdı ki, sanki Jasmin hər an başının üstündə durub ona göz qoyur. Onu utandıracaq, acı çəkdirəcək, həyəcanlandıracaq heç bir iş görməməliydi; Dekster bundan sonra bir ayıb iş belə tutmamalıydı.

Bu təntənəli anda, təxminən, doxsan beş dəqiqə sadiq qaldı. Tualetdə oturub siqaret tüstüsünü "Evian" mineral su şüşəsinə üfləyəndə tüstünün bir hissəsi havaya qaça bilmişdi deyə tüstü detektoru işə düşdü, səsə yorğun qadını və qızı yuxudan ayıldılar; tualetdən çıxanda boz, sarımtıl tüstüylə dolu şüşə hələ də əlində-

Telegram: @cinciva

di, arvadının qıyılmış, yorğun gözlərindəki baxışlar ona hər şeyi deyirdi: atalıq Dekster Meyhyunun işi deyil.

Yeni əsr başlayandan bəri aralarında baş qaldıran anlaşılmazlığın daha da kəskinləşdiyi məqamda Dekster işsiz qaldığını gördü. "Ekstrim idmanı"nın izlənmə reytinqi xeyli düşmüşdü, aydın olmuşdu ki, heç kim, hətta ekstrim velosipedçilər belə həftədə bir dəfə, az qala, sübhün gözü açıldığı bir vaxtda verilişə baxmaq fikrində deyil; "havalı və dadlı" olması da kömək eləmirdi. Veriliş geri getdikcə gedirdi, atalıq probleminə indi də işsizlik dərdi əlavə olunmuşdu.

Evi köçürmək keçici də olsa, fikrini yayındırdı. Etirazlarına baxmayaraq, onun Belsayz-parkdakı subaylıq mənzili yaxşı məbləğə kirayə verildi. Gənc ailə bu paraya Riçmondda hər şeyi yerində bir ev tutdu. Dekster Surreydə çox gənc olduğunu əsas gətirib (halbuki otuz beş yaşındaydı), yeni ünvanda yaşamağa etiraz elədi, ona görə ancaq otuz beş ildən sonra buralarda yaşamaq olardı. Di gəl burada həyatın səviyyəsi mübahisə mövzusu ola bilməzdi: yaxşı məktəblər, nizamlı nəqliyyat, marallar gəzən park, Silviyanın valideynləri, sonra əkizlər də yaxınlıqda yaşayırdılar. Buna görə də Surreylə razılaşmağa məcbur oldu. Nəticədə maydan etibarən uzun və sonsuz xərcə başa gələn təmir işinə başladılar. "Mazda Spor" avtomobilini də satası oldular, onu salonundan əvvəlki sahiblərinin uşaqlarının silinməz-çəkilməz qusuntu qoxuları verən nimdaş "ailə" maşınına qurban verdilər.

Meyhyu ailəsi üçün çox önəmli bir ildi, ancaq nə üçünsə yuva qurmaq işi Deksterə gözlədiyindən də çox həzz vermişdi. Ailə həyatını "Hər şey təmir üçün" adlı uzun reklam çarxı kimi təsəvvür eləyirdi; eyni formalı mavi kombinezonlarda, əllərində boyaq fırçaları tutmuş gənc yaraşıqlı ər-arvad köhnə dolabdan boşqablar çıxarıb böyük divanın üstünə çökürdülər. Pırpız tüklü itləri parkda gəzdirməyi, yorucu da olsa, əyləncəli gecə bəsləmələrini xəyalına

Telegram: @cinciva

gətirdi. Yaxın gələcəkdə isə arvadıyla birlikdə çınqıllı göl sahilinə gedəcək, sahildə tonqal qalayacaq, suların gətirdiyi ağacların közündə skumbriya bişirəcəkdilər. O, şən ailə oyunları düşünüb tapacaq, rəflərə qoyacaqdı. Silviya lüt bədənə onun nimdaş köynəklərini geyəcəkdi. O isə qaba yundan toxunmuş sviter. O, həmişə sviter geyəcək və ailəsinin qayğısına qalacaqdı.

Gerçək həyatda isə onu gips tozlarının arasından yetib gələn deyişmələr, təhqiredici, qaşqabaqlı baxışlar gözləyirdi. Silviya ustaları bəhanə gətirib tez-tez atasıgilə getməklə, əslində, öz vecsiz, süst ərindən bacardıqca uzaq olmağa çalışırdı. Arabir ona zəng vurub Kellumla, lanqustlar kralıyla görüşməsini və onun iş təklifini qəbul eləməsini məsləhət görürdü, Dekstersə inad eləyirdi. Bəlkə onun aparıcılıq karyerasında bir irəliləyiş olacaqdı, ya prodüser kimi iş tapa, ya da operatorluqmu, redaktorluqmu işini öyrənə bilərdi. Hələliksə ustalara yardım eləyir, xərcləri azaltmaqla məşğul olurdu. Belə də oldu: özünə çay dəmlədi, peçenye aldı, bir az polyakca öyrəndi və ustaların elektrikli alətlərinin səsküyü altında Playstation oynadı.

Hələ lap köhnə dövrlədən fikirləşərdi ki, televiziyada çalışan adamlar qocalandan sonra neynirlər – bu sualının cavabını indi tapmışdı. Redaktor və təcrübəçi-operatorların iyirmi dörd-iyirmi beş yaşı olardı, onunsa prodüser səriştəsi yox idi. Öz şəxsi "Meyhem TV" Ltd-si isə iş olmaqdan çıxıb, onun fəaliyyətsizliyi üçün bəhanəyə çevrilmişdi. İlin sonunda isə vergi məsrəflərindən can qurtarmaq üçün biznesini rəsmən qapatmalı oldu, böyük ümidlərlə cildlənmiş iyirmi top kağız-kuğuz isə biabırçı şəkildə çardağa yerləşdirildi. Həyatındakı tək işıqlı məqam yenidən Emmayla görüşməsiydi; Georqla, Lexlə daş döşəməli olduğu vaxt aradan çıxıb onunla kinoya getdiyi vaxtlardı. Ancaq hiss etdiyi məyusluq bir çərşənbə axşamı günorta kinoteatrdan gün işığına çıxdığında son dərəcə dözülməz hal aldı. Bəs onun qüsursuz ata olmaq andı

Telegram: @cinciva

hara getmişdi? Axı indi o, məsuliyyət daşıyır. Nəhayət, iyunun əvvəlində inadı qırıldı və Kellum o`Nillə görüşməyə getdi, bununla da böyük "Təbii qidalar" ailəsinin bir üzvü olmağa dəvət edildi.

Beləcə, bu ilin Müqəddəs Svitin günündə Dekster Meyhyunu qısaqol, yulaf rəngli köynəkdə, göbələk rəngli qalstukda roka ştoklarının gündəlik partiyasını Viktoriya vağzalında açılmış yeni filiala qəbul edərkən görürük. Əlində bir dəftərçə tutub gözünü ona zilləyən sürücüylə yanaşı dayanan Dekster göyərti yeşiklərini sayır, bunun ardıyca nə olacağını içindən hiss eləyir.

– Siz qabaqlar televiziyada işləmirdiz?

"Buyur, yenə başlandı..."

– Çoxdan, lap çoxdan, – laqeydcə cavab verir.

– Necəydi o verilişin adı? "Rahatla" kimi bir seydi, nəsə.

"Ona baxma".

– Onlardan biriydi, nəsə. İndi mən hesab-fakturanı imzalayacağam da?

– Özün də Syuki Medouzla görüşürdün!

"Gülümsə, gülümsə..."

– Dedim axı, bu lap çoxdan olub. Bir yeşik, iki, üç yeşik...

– İndi hara baxırsan, Syukidi, yox?

– Altı, yeddi, səkkiz...

– Əntiqə seydi bu Syuki.

– Hə, çox sevimlidi. Doqquz, on...

– Onunla görüşmək necəydi?

– Qulağını batırmasa, pis deyildi.

– Bəs sizə nə oldu ki?

– Həyat, həyat gəldi başıma. – Kağızları sürücünün əlindən alır. – Bura qol çəkəcəyəm?

– Aha. Oraya.

Telegram: @cinciva

Dekster fakturaya avtoqraf atıb, əlini ən üstdəki yeşiyə soxur, bir ovuc roka götürüb yeniliyini yoxlayır. Kellum "Roka – günümüzün aysberqi" deməyi xoşlayır, ancaq o, Deksterə bir az acı gəlir.

"Təbii qidalar"ın baş ofisi geniş, tərtəmiz və çağdaş, şirəçəkənlərlə dolu, yastıq kreslolu, ümumi tualetləri, yüksək sürətli interneti, pinbol oyun avtomatları; divarlarında isə Əndi Uorhol tərzində iri qumaş lövhələrdə inək, toyuq və lanqust rəsmləri asılmış Klerkenvell anbarında yerləşir; iş yerindən çox cavanların yataq otağına bənzəyən buraya ofis lövhəsi yerinə, memarlar kiçik "helvetika" şriftləri ilə yazılmış "röyalar aləmi" lövhəsini qoydular. Ancaq Deksterin bu röyalar aləminə girə bilməsi üçün əvvəlcə yol-yolaq öyrənməsi lazımdı. Kel özünün gələcək menecerlərinin öncə qara işləri görməyi öyrənmələrini israr eləyir; Dekster buna görə imperiyanın yeni filialında menecer yardımçısı vəzifəsində çalışa-çalışa aylıq təcrübəkeçmə kursuna gedir. Son üç həftəni o, şirəçəkənləri təmizlədi, başına tor taxıb sendviç hazırladı, qəhvə üyütdü, müştərilərə qulluq elədi, hər şeyin yolunda getməsi özünü də təəccübləndirdi. Ən sonunda anladı: Kellumun dediyi elə buymuş: biznesdə ən başlıcası insandı.

Elə ki üzü şorba apardığı birinə tanış gəldi, müştərinin üzündən keçmiş tele-ulduza acıma hissini oxuyur – ən çətini də budu. Ən dəhşətlisi yaşı otuzu ötmüş tay-tuşlarının münasibətidi. Onlara elə gəlir ki, bir zamanlar kiçik miqyasda olsa da, məşhur olub, sonradan onu itirmək, yaşlanmaq və bir az da ətlənməklə diri-diri ölmək arasında heç fərq yoxdu; onlar kassanın yanından Deksterə ayağı qandallı məhkum kimi baxırlar. "Siz efirdə göründüyünüzdən balacaymışsınız", – onlar deyirlər, iş ondadı ki, bu onun özünə də belə gəlir, elə bil boyu balacalaşıb. "Bəsdirin görək, – o, çömçəylə hind şorbası çəkərkən demək istəyir. – Hər şey qaydasındadı. Burada dinclik tapmışam. Burada olmaq mənimçün xoşdu,

Telegram: @cinciva

özü də bu, müvəqqəti bir işdi; yeni sənət öyrənirəm ki, ailəmi dolandıra bilim. Bir az da çörək qoyummu? Buğda çörəyi istəyirsiz, ya qarışıq?"

Kafenin səhər növbəsi 6.30-dan 16.30-a kimidi, kassanı təhvil verdikdən sonra elektrik qatarına oturub Riçmonda şənbə bazarına alış-verişə yollanır. Sonra evinə çatana qədər içi dışarıdan göründüyündən xeyli böyük olan Viktorian tipli evlərin sıralandığı evlərin yerləşdiyi küçədən iyirmi dəqiqəlik bezdirici piyada yolu var. Bağça cığırıyla addımlarkən (onun bağça cığırı da varmış – bu, necə olub?) giriş qapısını bağlayan Georqla Lexi görür; polyak olanda nə olar – ustalarıyla dostca, incə Şərqi London ləhcəsiylə söhbətə başlayır:

– Czesc! Jak si e masz?[1]

– Axşamın xeyir, Dekster, – Lex razı şəkildə cavab verir.

– Missis Meyhyu evdədi? – Qayda belədi ki, xaricilərlə gərək həmişə savadsız danışasan.

– Hə, evdədi.

– Bu gün necədilər? – pıçıltıyla deyir.

– Bir az... yorulublar, deyəsən.

Dekster qaşqabağını sallayıb zarafatla nəfəsini qısır:

– İndi mən həyəcanlanmalıyam da?

– Hə, bir balaca.

– Belə... – Dekster əlini iç cibinə salır, "Təbii qidalar"ın qaçaqmalı – ballı-xurma kökələrindən ikisini onlara uzadır. – İşdən çırpışdırmışam. Ancaq heç kimə deməyin ha?

– O`key, Dekster.

– Do widzenia![2]

---

[1] (ləhcə) Salamlar! Necəsiniz?

[2] (ləhcə) Sağlıqla qalın

Telegram: @cinciva

Qapıya yanaşıb açarı çıxarır; az qala, əmindi ki, indi evdəki iki xanımdan biri mütləq ağlayır – balaca, ya böyük. Bəzən elə hiss eləyir ki, o, bütün bunları qrafik üzrə yerinə yetirir.

Jasmin Elizabet Viola Meyhyu təzəcə cilalanmış döşəmələri qorumaq üçün sərilmiş sellofan örtüyün üstündə qərarsız şəkildə oturub dəhlizdə gözləyir. Jasmin girdə üzünün səliqəli, ideal cizgilərilə anasının miniatür surətidi elə bil; Dekster bu dəfə də qızını gördükdə ona dəhşət qarışıq güclü sevgi hiss edir.

– Günaydın, Jas. Bağışla ki, gecikdim. – O, qızını qucağına götürüb deyir. – Bu günü necə keçirdin?

Salondan səs gəlir:

– Ona Jas demə. Adı var, adını de – Jasmin. – Silviya örtük salınmış divanda uzanıb jurnal oxuyur. – Jas Meyhyu – iyrəncdi. Lesbiyanların fan-qrupundakı saksafonçu qızları belə çağırırlar. Jas.

Dekster qızını çiynində oturdub qapının ağzında dayanır:

– Sən adını Jasmin qoyubsansa, deməli, hamı onu Jas çağıracaq.

– Ona bu adı ikimiz qoymuşuq, tək mən yox. Mən də bilirəm ki, onu belə çağıracaqlar, ancaq bundan xoşum gəlmir.

– Yaxşı, bundan belə mən qızımızla ayrı cür danışacam.

– Mənim də istədiyim elə budu.

Dekster divanın yanında dayanıb, nəzərəçarpacaq şəkildə saatına baxır və fikirləşir: "Yeni dünya rekordu!" Evə girdiyim qırx beş saniyə deyil, artıq nə iləsə onu narazı salmışam! Düşündüklərini özünə yazığı gəlmə və Silviyaya nifrətin tam ifadəsi kimi ona deməyə hazırlaşdığı anda Silviya oturur, sifətini tökür, dizlərini qucaqlayıb ağlamağa başlayır.

– Bağışla, əzizim. Murdar bir gün keçirmişəm.

– Nə olub ki?

Telegram: @cinciva

– Qızın heç cür yatmaq bilmir. Gecə saat beşdən bu yana gözünü yummayıb.

Dekster əlini belinə vurub deyir:

– Dediyim kimi, kofeinsiz qəhvə verərdin də.. – Ancaq bu cür zarafatlar Deksterlik deyil, Silviyanın heç dodağı da qaçmır.

– Bütün günü ağlayıb durdu, küçə çox istidi, ev sıxıcı; Georqla Lex hər yerdə iş görürlər, çəkic, balta döyürlər, mən isə... bilmirəm, artıq bütün əsəblərim pozulub. – Dekster Silviyanın yanında əyləşir, qucaqlayıb alnından öpür. – Mənə elə gəlir ki, bir də bu zibilə qalmış parkda gəzməyə çıxsam, dəli olacağam!

– Az qalıb, darıxma.

– Gölün ətrafında dəfələrlə gəzişirəm, sonra yelləncəklərin yanına gedirəm, təzədən bir də gölün böyür-başında dolaşıram. Heç bilirsən, bu gün başıma nə yaxşı iş gəlib? Elə bildim, uşağın pampersi qurtarıb. Dedim, indi "Ueytrouz"a gedib almalıyam. Sonra birdən bezləri tapdım! Dörd bez tapdım və özümü xoşbəxt hiss elədim!

– Gələn aydan işləməyə başlayırsan.

– Şükür Allaha. – Əlini ərinin çiyninə qoyub köksünü ötürür. – Bəlkə bu axşam heç yana getməyim?

– Yox, mütləq get! Sən bu gecəni neçə həftədi, gözləyirsən!

– Nəsə, heç kefim yoxdu. Həqiqətən, subaylığa vida gecəsi havasında deyiləm. Belə gecələr üçün çox yaşlıyam.

– Boş söhbətdi.

– Həm də narahatam...

– Nəyə görə narahatsan, mənə görəmi?

– Səni evdə tək qoyduğuma görə.

– Silviya, mənim artıq otuz beş yaşım var, əvvəllər də evdə tək qaldığım olub. Həm də tək niyə oluram ki, Jas mənə baxar. Biz günü yola verərik, düz demirəmmi, Jas?.. Min. Jasmin.

– Düz deyirsən?

Telegram: @cinciva

– Tamamilə. – "Onun mənə heç inamı yoxdu, – Dekster fikirləşir, – ağlına gəlir ki, içəcəyəm. Dəliyəm içəm? İçmərəm axı".

Gecəni Silviyanın rəfiqələrindən ən arıq, ən rəzil qəlblisi Reçel keçirir; gecə qalacaqları üçün oteldə lüks otaq da tutub. Xidmətə yaraşıqlı kokteyl ofisiantı da daxildi. Limuzin, restoran, gecə klubunda bir masa, sabahı günə nahar yeməyi – hər şey hökmlü e-məktublar yoluyla həll edilmişdi. Silviya sabah axşamtərəfinəcən qayıtmayacaqdı – Dekster ilk dəfə gecə boyu iş başında olacaqdı. Silviya hamamda makiyaj edə-edə diz çöküb Jasmini çimizdirən Deksterə baxır.

– Saat səkkizdə onu yatızdır. Qırx dəqiqə sonra, yaxşı?

– Yaxşı.

– Mətbəxdə uşaq üçün süd əmzikləri hazırlamışam, püreş də eləmişəm. – "Püreş" – onun belə deməyindən cin vurur da başına! – Hamısı soyuducudadı.

– Püreş soyuducudadı, bildim.

– O xoşuna gəlməsə, dolabda bankada hazır püre var, bu ancaq fövqəladə hallar üçündü ha.

– Bəs çips? Ona çips vermək olar da? Duzunu çırpsam...

Silviya narazı halda dilini marçıldadır, başını yelləyib dodağını boyayır.

– Başından tut uşağın.

– Bəs duzlu fıstıq? Daha yekə qızdı da, yox? Bir az fıstıq neynəyəcək ki? – Çevrilib çiyninin üstündən baxır – birdən oldu da, bəlkə arvadını güldürə bildi? Bir əlini vannadan çıxarıb arvadının qəhvəyi baldırından tutur: "Yeri gəlmişkən, əntiqə görünürsən!"

– Əllərin yaşdı. – Silviya ayağını yana çəkir. Altı həftədən bəri sevişməyiblər. Dekster qabaqcadan təxmin eləyirdi ki, doğuşdan sonra soyuqluq və bir az əsəbilik olacaq, ancaq bu qədər də yox

Telegram: @cinciva

da; xeyli vaxt keçmişdi, Silviya arabir elə baxırdı ki, ona: "Xeyr! Ağlının ucundan belə keçirmə!"

– Çox istərdim ki, bu gecə qayıdasan, – deyir...

Məyusluq! Gözlərindən məyusluq yağır.

– Gözün Jasmində olsun! Başını tut!

– Mən nə eləmək lazım olduğunu bilirəm! – acıqla deyir.

Yenə də həmin baxış. Şübhə ola bilməz: nəsə yolunda getmir. Əgər Silviya çeki saxlamış olsaydı, indi çoxdan Deksteri dükana qaytarmışdı. Dekster onun gözündə zay çıxmış maldı. O, beləsini istəməmişdi.

Qapı zəngi.

– Taksidi. Bir şey olsa, otelə yox, mobilimə zəng vur, yaxşı? – Silviya dodaqlarını ərinin başına qondurur, sonra vannaya sarı əyilib qızını daha şəfqətlə öpür. – Gecən xeyrə, bir dənəm. Mən gələnəcən atana yaxşı bax.

Anası hamamdan çıxanda Jasmin qaşqabağını sallayıb dodaqlarını büzür; gözlərindən küyləndiyi oxunur. Dekster bunu görüb gülümsünür.

– Ana hara getdi? – o pıçıldayır. – Məni bu gicbəsərlə tək qoymayın!

Nəhayət, aşağıda qapı çırpılır. Silviya getdi, o, tək qaldı; indi istədiyi dəliliyi eləyə biləcək qədər azaddı.

Hər şey mətbəxdəki televizordan başlayır. Jasmin atası onu öz masasında yedirtmək üçün oturtmağa cəhd eləyərkən, səsini başına atıb var gücüylə qışqırır. Silviyayla quzu kimi sakit oturardı, ancaq onunla qıvrılıb hay-küy qoparır – elə bil səs və əzələylə dolu paketdi. Ortada nəzərəçarpacaq bir səbəb olmasa da, inanılmaz qüvvətlə qıvrılır. Lənət şeytana, axı bu nə vaxt danışmağa başlayacaq!? – Dekster özündən xəbərsiz düşünür. Qəhr olası bir dil öyrən, bir günahım varsa, de! Görəsən, nə vaxt dil açacaq? Bir ilə? İl yarıma? Bu, nəsə, konstruktor xətasıdı, absurddu – məhz lazım

Telegram: @cinciva

olduğu vaxt danışa bilməmək. Axı niyə uşaqlar doğulan kimi danışmırlar? Qoy heç söhbəti, hazırcavablığı bacarmasın, barı ən adi istəklərini çatdıra bilsin, yetər! "Ata, qarnıma girgi dolub. Bu oyuncaq məni boğaza yığdı. Qarnım ağrıyır".

Axır ki, qızı masasına oturda bilir, qışqırtıları bir az azalır; Dekster ilk fürsətdə yemək qaşığını bacardığı qədər qızının ağzına soxmağa çalışır, tez-tez dayanıb üzünə təraş köpüyü kimi yaxılmış püreni qaşığın qırağıyla təmizləməyə çalışır. Jasmini bir az sakitləşdirəcəyini düşünüb, Silviyanın zəhləsi gedən kiçik mətbəx televizorunu açır. Çünki bu gün şənbədi, efirin ən çox izləndiyi vaxtdı; ekranda Syüki Medouzun parlaq sifəti peyda olur – o, telestudiyadan canlı yayımı aparır, ekran qarşısında donmuş bütün ölkə üçün lotereyaların nəticələrini açıqlayır. Qarnının qısqanclıqdan necə sıxıldığını hiss eləyir, məyus halda başını aşağı salır, elə kanalı dəyişmək istəyir ki, Jasminin onun keçmiş sevgilisinin bağırtılarından sehrlənmiş şəkildə dinməzcə oturduğunu görür.

– Bax, Jasmin, atanın keçmiş sevgilisidi! Səsinə bax da! Görürsən, necə guruldayır!

Syuki artıq varlanıb, əvvəlkindən çox şən, şaqraq, məşhur olub, camaat da onu sevir. Heç bir ortaq anlarının olmamasına və bir-birini başa düşmədiklərinə baxmayaraq, birdən keçmiş sevgilisi və özünün, haradasa, iyirmi yeddi yaşı olanda şəkillərinin qəzetləri bəzədiyi dövrlər üçün xiffət çəkir. Görəsən, Syukinin bu gecə nə işi var?

– Bəlkə də atan elə onunla qalmalıydı, – o, acıqla deyir; qara taksilərdə, kokteyl-barlarda, bahalı otel restoranlarında, gecə klublarında, dəmiryolu körpülərində keçirdikləri gecələri xəyalından keçirir.

Jasmin yenidən ağlamağa başlayır – necə olubsa, gözünə şirin kartof düşüb; Dekster onun gözünü siləndə hiss eləyir ki, siqaretin dəmi gəlib. Niyə də çəkməsin – məgər belə ağır bir gündən sonra

Telegram: @cinciva

buna haqqı çatmırmı? Beli ağrıyır, baş barmağına yapışdırdığı plastır qopub, əllərindən lanqust və qəhvə iyi gəlir – hesab eləyir ki, bir mükafata tam haqqı çatır. Bir nikotin hədiyyəsinə ehtiyacı var.

İki dəqiqə sonra kenquru çantasını geyinməyə çalışır, ekstrim paraşütü kimi çantanın toqqalarını bərkidir. Gözüyaşlı Jasmini sinəsindən çantaya oturdub, hüznlü xiyabanla dükanların yerləşdiyi kiçik bazara yola düşür. Buraya – Surreydə bir ticarət mərkəzinə şənbə axşamı necə gəlib düşüb? – o fikirləşir. Bura heç Riçmond da deyil, qəsəbənin də qəsəbəsidi; qəşəng qız dostlarıyla şəhərdə indi haradasa əylənən Syukini yenidən xatırlayır. Bəlkə Jasmini yatırandan sonra ona zəng vursun – elə-belə, hal-əhval tutmaq üçün. Bir az boğazını yaşlayandan sonra keçmiş sevgilisini axtaranda nə olar ki?

İçki dükanının qapısını açanda həyəcandan içi titrəyir; qapını itələyir və bir içki divarıyla üzbəüz qalır. Silviya uşağa qalan gündən bəri içməməkdən ötrü bir qərar vermişdi ki, evdə spirtli içki olmayacaq. "Sən haradasa təkbaşına boğazını yaşlayanda çərşənbə axşamları burada divanda tək oturmaqdan mənim bağrım çatlayır", – Silviya şikayətlənirdi. O, bunu özünə təhqir kimi qəbul eləyəndən Dekster az, ya çox – içməyin daşını atmışdı. İndisə madam içki dükanına girib, gözünün qabağında bu qədər ləzzətli, gözə bir-birindən xoş dəyən içkilər varkən, fürsətdən istifadə eləməmək cahillik olar. Pivə, qırmızı, ağ şərablar... hamısından götürür. Xəfəngə göz gəzdirib, gizli bir yerə qoymaq üçün əlavə iki şüşə Bordo şərabı, bir qutu da siqaret alır. Sonra da Tailand restoranına girib bayırda yemək üçün bir şey sifariş eləyir.

Tezliklə şər qarışır, Jasmin onun sinəsində yuxuya gedir. O, gözəl küçələrdən iti addımlarla kiçik, təmirdən sonra çox yaraşıqlı görünən evinə doğru irəliləyir. Kenquru-səbətdən uşağı çıxarmadan mətbəxə keçir, şüşələrdən birini açıb qollarını bir balerina

Telegram: @cinciva

kimi əyərək qədəhinə şərab süzür. Bir ayin icra edirmiş kimi qədəhə baxır, sonra başına çəkib son damlasına kimi içir və fikirləşir ki, şərab bu qədər ləziz bir şey olmasaydı, içməməyə nə vardı ki. Mətbəx masasına söykənib gözlərini yumur, gərginliyinin necə keçdiyini hiss eləyir. İçki bir zamanlar onun üçün qüvvətləndirici vasitəydi: içib canlanar, gücə gələrdi. İndi isə bütün valideynlər kimi içki onun üçün gecələr sakitləşdirici dərman yerindəydi. Özündə bir rahatlıq hiss edib, yatmış körpəni divanın üstündə yastıqlardan düzəldilmiş yuvaya uzadır və bağçaya çıxır: sement kisələrinin üstünə bir örtük salınıb. Kenquru-səbət hələ də döşündədi, kəmərləri bir az boşaldandan sonra səbət tapança qoburuna bənzəyir. Dekster iş vaxtı bitmiş polis işçisinə oxşayır sanki: cinayət axtarışı şöbəsindən, sərt xarakterli, öz zamanında çox şeylər görmüş, işdən sonra Surreydə uşaq baxıcılığı eləyən bir polis. Bu obrazın tamamlanması üçün gərəkən tək şey siqaretdi; son iki həftə içində ilk dəfədi. Xüsusi ədayla siqaretini yandırır, ilk qullabın əvəzsiz ləzzətini tütünün çartıltısını çıxaracaq güclə içinə çəkir. Yanan yarpaqlar və benzin – 1995 qoxuyur.

Başı işlə bağlı fikirlərdən arınır; falafellərdən, yulaflı vaflilərdən yavaş-yavaş təmizlənir və axşamın gözəl keçəcəyinə ümid bəsləməyə başlayır; bəlkə də valideynlər üçün nirvana sayılan ilahi süstlüyə yetişə bildi. Siqaretin kötüyünü qumluqda basdırıb, Jasmini götürür, barmaqlarının ucunda onun otağına qalxır və bütün pərdələri endirir. İndi tam bir seyf oğrusu kimi qızını oyatmadan bezini dəyişməyə çalışır.

Ancaq bələmək üçün onu xalçanın üstünə qoymaq istəyəndə birdən uşaq ayılır və dərhal da o qulaqbatırıcı, dəhşətli səsilə yenidən qışqırmağa başlayır. Dişlərinin arasıyla nəfəs alaraq gücü yetdiyi bir cəldlik və səliqəylə onu geyindirir. Valideynliyin ən müsbət yanlarından biri odur ki, o, uşaq poxunu çox sakitliklə seyr edir; uşaq balaca, ya böyük bayıra çıxanda iy gəlməməsi əyləncəli

Telegram: @cinciva

olmasa da, ən azı, zərərsizdi. Hətta bacısının sözünə görə, uşaq poxunu qızarmış çörəyin üstünə belə çəkib yemək olar. Bu qədər zərərsiz və qoxusuzdu uşaq poxu.

Bununla belə, heç kim istəməz ki, ifraz olunmuş nəcis onun barmaqlarının arasına dolsun. Kiçik Jasminin ifrazatı cəmi iki yüz əlli qram fıstıq əzməsi qədər olsa da, bunu bütün kürəyinə yaymağı bacara bilib. Acqarına içdiyi şərabdan başı yüngülcə hərlənir; uşaq dəsmalıyla nəcisi silib götürmək istəyir, dəsmal bitəndə gündəlik yol kartının qırağıyla təmizləyir. Hələ də isti olan boğçanı kimyəvi qoxulu bez torbasına atır. Bütün vaxt ərzində Jasmin səsini kəsmədən qışqırır. Tam təmizləyib geyindirəndən sonra uşağı götürüb çiyninə qaldırır, ayaqları əldən düşənə kimi üstündə yelləyir və... İlahi, möcüzə baş verir – Jasmin yenə də səssizdi.

Uşağı beşiyinə yıxmağıyla yenidən səsi evi başına götürür. Qucağına alır, kiriyir. Beşiyə uzadır – yenə də qışqırıq. Dekster vəziyyəti başa düşür, ancaq qonşu otaqda açıq şərab şüşəsinin və yumurta kökəsinin onu gözlədiyi, cansıxıcı uşaq otağının da nəcis iyləndiyi bir vaxtda ondan bu qədər çox şey tələb eləməklə qızı ona elə ədalətsiz, elə insafsız gəlir ki!

Son vaxtlar "şərtsiz sevgi" kəlməsi çox dəbdədi, ancaq indi, ondan olsa, bəzilərinə xeyli şərtlər irəli sürməyin qətiyyən əleyhinə deyil. "Yaxşı da, Jas, düz eləmirsən axı, ağıllı bala ol da. Atan səhər beşdən ayaq üstədi, yadından çıxıb?" O, yenidən kiriyir, Dekster onun isti və rəvan nəfəsini boynunda hiss eləyir, yenidən, ancaq bu dəfə lap astaca, absurd limbo rəqsində olduğu kimi onu uzatmaq, hiss olunmaz hərəkətlə şaquli vəziyyətdən üfüqi vəziyyətə keçirmək istəyir. Səbət-qobur hələ də sinəsindədi; indi o, özünü partlayıcı maddəni zərərsizləşdirən ekspert kimi hiss eləyir: ehtiyatla... ehtiyatla... ehtiyatla...

Jasmin yenidən hayqırmağa başlayır.

Telegram: @cinciva

Dekster onun qışqırığını vecinə almadan qapını bağlayıb aşağı düşür. Gərək bir az möhkəm olasan. Kitablarda da elə bu cür yazılıb: gərək çox da üzüyola olmayasan. Əgər o danışa bilsəydi, Dekster onu başa salardı ki, Jasmin, bizim ikimizin də özümüzə bir az vaxt ayırmağa haqqımız var.

Dekster öz-özünə artıq neçənci dəfə uşaq kiritməyin necə çətin olduğunu yada salıb, ekran qarşısında şam eləyir. Kitablarda buna tənzimlənən ağlama deyirlər, ancaq Dekster öz üzərində nəzarəti tam itirir; indi özü də ağlamaq istəyir, içində arvadına bir viktorian hiddəti duyur – uşağı atasıyla tək atıb getmək qəhbəlik deyil də, nədi? Belə də məsuliyyətsizlik olarmı? Uşağın səsini eşitməsin deyə televizorun səsini artırıb, özünə şərab süzməyə gedir, ancaq çaşqınlıq içində şərab şüşəsinin boşaldığını görür.

Heç eybi yox. Yer üzündə südün həll etmədiyi valideyn problemi ola bilməz. O, uşağa əmzik hazırlayıb yuxarı qalxır; başı yüngülcə hərlənir, qan gicgahlarına vurur. Əmzik şüşəsini ovcuna qoyanda Jasminin üzü bir az yumşalır. Ancaq tezliklə yenidən səsini başına atır, daha doğrusu, ulamağa başlayır, bu vaxt Dekster şüşənin qapağını bağlamadığını, buna görə də isti südün yorğan-döşəyə, uşağın gözünə, burnuna axdığını, onun da qışqırdığını görür; indi gerçəkdən ağlayır, atasının gizlincə otağa soxulub iki yüz əlli qram isti südü gözünə tökdüyü halda necə də ağlamasın?.. Həyəcan içində bir tənzif tapmağa çalışır, əvəzində əlinə təmiz alt paltarları yığınının içindən Silviyanın ən yaxşı kəşmiri jaketi gəlir, onunla Jasminin üz-gözünə, saçına-başına bulaşmış yeməyi silir, onu öpə-öpə özünü söyür (gicbəsər, gicbəsər, gicbəsər, bağışla, bağışla, bağışla), o biri qoluylasa əmziyin islatdığı yatağı, uşağın paltarlarını, bezini – hər şeyi döşəməyə tullayıb, onu yenidən geyindirmə əməliyyatına başlayır. İndi hətta çox sevinir ki, nə yaxşı uşaqlar danışa bilmirlər. "Hələ bir özünə fikir ver, ay başdanxarab,

Telegram: @cinciva

– yəqin ki, uşaq deyərdi, – Allahın bir körpəsinə də baxa bilmirsən!" Uşaq qucağında aşağı düşüb ona bir əllə yenidən yemək hazırlayır, sonra onu yuxarı aparıb, qaranlıq otaqda yedizdirməyə başlayır. Jasmin qolunu onun çiyninə qoyub yenidən sakitləşərək yuxuya gedir.

O, qapını bağlayıb özünü öz evində oğru kimi hiss eləyərək barmaqlarının ucunda taxta pilləkənlə enir. Mətbəxdə onu ikinci açıq şərab şüşəsi gözləyir. Qədəhini doldurur.

Saat on. O, televizor ekranında göstərilənləri izləməyə çalışır – "Böyük qardaş" adlı yeni verilişdi. Ancaq baxmaq ona mənasız gəlir, özündə teleindustriyanın indiki vəziyyətindən qocalar sayağı narazılıq hiss eləyir. "Başa düşmürəm", – deyir. Evdə yox, Avropa otel-butiklərindən birinin hollunda olmaq illüziyası yaradan xüsusi müsiqilərin toplandığı diski dinləməyə çalışır. Silviyanın diliklənmiş jurnallarından birini oxumağa səy göstərir, ancaq heç cür fikrini cəmləyə bilmir. Oyun cihazını açır, ancaq oyunlardan heç birindən ləzzət ala bilmir. İndi qışqırıb-bağırmayan, ağlayıb-sıtqamayan, yatmayan, onunla söhbət edə biləcək böyük bir insana ehtiyac duyur. Əlini telefona uzadır. Artıq sərxoş olduğuna şübhə yoxdu. Bu vəziyyət də köhnə bir vərdişini onun yadına salır – hansısa gözəl bir qadına zəng vurub nəsə boş-boş danışmaq.

Stefani Şounun yeni döş pompası var. Son model, Finlandiya malıdı. Onun tişörtünün altında bayırdan taxma motor kimi titrəyərək dızıldayır. Onlar divanda oturub "Böyük qardaş"a baxmağa çalışırlar.

Emma elə bilmişdi ki, bu axşam şam yeməyinə çağırılıb, amma Vaytçepelə gələndə Stefaniylə Adamı yemək hazırlaya bilməyəcək dərəcədə əldən düşmüş gördü; fikirləşirdilər ki, Emma bundan inciməz. Şam yeməyi yerinə onlar televizorun qarşısında out-

Telegram: @cinciva

rub çənə döyür, pompanınsa bu arada çax-çaxı dayanmadan baş aparır – elə bil südçülük fermasındadılar. Süd anasının həyatında bir aləm gecə.

Elə şeylər var ki, Emma heç bir vaxt o mövzuda danışmaq istəməzdi – hamısı da körpələrə aiddi. İlk bir neçə uşaq onun üçün yeniydi; sözsüz ki, onlarda nəsə maraqlı, məzəli, riqqətli şey oydu ki, dostlarının cizgiləri onların miniatür üzündə qovuşub necə əks olunur. Əlbəttə, başqalarının fərəhinə şahidlik etmənin özü də fərəhvericidi.

Ancaq bu fərəhin də bir həddi var. İndi ona elə gəlir ki, hər dəfə onun evdən çıxmağının tək bir səbəbi var – təzə doğulmuş bir uşağı onun sifətinə çırpmaq. Birinin kərpic qalınlığında bir topa məzuniyyət şəklini ona baxmağa verəndə də eyni xofu keçirir – yaxşı, çox şadam ki, əla istirahət eləmisiz, ancaq bundan mənə nə? Bu niyyətlə Emmada xüsusi hazırlanmış "heyrətə gəlmiş sifət" var ki, rəfiqələri ona öz işlərinin yolunda getmədiyindən, hansı dərmanları atdıqlarından, filandan-bəşməkandan dil boğaza qoymadan danışdıqları zaman üzünə taxır.

Ancaq o heç cür anlaya bilmir ki, uşaq doğmaqda, gənc atanın durumunda xüsusi olaraq möcüzəvi nə var. Onların yuxusuzluqdan elədikləri şikayətlərə qulaq belə vermək istəmir – guya əvvəlcədən bilmirdilər ki, onları nə gözləyir? Uşağın təbəssümündə bir əlamət axtarmağı da xoşlamır; ya da uşağın əvvəl anasına, sonra atasına, ya da əvvəl atasına, sonra anasına oxşamasından, yaxud ağzının indi eynən anasının ağzı olması haqda gedən söhbətlər də onun üçün maraqlı deyil. Ya əllərin ölçüsüylə bağlı gic-gic danışıqlar? İncə, balaca barmaqlı kiçik əllər, barı əsl böyük əllər olsaydı, onda bəlkə də nəsə danışmağa dəyərdi! "Siz hələ bu körpənin nəhəng əllərinə baxın!" Hə, bax bu haqda danışmağa dəyərdi.

Telegram: @cinciva

– Mən yatıram, – Stefaninin əri yumruğunu başına dayayıb deyir.

– Yaxşısı, mən gedim? – Emma soruşur.

– Yox! Getmə! – Stefani deyir, ancaq niyə qalmalı olduğuna dair heç nə bildirmir.

Emma çipsləri xırçıldatmağa davam eləyir. Onun dostlarına nə olub axı? Əvvəllər necə də şəndilər, əylənməyi sevərdilər, onlarla çox məzəli, maraqlı olardı. Ancaq son vaxtlar Emmanın eynən bugünkünün eyni olan, uşaqlarının kiçildiyini yox, böyüyüb boya-başa çatdığını fəxrlə deyəcəkləri otaqları pis qoxuyan, bomboş gözlərlə baxan, tutqun və acıqlı ər-arvadla birlikdə keçirdiyi gecələri həddən artıq çoxalmışdı. Üzünə bir uşaq iməklədiyi vaxt sanki həyatda ilk dəfəymiş ki, belə hadisəylə qarşılaşırmış kimi ifadə vermək onu necə də təngə gətirmişdi! Guya bu uşaq imək-ləməyib də kosmosa uçacaq deyildi ki! Uşağın başının qoxusu da ona heç nə demirdi. Bir dəfə qoxuladı – eynən saat qayışının iç üzündən gələn qoxuydu.

Çantasından telefonunun zəng səsi gəlir. Telefonu götürüb baxır – ekranda Deksterin adı yazılıb, ancaq açmaq istəmir. Xeyr, durub Vaytçepeldən Riçmonda qədər gedib qızı Jasminin qarnını necə qıdıqladığını görməyi zərrəcə arzulamır. Kişi dostlarının özlərini yeni nəslin gənc atası kimi aparmaları onun üçün xüsusilə çəkilməzdi. Əldən düşmüş, ancaq dözümlü, yorulmuş, lakin əyinlərində istiliyi ideal şəkildə tənzimləyən dəbli kürk və cins şalvarlarda, yaxşı nəfəs alan materiallı maykanın altında pivədən dombalan qarınları; dünyaya bir körpə gətirdiklərinə görə özlərin-dən son dərəcə razı, qürurlu tiplər. Velvet pencəklərində uşaq işə-məyinin, saçlarında qusuntu ləkəsi olan, insanlıq tarixinin ilk kişiləri və cəsur öncülləri.

Aydındı ki, o, bunları dilinə gətirə bilmir. Necə də olsa, bir qadının uşaqları, daha doğrusu, onlar haqda söhbəti cansıxıcı say-

Telegram: @cinciva

ması təbii sayıla bilməz. Üstəlik fikirləşərlər ki, o, dostlarına paxıllıq eləyən bədbəxt qarımış qızdı. Hamının onu kefi istədiyi qədər yata bildiyinə, bir dünya boş vaxtı olduğuna, görüşə çıxa biləcəyinə və ya durub istədiyi vaxt Parisə gedə biləcəyinə görə bəxtinin gətirdiyinə əmin eləməsindən də cana doyub. Bütün bunlar ona dostlarının təsəllisi kimi gəlir, məhz elə buna görə də, sadəcə, onlara nifrət eləyir, özünün də aşağılandığını hiss eləyir. Üstəlik Parisə-zada da gedib-eləmir! Üstəlik dostlarından, televizorda gedən filmlərdən, ailəsindən, eşitdiyi bioloji saat mövzusundakı zarafatlardan da ürəyi sıxılır. İngiliscədə ən gicbəsər və maymaq sözün "subay", bunun da ardınca gələn "şokolad xəstəsi" kəlməsinin olduğunu zənn eləyir. O, qəzetlərin bazar günü əlavələrində haqqında yazılan yeni sosial fenomen olmanı qətiyyətlə rədd edir. O, təcrübi öyüd və nəsihətləri qəbul eləyir, ancaq özüylə bacarmır ki, bacarmır.

Bəli, bəzən özünü mavi xəstəxana köynəyində, doğuş sancılarıyla, tər içində təsəvvür eləyir; ancaq əlini tutan kişinin üzü heç görünmür ki, görünmür, bu da üstündə baş çatladası fantaziya olaraq qalmaqda davam eləyir.

Əgər bu nə vaxtsa baş verəcək olsa, o da körpəsindən, onun kiçicik əllərindən vəcdə gələcək, hətta onun yumşaq başının quxusunu da ləzzətlə içinə çəkəcək. O da epidurial anestezi haqda mübahisə eləyəcək, yuxusuzluqdan, qaz sancılarından, hər nə şey varsa, hamısından söz açacaq. Hətta günün birində kiçicik çəkmələr qarşısında bülbül kimi ötə də bilər. Ancaq ona kimi bu söhbətlərdən kənarda durmaq, sakitliyini və soyuqqanlılığını qorumaq, bütün bunların fövqündə olmaq fikrindədi.

Stefani süd sağıcılığını bitirib, indi də onu Adama göstərir. İkisi də ortaq nəticəyə gəlir: bu pompa, sadəcə, möcüzədi.

Telegram: @cinciva

– Görəsən, mənim bunu sınamaq növbəm nə vaxt çatacaq! – Emma deyir, ancaq heç kimin dodağı qaçmır, əvəzində yuxarıda uşaq yuxudan ayılır.

– Bilirsiz, nə icad eləmək lazımdı? – Adam soruşur. – Xloroform hopdurulmuş uşaq salfetləri.

Stefani içini çəkib pilləkənlə yuxarı qalxanda Emma artıq getmək vaxtı çatdığını fikirləşir. Sabahacan oturub kitabını işləyə bilər. Telefonu yenidən zəng çalır. Deksterdən səsli mesaj gəlib: onu Surreyə yoldaşlıq eləməyə çağırır.

Emma telefonu söndürür.

– Yolun uzaq olduğunu bilirəm, ancaq, deyəsən, uşaq sonrası depressiyadayam... Bir taksiyə otur, gəl, özüm ödəyəcəm. Silviya evdə yoxdu! Olsa da, fərqi yoxdu... qonaq otağımız var, istəsən, gecələyə də bilərsən. Nə isə, mesajımı alsan, zəng vur. Hələlik. – O susur, sonra yenidən "Hələlik" deyib mesajını bitirir. Çox mənasız mesajdı. Dekster gözlərini qırpır, başını yelləyir, sonra özünə şərab süzür. Telefon kitabçasına baxmaqda davam eləyib "S"yə çatır: "Syuki mobil".

Bir xeyli cavab verilmədiyini görüb yüngülləşir – məgər keçmiş sevgiliyə zəngin sonu yaxşılıqla bitə bilərmi? Elə çağırışı kəsmək istəyir ki, birdən tanış çiyiltini eşidir:

– Alo!!!

– Salam! – Üzünə aparıcı gülüşü verir.

– Kimdi?!! – Syuki qışqırır, arxadan bir məclisin səs-küyü eşidilir, bəlkə də bir restorandı.

– Bizim proqramın özəl qonağı!

– Nə?!! Sizi eşidə bilmirəm!!!!!

– Tap hələ!

– Nə??? Sizi eşitmirəm!!!!!!!!!!

– Deyirəm, tap hələ kimdi!

Telegram: @cinciva

– HEÇ NƏ EŞİDİLMİR, KİMDİ AXI?!!!

– Tap görək!

– KİMDİ BU???!!!

– DEDİM Kİ , ÖZÜN TAP! – Bu oyun onu bezdirdiyinə görə eləcə deyir: – Dekster!

Bir anlıq sükut.

– Dekster? Dekster Meyhyu?

– Sənin neçə Deksterin var ki, Syuki?

– Yox, mən bildim, hansı Deksterdi, sadəcə... Heeeeyy, Deskter!!!!!! Salam, salam, Dekster!!!! Bir dəqiqə gözlə... – O, stulun kənara çəkildiyini eşidir və restoranın başqa müştərilərinin masadan qalxıb dəhlizə doğru gedərkən onu gözləri ilə yola saldığını təsəvvürünə gətirir. – Hə, Dekster, xoş gördük, necəsən?

– Hər şey yaxşıdı, hər şey, sadəcə, zəng vurdum deyim ki, səni bu gün televizorda gördüm, köhnə çağları xatırladım, dedim, qoy Syukiyə zəng vurum. Öz aramızdı, əntiqə görünürsən. Televizorda. Şounu da bəyəndim. Əla formatdı. – Əla format? Nə sərsəm söz oldu. – Hə, necəsən, Syuki?

– Ah, məndə hər şey əladı, hər şey qaydasındadı.

– Bütün kanallardasan! Görünür, işlər, gerçəkdən, əntiqə gedir! Gerçəkdən!

– Sağ ol. Sağ ol.

Susqu. Dekster barmağını telefonun iqnor düyməsinə doğru uzadır. Danışığı bitirmək lazımdı. Özü də elə eləmək ki, guya telefon təsadüfən kəsildi. Qurtar bunu, söndür, kəs...

– Deks, gör haçandı, görüşmürük? Beş il!

– Bilirəm, indi səni düşünürdüm, çünki televizorda gördüm. Necə də qəşəng görünürsən! İşlər necədi e? – Nə qatıqlayırsan, bunu bayaq soruşdun da! Fikrini cəmlə. – Demək istədim ki, haradasan indi? Yaman səs-küy gəlir...

– Restorandayam, dostlarla şam eləyirik.

Telegram: @cinciva

– Tanıdıqlarımdan varmı orada?

– Güman ki, yox. Bunlar... yeni dostlarımdı.

Yeni dostlar. Düşmənçilik deyil ki bu?

– Aydındı. Oldu...

– Hə. Bəs sən haradasan indi, Dekster?

– Mən evdəyəm.

– Evdə? Şənbə axşamı evdə? Yəni bu, sənsən?!

– Bilirsənmi... – İstəyir ki, evliliyini, uşağı olduğunu, indi şəhərkənarında yaşadığını desin, ancaq hiss eləyir ki, bu, onun zənginin bütün mənasızlığını korlayacaq, ona görə də susur. Susqu bir neçə an sürür. Fərqinə varır ki, haçansa dəbli klublara geydiyi pambıq sviter var əynində, yaxasında Jasminin burnundan axan su quruyub, dırnaqları isə, nəsə, yeni – Jasminin çirkli bezlərinin və xərçəng çipsləri qoxusunun dəhşət saçan qarışığının iyini verir.

Sükutu Syuki pozur:

– Orada yemək gətiriblər...

– Hə, onda yaxşı. Sadəcə, əski çağları xatırladım, dedim, görüşmək heç də pis olmazdı. Nəsə, nahara, ya da bir şey içmək üçün!..

Musiqi kəsilir – Syuki yaxşı dalda yer tapıb, deyəsən.

– Bilirsən, Dekster? – Onun səsi sərtləşir. – Mənə elə gəlir, bu çox da yaxşı fikir deyil.

– Elə isə...

– Biz düz beş il görüşməmişik, səncə, bu, boşunadı?

– Sadəcə, fikirləşdim ki...

– Dediyim odur ki, sən heç vaxt məni bəyənmədin, maraqlanmadın mənimlə, demək olar ki, həmişə sərxoş olurdun...

– Düz deyil!

– Mənə sadiq də olmadın heç, Allah eşqinə, daim haradasa veyllənirdin, ofisiant qızları qayırmaqla məşğuldun. Heç cür ağlıma sığışdıra bilmirəm ki, qəfildən başına atmı təpdi ki, belə zəng

Telegram: @cinciva

vurdun, elə bil köhnə dostmuşuq kimi ötən günlərin xiffətini çəkdiyini deyirsən, düzünü bilmək istəsən, o şanlı il yarım, zənnimcə, ömrümün ən pis çağlarıymış.

– Başa düşdüm, Syuki, – o, acıqla deyir. – Davam eləməyə bilərsən.

– Üstəlik də indi yeni sevgilim var, qiyamət oğlandı, mən də çox xoşbəxtəm. Yeri gəlmişkən, indi o, məni gözləyir.

– Belə de! Elə isə, onu çox gözlətmə! Sürüş! – Yuxarıda Jasminin ağlamağa başladığını eşidir – bəlkə də utandığından.

– Məni o cür atıb gedəndən sonra, indi sərxoş vaxtında mənə zəng vurub gözləyirsən ki, sənin qucağına...

– Mən heç nə gözləmirəm, sadəcə... Lənət şeytana, yaxşı, unut! – Jasminin qışqırığı taxta pilləkəndə əks-səda verir.

– O, nə səsdi?

– Uşaqdı.

– Kimin uşağı?

– Mənim. Bir qızım var. Yeddi aylıqdı.

Syuki susur, susqu elə uzun çəkir ki, Dekster hətta cisməm utanc hiss eləməyə də vaxt tapır. Sonunda Syuki dillənir:

– Sən indi nə ağılla məni görüşə çağırırsan?

– Görüşə yox, elə-belə. Dostca içməyə.

– Mənim dostlarım var, – Syuki çox astaca deyir. – Fikrimcə, yaxşısı, sən qızının yanına get, Deks.

Və telefonu qapadır.

Dekster telefonu qulağından dərhal aralamır, dayanıb boş xətti dinləyir. Nəhayət, telefonu endirir, üzünə baxır, sonra başını bərk-bərk silkələyir, elə bil bu dəqiqə zərbə alıb. Əslində, elə o cür də olub.

– Bu da sənə danışmaq, – donquldanır.

Adres dəftərini açır: "kontaktı dəyişmək", "kontaktı silmək". "Siz "Syuki mobil"i silməyə əminmisiniz?" – o, sualı oxuyur.

Telegram: @cinciva

Bəli, lənət şeytana, sil onu, bəli! – "Sil" deyə düyməni basır. "Kontakt silindi" sözləri çıxır, ancaq bu, ona bəs eləmir; onun ürəyindən olardı ki, belə yazılsın: "Kontakt məhv edildi", "Kontakt öldürüldü!" Jasminin qışqırıqları öz zirvəsinə çatır. O, birdən qalxıb, telefonu divara çırpır. "Farrow and Ball" marka divar kağızının üstündə qara ləkə qalır. Götürüb bir də tolazlayır, bu dəfə divarda yeni ləkə qalır.

Syukini, özünü belə sarsaq olduğuna görə lənətləyə-lənətləyə o, balaca şüşə süd hazırlayır, qapağını bərk-bərk sıxır, əmziyi cibinə qoyur, bir də şərab götürüb pilləkənlə artıq ağlamağını kəsib qorxunc xırıltılı səslər çıxaran Jasminin yanına qaçır. Dekster uçub otağa qonur.

– Lənət olsun, Jasmin, ağzını yumacaqsan, ya yox?!! – o, dəli kimi qışqırır, Jasminin gözləri qorxudan alacalanmış, beşiyinin içində oturduğunu görüncə Dekster peşmançılıq və xəcalət içində ağzını əliylə qapayır. Onu qucağına götürüb arxası divara yerə oturur, qızını köksünə sıxıb ovutmağa çalışır; sonra onu dizinə oturdur, alnını incə-incə sığallayır, bu da kömək eləməyəndə boynunun ardını ovxalayır. Deyirlər, uşaqlarda hansısa sirli nöqtə var ki, onu baş barmaqla sığallamaq lazımdı? Jasminin ovcunu sığallayır; qızı acıqla yumruğunu sıxır. Bir-bir hər şeyi sınaqdan keçirir, ancaq heç nə kömək eləmir. Kök və böyük barmaqlarıyla qızının gah orasına, gah burasına basır, yenə də xeyri yoxdu. Bəlkə azarlayıb? – Dekster fikirləşir. Bəlkə iş ancaq ondadı ki, o, Jasminə anasının yerini vermir. Vecsiz ata, vecsiz ər, vecsiz dost, vecsiz oğul.

Bəs birdən Jasmin xəstələnibsə? Bəlkə də sancılanıb deyə düşünür. Bəlkə dişidi – dişi çıxır yəni? Onu həyəcan bürüyür. Bəlkə xəstəxanaya aparsın? Ancaq o çox keflənib, maşını necə sürər? Ax! İşə yaramaz, vecsiz adam! "Bəsdi, fikrini cəmləşdir", – Dekster ucadan deyir. Rəfdə üstünə "Yuxu gətirə bilər" yazılmış

Telegram: @cinciva

nəsə bir dərman var; indi onun üçün ingilis dilində bundan gözəl heç bir söz ola bilməz. Haçansa ən gözəl söz bu idi: "Sənin maykanda yata bilərəmmi?". İndi isə buyur: "Yuxu gətirə bilər".

Ta ki bir az sakitləşənə kimi Jasmini dizində yelləyir, sonra isə dolu qaşığı onun dodaqlarına yaxınlaşdırıb nə vaxt udacağını gözləyir. Ondan sonrakı iyirmi dəqiqə dəlicə kukla şəbihi çıxarmaqla keçir; qızına qıvrıla-qıvrıla danışan heyvanları yamsılayır. Öz kasad repertuarında olan gülməli səsləri çıxarıb, cürbəcür ləhcələrlə gah ucadan, gah pəsdən Jasminə yalvarır ki, sakitləşsin, kirisin, axır ki, yuxuya getsin. Şəkilli kitabları onun üzünə tutur, vərəqləri çevirir, lentlərini dartışdırır, barmağını səhifələrin üstünə qoyub deyir: "Ördək! İnək! Qatar gəlir – tuk-tuk! Hələ bu pələngə bax, gör nə gülməlidi?" Əməlli-başlı kukla teatrı! Plastik bir şimpanze "Təkərlər fırlanır" mahnısının birinci bəndini dönə-dönə, dönə-dönə oxuyur; sonra Tinki-Vinki "Köhnə Makdonald"ı ifa eləyir, şar-donuzsa nə oxusa yaxşıdı – Madonnanın mahnısını. Cib telefonunu Jasminin körpə əllərinə dürtüşdürür, onun düymələri basmasına, ağzının suyunu üstünə axıtmasına heç nə demir; nəhayət, səsli saatı dinləyəndə uşaq rəhmə gəlib sakitləşir; xəfifdən hıçqırsa da, artıq sakitləşdiyini söyləmək olar, hələ yatmasa da, şükür ki, ağlamır.

Uşaq otağında "Fisher Price" markalı SD pleyer var. Böyük, rəngbərəng, qatara oxşayan uşaq pleyeridi. Dekster döşəməyə səpilmiş kitabları, oyuncaqları ayağıyla hərəsini bir tərəfə tolazlayıb "Play" düyməsini basır: "Çocuqlar üçün sakitləşdirici klassika" – Silviyanın uşaq zehni üzərində total nəzarət layihəsinin bir parçası. Balaca dinamiklərdən "Şəkər pərisinin rəqsi" eşidilir. "Səəəəss!!!" – Dekster qışqırır, səsi daha da ucaldır və Jasmini sinəsinə sıxıb otaqda sərxoşca vals oynamağa başlayır. Jasmin gərnəşir; toppuş əlləri bükülüb yumruğa dönür, sonra gərginliyini

Telegram: @cinciva

azaldır və bu gecə ilk dəfə alnını qırışdırmadan atasına baxır. Bir an Deksterə elə gəlir ki, ona gülümsünən elə öz üzüdü. O, gözlərini bərəldib, qızının dodaqlarını şappıldadır. Jasmin gülür!

– Mənim cuppulum, mənim gözəl balam, – Dekster deyir.

Kefi kökələn kimi başına bir fikir gəlir.

Jasmini çiyninə sıxıb, qapı çərçivələrinə dəyərək, hələ rəflər tam hazır olmadığından üç qutu SD-sini yığdığı mətbəxə götürülür. Qutularda Sohoda həvəskar dicey olduğu, məzəli qulaqcıqlar taxdığı o xoş günlərdən miras qalan minlərlə disk var. Diz çöküb tək əliylə qutuları eşələyir. Bütün möcüzə onda deyil ki, Jasmin yatsın, tam əksinə, istəyir ki, onu yatmağa qoymasın və ikilikdə bir gecə təşkil eləsinlər – özü də gecə klublarındakından yüz dəfə ləzzətlisini! Cəhənnəm olsun Syuki Medouz – o, öz balacasına DJ-lik eləyəcək!

Dekster fikrindən şövqə gəlmiş halda əlini qutuların daha dərinliyinə soxuşdurub, onun on il boyu dəyişən musiqi zövqünün ifadəsi olan diskləri gözdən keçirir. Götürdüyü diskləri döşəmənin üstündə qalaqlayır və öz fikrindən getdikcə daha da vəcdə gəlir. Eysid-caz, breyk-bit, 1970-ci illərin fank musiqisi, eysid-haus, elektronik musiqi... Köhnə disklərin içində eşələnmək ona xoş gəlməliykən, təəccüblü də olsa, birdən bu disklərin üzünə baxdıqca özünü əsəbli və narahat hiss etməyə başlayır: öz evində tanımadığı adamlarla birgə keçirtdiyi yuxusuz gecələri, artıq çoxdan unutduğu dostlarıyla elədiyi boş və mənasız söhbətləri xatırlayır. Bu rəqs musiqiləri indi onun əsəblərini yerindən oynadır. "Yəqin, qocalıq elə budu", – fikrindən keçirir.

Sonra birdən Emmanın üstünü yazdığı bir SD-nin qapağı gözünə sataşır; bu diski özünün yeni kompyuterində Emma sentyabrın birində Deskterin otuz beş illiyi üçün toyundan bir az qabaq yazıb. Disk "On bir il" adlanır; əldə düzəlmə çərçivəsinin

Telegram: @cinciva

içində tutqun bir fotoşəkil var, Emmanın bunu öz aşağı imkanlı printerindən çıxarmağına baxmayaraq, yenə də Kral Arturun taxtının zirvəsində, Edinburqun başı üzərində ucalan sönmüş bir vulkan dağının kənarında oturub çəkdirdikləri bu şəkildən onların ikisinin də üzünü ayırd eləmək olur. Bu ki buraxılış gününün səhəri çəkilib – on iki il keçib də üstündən? Ağ köynək var əynində, siqaret dodağına yapışıb, kürəyini böyük qaya parçasına söykəyib. Emma bir az aralıda çənəsini dizlərinə dayayıb. Belinə kip yapışmış "Levays-501" cins şalvarı var, hənə qoyulmuş saçları gözlərinə kölgə salıb, özü də indikindən daha ətli-canlıdı. Onun bütün şəkillərində üzü belədi: dodaqlarını sıxıb, ağzının bir tərəfiylə gülümsünür. Dekster onun üzünə baxıb gülür. Şəkli Jasminə göstərir:

– Bax! Bu, sənin xaç anan Emmadı. Hələ atana bax, görə necə arıqmış. Üzümün sümükləri çıxıb. Görürsən də, haçansa atanın buxağı olmayıb!

Jasminin dodağı qaçır.

Uşaq otağına qayıdıb, Jasmini bir yana qoyur və SD-ni qutusundan çıxarır. İçində Emmanın ötən il onun doğum gününə bağışladığı kiçik hərflərlə yazılı bir açıqca da var:

1999-cu il, 1 sentyabr. Bu da sənə əl işi hədiyyəsi. Bunu təkrarlamağı unutma – əsas hədiyyə deyil, diqqətdi, əsas hədiyyə deyil, diqqətdi. Bu, sənin üçün illər öncə hazırladığım bir kaset surətinin sevgi dolu SD versiyasıdır. Burada özünün axmaq mahnılarından heç birini tapa bilməyəcəksən – əsl mahnılar var burada. Elə bilirəm, xoşuna gələcək. Doğum günün kutlu olsun, Dekster, səni, həyatındakı bütün sayılacaq günlərini də təbrik edirəm. Ər olacaqsan! Ata olacaqsan! Hər şey alınacaq səndə. Sevinirəm ki, barışdıq. Unutma – səni çox sevirəm.

Köhnə dostun Emma.

Telegram: @cinciva

Dekster gülümsünüb SD-ni parovoz-pleyerə qoyur.

Disk Massiv Attakla başlayır: "Unfinished Sympathy"[1]. Jasmini dizi üstə oturdub qalxmadan mahnının sözlərini onun qulağına oxuyur. Köhnə havalar, iki şüşə şərab, yuxusuzluq birləşib onun başını hərlədir, duyğulandırır; səsi tam qaldırır. "Ruhum xatirələrsiz, bədənim qəlbsiz, hər zərrəmlə darıxıram sənsiz..."

Ardınca The Smiths, "There is a Light That Never Goes Out"[2] kompozisiyası ilə gəlir; bu qrupu heç vaxt bəyənməsə də, tələbə diskotekasında iyirmi yaşlı sərxoş gənc kimi başını yelləyərək atılıb-düşməyə davam eləyir. "Sənin yanında ölmək – necə gözəl, necə böyük şərəfdi..." Çox ucadan oxumağı kənardan sarsaqlıq kimi görünsə də, vecinə deyil. Terraslı evinin kiçik yataq odasında qızıyla oyuncaq parovoz-pleyerdən gələn səsə rəqs edərkən qəfildən özünü dünyanın xoşbəxti kimi hiss eləyir. Hətta xoşbəxtlik də deyil – heyrət! Başı gicəllənir, bir taxta itin üstünə çökür, küçədəki sərxoşlar kimi ləngər vurur; yıxılmamaq üçün əlini divara dayayır. "Ey, cavan oğlan, yıxılma", – ucadan deyib Jasminə baxır – görən, o necədi?" Ancaq onun möcüzəvi, gözəllər gözəli qızı gülür... "Heç sönməyən bir işıq var..."

İndi isə növbə haçansa körpə olanda anasının ona dinlətdiyi "Walk On By" gəlir. Elizabetin bir əlində qədəh, birində siqaret bu havaya necə oynadığı yadına düşür. Jasmini götürüb, nəfəsini boyun-boğazında hiss edəcək qədər qucağında sıxır, kiçicik əlini tutub ayağıyla oyuncaqları döşəmədən dağıdaraq aramla rəqs eləməyə başlayır. Bihuşedici yorğunluğun və şərabın məstliyinin təsirilə qəfildən Emmayla danışmaq istəyi baş qaldırır içində; onun musiqilərini dinlədiyini çatdırsın. Bu an komanda verilmiş kimi musiqi kəsilir, telefon zəng çalmağa başlayır. Dağınıq oyun-

[1] "Bitməyən rəğbət"

[2] "Heç sönməyən bir işıq var"

Telegram: @cinciva

caq və kitabların üstündən keçib telefona doğru gedir – bəlkə elə Emmadı, onunla danışmaq qərarına gəlib? Ancaq ekranda "Silviya" sözü yanıb-sönür; söyür – məcburdu cavab versin. "Ayıl! Ayıl! Ayıl! Ayıl! Ayıl! Sən sərxoş deyilsən!" – özünü inandırmağa çalışır. Uşaq çarpayısına yaslanıb, Jasmini dizi üstdə otuzdurur və telefona cavab verir:

– Alo, Silviya?

Bu vaxt "Fight The Power"in ilk akkordları səslənməyə başlayır, qapatmaq üçün parovozun düyməsini axtarır...

– Bu, nəydi?

– Heç... musiqiyə qulaq asıram. Biz burada Jasminlə bir gecə təşkil eləmişik, eləmi, Jas? Daha doğrusu, Jasmin.

– Yatmayıb ki o??!!

– Təəssüf ki, yox!

Silviya içini çəkir:

– Bəs sən nə işlə məşğuldun?

"Siqaret çəkdim, kefləndim, uşağımıza yuxu dərmanı verdim, bütün evi zibilliyə çevirdim, keçmiş sevgililərimə zəng vurdum, rəqs elədim, özüm özümlə danışdım. Sərxoş kimi küçədə yıxılıb qaldım".

– Heç, elə başımı qatmışam, televizora baxmışam. Bəs sən? Əylənirsiz orada?

– Hər şey yaxşıdı. Təbii ki, hamı keflənib...

– Əlbəttə, səndən başqa.

– Mən sərxoş olacaq halda deyiləm.

– Nəsə, orada sizdə çox sakitlikdi. Haradasan ki?

– Öz otağımda. Dedim, bir az uzanım, sonra onların yanına qayıdaram. – Onu dinləyə-dinləyə Dekster südə bulaşmış mələfə-

Telegram: @cinciva

ləri, hər tərəfə yayılmış oyuncaqları, kitabları, boş şərab şüşələrini, yağlı stəkanları gözdən keçirir. – Jasmin necədi?

– Gülür. Düz demirəm, əzizim? Anan zəng eləyib. – Telefonun dəstəyini Jasminin qulağına tutur, o isə susur. Deyəsən, kimsənin kefi açılmadığını görüb dəstəyi çəkir. – Hə, yenə mənəm.

– Yaxşı, onu saxlaya bilirsən?

– Əlbəttə. Məgər şübhən vardı? – Sükut. – Qayıt rəfiqələrinin yanına.

– Hə, belə də eləyəcəm. Yaxşı, sabahacan. Nahara evdəyəm. Dəqiq bilmirəm, ancaq saat on birdə, bəlkə...

– Yaxşı. Gecən xeyrə qalsın.

– Gecən xeyrə, Dekster.

– Səni sevirəm.

– Mən də səni.

Silviya söhbəti bitirmək istəyir, ancaq o hiss eləyir ki, ona yenə nə isə deməlidi.

– Silviya? Silviya? Eşidirsən?

– Hə?...

O, ağzının suyunu udub, dilini dodağına sürtür.

– Sadəcə, demək istəyirdim... demək istəyirdim ki... özüm də bilirəm ki, hələ məndə heç nə – ata, ailə başçısı olmaq o qədər də yaxşı alınmır. Ancaq mən çalışıram, bacardığım qədər öz üstümdə işləyirəm. Mən bacaracağam, Silviya. Söz verirəm.

Görünür, onun sözləri Silviyanı fikirləşməyə məcbur eləyir ki, dərhal cavab vermir, səsində də yüngülcə gərginlik hiss olunur.

– Deks, – o, fasilədən sonra səsini qısıb deyir, – Deks, sən lap yaxşısan. Sadəcə, biz, hələ ki valideynliyi öyrənirik, vəssalam.

Dekster içini çəkir. Nə üçünsə o daha çox gözləyirmiş.

– Sən qayıt onların yanına.

– Hələlik.

– Səni sevirəm.

Telegram: @cinciva

– Mən də səni sevirəm.

Silviya telefonu qapadır.

Birdən otağa sakitlik çökür. Jasmin dizi üstə yatıb. Bir neçə dəqiqə oturub gicgahlarında qanın və şərabın axışını dinləyir. Onu basan tənhalıq xofunu özündən uzaqlaşdırıb ayağa qalxır, pişik balası kimi uyuyan uşağını üzünə yaxınlaşdırır. Onun süd kimi şirin qoxusunu içinə çəkir. Öz canı, qanı. Canı, qanı. Bu kəlmə çox əttökəndi, ancaq elə olur ki, Jasminin üzünə baxanda onda özünü görür və başa düşür ki, bu, həqiqətdi, ancaq inanmağı gəlmir. Yaxşı, ya da pis – o, mənim bir parçamdı. Ehtiyatla qızını yatağına qoyur.

Otaqdan çıxmaq istəyəndə bilmədən ayağını çaxmaqdaşı kimi sərt plastik bir donuzun üstünə basır, burnunun altında özünü söyür, işığı söndürüb çıxır.

Onun arvadı tərləmiş ovcunda telefon, Temzanın sahilindən on mil şərqə doğru, Vestminsterdə otel otağındakı çarpayıda lütüryan oturub sakitcə ağlamağa başlayır. Hamamdan su səsi gəlir. Silviya ağlarkən öz üzünü xoşlamadığından su səsi kəsilən kimi tələsik əlinin üstüylə gözünü qurulamağa başlayır və telefonu döşəməyə dağılmış paltarlarının üstünə atır.

– Bir şey olmayıb ki?

– Eh, bilirsən, bir az olub... Deyəsən, o, kefliydi.

– Əminəm ki, o, qaydasındadı.

– Yox, o, əməlli-başlı sərxoşuydu. Nəsə, qəribə danışırdı. Elə bilirəm, evə qayıtsam, yaxşı olar.

Kellum xələtinin yaxasını bağlayıb, Silviyaya yaxınlaşır, əyilib onun çılpaq çiynindən öpür.

– Sənə deyirəm, əminəm o, qaydasındadı. – Silviya dinmir. Kellum oturub yenidən onu öpür. Özünü ələ al. Birini də içirsən?

Telegram: @cinciva

– Yox!

– Uzanmaq istəmirsən?

– Yox, Kellum! – Onun əlini üstündən itələyir. – Sən Allah, əl çək məndən!

Kellum özünü pis danışmaqdan saxlamağa çalışır, sonra çevrilib qalxır, hamama dişlərini fırçalamağa gedir – gecəni şən keçirmək ümidi puça çıxıb. İçində elə bir hiss var ki, indi Silviya deyəcək: "Bu, doğru deyil, artıq belə davam eləmək olmaz, fakirləşirəm ki, mən hər şeyi ona danışmalıyam..." Və bu cür boş-boş sözlər. "Hərifə iş də verdim", – Kellum acıqla düşünür. Məgər bu, azdı ki?

Kellum ağzını yaxalayır, otağa qayıdıb çarpayıya sərilir. Missis Silviya Meyhyu beləcə çarpayıda oturub, pəncərədən Temza boyu sıralanıb gedən işıqları seyr edə-edə əri haqda düşünür, Kellumsa televizorun pultunu götürüb kabel televiziyasının dalğaları arasında vurnuxur.

Telegram: @cinciva

XV fəsil

Cin Siberq

2001-ci il, 15 iyul, Bazar

Belvill, Paris

Onun Vaterloodan yola çıxan qatarı Parisə iyulun 15-də, saat 15.55-də çatdı.

Emma Morli Şimal vağzalının çıxış qapısına gəlib, çiçəklərini bərk-bərk tutan həyəcanlı sevgililər, sinələrindən əllə yazılmış lövhələr asmış, tər içində gözləyən uniformalı sürücülərdən ibarət izdihama qarışmışdı. O da əlində "Dekster" yazılmış bir lövhə tutsa, çox gülməli olmazdımı? – Emma fikrindən keçirdi. Hələ üstəlik hərf səhvi də buraxsaydı... Bu, yəqin ki, onu güldürərdi, amma buna dəyərdimi? Hə, artıq qatar stansiyaya daxil olmuş, gözləyənlərin izdihamı isə basabas salaraq qapıya yaxınlaşmışdı. Fısıltıyla açılan qapıların önündə uzun bir boşluq vardı; sərnişinlər platformaya tökülüşdülər; Emma gələnlərin üzünü görmək üçün boylanan sevgililər, dostlar, ailələr və sürücülərlə birlikdə irəli doğru atıldı.

Emma üzünə bu duruma uyğun gələn təbəssüm verdi. Onu son dəfə görəndə xeyli şey danışmışdılar. Ötən dəfə görüşəndə vacib bir şey baş vermişdi.

Telegram: @cinciva

Dekster qatarın sonuncu vaqonunda oturub hamının düşməsini gözləyirdi. Çamadanı yoxdu, yanaşı oturacaqda özüylə götürdüyü bircə idman çantası vardı. Qarşısındakı masada adi kağız cildində bir qız üzü olan "Böyük Culi Kriskoll bütün dünyaya qarşı" adında kitab vardı.

Qatar Parisə daxil olanda o, artıq kitabı oxuyub bitirmişdi. Bu, onun uzun aylar içində oxuduğu ilk kitab idi; ancaq içində çoxlu şəkillər verilmiş bu kitabın on bir-on dörd yaşlı uşaqlar üçün yazılması Deksterin öz intellektual səviyyəsinə vurğunluğunu bir balaca zəiflətmişdi. Vaqonun boşalmasını gözlədiyi vaxt o, kitabı çevirib müəllifin arxa qapaqdakı ağ-qara şəklinə bir də baxdı, elə bil onu yaddaşına köçürmək istəyirdi. Əynində ucuz, qırışmış ağ köynək, taxta kətilin lap qırağında utana-utana, əli ağzında oturmuşdu; fotoqraf onun gülümsədiyi anı tutmuşdu. Bu ifadə və hərəkət Deskterə çox tanışıydı; gülümsünüb kitabı çantaya qoyandan sonra perrona enmək üçün çıxmağa başlayan sonuncu sərnişinlərə qoşulub çıxışa çatmasını gözlədi.

Son dəfə görüşdüklərində az şey danışmamışdılar. Vacib bir şey olmuşdu. Bəs Emma nə cavab verəcəkdi – "hə"mi, "yox"mu?

Emma tezliklə uzanması üçün yalvara-yalvara saçlarını dartışdırıb gözləyirdi. Parisə ayaq basdıqdan az sonra özündə cəsarət toplayıb, əlində lüğət saçlarını qısa kəsdirmək üçün bərbərxanaya – un coiffer – getmişdi. Dilinə gətirməyə utansa da, "Sonuncu aşiqlər" filmindəki Cin Siberqə oxşamaq istəyirdi – madam ki Parisdə yazıçı olmaq qərarına gəlmişdi, gərək hər şeyi yol-yolağıyla eləyəydi. İndi üç həftə sonra hər dəfə güzgüyə baxanda ağlamaq istəməsə də, elə bil parikini düzəltmək istərcəsinə əlləri özü-özündən başına uzanırdı. Özünü məcbur edərək bütün diqqətini bu gün Ryü de Qreneldəki bir dükandan, daha doğrusu, butikdən aldığı

Telegram: @cinciva

göyərçin göyü köynəyinin düymələrində cəmləşdirdi. İki düməsini açsan, çox ciddi, üçünü açanda isə çox açıq-saçıq görünəcəkdi. Üçüncü düyməni də açıb dilini şaqqıldatdı və yenidən sərnişinləri izləməyə başladı. Bu vaxt izdiham xeyli ərimişdi, Emma qatarı səhv salıb-salmadığını düşünürdü ki, onu gördü.

O, çox sınıxmışdı. Yanaqları sallanmış, üzündən yorğunluq yağırdı; üzü ona yaraşmayan səliqəsiz saqqalla kölgələnmiş caniyə bənzəyirdi; bu, özüylə bir uğursuzluq gətirməsi hissini yaratdı. Emmanı görəndə isə üzü işıqlandı, gülümsəyib addımlarını yeyinlətdi; Emma da gülümsədi, ancaq qapıda gözləyəndə utandığını hiss elədi; əllərini, gözlərini hara qoyacağını bilmədi. Aralarındakı məsafə az-azacıq deyildi – indi neynəsin, qosqoca əlli metri elə bu cür dayanmadan gülə-baxa, gülə-baxa getsinmi? Qırx beş metr. Yerə baxdı, dəmiryolu tirlərinin başınacan boylandı. Qırx metr. Yenidən Deksterə baxdı, sonra bir də yerə dikdi gözünü... Otuz metr...

Dekster uzun aranı başa vuranacan onu son dəfə gördüyü səkkiz həftədən bəri bu qədər dəyişdiyini görəndə gözlərinə inanmadı; hər şey baş verəndən iki ay ötmüşdü. Saçları qısaca kəsilmişdi; bir çəngə saçı alnını örtürdü, üzü yüngülcə gündən qaralmışdı; yadına düşdü ki, yay vaxtı üzü həmişə belə olardı. Geyimi də əvvəlkilərdən daha yaxşıydı: hündürdaban ayaqqabı, tünd rəngli şıq yubka, yaxasından bürüncü dərisi və sinəsində üçbucaq düzülüşlü xalları görünən, düymələri olduqca açılmış ölgün boz rəngli köynək. Emma hələ də əllərini hara qoyacağını, gözlərini hara dikəcəyini bilmirdi, elə o da çox inamsız görünürdü. On metr. Görəsən, Emmaya nə və necə deyəcəkdi? Hə, yoxsa yox?

Addımlarını daha da sürətlə atdı və qucaqlaşdılar.

– Qarşılamağa nə gərək vardı...

– Yox, qarşılamalıydım da. Turist.

Telegram: @cinciva

– Turist olmaq heç də pis deyil. – O, böyük barmağıyla Emmanın kəkilinə toxundu. – Buna nəsə deyirlər e, nəydi o?

– Lesbiyansayağı?

– Oğlanvarı. Oğlan uşağına oxşayırsan.

– Lesbiyansayağı deyil?

– Qətiyyən.

– Hələ sən məni iki həftə qabaq görəydin. Əsl skinheddim! – Deksterin üzü dəyişmədi. – Paris bərbərxanasına getmişdim. Dəhşət! *Ürəyimdə "Arretez-vous, Arretez-vous!"*[1] – deyə-deyə kresloya oturdum.

Qəribə bir seydi – Parisdə də hamı məzuniyyətlər haqda danışır. Mən də elə fikirləşirdim ki, burada camaat günlərlə müasir balet və ya insanın həqiqi daxili azadlığı haqda düşünür, demə, qətiyyən elə deyilmiş! *Que faites-vous de beau pour les vacances? Vous sortez en ville ce soir*[2]*?* – Deksterin üzü hələ də dəyişməmişdi. Emma, nəsə, həddən artıq danışıb özünü yorurdu. *Sakit ol. Bəsdi. Arretez-vous!*

Əlini Emmanın boynunun ardındaki saçlara toxundurdu:

– Məncə, sənə yaraşır.

– Deyəsən, üzüm buna uyğun deyil.

– Yox, əşi, üzün də uyğundu. – Çiynindən yapışıb Emmanı təpədən dırnağacan süzdü. – Elə bil bu gün geyim maskaradına gəlmiş Sofistik Parislisən.

– Ya da bir fahişə.

– Ancaq yüksək çaplı fahişə.

– Nə deyim, bu lap yaxşı. – Əlini Deksterin çənəsinə, qarmaqarışıq saqqalına toxundurdu. – Yaxşı, sən kimin kimi gəlibsən?

---

[1] (Fr.) Dayanın!

[2] (Fr.) Məzuniyyətinizin ecazkar keçməsi üçün neynirsiniz? Bu gecə gəzməyə çıxacaqsınızmı?

Telegram: @cinciva

– İntihar ərəfəsində olan boşanmış kişi kimi. – Axmaqca alınan cavabından dərhal peşman oldu. Perrona ayaq basdığı beş dəqiqə deyil, ancaq hər şeyi bərbad eləməyə vaxt tapıb.

– Ən azı, başqalarına xətər toxundurmazsan, – Emma ağlına gələn ilk fikri dedi.

– İstəyirsən, geri qayıdım?

– Sən belə asanca məndən canını qurtara bilməzsən. – Emma onun əlindən yapışdı. – Gedək?

Vağzaldan rütubət, boğucu havaya çıxdılar: Parisin tipik bir yaz günü; yağışın yağmağa məqam gözlədiyi bir havaydı.

– Fikirləşdim ki, kanalın sahilində kofe içməkdən başlayaq. Buradan on beş dəqiqəlik piyada yolumuz var, nə deyirsən? Sonra bir on beş dəqiqə də – demək, evdəyik. Düzü, sənə bildirməliyəm ki, mənzilimdə elə gözə dəyən bir şey yoxdu. Əgər sən xəyalında parket döşəməli, böyük pəncərəli, ya nəsə bunabənzər bir şey tutubsansa... deyil. Sadəcə, həyətə baxan iki otaq.

– Mansarddı?

– Dübbədüz.

– Qısası, yazıçı çardağı.

Emma ilk dəfə böyük ümidlərlə Parisə gələndə bu yolçuluğu xəyalında mənzərəli bir yol kimi canlandırmışdı – əlbəttə, Şimal-Şərqi Parisin tozu və tıxaclarıyla mümkün sayılacaq qədər. "Yazmaq üçün Parisə gəlirəm". O vaxt – apreldə bu fikir eybəcər şəkildə qeyri-adi və təmtəraqlı görünürdü. Ancaq həmişə ona bəxtinin gətirdiyini, istədiyi vaxt durub Parisə gedə biləcəyini deyən ər-arvad dostları o qədər canını boğazına yığdılar ki, axırda elə ağlına batdı da – niyə də getməyim Parisə? Onsuz da, London onun üçün hansısa bir uşaq bağçasına çevrilmişdi – elə isə, niyə də bir müddət başqalarının uşaqlarından uzaqlaşıb, bir macəra yaşamayaydı? Axı bu şəhər Sartrın, Simon de Bovuarın, Bekketin, Prustun şəhəriydi; indi o da ticari uğur baxımından da olsa, gənc-

Telegram: @cinciva

lik romanları yazarı olaraq buradaydı. Bu işi daha az dəbdəbəli görünməsinin bir yolu vardı – turizm Parisindən daha uzaqda, Belvill və Menilmontanın qovuşuğundakı 19-cu proletar dairəsində yerləşmək. Heç bir turizm cilvəsi olmayan, təbii gözəllikdən, az qala, məhrum bir yer...

– Əvəzində bu rayon çox canlıdı, ucuzluqdu, emiqrantlar qaynayıb-daşır və... – İlahi, o bircə bunu demədi: "Bu, tam başqa bir Parisdi".

– Cinayətkarlığın da səviyyəsi yüksək olar?

– Yox, sadəcə... nə bilim, başqa Parisdi də. Yoxsa mən tələbə kimi danışıram, hə? Otuz beş yaşım var, ancaq tələbə qızlar kimi ikiotaqlı daracıq bir mənzildə yaşayıram.

– Mənə isə elə gəlir ki, Paris elə sənin şəhərindi.

– Mənə də.

– Çox gözəl görünürsən.

– Ciddisən?

– Dəyişibsən.

– Yox, o qədər də yox.

– Yox, ciddi sözümdü. Sadəcə, çox gözəlsən.

Emma qaşqabağını sallayıb düz irəli baxdı; bir az da irəliləyib Şen-Marten kanalının daş pilləkənlərindən endilər; burada kiçik bar yerləşirdi.

– Amsterdama oxşayır bura, – Dekster stul çəkib əyləşəndə şirin bir səslə dedi.

– Əslində, bu Sena çayına bağlanan köhnə sənaye qoludu. – "İlahi, buyur, mən indi də turist bələdçiləri kimi danışıram!" – Kanal Respublika və Bastiliya meydanlarının altından axıb çaya tökülür. – "Sakitləş. O, köhnə dostundu, yadına düşmür? Sadəcə, köhnə dost".

Oturub bir az da suya tamaşa elədilər. Çox keçmədi, Emma bu qədər romantik yer seçdiyinə görə peşman oldu. Özünü çox bər-

Telegram: @cinciva

bad halda hiss eləyirdi – elə bil tanışlıq görüşündəydi. Danışmağa bir söz tapmaq üçün çalışırdı.

– Bəlkə şərab içək, ya da...

– Yaxşısı, lazım deyil. İçkini atmışam da demək olar.

– A... Ciddimi? Nə vaxtdan?

– Bir ay olar, haradasa. Ciddi bir şey deyil, ancaq çalışıram ki, yaxın durmayım. – Çiynini çəkdi. – Düzü, bundan heç vaxt xeyir tapmamışam. Ona görə də qorxusu yoxdu.

– Nə deyim, olsun. Onda qəhvə?

– Qəhvə əla olardı.

Ofisiant gəldi – uzun ayaqlı, gözəl, qarayanız qızdı, – ancaq Dekster başını belə qaldırmadı. Hə, o, ofisianta belə baxmırsa, deyəsən, işlər, gerçəkdən, yaxşı deyil, – Emma fikirləşdi. Özünü məğrurca çəkib, nəzərəçarpan məişət ləhcəsiylə sifariş verdi və sonra Deksterin qaşlarını qaldırdığını görüb utancaq-utancaq gülümsədi.

– Dərs alıram dildən.

– Başa düşdüm.

– Ancaq mənə elə gəlir ki, o, heç nə başa düşmədi. Baxarsan, indi bizə qızardılmış toyuq gətirəcək!

Emma susdu. Dekster böyük barmağının ucuyla metal masa üstünə tökülmüş şəkər qırıntılarını toplayırdı. Emma xatasız mövzulardan söz salmaqla Deksteri söhbətə çəkmək istədi:

– Axırıncı dəfə Parisdə nə vaxt olubsan?

– Üç il qabaqdı. Bura... məşhur "uzun uik-əndlərimizdən birində" arvadımla gəlmişdik. Dörd gün "Beşinci Georq"da qaldıq. – O, şəkər qırıntılarını kanala tulladı. – Deynən, o qədər pulu havaya sovurmaq sənə lazımıydımı...

Emma ağzını açıb-yumdu. Nə deyəydi ki. Artıq bir dəfə "Ən azı, başqalarına xətər toxundurmazsan" deyib zarafata salmışdı, daha bəsdi.

Telegram: @cinciva

Ancaq Dekster gözlərini qırpıb başını yellədi, sonra yüngülcə onun dirsəyinə toxundu:

– Bilirsənmi, bu bir neçə gün üçün nə məşğuliyyət fikirləşmişəm? Sən mənə görməli yerləri göstərəcəksən, mən də sənin quyruğuna düşüb gic-gic suallar verəcəyəm.

Emma da gülümsünüb onu dürtmələdi:

– Başına gələnlərdən və indi keçirdiklərindən sonra özünü belə hiss eləməyin təəccüblü deyil. – Ovcunu Deksterin əlinin üstünə qoydu. Bir an sonra Dekster onun əlini qapadı, sonra Emma, sonra isə bu hərəkəti sürətlə təkrarlamağa başladılar. Bu bir uşaq oyunu idi, ancaq bu uşaqlığın köməyilə onlar utancaqlıq və çəkingənlikdən qurtulmağa çalışırdılar. Emma elə naqolay vəziyyətdəydi ki, özünü tualetə istəyirmiş kimi göstərdi.

Balaca, üfunətli otaqda güzgüdə özünə baxdı, kəkilini uzatmaq istəyirmiş kimi dartdı. İçini çəkib özünə sakitləşmək əmri verdi. Haçansa baş vermiş o hadisə cəmi bircə dəfə baş vermişdi, böyük bir məsələ deyildi – Dekster vur-tut onun köhnə, çox köhnə dostuydu. İnandırıcı olsun deyə suyu çəkib isti və tutqun havaya çıxdı. Kitabı Deksterin qarşısındaydı. Emma əyləşib kitaba toxundu:

– Bu, haradan çıxdı?

– Vağzaldan aldım. Bir qalaq vardı bundan. Hara baxsan, sənin kitabını görərsən, Em.

– Oxuyubsanmı?

– Üçüncü səhifədən o yana gedəmmədim heç cür.

– Pah, çox gülməlidi.

– Emma, kitabın, sadəcə, qiyamətdi.

– Sadəcə, mənasız uşaq kitabından başqa bir şey deyil.

– Yox, ciddi sözümdü. Səninlə fəxr eləyirəm. Əlbəttə, mən otuz yaşlı qız deyiləm, ancaq təsəvvür eləməzsən nə qədər gülmüşəm. Bir nəfəsə bu başından girib o başından çıxdım. Sənə on beş

Telegram: @cinciva

il müddətində "Hovard-Vey"i heç cür bitirə bilməyən adam deyir bunu.

– "Hovards-Ənd" demək istəyirsən. "Hovard-Vey" tamam başqa seydi.

– Fərqi yoxdu. Bundan qabaq mən heç vaxt heç bir kitabı bir nəfəsə oxumamışdım.

– Hə də, çox iri şriftlərlə verilib.

– Yeri gəlmişkən, hər şeydən çox bu xoşuma gəldi. Bir də şəkillər. Şəkillər çox gülməlidi, Em. Heç bilməzdim ki, sən şəkil çəkə bilirsən.

– Sağ ol...

– Elə roman da çox maraqlı, gülməlidi. Sənlə çox fəxr eləyirəm, Em. Ümumiyyətlə... – o, cibindən qələm çıxartdı, – istəyirəm ki, mənimçün imzalayasan.

– Yaxşı, gicləmə.

– Yox, doğrudan. Sən ki... – Kitabı çevirib arxasında verilmiş parçanı oxudu: "Roald Daldan bu yana ən həyəcanverici uşaq yazarı".

– Naşirin doqquz yaşlı bacısı qızı belə dedi, – Emma vurğuladı. Dekster qələmlə onu dürtmələdi. – İmzalamayacam, Deks.

– Yaxşı da. İsrar eləyirəm. – O qalxıb özünü elə göstərdi ki, guya tualetə getmək istəyir. – Kitabı qoyuram burada, sənsə mən gəlincə bir şey yaz. Nəsə özündən yaz, bugünkü tarixi də qoy – bir də gördün, məşhurlaşdın, mənə də pul lazım oldu.

Dekster kiçik, üfunətli otaqda durub fikirləşirdi ki, nə qədər belə artistlik eləyəcək. Əvvəl-axır məqam yetişəcək ki, onlar danışmağa məcbur olacaqlar. İnandırıcılıq üçün suyu çəkdi, əlini yudu, yaş əllərilə saçını geri darayıb havaya çıxdı. Emma kitabı qapayırdı. Oxumaq istədi, ancaq Emma ovcuyla kitabın üzünü qapayıb:

– Lütfən, mən olmayanda, – dedi.

Telegram: @cinciva

Oturub kitabı çantasına qoydu, sonra isə məsələyə qayıdırmış kimi masaya əyildi.

– Hə-ə. Artıq soruşmağın vaxtı çatdı. İşlərin necə gedir?

– Fövqəladə! Boşanma sentyabrda, elə toyumuzun ildönümündə bitəcək. Evlilik cənnətində keçən iki il.

– Danışırsızmı?

– Nəsə vacib bir şey olanda. Artıq qışqır-bağır salmağı, birbirinə əlinə keçəni tullamağı tərgitdik. İndi ancaq "hə, yox, salam, sağ ol". Yeri gəlmişkən, elə evli olanda da bundan artıq danışmırdıq. Sən eşitdinmi, onlar Kellumun yanına köçdülər? Onun vaxtilə adlı-sanlı şam yeməklərinə çağırıldığımız Potters-Bardakı xarabaqalmış qəsrinə...

– Hə, eşitmişəm.

Dekster cəld başını qaldırdı:

– Kimdən? Kellumdan?

– Yox, əşi. Şey... tanışlardan.

– Mənə yazığı gələn tanışlardan...

– Yazığı gələn yox. Sadəcə, onlar sənincün narahatdılar. – Dekster nifrətlə burnunu salladı. – Adamların sənincün narahat olmasında pis bir şey yoxdu, Deks. Bəs sən Kellumla danışdın?

– Yox. Ancaq o təslim olmur. Heç nə olmamış kimi daim mənə zəng vurur, avtocavabda ismarıc saxlayır. "Nə isə, dost! Vaxt eləyəndə bizə bir zəng vur!" Təklif eləyir ki, çıxıb pivə içək, baş verənləri götür-qoy eləyək. Nə deyim, bəlkə də çıxdım. Əslində, o düz üç həftənin maaşını borcludu mənə.

– Hələ iş tapmayıbsan?

– Yox. Riçmonddakı bu lənətlik evimizlə mənim evimi kirayə veririk – bununla da, başımızı dolandırırıq. – O, qəhvəsinin son damlasını içib, gözlərini kanala dikdi. – Bilmirəm, Em. İl yarım qabaq mənim ailəm, işim vardı – təkcə iş yox, həm də ümidverici

Telegram: @cinciva

gələcək. Mənə hələ də iş təklif eləyirlər. Mikroavtobus, Surreydə balaca, şirin bir ev...

– Sənin ki ondan zəhlən gedirdi.

– Yox.

– Mikroavtobusa da nifrət elərdin.

– Hə, bax ona hə, ancaq o, özümündü də! İndi isə ayılıb görürəm ki, Kilburnda it damında toy hədiyyələrimin yarısıyla yaşayıram və... mənim bundan başqa heç nəyim qalmayıb. Bir mən, bir də bir yığın zibilə qalmış qazança. Həyatım alt-üst oldu.

– Bilirsən neynə?

– Nə?

– Bəlkə... – Emma dərindən nəfəs alıb onun əlindən tutdu. – Bəlkə Kellumdan xahiş eləyəsən ki, səni yenidən işə götürsün? – Dekster gözünü bərəldib, acıqla əlini çəkdi. – Yaxşı, yaxşı, zarafat elədim! – Emma gülməyə başladı.

– Nə deyim, sevinirəm ki, mənim ailəmin bədbəxtliyi səni belə əyləndirir, Em.

– Heç də əylənmirəm. Sadəcə, mənə elə gəlir ki, bu qədər faciələndirməyə dəyməz.

– Mən faciələndirmirəm, sadəcə, nə var, sənə onu danışıram.

– Həyatının sonudu yəni?

– Yəni elə-belə dedim... Bilmirəm. Sadəcə... – Dekster yenidən suya baxıb süni şəkildə ah çəkdi. – Cavan olanda mənə elə gəlirdi ki, mümkün olmayan şey yoxdu həyatda. İndi isə elə bil mən heç nə bacarmıram.

Əslində, ayrı cür olsa da, Emma: "Ancaq həyatda hər şey elə də pis deyil", – dedi.

– Səncə, burada nəsə yaxşı bir şey də var? Arvadının ən yaxşı dostunla getməsinə nə deyirsən?

– Əslində, Kellum heç sənin həqiqi dostun deyildi. Neçə il küsülü qaldığınız yadından çıxıb? Mənim demək istədiyim, sadə-

Telegram: @cinciva

cə... Birincisi, sən Kelburnda it damında yox, Vest Hempsteddə kifayət qədər normal iki otaqlı mənzildə yaşayırsan. Bəli, şəxsən mən belə bir evdə yaşamaq üçün canımı da verərdim. Həm də ki bu, sənin köhnə mənzilin boşalana qədərdi də, həmişəlik deyil ki.

– Ancaq nəzərə al ki, iki həftə sonra mənim otuz yeddi yaşım tamam olur! Artıq mənim haqqımda rahatca "yaşlanıb" demək olar!

– Otuz yeddi yaşlılar üçün belə deyirlər: otuz yaşlarındadı! Qırx yaşın yoxdu ki hələ. İndi işsiz olsan da, kiminsə əlinə də baxmırsan, düzmü? Öz aramızdı, bəxtin gətirib ki, mənzilinin kirayəsindən əlinə bir şey gəlir. Bundan başqa da, çoxu mənsəbini yaşının ahıl çağında dəyişmək qərarına gəlir. Düzdü, bir az ruhdan düşübsən, ancaq bu kimin başına gəlmir ki; həm də, Deks, sən elə nikahlanandan bəri xoşbəxt deyildin də. Bunu həmişə eşitdiyimə görə bilirəm! "Biz heç vaxt ürəkdən söhbətləşmirik, gülmürük, elə hey evdə otururuq..." Bilirəm ki, sənə çətindi, ancaq vaxt keçəcək, sən bütün bunları hər şeyi yenidən başlamaq şansı kimi qəbul eləyəcəksən! Sıfırdan. İstədiyin işlə məşğul ola bilərsən, sadəcə, qərar qəbul eləməlisən...

– Məsələn?

– Bilmirəm... məsələn, media, hə? Özünü yenidən aparıcı kimi sınamaq? – Dekster ah çəkdi. – Ya da nəsə kadrarxası bir iş – deyək ki, prodüserlik, rejissorluq-filan, olmaz? – Dekster alnını qırışdırdı. – Ya da... ya da fotoqraf! Sən elə özün deyirdin ki, əvvəllər fotoqraf olmaq istəyirmişsən. Ya da, nə bilim, nəsə, yeməklərlə bağlı bir iş qur – məncə, bacarardın da. Heç nədən kar aşmasa belə, sənin həmişə ardınca düşə biləcəyin 2,2-lik antropologiya üzrə diplomun var! İnsanların hər zaman antropoloqlara ehtiyacı var. – Emma xeyirxahlıqla əlini onun ovcuna vurdu. – Dekster gülümsündü, ancaq tez də yadına düşdü ki, gülməməliydi. – Sən otuz yaşlarında, sağlam, bacarıqlı, kimsədən maddi asılılığı olmayan,

Telegram: @cinciva

olduqca cəlbedici cavan atasan. Sən... yaxşı adamsan, Deks. Sadəcə, öz gücünə inamını qaytarmalısan.

O, içini çəkib yenidən kanala baxdı:

– Bu söhbəti məni ruhlandırmaq üçün elədin?

– Hə. Təsiri oldu?

– Hələ də özümü kanala atmaq istəyirəm.

– Onda bəlkə də davam etməliyik? – Emma pulu masaya qoydu. – Buradan mənim eviməcən iyirmi dəqiqəlik yolumuz var. Piyada da gedə bilərik, taksiylə də. – O qalxmağa başladı, Dekstersə yerindən tərpənənə oxşamırdı.

– Hər şeydən pisi də Jasmin üçün darıxmağımdı. – Emma yenidən oturdu. – Fikirləşəndə ki, yaxşı ata ola bilməmişəm, dəli olmağa qalıram.

– Yaxşı da...

– Beləsi də, Em... məndən bivec ata ola bilməzdi. Mənə pis gəlirdi, orada olmaq istəmirdim. Silviyayla mən ideal ailə donunda özümüzü göstərdiyimiz bütün vaxtda bircə onu fikirləşirdim ki, yanlış yoldasan, qardaş, bu, sənin işin deyil. Düşünürdüm ki, İlahi, necə də adam kimi doyunca yatmaq, istirahət günləri, ya eləcə ürəyim istəyəndə evdən gedib gecənin gec vaxtınacan əylənmək istəyirəm! Azad olmaq, bütün məsuliyyəti çiynimdən atmaq istəyirdim. Buyur, indi arzuma çatmışam, qazandığım da bircə evdə zir-zibil arasında oturub qızım üçün darıxmaqdı.

– Görüşürsüz axı.

– İki həftədə bircə dəfə, bir gecəlik.

– Anasından xahiş eləyib onunla daha çox, həm də tez-tez görüşə bilərsən...

– İstəyərəm də! Ancaq sən anası onu mənimlə qoyub gedəndə gözlərindəki dəhşəti bir görəydin – elə bil gözləri dil açıb deyir: "Məni bu yasa batmış dayıyla qoyub getmə!" Ona bir dünya hədiyyə alıram; heç yaxşı iş deyil; hər dəfə Yeni il gününün sabahı

Telegram: @cinciva

kimi bir yığın hədiyyə olur, çünki bu da olmasa, onunla neynəyəcəyimi bilmirəm. Hədiyyələri açmasaq, ağlaya-ağlaya anasını çağırmağa başlayır – ona nə hədiyyə alacağımı belə bilmirəm. Çünki o, hər görüşümüzdə bambaşqa bir adam olur. Belə baxanda, bir həftə, on gün keçib, ancaq o elə dəyişir ki! O artıq yeriməyə başlayıb, ancaq onun ilk addımı necə atdığını da görməmişəm. Belə şey olarmı? Mən necə bunu gözdən qaçıra bildim? Axı bu, mənim işim idi. Yanlış bir şey də eləmədim, birdən-birə baş verdi hər şey... – Bir an Deksterin səsi titrədi, tez də tonunu dəyişib acıqla davam elədi: – Ancaq bu düdəmə Kellum özünün batmış Potters-Bardakı gözəl malikanəsində onlarla istədiyi qədər vaxt keçirə bilər...

Amma acığının şiddəti səsindəki titrəyişi ört-basdır eləyəmmirdi. Dekster qəfildən susub, elə bil asqırığının qarşısını kəsmək istəyirmiş kimi ovcunu burnunun qarşısına tutub, gözlərini geniş açdı.

– Nə oldu? – Emma soruşub əlini onun dizinə qoydu.

O, başını yellədi:

– Hər həftəsonu belə olmayacağam, söz verirəm.

– Etiraz eləmirəm.

– Mənsə etiraz eləyirəm. Bu, aşağılayıcı bir seydi. – Dekster qəfildən qalxıb çantasını götürdü. – Xahiş eləyirəm, Em. Gəl başqa şeydən danışaq. Nəsə danış. Özün haqda.

Onlar kanal boyu addımladılar, Respublika meydanından keçib şərqə – Ryu Fabur-sen-Deni tərəfə döndülər. Emma kitabı haqda danışırdı:

– İkinci kitab birincinin davamıdı. Görürsən də, təxəyyülüm bu qədər zəngindi! Artıq dörddə üçü hazırdı. Culi Kriskoll Parisə ekskursiya turuna gedir,bir fransız oğlana vurulur və onu sonsuz macəralar gözləyir – sürprizlər, sürprizlər! Bu, mənim Parisdə olmamın bəhanəsidi. "Mövzuyla bağlı araşdırmalar".

Telegram: @cinciva

– Bəs birinci hissə yaxşı satılırmı?

– Elə deyirlər. Ən azı, mənə iki kitabın pulunu qabaqcadan ödəyiblər.

– Doğrudan? İkisi də əvvəlkilərin ardıdı?

– Heyif ki, hə. Deyirlər ki, "Culi Kriskoll" – brenddi. Görünür, pulu da buna görə veriblər. Öz brendinin olmağı yaxşıdı! Üstəlik telekanallarla da danışıqlar gedir. Onlar, nəsə, proqram hazırlamaq istəyirlər. Mənim illüstrasiyalarım əsasında animasiya uşaq şousu.

– Ciddi sözündü?

– Özümün də inanmağım gəlmir. Absurddu, hə? Bir düşün, mən televiziyada çalışıram! Prodüser yardımçısı!

– İndi bu, nə deməkdi?

– Əslində, heç nə. Yəni vecimə deyil. Bu işi çox bəyənirəm! Ancaq deyim ki, bir gün böyüklərçün də kitab yazmaq istərdim. İnsan ruhunu ortaya çıxaran, zamana bağlı olmayan, azman bir roman; yoxsa ki fransız oğlanlarla diskolarda öpüşmək haqda bir sürü cəfəngiyat...

– Axı sənin kitabın başdan-ayağa təkcə bu mövzuda deyil.

– Ola bilər. Bəlkə elə həmişə belə olur: sən ədəbiyyatın yardımıyla dünyanı dəyişmək istəyirsən, ancaq bir gün anlayırsan ki, yox, bir-iki yaxşı zarafat da yetərmiş. Heç sözdü, məni eşidin, mən incəsənət xadimiyəm?!

Dekster dostca onun dirsəyinə toxundu.

– Nədi?

– Heç, sadəcə, sənə görə çox sevinirəm. – Dekster onu qucaqlayıb çiyinlərini sıxdı. – Yazıçı, əməlli-başlı yazıçısan. Axır ki, ürəyindən keçən işlə məşğulsan.

Beləcə, qol-qola bir az sıxıntı və naqolaylıqla addımladılar; Deksterin çantası ayaqlarına çırpılırdı. Axır ki, çox narahat olan bu durumdan Dekster sıxıldı və qolunu onun qolundan çəkdi.

Telegram: @cinciva

Səsli-küylü, qələbəlik Belvil bulvarından keçib 19-cu və 20-ci dairələr boyunca şərqə doğru irəlilədilər. Təpəni qalxarkən Emma sevdiyi barları göstərdi, rayonun keçmişindən danışdı, Piaf və 1871-ci il Paris Kommunası, yerli Çin və Şimali Afrika diasporları haqda danışanda Dekster bir qulağıyla dinləyə-dinləyə fikirləşirdi ki, nəhayət, onun mənzilinə çatandan sonra nə baş verəcək. "Qulaq as, Emma, baş verənlər haqqında..."

– Nə isə, bura elə bil bizim Parisdəki Heknimizdi, – Emma sözünü bitirdi.

Dekster Emmanı qıcıqlandıran gülüşüylə gülümsədi. Emma yavaşca onun böyrünə vurdu:

– Gülməli nə var?!.

– Ancaq Parisə gəlib Henkiyə oxşayan rayonda sən yuva sala bilərdin.

– Məncə, bura maraqlı yerdi.

Sonunda kiçik bir döngəni burulub qaraj qapısına bənzəyən bir qapının qarşısında dayandılar. Emma kodu yığıb ağır qapını çiyniylə itələyib açdı. Onlar bütün mənzillərin pəncərələrinin baxdığı qarmaqarışıq və çirkli bir həyətə girdilər. Paslı balkonlarda asılı mələfələr; tozlu dibçəklərdə qürub günəşinin altında təravətini itirən güllər... Həyətdə televizorların səsi bir-birinə qarışmışdı, uşaqlar tennis topuyla futbol oynayırdılar; Dekster yüngülcə əsəbiləşdiyini hiss elədi. Gələcəkləri bu yeri fikrində canlandırarkən ağacların kölgə saldığı bir sahə, panjurlu pəncərələr, hətta bir Notr-Dam mənzərəsi kimi xəyalında tutmuşdu. Əlbəttə, bura da yetərincə yaxşı bir yerdi, hətta bir az daha artıq romantikliyi olsaydı, onda, nəsə, urbanistik şıqlığının olduğunu da söyləmək olardı.

– Bax, dediyim kimi, elə də görməli bir yer deyil... Qorxuram ki, hələ beşinci mərtəbəyə də qalxmalı olacağıq.

Emma vaxtla qurulan işığı yandırdı, burula-burula qalxan pilləkənlərdən çıxmağa başladılar. Emma birdən arxasının düz

Telegram: @cinciva

Deksterin gözünün önündə olduğunu hiss edib acıqlı şəkildə ətəyinin arxasında olmayan qırışıqları düzəltməyə başladı. Üçüncü mərtəbəyə çatanda işıq söndü və bir neçə an qaranlıqda qaldılar. Emma arxaya dönüb əl havasına Deksterin əlini tapdı, öz mənzilinin qapısına çatanacan onun qalxmasına yardımçı oldu. Qapının üstündəki nəfəslikdən düşən tutqun işıqda bir-birinin üzünə gülümsədilər.

– Axır ki, çatdıq. *Chez Moi!*[1]

Çantasından bir topa açar çıxarıb mürəkkəb kilid sistemini açmağa başladı. Bir azdan qapı aşınmış boz rəngli döşəməsi, torba kimi sallanmış böyük bir divanı, kiçik yazı masası olan, bununla belə, xoş təəssürat yaradan bir mənzilə açıldı. Divarlardakı rəflər ciddi görünüşlü, sarımtıl cildli fransızca kitablarla doluydu. Mətbəx masasının üstündə tər güllər və meyvə qoyulmuşdu, başqa bir qapıdansa yataq otağının bir hissəsi görünürdü. Onlar hələ Deksterin harada yatacağını götür-qoy eləməmişdilər, ancaq o, mənzildə cəmi bir döymə dəmirli qədimi çarpayı olduğunu görə bilmişdi. Bir yataq otağı, bircə çarpayı. Pəncərədən axşam günəşinin ziyası düşüb diqqəti bu gerçəkliyin üstünə çəkirdi. Dekster açılıb-bağlanan olub-olmadığını kəsdirmək üçün divana göz yetirdi. Yox. Təkadamlıqdı. Ürəyi şiddətlə döyünməyə başladı; bəlkə də pilləkənləri qalxmaqdandı.

Emma qapını bağlayandan sonra otağa sakitlik çökdü.

– Bəli, gəlib çatdıq evə!

– Əntiqə yerdi.

– Yaşamaq olar. Mətbəx oradadı.

Həyəcandan, pillələri qalxmaqdan Emmanın boğazı qurumuşdu; soyuducunu açıb qazlı su şüşəsini çıxardı. Emma suyu iri udumlarla içməyə başlayanda Dekster birdən əlini onun çiyninə

[1] (Fr.) Bu da mənim evim.

Telegram: @cinciva

qoydu, sonra necəsə qənşərinə keçdi və... artıq onu öpürdü. Ağzı qazlı suyla doluydu deyə dodaqlarını sıxırdı ki, su dolu sifon kimi Deksterin üzünə püskürməsin. Geri çəkilib şar kimi şişmiş yanaqlarını göstərib mızıldaya-mızıldaya şəhadət barmağını "bir saniyə gözlə" mənasında aşağı-yuxarı tərpətdi.

Dekster əsl centlmen kimi bir addım arxaya durub Emmaya udqunmasına imkan yaratdı:

– Bağışla.

– Eybi yox. Sadəcə, gözlənilməz oldu. – Ağzını əlinin üstüylə sildi.

– İndi hər şey qaydasındadımı?

– Hə, ancaq, Dekster, sənə bəzi sözlər deməliyəm...

Ancaq yenidən yöndəmsiz şəkildə sıxışdırılıb öpülürdü; Dekster o qədər sıxışdırmışdı ki, Emma mətbəx masasına söykənməli oldu, masa bərk cırıltıyla sürüşdü, buna görə də çevrilib döşəməyə düşməkdə olan güldanı tutmalı oldu.

– Ayy!

– İş ondadı ki, Deks...

– Bağışla, mən, sadəcə...

– İş ondadı ki...

– Mənə bir az çətindi...

– İş ondadı ki, mən burada bir adamla tanış olmuşam.

Dekster bir addım geri çəkildi.

– Demək, bir adamla tanış olubsan.

– Bir kişiylə. Daha doğrusu, oğlanla. Bir oğlanla görüşürəm.

– Oğlanla. Hm. Aydındı. Yaxşı, kimdi o?

– Adı Jan-Pyer Düsolyedi.

– Fransızdı?

– Yox, Deks, uelslidi!

– Yox, bir az təəccübləndim, sadəcə, vəssalam.

Telegram: @cinciva

– Onun fransız olmasına təəccübləndin, ya mənim kiminləsə görüşməyimə?

– Yox, sadəcə... çox ani oldu, elə deyil? Axı cəmi iki həftədi, gəlibsən bura. Heç olmasa, şeylərini yerbəyer eləyib tapdın onu, yoxsa dərhal?..

– İki aydı, Deks! Mən artıq iki aydı ki, buradayam, Jan Pyerləsə bir ay qabaq tanış olmuşuq!

– Harada?

– Buradan bir az aralıda balaca bistro var, orada.

– Balaca bistro. Aydındı. Bəs necə?

– Necə yəni necə?

– Onunla necə tanış olubsan?

– Deyim də – deməli, mən kitab oxuya-oxuya təkcə şam eləyirdim, o isə dostlarıylaydı, soruşdu ki, nə oxuyuram... – Dekster bir həvəskarın işinə nəzər yetirən usta kimi başını yellədi. Emma ona qulaq asmadan salona keçəndə: – Nə isə, bir az danışdıq da yenə...

– Fransızca danışırdız? – Dekster onun arxasınca dedi.

– Hə, fransızca, özü də çox yaxşı dil tapdıq, indi isə... görüşürük! – Divana əyləşdi. – Belə. İndi hər şeydən xəbərin oldu!

– Aydındı. Başa düşdüm. – O, mısmırığını sallamaqla eyni anda gülümsəməyə çalışaraq qaşlarını qaldırıb-endirdi, üzünün ifadəsi bu ikiliyin arasında dəyişdi. – Lap yaxşı, sənə görə sevindim, Em, bu çox əntiqə xəbərdi.

– Tənha, qarımış bir qadın kimi qayğıma qalmağına gərək yoxdu, Dekster.

– Qayğına qalmıram! – Dekster özünü elə göstərdi ki, guya vecinə deyil; pəncərəyə yanaşıb həyətə baxdı. – Hə, sənin bu Janın necə oğlandı?

– Jan Pyer. Özü də çox sevimlidi. Yaraşıqlıdı, cazibəlidi. Əla bişirib-düşürməyi var, mətbəxlə bağlı, şərab, incəsənət, memarlıqla bağlı hər şeyi bilir. Bilirsən, sadəcə... əsl, əsl fransızdı.

Telegram: @cinciva

– Çox qanmaz olduğunu demək istəyirsən?

– Yox...

– İyrəncdi?

– Dekster!

– Hara getdi, yanında baton götürüb velosipedlə gəzir, yəqin...

– İlahi. Bəzən sən nə qədər dözülməz olursan...

– Bəs, səncə, "əsl fransız" ifadəsi nə deməkdi?

– Necə deyim e sənə – o, öz tərzi olan, təmkinli və...

– ...seksidi?

– Mən belə bir şey demədim.

– Hə, ancaq çox seksi olubsan; saçlarınla oynaman, köynəyinin düymələri açıq...

– Çox axmaq sözdü bu "seksi".

– Amma çox sevişirsiz, hə?

– Dekster, niyə sən özünü belə əməlli-başlı...

– Sən bir özünə bax – işıq saçırsan, hətta tərlədin də bir az.

– Özünü belə aparmağa məcbur deyilsən... niyə özünü bu cür aparırsan?

– Necə?

– Belə... acıqlı, elə bil mən nəyisə düz eləməmişəm!

– Qətiyyən acıqlı deyiləm, sadəcə, fikirləşdim ki... – Dekster dayandı, alnını pəncərəyə söykəyib küçəyə baxdı. – Heyif ki, bunu indi bildim. Yoxsa mehmanxanaya düşərdim.

– Yenə də burada qala bilərsən! Mənsə bu gün Jan Pyerlə yataram. – Emma Deksterin üzü küçəyə sarı olsa da, arxadan onun necə diksindiyini hiss elədi. – Daha doğrusu... Jan Pyerin yanında gecələrəm. – Divanın üstündə önə əyilib çənəsini əllərinin arasına aldı. – Bəs sən nə olacağını zənn eləmişdin, Dekster?

– Bilmirəm, – o, üzü pəncərəyə dedi. – Ancaq bu, ağlıma gəlməmişdi.

– Üzgünəm.

Telegram: @cinciva

– Em, səncə, mən niyə sənin yanına gəlmişəm?

– Dincəlməyə. Fikrini yayındırmağa. Köhnə dostunla görüşməyə.

– Gəlmişdim ki, sənə baş verənləri danışım. Özümüz haqda, yəni, axır ki, bir yerdə ola bilərik, – o, dırnaqlarıyla pəncərənin boyasını qopararaq dedi. – Mənə elə gəlmişdi ki, bu, sənincün də mənim qədər ciddidi. Vəssalam.

– Dekster, biz bircə dəfə yatmışıq sənlə.

– Üç dəfə!

– Mən neçə kərə boşalmaqdan danışmıram, Deks, mən hadisə sayılacaq gecədən danışıram. Biz cəmi bircə gecə birgə olmuşuq.

– Mənə elə gəlmişdi, bu gecə nəyə desən dəyər! Sən isə elə bunun ardıyca dərhal baş götürüb Parisə qaçırsan və özünü qarşına çıxan ilk fransızın altına salırsan...

– Mən Parisə qaçmamışam, biletimi çoxdan saxlatdırmışdım! Sən nəyə görə həyatda baş verən bütün hadisələrin sənə görə olduğunu zənn eləyirsən axı?

– Məgər sən mənə zəng vura bilməzdinmi uçmazdan qa....

– Səndən icazə almalıydım?

– Yox, mənim nələr hiss etdiyimi bilmək üçün!

– Dayan, dayan... sən ona acıqlanırsan ki, biz hisslərimiz haqda danışmamışıq? Mən səni gözləməmişəm deyə acıqlanırsan, hə?

– Bilmirəm, – mızıldandı, – ola bilər!

– İlahi, Dekster, yoxsa sən... məni qısqanırsan?

– Elə şey yoxdu!

– Onda nədən inciyibsən?

– Heç nədən inciməmişəm.

– Yaxşı, onda üzümə bax!

Dekster qollarını sinəsində çarpazlayıb, incik üzüylə ona sarı çevriləndə Emma gülməyini saxlayammadı.

Telegram: @cinciva

– Nədi ki? Nə? – acıqla soruşdu.

– Deks, özün bilirsən ki, bu, necə məzəlidi.

– Burada məzəli nə var?

– Qəfildən heç nədən dönüb qocafəndi və monoqam tərəfdarı olursan.

Dekster heç nə demədən yenidən pəncərəyə tərəf çevrildi. Emma onu sakitləşdirməyə çalışdı:

– Qulaq as, onda biz ikimiz də sərxoşduq...

– Mən elə də sərxoş deyildim...

– Sən ayağında çəkmə ola-ola şalvarını sivirmişdin, Deks! – Hələ də arxası Emmayaydı. – Çəkil də bu pəncərənin ağzından. Gəl otur burada.

Yalın ayaqlarını divana tərəf uzadıb qıçlarını altına yığdı. Dekster alnını bir neçə dəfə pəncərənin şüşəsinə çırpdı, sonra çevrildi, Emmanın üzünə baxmadan, eynən dərsdən qovulub valideyninin üstünə göndərilən uşaq kimi otaq boyu addımlayaraq gəlib divanda onunla yanaşı oturdu. Emma ayaq barmaqlarını onun qıçlarına sarı uzadıb yüngülcə toxundurdu:

– Demək, sən bu haqda danışmaq istəyirsən? Yaxşı, nə deyirəm, danışaq.

Dekster dinmədi. Emma yavaşca ayağıyla onu itələyib, axır ki, baxışlarını özünə tərəf çəkə biləndə dedi:

– Yaxşı. Mən birinci danışaram. – Dərindən nəfəs aldı. – Mənə elə gəlir ki, sən onda məni görməyə gələndə çox dalğın, bir az da sərxoşdun, sonra da... olan oldu. İndi isə düşünürəm ki, Silviyadan ayrıldığına görə, onların köçdüyünə, Jasmini görə bilmədiyinə görə özünü çox bədbəxt hiss eləyirsən, başını çiyninə qoyub danışa biləcəyin birinə ehtiyacın var. Ya da kiminləsə yatmağa. Bu vaxt əlinin altında məni gördün. Mənsə həm də yata biləcəyin o çiyinəm indi.

– Deməli, sən belə düşünürsən?

Telegram: @cinciva

– Zənnimcə, hə.

– Və sadəcə, mənə yaxşı olsun deyə də mənimlə yatdın?

– Yaxşı oldumu bəs?

– Deyim ki, xeyli.

– Hə, mənə də. Gördüyün kimi işə yaradı.

– Ancaq iş bunda deyil.

– Adamların bir yastığa baş qoymalarının daha pis səbəbləri də var. Bilməmiş olmazsan.

– Ancaq rəhmdillikdən doğan seks?..

– Yazığı gəlmək deyil, dərdinə şərik olmaqdı, sevgiydi.

– Em, məzələnmə də.

– Məzələnmirəm, sadəcə... özün də çox yaxşı bilirsən ki, iş yazığı gəlməkdə deyil. Ancaq... məsələ daha qəlizdi. Bizim əlaqələri deyirəm. Gəl bura.

Emma yenidən ayağıyla Deksteri dürtmələdi, bir az keçəndən sonra o bir ağac kimi əyilib başını Emmanın çiyninə qoydu.

– Biz lap çoxdan tanıyırıq bir-birimizi, Deks, – o ah çəkərək dilləndi.

– Bilirəm. Sadəcə, fikirləşirdim ki, bu elə də pis ideya deyil. Deks və Em, Em və Deks – bu göy altında yalnız ikimiz. Sadəcə, yoxlayaq, görək bir şey alınırmı? Mənə elə gəlmişdi ki, sən də istəyirsən bunu.

– İstəyirəm. Yəni istəyirdim. Səksəninci illərin sonunda.

– Bəs indi niyə yox?

– Ona görə. Gecdi artıq. Bizimçün çox gecdi. Çox yorulmuşam.

– Sən həmişə otuz beş yaşındasan!

– Sadəcə, mənə elə gəlir ki, bizim zamanımız keçib, – Emma dedi.

– Bircə dəfə də sınamadığımız şeyi haradan bilirsən?

– Dektser, mənim görüşdüyüm var!

Telegram: @cinciva

Bir ara uşaqların həyətdən gələn səs-küyünü, kiminsə televizorunun səsini dinləyib sakitcə oturdular.

– Bəs xoşun gəlirmi o adamdan?

– Əlbəttə. Çox, çox xoşuma gəlir.

Dekster əlini aşağı salıb, onun gəzintidən sonra hələ də tozlu olan ayağını ovcuna aldı.

– Mən lap vaxtsız gəlmişəm, hə?

– Bir az hə.

Əlində tutduğu ayağa diqqətlə baxdı. Qırmızı boyanmış dırnaqlarının lakı adda-budda soyulmuşdu, çeçələ barmağıysa əyridi, daha doğrusu, demək olar ki, yox idi.

– Dırnaqların iyrəncdi.

– Bilirəm.

– Çeçələ barmağın balaca qarğıdalı dənəsinə oxşayır.

– Elə isə, əl çək dırnaqlarımdan.

– Bəs həmin gecə, – böyük barmağını Emmanın dabanına basdı, – həqiqətən, elə dəhşətiydi ki?

Emma o biri ayağıyla onun böyrünə bərk bir təpik ilişdirdi:

– Məni ələ almağa çalışma, Dekster.

– Yox, zarafatsız. De.

– Yox, Dekster, elə də dəhşətli gecə deyildi; hətta həyatımın ən unudulmaz gecələrindən biriydi. Ancaq əvvəlki kimi belə hesab eləyirəm ki, onunla da kifayətlənməliyik. – Ayaqlarını divandan salladı, qıçları bir-birinə toxunanadək Deksterə yaxınlaşdı, onun qolundan tutub başını çiyninə qoydu. İkisi də düz qarşıdakı kitab rəfinə sarı baxırdı. Nəhayət, Emma ah çəkib soruşdu: – Niyə bütün bunları mənə, deyək ki, səkkiz il qabaq demirdin?

– Özüm də bilmirəm. Əylənməkdən başım ayılmırdı, yəqin, ona görə.

Emma başını qaldırıb yandan ona baxdı:

– Əyləncələrin qurtaranda isə fikirləşdin ki, qoca Emmaya baş vurum, görüm hələ nə olur?

Telegram: @cinciva

– Qətiyyən belə demək istəmirdim...

– Mən təsəlli mükafatı deyiləm, Deks. Sənin lövbər atacağın ada da deyiləm. Dəyərimin bundan qat-qat artıq olduğunu düşünürəm.

– Hə, gerçəkdən, bundan çox dəyərlisən də. Buna görə də gəlmişəm elə. Sən, sadəcə, bir möcüzəsən, Em!

Emma bir an donub qaldı, sonra güllə kimi atılıb yastığı götürdü, Deksterin başına tullayıb, yataq otağına tərəf gedərkən:

– Mumla, Deks!

O, Emmanın əlindən yapışmağa çalışsa da, ancaq Emma onun əlindən sivişib çıxdı.

– Hara gedisən? – arxasınca qışqırdı.

– Hamamlanıb əynimi dəyişəcəm. Bütün gecəni belə oturan deyiləm ki! – Emma hirslə dolabdan paltar çıxarıb çarpayının üstünə tullayaraq yan otaqdan cavab verdi. – Üstəlik də o, iyirmi dəqiqə sonra burada olacaq!

– Kim?

– Səncə, kim olar? Mənim yeni sevgilim!

– Jan Pyer bura gələcək?

– Hə də. Səkkizdə. – Köynəyinin düymələrini açmağa başladı, sonra dayandı, sonra köynəyini başından sivirib çıxararaq hirslə döşəməyə çırpdı. – Şam eləmək üçün birlikdə çıxacağıq! Üçlükdə!

Dekster kürəyini divana söykəyib gileyləndi

– Aman, yarəbbim. Bu, çoxmu vacibdi?

– Əfsus ki, hə. Biz qabaqcadan onunla hər şeyi götür-qoy eləmişik. – Emma belə bir vəziyyətə düşdüyünə görə özünə acıqlanaraq otaqda çıl-çılpaq dayanmışdı. – Biz səni tanış olduğumuz həmin o restorana aparacağıq! O məşhur bistroya! Həməncə stolda oturub sənə təfsilatları danışacağıq! Bu çox, çox romantik olacaq. – O, gurultuyla hamamın qapısını çırpıb içəridən qışqırdı: – Heç kim də qətiyyən qaşqabağını sallamasın!

Telegram: @cinciva

Su şırıltısını eşidən Dekster divana uzanıb, gözlərini tavana dikdi və bu səfərinin mənasızlığını düşünməyə başladı. Cavabı hazırıydı, fikirləşirdi ki, Emmaya onların bir-biri üçün xilaskar ola biləcəyini deyəcəkdi, deməyəsən, artıq xeyli vaxtmış ki, Emmanın işləri heç də pis getmirmiş. Xilas eləməli biri varsa da, o elə Deksterin özüymüş.

Bəlkə Emma onun özünü tənha hiss elədiyini deyəndə elə haqlıymış. Emma duşu açanda köhnə borularda su gurultuyla axdı. Yenə də bu qorxunc, alçaldıcı vəziyyət – tənhalıq. Hər şeydən pis də budur ki, o, bunun həqiqət olduğunu bilir. Ömründə düşünməzdi ki, haçansa tənha olacaq. Özünün otuzuncu doğum günündə Ricent-stritdə gecə klubunu bağlatdırmışdı; adamlar içəri keçmək üçün küçədə növbəyə durmuşdular! İndi cibində olan həmin o telefonun yaddaşında on illər boyunca tanış olduğu yüzlərcə adamın nömrəsi vardı, ancaq sonda məlum oldu ki, bu an yanaşı otaqda olan bu Emma, onun bütün bu zaman içində ürək açmaq istədiyi tək adammış.

Görəsən, bu, doğruydumu? O, təkrar-təkrar öz qərarı haqda düşünüb, niyyətinin gerçəkliyinə əmin olandan sonra ona bütün bunları etiraf eləmək üçün qəfildən sərt hərəkətlə ayağa qalxdı. Yataq otağının qapısına çatanda birdən dayandı.

Emmanı qapının arasından görürdü. 1950-ci illərdən qalma kiçik bir tualet stolunda oturmuşdu. Saçları yaşdı, əynində kürəyi qurşağınacan açıq köhnə dəbli qara, dizə qədər ipək paltar vardı; beli o qədər açıqdı ki, kürəklərinin altındakı kölgəni belə görmək olurdu. Tərpənmədən, dimdik oturub sanki birinin gəlib kürəyinin düyməsini bağlayacağını gözləyirdi; birdən içindən bunu eləmək keçdi, ancaq bu qədər tanış və təzə, sadə jest ona birdən elə intim və xoş gəldi ki, az qaldı otağa girsin. Girib düymələrini bağlayacaq, sonra boynuyla çiyninin arasındakı yeri öpəcək və ona ürəyini açacaqdı.

Telegram: @cinciva

Bunun əvəzinə, Emmanın tualet masasından bir kitabı – fransızca-ingiliscə lüğəti götürdüyündə susqun-susqun baxdı. O, kitabı vərəqləməyə başladı, birdən qəfildən dayanıb boynunu əyərək kəklini geri atdı, ikiəlli alnını sıxıb ah çəkdi. Dekster onun bu ah çəkməsinə güldü; səssizcə güldüyünü zənn eləmişdi; ancaq Emma birdən dönüb qapıya baxdı və Dekster tələsik geri çəkildi. Döşəmə onun ayaqları altında cırıldayanda, sarsaqcasına mətbəxə qaçdı, şırların ikisini də açıb, özünə haqq qazandırmaq qəsdilə fincanları suyun altına tutdu. Bir qədər sonra yataq otağında Emmanın ona tanış şəkildə köhnə telefonun dəstəyini necə qaldırdığını eşitdi. Dekster bu Jan Pyerlə Emmanın nə danışacağını eşitmək üçün suyu kəsdi. Emma səsini qısıb fransızca mızıldanırdı. Qulağını nə qədər şəkləsə də, bircə kəlmə də başa düşə bilmədi.

Sonra yenidən "zınq": Emma dəstəyi yerinə qoymuşdu. Bir az da ötdü; Emma qapının girişində, Deksterin arxasında dayanmışdı.

– Kimiydi? – O, çiyninin üstündən laqeydcə soruşdu.

– Jan Pyerdi.

– İşləri necədi?

– Əla. Sadəcə, əla.

– Çox gözəl. Yaxşı. Gedim əynimi dəyişim. Dedin, neçədə gələcək?

– Gəlməyəcək.

Dekster döndü:

– Nə?

– Dedim ki, gəlməsin.

– Yaxşı? Elə belə də dedin?

Deksterin içindən gülmək keçdi.

– Dedim ki, boğazım şişib.

Gülməyini güclə saxlayırdı, heç yeriydimi... qoy başqa vaxta qalsın. Əllərini quruladı:

– Fransızca "boğazım şişib"i necə deyirlər?

Telegram: @cinciva

Emma boğazını sıxıb: – *Je suis tres desole, mais mes glandes sont gonflee*[1], – xırıltılı səslə dedi. – *Je pense que je peux avoir l'amygdalite*[2]".

– L'amy?..

– L'amygdalite.

– Sənin söz ehtiyatına heyran qaldım.

Emma təvazökarcasına çiyinlərini çəkdi:

– Əslində, lüğətə baxmışdım.

Bir-birinə gülümsədilər. Sonra sanki elə o anda ağlına gəlibmiş kimi üçcə addıma otağı keçərək, Deksterin üzünü əllərinin arasına alıb öpdü; Dekster əllərini onun çiyninə qoydu, paltarının düymələri hələ də bağlanmamışdı; kürəyi açıq və nəmliydi. Bir sürə beləcə öpüşdülər. Sonra hələ də üzünü əllərinin arasında tutub ona diqqətlə baxdı:

– Məni aldatmağı ağlının ucundan belə keçirsən, Dekster...

– Keçirmərəm...

– Birdən məni aldatsan, ya da arxamdan bir iş çevirsən, biləsən, səni öldürərəm, Dekster. Allaha and içirəm ki, ürəyini yerindən çıxarıb yeyərəm.

– Heç vaxt elə iş görmərəm.

– Görməzsən?

– And içirəm.

Emma qaşqabağını töküb başını yellədi, sonra üzünü onun çiyinlərinə söykədi, qollarını boynuna dolayıb qəzəbli nəriltiyə bənzər bir səs çıxardı.

– Nə oldu sənə? – Dekster soruşdu.

– Heç. Heç. Sadəcə... – Emma başını qaldırıb ona baxdı. – Elə zənn eləyirdim ki, səndən canımı qurtarmışam.

– Heç güman eləmirəm, – o dedi.

---

[1] (Fr.) Çox üzgünəm, boğazımdakı qlandalar şişib

[2] (Fr.) Deyəsən, badamcıq iltihabıdı

Telegram: @cinciva

DÖRDÜNCÜ HİSSƏ

2002 – 2005

35 – 40

"Onlar duyğuları haqda çox az danışırdılar: təmtəraqlı cümlələr, incə eyhamlar bu cür köhnə dostların nəyinə gərək".

Tomas Qardi, *"Dəli kütlədən uzaq"*

Telegram: @cinciva

Telegram: @cinciva

XIV Fəsil

Bazar ertəsinin səhəri

2002-ci il, 15 iyul, Bazar ertəsi

Belsayz Park, London

Radionun zəngi həmişəki kimi 07:05-də çalır. Dan yeri çoxdan ağarsa da, hələ heç birinin ayılmaq fikri yoxdu. Onlar Deksterin Belsayz-Parkda illər öncə tək yaşadığı mənzilində ikiadamlıq çarpayıda sarmaş-dolaş yatmışdılar.

Bir qədər əvvəl Dekster oyanıb uyğun səsi və sözü tapmağa çalışaraq düşünür, özünü hazırlayır, Emma qımıldandığını hiss eləyən kimi danışmağa başlayır:

– Bir şey demək istəyirəm, olar? – gözlərini hələ də açmadan dodaqlarını Emmanın boynuna söykəyib deyir.

– De, – Emma bir az narahat halda dillənir.

– Məncə, sənin öz mənzilinin olması mənasız işdi.

Emma kürəyi Deksterə, hiss olunmadan gülümsəyir:

– Hə...

– Demək istəyirəm ki, onsuz da, burada qalırıq.

Emma gözlərini açır:

– Qalmaya da bilərəm.

– Yox, istəyirəm ki, qalasan.

Üzünü Deksterə çevirib görür ki, gözlərini açmayıb.

– Deks, sən...

Telegram: @cinciva

– Nə?

– Yəni otaq yoldaşın olum deyirsən?

Dekster gözlərini açmadan gülümsəyir, yorğanın altında onun əllərini tutub sıxır:

– Emma, otaq yoldaşım olmağa razısanmı?

– Of, axır ki! – Emma səsini qaldırır. – Deks, mən ömrüm boyu bu anın xətrinə yaşamışdım.

– İndi bu, "hə" deməkdi?

– Gərək fikirləşəm.

– Onda gəlib-gəlməyəcəyini deyərsən mənə, yaxşı? Ona görə deyirəm ki, təklifim səni cəlb eləmirsə, başqasını tapım.

– Dedim axı: gərək fikirləşəm.

Dekster gözlərini açır. Əslində, o, "hə" cavabı alacağını gözləyirdi.

– Burada fikirləşəcək nə var ki?

– Düzü, heç bilmirəm. *Birlikdə yaşamaq...*

– Parisdə birikdə yaşamışdıq.

– Bilirəm, ancaq o, Parisdə qaldı.

– Elə indi də, demək olar, birlikdə yaşayırıq.

– Elədi, ancaq...

– Əmlak bazarındakı vəziyyəti nəzərə alanda kirayədə qalmaq pulu havaya sovurmaqdan başqa bir şey deyil...

– Sən eynən mənim maliyyə məsləhətçim kimi danışırsan. Çox romantikdi. – Dodaqlarını irəli uzadıb Deksteri öpür: – İş təkcə maliyyə planlaşmasında deyil, eləmi?

– Əslində, elədi, həm də... mənə elə gəlir ki, əntiqə olar.

– Əntiqə.

– Sən mənim yanımda yaşasan...

– Bəs Jasmin?

– Eybi yox, alışar. Sonra da ki, onun cəmi iki yaşı var, bu, onluq deyil, yox? Anasına isə heç dəxli yoxdu.

Telegram: @cinciva

– Ancaq bizə bir az...

– Nə?

– Bir az sıxlıq olmaz yəni? Bazar günləri üçümüz olanda.

– Bir şey fikirləşərik.

– Bəs mən harada işləyəcəm?

– Mən evdə olmayanda elə burada.

– Bəs sevgililərini hara aparacaqsan?

Dekster ah çəkir; haradasa, bir illik manyakca sədaqətdən sonra bu zarafat heç döşünə yatmır.

– Nahardan sonra oteldə otaq tutarıq.

Radionun donqultusu altında bir qədər susurlar, Emma yenidən gözlərini yumur və karton qutuları yerbəyer eləməyini, dolabdan öz kitabları və paltarları üçün yer boşaltdığını xəyalında canlandırmağa çalışır... Düzünə qalsa, o, özünün Hornsi-rouddakı rahat, hətta belə demək olarsa, bohem mansardlı mənzilindəki şəraitdən daha məmnundu. Belsayz-Park həddən artıq qəşəng və dəblidi; bununla belə, onun bütün ciddi-cəhdinə və kitablarını, paltarlarını Deksterin mənzilinə yavaş-yavaş köçürməsinə baxmayaraq, subaylıq illərinin nişanələri – oyun cihazları, heyvərə televizor, nəhəng çarpayı şəklində hələ də mənzildə qalmaqdadı. Emma hətta yarızarafat, yarıciddi boynuna alır: "Qorxuram ki, dolabını açsam, üstümə qadın tumanları, hələ daha nələr töküləcək". Ancaq Dekster bir təklif irəli sürüb, indi isə Emma hiss eləyir ki, təklif növbəsi ondadı.

– Bəlkə şərik bir mənzil alaq? – Emma deyir. – Bundan daha geniş. – O bir daha qabaqlar toxunmadıqları, ancaq daim haqqında düşündükləri vacib mövzuya toxunur. Bir xeyli cavab gəlmir, Emma Deksterin yatdığını zənn elədiyi vaxt birdən eşidir:

– Yaxşı. Axşam danışarıq.

Beləcə, dünənki, sabahkı günlərin eyni olan adi bir gün başlayır. Qalxıb geyinirlər. Emma özü üçün ayrılmış dolabdakı az

Telegram: @cinciva

miqdarda paltarlarının içindən geyim seçir. Əvvəlcə Dekster, sonra isə o, hamamlanır; bu arada Dekster dükana gedib qəzet və birdən lazım olar deyə süd alır. O, idman yazılarını, Emma isə xəbərləri oxuyur; öz adətləri üzrə adi və rahat səhər yeməyindən sonra Emma dəhlizdə qoyulmuş velosipedini götürüb, metroya qədər Deksterlə yanaşı gedir. Onlar hər gün, haradasa, səkkiz iyirmi beşdə öpüşüb ayrılırlar.

– Silviya Jasmini saat dörddə gətirir, – o deyir. – Mən altıda qayıdacam. Narazı deyilsən ki?

– Əlbəttə, yox.

– Yəqin, Jasminin öhdəsindən də gələ biləcəksən?

– Təbii. Zooparka gedərik, sonra da nəsə fikirləşərik.

Yenidən öpüşürlər; Emma öz işinə, Dekster öz işinə yollanır; beləcə, günlər hər zamankından daha sürətlə uçub gedir.

İş. O, yenidən çalışır, bu dəfə öz biznesi var; halbuki onun Haygeytlə Arçvey arasında yerləşən kiçik kafe və məzəçi dükanına yekə-yekə "biznes" deməyə adamın dili də gəlmir.

Bu ideya Parisdə, həyatını parçalara ayırıb yenidən yığdıları o uzun və qəribə yayda yaranmışdı. Əslində, bu fikir Parisin şimal-şərqində But-Şamon parkının yaxınlığındakı küçə kafesində əyləşdikləri vaxt Emmanın ağlına gəlmişdi. "Yemək işindən başın çıxır, – Emma demişdi, – şərabları yaxşı ayırd eləyirsən. Yaxşı qəhvə, import pendir – bu günlərdə hamının aludə olduğu hər cür məzələrin ticarətilə məşğul ola bilərsən. Ancaq elə iddialı və dəbdəbəli yemək butikləri yox, kiçik, yaz-yay bayıra daşınan şirin bir dükan". Əvvəllər "dükan" sözü onu qorxudardı – özünü heç cür biznesmen və ya ondan da betəri dükan sahibi kimi təsəvvür edə bilməzdi. Amma "import ərzaq mütəxəssisi" qulağa daha xoş gəlirdi. O, başqa şeylərlə yanaşı, həm də ərzaq satan restoran-ka-

Telegram: @cinciva

feteriya işi haqda düşünməyə daha üstünlük verirdi. Özünü isə bir müəssisə sahibi kimi görürdü.

Beləcə, sentyabrın sonlarında, axır ki, – axır ki! – Paris öz parıltısını itirməyə başlayanda birlikdə qatarla evə qayıtdılar. Gündən yüngülcə qaralmış dəriləri və yeni paltarlarıyla platformada əl-ələ, qol-qola keçərkən özlərini ilk dəfə Londona təşrif buyurmuş adamlar kimi böyük plan və layihələrlə, qətiyyətli və iddialı hiss edirdilər. Dostları elə belə də olacağını çoxdan bilirlərmiş kimi onları başlarıyla salamlayırdılar. Dekster Emmanı atasıyla bir də tanış elədi – "Əlbəttə, sizi xatırlayıram. Sizdiniz də məni faşist adlandıran" – ardıyca da onun maliyyə yardımına ümid eləyərək yeni iş planları haqda danışdı. Elizabet dünyasını dəyişəndə qərara alınmışdı ki, zamanı çatanda müəyyən məbləğ Deksterə çatacaq və deyəsən, o vaxt yetişmişdi. Ürəyinin dərinliyində Stiven Meyhyu şübhə eləmirdi ki, oğlu o məbləği son pennisinə kimi yelə verəcək, ancaq onu bir də televiziya ekranında görməməyin dərdindən yenə də istənilən məbləği ödəməyə hazır idi. Emmanın iştirakı da işə yaramışdı. Çünki Emma kişinin xoşuna gəlirdi, bəlkə elə bu üzdən də ata Meyhyu onun sayəsində oğlundan xoşlandığını ilk dəfə hiss eləmişdi.

Dükanı da birlikdə tapdılar. Tozlu videokaset rəfləri ilə birlikdə ruhlar aləminin ixtiyarına verilmiş kirayəlik video dükanıydı. Emmanın son dümsükləməsindən ilhama gələn Dekster bir illik icarə müqaviləsi bağlamışdı. Uzun yağmurlu yanvarı metal rəfləri qırıb, Stiven Siqalın videofilmlərini yaxınlıqdakı xeyriyyəçi dükanlara paylamaqla məşğul olmuşdular. Deksterlə Emma divarı malalayıb ağ qaymağı rənglə boyadılar; tünd ağac panellə örtdülər, müflisləşmiş bütün kafe-restroranları dolaşıb salamat qəhvə maşını, vitrin və önü şüşəli soyuducu aradılar. Bütün bu müflisləşmiş yerlər ona nələr itirdiyini, iflasın nə demək olduğunu xatırladırdı.

Telegram: @cinciva

Ancaq Emma həmişə yanındaydı, onu daim doğru iş gördüyünə inandırırdı. Daşınmaz əmlak agentlərinin sözlərinə görə, bu rayon ümidvericiydi: zaman-zaman "iş adamı" sözünün qiymətini bilən gənc mütəxəssislər, bir bulka, ya da bir tennis topu boyda pendir üçün iki funt ödəməyə hazır olan müştərilər burada getdikcə daha çox məskunlaşırdılar. Kafeteriya adamların gəlib göz önündə romanlarını yazacaqları bir yer olacaqdı.

Baharın ilk günündə yüngülvarı təmir edilmiş dükanın önündəki səkidə oturub mümkün olası adların siyahısını hazırlamışdılar; bir neçə basmaqəlib məzəli addan sonra "Belvill Kafe"nin üstündə durmuşdular. "Meyhem TV"dən sonra ikinci təcrübəsi olan – Emmanın şirkət direktoru və ortağı olduğu kampaniya qurdu. Culi Kriskoll haqqında ilk iki kitabdan və TV cizgi filmindən, sifariş verilən ikinci filmdən gəlir gəlməyə başlamışdı; bundan başqa, Culi Kreskolun rəsmi olan qələmdan və açıqca istehsalı, hətta eyniadlı aylıq jurnalın nəşri haqda danışıqlar gedirdi. Etiraz etməyin heç yeri deyildi; Emmanın anası demişkən, onun daha da yaxşısına haqqı çatırdı. Az sonra Emma özünü Deksterə maliyyə dəstəyi təklif edə biləcək qəribə, bir az əsəbləri pozacaq vəziyyətdə gördü. Bir qədər inaddan sonra Dekster də təklifi qəbul eləyəsi oldu.

Dükanı apreldə açdılar və Dekster ilk altı həftəni tünd rəngli taxta xəfəngin arxasında durub adamların yaxınlaşmasına, boylanıb mızıldanaraq içəri daxil olmasına, burunlarını çəkib çıxmasına göz qoymaqla keçirtdi. Sonradan şayiələr dolaşdı, dükanın adı yayıldı, müştərilər çoxaldı və o hətta bir neçə köməkçi tuta bildi. Getdikcə daimi müştərilər artmağa, özü isə işindən zövq almağa başladı.

Onun alışıq olduğundan daha sakit, daha oturaq olsa da, müəssisəsi məşhur məkana çevrilmişdi.

Telegram: @cinciva

Onun xeyli məşhulaşmağı, – bu, yerli miqyasda olsa belə, – yaxşı ot dəmləmələri seçiminin hesabınaydı. Bununla belə, Dekster qabaqkı qədər olmasa da, yenə də qadınların maraq obyekti olaraq qalır: indi fitnesdən çıxıb pirojna yeməyə gələn alyanaq gənc analar ona baxıb içlərini çəkirlər; beləcə, o, yenidən, demək olar, – yenidən, – məşhurdu.

O, yay günəşinin tezdən qızdırdığı ağır metal xəfəngin kilidini açır. Xəfəngi qaldırıb giriş qapısının kilidini açır – bəs nə hiss edir? Xoşbəxtlikmi? Yox, xoşbəxtlik yox, ömründə ilk dəfə qəlbinin dərinliyində özüylə qürur duyur.

Əlbəttə, bəzən xəfəngləri endirib bütün qırmızı şərabları içmək istədiyi uzun, yağmurlu çərşənbə axşamları olursa da, o, bu gün deyil. Bu gün isti bir gündü; qızıyla görüşəcək və Silviyayla şərəfsiz Kellum növbəti tətillərini keçirəcəkləri səkkiz gün boyunca qızı onunla olacaq. Onun, az qala, xəbəri də olmadan Jasmin artıq iki yaş yarımına çatıb; səbirli və anası qədər gözəldi; atasının yanına gələndə sakitcə "dükan-dükan" oynayıb, başqa işlərlə məşğul olur; bu gün o, işdən qayıdanda Emma da evdə olacaq. Uzun illərdən bəri ilk dəfə həyatının axarı qaydasındadı. Sevdiyi və heyran olduğu, üstəlik dostu olan həyat yoldaşı var. Qızı gözəl və ağıllıdı. Bütün işlər yolundadı. Beləcə də sürəcək – təki heç nə dəyişilməsin.

Cəmi iki mil uzaqda, Hornsi-roudda Emma pilləkəndən qalxır, açarı salıb qapını açır, dörd gün boyunca ayaq basmadıqları mənzilin soyuq və ağır havasını içinə çəkir. Çay qoyub, iş masasına əyləşir, kompyuteri açır və az qala, bir saat gözünü monitora dikir. İşi başından aşır – "Culi Kriskoll" cizgi serialının ikinci bölümü üçün yazdığı ssenarini oxuyub üstündə işləməli, üçüncü cildə beş yüz söz yazıb, illüstrasiyalarına əl gəzdirməlidi. Onu gənc oxucularından gələn yalnızlıqla, incidilməklə bağlı sə-

Telegram: @cinciva

mimi və çoxu da sıxıcı dərəcədə fərdi olan elektron məktublar gözləyir – onlara da diqqət ayırmalıdı.

Ancaq fikri-zikri Deksterin təklifinə yayınır. Onlar ötən il Parisdə keçirdikləri uzun və qəribə yayda birgə gələcək haqda bəzi şeyləri götür-qoy eləyib dəqiq qərar almışdılar – əgər birgə gələcəkləri olacaqdısa, ayrıca yaşayacaqdılar – ayrı mənzil, ayrı həyat, ayrı dostlar. Birlikdə olmaq üçün çalışacaq, bir-birinə sadiq olacaqlardı, amma heç nəyi "hamının qəbul etdiyi şəkildə" eləməyəcəkdilər. Həftə sonları yorucu mənzil axtarışları, dost-tanışlarının şam yeməyi dəvətlərinə gedişlər, Sevgililər günü çiçəkləri kimi müştərək və ya ailə həyatı nişanələrinin heç biri olmayacaqdı. Çünki ikisi də bu cür həyatın içindən keçmiş, ancaq bəhrəsini görməmişdilər.

Emmaya elə gəlirdi ki, bu razılaşma ilə onlar həyata yeni nəzərlərlə baxan intellektual və modern cütlük təsiri bağışlayacaqlar. Birlikdə yaşamaq istəmədiklərini göstərmək üçün xeyli çalışmaq gərəkirdi və ikisindən birinin gec-tez təslim olacağı qısa bir zamanda bəlli olmuşdu. Sadəcə, Emmanın ağlına gəlməzdi ki, o adam Dekster olacaq. Düzü, aralarında heç adını tutmadıqları bir məsələ qalmışdı və deyəsən, bu mövzuda susmaq heç cür mümkün olmayacaqdı. Dərindən nəfəsini dərib bir kəlmə deyəcəkdi: UŞAQLAR! Yox, "uşaqlar" yox – onu qorxutmaq lazım deyil; yaxşısı, tək halında deməli. Emma "uşaq" istəyir.

Emma əvvəllər də ancaq zarafata salaraq belə söhbətlər eləmişdi, cavabında isə Dekster mızıldanmışdı: "İşlərimiz qaydasına düşəndə ola bilər". Ancaq işlər bundan o yana daha nə qədər yoluna düşməliydi ki? Onun otuz altı yaşı vardı, istədiyi də məhz buydu; Dekster istəməsəydi, onda, yaxşısı...

Nə? Ayrılmaqmı? Belə bir ultimatum həddən-ziyadə melodramatik olar və hər ikisini yaralardı, ancaq hiss eləyir ki, başqa da çıxış yolu yoxdu. Sual göydən asılıb qalıb, ikisi də onun yanın-

Telegram: @cinciva

dan ötüb keçirlər. Hər dəfə valideynləri zəng vuranda; hər dəfə o Deksterlə sevişəndə də (indi bu, Parisdəki çılğın günlərdəkindən az olsa da, yenə də bəs qədər məşğul olurlar) bu məsələni düşünür. Gecələr yuxusu ərşə çəkilir. Bəzən ona elə gəlir ki, gecə saat üçdə onu həyəcanlandıran şeylər bütün həyatını yönləndirir. Bu, əvvəlcə oğlanlardı; sonra uzun müddət iş, pul; sonra Yanla əlaqə, sonra yasaq məşuqluq. İndi də bu. Elə bu gün bu haqda Deksterlə danışmaq qərarına gəlir. Yox, bu gün yox – bu gün Jasmin burada olacaq, – ancaq lap yaxın vaxtda. Bacardıqca tez.

Emma səhər fikrini cəmləyə bilmədiyindən xeyli vaxt itirib nahardan qabaq hovuza üzməyə yollanır; hovuzu bu üzdən o üzə, o üzdən bu üzə ölçsə də, zehni açılmır ki, açılmır. Sonra saçını belə əməllicə qurutmadan velosipedlə Deksterin mənzilinə qayıdıb binanın qarşısında qara, nəhəng bir "Cip"in gözlədiyini görür. Qanqster maşınlarına oxşayır; ön şüşədən iki siluet nəzərə çarpır – biri şişman, qısaboy, o biri arıq, uzun: Silviya və Kellum; nəsə, əlqol ölçə-ölçə qeyzlə deyişirlər. Növbəti didişmələrdən biri. Emma onların söyüşməsini yolun o üzündən də eşidə bilir, yaxınlaşanda isə Kellumun qəzəbdən eybəcər hala düşmüş üzünü və arxa outracaqda səsləri eşitməmək üçün gözlərini şəkilli kitaba dikmiş Jasmini görür. Emma Jasminin pəncərəsini taqqıldadır; Jasmin başını qaldırıb baxır, ürəkdən gülümsəyib balaca ağ dişlərini göstərir və maşından düşmək üçün təhlükəsizlik kəmərini açır.

Emmayla Kellum pəncərə arxasından salamlaşırlar. Xəyanət, ayrılıq və boşanmanın alçaldıcı və cəfəng oyun qaydaları var; Kellumla iyirmi ildən bəri tanış olsalar da, Emma indi onunla danışa bilməz. Deksterin keçmiş həyat yoldaşı Silviyayla Emma arasındasa umu-küsüsüz bir ünsiyyət şəkli sərgilənsə də, bir-birindən xoşlanmadıqları uzaqdan adamın gözünə girir.

Telegram: @cinciva

– Fikir vermə! – Silviya deyib, uzun ayaqlarını maşından səkiyə qoyur. – Özümüzlə nə qədər şey-şüy götürmək üstdə balaca deyişdik!

– Tətillər çox stress gətirir, – Emma düşünmədən dillənir.

Jasmin yerindən çıxıb Emmanın qucağına atılır, üzünü onun boynunda gizləyib, incə ayaqlarını belinə dolayır. Emma sıxılaraq gülümsəyib, sanki: "Əlimdən bir şey gəlmir", – deyir, Silviyanın üzündə isə saxta bir gülüş donub qalır, elə bil dodaqlarını barmaqlarıyla çəkib uzadıb.

– Atam harada? – Jasmin əvvəlki kimi üzünü Emmanın boynunda gizlədib soruşur.

– İşdədi, amma tezliklə gələcək.

Emmayla Silviya yenidən gülümsünürlər.

– İşləri necə gedir? – Silviya deyir. – Dükanda?

– Çox yaxşı, necə lazımdı.

– Heyif, Deksteri görəmmədim. Salamımı çatdır.

Bir az da susqu. Kellum mühərriki işə salıb getmək vaxtı çatdığını bildirməyə çalışır.

– İçəri keçmirsiniz? – Emma alacağı cavabı bilərək Silviyadan soruşur.

– Yox, getməliyik.

– Bu dəfə hara gedirsiniz?

– Meksikaya.

– Meksika. Əladı.

– Olubsanmı orada?

– Yox. Ancaq bir vaxtlar Meksika restoranında işləmişəm.

Silviya dilini şaqqıldadır, Kellumsa sükan arxasından dillənir:

– Gedək də! Yoxsa tıxacda boğulmaq fikrindəsən?

Sağollaşmaq üçün Jasmini yenidən maşına oturdurlar: "Ağıllı qız ol, televizora baxma", – bu arada Emma onun əşyalarını, açıqçəhrayı rəngli təkərli çamadanını, panda şəkilli bel çantasını evə

Telegram: @cinciva

daşıyır; geri dönür, Jasmin bir məktəbli kimi dümdüz, şəkilli kitabları sinəsinə sıxıb səkidə onu gözləyir. Gözəl, şıq, qüsursuz; bir az da məyus; hər bir zərrəsilə Emmanın deyil, anasının qızı Jasmin.

– Biz getməliyik. Təsəvvür eləməzsən ki, bu aralar əşyaların qeydiyyatı necə zəhlə tökür. – Silviya öz uzun ayaqlarını qatlama bıçaq kimi yığıb təkrarən maşına qoyur. Kellum dübbədüz qarşısına baxır.

– Belə-ə. Sizə Meksikada yaxşı istirahət arzulayıram. Maskayla yaxşı dalmalar...

– Maskayla deyil, akvalanqla. Maska balaca uşaqlar üçündü, – Silviya gözlənilmədən mırıldanır.

Emma diksinir:

– Bağışlayın. Akvalanqla. Çalışın, orada boğulmayasız!

Silviya qaşlarını dartıb, dodaqlarını "o" şəklində büzür – ancaq Emma indi nə deyə bilər? "Silviya, demək istəyirəm ki, boğulmayın. Həqiqətən də, sizin boğulmanızı istəmirəm!" Ancaq artıq çox gecdi: söz ağızdan çıxıb və qız dostluğu illüziyası göyə sovrulub. Silviya Jasminin alnına sonuncu öpücüyünü yapışdırıb, hikkəylə qapını çırpır və qara "Cip" yola düşür.

Emmayla Jasmin səkidə dayanıblar; Jasmin maşının arxasıyca əl eləyir.

– Hə, Min, atan altıyacan ancaq gələr. Nə eləmək istəyirsən?

– Bilmirəm.

– Xeyli vaxtımız var. Zooparka gedəkmi?

Jasmin sevinclə başını tərpədir. Emmanın zooparka ailəlikcə giriş bileti var; başqasının qızıyla başqa bir gəzintiyə hazırlaşmaq üçün evə gedir.

Telegram: @cinciva

Meyhyunun keçmiş xanımı böyük qara maşında qollarını daraqlayıb, başını qara müşəmbəli şüşəyə dayayıb, ayaqlarını oturacağın altında büküb; Kellum Yuston-roud yolundakı sürücülərlə söyüşür. Son vaxtlar onlar, demək olar ki, yola getmirlər, ancaq qışqırır və bir-birinin üstünə çımxırırlar; bütün başqa tətillər kimi bu tətil də ancaq hər şeyi yoluna qoymaq cəhdidi.

Silviyanın həyatının son ili uğurlu olmamışdı. Yaxınlıqdan sonra Kellumun necə kobud və pinti olduğu üzə çıxmışdı. Silviya şübhələnir ki, onun məşuqəsi var, özü də bir deyil. O, öz evində Silviyanın varlığından, nəsə, rahatsız görünür, hələ Jasmin bir yana; üstünə ancaq ona görə qışqırır ki, o, özünü normal uşaq kimi aparır, Jasmini özüylə harasa aparmaqdan zəhləsi gedir. Uşağa gic-gici şüarlar söyləyir: "Nə tökərsən aşına, Jasmin, o da çıxar qaşığına". Lənət şeytana, o, hələ iki yaş yarımındadı! Dekster öz vecsizliyinə və məsuliyyətsizliyinə baxmayaraq, heç olmasa, körpəni sevir, özü də lap çox. Kellumsa Jasminə öz kampaniyasının hansısa başısoyuq əməkdaşı kimi yanaşır! Deksterə təmkinlə yanaşan ailəsi isə ona açıq-aşkar nifrət edirdilər.

İndi nə vaxt Silviyayla qarşılaşsalar, keçmiş əri öz xoşbəxtliyini reklam eləyən hansısa təriqət nümayəndəsi kimi ağzını ayırıb durmadan gülümsünür! Jasmini atıb-tutur, belində gəzdirir, hər fürsətdə özünün necə yaxşı ata olduğunu gözə soxur. Hələ onun bu Emması... Jasmin də nə danışsa, ancaq Emmadan danışır: Emma belə gəldi, Emma elə getdi, Emma onun ən yaxşı rəfiqəsidi. Evə rəngli kartonların üstünə yapışdırılmış makaronlar gətirir, Silviya bunun nə olduğunu soruşduqda isə cavab verir ki, bu, Emmadı, sonra da boğula-boğula zooparka necə getdiklərini danışmağa başlayır. Demə, onların ailəvi biletləri varmış! İlahi, bu özündənrazı sevgililərə baxmaq necə də dözülməzdi – Deks və Em, Em və Deks – hələ onların küçə küncündəki yetim-yesir dükanı, – yeri gəlmişkən, Kellumun şirkətinin artıq qırx səkkiz

Telegram: @cinciva

şöbəsi var! – Emmanın velosipedi, yoğunuyan beli, tələbə tövrləri və dözülməz baxışları! Silviya hesab eləyir ki, Emmanın xaç anasından analığa çevrilməsi – alçaqca düşünülmüş gedişdi; Emma həmişə onların çevrələrində dolaşıb zərbə vuracağı məqamı gözləyib. "Boğulmayın!" *Qudurğan inək.*

Kellum indi də Marliboun-rouddakı sürücülərlə ağızlaşır, Silviya yenə də yanlış komandada olduğunu düşünüb, başqalarının xoşbəxtliyinə acıqlanır. Bir yandan da düşündüklərinin nə qədər çirkin, iyrənc və kinli olduğunu kəsdirib kədərlənir. Axı necə də olsa, o atıb Deksteri, ürəyini qırıb.

Kellum indi də Vestveydəki sürücülərə dişinin dibindən çıxan ədəbsiz söyüşləri verir. Silviya bəzən ikinci uşağının olmasını istəyir, amma necə? Qarşıda onları tam bir həftə lüks oteldə akvalanqlı dalmalar gözləyir, ancaq nə üçünsə indidən ona elə gəlir ki, bu heç də yetərli olmayacaq.

Telegram: @cinciva

XVII fəsil

toy_nitqi.doc

2003-cü il, 15 iyul

Şimali Yorkşir

Balaca, qaranlıq bağ evi fotolarda gördüklərinə heç oxşamırdı. Evdən yay kotteclərində olduğu kimi sprey və boş mətbəx dolablarının qarışıq qoxusu gəlirdi; qalın daş divarlar qışın şaxtasından elə donmuşdu ki, isti iyul günündə belə içəri soyuq və rütubətliydi.

Ancaq onlar üçün bunun bir önəmi yoxuydu. Lazım olan hər şeyin olduğu kottec o biri evlərlə bir sıradaydı və Şimali Yorkşir bataqlıqlarının hətta kiçik nəfəslikdən belə görünən mənzərəsi göz oxşayırdı. Günlərinin çoxunu gəzintiyə çıxır, ya da sahilboyunda Emmanın uşaqlıq illərindən xatırladığı, 1976-cı ildə necə vardı, elə olduğu kimi də qaldığı görünən kiçik kəndləri, getdikcə köhnələn bağ evlərini maşınla dolaşırdılar. Bu gün, tətilin dördüncü günü Fayliyə gəlib qərara aldılar ki, çərşənbə axşamı günü məktəblilərin tətili başlamadığından hələ gözə çox az adamın dəydiyi ucsuz-bucaqsız çimərliyin seyrinə çıxsınlar.

– Oranı görürsən? Orada bacımı it qapmışdı.

– Maraqlıdı. Nə itiydi elə?

– Bağışla, deyəsən, artıq səni boğaza yığmışam?

– Bir balaca.

Telegram: @cinciva

– Nə etməli, bir az da dözməli olacaqsan. Hələ dörd günümüz var.

Günortadan sonra Emmanın dünən axşamdan fikirləşdiyi kimi şəlaləyə tərəf təmtəraqlı gəzinti planlaşdırmışdılar. Ancaq bir saat sonra necə olduğunu bilmədən özlərini süpürgə çöllüyündə çaşqın durumda, Xəritəçilik bürosunun xəritəsinə baxan yerdə gördülər, sonra şəlaləyə getməkdən vaz keçib qurumuş süpürgə kollarının üstünə uzandılar. Emma özüylə quşlar haqda kitabça, bir də dizel mühərriki boyda nəhəng, ağır hərbi durbin götürmüşdü. Durbini güclə gözünə doğru qaldırdı:

– Ora yuxarı bax. Zənnimcə, o, belibağlı quşudu.

– Hmm.

– Bir bax da! Düz üstümüzdə uçur.

– Mənimçün maraqlı deyil. Yatıram.

– Necə maraqlı deyil? Belibağlı çox gözəl quşdu.

– Mənim quş izləyən yaşım çatmayıb hələ.

Emma gülümsündü:

– Çox gülməli göründüyündən xəbərin var?

– Bu çöllüyü boş-boş gəzməyimiz bəs qədər bezdirib, onsuz da. Gələn səfər də, yəqin, məni klassika dinləməyə məcbur eləyəcəksən?

– Quş izləmək üçün son dərəcə "havalı"...

– Bütün radioları "Klassik FM"ə quracaqsan. Sonra da bağçılıq işləri, sonra "Marks and Spenser"dən cins şalvarlar alarsan, sonra şəhər kənarına köçmək. Bir-birimizi "sevgilim" deyə çağırarıq. Em, mən bilirəm, bütün bunlar necə baş verir. Elə ki başladın, sonra üzü enişə, dur görüm necə dursan.

Emma dirsəklənib Deksterə sarı uzandı və onu öpdü:

– Bir də yadıma sal görüm, səninlə niyə evlənirəm?

– Fikrini dəyişmək üçün hələ ki gec deyil.

– Behimizi geri ala bilərikmi?

Telegram: @cinciva

çətin.

– Onda eybi yox. – Emma bir də onu öpdü. – Ancaq hələ fikirləşməliyəm.

Toy noyabra təyin edilmişdi. Meriyada sakit və sadə mərasimdən sonra ən yaxın dostlar və qohumlar üçün kiçik, mütəvazi şənliksə evlərinin yaxınlığında yerləşən sevimli restoranlarında olacaqdı. Deyirdilər ki, bu, əslində, heç toy da deyil, sadəcə, yığışmaq üçün bir bəhanədi. Sədaqət andları duyğusal deyil, daha çox dünyəvi olmalı və özləri indidən yazmalıydılar; üz-üzə oturub andları hazırlamaq çox darıxdırıcı gəlirdi.

– Keçmiş arvadına yazdığın andlardan istifadə eləyə bilmərik ki?

– Əlbəttə. Ancaq sən mənə itaət eləməyə söz verəcəksən, ya yox?

– Heç vax, heç vaxt qolf şalvarını əyninə taxmamağa and içsən, hə.

– Mənim soyadımı da götürəcəksən, eləmi?

– Emma Meyhyu. Əlbəttə, bundan da pis ola bilərdi.

– İkili soyad da mümkündü.

– Morli-Meyhyu. Kotsuoldsdakı kənd adlarına oxşayır. "Biz Morli-Meyhunun yaxınlığında əntiqə kottec tutduq".

Özlərini guya önəmli bir şey olmayacaqmış kimi aparsalar da, əslində, gizlinində həyəcan keçirə-keçirə toy gününü gözləyirdilər.

Yorkşirdə keçirdikləri bu həftə onların təmtəraqsız keçəcək son tətilləriydi. Emmanın nəşriyyata təhvil verəcəyi işləri vardı, Dekster düz bir həftə kafeni başlı-başına buraxdığına görə narahatdı, ancaq bu yolçuluq onlara Emmanın valideynlərini görmək fürsəti vermişdi; anası onları şahlara layiq şəkildə qonaq eləmişdi. Syu Morli stola həmişəki kimi müşəmbə süfrə deyil, kətan dəsmal salmışdı; yeməyə kükü hazırlamış, soyuducuda isə bir şüşə "Per-

Telegram: @cinciva

ye" şərabı saxlamışdı. Emma Yanla ayrıldıqdan sonra anası Syu Morli bir də heç kimi sevməyəcək kimi görünürdü, ancaq indi gözlərini Deksterdən ayırmadan işvəli səslə danışaraq ona əməlli-başlı nazlanırdı. Dekster də eyni tərzdə cavab verir, Morli ailəsinin qalan üzvləri isə gözlərini döşəmənin saxsı plitiəsinə dikib, ciddicəhdlə gülməməyə çalışırdılar. Syununsa vecinə deyildi, çünki onun ən müqəddəs arzusu çin çıxmışdı – axır ki, qızı şahzadə Endryuya ərə gedirdi.

Emma öz doğmalarının gözüylə Deksterə baxıb onunla qürur duyurdu; o, Syuya göz vurur, onun xalası qızlarıyla uşaq kimi zarafatlaşır, atasının maraqlandığı məsələlərlə ürəkdən maraqlanırmış kimi görünürdü. Deyəsən, təkcə Emmanın kiçik bacısı onun səmimiyyətinə və cazibədarlığına şübhəylə yanaşırdı. Daim yorğun görünən, bütün dünyaya küskün, iki oğul anası, boşanmış bir qadın olaraq Marianna yeni bir toya dözəcək ovqatda deyildi. O axşam Emma qabları yuyanda Marianna ilə danışdı.

– Sən mənə başa sala bilərsənmi, anam nədən belə sarsaq səslə danışır? – Emma soruşdu.

– Dekster onun xoşuna gəlib. – Emma bacısının böyrünü dümsüklədi. – Elə sənin də, hə?

– Xoş adamdı. Onu bəyəndim. Sadəcə, mənə tanınmış bir arvadbaz kimi gəldi.

– Bəlkə də keçmişdə elə olub. Ancaq indi bambaşqadı.

Emma burnunu çəkdi və qozbel haqda məşhur atalar sözünü deməkdən özünü güclə saxladı.

Şəlalə axtarışından əl götürüb, qızardılmış kartof yedikləri paba getdilər, sonra axşamacan bir-birini növbəylə udaraq bilyard oynadılar.

Telegram: @cinciva

– Deyəsən, bacının xoşuna gəlmirəm, – Dekster final oyununun şarlarını düzə-düzə soruşdu.

– Gəlirsən.

– O, mənimlə bir kəlmə də kəsmədi.

– Yox, o, sadəcə, bir az utancaq, bir az da mızıdı. Bacım belədi.

Dekster gülümsündü:

– Ləhcən...

– Nə olub ki mənim ləhcəmə?

– Biz bura gələni şimallılar kimi danışmağa başlayıbsan.

– Doğrudan?

– Gərək M1 yolundan dönəydik...

– Bu, səni qıcıqlandırır ki?

– Qətiyyən. Vurmaq növbəsi kimindi?

Oyunu Emma apardı; pabdan çıxıb qürub günəşinin şəfəqləri altında kottecə doğru getdilər. Ac qarına içdikləri pivənin təsirindən azca keflənib duyğulanmışdılar. Əslində, bu tətili bir iş ezamiyyəti kimi planlaşdırmışdılar: bütün günü bir yerdə keçirməli, gecələri isə Emma işləməliydi, ancaq hələ də yazmağa çox az vaxt tapırdı. Səfərin vaxtı Emmanın hamilə qalma ehtimalının ən yüksək olduğu dövrlə üst-üstə düşdüyündən bu şansdan yararlanmaq məcburiyyətində qalmışdılar.

– Nədi yenə də? – Emma qapını bağlayıb onu öpəndə Dekster donquldandı.

– İstəyirsənsə, əlbəttə.

– İstəyirəm. Ancaq bir az özümü... damazlıq ayğır kimi hiss eləyirəm. Ya da, nəsə, elə bir şey.

– Bəs nə bilmişdin, sən elə damazlıqsan da. Elə ondansan.

Artıq saat doqquzda Emma narahat çarpayıda yuxuya getmişdi. Bayırda hələ də hava işıqlıydı, Dekster bir ara uzanıb yataq otağının pəncərəsindən görünən yasəməni çöllüyü seyr edərək

Telegram: @cinciva

Emmanın nəfəs almasını dinlədi. Gözünə yuxu getmədiyini görüb qalxdı, əlinə keçəndən əynini geyindi və sakitcə mətbəxə keçib özünə bir qədəh şərab süzərək indi neynəyəcəyini fikirləşdi. Oksfordşir səs-küyünə öyrəşmiş Deksterə bu təklik çox ağır görünürdü. Burada çoxkanallı TV kanalı ummaq bəlkə də ağ olardı, ancaq bağ evlərinin təsvir olunduğu broşürdə televizorun yoxluğu fəxrlə qeyd olunurdu, bu sakitlik isə onun əsəblərini pozurdu. "iPod"unda "Telonious Monk"[1]u seçib – son vaxtlar əməllicə caz həvəskarı olmuşdu – özünü divana atıb toz dumanı qaldırdı, sonra kitabını götürdü. Emma tətildə oxuması üçün ona "Uğultulu təpələr" kitabını almışdı; kitabı oxuya bilməyəcəyini yəqinləşdirib, leptopunu götürüb açdı və gözünü ekrana dikdi.

"Şəxsi sənədlər" qovluğunun içində "Müxtəlif" qovluğu, onunsa içində Deksterin toy nitqi yazılmış 40 kb-lıq "toy_nitqi.doc" adlı fayl vardı. Birinci toyundakı küt, rabitəsiz nitqi hələ də yaddaşında dipdiriydi; buna görə də işini bu dəfə qaydasında görmək üçün mətnin üstündə əvvəlcədən işləmək qərarına gəlmişdi.

Beləcə, yeni mətn belə alınmışdı:

Bəylik nitqi

Başgicəllədən bir sevgidən sonra! Və s. və s.

Bizim necə tanış olmağımız. Universitetdə birgə oxuyurduq, ancaq mən onu tanımırdım. İkicə dəfə görmüşdüm. Həmişə, nəsə, acıqlı olardı, saçları qorxunc şəkildəydi. Şəklini göstərməli? Məni gicbəsər sayırdı. Dar şalvarlar geyərdi, ya da bu mənə belə gəlir. Nəhayət, tanış olduq. Atama faşist deyirdi.

[1] Amerikalı caz pianoçusu və bəstəçisi.

Telegram: @cinciva

Dostlaşdıq. Sarsaq olmağım. Xoşbəxtliyin burnumun ucunda olduğunu görə bilməməyim. (Bayağılıq)

Bundan belə, Emi təsvir eləmək. Yumor hissi. Ağlı. Yaxşı rəqs eləyir, ancaq yemək bişirməsi dəhşətdi. Saysız-hesabsız gözəl cəhətləri. Əla musiqi zövqü. Tez-tez dilləşirik. Ancaq onunla həmişə gülərək danışa bilirik. Özü bunu çox vaxt anlamasa da, gözəldi və s. və i.a. Jasminlə, hətta keçmiş arvadımla çox yaxşı yola gedir! Ho-ho-ha. Onu hamı çox istəyir.

Uzun zamanın ayrılığı. Sonra Paris haqda.

Axır ki, birlikdəyik, az qala, 20 illik tanışlıqdan sonra başgicəlləndirici eşq, hər şey öz yoluna düşüb. Dostlar deyir ki, bilirdik, sonunda belə olacaq. Ömrümün ən xoşbəxt çağıdı.

İkinci toyumun olduğunu bilmək. Bu dəfə heç bir yanlışlığa yol verməyəcəm və b. Dadlı yeməyə görə təşkilatçılara təşəkkürlər. Məni öz ailələrinə qəbul etdikləri üçün Syuya və Cimə minnətdarlıq etmək. Özümü fəxri yokşirli hiss edirəm (burada zarafatlar). Teleqramları oxuyummu? Gəlməyən dostların vurduğu. Heyif ki, anam bu gün yanımızda deyil. O, mənimlə qürur duyardı. Axır ki!

Nə isə, içək mənim gözəl həyat yoldaşımın sağlığına, filan-filan-filan-filan...

Bu, hələ vur-tut başlanğıcdı, ancaq plan tuturdu. Həvəslə işləməyə başladı; şriftləri Kuryerdən Ariala, sonra Tayms Nyu Romana, sonra da yenidən birinciyə çevirdi; bəzi yerləri seçdirdi, sözləri saydı, təzə sətirlər arasındakı aralığı böyüdüb sahəni genişlətdi ki, mətn daha aydın nəzərə çarpsın.

Sonunda nitqi yazılanla tutuşdura-tutuşdura bir vaxtlar televiziyadakı çıxışlarını xatırlamağa çalışaraq səslə oxumağa başladı:

– Öncə bu gün buraya təşrif buyuran bütün qonaqlara təşəkkürümü bildirmək istəyirəm...

Telegram: @cinciva

Birdən başının üstündəki döşəmədən cırıltı səsi eşitdi, tez kompyuteri bağlayıb divanın altına soxdu və "Uğultulu təpələr"i oxumaq üçün uzandı.

Çılpaq, yuxulu Emma aşağı enməyə başladı, pilləkənin ortasında dayanıb dizlərini qucaqlayaraq oturdu.

– Saat neçədi? – əsnəyərək soruşdu.

– Ona iyirmi dəqiqə qalıb. Nəsə, biz çox gəzmişdik, Em!

Emma bir də əsnədi.

– Məni lap əldən saldın, ay ayğır, – gülə-gülə dedi.

– Bir şey geyinsənə.

– Bəs sən neynirsən?

Dekster kitabı qaldırıb göstərdi.

– "Sevgisiz yaşaya bilmirəm! Ürəksiz yaşaya bilmirəm!" Yoxsa "ruhsuz sevmək"di? Ya "sevgisiz boğulmaq?" Unutmuşam.

– Mən hələ orasına çatmamışam. Hələ ki söhbət hansısa Nellidən gedir.

– İnan ki, ardı lap maraqlıdı.

– Deyirdin, burada niyə televizor yoxdu?

– Biz özümüz özümüzü əyləndirməliyik. Gəl yataqda danışaq.

Dekster qalxdı, pilləkənə yaxınlaşıb, sürahidən əyilərək onu öpdü:

– Ancaq söz ver ki, məni sevişməyə məcbur eləməyəcəksən.

– Bəs onda nə ilə məşğul olacağıq?

– Bilirəm, sənə qəribə gələcək, – Dekster sıxılaraq dedi, – ancaq mən səninlə böyük həvəslə "Skrəbbl" oynayardım.

Telegram: @cinciva

XVII Fəsil

Orta

15 İyul 2004, Cümə axşamı

Belsayz Park

Deksterin üzündə nəsə qəribə dəyişikliklər baş verirdi.

Yanaqlarının yuxarısında, gözünün qıyında qalın, qara, qaşlarından isə eyni cür boz tüklər çıxmağa başlamışdı. Elə bil bu azmış kimi sırğalığının dibində, qulağının içində solğun rəngli xəz meydana çıxırdı; bu cür tüklər vəzəri kimi bir günün içində böyümüş görünür və diqqəti orta yaşa yaxınlaşdığına cəlb etməkdən başqa heç bir məqsədə xidmət etmirdi. O artıq orta yaşlıydı.

Bundan başqa, xüsusilə duşdan sonra gözə çarpan, alnının ortasında, saç ayrıcının olduğu yerdə V şəklində bir hissə vardı; xəfif dazlaşma hiss olunurdu, iki paralel xətt yuxarı tərəf yollarını tədricən genişləndirərək gedirdi; bu yollar bir gün birləşəcək və hər şey bitəcəkdi. O, dəsmalla saçını quruladı, sonra barmağının uclarıyla yolların üstü örtülənə qədər saçlarını qarışdırdı.

Deksterin boğazında da qəribə yeniliklər gözə dəyməyə başlamışdı. Çənəsinin altında buxaq əmələ gəlmişdi; tam bir rüsvayçılıq torbası. Hamam güzgüsünün qarşısında çılpaq dayananda bir əlini boğazına qoydu, elə bil boynunu gizlətməyə çalışırdı. Bu, uçmuş bir evdə yaşamağa bənzəyirdi; hər səhər oyananda gecə təzəcə dağılmış qatların dağıntılarını görürdü. Təzə-təzə hiss olun-

Telegram: @cinciva

mağa başlayan qarnı vardı və ən gülməlisi, döşünün giləsinə qəribə nəsə olurdu. Artıq əyninə yapışan dar köynəklərini, bəzi yun poliverlərini artıq geyinə bilmirdi, çünki onu qadına bənzədən döşünün gilələri nəlbəki kimi çıxıb onu iyrənc görsədirdi. Kapyuşonlu bir şey geyinəndə də çox axmaq görünürdü; hələ keçən həftə *"Bağbanın sual vaxtı"* proqramına qulaq asarkən bayıldığını hiss eləmişdi. İki həftə sonra qırx yaşı olacaqdı.

Başını silkələdi, öz-özünə bunun o qədər də qorxunc bir şey olmadığını dedi. Qəfildən özünə çevrilib baxdığı zaman başını da lazımı şəkildə tutub, nəfəsini içinə çəksə, otuz yeddi yaşındakı kimi görünə bilərdimi? Hələ də son dərəcə yaxşı görünüşlü sayıla bilməyinə kifayət edəcək qədər şöhrətə sahib olduğunu bilirdi, amma daha heç kim onu "möhtəşəm" adlandırmazdı, üstəlik hələ bundan daha betər yaşlanacağını heç fikrindən çıxarmırdı. Haçansa ümid eləyirdi ki, bir kino ulduzu kimi yaşlanacaq: elastik, qartal burunlu, boz saçlı və təcrübəli. Əvəzində isə o, televiziya aparıcısı kimi yaşlanırdı. Keçmiş televiziya aparıcısı kimi. Həddindən çox pendir yeyən, iki dəfə evlənmiş, keçmiş televiziya aparıcısı.

Emma yataq otağından çılpaq gəldi, Dekster dişlərini fırçalamağa başladı; bu da başqa bir azarıydı; ona elə gəlirdi ki, ağzı bir də heç vaxt əvvəlki kimi təmiz olmayacaq.

– Kökəlirəm, – Dekster köpüklə dolu ağzıyla mızıldandı.

– Yox, kökəlməmisən, – Emma inamsız şəkildə dedi.

– Kökəlirəm... bax.

– Onda o qədər pendir yemə.

– Elə bil bir az əvvəl kökəlmədiyimi dedin e.

– Elə hiss edirsənsə, demək, eləsən.

– Üstəlik mən həddindən artıq pendir də yemirəm. Metabolizmam azalır, vəssalam.

Telegram: @cinciva

– Onda bir az hərəkət elə. Yenidən gimnastikaya get. Mənimlə üzməyə gəl.

– Vaxtım yoxdu, bəlkə var? – Diş fırçasını ağzından çıxardığı anda Emma onu təsəlli vermək istəyər kimi öpdü. – Bura bax, zibilliyə döndüm, – deyə Dekster mızıldandı.

– Sənə əvvəl də demişdim, əzizim, gözəl döşlərin var, – Emma deyib güldü, ombasından itələyib duşa tərəf irəlilədi. Dekster ağzını yaxaladı, hamam stulunda oturub ona baxmağa başladı.

– Günorta gedib o evə baxmalıyıq.

Emma duşdan mızıldandı: – Mütləq getməliyik?

– Başqa cür necə taparıq, bilmirəm...

– Yaxşı. Yaxşı! Gedib görərik evi.

Emma arxası ona tərəf yuyunmağa davam elədi, Dekster orada gözlədi, Emma geyinmək üçün yataq otağına gedəndə yavaş-yavaş yaxınlaşdı. Axır vaxtlar gərgin və əsəbiydilər; Dekster özözünə bunun yaşamağa yer tapmalı olduqlarının gərginliyindən qaynaqlandığını deyirdi. Qaldıqları mənzil artıq satılmışdı, özlərinə yer açа bilmək üçün əşyalarının böyük hissəsini anbara yığmışdılar. Kirayələmək üçün tezliklə yer tapmasalar, bu narahatlıq və gərginlik davam edəcəkdi.

Amma Emma çaydanın qızmağını gözləyə-gözləyə qəzet oxuyarkən Dekster başqa nəsə olduğunu da bilirdi və buna kifayət qədər əmin idi. Emma qəfildən danışdı:

– Aybaşı olmuşam.

– Nə vaxt? – Dekster soruşdu.

– Elə indi, – Emma soyuqqanlılığını qorumağa çalışaraq dedi. – Gəldiyini hiss edə bilirəm.

– Ah, yaxşı, – Dekster dedi; Emma arxası ona sarı dayanıb, qəhvə hazırlamağa davam etdi.

O, qollarını Emmanın belinə dolayıb yavaşca boynunun arxasını öpdü; hələ də bir az yaşdı. Emma gözünü qəzetdən çək-

Telegram: @cinciva

mədi. – Problem deyil. Biz bir daha sınayarıq, hə? – Dekster dedi; çənəsi Emmanın çiynində bir müddət dayandı. Cəlbedici, amma narahat duruşdu; Emma qəzetin səhifəsini çevirəndə Dekster başa düşdü ki, bu, onun stola geri qayıtmalı olduğuna işarədi.

Oturub oxuyurdular; Emma gündəlik, Dekster isə idman xəbərlərini. Emma öz-özünə deyinib başını bəzən etdiyi kimi qıcıqlandırıcı tərzdə silkələməyə başlayana qədər ikisi də gərgindilər. Manşet xəbərləri, əsasən, İraq müharibəsinin mənşəyinə dair Batler İstintaqı və xüsusi xidmət orqanlarının İraqdakı kəşfiyyat əməliyyatlarının üstündəydi; Dekster Emmanın aktual siyasi şərhlər üçün alışıb-yandığını yaxşı bilirdi. O, axırda fikrini Uimbldon xəbərlərinə cəmləşdirməyə çalışdı, amma...

– Qəribədi, hə? Müharibə gedir, etiraz eləyən də yoxdu? Yəni, səncə, nümayiş-zad olmayacaq?

Bu səs tonu Deksteri əsəbiləşdirirdi. Bu onun illərdən bəri xatırladığı bir şey idi; Emmanın üstün və özünün haqlı olduğuna əmin tələbə səsi. Dekster, sadəcə, mübahisə yaratmayacaq bir səs çıxardı, nə meydan oxuyan, nə də qəbul edən səs; bunun kifayət edəcəyinə ümid edirdi. Vaxt keçdi, qəzetin səhifələri çevrildi.

– Yəni adam anti-Vyetnam hərəkatı kimi nəsə gözləyir, amma ortada heç nə yoxdu. Hər kəsin, sadəcə, çiyinlərini çəkib sonra evə getdiyi bircə dənə yürüş belə. Hətta universitet tələbələri də etiraz etmir!

– Universitet tələbələrinin buna nə dəxli var? – Dekster kifayət qədər yumşaq olduğunu fikirləşdiyi ifadəylə dedi.

– Bu, ənənəvi bir şeydi, elə deyil? Tələbələr siyasətə bağlıdılar. Əgər hələ də tələbə olsaydıq, biz etiraz edərdik. – Yenidən qəzetə baxdı. – Şəxsən mən mütləq edərdim.

Emmanı qızışdırırdı. *Gözəl, əgər bunu istəyirsə.* – Onda niyə etmirsən?

Emma diqqətlə baxdı. – Nə?

Telegram: @cinciva

– Etiraz. Əgər bu qədər çox istəyirsənsə.

– Elə bunu demək istəyirdim də. Bəlkə də etməliyəm! Əgər təşkilatlı hərəkat olsaydı...

Dekster sakit qalmağa çalışaraq üzünü qəzetə çevirdisə də, bacarmadı. – Ya da adamlar veclərinə almırlar bəlkə də.

– Nəyi? – Emma gözlərini qıyaraq baxdı.

– Müharibəni. Məncə, əgər adamlar, həqiqətən də, narahat olsaydılar, etiraz edərdilər, amma bəlkə də adamın getməyinə sevinirlər. Bilmirəm, fikir vermisən ya yox, ancaq Em, o çox da yaxşı adam deyildi...

– Həm Səddamın gedişinə sevinib, həm də müharibəyə qarşı ola bilərsən.

– Bu, mənim fikrimdi. Bir az ikibaşlıdı, elə deyil?

– Necə yəni, sən elə fikirləşirsən ki, bu olduqca ədalətli müharibədi?

– Yox, mən yox. Adamlar elə fikirləşir.

– Yaxşı, bəs sən? – Emmanın qəzeti bağlamağıyla Dekster əsl narahatlıq hiss etdi. – Sən nə fikirləşirsən?

– Mən nə fikirləşirəm?

– Sən nə fikirləşirsən?

Dekster ah çəkdi. Artıq çox gecdi, geriyə yol yoxdu. – Mən, sadəcə, fikirləşirəm ki, solçulardan çox adamın Səddamın qətlə yetirdiyi adamları dəstəkləməli olduğu halda, müharibəyə qarşı olmaları çox maraqlıdı.

– Məsələn, kimləri?

– Həmkarlar İttifaqı hərəkatı xadimlərini, feministləri, homoseksualları. – Bəlkə kürdlər deyəydi? Bu, düzgün olardımı? Bunu sınamaq qərarına gəldi. – Kürdləri!

Emma haqlı olaraq fısıldayırdı: – Ah, bizim Həmkarlar İttifaqı hərəkatı xadimlərini qorumaq üçün müharibə ilə mübarizə apardı-

Telegram: @cinciva

ğımızı fikirləşirsən? Səncə, Buş iraqlı qadınlar, ya da homoseksuallar üçün narahat olub İraqı işğal etdi?

– Demək istədiyim odur ki, əgər eyni adamlar əvvəldən İraq rejiminə qarşı etiraz etmiş olsaydılar, müharibəyə qarşı nümayişlərin mənəvi qiyməti daha çox olacaqdı! İrqi ayrı-seçkiliyə etiraz edirdilər, İraqa niyə etiraz etmədilər?

–... Bəs İrana? Çinə, Rusiyaya, Şimali Koreyaya, Səudiyyə Ərəbistanına! Sən hamıya etiraz edə bilməzsən.

– Niyə? Sən edərdin!

– Mövzu bu deyil!

– Elə deyil? Səni təzə tanıyanda bütün işin-gücün nələrisə boykot etmək idi. Sən şəxsi məsuliyyət barədə nəsihət vermədən lənətə gəlmiş Mars vaflisini belə yeyə bilməzdin. İndi maraqsız olmağın mənim günahım deyil...

Üzündə özündənrazı balaca süni təbəssümlə gülünc idman xəbərlərinə qayıtdı; Emma üzünün qızarmağa başladığını hiss etdi. – Mən maraqsızlaşmamışam... Mövzunu dəyişdirmə! Məsələ burasındadı ki, bu müharibənin insan hüquqlarıyla, kütləvi qırğın silahlarıyla, ya da buna bənzər şeylərlə bağlı olduğunu iddia etmək çox gülüncdü. Bu müharibə yalnız və yalnız bir şeylə...

Dekster inildədi. Bu, artıq qaçılmaz idi: "Neft" deyəcəkdi. *Lütfən, lütfən "neft" demə...*

-... İnsan hüquqları ilə heç bir əlaqəsi yoxdu. Bu, tamamilə neftlə bağlıdı!

– Yaxşı, bu, əla səbəb deyil? – dedi, stulunu qəsdən cırıldadaraq ayağa qalxdı. – Yoxsa sən neftdən istifadə etmirsən, Em?

Axırıncı sözlər ağzından çıxanda çox təsirli olduğunu hiss etdi, amma qəfildən həddindən artıq kiçik və qarmaqarışıq görünən subaylıq mənzilində mübahisədən qaçmaq çətindi.

Telegram: @cinciva

Emma belə axmaq bir sözü qətiyyən cavabsız qoymaq fikrində deyildi. Arxasıyca zala getdi, Dekster orada onu gözləyirdi, ikisini də narahat edən hiddətlə çevrildi.

– Mən sənə bunun *həqiqətən* nə ilə bağlı olduğunu deyim. Xəstələndiyinə görə acıqlısan, hirsini də məndən çıxarırsan! Yaxşı, ancaq mən səhər yeməyimi yediyim vaxt nəsihətə qulaq asmağı xoşlamıram!

– Mən sənə nəsihət vermirəm...

– Onda mübahisə deyək...

– Mübahisə etmirik, müzakirə edirik...

– Elə? Yox, mən mübahisə edirəm...

– Sakit ol, Deks...

– Müharibə mənim ideyam deyil, Em! İşğalı da sifariş verən mən deyiləm, özüm də təəssüf edirəm, bu məsələ məni səni maraqlandırdığı qədər maraqlandırmır. Bəlkə də narahat olmalıydım, bəlkə narahat oluram, amma indi maraqlanmıram. Mən bilmirəm niyə, bəlkə də həddindən artıq *axmağam*...

Emma heyrətlə baxdı: – Bu, nə sözdü? Mən sənə axmaq dedim?..

– Amma sən mənimlə axmaq kimi davranırsan. Ya da müharibə haqqında şablon sözlərlə boşboğazlıq etmədiyim üçün bu sağçı başı xarablardanmışam kimi. Əgər bir axşam ziyafətində oturub kiminsə: "Bütün bunlar neftlə bağlıdı!" dediyini eşitsəm, söyərəm. Bəlkə də elədi, ancaq nə olsun? Ya buna etiraz edərsən, ya neftdən istifadə etməyi dayandırarsan, ya da ağzını yumarsan!

– Nə badə bunu mənə deyəsən...

– Demədim! Mən demədim... ah, unut getsin!

Emmanın *dəhlizi* darmadağın edən lənətə gəlmiş velosipedini kənara itələyib yataq otağına getdi. Pəncərə pərdələri hələ də örtülüydü; yataq dağınıq, nəm dəsmallar yerdə, otaqda bədənlərinin bir gecə əvvəlki qoxusu vardı. Qaranlıqda açarlarını axtarmağa

Telegram: @cinciva

başladı. Emma o dəliedici baxışlarıyla qapının arasında dayanıb ona baxırdı, o isə baxışlarını başqa yerə qaçırdırdı.

– Siyasəti müzakirə etməkdən niyə bu qədər utanırsan? – Emma isterikası olan uşaqla danışırmış kimi sakit-sakit dedi.

– Utanmıram, sadəcə... darıxıram. – Paltar səbətindəki kirli paltarları qarışdıraraq açarlarını tapmaq üçün şalvarlarının ciblərini eşələdi. – Siyasəti cansıxıcı hesab edirəm. Demişəm axı!

– Doğrudan?

– Bəli, doğrudan.

– Universitetdə də?

– Xüsusilə orada! Sadəcə, özümü yalandan elə göstərirdim, əslində, maraqlanmırdım, çünki elə etmək lazım idi. Səhər saat ikidə oturub Coni Mitçelə[1] qulaq asarkən bəzi klounlar irqi ayrıseçkilik, ya da nüvə tərki-silahı haqqında danışırdılar, mən isə: "*lənət olsun*, – deyə fikirləşirdim, – *başqa şeylərdən danışa bilmərik, nə bilim, ailədən, musiqidən, seksdən, adamlardan və s...*"

– Siyasət elə *adamdı* da!

– Bu, nə deməkdi, Em? Mənasızdı elə bil...

– Bu, o deməkdi ki, biz çox şey haqqında danışdıq!

– Danışdıq? O qızıl günlərdən xatırladığım, sadəcə, nümayişə çıxan adamlar, xüsusilə qızların tumanlarının içinə girə bilmək üçün feminizm haqqında gəvəzələyən oğlanlar. Onlar, sadəcə, hamının bildiklərini deyirdilər: Cənab Mandela yaxşı adamdı, nüvə müharibəsi pisdi, kimlərsə oralarda acından ölür – bu necə də dəhşətdi...

– Heç də belə deyildi!

–... Yenə də eynən həminki olur, sadəcə, qanayan yara başqadı. İndi mövzu qlobal istiləşmə, bir də Bleyrin məmləkəti satmağıdı!

---

[1] Kanada müğənnisi və mahnı müəllifi.

Telegram: @cinciva

– Razılaşmırsan?

– Razılaşıram! Hə, razılaşıram! Mən, sadəcə, tanıdığımız kiminsə çıxıb, *"Buş bu qədər axmaq ola bilməz, Allaha şükür, bu faşist diktatorun da qarşısına kimsə çıxdı, yeri gəlmişkən, böyük avtomobilimi sevirəm"* kimi şeylər deməyini eşitmək istəyirəm. Çünki bu sözlər səhv ola bilər, amma, ən azı, orada haqqında danışılası nə isə olacaq! Onlar, ən azı, özlərini əzizləməli olmayacaqlar, ən azı, kütləvi qırğın silahlarından, məktəblərdən və bu lənətə gəlmiş ev qiymətlərindən başqa danışmağa bir şey olacaq.

– Hey, sən də ev qiymətlərindən danışırsan!

– Bilirəm! Mən özümü də darıxdırıram! – Dünənki paltarlarını divara tullayarkən qışqırığı əks-səda verdi, sonra pərdələri hələ də örtülü, dağınıq çarpayısı düzəldilməmiş alaqaranlıq yataq otağında dayandılar.

– Yaxşı, bəs mən səni darıxdırıram? – Emma sakitcə dedi.

– Gülünc olma! Mən bundan danışmıram! – Qəfildən Dekster taqətdən düşüb çarpayıda oturdu.

– Yox, darıxdırıram, ya yox?

– Yox, darıxdırmırsan. Gəl mövzunu dəyişdirək, olar?

– Yaxşı, hansı mövzuda danışmaq istəyirsən? – Emma dedi.

O, çarpayının qırağında beli bükülü oturub, üzünü əllərinin arasına aldı. – Biz yalnız on səkkiz aydı çalışırıq, Em.

– İki ildi.

– İki il olsun. Bilmirəm, sadəcə... mən sənin bu baxışına nifrət edirəm.

– Hansı baxışıma?

– İşlər yaxşı getməyəndə mənə günahkarmışam kimi baxmağından.

– Elə etmirəm!

– Amma elə hiss edilir.

Telegram: @cinciva

– Bağışla. Üzr istəyirəm. Mən, sadəcə... məyus oldum. Həqiqətən, çox istəyirəm, vəssalam.

– Mən də istəyirəm!

– İstəyirsən?

İncimiş görünürdü. – Əlbəttə ki, istəyirəm!

– Çünki əvvəldən sən istəməmişdin də.

– Amma indi istəyirəm. Mən səni sevirəm. Bunu bilirsən.

Emma otağa keçib yanında oturdu, bir müddət çiyinlərini qısıb əl-ələ oturdular.

– Bura gəl, – Emma dedi, yatağa arxası üstə uzandı, Dekster də onun kimi; ayaqlarını çarpayının qırağından salladı. Pərdələrin arasından bulanıq işıq şüası sızırdı.

– Acığımı səndən çıxdığıma görə peşmanam.

– Mən də peşmanam... bilmirəm.

Emma Deksterin əlini qaldırıb dodaqlarına basdı. – Bilirsən, məncə, yoxlanmağa getməliyik. Bir doğum klinikasına, ya nəyəsə getməliyik. İkimiz də.

– Bizim heç bir problemimiz yoxdu.

– Bilirəm, elə bunu təsdiqlədəcəyik.

– İki il o qədər də uzun müddət deyil. Niyə daha altı ay da gözləməyək?

– Məsələ burasındadı ki, bundan sonra daha altı ayım olacaq, ya olmayacaq, bilmirəm.

– Axmaqlama.

– Gələn apreldə otuz doqquz yaşım olacaq, Deks.

– Mənim də iki həftə sonra qırx!

– Dəqiq.

Dekster yavaş-yavaş nəfəs verdi, sınaq şüşələrinin görüntüsünü gözlərinin önündən keçirdi. Adamı əsəbiləşdirən kabinələr, rezin əlcəkli tibb bacıları, jurnallar. – Yaxşı onda. Bir az test etdirək. – Emmaya tərəf çevrildi. – Yaxşı, bəs növbəni nə edəcəyik?

Telegram: @cinciva

Emma ah çəkdi. – Deyəsən, bir az gözləməli olacağıq, bilmirəm. Şəxsi həkimə gedərik.

Dekster bir müddət sonra dilləndi: – Allahım, indi dediyini nə vaxtsa deyəcəyini heç vaxt fikirləşməzdim.

– Hə, mən də, – Emma dedi. – Mən də.

Otaqda kövrək bir sülh varkən Dekster işə getmək üçün hazırlaşdı. Bu axmaq söz savaşı üzündən gecikmişdi, amma, ən azından, indi Belvil Kafedə işlər yolunda gedirdi. İşə ağıllı və etibarlı müdir götürmüşdü – Meddi. Yaxşı işgüzar əlaqələri vardı və bəzən bir-birilə əndazədə mazaqlaşırdılar, artıq kafeni səhər erkəndən açmalı olurdu. Aşağı düşərkən Emma onu arxadan süzdü, birlikdə tutqun və təsvir oluna bilməyən günə çıxdılar.

– Bəs ev haradadı?

– Kilbörndə. Ünvanı sənə göndərəcəyəm. Şəkillərdə qəşəng görünür.

– Şəkillərdə hamısı yaxşı görünür, – Emma mızıldandı; öz səsi qulağına darıxdırıcı və cansıxıcı gəldi. Dekster susmaq qərarına gəldi; Emmanın qollarını Deksterin belinə dolamağa özünü hazır hiss etməyi üçün bir dəqiqə keçməli oldu. – Bu gün çox yaxşı deyilik, elədi? Ya da mən deyiləm. Üzr istəyirəm.

– Hər şey yaxşıdı. Bu gecə bir yerə çıxmarıq, baş-başa qallıq. Sənə yemək bişirərəm, ya da harasa gedərik. Kinoya, ya da başqa bir yerə. – O, üzünü Emmanın başına söykədi. – Səni sevirəm, bu problemi də həll edəcəyik, yaxşı?

Emma sakitcə qapının astanasında dayandı. Düzgün hərəkət onun da Deksteri sevdiyini demək olardı, amma hələ də ürəyindən bir az sıxıntı yaratmaq keçirdi. Lançа qədər qaşqabağını tökmək qərarına gəldi, axşama könlünü alardı. Bəlkə hava açsa, əvvəllər olduğu kimi Primroz təpəsinə gedib otura bilərdilər. Əsas odur ki, Dekster itib-batmayacaq, hər şey də qaydasında olacaq.

Telegram: @cinciva

– Gecikirsən, get, – Emma mızıldandı. – Meddini çox gözlətmə.

– Başlama.

Emma qımışaraq ona baxdı: – Bu axşam səni əyləndirərəm.

– Nəsə əyləncəli bir şey taparıq.

– Hə, əyləncəli.

– Biz hələ də şənik, elə deyil?

– Əlbəttə, – Emma dedi və öpüb Deksterlə sağollaşdı.

Onlar hələ də şəndilər, baxmayaraq ki, bu, indi tam başqa səbəbdəndi. Bütün o həsrət, əzab, ehtiras davamlı məmnunluq, həzz və ara-bərə ortaya çıxan hirslə əvəz olunmuşdu; Emma bu dəyişiklikdən razıydı; həyatında bundan əvvəl də belə xoşbəxt anlar olmuşdusa da, heç vaxt belə daimi olmamışdı.

Bəzən, sadəcə, sevgilərinin yox, dostluqlarının ilk günlərindəki sıx münasibitləri də itirdiklərini fikirləşirdi. Gecə yarısına qədər hamısı da dəli-dəli fikirlərlə, ehtiraslı mənalarla, nida işarələri və altından xətt çəkilmiş cümlələrlə dolu, on səhifələrlə məktub yazdığı vaxtları xatırladı.

Bir vaxtlar saatlarla sürən telefon danışıqlarından sonra yatağa getməmişdən əvvəl gündəlik açıqcalar da yazmışdı. Söhbət edib vala qulaq asaraq səhərə qədər oyaq qaldıqları Dalstondakı o mənzildə qaldıqları vaxtda söhbətlərinə, sadəcə, günəş qalxmağa başlayanda, ya da Yeni ilin ilk günündə çayda üzmək üçün Deksterin atasıgilə gedəndə və ya Çin məhəlləsindəki gizli barda apsent içməyə getdikləri axşamüstüləri bir ara kəsərdilər; bu anların hamısı və daha çoxu qeyd dəftərlərində, məktublarda, şəkil dəstələrində, sonsuz fotolarda gizlənib saxlanmışdı. Vaxt vardı – doxsanıncı illərin əvvəlləri olardı, – bir-birinə görüntülərini bağışlamaq üçün itələşə-itələşə fotoşəkil kabinəsinin içinə girməli olurdular.

Telegram: @cinciva

Amma indi, sadəcə, kiməsə bax, sadəcə, otur, bax, danış və bu səhəri anlamağa çalış. Bu günlərdə kimin bütün gecəni danışaraq oyaq qalmaq üçün vaxtı, həvəsi, ya da enerjisi var ki? Üstəlik nə danışacaqsınız? Əmlak qiymətlərindənmi? O, gecə yarısı uzun telefon söhbətlərinə öyrəşmişdi; bu günlərdə əgər telefon gecə yarı zəng çalırdısa, demək, bədbəxt hadisə baş verib, bir-birinin üzünü bu qədər yaxşı tanıdıqları halda və ayaqqabı qutuları, təxminən, iyirmi illik arxivlə basabas doluykən, şəkil çəkmələrinə, həqiqətən, ehtiyac vardımı? Bu günlərdə və bu yaşda kim uzun məktublar yazır, bir də, bunca əhəmiyyət veriləcək nə qədər şey var ki?

Bəzən özünün iyirmi iki yaşındakı halının bugünkü Emma Morli haqqında nə fikirləşəcəyini bilmək istəyirdi. Onu eqoistmi hesab edərdi? Kompromisə gedənmi? Ev sahibi olmaq, səyahət etmək, Parisdən paltarlar almaq və bahalı saç düzümləri etdirməkdən ötrü ruhunu satan burjuymu? O, özünü yeni soyadı və ailə həyatı ümidləriylə yaşayan sıradan biri kimi görürdümü? Ola bilər, amma, onsuz, iyirmi iki yaşlı Emma Morli də o qədər nümunəvi adam deyildi: iddialı, tez acıqlanan, tənbəl, tündxasiyyət, sağlam düşüncəli. Özünə yazığı gələn, özünün haqlı olduğuna əmin olan, özünü təkəbbürlü aparan, ən çox ehtiyacı olan özünəinamdan başqa bütün "öz"lərə sahib biri.

Yox, elə hiss edirdi ki, bu, real həyatdı və o, əvvəllər olduğu qədər hər şeylə maraqlanan, ya da ehtiraslı deyildi; bu da gözlənilən bir şeydi. Otuz səkkiz yaşındaykən, iyirmi iki yaşındakı kimi coşqulu və sıx dostluqlar, ya da sevgi münasibətləri yaşamaq yersiz və nalayiq olmalıydı. O şəkildə aşiq olmaq? Şeir yazıb, pop mahnılarına ağlamaq? Adamları fotoşəkil kabinələrinə dartışdırmaq, bütün gününü kaset hazırlayacağam deyə keçirmək, adamlardan, sadəcə, dost kimi çarpayılarını bölmək istəyib-istəmədiklərini soruşmaq? Bu günlərdə Bob Dilan, ya da T.S. Eliot, ya da, Allah qorusun, Brextdən sitat gətirməli olsan, adamlar nəzakətlə

Telegram: @cinciva

gülümsəyib, sakitcə çıxıb gedərdilər və onları kim ittiham edə bilərdi ki? Otuz səkkiz yaşında bir mahnı, filmin, ya da bir kitabın həyatınızı dəyişdirməyini gözləmək gülüncdü. Yox, hər şey sakitləşib yoluna düşmüşdü və həyat ümumi mənada komfort, məmnunluq və yaxınlıq uğultusundan bir fon qarşısında yaşanmağa davam edirdi. Artıq orada əsəbləri yerindən oynadan eniş-yoxuşlardan heç bir əsər-əlamət yoxdu. Dostları artıq beş, on, iyirmi illik dostlarıydı. Qəribə şəkildə nə daha varlı, nə də daha kasıb olmaq istəyirdilər; yalnız hələ bir müddət də sağlam qalmağa ümid edirdilər. Ortada tutulmuşdular; orta sinif, orta yaş; həddini aşmadan xoşbəxt idilər.

Nəhayət, kiməsə aşiq olmuşdu və sevgisinin qarşılıqlı olduğuna da olduqca arxayın idi. Bəzən partilərdə olduğu kimi kimsə Emmadan əriylə necə tanış olduğunu soruşsa, onlara: "Biz birlikdə böyüdük", – deyərdi.

Beləliklə, onlar adəti üzrə olduğu kimi işləmək üçün ayrıldılar. Emma ağaclarla örtülü küçəyə baxan pəncərənin yanındakı kompyuterində oturdu, *"Culi Kriskoll"* romanının beşinci və son bölümünü yazmağa başladı. Romanın qadın qəhrəmanı kifayət qədər qəribə şəkildə hamilə qalıb, universitetlə analıq arasında seçim etməyə məcbur olur. Roman çox da yaxşı getmirdi; atmosfer həddindən artıq pessimist, introspektiv idi, zarafatlar axıcı deyildi. Bitirməyə can atırdı və daha sonra nə edəcəyindən, ya da nə edə biləcəyindən hələ əmin deyildi; bəlkə yeniyetmələr üçün bir kitab, ya İspaniya vətəndaş müharibəsi haqqında yaxşı tədqiq edilmiş ciddi kitab, ya da yaxın gələcək haqqında nə isə; bəlkə Marqaret Etvudvari, nə isə. Bu, hər halda, bir ideya idi. Həmin vaxtda evi yığışdırıb təmizlədi, çay dəmlədi, bəzi kommunal xərcləri ödədi, CD-ləri qutularına qoydu, nəhayət, geri dönüb boyun əymə duyğusu içində kompyuterinə baxdı.

Telegram: @cinciva

Kafedəsə Dekster bir az Meddiylə eşqbazlıq etdi, sonra inanılmaz dərəcədə pendir qoxusu gələn kiçik anbarda oturub üç rüblük Əlavə Dəyər Vergisi qaytarmalarını tamamlamağa çalışdı. Amma bu səhərki mübahisənin ağırlığı və günahkarlıq duyğusu hələ də canından çıxmadığı və fikrini işə cəmləyə bilmədiyi üçün telefonu götürdü. Barışdırıcı zənglər etmək, könül almaq, aranı düzəltmək əvvəllər Emmanın işiydi, amma son səkkiz ayda, evləndiklərindən bəri yerlərini dəyişdirmiş görünürdülər və o, indilər Emmanın bədbəxt olduğunu bilə-bilə başqa bir işlə məşğul olmağa özündə gücü tapa bilmirdi. Nömrəsini yığarkən Emmanın stolunda oturduğunu, telefona baxdığını və ekranda onun adını görən kimi telefonu söndürəcəyini təsəvvür elədi. Telefona cavab verilməyəcəyi vaxtlarda daha asan olan yolu seçdi.

– Salam, əzizim, ƏDV-ləri hazırlaya-hazırlaya sənin haqqında fikirləşirəm, sadəcə, demək istədim ki, narahat olma. Saat beşdə evə baxmaq üçün tədbir görmüşəm. Sənə ünvanı mesajla göndərirəm, hə... kim bilir. Görəcəyik. Dövri mülkiyyət, uyğun ölçülü otaqlar. Hətta bir səhər yeməyi barı da var. Bunu həmişə arzuladığını bilirəm. Bu qədər. Bundan başqa, demək istəyirəm ki, səni sevirəm və narahat olma. Nə üçün narahat olursansa, daha olma. Hələlik bu qədər. Saat beşdə görüşərik. Səni sevirəm. Hələlik.

Həmişə olduğu kimi, Emma saat ikiyə qədər işlədi, lanç yedi, sonra üzməyə getdi. İyulda bəzən Hampstid Hisdəki qadınlar hovuzuna getməyi xoşlayardı, amma hava qorxuducu dərəcədə qaralmış və tutulmuşdu, o da əvəzində bina içindəki hovuzda yeniyetmə uşaqlara meydan oxumağa qərar verdi. Uşaqlar məktəblərin tətilə çıxmağının gətirdiyi azadlıqla manyaklaşmış şəkildə suya atılıb-çıxdığı, bir-birilərilə oynaşdığı iyirmi dəqiqə onların aralarında bədbəxt şəkildə çırpındı. Daha sonra soyunma otağında oturub Deksterin mesajına qulaq asdı, gülümsədi. Evin ünvanını əzbərləyib Deksterə zəng vurdu.

Telegram: @cinciva

– Salam. Mənəm. Sadəcə, indi yola çıxdığımı və səhər yeməyi barını görmək üçün səbirsizləndiyimi demək istəyirəm. Beş dəqiqə gecikə bilərəm. Hə, mesajın üçün də təşəkkür edirəm, demək istəyirəm ki... çox səbirsiz olduğum üçün üzr istəyirəm; axmaq mübahisə üçün də. Sənlə heç bir əlaqəsi yoxdu. O anda bir az əsəbiləşdim. Vacib olan şey səni lap çox sevməyimdi. Belə. Buyur. Şanslı adam! Fikirləşirəm ki, bu qədər. Hələlik, sevgilim. Hələlik.

İdman mərkəzinin xaricində buludlar qaranlıqlaşmışdı və nəhayət, iri, boz, isti yağmur damlaları buraxaraq partlamışdılar. Havanı və velosipedinin yaş oturacağını lənətləyərək Şimali Londondan Leksinqton Yoluna tərəf yaşayış küçələrinin labirintindən marşrutu özü taparaq Kilbörnə tərəf yola düşdü.

Yağmur daha da şiddətli yağmağa başlamışdı, qəhvəyi şəhər suyunun yağlı damcıları altında Emma başını çox aşağı əymiş vəziyyətdə pedalı fırladırdı; belə ki, sol tərəfindəki kəndarası yolda bir hərəkəti yarıdumanlı gördü. Yaşadığı hiss havada uçmaqdan çox, qaldırılıb tolazlanmaq kimi şeydi və üzü üstə, yaş səkinin qırağına düşəndə ilk reaksiyası necəsə altından yox olmuş velosipedini axtarmaq oldu. Başını hərəkət etdirməyə çalışır, amma bacarmırdı. Dəbilqəsini çıxartmaq istəyirdi, çünki adamlar indi ona baxırlar; üzlər üzərinə doğru uzanır və o, velosiped dəbilqəsində gülünc görünür; ancaq üzərinə əyilən adamlar bərk qorxmuş görünürlər, ondan nəsə dəfələrlə eyni şeyi soruşurlar: *Yaxşısan, yaxşısan?* Onlardan biri ağlayır və o anda yaxşı olmadığını anlayır. Üzünə düşən yağmura qarşı gözlərini qırpır. Artıq, şübhəsiz, çox gecikəcək. Dekster gözləyəcək.

Aydın şəkildə iki şeyi fikirləşir.

Birincisi, özünün doqquz yaşında çəkilmiş bir şəklidir. Qırmızı çimərlik geyimi ilə bir çimərlikdə; hara olduğunu xatırlamır, Filey, ya da bəlkə Skarborodu. Onu kameraya tərət yelləyən anası

Telegram: @cinciva

və atasıyla birlikdə; gündə qaralmış üzləri qəhqəhədən büzüşüb. Sonra Deksteri fikirləşir, yeni evin nərdivanlarında yağmurdan qorunmağa çalışaraq saatına baxır, səbirsizlənir; "*Harada qaldığımı bilmək istəyəcək,* – deyə fikirləşir, – *narahat olacaq*".

Sonra Emma Meyhyu ölür, fikirləşdiyi və hiss etdiyi hər şey həmişəlik yox olur.

Telegram: @cinciva

BEŞİNCİ HİSSƏ

Üç ildönümü

"Bir filosof kimi ilin önəmli günlərini qeyd etdi; öz doğum gününü və nəcürsə özünün də bir hissəsi olduğu başqa günləri. Bir gün axşamtərəfi güzgüdə öz gözəlliyini seyr edərkən qəfildən fikirləşdi ki, başqalarından daha çox əhəmiyyətə malik olan başqa bir tarix də var; sahib olduğu bütün cazibədarlığın yox olacağı öz ölüm tarixi; ilin başqa günləri arasında hiyləgərcəsinə və görünmədən yatan gün. O, hər il üzərindən keçdiyi halda, heç bir işarə, ya da səs verməyən, amma, heç şübhəsiz, orada olan bir gündü. Bəs o nə gün idi elə?"

Tomas Hardi, *"Tess"*

Telegram: @cinciva

Telegram: @cinciva

XIX Fəsil

Sabahı gün

15 iyul. 1988-ci il. Şənbə

Renkeylor küçəsi, Edinburq

Gözlərini açanda arıq oğlanın hələ də orada olduğunu gördü; köhnə taxta stulun qırağında bir təhər oturduğu üçün arxası ona tərəfdi, mümkün olduğu qədər sakitcə şalvarını geyinirdi. Emma zəngli saatı olan radiosuna baxdı: Doqquz iyirmi. Bəlkə də üç saat yatmışdılar və indi aradan çıxmağa çalışırdı. Xırda pullarının səs çıxarmağının qarşısını almaq üçün əlini şalvarının cibinə qoymağına baxdı; sonra ayağa qalxıb keçən gecəki ağ köynəyini geyinməyə başlamağına. Emma onun uzun, qəhvəyi rəngli kürəyinə son dəfə gözucu baxdı. Yaraşıqlıydı. Həqiqətən, absurdca yaraşıqlıydı. Oğlan açıq-aydın getmək istəsə də, o, qalmağını lap çox istəyirdi. O danışmaq istədiyinə qərar verdi.

– Sağollaşmadan getməzsən, hə?

O, cinayət başında yaxalanmış kimi çevrildi: – Səni oyatmaq istəmədim.

– Niyə?

– Elə şirin yatmışdın ki.

İkisi də bunun boş söy olduğunu bilirdilər. – Yaxşı. Yaxşı, başa düşürəm. – Öz səsini elə bil qıraqdan eşidirdi: ümidsiz və əsəbiydi. Qoy oğlan elə bilməsin ki, sənin vecinə deyil, *Em. Təmkinli ol.*

Telegram: @cinciva

– Sənə məktub qoymağa hazırlaşırdım, amma... – Stolun üstündə olan içi qələmlə dolu cem qabından xəbərsiz qələm axtarırmış kimi hərəkət elədi.

Emma başını yastıqdan qaldırıb dirsəkləndi: – Mənimçün fərqi yoxdu. Əgər istəyirsənsə, gedə bilərsən. Gecə qaranlıqda gedən gəmilər kimi bir də qarşılaşmarıq. Necə deyirsən ona... acılı-şirinli.

O, stulda oturub, köynəyini düymələməyə davam etdi: – Emma?

– Hə, Dekster?

– Həqiqətən, yaxşı vaxt keçirtdim.

– Ayaqqabılarını axtarmağından görünür.

– Yox, ciddi deyirəm, – Dekster stulda irəli əyildi. – Nəhayət, tanış olduğumuz üçün, həqiqətən, çox şadam. Və başqa hər şey də eləcə gözəldi. Bu qədər vaxtdan sonra. – Gərəkən sözü tapmağa çalışır kimi üzünü büzüşdürdü. – Sən, həqiqətən, *həqiqətən* çox sevimlisən, Em.

– Hə, hə, hə...

– Yox, eləsən.

– Lap yaxşı, sən də eləsən, hə, indi gedə bilərsən. – Ona baxıb gərgin şəkildə gülümsədi. Dekster sürətlə otağın o biri tərəfinə keçməklə cavab verdi və Emma cavabını gözləyərək üzünü ona tərəf çevirəndə o, çarpayının altına atılmış corabını götürməyə çalışırdı. Dekster bu baxışları hiss eləyib başını qaldırdı.

– Corabım çarpayının altındaymış, – dedi.

– Düzdü.

Çarpayının kənarında bir təhər oturub məcburi şən tonla danışaraq corablarını geyindi. – Bu gün böyük gündü! Geri qayıdıram!

– Haraya, Londona?

– Oksfordşirə. Valideynlərimin yaşadığı yerə. Yəni çox vaxt yaşadığı yer.

Telegram: @cinciva

– Oksfordşir. Çox yaxşı, – Emma dedi. Xüsusilə aralarındakı intimliyin buxarlanıb birdən-birə kübar söhbətlə əvəz edilməsindən incimişdi. Ötən gecə xeyli danışıb-bölüşmüşdülər və indi avtobus növbəsində gözləyən iki yad adam kimiydilər. Yuxuya gedib ovsunu pozması səhv idi. Əgər oyaq qalsaydılar, hələ də öpüşə bilərdilər, amma iş işdən keçmişdi və bunun əvəzində özündən asılı olmadan dedi:

– Nə qədər çəkər Oksfordşirə getmək?

– Təxminən, yeddi-səkkiz saat. Atam əla sürücüdü.

– Aha.

– Sən geri qayıtmırsan, şeyə?..

– Lidsə. Yox. Yay boyu burada qalacağam. Demişdim sənə, yadına düşdü?

– Bağışla, dünən gecə, həqiqətən, əməlli-başlı sərxoşdum.

– Onda, mənim ağam, bu da özünü müdafiə üçündü...

– Bu, bəhanə deyil, bu... – Çevrilib qıza baxdı. – Mənə qarşı hirslisən, Em?

– Em? Em kimdi?

– Onda *Emma.*

– Hirsli deyiləm, sadəcə... sadəcə, belə oğru kimi aradan çıxmaq yerinə məni oyandırmağını istərdim...

– Bir ismarıc yazmağa hazırlaşırdım!

– Yaxşı, nə yazacaqdın bu qiymətli ismarıcda?

– Deyəcəkdim ki, "Sənin pul kisəni götürmüşəm".

Emma boğazının dərinliyindən gələn bir xırıltıyla güldü, kip sıxılmış dodaqlarının hər iki yanında yaranan dərin mötərizəli təbəssümündə adamı sevindirən, yalan danışdığına, az qala, peşman edən nə isə vardı. Əslində, nahar vaxtına qədər getmək niyyəti yox idi.Valideynləri gecəni orada keçirmişdilər və bu gecə onu yeməyə aparacaq, sonra da sabah səhər yola çıxacaqdılar. Asan və cəld aradan çıxmaq üçün bu yalan instinktiv olaraq ağzından çıxmışdı,

Telegram: @cinciva

amma indi qızı öpməkçün əyiləndə bu yalanını bir təhər geri götürməyin bir yolu olub-olmadığını fikirləşdi. Qızın ağzı yumşaq idi, hələ də şərab, isti bədən və kondisioner qoxusu gələn çarpayıya uzanmışdı; cavan oğlan gələcəkdə, həqiqətən, daha düz adam olmaq üçün çalışmağa qərar verdi.

Qız diyirlənərək özünü öpüşlərdən qaçırdı: – Tualetə gedirəm, – oğlanın bədəninə dolanmış qolunu qaldıraraq dedi. İki barmağını tumanının rezininə keçirib ombasının üstünə çəkərək ayağa qalxdı.

– Burada telefon var? – otaqda qızın aramla yerişinə baxaraq dedi.

– Dəhlizdə var. Ancaq bir az antik telefondu. Çox gülməlidi. Tilli onu çox məzəli hesab edir. Buyur, lütfən. On peni atmağı da unutma, – deyib dəhlizə çıxdı və hamama getdi.

Hamamda sular artıq otaq yoldaşlarından birinin yay günlərinin uzun isti vannası üçün axmaqdaydı. Tilli Killik xalat əynində, böyük, qırmızı çərçivələrin arxasından gözlərini bərəltmiş, ağzı böyük "O" şəklində açılmış, Emmanı gözləyidi.

– Emma Morli, saman altdan su yeridən!

– Nə?

– Otağında kimsə var?

– Ola bilər!

– Yoxsa mən fikirləşdiyim adamdı...

– Sadəcə, Dekster Meyhyu! – Emma laqeydcəsinə dedi və iki qız dəqiqələrlə güldülər.

Dekster dəhlizdə son dərəcə həqiqi hamburgerə oxşayan telefonu tapdı. Telefonun küncüt toxumlu kiçik hamburger çörəyinə oxşayan dəstəyi əlində orada dayanıb, vanna otağından gələn qıcırtılara qulaq asır və adamların onun haqqında danışdığını biləndə həmişə hiss etdiyi həzzi yaşayırdı. Gips divardan tək-tük

Telegram: @cinciva

sözlər və cümlələr eşidilirdi: *"Yaxşı, barı elədiz?" "Yox!" "Bəs nə oldu?" "Söhbət elədik, sadəcə, ordan-burdan". "Ordan-burdan? Ordan-burdan nə deməkdi?" "Heç nə!" "Səhər yeməyinə qalacaq?" "Bilmirəm". "Çalış, səhər yeməyinə qalsın".*

Dekster Emma gələnə qədər səbirlə qapıya baxdı. 123 nömrəsini yığdı, hamburger çörəyini qulağına dayadı, vaxtı bildirən səs hamburger küftəsinə danışmağa başladı.

"... Akkurist saatlarının sponsorluğu ilə təqdim edilən vaxt bildirmə xidməti. İndi saat sıfır doqquz otuz iki, iyirmi saniyə..."

Üçüncü zərbədə rolunu oynamağa başladı. – Salam, ana, mənəm... hə, geyinməyə halım belə yoxdu! – Saçlarını daha cazibədar olduğunu fikirləşdiyi formada qabartdı. – ... Yox, gecəni bir dostumun evində qalmışam... – Elə bu vaxt özünü güya poçt qutusuna baxırmış kimi göstərərək, tişört və tumanında ortalıqda gəzişən Emmaya gözucu baxdı.

"... Akkuristik saatlarının sponsorluğu ilə təqdim edilən vaxt bildirmə xidməti. İndi saat dəqiq sıfır doqquz otuz üçdür..."

– Qulaq as, mənim bir işim çıxdı. Bilmək istəyirdim görüm, evə bu gün yox, sabah gedə bilərik?.. Mən, sadəcə, fikirləşdim ki, elə atam üçün də belə yaxşı olar... Siz istəməsəniz, mənimçün fərqi yoxdu. ...Atam yanındadı? Onda ondan soruş...

Qulağını danışan saatdan çəkərək özünə otuz saniyə ayırıb, ən lütfkar təbəssümüylə Emmaya gülümsədi. Emma da gülümsəyərək qarşılıq verdi və *"Yaxşı oğlandı, planlarını mənimçün dəyişdirir"*, – deyə fikirləşdi. Bəlkə də onu düzgün qiymətləndirməmişdi. Hə, o, axmağın biridi, amma olmaya da bilər. Bəzən.

– Üzr istəyirəm! – dodaqlarını çeynəyərək dedi.

– Mənə görə planlarını dəyişdirməyini istəmirəm... – Emma utana-utana dedi.

– Yox, mən qalmaq istəyirəm.

– Həqiqətən, əgər evə getməlisənsə...

Telegram: @cinciva

– Problem deyil, belə daha yaxşıdı...

"... Akkuristik saatlarının sponsorluğu ilə təqdim edilən vaxt bildirmə xidməti. Üçüncü zərbədə saat dəqiq sıfır doqquz otuz dörd olacaq".

– Mənimçün fərqi yoxdu, inciyib eləməmişəm...

Dekster barmağını ağzına qoyub sakit olmaq işarəsi verdi: – Hə, ana? – ... Pauza; *bir gözləmə yaratmaq üçün qısa fasilə yarat, amma həddini aşma.* – Doğrudan? Yaxşı, əla! Yaxşı onda, mən sonra sizə gələrəm! Yaxşı, görüşərik. Hələlik. – Hamburger çörəyini yerinə qoyub telefonu söndürdü və onlar eləcə dayanıb birbirinə qımışdılar.

– Əla telefondu.

– Adam əsəbiləşdirəndi, elə deyil? Hər dəfə danışanda ağlamağım gəlir.

– Hələ də on peni istəyirsən?

– Yox. Yaxşı oğlana qurban olsun.

– Yaxşı onda!

– Onda, – Emma dedi, – bu gün nə edəcəyik?

Telegram: @cinciva

XX Fəsil

Birinci ildönümü Bayram

15 İyul, 2005, Cümə

London və Oksfordşir

Əylənmək, əylənmək, əylənmək – cavab əylənməkdi. Hərəkətli ol, özünə bir anlıq dayanıb ətrafına baxmaq, ya da fikirləşmək üçün imkan vermə; çünki məqsəd xəstə tip olmaq deyil, əylənməkdi; bax bu gün ilk il dönümüdü. Nəyin? Bir bayram! Onun, Emmanın həyatının və bütün yaxşı vaxtlarının, xatirələrin. Qəhqəhələr, hər yerdə qəhqəhələr.

Dekster beynində bu fikirlərlə meneceri Meddinin etirazlarını vecinə almayıb kafenin kassa aparatından iki yüz funt götürüb işçilərdən üçünü – Meddi, Cek və bazar günləri işləyən Piti bu xüsusi günü lazım olduğu kimi qeyd etməkçün şəhərə çıxmağa dəvət etmişdi. Nə də olsa, Emma da bunu istəyərdi.

Beləliklə, özünü Müqəddəs Svitin gününün ilk dəqiqələrində, Kamdendə bir yarım zirzəmi barda, bir əlində beşinci martinisi, o biri əlində siqaretlə gördü; axı niyə də olmasın? Niyə bir qədər əylənilib *onun həyatı* bayram edilməsin? Ona güclə gülümsəyən dostlarına bunları anlaşılmaz tələffüz edir, onlarsa içkilərini o qədər yavaş-yavaş qurtumlayırlar ki, onları özüylə gətirdiyi üçün

Telegram: @cinciva

peşman olmağa başlayır. O qədər maraqsız və darıxdırıcıdılar ki, o bar sənin, bu bar mənim deyib ona yoldaşlıq edən yaxşı dostlarından çox, onu yola verməyə çalışan, adamlara dəyməsinin, ya da taksidən düşəndə başını əzməsinin qarşısını almağa çalışan xəstəxana növbətçilərinə oxşayırlar. Yaxşı, amma daha bəsdi. Bir az rahatlanmaq istəyir, saçlarını dağıdıb pis günə qoymaq istəyir, saçları çıxdığı gündən istədiyi elə budur. Beynində bunlar dolaşarkən, bir dəfə ancaq kişilər üçün nəzərdə tutulan mərasimdə olduğu kluba getməyi təklif edir. Striptiz kluba.

– Bunu ağlına belə gətirmə, Deks, – Meddi, az qala, dəhşətə qapılmış halda deyir.

– Eh, yaxşı da, Meddi! Niyə yox? – qolunu Meddinin çiyninə qoyur. – O da bunu istəyərdi! – Bu sözləri deyib gülməyə başlayır və stəkanını bir dəfə də qaldırır, ağzını stəkana yaxınlaşdırır, amma məsafəni düzgün hesablaya bilmədiyindən, içkisi ayaqqabılarına tökülür. – Əyləncəli olacaq! – Meddi paltosunu götürmək üçün əlini arxaya uzadır.

– Meddi, sən işə yaramazsan! – deyə qışqırır.

– Məncə, indi sən, həqiqətən, evə getməlisən, Dekster, – Pit deyir.

– Axı hələ tezdi!

– Gecən xeyrə qalsın, Deks. Nə vaxtsa görüşərik.

Meddini qapıya qədər ötürür. Əylənməyini istəyir, amma Meddi qəmli və məyus görünür. – Qal, bir içki də iç! – tələbkarcasına deyərək qolundan dartışdırır.

– Əylənməyində ol, yaxşı? Xahiş edirəm?

– Bizi, oğlanları tək qoyma!

– Getməliyəm. Səhər dükanı açmalıyam, yadından çıxıb? – Eddi çevrilib onun əllərini ovcuna şəfqət dolu və qayğıyla deyir; onun bu qayğıkeş görkəmi Deksteri cin atına mindirir də. – Sadəcə, ehtiyatlı ol... yaxşımı?

Telegram: @cinciva

Deksterin istədiyi isə qayğı deyil, içməkdi, buna görə də qəfildən əllərini kobudcasına çəkir və bara qayıdır. Yeni içkisini problemsiz götürür. Elə bircə həftə əvvəl terrorçular ictimai nəqliyyatda bomba partlatmışdılar. Lap təsadüfi adamlar öldürülmüşdülər və nə qədər cəsarət və qorxmazlıq nümayiş etdirsələr də, bu gecə şəhər elə bil mühasirə atmosferinə bürünmüşdü. Adamlar bayıra çıxmağa qorxurlar, beləliklə, Dekster onları Ferinqdon küçəsinə tərəf aparacaq bir taksi tapmaqda heç bir çətinlik çəkmir. Pit və Cekin bəhanələrini eşidəndə başını pəncərəyə söykəyib qulaq asırdı. Bildiyimiz, adi bəhanələr gətirirlər: Gecdir, onlar səhər işə getməlidirlər. – Mənim həyat yoldaşım, uşaqlarım var, bilirsən! – Pit yarızarafat deyir; onlar azad olmaq üçün yalvarıb-yaxaran girovlara oxşayırlar. Dekster ətrafındakı mərasimin parçalandığını hiss edir, ancaq mübarizə aparmaq üçün enerjisi yoxdur, buna görə taksini Kinqz Krosda dayandırır və onları azad edir.

– Sən də bizimlə gəl, Deks, dostum? Olar? – Cek üzündə o axmaq qayğı dolu ifadəylə pəncərədən diqqətlə içəri baxaraq deyir.

– Yox, mən yaxşıyam.

– İstədiyin vaxt bizdə qala bilərsən, – Pit deyir. – Divanda yatarsan? – Amma Dekster bilir ki, o, səmimi deyil. Pitin özünün də dediyi kimi, həyat yoldaşı və uşaqları var; bu əcaibi evinə niyə aparmaq istəsin ki? Pitin uşaqları məktəbə getməyə hazırlaşarkən, divanda pis iy verən və özündən getmiş halda uzanaraq ağlamaq... Dərd Dekster Meyhyunu lap axmaqlaşdırıb, üstəlik məcburi dostlarını da nədən yükləsin ki? Ən yaxşısı, bu gecəni yad adamlarla keçirməkdi. "Hələlik" – deyərək əlini yelləyir və taksiyə Ferinqdon küçəsinin pərdələri salınmış, kədərli bir döngəsindəki "Nero's" gecə klubuna sür deyir.

Bayırda dəfn təşkilatçıları kimi dayanan qara mərmər sütunlar gözə çarpır. Taksidən düşərkən bar mühafizəçilərinin onu içəri

Telegram: @cinciva

buraxmayacaqlarından narahat olur, amma yaxşı geyimli və əməlli-başlı sərxoş olmağıyla, əslində, onlar üçün ideal müştəridir. Dekster keçəl kişiyə və keçi saqqallı yekəpərin qılığına girmək istəyən şəkildə qımışır, pulunu ödəyir və qapıdan əsas otağa tərəf yola salınır. O, zülmətə doğru irəliləyir.

Vaxt vardı, çox da keçmişdə deyil, striptiz kluba getmək əməlli-başlı postmodern sayılırdı; eyni zamanda, iç qıcıqlandıran və istehzalı. Amma bu gecə yox. Bu gecə "Nero's" gecə klubu səksəninci illərin əvvəllərindəki biznes-klas gözləmə zalına oxşayır. Gümüş rəngli xrom örtüklü, ucuz qara dərili divanlar, plastik gül dibçəkləri – bu, xüsusilə şəhəryanı tənəzzülə xas bir dizayndı. Bir uşaq dərsliyindən diletant freska əksi köçürülmüş divar rəsmi – üzüm siniləri aparan qul qızlar – arxa divarı örtür. Ora-bura yerləşdirilmiş penoplast Roma stilli sütunlar, zalı əhatə edən narıncı işıqlı konus formalı lampalar və jurnal stollarına bənzəyən stolların ətrafında striptizçi qızlar, rəqqaslar və artistlər hip-hop sədaları altında hərə bir tərzdə oynayaraq özlərini nümayiş etdirirlər – hamısı da lümlüt. Onların aşağısında, əsasən, kostyumlu kişilər oturur; qalstuklar boşalıb, qaranlıq kabinələrdə yayxanıb, başlarını geri ataraq qəhqəhələrlə gülürlər. Dekster gözləri qamaşaraq zala girir, eyni vaxtda həzz və utanc hiss edərək qımışır. Pilləkənlərdə toqquşur, sonra özünü saxlayır, qalxır və podiumların arasından yellənərək bara tərəf irəliləyir; bardakı sərt sifətli qadın tək içki satılmadığını, bir şüşə araq, ya da şampan ala biləcəyini, ikisinin də qiymətinin yüz funt olduğunu deyir. Bu ədəbsiz soyğunçuluğa gülür və kredit kartını elə bil meydan oxuyurcasına nümayiş etdirə-etdirə uzadır.

O, şampan butulkasını – bir qab ilıq sərin suyun içində gələn Polşa markası – və iki plastik stəkanını götürür, bunları qara məxmər kabinəyə aparır, siqaretini yandırıb ciddiliklə içkisini içməyə başlayır. Şampan qaynadılmış qənd qədər şirindir, alma ətirli və

Telegram: @cinciva

demək olar ki, heç köpüyü yoxdu. İndi dostları gedib, stəkanını əlindən alacaq, ya da söhbətləriylə fikrini yayındıracaq heç kim yoxdu. Üçüncü stəkandan sonra vaxt qəribə elastik olmağa başlayır; sürətlənir, yavaşıyır, görüntülər qaralıb yox olur, sonra yenidən peyda olur. Elə tam yuxuya getmək, ya da huşunu itirmək üzrəykən qolunun üzərində bir əl hiss edir. Çox qısa açıq-qırmızı geyimdə, uzun sarı saçlı, arıq bir qız qarşısında dayanır. – Bir stəkan şampan götürə bilərəm? – deyərək kabinənin içinə sürüşür. Yaxınlaşanda çox pis dərisi olduğu görünür, özü də Cənubi Afrika ləhcəsilə danışır. – Çox gözəl səsin var! – deyə Dekster musiqidən səsini eşitdirə bilməkçün qışqırır. Qız burnunu çəkib fısıltıyla adının Barbara olduğunu deyir. Deyiliş tərzindən ağlına gələn ilk adın elə bu olduğu fikirləşilə bilər. Sümüklü qolları və Deksterin açıqca gözlərini zillədiyi kiçik döşləri, – qız vecinə almırmış kimi görünür – incə bir görünüşü var. Balerina bədən quruluşu. – Balerinasan? – Dekster deyir, qız burnunu çəkib çiynini dartır. Dekster Barbaradan həqiqətən, həqiqətən də xoşu gəldiyi qərarına gəlir.

– Səni buraya gətirən nədir? – qız mexaniki olaraq soruşur.

– Bu gün mənim ildönümümdü! – deyir.

– Təbriklər, – qız ingiliscə deyir; özünə şampan tökərək plastik stəkanını havaya qaldırır.

– Məndən nəyin ildönümü olduğunu soruşmayacaqsan? – deyir, amma, deyəsən, tələffüzü xeyli anlaşılmaz olur ki, qız dediklərini üç dəfə təkrarladır. *Ən yaxşısı, birbaşa danışmağa çalışmaq.* – Həyat yoldaşım bundan düz bir il əvvəl qəzaya düşdü, – deyir. Barbara əsəbi halda gülümsəyib oturduğuna peşman olmuş kimi ətrafına baxmağa başlayır. Sərxoşlarla məşğul olmaq işinin bir hissəsidir, amma bu adam açıq-aşkar dəli olub; bədbəxt hadisəni qeyd edir, sonra axmaq-axmaq mızıldanır, getdiyi yola baxmayan sürücülərə hirslənir və uzun-uzadı özünün başa düşmədiyi və başa düşməyə çalışmadığı məhkəmə işindən danışır.

Telegram: @cinciva

– Sənin üçün oynayımmı? – qız, sadəcə, mövzunu dəyişdirməkçün deyir.

– Nə? – Qıza tərəf çevrilir. – Nə dedin? – Nəfəsindən içki qoxusu gəlir, tüpürcəkləri qızın üstünə sıçrayır.

– Dedim ki, sənincün rəqs etməyimi, səni əyləndirməyimi istəyirsənmi? Elə bil bir az şənlənməyə ehtiyacın var.

– İndi yox. Bəlkə sonra, – qızın pilləkən sürahisi kimi möhkəm dizinə şappıltıyla vuraraq deyir. O, yenidən danışmağa başlayır, normal nitq deyil, rabitəsiz sözləri bir-birinin ardıyca düzür: – Hələ otuz səkkiz yaşı vardı, istəyirdik, uşağımız olsun, sürücü cəzasız qaldı, çox maraqlıdı, görəsən, indi o bic haradadı, mənim ən yaxşı dostumu məndən aldı, hanı ədalət, haradadı, artıq yaşamağımın nə mənası var? Barbara, de mənə, mən indi neynəyəcəyəm? – Qəfildən susur.

Barbaranın başı aşağı, dizlərinin üstündəki əlinə baxır, elə bil dua edir və Dekster bir anlıq hekayəsinin bu gözəl yad qızı dərindən təsirləndirdiyini fikirləşir. Bəlkə onun üçün dua edir, bəlkə hətta ağlayır; bu yazıq qızı da ağlatdı və... o, Barbaraya dərin bağlılıq hiss edir. Qızın əlini tutub yuxarı qaldırır və mesaj yazmaqda olduğunu anlayır. O, Emmadan danışarkən bu qız telefonu dizinin üstündə qoyub mesaj yazırmış. Qəfildən nifrət və qəzəbdən boğulduğunu hiss edir.

– Sən nə edirsən? – səsi titrəyərək soruşur.

– Nə?

O artıq qışqırır. – Nə qələt elədiyini soruşdum səndən? – Qızın əlinə vəhşiçəsinə vurur; telefonu yerə düşür. – Sənin lə danışırdım! – deyə qışqırır, amma qız da qışqırmağa başlayır, ona "başdanxarab" deyir, "ruhi xəstə" deyir, sonra bar mühafizəçisini yanına çağırır. Bu qapıda ona dostcasına davranan nəhəng keçisaqqaldı, ancaq indi güclü qollarının birini Deksterin çiyninə, o birini də belinə dolayır; onu balaca uşaq kimi qucaqlayıb aparır. Dekster

Telegram: @cinciva

çiyinlərinin üstündən *"Sən axmaqsan, axmaq inək, sən başa düşməzsən ki"*, – deyə-deyə bar-bar bağırarkən hamı əylənərək ona tərəf çevrilir, Barbaranın axırıncı baxışını tutur; hər iki orta barmağını havaya qaldırıb yelləyərək ona gülür. Yanğın çıxışı təpiklənərək açılır və o bir daha küçəyə atılır.

– Kredit kartım! Siz mənim lənətə gəlmiş kredit kartımı aldınız! – deyə qışqırır, amma hamı kimi mühafizəçi də gülür və yanğın çıxışının qapısını bağlayır.

Dekster artıq qəzəblənmiş vəziyyətdə səkidən aşağı düşüb qərbə tərəf gedən çoxlu qara taksilərə əl edir, amma belə səndələyib dayandığı müddətcə heç bir taksi dayanmayacaq. O, dərindən nəfəs alıb yenidən səkiyə qayıdır, divara söykənib ciblərini yoxlayır. Portmanatı gedib, mənzilinin və avtomobilinin açarları da eləcə. Portmanatını və açarlarını kim götürdüsə, demək, ünvanını da bilir, çünki sürücülük vəsiqəsində yazılıb. Qapının qıfılını dəyişdirməli olacaq, ayrıca nahar vaxtında Silvi də gələcəkdi; Jasmini gətirəcək. Divara bir təpik atır, başını divara söykəyir, ciblərini yenidən yoxlayır, şalvarının cibində öz sidiyilə islanmış, nəmləmiş bir iyirmi funtluq tapır. Bu iyirmi funtluq evinə sağ-salamat getməyi üçün kifayət edər. Qonşuları oyandırıb ehtiyat açarı ala və evdə yata bilər.

Amma bu iyirmi funt onun həmçinin şəhərə qayıdıb yenə bir, ya da iki içki içməyinə də bəs edə bilərdi. Ev, yoxsa unutmaq? Özünü düz dayanmağa məcbur edərək taksi saxladır və Sohoya yollanır.

Bervik küçəsinin qırmızı işıqlı[1] dar küçələrindən birində bundan on-on beş il əvvəl sonuncu məkan olaraq tez-tez gəldiyi bir yeraltı bataqxanasını tapır. Siqaret tüstüsüylə dolu, adamların parç-parç çəllək pivəsi içdikləri, pəncərəsiz və qaranlıq, səliqəsiz

[1] Qırmızı işıqlı küçələr – fahişələrin rahat dolaşdığı yerlərə deyilir.

Telegram: @cinciva

bir yerdi. Bar kimi içki verilən formika stola tərəf gedir, amma birdən pulunun olmadığı yadına düşür, axırıncı pulunu taksi sürücüsünə verib, pulun xırdasını da itirmişdi. Pulunun hamısını itirəndə həmişə etdiyini etməli olacaq: ən yaxındakı içkini götürüb başına çəkəcək. Yırğalana-yırğalana gəzdiyi üçün adamların onu söymələrinə fikir vermədən zala geri qayıdır, qoyub gedilmiş kimi görünən bir pivə parçını götürüb içində qalanları süzür, sonra cəsarətlə başqasını götürüb tər içində bir küncə sıxılır; başı səsgücləndiriciyə söykənmiş, gözləri yumulu, pivəsi çənəsindən axaraq köynəyinə tökülür, qəfildən bir əl sinəsindən itələyərək küncə sıxışdırır, başqa biri isə başqalarının içkisini götürüb içməklə nə qələt elədiyini soruşur, dayanmadan söyür. Gözlərini açır; qarşısında yaşlı, qırmızı gözlü, qurbağa kimi balaca bir adam var.

– Ancaq indi bildin ki, bu, mənimdi, yox? – Dekster deyir, sonra yalanının heç də inandırıcı olmadığını fikirləşib istehzayla gülür. Kişi nərildəyərək sarı dişlərini ağardır, yumruğunu göstərir və o an Dekster nə istədiyini anlayır: istəyir ki, bu adam onu yaxşıca döysün. – Əllərini üstümdən çək, eybəcər qoca, – deyə ağzında gəvəzələyir; sonra görüntü qaranlıqlaşır, bərk guppultu eşidir, əlləri üstə döşəməyə sərilir; kişi ayaqqabısının dabanıyla qıçlarını əzişdirərkən qarnına, mədəsinə təpiklə vurur. Dekster təpiklər dəyərkən çirkli xalçanın dadına baxır, sonra qəfildən havada üzü üstə üzür; altı adam qollarından və ayaqlarından yapışıb onu havaya qaldırırlar; məktəbdə, doğum günündə dostları onu qollarından yapışıb hovuza atdıqları kimi; bir restoranın mətbəx dəhlizi boyu aparıldıqca sevincdən çığıraraq gülür və ən axırda onu küçədəki plastik zibil qablarının arasına atırlar. Hələ də gülməyə davam edərək möhkəm daşlara tərəf diyirlənir və ağzının qırağındakı isti dəmir dadı verən qanı hiss edir; *"Emma da bunu istəyərdi,* – deyə fikirləşir.– *Bu, əsl onun istədiyi olardı".*

Telegram: @cinciva

15 İyul, 2005

Salam, Dekster!

Ümid edirəm ki, sənə yazmağıma etiraz etməzsən. Bunu etmək dəlilikdi, eləmi? İnternet dövründə kağız məktub yazmağın qəribə olduğunu bilirəm, amma belə daha münasib olduğunu hiss elədim. Bu günü qeyd etmək üçün nə isə etmək istədim və məktub yazmaq ən yaxşı şey kimi göründü.

Necəsən? Necə dözürsən? Dəfn mərasimində qısaca danışmışdıq, ancaq o günün sənin üçün nə qədər çətin olduğu o qədər aydın idi ki, çox da qurcalamaq istəmədim. Qəddarlıqdı, elə deyil? Bütün günü Emmanı fikirləşirəm, sənin də eyni vəziyyətdə olduğuna əminəm. Həmişə onu fikirləşirəm, amma bu gün xüsusilə çətindir və sənin üçün də çətin olduğunu düşünürəm, ancaq yenə də fikirlərimi sənə bir-iki sətirlə yazmaq istədim. Buyur, oxu.

İllər əvvəl Emma məni atanda həyatımın məhv olduğunu fikirləşmişdim, bir neçə il elə də oldu. Düzünü desəm, o vaxtlar bir az dəli olduğumu fikirləşirəm. Amma sonra işlədiyim yerdə o qızla tanış oldum və ilk görüşümüzdə onu öz səhnəciyimə baxmağa apardım. Sonra o, deyəcəklərini səhv başa düşməməyimi xahiş edərək, çox pis komediyaçı olduğumu, edəcəyim ən yaxşı şeyin bu işi atmaq əvəzində özüm olmaq olduğunu dedi. O an ona aşiq oldum və indi dörd ildir ki, evliyik; üç dənə də gözəl uşağımız var (hər ilə bir uşaq! Ha! Ha!). Mənim valideynlərimə yaxın olmaq üçün (pulsuz dayəlik!!!) Tontonda – inkişafda olan bir şəhərdə yaşayırıq. Mən indi böyük sığorta ofisində, müştəri sorğuları şöbəsində işləyirəm. Şübhəsiz, bu iş sənə çox darıxdırıcı gələcək, amma mən yaxşıyam və həqiqətən xoşbəxtəm. Bütün bunlara baxanda özümü həqiqətən xoşbəxt hiss edirəm. Uşaqlarımızın biri oğlan, ikisi qızdır. Sənin də uşağın olduğunu bilirəm. Adamı öldürürlər, elə deyil?!!

Telegram: @cinciva

Yaxşı, ancaq düşünürsən ki, bütün bunları sənə niyə danışıram? Sənlə heç vaxt yaxşı dost olmadıq və güman ki, mənim nə etdiyim də vecinə deyil. Amma yazmağımın səbəbi də elə budur.

Emma məndən ayrılandan sonra fikirləşdim ki, artıq öldüm, ancaq elə olmadı. Çünki Cekviylə – həyat yoldaşımla tanış oldum. İndi sən də Emmanı itirdin, onu heç vaxt geri qaytara bilməzsən; bunu heç birimiz bacarmarıq, səni də, sadəcə, inandırmağa çalışıram ki, təslim olmayasan. Emma səni həmişə çox, lap çox sevdi. Uzun illər boyu bu vəziyyət məni böyük ağrı və qısqanclıqla boğuşmağa məcbur etdi. Telefon danışıqlarınıza qulaq asardım, mərasimlərdə sizi izləyərdim və sənlə birlikdə olanda mənimlə heç vaxt olmadığı kimi işıq saçardı, parlardı. Bir gün o evdə olmayanda qeyd dəftərindəki yazılarını oxuduğumu deməyə utanıram; dəftər sənlə, dostluğunuzla doluydu və mən buna dözə bilmirdim. Düzünü desəm, dostum, sənin ona layiq olmadığını fikirləşirdim, amma indi fikirləşirəm ki, biz hər ikimiz ona, həqiqətən də, layiq deyildik. O, ikimizin də tanıdığı ən ağıllı, ən nəzakətli, ən məzəli, ən sədaqətli adam olmağa davam edəcək və onun artıq burada yoxluğunun gerçək olması heç də ədalətli deyil.

Yəni, dediyim kimi, sənin ona layiq olmadığını fikirləşirdim, amma Emmayla qısa görüşümüzdən sonra bütün bunların dəyişdiyini öyrəndim. Əvvəllər sən alçağın biriydin, sonradansa dəyişmişdin; sən daha alçaq deyildin və illər sonra, nəhayət, qovuşduğunuzu, onu çox, çox xoşbəxt etdiyini bilirəm. O parlayırdı, elə deyil? Bütün işıltısıyla parlayırdı; bunun üçün sənə təşəkkür etmək istəyirəm və dostum, həyatının qalan hissəsində sənə uğurlar arzulayıram.

Əgər məktub bir qədər ağlamalı olmağa başladısa, üzr istəyirəm. Bu cür ildönümləri hamımız üçün çətindir, xüsusilə ailəsi və sənincün, amma mən bu tarixə nifrət edirəm və bundan sonra hər ilin bu gününə həmişə nifrət edəcəyəm. Bu gün fikirlərim

Telegram: @cinciva

səninlə olacaq. Gözəl bir qızının olduğunu bilirəm, özünü bir az da olsa, onunla ovudacağına ümid edirəm.

Nə isə, artıq bitirməliyəm! Xoşbəxt ol, yaxşı ol və yaşamağa davam elə! Həyatı bütün bu axmaqlıqlarıyla qəbul et. Fikirləşirəm ki, Emma da bunu istəyərdi.

Ən xoş arzularımla (ya da güman edirəm, lazım gəlsə, sevgilərimlə)

Yan Vaythed

– Dekster, məni eşidirsən? Ay Allah, sən nə etmisən? Məni eşidirsən, Deks? Gözlərini aç, açırsan?

O oyananda Silvi oradaydı. Necə olmuşdusa, öz mənzilinin döşəməsində, divanla stolun arasına sıxılıb qalmış, yerdə uzanıb; Silvi bacarıqsızcasına başının üstündə dayanıb, onu bu dar yerdən dartıb çıxartmağa, oturtmağa çalışır. Onun paltarları yaşdı, pis qoxuyur, yuxusunda qusduğunu anlayır. Bərk qorxmuş və utanmış vəziyyətdədi, amma Silvi ah-ufla qoltuqlarından yapışıb qaldırmağa çalışarkən o, hərəkət etməyə güc tapmır.

– Ah, Silvi, – ona kömək etməyə var gücü ilə çalışaraq deyir. – Bağışla. Yenə hər şeyi məhv etdim.

– Sadəcə, düz otur, mənim xətrimə, olar, əzizim?

– Məhv oldum, Silvi. Məhv oldum...

– Yaxşı olacaqsan, sadəcə, yatmağa ehtiyacın var, vəssalam. Ah, ağlama, Dekster. Mənə qulaq as, qulaq asırsan? – Silvi diz çöküb Deksterin üzünü əllərinin arasına alır və evli olanda nadir hallarda gördüyü şəfqətlə ona baxır. – İndi səni yuyundurub çarpayıya aparacağıq, yatacaqsan. Yaxşı?

Silvinin arxasına gözü sataşanda qapının girişində həyəcanla gəzişən fiqur görür: Qızıdı. O inildəyir və qəfil utancından o qədər güclü acı hiss edir ki, yenidən qusacağını fikirləşir.

Telegram: @cinciva

Silvi onun zillənmiş baxışlarını izləyir. – Jasmin, əzizim, lütfən, başqa otaqda gözlə, olar? – mümkün olduğu qədər sakit səslə deyir. – Ata özünü çox da yaxşı hiss etmir. – Jasmin yerindən tərpənmir. – Sənə dedim, o biri otağa keç! – Silvi deyir; səsindəki vahimə artır.

Dekster Jasmini inandırmaq üçün nəsə demək istəyir, amma ağzı şişmiş və yara içindədi; sözləri bir yerə yığa biləcək gücdə görünmür. Əvəzində məğlub olmuş halda bədənini arxaya çəkir. – Tərpənmə, – Silvi deyir, – sadəcə, olduğun yerdə qal. – Qızını da götürüb otaqdan çıxır. Dekster gözlərini yumur, gözləyir, bunların hamısının keçməsi üçün dua edir. Zalda səslər gəlir. Kimsə telefonla danışır.

Bundan sonra yadında qalan şey bir avtomobilin arxa oturacağında dama-dama adyalın altında narahat şəkildə burulduğu olur. Adyalı üstünə bərk-bərk dolayır – isti havaya baxmayaraq, titrəməyini dayandıra bilmir – və bunun avtomobilin burqundiya üzlüyünün qoxusuyla birlikdə ona ailəsiylə keçirdiyi günləri xatırladan köhnə piknik adyalı olduğunu anlayır.

Başını güclə qaldıraraq pəncərədən bayıra baxır. Onlar avtostradadadırlar (avtomobil yolu). Radioda Mosartdan çalırlar. Atasının başının arxasını, səliqəylə daranmış qəşəng boz-gümüşü saçlarını görür.

– Haraya gedirik?

– Səni evə aparıram. Çalış, yat.

Atası onu qaçırdır. Bir anlıq mübahisə etmək istəyir: "*Məni Londona qaytar, yaxşıyam mən, uşaq deyiləm*". Amma üzünə dəyən dəri oturacaq istidir, tərpənməyə gücü yoxdu, mübahisə etməkdən imtina edir. Yenə də titrətmə gəlir, adyalı çənəsinə qədər dartır və yuxuya gedir.

Telegram: @cinciva

O, böyük, əzəmətli ailə evinin çınqılında təkərlərin çıxartdığı səsə oyanır. – Gəl oğlum, – atası sürücü kimi avtomobilin qapısını açarkən deyir. – Axşama sup var! – deyir və avtomobilin açarlarını sevinclə havaya ataraq evə tərəf irəliləyir. Görünür, özünü elə aparmaq istəyir ki, guya hər şey qaydasındadı. Dekster bunun üçün ona minnətdardır. Beli bükülmüş və halsız vəziyyətdə avtomobildən düşür, piknik adyalını çiynindən atır və atasının arxasıyca gedir.

Aşağı mərtəbədəki kiçik vanna otağının güzgüsündə üzünə diqqətlə baxır. Alt dodağı partlayaraq şişib, üzünün bir tərəfində böyük sarı-qəhvəyi rəngli zədə var. Çiyinlərini tərpətməyə çalışır, amma beli ağrıyır; əzələləri gərilmiş vəziyyətdədi. Üz-gözünü turşudaraq dilini yoxlayır, yara içindədi, qıraqları dişlənib və üstü boz rəngli kiflə örtülüdü. Dilinin ucunu dişlərində gəzdirir. Bu günlərdə heç dişlərini də təmizləmir; nəfəsinin qoxusunu güzgüyə dəyərək əks olunmasından hiss eləyir. Elə bil içində çürüyən nə isə varmış kimi pis qoxu gəlir. Burnunda və yanağında çatlayan damarlar var. Gecələr həmişə, gündüzlər də tez-tez içdiyi üçün həddindən çox kökəlib; üzü yupyumru, gözləri daim qırmızı və şişkindir.

Başını güzgüyə söykəyib nəfəs verir. Emmayla olduğu vaxtlarda bəzən: "Emma ətrafında olmazsa, həyat necə olardı", – deyə fikirləşərdi; elə də qorxulu şəkildə yox, sadəcə, maraqdan; sevgililərin hamısı bunu etmirlər? Onsuz necə olacağıyla maraqlanmaq? İndi cavab güzgüdədir. Bu itki ona faciəvi əzəmət qatmamışdı, əksinə, onu, sadəcə, axmaqlaşdırıb mənasızlaşdırmışdı. Onsuz heç bir dəyəri, şərəfi və məqsədi yoxdu; peşmanlıq və rüsvayçılıqdan zəhərlənmiş alçaq, tənha, orta yaşlı bir sərxoşdu. Bu səhərin arzuedilməz bir xatirəsi, keçmiş arvadının və atasının onu soyundurub vannaya salmaları yadına düşür. İki həftə sonra qırx bir yaşı olacaq, ancaq vannaya girməsinə atası kömək edir. Niyə o

Telegram: @cinciva

dəqiqə, sadəcə, mədəsini yumaq üçün xəstəxanaya aparmayıblar? Bu, daha çox şərəfli olardı.

O, atasının dəhlizdə bacısıyla telefonla qışqıraraq danışdığını eşidir. Vannanın qırağında oturur. Qulaq asmaq üçün heç bir xüsusi səy tələb olunmur. Əslində, eşitməmək qeyri-mümkündü.

– Öz evinin qapısını təpikləyərək açmağa çalışarkən qonşuları oyandırıb. Qonşular içəri salıblar... Silvi onu döşəmədə tapıb... Görünür, həddindən çox içib, bu qədər... bir az zədəsi, kəsiyi var... Qətiyyən, heç bir fikrim yoxdu. Hər nə isə, yuyundurduq. Sabaha yaxşı olacaq. Gəlib salamlaşmaq istəyirsən? – Dekster bacısının "yox" deməyi üçün vanna otağında dua edir; bacısının da o qədər məmnun olmadığı görünür. – Başa düşürəm, Kesi. Bəlkə səhər ona bir zəng vurarsan, olar?

Atasının getdiyinə əmin olandan sonra Dekster sakitcə vanna otağından çıxıb mətbəxə tərəf gedir. Tozlu, böyük bir stəkanda isti kran suyu içir və qürub günəşinin düşdüyü bağı seyr edir. Üzmə hovuzunun suyu quruyub, üstü isə göy brezentlə örtülüb; tennis kortunu ot-ələf basıb. Mətbəxin də ağır kifsimiş qoxusu var. Böyük ailə evinin otaqları tədricən bir-bir bağlanıb; atası indi, sadəcə, mətbəxdən, qonaq otağından və öz yataq otağından istifadə edir; amma bu belə hələ də onun üçün həddindən artıq böyükdü. Bacısı atasının bəzən divanda yatdığını deyir. Narahat olaraq atalarına daha asan idarə olunan bir yerə, Oksford, ya da Londonda kiçik bir mənzilə köçməsi üçün ağız açmışdılar, ancaq atası bu fikri heç yaxınına buraxmamışdı.

– Etiraz etməsəniz, öz evimdə ölmək niyyətindəyəm, – deyir; etiraz üçün həddindən artıq emosional arqumentdir.

– İndi yaxşısan? – Atası arxasında dayanıb.

– Bir az.

– O nədi? – Başıyla Deksterin əlindəki stəkanı göstərir. – "Cin"di?

Telegram: @cinciva

– Adi sudu.

– Eşitməyimə məmnun oldum. Necə xüsusi gün olduğunu görüb fikirləşdim ki, bu axşam sup içərik. Konservləşdirilmiş sup hazırlamağı bilirsən?

– Məncə, hə.

Havaya iki konserv qutusu qaldırır. – Ətli hind supu, yoxsa kremli toyuq?

Beləliklə, iki kişi, bir cüt dul iki boşqab sup bişirmək üçün həddindən çox qarışıqlıq yaradaraq kif qoxulu böyük mətbəxdə ayaqlarını sürüyə-sürüyə fırlanırlar. Tənha yaşamağa başlayandan bəri atasının qida rasionunun hirsli bir kişi boyskautun qida rasionundan fərqi yoxdu; Sobada bişirilmiş paxlalar, kolbasalar, balıq çubuqları; hətta jele hazırladığı vaxtlar da olur.

Zalda telefon zəng çalır. – Sən baxa bilərsən? – dilim-dilim doğranmış ağ çörəklərin üzərinə kərə yağı sürtərək atası deyir. Dekster tərəddüd edir. – Səni dişləməyəcək, Dekster.

Dekster zala girib telefonu qaldırır. Zəng vuran Silvidi. Dekster pilləkənlərdə oturur. Keçmiş arvadı indi tənha yaşayır, Kellumla münasibətləri Milad bayramından bir az əvvəl, nəhayət, əməlli-başlı korlanmışdı. Ortaq bədbəxtlikləri və Jasmini bundan qoruma arzuları onları qəribə şəkildə bir-birilərinə yaxınlaşdırmışdı və evləndiklərindən bəri ilk dəfə, həqiqətən, dost olmuşdular.

– Necəsən?

– Eh, özün bilirsən. Bir az xəcalət çəkirəm. Olanlara görə üzr istəyirəm.

– Narahat olma.

– Atamla birlikdə məni vannaya salmağınızı xatırlayıram, deyəsən.

Silvi gülür. – Sözün düzü, heç tərəddüd etmədi: – "Daha əvvəl görmədiyim heç nəyi yoxdu", – dedi.

Telegram: @cinciva

Dekster gülümsəyərkən eyni zamanda üz-gözünü turşudur: – Jasmin yaxşıdı?

– Məncə, hə. Yaxşıdı. Daha da yaxşı olacaq. Ona yeməkdən zəhərləndiyini dedim.

– Gerisini mən düzəldərəm. Dediyim kimi, çox təəssüf edirəm.

– Belə şeylər olur. Sadəcə, bir də heç vaxt, heç vaxt belə eləmə, olar?

Dekster ağzında: – Yox, yaxşı, görəcəyik... – kimi şeylər gəvəzələyir. Sakitlik çökür. – Mən getməliyəm, Silvi. Sup yanır.

– Şənbə günü görüşərük, yaxşı?

– Görüşərik. Jasminə sevgilər. Hə, bir də üzr istəyirəm.

– Bunun üçün heç bir səbəb yoxdu ki, – deyə utanaraq mızıldanır.

– Hə, bəlkə də yoxdu. Amma biz sevirik.

Bir az sonra telefonu yerinə qoyub televizorun qarşısında homeopatik proporsiyalarda durulaşdırılmış limonlu arpa suyu içən atasına qoşulur. Sup diz üstündə yeməyə rahat olsun deyə altı yumşaq şeylə doldurulmuş sinilərdə yeyilir; Dekster bunu qeyri-müəyyən tərzdə qəmgin hesab edirdi, çünki anası bu növ yeməklərin evdə hazırlanmasına bəlkə də heç vaxt icazə verməzdi. Lava kimi isti sup kəsik dodağını yandırır, atası dilimlənmiş ağ çörəklərin üzərinə kərə yağını düzgün çəkmədiyinə görə parçalanıb lıqqa rəngində xəmir halına gəlib. Amma bulamac kimi supun içində əriyən kərə yağı qəribə şəkildə ləzzətli olur və televizorda atasının yeni asılılığından biri olan *"İst Endörs"*ə baxa-baxa yeməklərini yeyirlər. Reklamlar gedərkən sinini yerə qoyur, pultu götürüb televizorun səsini alır və çevrilib Deksterə baxır.

– Bu vəziyyət illik festivala çevrilir, sən nə fikirləşirsən?

Telegram: @cinciva

– Hələ bilmirəm. – Bir az vaxt keçir, sonra atası səsi alınmış televizora tərəf çevrilir. – Üzr istəyirəm, – Dekster deyir.

– Niyə?

– Yəni məni vannaya salmalı oldun, ona görə...

– Hə, etiraz etməsən, bunu bir də etmək istəmərəm. – Televizor hələ də səssizdəykən kanalları bir-bir fırlayır. – Hər nə isə, tezliklə sən də mənim üçün bunu edəcəksən.

– Allahım, ümid edirəm ki, etmərəm, – Dekster deyir. – Kesi edə bilməz?

Atası gülümsəyərək ona ötəri baxır. – Mən, həqiqətən, o qədər səmimi olmaq istəmərəm. Sən?

– Mən də istəmərəm.

– Yaxşı, onda buna imkan vermə. Qoy deyim, mən elə fikirləşirəm ki, edə biləcəyin ən yaxşı şey həyatını Emma hələ də sağmış kimi yaşamağa çalışmaqdı. Sən də bunun ən yaxşı fikir olduğunu fikirləşmirsən?

– Bilmirəm, bacararammı?

– Çalışmalısan. – Pultu götürür. – Son on il ərzində mənim nə etdiyimi fikirləşirsən? – Atası televizorda axtardığı verilişi tapır və stuluna yaxşıca yayxanır. – Ah, bu da *"The Bill"*[1]...

Onlar ailə fotolarıyla dolu otaqda yay axşamının aydınlığında birlikdə oturub televizora baxırlar və Dekster utanmağına rəğmən bir də baxır ki, sakitcə ağlayır. Ehtiyatla əlini gözünün üstünə qoyur, amma atası nəfəsini tutmağa çalışdığını anlayıb, ona tərəf çevrilir.

– Orada hər şey yaxşıdı?

– Üzr istəyirəm, – Dekster deyir.

– Mənim aşpazlığımla bağlı deyil ki?

Dekster gülərək burnunu çəkir. – Deyəsən, hələ də bir az sərxoşam.

– Dərd eləmə, – deyib, atası televizora tərəf çevrilir. *"Sakit şahid"* saat doqquzda başlayır.

---

[1] "The Bill" (Qanun layihəsi). İngilis polis serialı.

Telegram: @cinciva

XXI Fəsil

Arturun taxtı

15 iyul. 1988-ci il. Şənbə

Renkeylor küçəsi, Edinburq

Dekster kiflənmiş, pis qoxulu vanna otağında duş alıb, dünən gecəki köynəyini geyindi. Köynəkdən tər və siqaret qoxusu gəlirdi; qoxu yayılmasın deyə üstündən pencəyini geyindi, şəhadət barmağının üzərinə bir az diş pastası sıxıb dişlərini fırçaladı.

O, mətbəxdə Truffautun divar boyu yağlı *Culz və Cim* afişasının altındakı Emma Morli və Tilli Killikə qoşuldu. Onlar bağırsaq qarışdıran, iyrənc səhər yeməklərini yeyərkən – soya səpilmiş qara çörək, bəzi qarışıq müsli – Cin Mori başlarının üstündə gülərək onlara baxırdı. Bu xüsusi gün olduğu üçün Emma içi həmişə ərpli olan kimi görünən espresso qəhvədanını təmizləmişdi və birinci fincan yağlı, qara mayeni içəndən sonra Dekster özünü bir az daha yaxşı hiss etməyə başladı. Emmanın ev yoldaşının axmaq-axmaq danışığına utana-utana qulaq asaraq sakitcə oturdu; içində bir şərəf nişanı kimi taxdığı böyük eynəyilə gülməli teatr kampaniyası tərəfindən girov götürüldüyünə aid qəribə bir hiss vardı. Bütün bunlardan sonra hələ də burada qalmaq bəlkə də böyük səhvdi. Yataq otağından çıxmaq, şübhəsiz ki, səhv olmuşdu. Tilli Killik burada çərənçilik edərkən onu necə öpə bilərdi?

Telegram: @cinciva

Öz adına, Emma da Tillinin orada olmağından yavaş-yavaş narahat olmağa başlamışdı. Heç nəzakəti yoxdu? Əlini çənəsinə qoyub orada oturur, saçlarıyla oynayır, çay qaşığını sorurdu. Emma əvvəllər istifadə etmədiyi çiyələkli bədən losyonuyla duş qəbul etmə səhvini buraxdığı üçün indi meyvəli yoqurt kimi qoxuduğunu acı şəkildə anlayırdı.

Şiddətli şəkildə vanna otağına gedib bu qoxunu bədənindən çıxarmaq istəyirdi, amma Deksteri Tilliylə tək qoymağa cəsarəti çatmırdı.

Emmanın əsl istədiyi yatağa qayıtmaq və yenidən yarı çılpaq olmaqdı, amma artıq bunun üçün çox gecdi, ikisi də tamamilə ayıq idilər. Buradan canını qurtarıb getməkçün ürəyində böyük bir arzuyla məzun həyatlarının birinci günündə nə edə biləcəklərini ucadan soruşdu.

– Pivəxanaya gedə bilərik? – deyə Dekster zəif səslə təklif etdi; Emma ürək bulanması ilə inildədi.

– Lanç üçün gedilir? – Tilli dedi.

– Pulumuz yoxdu.

– Onda kinoya gedək? – Dekster dedi. – Mən ödəyəcəyəm...

– Bu gün yox. Bayır çox gözəldi, çöldə olsaq yaxşıdı.

– Yaxşı, sahilə, Şimali Berikə gedək.

Emma bu ideyadan da imtina etdi. Bu, onun qarşısında çimərlik geyimi deməkdi və o belə əzaba tab gətirəcək qədər güclü deyildi. – Sahilə getmək istəmirəm.

– Yaxşı, onda neyləyək?

– Kral Arturun taxtına qalxaq? – Tilli dedi.

– Heç vaxt görməmişəm, – Dekster adi biş şey deyirmiş kimi dedi. Qızların ikisi də təəccübdən açılan ağızlarıyla ona baxdılar.

– Arturun taxtına heç vaxt qalxmamısan?

– Yooo.

– Dörd il Edinburqda olmusan və heç vaxt?..

Telegram: @cinciva

– Başım qarışmışdı mənim!

– Nə ilə? – Tilli dedi.

– Antropologiya təhsiliylə, – Emma dedi və iki qız qaqqıldamağa başladılar.

– Yaxşı, onda getməliyik! – Tilli dedi və Emmanın gözləri xəbərdarlıqla parıldadı.

– Mənim ora uyğun ayaqqabım yoxdu, – Dekster dedi.

– Bura K2 zirvəsi deyil eee, sadəcə, yüksək təpədir.

– Bu ayaqqabılarla dırmaşa bilmərəm!

– Lap yaxşısan, elə çətin şey deyil.

– Kostyumla?

– Hə! Piknik edə bilərik! – Amma Emma həvəsdən düşməyə başladığını hiss edirdi; ta ki Tilli, nəhayət, danışana qədər:

– Əslində, siz mənsiz getməlisiniz. Mənim... görməli işlərim var.

Emmanın gözləri ona çevrildi, Tillinin göz qırpışının sonunu tutdu və o an çox asanlıqla əyilib Tillini öpə biləcəyini fikirləşdi.

– Yaxşı onda. Gəlin bunu edək! – Dekster dedi; o da rahatlaşmışdı və on beş dəqiqə sonra onlar bayırda, dumanlı bir iyul səhərindəydilər. Solsberi ayalıqları Renkeylor küçəsinin sonunda qarşılarında aydın görünürdü.

– Ora həqiqətən qalxacağıq?

– Özünü uşaq kimi aparma. Mənə arxayın ol.

Nikolson küçəsindəki super marketdən piknikçün bazarlıq etdilər; hər ikisi də qəribə ailə adəti olan bazarlıq səbətini bölüşdüklərinə görə bir az narahatdı, hər ikisi də seçimlərində özünə inamsızdı; zeytunlar çox bahadı? *Irn Bru*[1] götürsəm, zarafatı anlarmı? Şampan almaq özündənrazılıq olmaz ki? Emmanın hərbi çantasını yaraq-əsləhəylə doldurdular – Emma şən ovqatda,

[1] Alkoqolsuz Şotland içkisi.

Telegram: @cinciva

Dekster gələcəyin yemək uzmanı kimi, – sonra birlikdə Holirud Parka tərəf yola düşdülər və dik qayalıqlarla qalxmağa başladılar.

Dekster kostyum və sürüşkən ayaqqabılarda tər içində, başı axşamkı qırmızı şərabdan və səhərki qəhvədən zoqquldayaraq, dodağında siqaret Emmanın arxasınca gedirdi. Mənzərənin gözəlliyinə baxmaq əvəzinə gözlərini Emmanın belini bərk-bərk sıxmış solğun göy rəngli 501-in altındakı qıçına zilləmişdi.

– Çox cəldsən.

– Dağ keçisi kimiyəm. Əvvəllər piyada çox gəzərdim. Vəhşi, küləkli çöllərdə. Çox romantikdim. "Həyatımsız yaşaya bilmərəm! Ruhumsuz yaşaya bilmərəm"!

Dekster ala-yarımçıq qulaq asır, Emmanın haradansa sitat gətirdiyini təxmin edirdi; ancaq onun kürəyində əmələ gələn tər ləkəsi və qolsuz köynəyinin sürüşən boynundan görünən lifçik toqqası fikrini yayındırırdı. Gözünün qabağından keçən gecəki yataqla bağlı ani təsvir keçdi; amma Emma elə baxırdı ki, elə bil bu fikirləri başından uzaqlaşdırmağı üçün ona xəbərdarlıq edirdi.

– Vəziyyət necədi, Şerpa Tenzinq?[1]

– Yaxşıyam. Bu ayaqqabılar bir az möhkəm yapışsaydı... dərdim olmazdı.

Emma gülür.

– Gülməli nə var?

– Sadəcə, mən heç vaxt siqaret çəkərək eyni vaxtda dağ qalxan adam görməmişəm.

– Başqa nə edə bilərəm ki?

– Mənzərəyə baxa bilərsən!

– Mənzərə mənzərədi də.

– Bu, Şelli, yoxsa Vordsvörsdü?[1]

---

[1] Nepallı alpinist. 1953-cü ildə Edmund Hillariylə bir yerdə Everest zirvəsinə ilk dəfə çıxan şəxs.

Telegram: @cinciva

Dekster ah çəkib dayandı, əllərini dizlərinə qoydu. – Yaxşı. Gözəl. Mənzərəyə baxacağam. – Dönüb bələdiyyə evlərindən tikilmiş mikrorayonları, qəsrin böyük boz qalıqları altındakı Köhnə şəhəri gördü. Deksterin heç nədən təsirlənməmək kimi ümumi bir prinsipi vardı, amma bu, açıqcalardan tanıdığı, həqiqətən, ovsunlayıcı mənzərəydi. Bunu niyə daha əvvəllər heç vaxt görmədiyinə təəccübləndi.

– Çox gözəldi, – dedi və ora çatanda daha nələr olacağını fikirləşərək, birlikdə zirvəyə qalxmağa davam etdilər.

[1] P.B.Şelli: İngilis şairi, 1792 – 1922 V.Vordsvörs: İngilis şairi, 1770 – 1850

Telegram: @cinciva

XXII Fəsil

İkinci ildönümü Əşyalar

15 İyul 2006, Şənbə

Şimali London və Edinburq

O axşam altı on beşdə Belvill Kafenin pəncərə xəfənglərini endirir və ağır qıfılı yerinə taxır. Meddi yanında onu gözləyir, birlikdə metro stansiyasına tərəf gedərkən Dekster Meddinin əlini tutur.

Nəhayət, ən nəhayət, evinə köçdü; bu yaxınlarda Qozpel Oukdakı qəşəng, amma sadə üç otaqlı ikimərtəbəli mənzilinin bütün əşyalarını aldı. Meddi bir az uzaqda, Şimal Dəmiryolu Xəttinin o biri ucunda – Stokveldə yaşayır və Dekster bəzən gecələr orada qalır. Ancaq bu gecə yox; bir melodram, ya da uğursuzluq olduğuna görə yox, sadəcə, Dekster bu gecə tək qalmaq istəyir. O, bu gecə üçün özünə "vəzifə" icad edib və bunu, sadəcə, yalnızlıqda edə bilər.

Tafnel Park metrosundan bayırda sağollaşdılar. Meddinin boyu ondan bir az ucadır; düz, uzun, qara saçları var və Deksteri öpmək üçün bir az əyilməli olur. – Mənə sonra zəng edərsən, əgər istəsən.

– Yaxşı.

– Fikrini dəyişib gəlməyimi istəsən...

Telegram: @cinciva

– Belə daha yaxşı olacam.

– Onda yaxşı. Sabah görüşə bilərik?

– Mən sənə zəng edərəm.

Onlar yenidən öpüşüb bir-birilərinə qısa, amma sevgi dolu "gecən xeyrə qalsın" deyirlər və Dekster yeni evinə tərəf təpədən aşağı enməyə başlayır.

İki aydır, kafenin meneceri Meddiylə görüşürlər.

Başqa işçilərə hələ rəsmən deməyiblər, ancaq, onsuz da, ehtimal edirlər ki, hamı bilir. Bu, ehtiraslı münasibət deyil, keçən ildən bəri tədricən yaranan, qaçılmaz vəziyyətdi. Deksterə görə, bütün bu olanlar həddindən artıq praktik və həyəcandan uzaqdı, ürəyində isə Meddinin yaxın dostdan sevgiliyə çevrilməsindən bir az narahatdır; bu, münasibətlərin üzərinə kölgə salır.

Yaxşı yola getdikləri də bir həqiqətdir, hamı eyni şeyi deyir; Meddi nəzakətli, başa düşən və cazibədardır, ucaboy, incə və bir az ləngdir. Rəssam olmağı arzulayır, Dekster də onun istedadlı olduğunu fikirləşir; kafedə asdığı kiçik kətan tablolar hərdən satılır da. Deksterdən on yaş kiçikdi – buna Emmanın gözlərini bərəldəcəyini təsəvvür edir, – amma savadlı, ağıllı və bədbəxtlikdən öz payını almış adamdır: Erkən boşanma, bir neçə uğursuz münasibət. O, sakit, təmkinli, qayğıkeşdi və Deksterə uyğun qəmgin havası var. Həmçinin çox rəhmdil və həddindən artıq sadiqdir; bütün gəlirlərini içməyə xərclədiyi vaxtlarda bu biznesi xilas edən Meddi olub və Dekster buna görə ona minnətdardır. Jasmin də onu xoşlayır. Ən azından, hal-hazırda hər şey kifayət qədər yaxşı gedir.

Gözəl bir şənbə axşamı xəlvət küçələrdən keçərək Hempstid Hisdən o qədər də uzaq olmayan, qırmızı kərpicli böyük evinin aşağı və giriş mərtəbəsindən ibarət mənzilinə çatır. Mənzil ondan əvvəl burada yaşamış yaşlı cütlüyün qoxusunu və divar kağızlarını qoruyub saxlayır. Dekster yalnız bir neçə lazımlı əşyanı paketdən çıxartmışdı: televizor, DVD və stereo maqnitofon. Dəhşətli vanna

Telegram: @cinciva

otağı və çoxlu kiçik otaqları olan köhnə yerdi, amma Silvi divarlar sökülüb döşəmələr düzəldilərsə, burada böyük bir potensial olduğunu təkid edir. Jasmin gələndə onun qalmağı üçün böyük bir otaq, həmçinin bağçası var. Bağ. Bir müddət beton döşəmə işinə dırnaqarası yanaşsa da, ancaq sonra bağçılıqla məşğul olmağa qərar verdi və bu mövzuda kitab aldı.

Evə girib zalda üst-üstə yığılan qutuların yanından keçəndən sonra əvvəlcə duş qəbul edir, sonra mətbəxə keçib Tailand yeməyi sifariş edir. Qonaq otağındakı divana uzanır, beynində vəzifəsini yerinə yetirmək üçün etməli olduğu şeylərin siyahısını hazırlayır.

15 iyul ən müxtəlif adamların kiçik çevrəsi üçün son iki ildə hüznlü gündü, həmin gün Dekster bu adamlardan bəzilərinə zəng vurmalıydı. Öncə Emmanın Lidsdə yaşayan valideynləri Syu və Cimlə danışmalıdı. Söhbət xoş və kifayət qədər normal gedir; həm anasına, həm də atasına ayrı-ayrılıqda təkrarlayaraq iki dəfə işindən, Jasminin məktəbdəki uğurlarından danışır. – Yeni xəbərlərim, həqiqətən də, bu qədərdir, – Syuya deyir. – Sadəcə, demək istəyirəm, bilirsən, bu gün sizi fikirləşdim və ümid edirəm ki, siz qaydasındasınız.

– Mən də, Dekster. Özünü qoru, yaxşı? – Syu səsi titrəyərək deyir, sonra dəstəyi asır. Dekster siyahı üzərində işləməyə davam edir; bacısına, atasına, keçmiş arvadına, qızına zəng edir. Söhbətlər qısa, şişirdilmiş dərəcədə şən və günün əhəmiyyətini xatırladacaq məzmunda olmur, amma alt yazı həmişə eynidir: – Mən yaxşıyam. – Tilli Killik zəng edir, ancaq o həddindən artıq emosionaldır: – Bəs sən, *həqiqətən,* necəsən, əzizim? *Həqiqətən* deyirəm. Təksən? Tək yaxşısan? Gəlməyimi istəyirsənmi? – Dekster əsəbiləşərək onu inandırır və söhbəti bacardığı qədər tez və ədəblə bitirir. Sonra Tontondakı Yan Vaythedə zəng vurur, amma Yan uşaqları yatmağa aparır; danışmaq üçün uyğun vaxt deyil. Yan həftə içində zəng vuracağına söz verir; Dekster heç vaxt baş verməyəcəyindən əmin olaraq bunun çox gözəl fikir olduğunu deyir.

Telegram: @cinciva

Bütün telefon zənglərində görünür ki, tufanın ən pis hissəsi arxada qalıb. Dekster, ehtimal ki, Yan Vaythedlə bir də heç vaxt danışmayacaq və bu, onların hər ikisi üçün çox yaxşıdır.

Televizora baxa-baxa şam yeməyini yeyir, kanalları bir-bir dəyişir, yemək vaxtı cəmi bir şüşə pivəylə yetinir. Amma bu qəribə evdə, divanda belini büküb tək-tənha şam eləməkdə kədərli nəsə var və o gün ilk dəfə ümidsizlik və tənhalıq hissinə qapılır. Bu günlərdə dərd donmuş çayda gəzməyə bənzəyir; özünü çox vaxt kifayət qədər təhlükəsizlikdə hiss edir, amma batma təhlükəsi həmişə var. İndi altındakı buzun cırıltısını eşidir və bu hiss o qədər gərgin və həyəcanlandırıcıdı ki, bir anlıq dayanır, əllərini üzünə sıxır, nəfəsini dərmədən durur. Barmaqlarının arasından yavaş-yavaş nəfəs verir, sonra tələsik mətbəxə qaçır, çirkli boşqabları şaqqıltıyla tasa atır. Qəfildən içmək, dayanmadan içmək ehtiyacı duyur. Telefonunu tapır.

– Nə oldu? – Meddi səsində narahatlıqla deyir.

– Heç, sadəcə, bir az tələşlandım.

– Gəlməyimi istəmədiyinə əminsən?

– İndi yaxşıyam.

– Taksi çağırım bəlkə? Səninlə birlikdə ola bilərəm...

– Yox, həqiqətən. Tək qalsam, daha yaxşı olacağam. – O, səs tonunun onu sakitləşdirməyə kifayət edəcəyini fikirləşir və yaxşı olduğuna inandırdıqdan sonra sağollaşırlar. Heç kəsin ona zəng etməyi üçün əsaslı bir səbəb olmadığına əmin olaraq telefonu söndürür; pərdələri verir, yuxarı mərtəbəyə çıxıb işə başlayır.

Boş yataq otağında bir döşək, açıq çamadan və ikisində Emmanın öz xəttiylə, qara marker qələmlə "Emma 1", "Emma 2" yazılan yeddi, ya da səkkiz karton qutudan başqa heç nə yoxdu. Emmadan qalan əşyaları, qeyd dəftərləri, məktublar, şəkil zərfləriylə dolu qutuları qonaq otağına aparır və gecənin qalan hissəsini qutuları açmaq, heç bir mənası olmayan köhnə sənədləri (köhnə bank kağızları, qəbzlər, köhnə yemək menyuları qara zibil kisə-

Telegram: @cinciva

sinə atılacaq) Emmanın ailəsinə göndəriləcək və özünə saxlayacağı əşyalardan ayırmağa başlayır.

Bu iş bir az vaxt alır, amma tamamilə quru gözlərlə və praqmatik yolla yerinə yetirilir, sadəcə, Dekster hərdən dayanır. Gənclik şeirləri, pyes qaralamalarıyla gündəlik və qeyd dəftərlərini oxumaqdan qaçmağa çalışır. "Oxumaq düzgün deyil", – deyə fikirləşir. Emmanın çiyinlərinin üzərindən baxaraq sifətini büzüşdürəcəyini, ya da əlindən dartışdıracağını təsəvvür edir – beləliklə, diqqətini məktublara və şəkillərə yönəldir.

Əşyaların qablaşdırma forması göstərir ki, əks xronoloji sırayla işləməlidir; iki nömrəli qutudakı layların arasını qarışdıraraq qovuşduqları vaxtdan başlayır, doxsanıncı illərin ortasından qutunun dibindəki səksəninci illərə tərəf geri qayıdır. Lap başda Culi Kriskoll romanlarının axmaq üz qabıqları var; redaktoru Marşayla yazışmaları, qəzet kəsikləri və s. Növbəti qatda açıqcalar və Paris fotoşəkillərini aşkar edir; aralarında məşhur Jan Pyer Dasolerin tünd dərili və çox yaraşıqlı bir görüntüsü var. Bir zərfin içində metro biletləri, qatlanmış menyular, Fransada bir icarə haqqı razılaşması var; birdən təsirli nəyəsə rast gələrək heyrətlənir, az qala, əlindəkini döşəməyə atır.

O yay Parisdə çəkilən bir **Polaroid** şəkildi; Emma ayaqlarını bir-birinin üzərinə aşırıb, çarpayıda çılpaq, qolları bayqın halda başından yuxarıya uzanıb. Bu şəkil ağ-qara televizorda *"Titanik"* filmini fransız dilində izlədikdən sonra sərxoş və şəhvət dolu bir gecənin sonunda çəkilmişdi; Dekster şəkli möhtəşəm hesab etdiyi halda, Emma əlindən qapışdırıb, onu cıracağını israrla demişdi. Emmanın, əslində, şəkli xoşladığını fikirləşdirən, onu cırmayıb gizlincə saxladığı həqiqəti Deksteri xoşbəxt etməliydi. Amma həmçinin onun yoxluğunu daha bir dəfə üzünə vurur və nəfəsini dərmək üçün bir anlıq dayanmaq məcburiyyətində qalır. Şəkli geri – zərfinə qoyur və özünə gəlmək üçün sakitcə oturur. Altındakı buz çatlayır.

Telegram: @cinciva

Dekster davam edir. Doxsanıncı illərin sonlarından qalma doğum elanları, toy dəvətnamələri yığınını tapır; Kromvel Yol Peşə Məktəbinin məzun gecəsindən işçilərin və şagirdlərin olduğu böyük ölçülü bir şəkil eyni zərfin içinə, məktubların arasına soxulmuş, Fil adında bir adamdan üzr istəyən məktublar silsiləsi tapır; tez qatlayıb geri – zərfin içinə qoyur. Yanın komediya proqramlarının elanları, E17 ünvanındakı mənzilin alınması ilə əlaqəli vəkillərdən gələn bəzi yorucu sənədlər. Doxsanıncı illərin əvvəllərində səyahət edərkən göndərdiyi mənasız şəkilli aşıqcalardan bir dəstə: "ÇILĞIN Amsterdam", "Dublin DAĞILIR". Bunlara cavab olaraq aldığı məktubları, aşıq-mavi, aviapoçt kağızına yazılmış, hərdən təzədən oxuduğu, möhtəşəm kiçik paketləri xatırlayır və iyirmi dörd yaşındakı xamlığından utanır: "VENESİYANI TAMAMİLƏ SU BASDI!!!!" Kruəl Karqonun proqramının bir fotosurəti var: "Kruəl Karqo – Emma Morli və Qari Natkindən gənclər üçün tamaşa". Və sonra köhnə esselər, dissertasiyalar, "Donun qadınları" və "Eliot və faşizm" haqqında tezislər, tələbə evlərindən qalma, üzərilərində kiçik sancaq izləri olan bir qalaq açıqca sürətləri var. Boru formasında karton və içində Emmanın toxunulmamış diplomunu tapır; təxminən, iyirmi il əvvəli xatırlayır. Tarixinə baxır; 14 İyul 1988. Dünəndən on səkkiz il əvvəl.

Cırılmış bir zərfin içində məzuniyyət şəkillərini tapır, çox böyük nostalji yaşamadan şəkilləri qarışdırır. Çünki bu şəkilləri Emma çəkmişdi, özü çox azında görünür, onsuz, o biri tələbələrin çoxunu da çoxdan unutmuşdu; Emma o vaxtlar fərqli qrupun içindəydi. Yenə də fikri üzlərin cavanlığında qalır və Tilli Killikin on doqquz illik məsafədəki bir şəklin içindən onu əsəbiləşdirmə gücünə malik olduğu faktı diqqətini çəkir. Kellum O`Nilin özündənrazı, arıq görüntüsü cəld cırılıb zibil kisəsinin dərinliklərinə batırılır.

Amma, yəqin ki, bir anlıq kameranı Tilliyə verib; çünki, nəhayət, Emmanın özünün üzü kloun kimi ifadə almış, eynəyini

Telegram: @cinciva

burnunun ucuna endirdiyi, kepkası və cübbəsiylə çəkilmiş bir şəkli var. Dekster gülümsəyir, sonra təəccüblü bir utancla inildəyərək öz köhnə şəklini tapır.

O, dodaqlarını içəri çəkib qaşqabağını tökərək axmaq bir kişi maneken görünüşü yaradarkən, Emma bir qolunu onun boynuna dolayıb, üzünü üzünə yaxınlaşdırıb, gözləri geniş açıq, bir əlini də film ulduzları kimi yanağına dayayıb. Bu şəkil çəkildikdən sonra məzuniyyət çayına, sonra pivəxanaya, daha sonra da o evdəki ziyafətə getmişdilər. O evdə kimin yaşadığını xatırlamır, yalnız evin dağıldığını, demək olar ki, məhv olduğunu, ziyafətin küçəyə və evin arxasındakı bağa keçirildiyini xatırlayır. Qarışıqlıqdan gizlənərək qonaq otağındakı divanda bir yer tapıb, bütün axşamı birlikdə orada qalmışdılar. Ora Emmanı ilk dəfə öpdüyü yerdi. Məzuniyyət şəklinə bir daha diqqətlə baxır; Emma o qalın, qara çərçivələrin arxasında, pis kəsilmiş qızılı rəngli saçlarıyla, üzü indi xatırladığından bir az daha toppuş, ağzı geniş təbəssümlə açılıb, üzünü üzünə dayayıb. Bu şəkli bir tərəfə qoyub növbəti şəklə baxır.

Günortaya az qalmışdı. Dağın ətəyində oturmuşdular, Emmanın əynində 501 nömrəli corab və qara Converse All-stars ayaqqabılarla Dekster dünəndən geydiyi ağ köynək və qara kostyum əynində bir az uzaqda dayanmışdı. Arturun taxtının zirvəsi gözləmədikləri şəkildə turistlər və dünən gecəki bayramlarına görə ağappaq üzlü, səndələyən məzunlarla doluydu. Deks və Em bəzi tanışları salamlamaq üçün utana-utana əllərini qaldırmışdılar, amma artıq çox gec olsa da, qeybətdən qaçmaq üçün bir-birilərindən aralı dayanmışdılar.

Hər tərəfdən müxtəlif görüntülər çəkərək, pas rəngli düzənlikdə boş-boşuna gəzişmişdilər. Zirvəni göstərən daş sütunun önündə dayanıb, belə vəziyyətlərdə etməli olduqları "Deyəsən, çox uzağa gəlmişik" və "Evimiz buradan necə görünür?" kimi mü-

Telegram: @cinciva

zakirələr etmişdilər. Sütunun üzəri qaralamalar, divar yazılarıyla doluydu: şəxsi zarafatlar, "DG buradaydı", "Şotlandiya həmişəlik", "Tetçer, rədd ol".

– Biz də baş hərflərimizi yazmalıyıq, – Dekster həvəssiz şəkildə demişdi.

– Nə, "Deks və Em"-filan?

– Sonsuza qədər.

Emma şübhəylə burnunu çəkərək ən heyranedici divar rəsmini, yaşıl silinməyən mürəkkəblə çəkilmiş böyük bir penisi gözdən keçirir. – Təsəvvür elə ki, bütün bu yolu, sadəcə, bunu çəkmək üçün dırmaşmısan. Səncə, yanında qələm gətirib? – Mənzərə, təbii gözəllik, hər şey çox gözəldi, amma buranın, həqiqətən, ehtiyacı olan şey böyük bir penis və toplarıdı.

Dekster mexaniki güldü, amma bir daha içində narahatlıq hiss elədi; elə bil burada olmaları səhv idi; bir-birilərindən müstəqil olaraq ikisi də pikniyi ləğv eləyib, evə qayıdıb-qayıtmayacaqlarını bilmək istəyirdi. Ancaq hər ikisi də belə şey təklif etməyə hazır deyildi; bunun əvəzinə, zirvəyə gedən qısa yoldakı daşların təbii mebellər kimi göründüyü bir yer tapdılar, buraya oturub çantanı açdılar.

Dekster artıq isinmiş olan şampanı partlatdı, köpüklər əlinə və otların üstünə töküldü. Növbə ilə hərəsinə bir qurtum içdilər, amma ortada bir bayram ab-havası hiss olunmurdu və qısa sakitlikdən sonra Emma çarəni yenə mənzərəyə diqqət çəkməkdə tapdı. – Çox qəşəngdi.

– Hmm.

– Yağışdan əsər-əlamət yoxdu!

– Hmm?

– Müqəddəs Svitin günü, sən demişdin axı. – Müqəddəs Svitin günündə yağış yağsa...

– Qətiyyən. Yağışdan əsər-əlamət yoxdu.

Telegram: @cinciva

Hava; o hava haqqında danışırdı. Öz mənasızlığından utanaraq susdu, özünü daha düz yanaşmayla yoxlamaq istədi. – Özünü necə hiss edirsən, Deks?

– Bir az kefsiz.

– Yox, dünən gecəni nəzərdə tuturam. Yəni ikimiz.

Dekster ona baxdı və nə deməyini gözlədiyini fikirləşdi. Özünü dağın təpəsindən atmaqdan başqa xilas yolu olmadığı bir üzləşməylə qarşı-qarşıya qalmaqdan narahat olmuşdu. – Çox gözəl! Bəs sən? Sən dünən gecəylə bağlı nə hiss edirsən?

– Yaxşı. Bir az utanıram, məncə, o tərzdə danışmaqla, bilirsən, gələcək haqqında. Dünyanı dəyişdirmək-filan. Gün işığında qulağa bir az şablon gəlir. Hər halda, şablon görünməlidi, xüsusilə prinsipləri və idealları olmayan adama...

– Bura bax, mənim ideallarım var!

– İki qadınla eyni vaxtda yatmaq istəmək ideal deyil!

– Yəni demək istəyirsən ki...

Emma başını yellədi: – Bəzən, həqiqətən, alçaq adam ola bilirsən, bunu bilirdin?

– Başqa cür bacarmıram.

– Amma cəhd etməlisən. – Yerdən bir ovuc ot qoparıb yavaşca ona tərəf atdı.– Daha yaxşı adam olarsan. Hər nə isə. Məsələ burasındadı ki, elə çoxdanışan adam kimi görünmək istəməzdim.

– Elə deyildin. Maraqlıydı. Dediyim kimi, həqiqətən, yaxşı vaxt keçirdim. Heyif ki, yaxşı vaxt seçilməmişdi.

Emmaya zəhlətökən, kiçik təsəlliverici təbəssüm bağışladı, Emma təəccüblənərək burnunu çəkdi. – Necə yəni, demək istəyirsən ki, elə olmasaydı, sevgili ola bilərdik?

– Bilmirəm. Kim bilir?

Əllərini ovucları üzü yuxarı şəkildə uzatdı; Emma bir anlıq nifrətlə baxdı, sonra ah çəkib itaətkarcasına barmaqlarını onun barmaqlarına keçirtdi; qolları yorulana qədər özlərini axmaq kimi hiss edərək əlləri boş yerə bir-birinə bağlı şəkildə oturdular, sonra

Telegram: @cinciva

ikisi də əllərini çəkdilər. Deskter ən yaxşı variantın vaxt keçənə qədər özünü yalandan yuxuya vurmaq olduğunu fikirləşdi və bu fikirlə pencəyini çıxartdı, vuraraq yastıq kimi qabartdı və üzü günəşə gözlərini yumdu. Bədəni ağrıyır, alkoqol başını zoqquldadırdı; Emma danışanda yuxuya getmək üzrə olduğunu anladı.

– Bir şey deyə bilərəm? Sadəcə, fikrinin rahatlamağı üçün.

Dekster sərsəmləmiş halda gözlərini açdı.

Emma ayaqlarını sinəsinə tərəf çəkib qollarıyla qucaqlamış, çənəsini dizlərinə dayamış şəkildə otururdu.

– De.

Elə bil fikirlərini toplayırmış kimi nəfəs aldı, sonra danışdı.

– Narahat olduğumu-filan fikirləşməyini istəmirəm. Yəni dünən gecə nə oldusa, sərxoş olduğun üçün oldu...

– Emma...

– İmkan ver, fikrimi tamamlayım, olar? Amma hər nə olursa-olsun, mən, həqiqətən də, yaxşı vaxt keçirtdim. Belə şeyləri... tez-tez yaşamıram. Sənin kimi bu sahə üzrə ixtisaslaşmasam da, yenə də gözəl idi. Fikirləşirəm ki, sən istəyəndə yaxşı adam olursan, Deks. Amma bəlkə vaxt düzgün seçilməmişdi, ya da hər nə isə, ancaq sənin Çin, Hindistan, ya da hara olsa gedib özünü tapmalı olduğunu, mənim də qalıb buradakı şeylərlə xoşbəxt olub uğur qazanmalı olduğumu fikirləşirəm. Sənin lə gəlmək istəmirəm, həftədə bir dəfə məktub almaq istəmirəm, hətta telefon nömrəni belə istəmirəm. Sənə ərə gəlib uşaqlarını da doğmaq istəmirəm. Nə isə bir şey yaşadıq, həqiqətən gözəldi, vəssalam. Bunu həmişə xatırlayacam. Gələcəkdə bir gün bir ziyafətdə, ya da başqa bir yerdə qarşılaşsaq, o da pis olmaz. Sadəcə, dost kimi söhbət edərik. Əllərin üstümdə gəzişdiyi üçün utanmağına ehtiyac yoxdu; kobudluq da olmaz, necə deyərlər, bu mövzuda "məsafəli" olarıq, yaxşı? Sən və mən. Sadəcə... dostuq. Razılaşdıq?

– Oldu. Razılaşdıq.

Telegram: @cinciva

– Yaxşı, onda bu qədər. İndi... – Arxa çantasına boylanıb əlini içinə saldı və batareyalı Pentaks SLR çıxartdı.

– Nə edirsən?

– Nəyə oxşayır? Şəkil çəkirəm. Səni xatırladacaq bir şey.

– Dəhşətli görünürəm, – saçlarını düzəldərək dedi.

– Mənə nağıl danışma, bunu sevirsən...

Dekster siqaret yandırdı. – Nə üçün şəkil çəkmək istəyirsən?

– Sən məşhur olacaqsan axı. – Kameranı qaya parçasının üzərinə yerləşdirdi, vaxtı tənzimləyir. – İstəyirəm ki, uşaqlarıma: "Baxın, bu kişi qələbəlik bir otaqda əlini ananızın yubkasının altına soxmuşdu", – deyim.

– Sən başladın!

– Yox, sən başladın, dostum! – Saatı tənzimlədi, Dekster siqaretini əvvəl ağzının bir tərəfinə, sonra o biri tərəfinə qoyarkən barmaqlarıyla saçlarını düzəltdi. – Oldu, otuz saniyə var.

Dekster pozasını dəyişdi. – Nə deyirik? "Çiiiz"?

– Yox, "bir gecəlik münasibət" deyək!" Kameranın düyməsinə basdı, kamera vızıldamağa başladı. – Ya da "qarmaqarışıq"! Qayanın üzərinə dırmaşdı.

– Ya da "gecə keçən oğrular".

– Oğrular gecə keçməz, gəmilər keçər.

– Oğrular nə edir?

– Oğrular səfehdir.

– "Çiiiz" deməyin nə qorxusu var?

– Gəl heç nə deməyək. Sadəcə, gülümsə, təbii görün. Gənc və yüksək ideallı, ümid dolu görün. Hazırsan?

– Hazıram.

– Yaxşı, onda gülümsə...

Telegram: @cinciva

XXIII Fəsil

Üçüncü ildönümü
Sonuncu yay

15 iyul 2007, Bazar

Edinburq

– Zınq-zınq. Zınq-zınq.

Qızının şəhadət barmağıyla qapının zənginə basar kimi burnuna basmağına oyanır.

– Zınq-zınq. Zınq-zınq. Qapıdakı kimdi? Jasmin!!!

– Neynirsən, Jas?

– Səni oyandırıram. Zınq-zınq. – İndi baş barmağı gözündədi, göz qapağını qaldırır. – Oyan da, tənbəl!

– Saat neçədi?

– Gün günorta olub!

Otel çarpayısında yanında uzanan Meddi saata baxır. – Altının yarısı, – deyə inildəyir, Jasmin isə bədxahlıqla gülür. Dekster gözlərini açır, yanındakı yastıqda Meddinin üzünü, bir neçə santimetr məsafədə burnunu görür. – Sənin oxumlu kitabın, ya da gəlinciyin-filan yoxdu?

– Yox.

– Get, şəkil-zad çək də, yaxşı?

Telegram: @cinciva

– Mən acam. Otağa yemək sifariş verəmmərik? Üzgüçülük hovuzu neçədə açılır?

Edinburq oteli palıd lambirləri, farfor vannaları olan rahat, böyük, ənənəvi və qəşəng yerdir. Məzun olduğu vaxt bir dəfə valideynlərilə burada qalmışdılar; bir az köhnə dəbli, bir qədər də bahalı yerdi, amma: *"Bu işi edəcəksənsə, qayda-qanuna uyğun olmalıdı"*, – deyə fikirləşmişdi. Onlar – Dekster, Meddi, Jasmin avtomobil icarələyib, Lomond gölü yaxınlığındakı tətil kottecinə getməmişdən əvvəl iki gecə oteldə qalacaqdılar. Qlazqo, əlbəttə ki, daha yaxındı, amma Dekster bir həftə sonu Edinburq rok festivalından təqdim etdiyi teleşoudan bəri on beş ildi ki, Edinburqda olmamışdı. Bütün bunlar uzun, çox uzun zaman əvvəl başqa həyatda olmuşdu sanki. Bu gün qızını şəhərdə gəzdirmək kimi bir atalıq vəzifəsi var. Meddi bundan xəbərdar olduğu üçün onları tək qoymaq qərarına gəlir.

– Sənincün problem olmaz ki? – Dekster hamamdan soruşur.

– Əlbəttə ki, yox. Mən də qalereyaya gedib sərgiyə baxacağam.

– Sadəcə, ona bəzi yerləri göstərmək istəyirəm. Xatirələrə səfər. Sənin də buna görə əziyyət çəkməyini istəmirəm.

– Dediyim kimi, həqiqətən, problem deyil.

Dekster ona diqqətlə baxır. – Yaxşı, bəs mənim başdanxarab olduğumu fikirləşmirsən ki?

O, xəfifcə gülümsəyir: – Yox, başdanxarab olduğunu fikirləşmirəm.

– Fikirləşmirsən ki, bu adam iyrənc, ya da qəribədi?

– Yox, qətiyyən. – İncisə də, bunu zərrəcə hiss etdirmir. Dekster yavaşca boynundan öpür. – Ürəyin nə istəyirsə, onu da elə, – Meddi deyir.

Haçansa desəydilər ki, qırx gün dayanmadan yağış yağacaq, kimsə inanmazdı, ancaq bu il yox da. Artıq neçə həftədi ki, bütün

Telegram: @cinciva

ölkədə yağış durmadan yağır; böyük şəhərlər suyun altında qalır, indiyəcən belə yay olmayıb, buna beşinci fəsil belə demək olar. Mussonlar mövsümüdü.

Küçəyə çıxırlar, ancaq hava hələ açıqdı, buludlar yüksəkdədi, ən azı, hələlik yağış yoxdu. Meddiylə günorta yeməyi üçün plan qurub, hərə öz yoluna gedir.

Otel Köhnə şəhərdədi, Royal Mayldan bayırda. Dekster Jasmini ənənəvi tarixi marşrutla dar cığırlardan, gizli nərdivanlardan keçirərək gəzintiyə aparır və bir də görürlər ki, artıq şəhər mərkəzindən cənuba gedən Nikolson küçəsindədilər. Bu küçəni avtobus tüstüsüylə örtülü, hərəkətli və dumanlı yer olaraq xatırlayır, amma bazar günü səhəri üçün küçə olduqca sakit və bir az kədərli görünür; Jasmin yavaş-yavaş yorulmağa və darıxmağa başlayır. Dekster ovcunun içində Jasminin əlinin get-gedə ağırlaşmağa başladığını hiss edərək gəzməyə davam edir. Emmanın məktublarının birinin üzərində köhnə bir ünvan tapmışdı, bir az gedəndən sonra bir lövhə görür – Renkeylor küçəsi. Onlar sakit yaşayış yoluna çevrilirlər.

– Haraya gedirik?

– Bir evi axtarıram. On yeddi saylı. – İndi binadan çöldədilər. Dekster diqqətlə üçüncü mərtəbənin pəncərələrinə baxır; pərdələr çəkili, boş və adi evdi.

– Oradakı mənzili görürsən? Ora birlikdə universitetdə oxuduğumuz vaxtlarda Emmanın qaldığı yerdi. Əslində, bir növ, bizim tanış olduğumuz yer. – Jasmin itaətkarlıqla yuxarı baxır, amma eyvanlı sıradan evi o birilərindən fərqləndirmək üçün heç bir xüsusi əlamət yoxdu; Dekster bu ekspedisiyanın hikmətindən şübhələnməyə başlayır. Bu, həssas və xəstəlik kimi bir şeydi; nə tapacağını gözləyirdi ki? Burada yada salacağı heç nə yoxdu və nostaljidən əldə edilən həzz kiçik, həm də faydasızdı. Bir anlıq gəzintini yarıda saxlamağı, Meddiyə zəng edib görüşü daha tezləş-

Telegram: @cinciva

dirməyi fikirləşir; amma Jasminə küçənin axırında aşağıdakı binalara uyğun gəlməyərək yüksələn qranit qayalığı göstərir.

– Bu, nədi?

– Solsberi qayalıqlarıdı. Arturun taxtına çıxır.

– Yuxarıda adamlar var!

– Oraya qalxa bilərsən. Çətin deyil. Nə fikirləşirsən? Cəhd edək? Səncə, bacararsan?

Holirud parkına çatırlar. Yeddi yaş yarımlıq qızı dağ yoluna atasından daha enerjili dırmaşır, sadəcə, aradabir geriyə çevrilib, aşağıda xırıldayan və tər içində qalan atasına gülmək üçün dayanır.

– Ayaqqabılarım sürüşür, – Deskter geridə qalmasını əsaslandırmağa çalışır. Əsas yolu qoyub qayaların üzərindən dırmaşmağa davam edirlər; nəhayət, Artur taxtının təpəsindəki pas rəngli düzənliyə çatırlar. Ən yüksək nöqtəni göstərən daş sütunu tapırlar və Dekster öz adının baş hərflərini tapmağa az da olsa ümid edərək qaralamaları gözdən keçirir: "Faşizmə Qarşı Mübarizə", "Aleks M 5/5/07", "Həmişəlik Fiona".

Jasmin nalayiq yazıları görməsin deyə onu qucağına alır və sütunun üzərində oturur, bir əliylə belini qucaqlayır; Jasmin ayaqlarını yelləyərkən mənzərəni göstərir. – Ora otelin yanındakı qəsrdi. Orada stansiya var. Ora Fert of Klayddı, Şimal dənizinə tərəf uzanır. Norveç, haradasa, yuxarıdadı. Lis və bu da Yeni şəhərdi; mənim əvvəllər yaşadığım yer. Bundan iyirmi il əvvəl, Jas. Keçən əsr. Orada qülləsi olan yersə Kelton təpəsidi. İstəsən, günortadan sonra oraya da qalxa bilərik.

– Çox yorulmayıbsan? – Jasmin halına acıyaraq atasına baxır.

– Mən? Zarafat edirsən? Mən anadangəlmə atletəm.

Jasmin sinəsini yumruqlayıb atasını yamsılayaraq hırıldayır.

Telegram: @cinciva

– Ay səni, dəcəl! – Qızını sütundan qaldırır, əllərini qoltuqaltılarından keçirib dağın ətəyindən onu atacaqmış kimi yelləyir; çığırtılar, gülüşmələr...

Təpədən bir az uzaqlaşıb yaxınlıqda şəhərə təpədən baxan təbii boşluq tapırlar. Jasmin yanında oturub sirkəli-duzlu çipslərini böyük diqqətlə yeyib, meyvə suyunu içərkən Dekster əllərini başının altına qoyub uzanır. Üzünə düşən günəş istidi, amma erkən başlayan gün təsirini göstərir və yuxunun damarlarında dolaşmağa başladığını hiss edir.

– Emma da bura gəlmişdi? – deyə Jasmin soruşur.

Dekster gözlərini açır və dirsəklənib qalxır.

– Gəlmişdi. Bir yerdə gəlmişdik. Evdə ikimizin bir şəkli var. Sənə göstərərəm. Atan arıq olan vaxtlarda.

Jasmin yanaqlarını şişirərək ona baxır, sonra barmaqlarında qalan duzu yalamağa başlayır. – Onun üçün darıxırsan?

– Kimçün? Emma üçün? Əlbəttə. Hər gün. O, mənim ən yaxşı dostum idi. – Jasmini dirsəyiylə yavaşca itələyir. – Niyə, sən darıxırsan?

Jasmin yada salır kimi qaşqabaqla baxır. – Deyəsən, hə. Onda cəmi dörd yaşındaydım, onu yaxşı xatırlamıram, ancaq şəkillərə baxanda. Toyu xatırlayıram. Çox qəşəng olmuşdu, elə deyil?

– Çox qəşəng.

– Bəs indi ən yaxşı dostun kimdi?

Əlini qızının boynuna qoyur, baş barmağını boynunun boşluğuna yerləşdirir. – Əlbəttə ki, sən. Bəs sənin ən yaxşı dostun kimdi?

Ciddi-ciddi fikirləşərkən alnı qırışır: – Fikirləşirəm ki, böyük ehtimalla Fobedi, – deyir, sonra boş meyvə suyu qutusunun çubuğunu sümürür; qəribə qurultu çıxır.

– Adamları qorxudarsan, qaçarlar a, bilirsən? – Dekster dodaqlarının arasındakı çöpü sıxıb gülərək deyir. – Buraya gəl, – de-

Telegram: @cinciva

yə mızıldanır, əl atıb Jasmini geriyə dartır; başı atasının çiynində, dirsəklənib uzanır. Bir anlıq sakit dayanır, Dekster gözlərini yenidən yumur və günorta günəşinin istiliyini hiss edir.

– Gözəl gündü, – mızıldanır. – Bu gün yağış yoxdu. Hələ ki yoxdu. – Yuxu yenidən damarlarında gəzişməyə başlayır. Mürgüləyərkən Jasminin saçlarındakı otel şampununu iyləyir, nəfəsini boynunda hiss edir; asta və rəvan. Duz və sirkə...

Jasminin sümüklü dirsəkləri sinəsinə batanacan bir-iki dəqiqəlik çimir alır.

– Ata. Mən darıxdım. Gedək də...

Emmayla Dekster günün qalan hissəsini o təpədə gülüb danışaraq, özlərini bir-birinə daha yaxından tanıdaraq keçirtdilər: Valideynlərinin iş-peşəsini, neçə bacı-qardaş olduqlarını, ən sevdikləri lətifələri danışdılar. Günorta vaxtı elə bil qarşılıqlı razılaşma ilə məsum halda yan-yana uzanaraq yatdılar; Dekster saat beşdə diksinib oyandı, birlikdə boş butulkaları və pikniyin zir-zibilini topladılar; azca içkili halda təpədən enərək şəhərə, evə tərəf getməyə başladılar.

Onlar parkın çıxışına yaxınlaşanda Emma tezliklə sağollaşmalı olacaqlarını anladı; onların bir-birilərini bir də heç vaxt görməmək ehtimalı vardı. "*Bəlkə ziyafətlərdə qarşılaşdıq*", – Emma fikirləşdi, amma ayrı-ayrı qruplardandılar, üstəlik də qısa müddət sonra Dekster səyahətə çıxmış olacaqdı. Hətta birbirilərini görmək imkanları olsa belə, bu görüşlər qısa müddətli, formal olacaq və Dekster tezliklə o kiçik, kirayəlik otaqda səhərin ala-torınında baş vermiş hər şeyi unutmuş olacaqdı. Onlar təpədən səndələyərək aşağı enərkən Emma bir peşmanlıq hiss etməyə başladı və onun belə tez getməyini istəmədiyini anladı. İkinci bir gecə. O, ən azından, daha bir gecə istəyirdi; beləliklə, onlar başladıqları işi qurtara bilərdilər. Emma bunu necə deyə bilərdi? Deyə

Telegram: @cinciva

bilməzdi, əlbəttə ki. Həmişəki kimi ağciyər davrandığından bunun üçün də çox gecikmişdi. *"Gələcəkdə daha cəsarətli olacağam,* – öz-özünə dedi, – *gələcəkdə ağlıma nə gəlsə, coşqun və cəsarətli tərzdə deyəcəyəm"*. Artıq parkın qapısına çatmışdılar, ehtimal ki, sağollaşmalı olduqları yerə.

Çınqıllı yolu təpiklədi və saçlarını qarışdırdı. – Yaxşı, məncə, mən daha yaxşı...

Dekster əlini tutdu: – Qulaq as. Niyə içki içməyə gəlmirsən?

Bunun xoşuna gəldiyini göstərməməyə çalışdı: – Nə, indi?

– Ən azından, mənimlə geri qayıt...

– Valideynlərin gəlməyəcəklər?

– Axşama qədər gəlməzlər. Saat hələ indi beşin yarısıdı.

O, baş barmağıyla Emmanın şəhadət barmağının oynağını ovuşdururdu. Emma özünü elə apardı ki, güya fikirləşir. – Onda gedək, – deyib, laqeydliklə çiynini çəkdi; yola düzəldilər.

Şimal Körpüsündəki dəmir yolunu keçib Corcian Nyu Taunu keçəndə Deksterin beynində bir plan formalaşmışdı. Altıda evdə olacaqdı, evə qayıdanda dərhal valideynlərinin otelinə zəng edib, yeddinin yarısı onun mənzilində görüşmək yerinə, səkkizdə restoranda görüşməklərini təşkil edəcəkdi. Bu, ona, təxminən, iki saata yaxın vaxt qazandırardı. Kellum sevgilisiylə olacaqdı, iki saat ərzində ev onlara qalacaqdı və onu yenidən öpə biləcəkdi. Yüksək tavanlı, ağ divarlarla əhatə olunmuş otaqlarda çamadanları, bir az mebelləri, yataq otağında çarpayı və köhnə şezlonqdan başqa heç nə yoxdu. Bir neçə mebel örtüyüylə rus oyununun yığımına bənzəyirdi. Emmanın haqqında buna can atdığını biləcək qədər çox şey bilirdi və onu hər vaxt öpə bilərdi, ayıq olarkən belə. Gələcəkdə aralarında nə baş verirsə-versin, hər nə qədər əzablı olacağı indidən aydın olsa da, indi onu öpməyi çox istədiyini bilirdi. Gəzinti daha on beş dəqiqə sürdü. Bir də özünün təngnəfəs olduğunu gördü. Taksi tutmalıydılar.

Telegram: @cinciva

Bəlkə Emmanın da fikrindən eyni şeylər keçirdi, çünki Dundas küçəsinə endiklərində ikisi də çox becid yeriyirdilər; hərdən dirsəkləri bir-birinə dəyirdi, Fertin uzaqda dumanlı bir görünüşü vardı. Bu neçə il sonra hələ də Gürcü evlərinin eyvanları arasındakı dəmir göy çayın görünüşündən həzz ala bilirdi. – Buralarda yaşadığını təxmin etməliydim,– Emma bəyənməyən şəkildə, amma qibtəylə dedi; danışarkən nəfəsinin kəsildiyini anladı. Emma onun yaxşı təmirli mənzilinə gedirdi; onlar o işi etməyə gedirdilər və bu gözlənti qarşısında üzünün qızardığını anlayanda utandı. Səmərəsiz bir təmizləmə cəhdiylə dilini dişlərinin üzərində gəzdirdi. Dişlərini fırçalamağa ehtiyac vardı? Şampan həmişə onun nəfəsində qoxu yaradırdı. Dayanıb saqqız almalıydılar? Ya da prezervativ; Deksterin prezervativi vardımı? Əlbəttə ki, olmalıydı; bu, "ayaqqabısı varmı", – deyə soruşmağa bənzəyərdi. Amma dişlərini fırçalamalı, yoxsa qapı bağlanan kimi özünü onun qoynuna atmalıydı? Hansı alt paltarını geyindiyini yada salmağa çalışdı, sonra yadına düşdü; dağa qalxmaq üçün xüsusi tumanını geyinmişdi. Həyəcanlanmaq üçün çox gec idi; onlar artıq Fettes Rouya dönmüşdülər.

– Buradan o qədər də uzaq deyil, – Dekster gülümsədi, Emma da bir az sonra baş verəcəklərə hazırlanırmış kimi Deksterin əlini tutaraq gülümsədi. Artıq, demək olar ki, qaçırdılar. Dekster otuz beş nömrəli evdə yaşadığını demişdi, indi Emma bir də baxdı ki, ürəyində geriyə doğru sayır. Yetmiş beş, yetmiş üç, yetmiş bir. Yaxındadı. Nəfəsi daralır, özünü pis hiss edirdi. Qırx yeddi, qırx beş, qırx üç. Yan tərəfində ağrı vardı, barmağının ucları arabir sancırdı; indi Dekster onun əlindən tutub dartır, küçədən aşağı tərəf qaçarkən ikisi də gülürdü. Bir avtomobil siqnal verdi. *Özünü eşitməməzliyə vur, yoluna davam elə, nə olursa-olsun, dayanma.*

Bu vaxt bir qadın səsi gəldi: "Dekster! Dekster!" O anda bütün ümidləri havaya uçdu. Özünü divara çırpılmış kimi hiss etdi.

Telegram: @cinciva

Deksterin atasının "Yaquar"ı otuz beş nömrəli mənzilin qarşısında dayanmışdı və anası avtomobildən çıxaraq küçənin o biri tərəfində ona əl eləyirdi. Valideynlərini görəndə bu qədər az sevinəcəyini heç vaxt təsəvvür etməmişdi.

– Demək, buradasan! Biz də səni gözləyirdik!

Emma Deksterin onun əlini, demək olar ki, tullayıb atdığını və qaçaraq küçəni keçib anasını qucaqladığını gördü. Sonra qəribə qıcıqlanma hiss edərək xanım Meyhyunun nə qədər gözəl olduğuna və dəbə uyğun qəşəng geyindiyinə, atasının hündür, anasına nisbətən daha səliqəsiz geyinmiş və gözlədildiyi üçün narahat olduğunu sezdi. Anası oğlunun çiyninin üzərindən baxarkən Emmayla gözgözə gəldilər; qadın hər şeyi anlayan, mərhəmətli, təsəlliverici təbəssümlə baxırdı. Bu, macəraçı oğlunu ev qulluqçusuyla öpüşərkən görən bir hersoginya baxışıydı.

Ondan sonra hadisələr Deksterin istəmədiyi şəkildə sürətlə baş verdi. Yalançı telefon zəngini xatırlayaraq onları mümkün olduğu qədər tez evə salmağı bacarmasa, yalanının üzə çıxacağını başa düşmüşdü, amma atasının fikri avtomobili saxladığı yerdə qalmışdı, anası bütün gün harada olduğunu, niyə zəng vurmadığını bilmək istəyirdi, Emma isə ədəbli ev qulluqçusu kimi bir az kənarda dayanıb, orada artıqlıq etdiyini fikirləşərək evə qayıda biləcəyi vaxtı gözləyirdi.

– Məncə, biz altıda burada olacağımızı sənə demişdik...

– Əslində, yeddinin yarısı.

– Telefonunda bu səhər ismarıc saxlamışdım...

– Ana, ata, bu, dostum Emmadı!

– Burada saxlaya biləcəyimə əminsən? – atası dedi.

– Tanış olmağımıza şad oldum, Emma, – Elison dedi. Yanmısınız. Siz bütün günü haralardaydınız?

– ...Mən bir dayanacaq bileti tapa bilsəm, Dekster...

Telegram: @cinciva

Dekster gözləriylə üzr istəyərək Emmaya tərəf çevrildi. – Yaxşı, bir şey içmək üçün içəri gəlməyəcəksən?

– Ya da nahara? – Elison dedi. – Niyə nahar etmək üçün bizə qoşulmursan?

Emma Deksterə nəzər yetirdi; bu fikirlə şoka düşmüş kimi baxırdı. Yoxsa ona cəsarət verirdi? Hər vəziyyətdə də yox deməliydi. Bu adamlar kifayət qədər nəzakətli görünürdülər, amma onun istədiyi belə ailə içinə dəvətsiz qonaq kimi girmək deyildi. Yəqin ki, qəşəng yerə gedəcəkdilər və Emma onların yanında odunçuya bənzəyirdi; üstəlik, həqiqətən, nə ehtiyac vardı? Orada oturub, gözünü Deksterə zilləyərək onların suallarına cavab verməliydi: *Valideynlərin nə işlə məşğul olur? Hansı məktəbə getdin?* Bu ailənin qaba özündənrazılığı, bir-birilərinə qarşı təmtəraqlı bağlılığı, pulu, stili və nəzakətləri qarşısında özünü indidən alçalmış hiss edə bilirdi. Sərxoş olmağı işləri daha da korlaya bilər və şansı ona heç bir kömək etməzdi. Ən yaxşısı imtina etməkdi. Gülümsəməyə çalışdı. – Yaxşısı, mən geri qayıdım.

– Doğrudan? – Dekster qaşqabağını tökərək dedi.

– Hə, işlərim var. Sən get. Bəlkə görüşdük.

– Ah. Yaxşı, – Dekster dedi; məyus olmuşdu. Gəlmək istəsəydi, gələ bilərdi, amma *"Bəlkə görüşərik"* nə deməkdi? Bəlkə Deksteri heç vecinə də almırdı. Sakitlik çökdü. Atası yenidən dayanacağın vaxt sayğacına baxmağa getdi.

Emma əlini qaldırdı: – Onda hələlik.

– Görüşərik.

Emma Elisona tərəf çevrildi: – Tanış olmağımıza sevindim.

– Mən də, Emiliya.

– Emma.

– Əlbəttə. Emma. Sağ ol, Emma.

– Və... – Deksterə tərəf çevrilib çiynini çəkdi. – Yaxşı, xoşbəxt həyat arzulayıram sənə.

Telegram: @cinciva

– Mən də. Uğurlar.

O çevrilib getməyə başladı. Meyhyu ailəsi arxasınca baxdı.

– Dekster, üzr istəyirəm... biz mane olmadıq ki?

– Yox. Problem deyil. Emma, sadəcə, dostumdu.

Elison Meyhyu öz-özünə gülümsəyərək yaraşıqlı oğluna diqqətlə baxdı, sonra əllərini uzadıb kostyumunun yaxasını düzəltdi.

– Dekster, bunları dünən geyinməmişdin?

Beləliklə, Emma Morli ümidsizliyin izlərini arxasında buraxaraq axşam işığında evinə qayıtmaq üçün yola düzəldi. Hava soyumağa başlamışdı, onurğa sütunundan aşağı tərəf enən gözlənilməz narahatlıq dalğasıyla titrədi – bu hiss o qədər şiddətliydi ki, bir anlıq dayanmaq məcburiyyətində qaldı. *"Gələcək qorxusu"*, – deyə fikirləşdi. Bir də gördü ki, Corc küçəsiylə Hanover küçəsinin kəsişməsində işdən çıxıb evə gedən, ya da dostları və ya sevgililəriylə görüşmək üçün tələsən, hamısı bir məqsəd və istiqamət sahibi olan insanların arasındadı. Orada özü iyirmi iki yaşında, bir daha məğlub olmuş halda eniş aşağı yeriyərək çirkli mənzilə qayıdırdı.

– Gələcəkdə nə işlə məşğul olacaqsan? – Görünüşə görə insanlar bu sualı bu və ya başqa şəkildə həmişə ondan soruşmuşdular; müəllimləri, ailəsi, səhər saat üçdə dostları; amma bu sual heç vaxt onu belə sıxmamışdı və hələ də heç bir cavaba yaxınlaşmamışdı. Gələcək qarşısında hər biri əvvəlkindən daha naməlum və qorxulu boş günlərin uğuru olaraq yüksəlirdi. Bu günləri necə doldura bilərdi?

Yenidən cənuba – Maunda[1] tərəf yeriməyə başladı. "Hər günü son gününmüş kimi yaşa". Bu, çox məşhur məsəldi, amma həqi-

[1] Edinburq şəhərinin mərkəzində Köhnə şəhər və Yeni şəhəri birləşdirən süni qum təpəsidir.

Telegram: @cinciva

qətdə kimin bu qədər enerjisi vardı? Bəs əgər yağış yağsa, ya da özünü pis hiss etsən? Bu, praktik bir şey deyildi. Ən yaxşısı, sadəcə, cəhd etmək, yaxşı, cəsur və cürətli olmaq və fərq yaratmaq. Dünyanı tamamilə dəyişdirmək deyil, ancaq bir az öz ətrafını dəyişdirmək. Qızğın və elektrikli yazı makinanla ortaya çıxmaq və gərgin işləmək... məsələn. Bəlkə incəsənət vasitəsilə həyatları dəyişdirmək. Dostlarına dəyər vermək, prinsiplərinə sadiq qalmaq, coşquyla və yaxşı, dolu-dolu yaşamaq. Yeni şeyləri sınaqdan keçirmək. Əgər imkan varsa, sevmək və sevilmək.

Çox yaxşı başlanğıc etməmiş olsa da, ümumi nəzəriyyə bu idi. Həqiqətən xoşladığı adama, həqiqətən önəm verdiyi birinci oğlana çiyin çəkməkdən bir az daha çox şeylə hələlik demişdi və indi o, böyük ehtimalla onu yenidən bir də heç vaxt görməyəcəyi gümanını qəbul etmək məcburiyyətindəydi. Heç bir telefon nömrəsi, heç bir ünvan yox idi; həm də hətta olsa da, nə mənası vardı? Dekster də ondan telefon nömrəsini soruşmamışdı və o, arzuedilməz mesajlar qoyan quşbeyin qızlardan olmadığı üçün özüylə həddindən artıq fəxr edirdi. O oğlana son sözləri *"Xoşbəxt həyat arzulayıram"* olmuşdu. Deyə biləcəyi ən yaxşı şey, həqiqətən də, bu idimi?

Emma yoluna davam etdi. Qala yenicə görünməyə başlamışdı ki, arxadan gələn ayaq səslərini eşitdi; bunlar səkiyə dəyən qəşəng ayaqqabıların çıxardığı səslərdi və hətta adını eşitməmişdən əvvəl gülümsəyərək çevrildi, çünki gələnin kim olduğunu bilirdi.

– Elə bildim ki, səni bir də görməyəcəm! – qaçmağını dayandırıb yeriyərək dedi; üzü qızarmış, təngnəfəs olmuşdu. Yenidən özünü laqeyd göstərməyə çalışdı.

– Yox, buradayam.

– Olanlara görə üzr istəyirəm.

– Yox, narahat olma, həqiqətən, hər şey yaxşıdı.

Telegram: @cinciva

Dekster əllərini dizlərinə qoyub, dayanaraq nəfəs dərməyə çalışdı. – Valideynlərimin bu qədər tez gələcəklərini gözləmirdim, qəflətən göründülər, sonra həyəcanlandım, qəfildən anladım ki... qəfildən anladım ki, sənə çata bilməkçün heç bir yolum yoxdu.

– Ah. Yaxşı.

– Yaxşı, bura bax. Qələmim yoxdu. Sənin var? Səndə olar.

Emma arxa çantasının içindəki piknik qablarının arasını axtarmağa başladı. *Bir qələm tap, lütfən, bir qələm tap, qələm tapmalısan...*

– Ura! Qələm!

"Ura? Sən "ura" qışqırdın? Ay səni, axmaq. Sakit ol. Büruzə vermə".

Portmanatından kağız parçası çıxartdı, bir market qəbziydi; Deksterə verdi, valideynlərinin Lidsdəki nömrəsini və ünvanını, sonra da xüsusi vurğuyla özünün Edinburqdakı düzgün poçt indeksinin üzərindəki ünvanını yazdırdı; Dekster özünkülərini də yazdı.

– Bu, mənimdi. – Qiymətli kağız parçasını uzatdı. – Mənə zəng vur, ya da mən sənə, amma ikimizdən biri zəng edəcək, yaxşı? Demək istəyirəm ki, bu, yarış deyil. Əvvəl zəng eləyən udu-zub-eləmir.

– Başa düşürəm.

– Mən avqusta qədər Fransada olacağam, amma sonra qayıdacağam, fikirləşdim ki, bəlkə sən də gəlib qalmaq istəyərsən?

– Səninlə?

– Həmişəlik yox, əlbəttə ki. Bir həftə sonu. Mənimlə. Ailəmlə birlikdə nəzərdə tuturam. Əgər, əlbəttə, sən istəsən.

– Ah. Yaxşı. Hə. Yaxşı. Hə. Hə. Yaxşı. Hə.

– Yaxşı. Mən qayıtmalıyam. İçmək üçün gəlməyəcəyinə əminsən? Ya da nahara?

– Çətin, – Emma dedi.

Telegram: @cinciva

– Hə, məncə də. – Dekster yüngülləşən təhər göründü və Emma bir daha özünü adam yerinə qoyulmurmuş kimi hiss etdi. "Niyə də olmasın?" – fikirləşdi. Yoxsa ondan utanırdı?

– Ah. Yaxşı. Bəs nəyə görə?

– Çünki əgər sən gəlsən, bir az dəli ola bilərəm. Hirsimdən, demək istəyirəm. Sən orada oturacaqsan, mənsə ürəyimdən keçəni eləyə bilməyəcəm.

– Niyə? Ürəyindən nə keçir ki? – Emma cavabı bildiyi halda soruşdu. Dekster əlini yavaşca Emmanın boynunun arxasına keçirtdi, Emma da eyni vaxtda bir əlini yavaş-yavaş onun belinə qoydu; yan-yörə yay günəşi altında evə tələsən adamlarla doluykən, küçənin ortasında öpüşdülər; bu, onların hər ikisinin də daddığı ən şirin öpüş idi.

Hər şey o anda orada başlamışdı. Hər şey o gün burada başladı.

Və sonra bitdi. – Yaxşı, görüşərik, – Dekster yavaş-yavaş geri çəkilib uzaqlaşarkən dedi.

– Mən də elə fikirləşirəm, – Emma gülümsədi.

– Mən də. Hələlik, Em.

– Hələlik, Deks.

– Gülə-gülə.

– Hələlik. Sağ ol.

Telegram: @cinciva

MÜNDƏRİCAT

BİRİNCİ HİSSƏ. 1988-1992 9
I fəsil. Gələcək 11
II fəsil. Həyata qayıdış 27
III fəsil. Tac-Mahal 50
IV fəsil. İmkanlar 68
V fəsil. Süzləşmə qaydaları 92

İKİNCİ HİSSƏ. 1993-1995 127
VI Fəsil. Həblər 129
VII Fəsil. Yumor hissi 164
VIII Fəsil. Şou Biznes 184
IX Fəsil. Nikotin və alkoqol 215

ÜÇÜNCÜ HİSSƏ. 1996-2001 251
X fəsil. Məqamı yaxala 253
XI fəsil. İki görüş 277
XII Fəsil. "Səni sevirəm" demək 292
XIII Fəsil. Üçüncü dalğa 310
XIV fəsil. Atalıq 349
XV fəsil. Cin Siberq 381

DÖRDÜNCÜ HİSSƏ. 2002-2005 409
XIV Fəsil. Bazar ertəsinin səhəri 411
XVII fəsil. toy_nitqi.doc 424
XVII Fəsil. Orta 432

BEŞİNCİ HİSSƏ. Üç ildönümü 449
XIX Fəsil. Sabahı gün 451
XX Fəsil. Birinci ildönümü. Bayram 457
XXI Fəsil. Arturun taxtı 474
XXII Fəsil. İkinci ildönümü. Əşyalar 479
XXIII Fəsil. Üçüncü ildönümü. Sonuncu yay 490

Telegram: @cinciva



David Nicholls

30 noyabr 1966-cı il,
İngiltərə

İngilis yazıçısı, aktyor və ssenarist. Üç roman müəllifidir: "Starter for 10", "The Understudy" (Dublyor), "One day" (Bir gün); üçü də belletristika janrında yazılıb.

2010-cu ilin iyul ayında istehsal olunan "Bir gün"ün film versiyasının rejissoru Lon Şerfiq (Lone Scherfig) olub. Baş rollarda Enn Hatvey (Anne Hathaway) və Cim Storqes (Jim Sturgess) çəkilib.

Devid indilər Çarlz Dikkensin "Böyük ümidlər" ("Great Expectations") əsərinin film versiyası üzərində işləməklə bərabər, öz dördüncü romanını yazır.
İki uşağı və həyat yoldaşı Hannayla birlikdə Şimali Londonda yaşayır.

Telegram: @cinciva

Arf-276268

Roman universitet tələbələrinin
Məzun gecəsində – 15 iyul 1988-ci ildə
Müqəddəs Svitin günündə təsadüfən tanış olan
iki gəncdən – Emma ilə Deksterdən bəhs edir.
Yarımçıq qalmış bir gecənin sabahı ayrılırlar.
Hərə öz yetkin ömrünü qurmaq yoluna qədəm qoyur.
Və bundan sonra müəllif iyirmi il ərzində iki adamın
Bir Gününü, həm də məhz iyulun 15-də, Müqəddəs gündə
anlatmaqla romanı davam etdirir; yazıçı üçün
iki insan həyatını bir günün dar yuvasına sığdırmaqla
təsvir etməsi son dərəcə çətin görünən vəziyyət olsa da,
bu, oxucu üçün misilsiz həzz qaynağına çevrilir.

Bir Gün

ISBN 978-9952-26-262-9

Telegram: @cinciva

Qiyməti: 7 AZN

QN QANUN NƏŞRİYYATI